# Tofiq Mahmud





I

84(5Azə)-5
M 15

**Tofiq Mahmud**

# Seçilmiş əsərləri
# üç cilddə

•

# Birinci cild

•

MƏCBURİ NÜSXƏ
№ ____

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 69655

Redaktor: Rafiq Yusifoğlu

Tərtib edən: Yadigar Əsgərova

Bədii tərtibat: Ceyhun Qaraqaşov

Bütün həyatını, ömrünü uşaq ədəbiyyatına, mətbuatın inkişafına, balalarımızın, gənclərimizin təlim-tərbiyəsinə, onların dünyagörüşünün formalaşmasına həsr edən, "Göyərçin" jurnalının sabiq baş redaktoru Tofiq Mahmudun "Seçilmiş əsərləri"nin araya-ərsəyə gəlməsində, onun nəşrində əməyi olan insanlara, xüsusən Azərbaycan Respublikasının Gənclər və İdman Naziri cənab Azad Rəhimova öz dərin təşəkkürümüzü bildiririk.

*Tofiq Mahmudun ailəsi*

Tanınmış şair, nasir, publisist, Respublika Komsomolu mükafatı laureatı Tofiq Mahmud özündən sonra zəngin ədəbi irs qoyub getmişdir. Bu istedadlı qələm sahibinin üç cildlik "Seçilmiş əsərləri"nə onun ən yaxşı şeirləri, poemaları, nağıl, hekayə və povestləri daxil edilmişdir.



# TOFİQ MAHMUDUN SƏNƏT DÜNYASI

İşıqlı şair, nasir, publisist, tərcüməçi, naşir, xeyirxah insan Tofiq Mahmudun əsərlərinin üç cildliyi qarşımdadır. Bu üç cildliyə ön söz yazmağın məsuliyyəti altındayam. Ayrı-ayrı illərdə bu gözəl insanın nəşr olunan kitablarını, haqqında yazılan məqalələri vərəqləyirəm. Əksəriyyəti Tofiq Mahmudun cismani ömrü başa çatandan sonra qələmə alınan bu məqalələri oxuyanda düşünürəm ki, görəsən bu xoş sözləri niyə vaxtında, sağlığında onun özünə deməyiblər? Ancaq onu da dərk eləyirəm ki, insan həmişə ünsiyyətdə olduğu, dostluq elədiyi adamın qədrini onun sağlığında dərk eləyə bilmir. Qəribə də olsa, ölüm insanı dəyərləndirmək meyarına çevrilir. Dərk eləyirsən ki, necə şairi, jurnalisti, dostu, atanı, babanı itirmisən…

Tofiq Mahmudun cismani ömrünün bitdiyi, mənəvi ömrünün başlandığı bir nöqtədə dayanmışam elə bil. «Ədəbiyyat qəzeti»nin 11 aprel 1997-ci il tarixli nömrəsində Azərbaycan Yazıçılar Birliyi İdarə heyətinin imzaladığı nekroloqu oxuyuram:

«Vaxtsız ölüm tanınmış şair, nasir, jurnalist, Azərbaycan komsomolu mükafatı laureatı Tofiq Mahmudu sıralarımızdan apardı. Tofiq Mahmud (Mehdiyev Tofiq Mahmud oğlu) 1931-ci ildə Naxçıvan Respublikasının Şahbuz rayonunda anadan olmuşdur. İlk şeiri 1953-cü ildə «İnqilab və mədəniyyət» jurnalında dərc edilmişdir.

Orta təhsili Bakıda almış, ADU-nun filologiya fakültəsini bitirmişdir. Əmək fəaliyyətinə Mədəniyyət nazirliyində metodist kimi başlamışdır. Sonra «Azərbaycan müəllimi» qəzetində xüsusi müxbir, «Göyərçin» jurnalında ədəbi işçi, məsul katib və 1976-cı ildən ta bizim günlərimizədək həmin jurnalın baş redaktoru olmuşdur.

«Göyərçin» kiçik uşaqların ən sevimli jurnalıdır. Bu jurnal bir tərbiyə məktəbidir. Tofiq Mahmudun uşaq ədəbiyyatına olan

məhəbbəti bu jurnalın hər səhifəsində gözə görünürdü. Tofiq Mahmud özü də uşaqların sevimli şairidir. O, uşaqlar və böyüklər üçün bir-birindən gözəl xeyli kitab yazıb. «Yola çıxıram», «Dibçək». «Buzovna qayaları», «Açıqdır pəncərəm», «Alpinistlər», «Meşədə səs», «Ana qucağı», «Qızımın sualları», «Dalğalar», «Ulduzlar», «Düşüncələr», «Kəpənək gözəlliyi», «Bu işıqla qalacağam», «Məhəbbətim sirr deyil», «Şən şeirlər», «Yağış yağır dənizə», «Gecə qapı döyülür», «Uzaqda ucalan dağlar» və başqa kitabların müəllifidir. Bu kitablarda toplanan şeir, hekayə, poema və povestlərdə uşaqların və gənclərin həyatından alınmış ibrətli yazılar Tofiq Mahmudun bizə yadigarıdır.

Tofiq Mahmud həm də bədii tərcümə ilə məşğul olmuşdur. Xuta Berulavanın «Quş südü», İsabəy İsaqovun «Hər şeyi öyrənmək istəyən» kitablarını Azərbaycan dilinə məharətlə tərcümə eləmişdir.

Tofiq Mahmud gözəl dost, tanınmış uşaq şairi, xeyirxah insan, qayğıkeş ata idi. Onun xatirəsi Azərbaycan yazıçılarının qəlbində əbədi yaşayacaqdır.»

Bu nekroloqdan sonra «Ədəbiyyat qəzeti» mənim – bu sətirlərin müəllifinin kiçik bir vida sözünü də dərc eləmişdi:

«Biri var idi, biri yox idi, yer üzündə nağıllar dünyasından doğulan, nağıllar dünyasında yaşayan, ömrü bir az şirin, bir az ağrılı-acılı nağıla çevrilən bir insan, bir şair var idi... Üzündən, gözündən, qar kimi dümağ saçından nur yağırdı... Tofiq Mahmud həyatını, ömrünü uşaq ədəbiyyatına, uşaq mətbuatına həsr eləmişdi. «Göyərçin» jurnalının redaksiyasında göyərçin xislətli bir ömür yaşayırdı. Özündən sonra göyərçin xislətli bir xatirə qoyub getdi. Nağılları, şeirləri, poemaları «Göyərçin»in səhifələrində gələcək nəsillərə yadigar qaldı.

Ən ağır məqamlarda ən gözəl, unudulan adamları yadına salardı, onlar haqqında məqalələr yazar, kitablar tərtib edər, xatirə gecələri keçirərdi. Belə gecələrdən biri «Göyərçin» jurnalının ilk redaktoru, gözəl ziyalı, xeyirxah insan, tanınmış yazıçı Yusif



Əzimzadənin xairəsinə həsr edilmişdi. Onun təşəbbüsü ilə keçirilən bu xatirə gecəsi yaddaqalan idi, həm də Tofiq Mahmud ömrünün dosta, xeyirxah insana, təvazökar yazıçıya məhəbbətinin ifadəsi idi.

Bəlkə də Tofiq Mahmud bilmirdi ki, bir neçə saatdan sonra şair kimi, dost kimi, yazıçı, jurnalist kimi sevdiyi sevimli qələm dostlarının - Osman Mirzəyevin, Tofiq Mütəllibovun, Hikmət Ziyanın üz tutduğu haqq dünyasına gedəcək, dostlarının, tanışlarının ürəyində unudulmaz bir xatirəyə dönəcək. Qəbrin nurla dolsun, Tofiq Mahmud, qəlbin səni tanıyan, sevən insanların qəlbi ilə qoşa döyünəcək həmişə...»

Sonra digər qəzetlər də nekroloqlar çap elədi, digər mətbuat orqanlarında da vida sözləri söylənildi. Tofiq Mahmudun yaxın dostu, görkəmli şair Məmməd Arazın vida sözü daha təsirli idi:

«Qəfil bəd xəbər məni sarsıtdı. Qırx ildən artıq bir müddətdə yoldaş, həmkar və unudulmaz dost olan gözəl şair, əvəzsiz insan Tofiq Mahmudun ürəyi dayandı. Bu qəfil ölümdən ikicə gün əvvəl onunla görüşmüşdüm. İkicə gün sonra iş otaqlarımız arasındakı yeddi-səkkiz addımlıq məsafə min illərin ayrılığından uzaq olan bir məsafəyə çevriləcəkmiş...

Tofiq Azərbaycan torpağını çılğın bir ehtirasla sevən şair idi, nasir və publisist idi, böyük mərifət sahibi, qayğıkeş insan nümunəsi idi. Bütün bu keyfiyyətlərin bünövrəsində onun səmimiliyi və təvazökarlığı dururdu. Bu keyfiyyətlərdən özünə pay götürənlərdən deyildi. Bunlar hamısı dostlar, yoldaşlar, Vətən övladları üçün idi. Yazıçılar birliyində uşaq və gənclər ədəbiyyatı bölməsinin sədri idi. İyirmi beş ilə yaxın ictimai əsaslarla bu vəzifəni daşıyırdı. Kiminsə ad gününü keçirmək, kitabını müzakirə eləmək lazım gələndə Tofiq bütün ağırlığı çiyinlərinə götürər, heç kəsə minnət qoymazdı.

Bir vaxt müxtəlif respublikalarda uşaq ədəbiyyatına həsr olunmuş müzakirələrə, görüşlərə dəvət olunardı. Gedərdi. Çox

hörmətlə və çox ehtiramla qəbul olunardı. Bunlar hamısı indi xoş xatirələrdir. Son illər tez-tez döyüş bölgələrinə gedərdi. Onun odlu çıxışları böyük hörmətlə qarşılanardı. Bunlar hamısı olmuşlardı. Bir daha olmayacaq. İndi bunlar hamısı bizim üçün yuxudur, müəmmaları yozulmaz yuxu. O bir daha səhərin gəlişini, axşamın gedişini görməyəcək. Bir daha onun şaqraq səsi eşidilməyəcək:

– Sabahın xeyir, əmi!

Ürəyimin səsi ürəyimdə məyus-məyus əks-səda verəcək: Əlvida, əziz dost!»

Burada həm bir göynərti, ağrı var, həm də şairi qırx ildən artıq bir vaxda tanıyan həssas, tükü tükdən seçməyi bacaran söz adamının qənaətləri, Tofiq Mahmud portretinin cizgiləri... Bəs nədir bu cizgilər? «Unudulmaz dost», «Gözəl insan», «Azərbaycan təbiətini çılğın bir ehtirasla sevən şair», «Böyük mərifət sahibi», «Qayğıkeş, təvazökar, təmənnasız insan»...

Digər qələm adamlarının, alimlərin yazıları da itkinin böyüklüyünü, Tofiq Mahmud şəxsiyyətinin əzəmətini daha dəqiq meyarlarla müəyyənləşdirməyə imkan verirdi. Akademik İ.Ə.İbrahimov yazırdı: «Tofiq Mahmud Azərbaycan tarixinin ən gözəl səhifələrində özünə layiqli yer tutmuş gözəl insan, vətəndaş və şəxsiyyət idi. O, öz həyatını cəmiyyətin gələcəyinə, uşaqlara həsr etmişdi. Təsadüfi deyil ki, 1988-ci ildə Azərbaycan Uşaq Fondu yarananda Bakı ictimaiyyəti ən layiqli ziyalı Tofiq Mahmudu Uşaq Fondunun şəhər şöbəsinin sədri seçmişdi. Eyni zamanda ömrünün axırıncı dəqiqələrinədək Azərbaycan Uşaq Fondu rəyasət heyətinin tərkibində fəal iştirak edirdi.»

Xalq yazıçısı Hüsen Abbaszadə Tofiq Mahmudun ölümünü ədəbiyyatımız, jurnalistikamız üçün əvəzsiz itki hesab edir, onun dostlarından, tanışlarından heç nəyi əsirgəmədiyini vurğulayırdı. Görkəmli yazıçı Ələviyyə Babayeva Tofiqi əməlləri də özü kimi saf, özünəməxsus, düzlük, xeyirxahlıq timsalı kimi, tanınmış yazıçı Əzizə Əhmədova xeyirxahlıq təcəssümü, yüksək mədəniyyət nümunəsi kimi, Cəmil Əlibəyov nadir şəxsiyyət, şeirləri də, nəsri də, hətta məqalələri də özünəməxsus olan bir qələm sahibi kimi xarakterizə edirdi. Qələm adamlarından Cahangir Məmmədovun, Vasif Quliyevin, Hacı Ağəddin Mansurzadənin, Mir Sabirin, Tahirənin yazılarında da Tofiq Mahmudun uşaq kimi təmizliyindən, cəfakeşliyindən, sadə və təvazökarlığından söhbət açılırdı...



Yazıçılar Birliyində Tofiq Mahmudun xatirə gecəsi keçirilirdi. Çıxış edənlər – Fikrət Qoca, Qabil, Fikrət Sadıq, İnqilab Kərimov, Ramiz Rövşən, Əli Səmədli, şairin qardaşı, xalq rəssamı Rafiq Mehdiyev Tofiq Mahmudun şəxsiyyətindən, yaradıcılığından məhəbbətlə söhbət açırdılar... İndi o günlər də xatirəyə çevrilib... Həmin tədbirin lent yazısına baxanda adam çox qəribə hisslər keçirir. Çünki iştirakçıların bir qismi indi Tofiq Mahmud kimi haqq dünyasındadır, bir qisminin üzünə isə zaman öz qırışlarını salıb... Tofiq Mahmudun sevdiyi dünya isə yenə də öz əvvəlki işində, öz əvvəlki axarındadı...

Şair bir zaman yazırdı:

Gənclik eşqi, alovu
Elə tutub könlümü,
Görmürəm yaxınlaşan
Qocalığı, ölümü...

Doğrudan da, Tofiq Mahmudun ürəyi həyat eşqi ilə, sevgi ilə, yazıb-yaratmaq ehtirası ilə dolu idi. İndi neçə illərdir ki, o ürək döyünmür. Ancaq təskinliyimiz budur ki, bu gün Tofiq Mahmudun qəlbinin döyüntüləri bizə yadigar qalan şeirlərində eşidilməkdədir. Tofiqin ürəyindəki işıq onun poeziyasına hopub və bu şeirləri oxuyan gənc nəslin ayrılıq zülmətində azmaq qorxusu yoxdur.

Bir uşaq oluram bahar gələndə,
Qaçıram dağlara güllər açanda.
Ürəyim nurlanır dan söküləndə,
Coşuram bulaqlar aşıb-daşanda.

Nədənsə qorxmuram, şəfqət içində
Baxıram, düşsəm də qar tufanına.
Həyəcan içində, heyrət içində
Baxıram göylərin həyəcanına.
Keçib qartal kimi göy qucağından
Uzaq ulduzlara uçar, uçaram.
Yelləncək düzəldib göy qurşağından
Bütün kainatda qanad açaram…

Dünyanın tanınmış söz ustalarından olan U.Folknerin gözəl bir fikri var. O deyir ki, dünyada ən böyük şey cəhddir. Elə bil ki, cəhd Tofiq Mahmudun boyuna biçilmişdi. O yorulmaq bilmədən gəzir, oxuyur, öyrənir, şeir, hekayə, nağıl, povest, məqalə yazır, tərcümələr eləyirdi. Bu qənaətlərimin nə dərəcədə doğruluğunu sübut etmək üçün Tofiq Mahmudun özünə «söz vermək» istəyirəm. 1985-ci ilə «Yazıçı» nəşriyyatında çap olunan «Bu işıqla qalacağam» kitabının ön sözündə Tofiq Mahmud belə yazırdı:

«Poeziya mənim üçün həmişə möcüzədir. Uşaqlıq illərində bu möcüzə elə bir qüvvəyə malik idi ki, məni ahənrüba kimi özünə çəkirdi. O vaxt müasir şairlərin hamısını acgözlüklə, birnəfəsə oxuyurdum. Eyni zamanda həm Azərbaycanın, həm də rus və Avropa ədəbiyyatının klassiklərini dönə-dönə mütaliə edirdim.»

O vaxt özü də şeirlər yazan, redaksiyalara göndərən Tofiq Mahmud universitetdə oxuduğu illərdə öz cəhdlərini daha da artırırdı. Şairin tələbə yoldaşı, sonralar uzun müddət onunla bir redaksiyada işləyən Tahirə İsgəndərova o günləri belə xatırlayırdı: «Tofiqin alovlu, mənalı, məzmunlu şeirləri onu tələbələrin sevimlisi etmişdi. «Sənətə söz deyə bilən istedad gəlir» - Bu kəlam Tofiqə ünvanlanmışdı. Bu sözləri o vaxt bizə dərs deyən görkəmli alimlərimiz, ədəbiyyat korifeyləri – Ə.Sultanlı, C.Xəndan, M.Cəlal, M.Rəfili, F.M.Qasımzadə, A.Zamanov dönə-dönə söyləyirdilər.»



Mətbuatda işlədiyi illərdə Tofiq Mahmud yorulmaq bilmədən öz cəhdlərini davam etdirir, rəngarəng mövzulu lirik şeirlər, uşaq şeirləri, nağıllar, hekayələr, povestlər, məqalələr yazıb çap elətdirirdi. Tofiqin bir-birinin ardınca nəşr olunan kitablarını ədəbi ictimaiyyət maraqla qarşılayırdı. Sözümüzə söykək olsun deyə yenə T.Mahmudun özünə «söz verməyə» ehtiyac duydum: «Universiteti bitirdikdən sonra jurnalistlik fəaliyyətim məni operativliyə, həyatla, insanlarla ünsiyyət bağlamağa öyrətdi. Elə bu fəaliyyət məni nəsr yaradıcılığına, «Azərbaycan müəllimi» qəzetinə, nəhayət, uşaq jurnalı olan «Göyərçin» jurnalı redaksiyasına gətirib çıxartdı. O vaxtdan bəri iyirmi ildən çox keçsə də, yenə bu redaksiyada əməkdaşlıq edirəm, çünki balacalar üçün çap olunan bu jurnal həyat sevgimə çevrilib. Möcüzə hesab etdiyim poeziyadan ayrılmaq, ağlıma belə gəlmirdi. Uşaq ədəbiyyatına, nəsr yaradıcılığına güclü meyl göstərməyim poeziyadan soyumağım, ondan uzaqlaşmağım demək deyildi. Daxili mənəvi böhranlar, tərəddüdlər, əzablar çəksəm də, hətta bəzən poeziyadan uzaqlaşmaq fikrinə düşsəm də, müvəqqəti fasilə versəm də, ondan uzaqlaşa bilmədim. Qəribədir ki, hətta bu illərdə poeziyaya sevgim bir damcı da olsun azalmadı, yenə o mənim üçün möcüzə oldu. Hardasa, gözəl, yaxşı bir şeir oxuyanda bütün günü o şeirlə yaşayırdım.»

Məhz bu cəhdlərin, bu axtarışların sayəsində Tofiq Mahmud özündən sonra zəngin ədəbi irs qoyub gedə bilmişdir. Mötəbər qələm sahiblərinin onun əsərlərinə çox yüksək qiymət vermələri də təsadüfi deyildir. Məmməd Arazın Tofiqin «Məhəbbətim sirr deyil» (1981) kitabına yazdığı ön sözdə oxuyuruq: «Tofiq Mahmudun bədii axtarışlarında tez-tez özünü təhlil eləmək, özünün daxili təkanlarından oyanmaq, məlum boyaların istifadəsindən qaçmaq, ələnmək, yuyunmaq, yeni-yeni mövzu mənbələri axtarmaq, təbiətə yön almaq, əbədi köhnədə əbədi təzəni görmək əsas yer tutur. O öz poetik ədalarında zamanı

qabaqlamaq, əsrin hadisələrini yüyənləmək fikrinə düşənlərdən də deyil. Necə duyursa, elə yazır.

Zaman hadisələrinə konkret məkan daxilində cavab vermək, onu doğma yurdun sobasında əritmək şair üçün əsas vəzifədir. T.Mahmud bu vəzifənin keşiyində ayıq əsgər olmağı özünə şərəf bilir.»

Tofiq Mahmud təkcə bədii yaradıcılıqla məşğul olmur, həm də ədəbiyyatımızın təbliği yolunda əlindən gələni əsirgəmirdi. Şair və yazıçılara yubileylər keçirmək, sevdiyi qələm sahiblərinin yaradıcılıq nümunələri haqqında məqalələr yazıb çap etdirmək onun gündəlik qayğılarından idi. Ədəbiyyatımızın digər ölkələrdə yayılmasında, təbliğində də Tofiq Mahmud yorulmaq bilmədən fəaliyyət göstərirdi.

«Detskaya literatura»nın bir nömrəsini bütünlükdə Azərbaycan uşaq ədəbiyyatına həsr eləməsi, Qazaxıstanda, Özbəkistanda, Belorusiyada Azərbaycan uşaq ədəbiyyatı antologiyalarının nəşri birbaşa Tofiq Mahmudun adı ilə bağlıdır. Çünki bu materialların hazırlanması da, kitabların tərtibatı, tərcümə, nəşr qayğıları da onun çiyinlərində idi. Ömür vəfa etsəydi, bu ədəbi əlaqələrin coğrafi dairəsi əhəmiyyətli dərəcədə genişlənə bilərdi... Çünki o zamankı sovet məkanında Tofiq Mahmudu tanımayan, onunla dostluq etməyən görkəmli uşaq yazıçısı yox idi. Ümumittifaq tədbirlərinə gedəndə hamının Tofiq Mahmudu soruşması, ona salam göndərməsi qəlbimi iftixar duyğuları ilə doldururdu.

Tofiq Mahmudla ilk tanışlığım «Açıqdır pəncərəm» kitabı ilə başlayıb. Ancaq bu qiyabi tanışlıq idi. Sonra Tofiq müəllimlə «Göyərçin» jurnalının redaksiyasında şəxsən tanış oldum. O zaman Tofiq Mahmud redaksiyada məsul katib vəzifəsində çalışırdı. Həmişə məni çox yaxşı qarşılayır, daha böyük enerji ilə yazıb yaratmağa həvəsləndirirdi. Və nəhayət, 1985-ci il fevral ayının 18-də Tofiq Mahmud məni «Göyərçin» jurnalında işə qəbul elədi. Onu da deyim ki, həmin boş yerə göz dikənlər çox



idi. Tofiq Mahmud isə təzyiqlərə məhəl qoymayaraq məhz mənim namizədliyimə üstünlük vermişdi... Birlikdə işlədiyimiz 10 ildən artıq bir müddətdə mən Tofiq müəllimi daha yaxından tanıdım. Onun nə qədər həssas, qayğıkeş, zəhmətsevər, təvazökar bir insan olduğunu öz gözlərimlə gördüm. Rayonlara səfərlərimiz zamanı Tofiq müəllimi daha yaxından tanıdım, onunla dostluğumuz, ünsiyyətimiz daha da möhkəmləndi. Görüşlərdə Tofiq müəllimin çıxışları, xüsusi bir ahənglə, həvəslə oxuduğu şeirlər çox böyük maraqla, alqışlarla qarşılanardı.

Yadıma Tofiq Mahmudun 60 illik yubileyini «Göyərçin» jurnalının redaksiyasında qeyd elədiyimiz gün düşdü. Bu xudmani məclisə şairin ürək dostları, qələm dostları toplanmışdı. Xalq yazıçısı Hüseyn Abbaszadə, xalq yazıçısı Sabir Əhmədov, xalq şairi Məmməd Araz, təmsil ustası Hikmət Ziya, yazıçı və şairlərdən Nəriman Süleymanov, Emin Mahmudov, Xalidə Hasilova, Tahirə İsgəndərova, Məmməd Aslan, Ağəddin Mansurzadə, xalq rəssamları Altay Hacıyev, Arif Hüseynov, jurnalist Əlirza Balayev, Tofiq müəllimin kürəkəni Əhməd Əsgər, gənc rəssam Etibar Aslanov, Tofiq müəllimin başqa sahədə çalışan iki dostu və mən iştirak eləyirdik bu məclisdə... Özünün etirazına baxmayaraq hamı Tofiq Mahmud haqqında xoş sözlər söyləyirdi. Məclis çox şən keçirdi. Zarafat zarafata söykək olurdu... O vaxt heç kəsin ağlına da gəlməzdi ki, bir vaxt Tofiq Mahmud nağıllar dünyasına köçəcək... İndi o məclisdə iştirak eləyənlərin də bir neçəsi də artıq haqq dünyasındadır... Həyat isə davam eləyir... Gəlimli-gedimli dünya yenə də öz işində, öz gərdişindədi...

Tofiq müəllimin həmişə dediyi bir sözü xatırlayıram: «Mirzə, (o mənə belə müraciət eləyirdi) mən «Göyərçin» jurnalını çox sevirəm. İstəmirəm ki, ona yad nəfəs toxuna»... O həm də söhbət arası deyirdi ki, istəyirəm ki, bu jurnala gələcəkdə sən rəhbərlik eləyəsən və redaksiyanın saflığını qoruyasan».

Mən televiziyada işləyəndə axırıncı görüşümüz oldu. Onda da mənə dedi ki, mirzə, xahiş eləyirəm qayıt gəl öz doğma

redaksiyamıza. Sən baş redaktor ol, mən məsul katib keçim. Baş-başa verib işləyək...

Təəsssüf ki, sonralar Tofiq Mahmudla baş-başa verib işləyə bilmədik. Ancaq ölümündən bir neçə gün qabaq onun mənim baş redaktor qoyulmağımla bağlı əlaqədar təşkilatlara müraciəti qəlbimi çox duyğulandırdı. Gec də olsa, Tofiq müəllimin arzularını başqa cür reallaşdıra bildim. Mən baş redaktor oldum, onun oğlu İlqar Mehdiyev isə məsul katib kimi mənimlə birlikdə işləməyə başladı...

Elə bir gün olmur ki, bu redaksiyada Tofiq müəllim xatırlanmasın. Qəribədir ki, jurnalın ən çətin günlərində Tofiq müəllim yuxuma girir, elə bil ki, məni ruhdan düşməyə qoymur... Elə bil ki, qeybdən onun səsini eşidirəm:

Bulud, göylərdən çəkil, duman, dağlardan çəkil,
Uşaqlar şəkil çəkir, uşaqlar şəkil çəkir...

Burada haşiyəyə çıxmağımın yeganə məqsədi Tofiq müəllimin ruhunun daim bizim redaksiyada olmasını xatırlatmaqla əlaqədardır. İndi də onun şeirləri, hekayələri, nağılları jurnalımızın səhifələrini bəzəyir. Onun yaradıcılığına həsr olunmuş xüsusi nömrə də buraxmışıq, hekayə və nağıllarından ibarət kitablarını da çap eləmişik... Azərbaycan Yazıçılar Birliyi «Tofiq Mahmud» adına mükafat təsis eləyib, Tofiq Mahmudun ədəbi irsini öyrənən komissiya yaradıb. Bu gün məhz həmin komissiya üzvlərinin zəhməti sayəsində Tofiq Mahmudun ilk üç cildliyi nəşrə hazırlanıb... Necə deyərlər, yolumuz üzü gələcəyədir və bu yolda Tofiq Mahmud da bizə yoldaşlıq eləyir...

Elmi araşdırmaya, fikir söyləməyə zəngin material versə belə, üç cildliyinə yazdığımız bu ön sözdə Tofiq Mahmudun rəngarəng mövzulu, ayrı-ayrı janrlarda yazılmış əsərlərini təhlil etmək istəmədik. Ona görə ki, Tofiqin lirikası da, nəsri də, publisistikası da, məqalələri də, uşaq ədəbiyyatı ilə bağlı yaratdığı əsərlər də, bədii tərcümələri də xüsusi bir tədqiqatın mövzusudur və öz gələcək araşdırıcılarının yolunu gözləyir. Ümid edirik ki,



Tofiq Mahmudun üç cildliyi müəllimlərin, tərbiyəçilərin, kitabxana işçilərinin, tələbələrin, gənc ədəbiyyatşünas və dilçilərin tez-tez istinad edəcəyi mötəbər ədəbi mənbələr sırasında olacaqdır.

***Rafiq Yusifoğlu***

*Tofiq Mahmudun ədəbi irsini öyrənən komissiyanın sədri,*
*Azərbaycan Respublikasının Əməkdar mədəniyyət işçisi, filologiya elmləri doktoru, professor.*

*21 sentyabr 2011*






# Uşaq şerləri və poemalar

# "Alpinistlər" kitabından
(1967)

*ŞERLƏR*

## MEŞƏDƏ ŞƏNLIK

Sərçə, dovşan,
Maral, ceyran
«Gəzək» - deyə,
«Görək»-deyə,
Yollandılar bir meşəyə.
Meşə dərin,
Meşə sərin.
Ətri gəlir çiçəklərin!
Şaqqıldadı birdən budaq,
Düşdü yerə neçə yarpaq.
Dovşan dedi: Bu tülküdür,
Yəqin çoxdan bizi güdür.
Maral dedi titrəyərək:
— Ya bəbirdir, ya da pələng.
Sərçə isə cikkildədi,
Sağa-sola baxıb dedi:
— Getməyiniz siz, amandır,
Bu səs salan çalağandır.
Ceyran dedi:
— Düşdük dara,
Rast gəlmişik canavara.
Bu vaxt elə,



Gülə-gülə
Üzə çıxdı bir boz dələ.
Toxunaraq yarpaqlara,
O hoppandı budaqlara.
Güldü sərçə,
Güldü dovşan,
Güldü maral,
Güldü ceyran.
Sevindilər,
Şadlandılar,
Hoppandılar, atlandılar.
Meşə ilə yol getdilər,
Yenə də səs eşitdilər.
Dovşan dedi:
— Bu tülküdür,
Yəqin bizi çoxdan güdür.
Maral dedi
Titrəyərək:
— Ya bəbirdir,
Ya da pələng...
Sərçə isə cikkildədi,
Sağa-sola baxıb
Dedi:
— Getməyiniz
Siz, amandır,
Bu səs salan çalağandır.
Ceyran dedi: düşdük dara,
Rast gəlmişik canavara.
Bu vaxt birdən,
Sarı bülbül ötdü şən-şən...
Dayandılar,
Boylandılar, güldü sərçə,
Güldü dovşan,
Güldü maral,
Güldü ceyran...

F. Köçərli adına
Azərbaycan Dövlət Uşaq
KİTABXANASI
İNV. № 69655

Bir bax, gəlib solda, sağda
Durdu neçə alabaxta:
— Gecikmisən,
Gözəl cüyür,
Sən də durma, tələs, yüyür.
— Ətrafa bax, çoxdur gələn,
— Gəlib hop-hop,
Qaratoyuq, ağacdələn.
Dost oldular bu heyvanlar,
Birgə onlar
Oynadılar qaçdı-tutdu,
Maral qaçdı, ceyran tutdu,
Oynadılar sonra top-top,
Topu vurdu
Alabaxta, cüyür, hop-hop
Sərçə, dovşan,
Maral, ceyran
Dönə-dönə
Gəzib yenə,
Bu gözəl, bu təzə yeri,
Qayıtdılar axşam geri.

## QONAQ

Kənddən bir uşaq gəlib,
(O, bizə qonaq gəlib)
Elə hey deyir mənə:
— Arif, gedək çəmənə.
— Deyirəm ki, ay Azər,
Bura şəhərdir, şəhər...
— Gəzməyə həvəsim var,
Məni meşəyə apar.
— Şəhərdə yoxdur meşə.
— Nə deyirəmsə, mənə
Yox deyirsən həmişə!..



Anam eşidib bunu,
Gülüb dedi Azərə:
— Yaxşı, geyinin, sizi
Aparıram şəhərə.
Küçəyə çıxan kimi
Necə sevindi oğlan!
Uca-uca evləri
Seyr etdi heyran-heyran.
Baxdı trolleybusa,
Maşına, avtobusa.

Uşaqlarla doludur
Gözəl sahil kənarı.
Başdan-başa dolanıb
Seyr elədik bulvarı!
Azər dörd yana baxdı,
Rəngli fantana baxdı,
Rəngli tramvayla biz
Dağüstü parka çıxdıq,
Bir heykəlin yanından
Bütün şəhərə baxdıq.
Birdən qışqırdı Azər:
— Necə böyükdür şəhər...
Sonra maşına mindik,
Parkdan aşağı endik.
Biz baxdıq dönə-dənə,
Sabirin heykəlinə.
Gəzib bütün şəhəri,
Axşam qayıtdıq geri.
Azər yola düşəndə,
Getdiyi doğma kəndə
Qonaq çağırdı məni,
Dedi: gəl, birgə gəzək,
Biz meşəni, çəməni!!!

## XƏZƏRİN SAHİLLƏRİ

Heç bilsən nə gözəldir
Xəzərin sahilləri.
Burda fərəhlə keçir
Ömrümüzün illəri.

Sahillər bəzən aydın,
Bəzən yüngül dumandır.
O qarşıda gördüyün
haylı-küylü limandır..
Limandan axşam-səhər
Gəmilər gedər-gələr.
Dənizdə üzən gəmi
Görünər bir dağ kimi!

Üzdükcə, nöqtə kimi
Uzaqlarda qaralar.
Tamam başqa bir gəmi
Sahillərə yan alar.

Nədir o sahildəki,
Sapsarı bir gölmüdür?!
Yoxsa qızıl qönçəli
Çiçəkmidir, gülmüdür?

Yox, yox, zəfərandır o,
Əlvan gülüstandır o.
Zəfəran saçaqları
Batan günəş tək sarı...

Burda nələr var, nələr,
Quma batır meynələr...
Budaqlar qum içində,
Yarpaqlar qum içində.



Elin şöhrəti-şanı,
Qara şanı, ağ şanı
Durna gözünə bənzər,
Nə şirindir gilələr.

Hələ qızıl quma bax,
Gəl uzanaq, qızınaq!
Hər dənəsi darı qum,
Darı kimi sarı qum

Gör nə qədər təmizdir,
İnci tək ləkəsizdir –
İstəyirsən uzan yat,
Dizə qədər quma bat...

Mərdəkan bağlarının
Gülünə gül çatarmı?!
Buzovna qayaları
Bir an belə yatarmı?!

Dinləyib gecə-gündüz
Tufanların səsini -
Kükrəşən dalğalara
Çırpar daş sinəsini.

Gödək boylu bir əncir,
Hər il meyvə gətirir.
Bir görün bitib harda –
Yosunlu qayalarda.

Burda bir az dayanın. —
Böyük yastı qayanın
Yarısını su udub,
Üstünü mamır tutub.

Bu yerlərdə dincələn,
Bu yerlərdə çimən var.
Su altında, daş üstə
Elə bil göy çəmən var.

Düzülüb qatar-qatar
Uca-uca buruqlar.
Gözəl zeytun bağları
Sahil boyu uzanıb.

Zeytunlar salxım-salxım
Sırğa-sırğa sallanıb.

Dənizdə neft mədəni,
Dənizdə bir ada var.
Ora körpü tək gedən
Uzun estakada var.

Səhər tezdən görünmür
Heç kim vətəgələrdə —
Qəhrəman balıqçılar
Xəzərdədir, Xəzərdə.

Uzaqda tüstülənir
Zavodun boruları
Sahil boyu şığıyır
Elektrik qatarı.

Gözəldir, çox gözəldir
Xəzərin sahilləri
Burda fərəhlə keçir
Ömrümüzün illəri.

Gəlsin, bu yerə gəlsin
Dünyanın uşaqları.
Qoy hər zaman çox olsun
Xəzərin qonaqları.



## *İSTİSU LÖVHƏLƏRİ*

### İSTISU

Şəhərə bax, şəhərə,
Dörd tərəfi dağ, dərə.
Evlər var çökəkdədir,
Evlər var yüksəkdədir.
Biri çayın yanında.
Biri ayın yanında.
Biri dərə içində,
Biri təpə üstündə.
Burda gəzib hər yeri,
Sevdim gözəl şəhəri.

### İKİ BULAQ

Öz gözümlə görmüşəm —
Dağda iki bulaq var.
Biri buz kimi soyuq,
Biri od kimi qaynar.

Biri - içmək istəsən —
Dodağını yandırar.
O biri-əl uzatsan —
Barmağını dondurar.

### ŞEH

Şehə bir bax,
Nurlu, parlaq.
Nə iridir,
Mirvaridir.

Dedim: sürüş
Ovcuma düş.
Nə oldu, eh,
Dağıldı şeh!

## TƏRTƏR ÇAYI VƏ ÇİÇƏKLƏR

Gül-çiçək dərə-dərə
Yaxınlaşdım Tərtərə.
Dedim: gül-çiçəkləri
Bəlkə sən bitirmisən!
Onları keçən gecə
Bəlkə sən gətirmisən!
Çay güldü, mənə baxdı,
Cavab vermədi, axdı.

## ŞİMŞƏK

Şimşək o dağda yandı,
Çox-çox uzaqda yandı,
Mənə elə gəldi ki,
Bizim otaqda yandı.

## GƏZƏN İŞIQ

Gördüm ki, axşam çağı
Bir işıq gəzir dağı.
Gah gedir, gah dayanır,
Gah sönür, gah da yanır.
İşıq yox, yanıldım mən —
Maşınlardır o gedən.



## DUMAN

Axşam tutdu hər yeri
Pərdə kimi ağ duman.
Səhər duranda gördüm
Dumandan yoxdur nişan.

## YAĞIŞ VƏ GÜNƏŞ

Yağış yağır, nə yağır,
Bu zaman günəş çıxır.

Yağış elə yağır ki,
Tut ucundan qalx göyə.
Günəş çıxır-yağışı
Mənə göstərsin deyə.

Göydən sanki yağır nur,
Yağış nə gözəl olur.

## DAĞ KƏNDİNDƏ YAŞAYIRIQ

Gözəl, sərin
Dağ kəndində yaşayırıq.
Bu kəndi biz
Ən uca bir yer sayırıq.
Yanımızdan
Karvan-karvan bulud ötür,
Çox yaxındır —
Əllərini uzat, götür.
Məktəbimiz
Uçurumun kənarında. —
Gözəl olur
Bahar, payız aylarında,

Tənəffüsdə
Biz baxırıq pəncərədən,
Gözümüzü
Çəkməyirik dağ-dərədən.
Bir çay axır —
Dalğaları sahillərə inci səpir.
Ağaclar var dərələrdə –
Hər birisi kibrit çöpü...
Meşələrdən
Yayda odun daşıyırıq.
Axı, sərin
Dağ kəndində yaşayırıq.
Bir qonaqdır
Yağış burda, şimşək burda.
Gəzən olsa —
Tapar min-min çiçək burda.
Bir də gördün dərs zamanı
Bulud tutdu
Başdan-başa asimanı.
Göy gurladı —
Götürmədi heyrət bizi,
Yenə keçdik dərsimizi.
Gəzsən əgər
Bu dağ, çəmən —
Kitab qədər bilik verər!
Gözəl keçir —
Sərt olsa da qış ayları,
Yol gedirik
Yara-yara dümağ qarı.
Qarışanda bir-birinə
Ay işığı, qar işığı —
On qat artır
Kəndimizin yaraşığı.
Açıq olur
Axşam üstü bizim klub.



Gəlir kino,
Gəlir qəzet, gəlir məktub.
Fəxr edirik —
Dağ kəndində yaşayırıq.
Bu kəndi biz
Ən uca bir yer sayırıq.

## BİR OĞLAN TANIYIRAM

O, qalın bir romanı
Başlayar oxumağa,
Onuncu səhifədə
Deyər: eh!
Bəsdir daha!..
Gedər rəqs dərnəyinə,
Bir neçə gün oynayar,
Sonra yarımçıq qoyar.
O, qurşanar futbola,
Qaçar, çəmənə, yola.
Əvvəl göstərər hünər,
Lap ildırıma dönər.
Sonra oyundan doyar,
Onu yarımçıq qoyar.
O, şerə duyar həvəs,
Yazar, amma bitirməz,
Görərsə dama, şahmat
Maraqlanar o saat.
Bunları tez öyrənər,
Həvəsi də tez sönər...
Bir oğlan tanıyıram —
Belə xasiyyəti var.
Mən onu xoşlamıram,
Bəs siz necə, uşaqlar?!.

## İYDƏ AĞACI

Ucalıb dağların qarlı başı tək,
Əyilir arx üstə budaqlarınız.
Qoca bir ananın gümüş saçı tək
Gümüşdür sizin də yarpaqlarınız.

Çaytumas kəndini bürüyür bütün,
Qızılgül ətri tək gözəl ətriniz.
Yazda Zəngilana gələndə bir gün,
Göründünüz sarı çiçəklərlə siz.

Nənəm bu yerlərdə yaşayır mənim,
O da yol üstündə durur sizin tək.
Qəlbimdən ayrılmır baba məskənim —
Gərək üzülməsin kökündən çiçək!

Nənəm yaxın gəlib öpür saçımdan,
Oğlunun iyini o, məndən alır.
Çəkməyir əlini mənim başımdan,
Bəzən heykəl kimi dayanıb qalır.

Nənəm yaşasa da bu Çaytumasda,
Unutmur heç zaman nəvələrini.
Ey iydə ağacı, hər il payızda
Göndərir o, bizə meyvələrini.

## CEYRANBATAN

Arxada buraxıb çəməni, çölü,
Mən gördüm yaxından təzə bir gölü.
Bənzətdim çəmənə mavi suyunu,
(Yaratmış insanın qüdrəti bunu).
Nə şimşək, nə tufan ona nəsibdir,
Üstündən nə güclü külək əsibdir.



O, hələ cavandır - üççə yaşı var,
Onun Göy göl kimi bir qardaşı var.
Yoxdur ətrafında nə ot, nə yamac,
Nə meşə, nə çəmən, nə də bir ağac.
Gəlib kənarında yolçular yatmaz,
Bu Ceyranbatanda ceyran da batmaz.
Onun yarandığı bir neçə ildir,
Hələ Göy göl kimi gözəl deyildir.
Ancaq həm su verir, həm işıq verir,
Gözəl Vətənimə yaraşıq verir.
O, burda əbədi qalası oldu
Xəzər dənizinin balası oldu.

## GƏZİR YER KÜRƏSİNİ

İkram elə sevir ki,
Coğrafiya dərsini —
Dinləyir bütün günü
Sevimli müəllimi,
Dərmədən nəfəsini.
O tanıyır hər yanı —
Başdan-başa dünyanı.
Bütün meridianları,
Qitələri tanıyır.
Xəritədə qaralan
Nöqtələri tanıyır.
Bu nöqtələr görünür
Söz kimi, məna kimi.
Böyükdür arzuları
Onun bu dünya kimi.
Xəritəyə baxanda
Bircə anın içində —
Sanki gəzib dolanır
Bu cahanın içində
Budur: Misir, Konqo, Çin,

— Bu Polşa, bu Kanada.
İkramın duyğuları
Dönür polad qanada.
O uçur təyyarəsiz,
Neçə-neçə sahilə.
Baş vurur bircə anda
Gah Volqaya, gah Nilə.
O, Xəzərin yanında,
Ancaq fikri, xəyalı
Başqa bir dənizdədir.
O, Bakıda yaşayır,
Ancaq bu gün xəyalı
Tehranda, Təbrizdədir.
Hardan uçub gedir o,
Gəlin, bir-bir göstərim.
Bu İstambul, bu London,
Bu Parisdir, bu da Rim.
Çöllərdən uçub gedir,
Göllərdən uçub gedir.
Gəzir onun xəyalı
Gah dağda, gah aranda.
O gəzir Koreyada,
Hindistanda, İranda,
Elə bir yer varmı ki,
Bircə anda çatmaya.
Çatır göz qırpımında
Sibirə, Kamçatkaya.
Düşür şimal qütbünə
Yağır hər yana bol qar.
Cənubda dostlar görür —
Alban, rumın, çex, bolqar
Səsləyir qucağına
Onu gör neçə qitə
Bu kiçik xəritədə
Az qalır ki, o itə!



İkram yaman çox sevir
Coğrafiya dərsini
Elə bil ki, sinifdə
Gəzir yer kürəsini.

## DALANDAR

Həyatda bir dalandar
İşləyər yay, qış, bahar.
O, hər yeri süpürər,
Qışda qarı, payızda
Xəzəlləri süpürər.
Oyanıb səhər-səhər,
Yaxın gələr krana,
Su çiləyər hər yana!
Evlərə nəzər salıb,
Süpürgəsini alıb —
Bütün həyat boyunca
İşə başlayar qoca!

Şüşə kimi tərtəmiz
Görünər həyətimiz...
Bir gün tezdən durdu o,
Bığlarını burdu o.
Düşən kimi həyətə,
Qoca gəldi heyrətə:
Hər tərəf təmizlənib,
Həyətə su çilənib.
O, həyəti neçə gün
Təmiz gördü büsbütün.
Bir səhər tez qalxdı o,
Pəncərədən baxdı o.
Gördü: pioner Süsən,
Əlində bir susəpən,
Su çiləyir hər yana.

Əllərində süpürgə,
İşləyir, Əfqan, Bikə.
Siz bir baxın Gülərə —
Qulluq edir güllərə...
Qoca çatıb qaşını
Yırğaladı başını.
Qəlbində: sağ ol-dedi,
Bığaltı gülümsədi.

Keçdi düz iki həftə,
Çıxan zaman həyətə
Gördülər ki, uşaqlar
Bir tennis stolu var.
— Kim bizi yada salıb?!
Bunu görən kim alıb?!
Qoz boydadır topları,
Rəngi-ağ, yaşıl, sarı.
Süsən baxdı Əfqana,
Əfqansa Nərimana.
Çiynini çəkə-çəkə:
Bilmirəm-dedi Bikə!..
Gülər topu götürdü,
Tez Süsənə ötürdü!..
Ey gəl, oynayaq-deyə
O çəkildi geriyə...
Birdən gəldi dalandar:
— Kim mənimlə oynayar?!
İnanmayıb bir qədər,
Uşaqlar gülüşdülər.
Qoca sağ yana keçdi,
Sonra bığını eşdi,
Süsən gəldi irəli,
Göyə qalxdı sağ əli.
İlk topu üsulluca
Dala qaytardı qoca.



Hamı çıxdı həyətə,
Çoxu gəldi heyrətə...
Yekə, gombul bir arvad
Oyuna baxdı mat-mat
Pəncərədən bir qarı,
Baxdı həyətə sarı.
Toxundurmayıb tora,
Topları vura-vura
Qoca da oynayırdı,
Düşən topu sayırdı...
Udmağına az qalmış,
Qopdu həyətdə alqış!
Qoca uddu Əfqanı,
Güləri, Nərimanı.
Qızışdıqca oyunlar,
Həvəsə gəldi onlar...
Hətta o gombul arvad,
Dedi: topu mənə at
Mən də oynayım gərək!
Hamı ona gülərək,
Qəhqəhə çəkdi birdən,
Dalandar dedi: hərdən
Oynasan heç pis olmaz,
Piyin əriyər bir az.

Həyətdə işıq yandı,
Şənlik yenə uzandı.
Kim alıbdır görəsən
Bu tennis stolunu?
Fikirləşib uşaqlar
Sonra bildilər: bunu
Alıb qoca dalandar.

## TƏLƏSƏNDƏ

Qəribədir bu Əkbər,
İş görəndə tələsər.

Bu tələsmək ucundan
Çəkər başı min bəla.
Nənə deyər bu zaman:
— Çox tələsmə, ay bala!

Bir iş dalınca gedər,
Heç vaxtında qayıtmaz,
Anası da deyinər:
— Harda qaldı yarıtmaz?

O gün qaçdı, nə qaçdı,
Sanki vardı qanadı.
Ayaqları dolaşdı,
Daşa dəyib qanadı.

Alıb sınmış qələmi
Elə tələsdi ki, o,
Yondu ildırım kimi,
Barmağını kəsdi o.

Üzərində kötüyün,
Odun doğradı o gün.
Baltanı elə əydi —
Onun qıçına dəydi.

Görüb böyürtkanları
Əllərini uzatdı.
Kolların tikanları
Barmaqlarına batdı.



Çağıraraq anası
Bağlama verdi ona.
Söylədi ki, balası,
Bunu apar atana.
O, tarlaya tələsdi,
Qaçdı, yel kimi əsdi,
Yenə şimşəyə döndü,
Yenə küləyə döndü.
Gəlib arxa çatanda,
Hövsələsi daraldı.
O tullandı,
bu anda
Qazanı yerə saldı.
Yeməyi su apardı,
Əkbər haray qopardı...

O, məktəbdə dərsini
Elə tez-tez danışdı —
Fikirləri dolaşdı,
Sual verdi müəllim.
Əkbər danışdı, susdu
Danışdı, amma, çaşdı.
Yazı yazdı dəftərə
Böyük ləkə saldı o.
Odur ki, səhər-səhər
Yağlı «iki» aldı o.

Qəribədir bu Əkbər —
İş görəndə tələsər.
Bir gün dedi nənəsi:
— Yelə dönmə boş yerə.
Bir məsəl var, tələsən
Bala, düşər təndirə.

## QIŞ YUXUSU

— Dedin yatır, anacan,
Bütün qışı ayılar
Yeyib-içməyib yatan
Yuxudan heç ayılar?!
— Hə, ayılır, ölməyir...
— Mağarada nə yeyir?
— Heç nə yemir, qadası,
Bütün yayı, payızı
Gəzir açıq havada.
Yeyir, içir, kökəlir —
Qışdasa mağarada
Rahat yatır, dincəlir.

## QORXUTMASIN QAR SƏNİ

Ay mənim qəşəng qızım,
Gül qızım, çiçək qızım,
Niyə əsir dodağın,
Niyə solur yanağın?
Soyuqmu var canında,
Üşüdün peç yanında?
Ay qızım, dur ayağa,
Qısılma bu otağa.
Çöllərə nəzər yetir,
Yağan qar nə gözəldir!
Təpələrə doğru qaç,
Qar üstündə cığır aç.
Gey, qızım, yun donunu,
Gözəldir qar oyunu.
Dostlarınla görüş sən,
Xizəyində sürüş sən.
Gey, qızım, yun donunu,
Gözəldir qar oyunu.



Evdə boynunu burma,
Peç yanında oturma.
Çağırır dostlar səni,
Qorxutmasın qar səni.

# "Qızımın sualları" kitabından
(1973)

## ŞERLƏR

### AZƏRBAYCAN TORPAĞINDA

Azərbaycan – Odlar yurdu,
Qəhrəmanlar,
Sənətkarlar vətənidir,
Qara qızıl məskənidir.
Ulduz-ulduz çiçəklər var
Hər çölündə,
hər dağında.
Əfsanəvi,
Gözəl şəhər ucalıbdır
Xəzərimin qucağında.
Məktəbliyəm,
"Ana" sözü, "Vətən" sözü
Yazılmışdır
Dəftərimin varağında.
Çiçəklənib doğma diyar,
Təzə-təzə kəndlər düşüb
Arazla Kür qırağında.
O güclənib, qüdrətlənib,
Adı düşüb dildən-dilə,
şöhrətlənib.
Tanıyırlar bu gün onu
Dünyanın hər bucağında.
Azad,
xoşbəxt böyüyürəm
Azərbaycan torpağında!



### NƏĞMƏ

Müəllimindən Məsmə
Öyrəndi təzə nəğmə.
O sevinə-sevinə,
Qayıdıb evlərinə
Çağırdı Yasəməni,
Öyrətdi bu nəğməni;
Yasəmən də Süsənə,
Süsən isə Həsənə.
Həsən də qardaşına.
Qardaşı yoldaşına.
Yoldaşı Etibara,
Etibar Yadigara,
Yadigar da İlqara.
O nəğmə düşüb dilə
Yetişdi Afətgilə.
Onu Afət öyrəndi,
Bütün həyət öyrəndi.

Bir istirahət günü
Yığışaraq qız, oğlan.
Oxudular nəğməni
Həyətdə bir ağızdan!

### QIZLAR VƏ ULDUZLAR

Küçəmizin qızları
Seyr edir ulduzları:
--Bax, o ulduz mənimdir,
--Yoz, yox, Yasəmənindir!
--Mənimki dağ başında,
Lap üfüqün yanında.
--Mənim ulduzum çiçək,
Hamısından da qəşəng...

Bu söhbət na yaraşır
Bapbalaca qızlara!
Ulduz olub qarışır
Onlar da ulduzlara.

**ALMA BAĞI**

Bahar çağı,
Alma bağı
Ağ don geyir.
--Gəl, gəl—deyir.
Başdan-başa,
Bir tamaşa.
Süd kimi ağ,
Şəffaf, parlaq!
Budaqlarda,
Yarpaqlarda
Elə bil ki
Qar dənəsi
Donub qalib.
Kəpənəklər
Qopub qalıb.

Ağ dənizdir
Alma bağı.
Çiçəklərdən
Rəng alacaq
Göy qurşağı.
Səhər çağı,
Axşam çağı,
Ətir saçır
Alma bağı!
Açılıbdır
Gör nə qədər
Ağ paraşüt,



Hər bir ağac
Topa bulud!
O buludlar
Uçacaqdır.
Bağ yamyaşıl
Qalacaqdır.
Ağ işıqdır
Alma bağı,
Təbiətə
Yaraşıqdır
Alma bağı!

**ƏLİFBA BAYRAMI**

Məktəb... Geniş bir salon...
Bəzəkli, nurlu səhnə.
Oturub baba, nənə.
Yenə gəldi qonaqlar,
Hamı doldu salona.
Bu gün bayramdır, bayram—
"Əlifba" çatıb sona.
Müəllim təbrik etdi
Mehriban qonaqları,
Bağrına basıb öpdü
O bir-bir uşaqları.
Hər şagirdin əlində
Böyüdülmüş hərf var,
Sevincdən yerə-göyə
Sığmır kişik uşaqlar.
Nəğmələr deyə-deyə
Qızlar qalxdı səhnəyə.
Biri çiçək kimidir,
Ağ kəpənək kimidir.
Rəqs edib fırlandı o,
Səhnədə dolandı o.

Şənlik xeyli uzandı,
Güldü,sevindi hamı.
Gözəl keçdi, xoş keçdi
Bu "Əlifba bayramı!"

## QIZIMIN SUALLARI

–Necə olur ki, hər gün
Səhər-səhər çıxır gün.
O qədər işıq salır,
İşığı hardan alır?!
Bəs necə dolu-dolu
Yağır yağış, qar, dolu?!
Niyə duman ağ olur,
Ay bəzən oraq olur?!
Göylərdə nə partlayır,
Şimşək necə parlayır?!
Hardan axıb gəlir çay,
Harda, necə bitir çay?!
Hamı yatanda gecə
Nəhəng fil yatır necə?!
Necə yatır şir, bəbir,
Mənə söylə birbəbir.

Qanad açıb uçduqca
Qızımım xəyalları,
Danışır, hey danışır,
Tükənmir sualları.

## QAZLAR

Çəmənə bax,
Şəfəq düşür güllər üstə.
Qazlar gəlir
dəstə-dəstə.



Ayaqları
Sanki əncir yarpaqları.
Dimdikləri sapsarıdır,
Ağ tükləri
Bir yumağın saplarıdır.
Uzaqlara gedir onlar,
Sıx otluqda itir onlar.
Bəziləri yeyib otu,
doyub yatır,
Başlarını
Tüklərinin arasına
qoyub yatır.
Qorxutsanız bu qazları,
Uzanacaq
boğazları.
Qaqqıldaşa-qaqqıldaşa
Səs salacaq
dağa-daşa.
Gəldi qızlar,
Hürkdü qazlar,
Qanadını aça-aça.
Qaça-qaça,
Arxlar üstdən uça-uça
Dönüb selə,
yelə qazlar,
Doluşdular gölə qazlar!

## DUMAN GƏLDİ

Aşa-aşa, daşa-daşa
Duman gəldi,
Sürünərək düz üstümə
Yaman gəldi.
Mən baxıram.
Göyün yeddi

Qatı duman.
Axıb gəlir qalın duman.
Qaçıb getdim itirmədən
Bir anımı,
Axıb-axıb tutdu mənim
Dörd yanımı.
Dayanmadan ildırımtək
Yenə qaçdım.
Duman gəldi, yenə ondan
Uzaqlaşdım.
Sanki minib ağ kəhəri
Çapdı duman.
Yüyürsəm də, gəlib mənə
Çatdı duman.

**XƏTKEŞ HANI?!**

–Xətkeş hanı?!
Axtarırlar hər bir yanı.
Kitabların arasına,
Dəftərlərin arasına
Həsən baxıb
Tomris baxıb,
Xətkeş sanki yoxa çıxıb.
Süsən isə durub baxır,
Bir kənardan,
Gözlərini
Çəkə bilmir uşaqlardan.
Axtarırlar hər bucağı,
Başdan-başa bu otağı.
–Xətkeş hanı?!
Axtarırlar
Bu otaqda hər bir yanı.
–Ay qız, Süsən,
Axtarmırsan, söylə niyə?!



Nə baxırsan
Gözlərini döyə-döyə?
Sakit-sakit
Elə baxır bayaqdan qız.
Sonra çıxır
Yavaş-yavaş otaqdan qız.
–Xətkeş hanı?!
Axtarırlar hər bir yanı.
Həsən deyir:
–Nə məndədir, nə səndədir,
Demək, xətkeş Süsəndədir!

**BALACA BİR OTAQDA**

Bir aydır qardaşımın
Görməyirəm üzünü.
Bir aydır eşitmirəm
Söhbətini, sözünü.
Bibim onu özüylə
Aparıbdır Göy gölə.
Anama deyirəm ki,
Ay ana can, zəng elə.
Mən onunla danışım,
Mən bibimlə danışım.
Görüm necə keçirir
Günlərini qardaşım?
Anam deyir: –Ay qızım,
Təzə bir telefon var.
Bir-birini həm görür,
Həm danışır adamlar.

Kiçik işıqlı otaq...
Stol, kreslo, divan.
Televizora oxşar
Yan-yana iki ekran.

Mən anamla yanaşı
Divanda otururam.
Əlimi stoldakı
Telefona vururam.
Anam deyir: –Dinc dayan.
Zəng çalınır bu zaman,
Götürürəm dəstəyi
Səbirlə gözləyirəm.
Axı nə qədər dözüm?!
–Allo, allo,–deyirəm,
Nə bir səda, nə bir səs,
Cavab verməyir heç kəs...

Elə bu anda,
Kiçik ekranda
İşıqlar yanır,
Şəkil canlanır.
–Ana, ay ana,
Bir bax ekrana.
Qardaşımı görürəm,
Ona salam verirəm.
Aramızda dağlar var,
Çöllər, düzlər, bağlar var.
Nə olsun ki, qardaşım
Bakıdan uzaqdadır.
Ancaq indi mənimlə
Sanki bir otaqdadır.
Dayanmışıq üz-üzə,
Biz baxırıq göz-gözə.
Deyirəm ki, ay Qəni,
Sən də görürsən məni?!
Orda da vardır divan?!
–Hə–deyib gülür oğlan.
O qaldırır əlini,
Sığallayır telini.



Gah oturur, gah durur,
Gah da mənə göz vurur.
Birdən itir qardaşım,
Sonra görünür yenə.
–İylə,–deyə uzadır
Bir dəstə çiçək mənə.
Ekranda olduğunu
O bir anlıq unudur.
Gülürəm sözünə mən,
Onu da gülmək tutur.
Deyir:–Gəzib hər yeri,
Dərmişəm bu gülləri
Göy gölün kənarından,
Hacıkənd yollarından.
Güllər elə çoxdu ki,
Tutur tamam ekranı.
Eşitsəm də səsini,
Mən görmürəm oğlanı.
Ekran birdən dəyişir,
İndi bibim görünür.
Elə sevinirəm ki,
Ürəyim dağa dönür.

Yaşasa da qardaşım
İndi çox-çox uzaqda,
Görüşdüm onunla mən
Balaca bir otaqda.

## QƏRİBƏ ÇƏPİŞ

Bir dəstə ot dərmişəm,
Çəpişimə vermişəm.
O baxmayır yeməyə,
Elə mayallaq aşır.
Sonra da otlamağa
Dağa-daşa dırmaşır.

## BAĞBAN

Çox sevirəm sahili,
Mən—sahilin sahibi.
Burda güllər əkən mən,
Qayğısını çəkən mən.
Sahildə səhər-axşam,
Gəzir nə qədər adam.
Hamı yanımdan ötür,
Heç biri məni görmür.
Eybi yox, ancaq onlar
Güllərimi görürlər.
Güllərimi görənlər
Əllərimi görürlər.

# *QULAM HAQQINDA ŞERLƏR*

## QULAM QONAQ GEDƏNDƏ

Qonaq gedəndə Qulam,
Tamam dəyişir, tamam.
Heyva görsə heyvanı,
Halva görsə halvanı.
Görsə alma, gilas, nar,
Armud. əzgil, gilənar
Dərhal istəyir Qulam,
–Tez verin—deyər Qulam.
Alıb elə yeyər ki,
–Yenə verin!—deyər o.

İnanmasanız mənə,
Siz gedin evlərinə.
Alması var Qulamın,
Gilası var Qulamın,



Heyvası var Qulamın,
Halvası var Qulamın.
Ancaq evdə nə yeyər,
Nə də ki,–verin,–deyər.

Qonaq gedəndə Qulam,
Tamam dəyişir tamam.
Dovşan görsə dovşanı,
Maşın görsə maşını,
Dəftər görsə dəftəri,
Kəmər görsə kəməri
Uşaqlardan alar o,
Küy-mərəkə salar o.
Getməyib deyər Qulam:
–Gərək bu evdə qalam.

İnanmasanız mənə,
Siz gəlin evlərinə.
Kəməri var Qulamın,
Dəftəri var Qulamın,
Dovşanı var Qulamın,
Maşını var Qulamın,
Ancaq evdə oynamaz,
Heç birilə dost olmaz.

O, evdə şokoladı,
Əzdi, sıxdı, korladı.
Qonaq gedəndə ancaq
Cəld beşini götürdü.
Əlində bərk tutaraq
Bircə-bircə ötürdü.

Qonaq gedəndə Qulam,
Tamam dıyişir tamam!

## QULAMGİLƏ QONAQ GƏLİR

Qulamgilə qonaq gəlir,
Gör, nə qədər uşaq gəlir.
Gəlir İdris,
Gəlir Tomris,
Gəlir Həsən,
Gəlir Süsən.
Hamısı da bir ağızdan
Deyir:–Salam!
Salam almır
Ancaq Qulam.
Bir tərəfdə durub baxır,
Boynunu da büküb baxır.
Qoşularaq uşaqlara,
Bu balaca qonaqlara
Sakit Qulam,
yaxşı Qulam.
Birdən-birə
Dönür şırə,
Olur tamam
başqa adam!
Təpik vurur boz ayıya,
Cəld atılır çarpayıya.
İşə salır qılıncları,
Qalxan edir balıncları!
Fit çalaraq
Uşaqları yarışdırır,
Qab-qacağı,
Oyuncağı
Bir-birinə qarışdırır!
Maşın verir Tomrisə o,
Dovşan verir İdrisə o,
Sonra isə dava salır,
Maşını da,
Dovşanı da



Uşaqlardan geri alır,
Oxlov tapır,
Bir at kimi evdə çapır.
Arxasınca
Qaça-qaça
Gedir İdris,
Gedir Tomris.
Gedir Süsən,
Gedir Həsən!

Qulamgilə qonaq gəlir,
Gör nə qədər uşaq gəlir.
Görən kimi uşaqları,
Bu balaca qonaqları
Sakit qulam,
yaxşı Qulam
Birdən-birə
Dönür şirə
Olur tamam,
başqa adam!

## QULAM ÇIXIR HƏYƏTƏ

Qulam çıxır həyətə,
Hamı gəlir heyrətə.

Onu görüb Alabaş,
Çəkilir yavaş-yavaş.
Qorxudan məstan pişik,
Qaçır astadan pişik.
Baxa-baxa Qulama,
Dərhal sıçrayır dama.
Qaçırlar evə sarı
Həyətin oğlanları.
Qızlar verib səs-səsə,

Qaçırlar bir nəfəsə.
Görəsən, bu, nə sirrdir,
O, pələngdir, ya şirdir?!
Çox pis adəti vardır,
Yamanca dalaşqandır!

Qulam çıxır həyətə,
Hamı gəlir heyrətə.

Əlində kitab tutub,
O, dünyanı unudub.
Elə kitabı açır,
Öz-özüylə danışır.
Qorxub qaçan Alabaş
Qayıdır yavaş-yavaş.
Pişik çıxsa da dama,
Elə baxır Qulama.
Gəlir Qulama sarı,
Həyətin oğlanları.
–Gəlin baxın, uşaqlar,
Şəkilli kitabım var.
Oğlanlara o bir-bir,
Şəkilləri göstərir.

Qulam çıxır həyətə,
Hamı gəlir heyrətə.

Qaça-qaça Alabaş.
Gedir üstünə birbaş.
Pişik də görüb onu,
Bulayır quyruğunu.
Qaçırlar ona sarı
Həyətin oğlanları!



## VELOSİPED SÜRƏN QAZ

Bir qaz
Kefi saz
Velosiped sürürdü.
Nə yol,
Nə kol,
Nə də adam görürdü.
Gah qalxırdı yamaca,
Gah dəyirdi ağaca.
Gah çəpəri yıxırdı,
Gah da yola çıxırdı.
Keçirdi şımşək kimi,
Od kimi, külək kimi.
Bəzən elə çaşırdı,
O mayallaq aşırdı.
Qışqırırdı ana qaz:
–Belə sürmək yaramaz!

Anasının sözünü
Almayıb vecinə o,
Bərk-bərk sürdü yenə o.
Getdi çox-çox uzağa,
Gah çəmənə, gah bağa.
Yolda görüb bir dərə
İstədi ki, döndərə.
Bacarmadı:–Ay!—deyə
Yumalandı dərəyə.
Qorxub boynunu əydi,
Daşa dəydi, nə dəydi.
Onun gözü qaraldı,
Bir neçə yara aldı.
Hönkürüb ağladı qaz,
Duranda axsadı qaz.
–Velosiped bəs hanı?!
O seyr etdi dörd yanı.

Gördü sınıb çox yeri,
Sınıb iki təkəri.
Ufuldadı, zarıdı,
Ayağını sarıdı.
Baxdı, baxdı son kərə,
Həm əzilmiş təkərə,
Həm də öz ayağına,
Səs gəldi qulağına.
Qışqırırdı Ana qaz:
–Belə sürmək yaramaz!

## KÜLƏK ƏSƏNDƏ

Külək əsir, suları
Dalğa-dalğa aparır.
Toqquşduqca dalğalar
Köpüklənib ağarır.
Ağ çıçəklərə bir bax,
Baxıram, yoxdur sayı.
Bəlkə çımir dənizdə
Yüz-yüz, min-min qağayı?!

## İSTİ NƏFƏS

Bir cücə,
Gizlicə
Ayrılaraq dəstədən,
Hoppandı çəpər üstdən.
Düşündü:"Gedim, gəzim,
Gəlsin uzaqdan səsim".
Ətrafa baxa-baxa,
Gəlib çıxdi bir bağa.
Sıx-sıx idi budaqlar,
Yaşıl idi yarpaqlar.



Yetişmişdi tut, gilas,
O dedi:–Yeyim bir az...
Tox olsun qarnım barı.
Yerə düşən tutları
Bir-bir dimdiklədikcə,
Sevindi, güldü cücə.
Gördü xeyli qabaqda,
İri yaşıl budaqda
Oturub arıq, kiçik,
Sarı rəngli bir pişik.
Cücə qaçdı, nə qaçdı,
Qanadını da açdı.
Pişiyin gözü yandı,
Rezin kimi uzandı.
Bu vaxt qoca bir bağban,
Pişiyi qovdu bağdan.
Cücə çox razı qaldı,
Rahatca nəfəs aldı.
Yenə də gəzə-gəzə,
Gəlib çıxdı bir düzə.
Gah durdu,
gah yüyürdü,
Birdən,
aman... nə gördü?!
Başının üstə kölgə:
Daşdır, qayadır bəlkə?!
Gəlir qapqara bir şey,
Aha, gördü leydi, ley.
Cumur yerdən qoparsın,
Onu göyə qaldırsın.
Gah ora qaşdı cücə,
Gah bura qaçdı cücə.
O, haldan-hala düşdü,
Yumaq kimi büzüşdü.

Bu vaxt
bir it yüyürdü,
–Ham... Ham...
elə ki, hürdü,
Geri dönüb getdi ley,
Uzaqlaşdı, getdi ley.
Sevincdən qanad açdı,
Cücə meşəyə qaçdı.
Meşə gəldi xoşuna,
Çıxdı ağac başına.
Budaqlardan sürüşdü,
Dar bir cığıra düşdü.
Qaçdı,
hoppandı cücə,
Birdən dayandı cücə.
Baxdı ki,
çaqqal gəlir,
Görsə onu tutacaq,
Tikə kimi udacaq.
Aman, indi nə etsin,
Haraya qaçıb getsin?!
Nəfəs alıb dərindən,
Tərpənmədi yerindən.
Çaqqal gəlirdi birbaş,
Üstünə
yavaş-yavaş.
Od keçirdi canından,
Çaqqal ötdü yanından.
Nəfəs aldı o, rahat,
Yenə açdı qol-qanad.
Meşədən çıxdı tamam,
Gördü ki, düşür axşam.
Göyün üzü tutuldu,
Hava bərk soyuq oldu.
Yaman üşüdü cücə,



Yağışa düşdü cücə.
Soyuqdan tir-tir əsdi,
Qaçıb hinə tələsdi.
Elə ki, gəldi çatdı,
Dərhal özünü atdı
Anasının üstünə.
Ağladı dönə-dönə.
Cücəni aldı ana
Qanadının altına.
Çox rahat oldu indi
Bircə anda isindi.
O, unutdu hər şeyi,
Həm pişiyi, həm leyi.
Dedi:–Bir də qaçmaram,
Hindən uzaqlaşmaram.
Hər qorxunu unutdu,
Cücəni yuxu tutdu.

## QIZ VƏ GÜNƏŞ

–Günəşə bax, ay ana,
Enibdir dağ başına.
Getsəm ona çataram?!
–Çatarsan!
–Əllərimi uzatsam
–Mən günəşi tutaram?!
–Tutarsan!
–Eh, nədənsə qorxuram
Mən bir az...
Tutsam əgər günəşi
Partlamazmı şar kimi?!
–Partlamaz!

## DAĞLARDA ŞƏHƏR

Şose yolları
Qalxır yuxarı.
Balaca bir qız
Gedir maşında.
Qızıl, qırmızı
Lenti başında.
Deyir:–Ana, bax,
Nə ucadır dağ!
Dönüb ağ yelə
Dağın döşüylə
Bir qatar gedir,
Nə sürətlidir!
Ağ təkərləri,
Titrədir yeri.

Dağın yolları,
Qalxır yuxarı.
Maşın elə bil
Uçur göylərə.
Açılır sağda
Gözəl mənzərə.
Uçur buludlar,
Əl atsan çatar.
Görünür şəhər,
Ağappaq evlər.
–Ana, o nədir,
Havada gedir?
–Xırda vaqonlar!
Qızım, filizlə
Doludur onlar.
–Bəs gedir hara?!
–Bax, o dağlara!
Bir gör nə oldu!



Qopdu gurultu,
Qulaq tutuldu.
–Uçur, qaya, dağ,
Ana, qayıdaq...
–Qorxma, a şeytan,
Dağı partladan
Mədənçilərdir.
Bu Daşkəsəndir,
Yeni şəhərdir!
Orda fəhlələr
Yoruldum demir.
Yarıb dağları,
Çıxarır dəmir.

Qalxır maşında
Dağa, Yadigar.
Dağlar başında
Gözəl şəhər var!

## QAPIÇI

Qapıya gələn topu
Dərhal qaytarır geri.
Topu özü atanda
Xoruz kimi dayanır.
Top qapıya çatanda
Pişik kimi tullanır.
Topu elə izləyir,
Gah durur, gah əyilir,
Başı üstdən quş uçur
O quşu da top bilir.
Elə cəld tutur topu.
Tutur bir şimşək kimi,
Top bucaqdan gələndə
Sıçrayır pələng kimi.

Lap vaxtında sıçrayıb
Topu havada qapır.
Oyun qurtarır... Ancaq
Keçilməz qalır qapı!

## DOSTLUQ QATARI

Uzaqdan bizim elə
Dostluq qatarı gəlir.
Qatarda uşaqların
Əziz dostları gəlir.
Vağzala gül-çiçəklə
Axır nə qədər adam.
Çay kimi aşıb-daşır
Perronlarda izdiham.
Sevil də həyəcanla
Cumur o yan-bu yana.
Gəlir bu gün yanına
Əziz dostu Oksana.
Hələ qızlar yaxından
Görməyib bir-birini.
Açıblar kitab kimi
Ancaq ürəklərini.
Girir vağzala birdən,
Girir dostluq qatarı.
Qatarda uşaqların
Gəlir əziz dostları!
Pəncərədən,
Perrondan
Totuq əllər uzanır,
Təkcə əllər yox, həm də
Əlvan güllər uzanır.
Axır sevinc dalğası,
Hər tərəf aşıb-daşır.
Dostlar ləpələr kimi



Öpüşür, qucaqlaşır.
Sevıl tutur bacıtək
Oksananın əlindən.
Gəlib sarı saçlı qız
Ukrayna elindən.
Nəğmələr deyə-deyə
Hamı verib əl-ələ,
Bağlardan, küçələrdən,
Keçirlər gülə-gülə.
Bakıya qatar gəlib,
Qatarda dostlar gəlib.
Bu qatarın gəlişi
Bir bayrama çevrilib.

## AĞ DƏNİZDƏ BİR GƏMİ

Hara baxırsansa bax,
Böyük dəniz ağappaq!
Dənizdə qaya kimi
Üzüb gedir bir gəmi.
Gülər üzlü, mehriban
Cavan qızdır kapitan.
Burda nə qasırğa var,
Nə su, nə də dalğa var.
Hər yan pambıq, qartək ağ,
Açılır saçaq-saçaq.
Bəzək verir bu yerə,
Bənzəyir ağ güllərə.
Maşının od əlləri,
Dərir bu ağ gülləri.
Üzür axşama kimi
Ağ dənuzdə bir gəmi!

## YAĞ, YAĞIŞ!

Çəmən yaşıl,
bağ yaşıl.
Yağ, yağış,
şırıl-şırıl.
Mirvari damlaların,
Qaçırtsın adamları.
Çimsin yaşıl budaqlar,
Fərəhlənsin uşaqlar.
Qoy çətirlər açılsın,
Təzə ətir saçılsın.
Təmizlə
göyü,
yeri,
Cana gətir çölləri.
Çox istidir
yay, yağış!
Ara vermə,
yağ, yağış!
Sərin, yağış,
ağ yağış!
Şırıl-şırıl
ax, yağış!
Biz görək
sular şır-şır,
Dağda, daşda, yamacda,
Sel kimi aşır-daşır.
Yağ
şən-şən,
yay yağışı,
Aş,
daş,
yağ
yaxşı-yaxşı!



## BULDOZER

Gündüz-gecə
Işlədikcə
Bir buldozer,
Titrəyir yer.
Gah dayanir.
Gah fırlanır.
Qarşısına
Torpaq dolur;
Çoxaldıqca
Təpə olur.
Maşın gedir
Gah irəli,
Gah da geri.
Kanal çıkib
Qazır yeri.
Bir qız gəlir
Baxır ona;
Nərildəyən
Bu maşına.
Buldozerçi
Qardaşıdır,
Güclü olmaq
Nə yaxşıdır!

## GÜNƏŞIN NƏĞMƏSİ VAR...

Günəşin nəğməsi var:
Şüa-şüa işıqlar.
Bu od rəngli nəğməni
Sevir bütün uşaqlar.
Nəğmə kimi yayılan
Hər şəfəq bir incidir,
Uşaqların gülüşü,

Fərəhi, sevincidir.
Qızılgülə çevrilir
Üzündə, yanağında,
Nəğmə olub səslənir
Qəlbində, dodağında.
Təbəssümə çevrilən
Bu şəfəqlər gözəldir.
Hörə-hörə uşaqlar
Qızıl çələng düzəldir.
Bütün dünya eşidir
Balaların səsini.
Onlar üçün oxuyur
Günəş öz nəğməsini.

## GÜNDÜZ QOÇAQ, AXŞAM QORXAQ

–Mən pələngəm, mən şirəm,
Əlimdə qılınc, qalxan,
Gündüz deyirdi Elxan:
Mən heç kəsdən qorxmuram
Elə ki, axşam çağı,
Hazırlandı yatağı,
Ağlayıb dedi Elxan:
–Tək yatmağa qorxuram.

## CİLDİNİ DƏYİŞSƏ DƏ...

Bir gün çaqqal,
Üzünə taxdı saqqal,
Qoydu
Başına ağ,
Uzun, dəyirmi papaq.
Geydi köynək,



Gözünə də
Keçirdi yaşıl eynək.
Çox sevindi:
–Tanınmaz oldum indi.
Toyuq, cücə,
Kimliyimi bilincə
Aram-aram
Üç-dördünü tutaram.
Çıxdı kəndə,
Lovğa-lovğa gəzəndə
Çıl-çıl bir fərə gördü,
Cəld
        üstünə yüyürdü.
Şığıdı
        ildırımtək,
Bu zaman
Gözündən düşdü eynək,
Başından da papağı,
Daşa dəydi ayağı.
Bir də gördü
Kolda qalıb saqqalı.
Itlər cumub
Kənddən qovur çaqqalı.
Ona bir deyən gərək
A çaqqal,
Axı dəyişməz səni
Eynək, papaq və saqqal!

## ÇƏYİRTGƏ VƏ QURBAĞA

Rişxəndlə qoydu lağa
Çəyirtgəni qurbağa:
–Bir sümük, bir dərisən,
Nə olar,
        düz yerisən!

–Yol getsəm də hər yana,
Mən hoppana-hoppana
Şikayətim yox yenə.
Bəlkə düz yeriməyi
Öyrədəsən sən mənə?!
Qurbağa hoppanaraq
Elə ki, düşdü gölə–
Baxdı onun dalınca
Çəyirtgə gülə-gülə.

## YEMİŞ

Bir yemiş var: sapsarı,
Üstündə naxışları.
Yarısı torpaq üstə,
Yarısı yarpaq üstə.
Yaxın tutsan bıçağı,
Çatlar onun dodağı.
Süsən dərmir yemişi,
Ona baxmaqdır işi.
Deyir:—hələ qoy qalsın,
Yaxşı-yaxşı saralsın.
–Süsən...
yemişi dər,
kəs!
–Ona dəyməsin heç kəs.
–Bax, yetişib
yemişin.
–Qoy lap yaxşı yetişsin.
Bir gün gəldi bostana
Hə gördü?!
yoxdur yemiş.
Səhər-səhər
bir dana
Sən demə, onu yemiş.



## YASƏMƏNİM

Sənsən mənim,
Gözəl-göyçək
Yasəmənim.
Pəncərəmin
Lap yanında,
Bir yaşımda
Əkib əmim,
İndi yaşa
Dolmusan sən.
Böyük ağac
Olmusan sən.
Əlim çatır
Yarpağına
Əlim çatır
Budağına.
Bəzən isə
Bir dost kimi,
Sən döyürsən
Pəncərəmi.
May ayında,
Ad günümdə,
Gül açırsan
Şad günümdə.
Bu çiçəklər
Salxım-salxım,
Gül qoxuyur
Solum-sağım.
Gözəl-gözəl
Yasəmənim,
Yasəməndir
Adım mənim.
Ən yaxının,
Dostun mənəm.
Axı mən də
Yasəmənəm.

## KÖK

–Gözəl dovşan,
Əgər doysan,
Ver yediyin kökdən mənə,
–Nə dedin, nə?!
Buna razı olmaram mən,
Axı kökdən doymaram mən.

## NAĞILLI SAHİL

Gözəl olur hər fəsil
Bizim nağıllı sahil.
Nə vaxt desən qonaq gəl,
Bura gözəldir gözəl.
Bir tərəfi Xəzərdir,
Bir tərəfi şəhərdir.
Bəzən elə görünür,
Deyirsən ki, körpüdür.
Sahil bir meydan kimi,
Gəz, dolan başdan-başa,
Hər yanı bir tamaşa.
Kiçik-kiçik çəmənlər,
Çiçəkli Yasəmənlər.
Fəvvarələr—ağappaq,
Damcılar sərin, parlaq...
Sular qalxır göylərə,
Sonra tökülür yerə.
Elə ki, işıq yanır,
Min bir rəngə boyanır.
Gah ağ göbələk olur,
Gah sarı çiçək olur.
Gəl, axşam gəmiyə min,
Üz qoynunda dənizin.
Gözəl, nağıllı sahil,



Sanırsan sahil deyil.
Çilçırağa bürünər,
Min bir rəngdə görünər.
O sahil işıqları:
Göy, qırmızı, ağ, sarı.
Bir-birinə qarışar,
Göy qurşağına oxşar.
Gözəl olur hər fəsil,
Bizim nağıllı sahil!

## İLK DƏFƏ

Süsən kitab oxuyur
Bu gün səhərdən bəri.
Görün necə tanıyır
Bircə-bircə hərfləri.

Gözləri işıqlanır,
Qəlbində sevinc duyur.
Axı ilk dəfədir ki,
Özü kitab oxuyur.

Elə ki, oxuyur o,
Çətin, təzə bir sözü.
Tez baxır anasına,
Sevincdən yanır üzü.

Oxuyur heca-heca,
Oxuyur sətir-sətir.
Deyir:–Ana can, mənə
Təzə kitablar gətir!

## ÜŞÜYÜRƏM

Yumurtadan çıxdı cücə.
Dörd tərəfə baxdı cücə.
–Üşüyürəm... hava buztək,
Evim uçub... aman... kömək...
Ana toyuq güldü ona.
Tezcə,
Ətcəbala
körpəsini
Aldı isti qucağına.

## MEHRİBAN

Onun adı Mehriban,
Onun özü mehriban.
Atası işləyəndə
Boynunu qucaqlayar.
Qollarını çəkmədən
Bax, beləcə saxlayar.
Elə şirin dili var,
Yumşaq, isti əli var.
Balaca uşaqların
Başına çəkər tumar.
Hamıyla qucaqlaşar,
Sevincdən aşar-daşar.
Onun adı Mehriban.
Onun özü mehriban.



## ŞƏLALƏ

Həm gecə, həm gündüz axırsan,
Sallanan, ağaran cığırsan.
Bəlkə də
sənsən göy qurşağı,
Enibsən dağlardan aşağı?
Bir duman, bir bulud kimisən,
Açılan paraşüt kimisən.
Qüvvətlə çırpılıb dağ-daşa,
Az qalır hər damlan nur saça.
Axırsan süd kimi ağappaq,
Çiçəklə bəzənir bağça-bağ!
Ağ tülə bənzərsən, şəlalə,
Dağları bəzərsən, şəlalə!

# *POEMALAR*

## STYOPA DAYI BAKIYA GƏLİB

Qanadlı,
şimşək atlı
Xəbərə bax, xəbərə
Yayılıb işıq kimi
Izdihamlı,
büsatlı
Bizim doğma şəhərə.
Bunu qardaş
qardaşa
Dost
dostuna deyibdir.

Sevincindən uşaqlar
Bir-birinə dəyibdir.
–Axı nə olub,
nə var?!
Bəlkə gəlib qonaqlar?!
Uşaqlar hay verərək
Bir-birinin səsinə,
Gedirlər
axın-axın
Neftçilər küçəsinə.
Odur,
sahil bulvarı,
Tutmayır uşaqları.
Kim izdiham görübdür.
Belə izdiham kimi?!
Sevinc,
şənlik,
nəğmə var
Şəhərdə
bayram kimi.
Izdihamdan
bu zaman
Mehriban səs yüksəlir:
–Uşaqlar, Moskvadan
Styopa dayı gəlir...
–Styopa dayı kimdir,
Şairdir, ya həkimdir?!
Biri çıxır irəli,
Göyə qalxır sağ əli.
O, Styopa dayını
Uşaqlara tanıdır.
Söyləyir ki, Stepan
Kitab qəhrəmanıdır.
–Tanıyırıq biz onu,
–Təkcə biz yox, tanıyır



Bütün ölkəmiz onu...
–Bəs hanı,
–Hanı,
–Hanı
O kitab qəhrəmanı?
Birdən səs-küy yüksəlir,
Uca bir kişi gəlir.
Çiyinləri qayadır,
Saçı,bığı qaradır.
Onun boyu-buxunu,
Heyran qoyur çoxunu.
Enli kürəyi vardır,
Gələn sanki çinardır.
Izdiham aşıb-daşır,
Uşaqlar pıçıldaşır:
–Bu Stepan dayıdır,
Nə mehriban dayıdır.
–Necə addım atır o,
–Görün, nə ucadır o.
Pəhləvandır elə bil,
Qəhrəmandır elə bil.
–Bığları nə uzundur.
–Bəs niyə sarı deyil?!
–Üzü də qapqaradır,
–Gözü də qapqaradır.
–Stepana oxşamır,
–Yox, heç ona oxşamır.
Bu vaxt hirslənir bir qız:
–Siz nə danışırsınız?!
Yəni bizi aldadır,
O, Styopa dayıdır!
Baxın, onun özüdür,
Onun qaşı, gözüdür.
Hamı dayanıb səf-səf,
Uşaqlardır hər tərəf...

Birdən dinir izdiham:
–Styopa dayı, salam!
Kişi heyrətlə baxır,
Baxır, hörmətlə baxır.
Təkrar edir izdiham:
–Styopa dayı, salam!
O, mehriban-mehriban
Əllərini yzadır:
–Nə dediniz... Stepan?
Mənim adım Musadır.
Qopur gurultulu səs:
–Yox, yox, bu ola bilməz.
–Əgər belə olmasa,
Yalan danışmaz Musa...
Mən dağlardan gəlmişəm,
Uzaqlardan gəlmişəm.
Yalan demək olarmı,
Ay uşaqlar, inanın,
Yəni oxşarı varmı,
Mənimlə Stepanın?
Gülə-gülə uşaqlar,
Bərkdən qışqırır:–var, var.
Bəlkə qohumsunuz siz,
Bəlkə də doğma qardaş?!
Musa dayı gülərək
Söyləyir:–Dinləyiniz,
Stepan mənə yoldaş,
Stepan mənə sirdaş.
Cəbhədə görüşmüşük,
Yanaşı döyüşmüşük.
Bir olubdur boyumuz,
Təkcə boyumuzmu?
Yox,
Çörəyimiz, suyumuz!
Bir sırada durmuşuq,



Neçə düşmən vurmuşuq.
Dostum olub Stepan,
Dostum olub hər zaman!
Tez-tez yada salıram,
Ondan məktub alıram.
Moskvada, sərgidə,
Rast gəldim o igidə.
Qardaş kimi görüşdük,
Qucaqlaşdıq, öpüşdük.
Yazıb bir şair ondan,
Gözəl, məzəli dastan.
Bu mənalı əsərdən
Siz ki xəbərdarsınız.
Buna görə də məni
Ona oxşadırsınız.
Sizə şad xəbər verim,
Ay uşaqlar, bir aya,
Bizim Styopa dayı
Gələcəkdir Bakıya...
Şən səslər, uğultular
Izdihamı dolaşdı,
Uşaqların sevinci,
Fərəhi aşdı-daşdı.
Musa dayı onlara
Dağlardan söhbət açdı.

***

Günəş Bakıya enib,
Şəhər yenə bəzənib.
Gözəl bir hava vardır,
Hara baxırsan işıq...
Gül kimi balalardır
Küçələrə yaraşıq...
Adamlar intizarla

Eyvanlardan boylanır.
Hamı gedir vüqarla,
Üzlərdə sevinc yanır.
Bizim Bakıya bu gün
Əziz bir qonaq gəlir.
Qonağı görmək üçün
Nə qədər uşaq gəlir!
Hamı küçəyə çıxıb,
Gülür oğlan, gülür qız.
Sanki ayağa qalxıb
Bizim doğma Bakımız.
Dalğalanır izdiham,
Bu zaman səs yüksəlir:
–Musa dayıyla birgə
Styopa dayı gəlir!
Gəlir iki bahadır,
Gəlir qoşa çinartək.
Vüqarlı addım atır,
Əllərində gül-çiçək.
Tutur geniş meydanı
Uşaqlar dəstə-dəstə.
Stepan bir oğlanı
Alır qolları üstə.
Qaldırır lap yuxarı,
Oğlan gülüb əl çalır...
–Salam, Styopa dayı,
Deyə səslər ucalır...
–Salam, uşaqlar, salam!
Aşıb daşır izdiham.
Musa dayı çiyninə
Alır kiçik bir qızı.
Dostuyla birgə yenə
O, gəzir Bakımızı.
Keçəndə küçələri,
Keçəndə meydanları,



Hamı sevinc içində
Qarşılayır onları.
Xoş ətir yayılırdı
Gözəl,
nurlu havadan.
Sevinirdi uşaqlar,
Çünki Styopa dayı
Gəlmişdi çox uzaqdan,
Gəlmişdi Moskvadan!

## TAKSİ SÜRÜCÜSÜ

Ey balaca yoldaşım,
Əziz dostum, tanışım,
Gəlin, sizə işimdən,
Həyatımdan danışım.
Üstündə maşınımın
Naxış var: dama-dama,
Hazır dayanmışam mən,
Lazımam hər adama!
Az qalır ki, hamıya
"—Gəlin, əyləşin"—deyəm.
Şərəflidir vəzifəm,
Taksi sürücüsüyəm.
Sərnişinim olmasa
Yaşıl işığım yanar,
Əl eləsən, maşınım
O dəqiqə dayanar.
Hara desən aparım,
Dürüst söylə ünvanı,
Qorxma,
əllərimdədir
Maşınımın sükanı!
Yorulmazsan heç zaman,
Bütün günü gəz, dolan.

Evim kimi tanışdır
Mənə hər tin, hər dalan.
Tanıyıram şəhəri
Ovcumun içi kimi.
Çətin bir iş varmıdır
Sürücü işi kimi?!
Səhər heç açılmayıb,
Mən isə oyanıram.
Parka gəlib maşının
Yanında dayanıram.
Çıxıram şəhərə mən,
Nurlu küçələrə mən.
Görürəm tək bir adam,
Yanında da çamadan.
"Taksi... taksi!" çağırır
Yaxınlaşıram ona.
–Məni tez çatdır, qardaş,
Təyyarə meydanına.
Bilirəm, gecikir o,
Narahardır, narahat.
Maşını ildırımtək
Mən sürürəm o saat.
Maşında yox, uçuram
Şimşək qanadında mən.
Təyyarə meydanına
Vaxtında çatıram mən.
Elə bu dəm səslənir
Maşınımda telefon:
–Sifariş var, sifariş,
Park küçəsi, nömrə on...
Həmin ünvana doğru
Maşınımı sürürəm.
Montin qəsəbəsində
Bu nədir,
nə görürəm?!



Görürəm ki, bir qarı:
–Ay aman, kömək—deyir,
Yıxılıb yerə dəyir.
Heç bilmirəm nə edim
Bu ağ saçlı anaya?!
Aparıram onu mən
Dərhal xəstəxanaya.
Od kimi çıxıb ordan,
Yelə dönüb əsirəm,
Telefonla verilən
Ünvana tələsirəm.
Bax, bu da həmin ünvan,
Dayanıb gözləyirəm.
Yaxınlaşır bir cavan,
–Buyur, əyləş—deyirəm.
Üzünə baxan kimi
Tanıyıram mən onu;
"Neftçı" komandasının
Gözəl oyunçusunu.
Fəhlə minir maşına,
Mühəndis,
memar minir.
Nə sayım, birmi, üçmü,
Şair, bəstəkar minir.
Özbək, qırğız, erməni,
Bütün qonaqlar minir.
Budur, rus qızı deyir:
–Göstər mənə şəhəri.
Görmək istəyirəm mən
Bu şəhərdə hər yeri.
Deyirəm, gözüm üstə,
Qonaqsan, ürəyindən
Nə keçirsə, de, istə.
–Nə bildin ki, qonağam?!
–Görən kimi bilmişəm...

Yaxşı, hardansınız siz?!
–Leninqraddan gəlmişəm.
–Baxın, bu İliç bağı,
Bu hökumət binası.
Bu da Xəzərdir, Xəzər,
Bakımızın aynası.
O Natəvan heykəli,
O Nizami heykəli,
O da ki, azadlığa
Çıxan ellər gözəli.
Bu tarix muzeyidir,
Bu Nizami muzeyi,
Göstərirəm şəhərdə
Gözəl nə var hər şeyi.
Bu da İçəri şəhər,
Dəhliz kimi küçələr.
Keçidə bax, keçidə,
Imarətə, məscidə.
Şirvanşahlar sarayı,
Əzəmətli bir qala
–Bax, bu da bizim Bayıl...
Gör nə qədər buruq var,
Ordu kimi dənizə
Addımlayır buruqlar.
Ünvanımı alır qız,
Məndən razı qalır qız:
–Ya payız, ya qışda siz,
Bizə qonaq gəliniz.
Gərək bir söz də deyəm.
Mən də Leninqradda
Taksi sürücüsüyəm.
–Nə yaxşı, onda hökmən,
Qonağın olaram mən!



Maşınıma mindirib
Uşaqları bir dəfə
Gəzdirirəm şəhərdə,
Gedirəm hər tərəfə.
Gəlib Dağüstü parka,
Ən uca,
Hündür yerə–
Deyirəm:
–İndi burdan
Düşün, baxın şəhərə.
Heyran-heyran Bakıya
Onlar baxır bu yerdən.
Dağdan deyil,
elə bil
Baxırlar təyyarədən.
Burdan Xəzər görünür,
Bütün şəhər görünür.
Sevirəm sakit, gözəl
Bakı gecələrini,
Keçirəm asta-asta
Nurlu küçələrinin.
Qəfildən yağış yağır,
Küçədən sel-su axır.
Bu vaxt iki uşaqla
Bir qadın görürəm.
Maşını yavaş-yavaş
Yanlarına sürürəm.
Elə ki, maşın durur,
Şişman, güclü bir kişi
Cəld maşına oturur.
Deyirəm ki, yox, olmaz
Qardaş düşün aşağı.
Məgər görmədinizmi,
Siz o iki uşağı?!
Uşaqlar sevinirlər,

Cəld maşına minirlər.
–Ana, tez ol, ana,min,
–Hə, balaca, de, səni,
Hara aparsın əmin?
Balaca oğlan gülür:
–Evimizə sür, deyə
Böyük oğlan dillənir:
–Əmi, sürün Keşləyə.
Balacanın belində
Əsgər kəməri vardır.
Kəmərindən sallanan
Taxta xəncəri vardır.
Əllərini uzadır
Tez-tez sükana sarı,
Çəkilməyir üzümdən
O dəcəl baxışları.
Böyük oğlan da mənə
Hərdən hörmətlə baxır.
Yağış hələ kəsməyir,
Yenə şırhaşır yağır...

Taksidə sürücüyəm,
Adım Yaqubdur mənim.
Ən yaxşı sərnişinlər
Dostum olubdur mənim.
Gəzirəm gah küləkdə,
Gah yağış, gah qarda mən.
Keçirirəm ömrümü
Elə bu yollarda mən.
Neçə qəsəbə varsa
Mənə tanışdır onlar,
Bütün kəndlər, küçələr,
Bütün mikrorayonlar.
Mən gedirəm Razinə,
Hövsana, Əmircana.



Çoxlu yollar uzanır
Hər tərəfə, hər yana.

Gedirəm həm zavoda,
Həm fabrikə, məktəbə.
Fərqi yox, ya şəhərdir,
Ya kənddir, ya qəsəbə,
Mənə xəbər göndərin,
Ya da sifariş verin.
Yerinizi bilərəm,
Gecikmədən gələrəm.
Siz də olun sərnişin,
Maşınıma əyləşin.
Hara olsa sürərəm,
Təkcə deyin ünvanı,
Bilin, əllərimdədir,
Maşınımın sükanı.
Mehribanım, əzizim,
Mənim yaxın tanışım,
Uzaq dostum, yoldaşım,
Sizindir, ancaq sizin,
Mənim sürdüyüm maşın,
Mənim sürdüyüm maşın!

## SEHRLİ MAŞIN, SÜSƏN VƏ TOPLAN

Göydə süzən,
Yerdə gəzən,
Suda üzən
Bir maşına mindi Süsən.
Onu sürdü,
Bir də gördü
Arxasınca
Toplan hürdü:
–Ham-ham, ham-ham...

Sənsiz burda tək qalmaram.
– Gəl, Toplanım,
Gözüm-canım.
Tez ol, gəl min,
Axi vaxtım yoxdur mənim.
Çox sevindi,
Toplan mindi,
Bu maşında
Hər ikisi gedir indi.

***

Hava xoşdur, hava təmiz,
Nə gözəldir sahil, dəniz.
Bakı qədim, böyük şəhər.
Güzgüsüdür mavi Xəzər.
Həm şəhəri,
Həm Xəzəri
Sahil bəzər.
Hər tərəfdə gül-çiçəklər,
Fırlanqıclar, yellənçəklər.
Fəvvarələr
Xatırladır zanbaqları,
Suya düşür
Söyüdlərin budaqları.
Maşına bax,
Toplana bax,
O maşından
Sallanıbdır ayaqları,
Dovşan kimi
Dimdik durub qulaqları.
Lovğa-lovğa
Yaman dartır özünü o,
Uşaqlardan
Çəkə bilmir gözünü o,



Oynadıqca bir qız topla,
Birdən dəydi top Toplana,
Hamı baxıb güldü ona.
Aşdı Toplan,
Sonra durub qaçdı Toplan.
–Ham-ham, ham-ham...
Dayan, Süsən... yoruluram...
Ham... ham...
Getdi maşın, qaçdı Toplan,
–Ham... ham...
Süsən, dayan... Süsən, dayan...
Maşın durdu,
Toplan qaçıb,
Ona çatıb.
Cəld oturdu,
–Ay Toplanım,
Gözüm-canım,
Adam heç vaxt geri qalmaz,
Belə olmaz, belə olmaz.
Gəlib keçdi avtoqatar...
–Salam, Süsən...
–Salam, Toplan...
Əl etdilər şən uşaqlar.
Bu vaxt birdən
Maşın yerdən
Göyə qalxdı,
Hamı baxdı
Həm heyrətlə,
Həm dəhşətlə...
Ah, bu nədir,
Möcüzədir!
Sanki quşdu.
Qanad açıb maşın uçdu.
Əvvəl Toplan
Qorxdu yaman:

–Ham... ham...
Aman...
Yıxılıram...
Süsən:–Qorxma—dedi ona—
Bax, hər yana,
Bax, zavoda,
Bacasından qalxan oda,
Bax, yollara, çəmənlərə,
Bax, kəndlərə, mədənlərə...
Heyran-heyran
Baxdı Toplan.
Qəsəbələr,
Boz təpələr...
Geniş çöllər,
Xırda göllər,
Yollar, bağlar,
Gedən qatar...
Təzələşib,
Gözəlləşib
Qədim qala.
Daim yanır,
Alovlanır
Burda gözəl,
Gur bir məşəl!
Toplan baxdı yerə sarı,
Gördü burda
Cərgə-cərgə düzülübdür
Yaşıl zeytun ağacları.
O, qışqırdı birdən-birə:
–Enək yerə, enək yerə...
Sahilləri doğma bilib,
Göy dalğalar axıb gəlib.
Birdən itib,
Yox, çevrilib,
Ağac olub, zeytun olub,



Hamı baxıb məftun olub!
Bir ağaca çıxdı Süsən.
Zeytunları yığdı Süsən.
Yaşıl budaq silkələndi,
Xırda qoztək
Zeytunları səpələndi.
–Tap... tap... tap-tap...
–Toplan,
Onları yığ, onları tap,
Tap-tap...
Bir neçəsi dəydi ona.
Gah üzünə, gah burnuna.
Zeytunların arxasınca
Qaçdı Toplan.
Bəzisini havadaca
Qapdı Toplan,
Gəzib bir-bir hamısını
Tapdı Toplan.

***

Getdi maşın,
Uzaqlarda itdi maşın.
Ağaclarda
Heyva qalır: sarı-sarı,
Nə gözəldir
Bizim sahil qayaları.
Bir qaya var: suda itib,
Bir qayada ağac bitib.
Dalğa gəlir, dalğa aşır,
O ağacla qucaqlaşır.
Bəs bu nədir,
Maşın getmir.
Yatıb quma,
Batıb quma.

Bu qızıl qum:–incə, narın,
Yaranıbdır
Zərrəsində dalğaların.
–Düş, ay Toplan,
Düş maşından.
Kömək elə,
Gəl, itələ.
–Ham-ham... Ham-ham...
Bacarmıram.
Maşın birdən
Qalxdı yerdən.
Uçdu yenə
Göy üzünə.
Dalğaların arasında
Çəmən kimi kiçik ada...
Bu adada heyvanlar var,
Marallar var, ceyranlar var.
Uçdu onlar şərqə sarı.
Budur, böyük Neft daşları.
Bizim Toplan
Görən zaman
Bir uca neft buruğunu,
–Ehey.. – deyib,
Heyrət edib
Dik qaldırdı quyruğunu...
Kəlləçarxda duran fəhlə,
Gülə-gülə
Əl uzatdı "təyyarəyə"
Kəpənək tək tutdu onu,
–Düşün—deyə,
–Ham-ham...ham-ham...
–Əmi, salam.
Həm qazmaçı, həm də usta,
Gördülər ki, yuxarıdan
Asta-asta



Düşür Süsən, düşür Toplan!
Onlar bura necə gəlib,
Səhər gəlib, gecə gəlib?!
Birdən Toplan döndü geri
Düşə bilmir
Axı dəmir pillələri!
–-Aman
Toplan
Yıxılarsan,
Möhkəm dayan!
Yüyürdülər,
Toplanı cəld götürdülər.
Pillələrdən
Deyib, gülüb.
Onu öpüb
Bir-birinə ötürdülər.
Elevator endi, qalxdı,
Süsən baxdı.
–Sağ ol—deyib dönə-dönə,
Yol getdilər onlar yenə.
Dəniz, şəhər,
Evlər, çənlər.
Çiçəklər var,
Dibçəklər var.
Gedir maşın,
Gedir qatar.
Sular saçtək buruq-buruq,
Hər yan buruq, hər yan buruq.
–Qəşəng Toplan,
Sən deyəsən yorulmusan?!
–Ham-ham... ham-ham...
Yorulmuşam.
Süsən güldü:–Uçaq, deyə,
Yenə qanad açaq, deyə.
Sanki quşdu,

Maşın uçdu.
Görünəndə Bakı birdən,
Toplan gülüb qalxdı yerdən.
Baxdı ona,
Maşın əsdi
Gah o yana, gah bu yana.
Bu vaxt, aman,
Düz dənizə düşdü Toplan.
Qızı qorxu, dəhşət aldı,
Yerə saldı
Cəld maşını,
Axı yoldaş
Darda qoymaz yoldaşını.
Suya elə düşdü maşın,
Qayıq olub, üzdü maşın.
Toplan sudan çıxdı üzə,
Üzə-üzə
Haray saldı:
–Ham-ham... ham-ham...
Boğuluram.
Qayıq yarıb dalğaları.
Üzdü, üzdü ona sarı.
–Qüvvə topla,
Qorxma, Toplan.
Bax, çatıram,
Buyur, hoppan.
Əlini ver,
Hə, bax belə.
Görüşdülər
Gülə-gülə.
Qayıq üzdü ildırımtık.
Bakı böyük... Bakə qəşəng...
Ucalırdı pillə-pillə,
Göydələnlər...qala... qüllə...
Heyran-heyran



Baxdı Süsən, baxdı Toplan.
Axşam oldu,
Lalə doldu
Çilçıraqlı bu şəhərə,
Qayıq çatdı sahillərə!

## USTA DADAŞ

Mərd insandır,
usta Dadaş,
Elə bil ki,
Pəhləvandır,
usta Dadaş.
Əfsanəvi
Qəhrəmandır,
usta Dadaş,
Başı elə ucadır ki,
Göyə dəyir,
Özü elə güclüdür ki,
Çiyni qaya,
qolu dəmir!
Addımını elə atır,
Bu buruqdan
o buruğa
An içində gedib çatır.
Sinəsi var,
bir meydandır,
Onu görən
Deyə bulər
bir aslandır!
Bığlarını elə burub,
Qoşa qılınc kimi durub.
Uşaq kimi
Mehribandır.
usta Dadaş,

Ömrü-günü bir dastandır.
Mərd insandır,
usta Dadaş.

Dəniz, ada...
Göndəriblər bura onu.
Gecə-gündüz
Usta qazır ilk quyunu.
Bu adada
Nə otaq, nə işıq vardır,
Dörd tərəfdə
Haray salan dalğalardır.
Burda suya batırılıb,
Burda suya yatırılıb
Yeddi gəmi,
Hər gəmilər bir ev kimi.
Usta Dadaş
Bu dənizdə quyu qazır,
Dalğaların qopardığı
Gurultuya qulaq asır.
Birdən-birə qopur haray:
–Aman, ay-ay...
–Usta, usta,
Düşdü balta...
O özünü pal-paltarlı
Atır suya.
Batır suya.
Hamı baxır intizarla.
Elə acı bir soyuq var.
Haray salır gur dalğalar.
Qaçışırlar o baş-bu baş.
Qışqırırlar:
–Usta Dadaş... Usta Dadaş...
Hamı dönüb qorxusundan.
Elə bu vaxt



Usta Dadaş çıxır sudan.
İçə düşür quyu yenə,
Balta enir lap dərinə.

Günlər keçir...
Usta qazır ilk buruğu,
Nə tufanı,
Nə dalğanı,
Nə soyuğu
görə bilir.
Hər tərəfdə boru, boru,
Düzülübdür buruq boyu.
Buruqda iş
Ağır olur, çətin olur,
Usta Dadaş
Əyilməyir,
Çalışdıqca mətin olur.
Günlər keçir—
Gah küləkli, gah dalğalı,
Fırtınalı,
qasırğalı.
Usta Dadaş
Görmür, duymur
Bu tufanı, bu soyuğu,
Qazır, qazır
Dalğaların qucağında
Ilk buruğu!
Günlər keçir—
Birdən balta
neftə çatır.
Dalğa-dalğa
Hər tərəfə xəbər çatır.
Dənizdə neft!
Dənizdə neft!
Hamı gülür,

Sevincindən aşır-daşır,
Usta Dadaş
Qollarını açа-açа,
Gözləri nur saça-saça
Fəhlələrlə qucaqlaşır.

Günlər keçdi,
Illər keçdi.
Neçə axşam, səhər oldu.
Neft daşları sütun üstə
Əzəmətli şəhər oldu.
Yavaş-yavaş
Şöhrətləndi usta Dadaş.
Gəzdi adı hər bir yerdə,
Şerlərdə, nəğmələrdə.
Usta Dadaş
O gündən ki, bu dənizə
Ayaq basdı,
Əllidən çox quyu qazdı.
Ömrü-günü
Gəlib keçdi min hünərlə,
Bağlı oldu
Bu dənizlə, bu şəhərlə.

Yanğına bax... dəniz yanır.
Neçə buruq alovlanır.
Yerdən alov
Dalğa-dalğa axır göyə,
Güclədikcə
Sütun-sütun qalxır göyə.
Görünməyib belə yanğın,
Getmək olmaz ona yaxın.
Onu görüb
Yelə dönür usta Dadaş,
Aşıb-daşan



Selə dönür usta Dadaş.
Bircə anda gəlib çatır,
Ildırımtək əl-qol atır.
Tutub rezin boruları,
Gedir, gedir
Bir od kimi oda sarı.
Elə bil ki,
Bütün dəniz əlindədir,
Qaldıracaq,
Yanğın üstə əndərəcək,
Bu yanğını
Bircə anda söndürəcək!
Qətiyyətlə,
Mətanətlə,
Alovları yara-yara
Yağış səpir,
Leysan səpir alovlara.
Heyran qalır
Ona yanğınsöndürənlər,
Deyirlər ki,
Göstəribdir əsil hünər!
Onun kimi igid hanı
Cəsarətlə deyək gərək:
–Usta Dadaş
Söndürübdür bu yanğını.
O, gəmiyə minən kimi
Bir tərəfə yatır gəmi.
Çoxu deyir zarafatla:
–Aman, aman, batır gəmi.
Usta Dadaş
Bığlarını bura-bura,
Dostlarının çiyninə əl vura-vura,
Gülüb deyir:
–Mənə belə baxmayın siz,
Heç nə olmaz, qorxmayın siz.

Gəmi gedir,
Aralıqda gah zarafat,
Gah nərd, şahmat,
Gah domino,
Gah da kino...
Külək qalxır
Görünəndə Neft daşları.
Dalğa coşur, dalğa axır,
Gəmi enir, gəmi qalxır.
Körpüyə yan ala bilmir,
Qalxır, enir,
Silkələnir.
Dalğaların ağ əlləri
Bu gəmini atır geri.
–Usta Dadaş, kömək elə,
Bəlkə çıxaq biz sahilə?!
Usta Dadaş kəndirləri
Elə atır,
Elə dartır
Dirəklərə
Elə möhkəm bağlayır ki,
Körpünü də
Elə möhkəm saxlayır ki,
Bu, qorxulu olsa belə
Hamı keçir
Bu körpüdən gülə-gülə.

Tufan gəlir,
Duman gəlir.
Qalxan dalğa
Dönür dağa.
Gəlir sanki
Ağ əjdaha.
Oynar dalğa,
Qaynar dalğa



Pələng kimi çəkir nərə,
Gah düz olur, gah da dərə.
Bəzən qalxır lap hündürə
Şəlalətək
ağ görünür,
Neçə-neçə dağ görünür!
Dəhşət olur
Dalğaların vuruşması,
Bir-biriylə toqquşması.
Tufan gəlir
Əsə-əsə,
Yaman gəlir
Kəsə-kəsə.
Buruq—bir dağ,
Əsir zağ-zağ...
Hər tərəfdən axa-axa,
Dönüb dağa,
Gəlir dalğa, gəlir dalğa!
Bir fəhlənin
Gözlərində qorxu, təlaş:
–Usta Dadaş, usta Dadaş,
Uçur buruq,
Məhv oluruq!
–Qorxma, qorxma—deyir usta,
Inam vardı gur səsində,
Dalğa gəlir,
Parçalanır
Pillələrin sinəsində.
Dörd tərəfdən axa-axa,
Dönüb dağa,
Gəlir dalğa, gəlir dalğa!
Damcıları elə atır,
Qırma kimi
Pəncərəyə gəlib çatır.
Usta Dadaş zəng eləyir,

–Allo,–deyir,–allo,–deyir—
Usta Qədir, usta Qədir...
Cavab gəlmir, cavab gəlmir.
O, çağırır yenə, yenə,
Yorulmadan, dönə-dönə...
–Usta Qədir, usta Qədir.
Cavab gəlmir, cavab gəlmir.
Kəsilməyir
Fırtınanın uğultusu,
Kəsilməyir
Dalğaların gurultusu.
Başdan-başa
Dəniz elə çalxalanır,
Kiçik otaq
Beşık kimi yırğalanır.
Dörd tərəfdən axa-axa,
Dönüb dağa,
Gəlir dalğa, gəlir dalğa.
Ürəyində
Nə qorxu var, nə də təlaş.
Dostu üçün
Narahatdır usta Dadaş.
Gurultular,
Uğultular arasından
–Qədir, Qədir!—çağırır o,
Dəniz boyu
Öz dostunu çağırır o.
–Usta Qədir, usta Qədir!
Cavab gəlmir, cavab gəlmir.
Usta Dadaş az qalır ki,
Qaça-qaça,
Dalğaları aşa-aşa,
Öz dostunun buruğuna
yaxınlaşa.



Gözlərini çəkə bilmir
pəncərədən,
Bu qəribə mənzərədən.
Davam edir.
Dalğaların vuruşması,
toqquşması...
Bu dalğalar
Şəlalətək ağ görünür,
Neçə-neçə dağ görünür.
Bu vaxt birdən
Gurultular arasından
Bir səs gəlir,
Gah kəsilir, gah yüksəlir.
–Qədir, Qədir.
Bərkdən danış, səsin gəlmir.
Necəsiniz, söylə qardaş?!
–Salamatıq, usta Dadaş,
Salamatıq, usta Dadaş.
Bütün gecə,
Bir-birini keçə-keçə,
Bir-birinə dəyə-dəyə,
Haray salıb yerə-göyə
Bu dalğalar
şahə qalxır,
coşur, axır!

Usta Dadaş deputatdır,
Ordeni var ulduzu var,
Bir ailə başçısıdır,
Beş oğlu, beş qızı var.
Çağırırlar neçə yerə,
Gecələrə, görüşlərə.
Bu gün isə bir bağçaya
Qonaq gəlib.
Qəhrəmanı görmək üçün

Gör nə qədər uşaq gəlib!
Tramvayda, avtobusda
Pıçıltıyla, yavaş-yavaş,
Deyitlər ki,
"Baxın, budur usta Dadaş!".

Şəfəq dolu
Sinəsini açır dəniz,
Üfüqədək
Uzanmışdır açıq dəniz.
Kater gedir,
Dövrəsində sular daşır.
Uzaqdakı
Bir buruğa yaxınlaşır.
Yelləndikcə
Əynindəki sarı plaş,
Göyərtədən
Durub baxır usta Dadaş!
Gedir usta
Yenə hünər arxasınca,
Yenə zəfər arxasınca!



# "Meşədə səs" kitabından
(1969)

## ŞERLƏR

### SÜSƏN VƏ GÜNƏŞ

Günəşin şəfəqləri
Axıb dolur otağa
Susən qaçır,
əlləşir
Şəfəqləri tutmağa.
Rəqs eləyən şəfəqlər
Elə xoş,
elə titrək...
Başdan-başa otağı
Bürüyür
qızılı rəng...
Şəfəqlər balıq kimi
Əllərindən sürüşür.
Gah üzünə,
gözünə,
Gah da çiyninə düşür.
Süsən günəşlə yatır,
Günəşlə də
oyanır.
Oyunçaqdan
daha çox,
Şəfəqlərlə oynayır.
Günəş fərəh gətirir
Milyon-milyon
uşağa.

Onları öpmək üçün
Düşür min-min otağa.
Qoy o səpib həmişə
Qızıl saçaqlarını.
Sevindirsin
dünyanın
Bütün uşaqlarını.

**CIĞIR**

Uzanıb gedir cığır,
Dərədə itir cığır...
Yamacda üzə çıxır...
Yarı bölür bağları—
Şərid kimi uzanır.
Qayaları, dağları
Kəmər kimi dolanır...
Dağ zirvəsində cığır
Bir sap kimi ağarır.
Uzanıb gedir hara,
Bəlkə də buludlara?!

**BİR PARÇA BULUD**

Meşənin yanında
Bəzəyir yamacı,
Tək-tənha
Bir armud ağacı...
Bu ağac
Açıbdır
ağ çiçək...
Elə bil üstünə
Qonubdur
Min-min
ağ kəpənək...



Uzaqdan baxsalar
Kim deyər
armuddur?!
Sanarlar,
ağac yox,
Bir parça buluddur!

**NAZİM BAXIR...**

Haray salıb deyir ördək:
— Qa-qa, qa-qa,,.
Mənə yemək..,
— Mə...mə...
— deyir qara quzu,
Susamışam...
gətirin su...
Bərk acmışam...
— çəpiş deyir,
Anasından süd istəyir...
Səpiləndə həyətə dən,
Sarı cücə
uçur birdən...
Budaqlardan enir sərçə,
Acam... cik-cik...
dinir sərçə...
Nazim baxır
Quzunun su içməsinə,
Çəpişin
süd içməsinə...
Nazim baxır
Ördəyin də,
Cücənin də,
Cik-cik edən sərçənin də
Yem axtarıb tapmasına,
Qaçıb deyir anasına:
— Ver, onlara aparım dən.

Ancaq nədən
— Mən acmışam, — demir Nazim,
Yemək versən,
yemir Nazim...

## TUT AĞACI

Nəhəngdir tut aqacı,
Qəşəngdir tut ağacı.
Bir budağı uzanıb,
Qonşu bağa çatıbdır.
Onun başqa budağı
Damımıza yatıbdır.
Ağac — mehriban qoca,
Əyilib bir balaca...
Durub fikirli, yorğun,
Gövdəsi qalın, yoğun...
Budaqlar qollar kimi
Evi qucaqlayıbdır.
Onu qardan, yağışdan
Qoruyub saxlayıbdır.
Elə ki, tutlar dəyir,
Düşüb alnıma dəyir...
Tez çıxıram hasara,
Mən baxıram tutlara.
Bu tutların hər biri,
Yumru, xallı, ağ, iri...
Budaqdan tuta-tuta,
Hasardan keçdim tuta.
Ağac bir çətir kimi,
Bir az silkələndimi,
Saplağından üzülür,
Tutlar yerə tökülür.
Nəhəngdir tut ağacı,
Qəşəngdir tut ağacı.



## ANAM İŞƏ GEDƏNDƏ

Öz doğma anam kimi
Mən sevirəm bibimi.
Tez-tez gəlir yanıma,
Kömək edir anama.
Soruşuram hamıdan
Bir gün görməsəm onu,
Evimizdə hər zaman
Gözləyirəm yolunu.
O məni görmək üçün,
Gəlir yanıma hər gün..
Anam gedəndə işə,
Bizdə qalır həmişə.
Mənə bişirir qutab,
Mənə oxuyur kitab.
Çalıb yaxşı piano,
Nəğmələr öyrədir o.
Bir dəfə atam-anam,
Kinoya getdi axşam.
Bibim gəldi yanıma,
Bişirdi dadlı qoğal.
Söylədim ki, getmə sən
Həmişə mənimlə qal.
O məni görmək üçün
Gəlir yanıma hər gün!

## FƏVVARƏ

Gəzir axşam çağında,
hamı sahil bağında.
Nə gözəldir meydanlar,
Çiçəklər,
xiyabanlar.
Bir hovuzun içində
Rəngli fəvvarə də var.

Uşaqlarla doludur
Fəvvarənin dövrəsi,
Şırıltıya qarışır
Onların da
şən səsi.
Fəvvarə gözəl, qəşəng,
İşıqlanır rəngbərəng.
Sarı işıq yananda
Sapsarı
olur sular.
Yağıştək səpələnib,
hovuza dolur sular.
Qırmızı işıq yanır,
Sular indi al olur.
Bir az keçir,
dəyişir,
Aşıb daşır,
ağ olur.
hamı sevinir,
Gülür,
Sular şır-şır tökülür,
Fəvvarə
böyük, qəşəng,
Ağ çiçəyə oxşayır.
Daşdıqca
şəlalətək,
Göbələyə oxşayır!

## İKİ QIZ

Süsən evdə olmur aram,
Elə deyir:
— Lalə üçün darıxıram.
Lalə də öz evlərində



Deyir hər gün:
— Darıxıram Süsən üçün...
Bir gün onlar görüşdülər,
Qucaqlaşıb öpüşdülər.
Bağça-bağı dolaşdılar.
Birdən...
Aman...
dalaşdılar...
Bağça-bağda gül-çiçəklər
Dəstə-dəstə...
Fəqət onlar
Dalaşdılar
Al-qırmızı bir gül üstə...
Dodaq belə
büzdü onlar,
Bir-birindən
küsdü onlar..,
hərə getdi öz evinə,
Günlər ötdü...
Ancaq yenə
Süsən evdə olmur aram.
Elə deyir:
Lalə üçün darıxıram.
Lalə də öz
evlərində
Deyir hər gün:
Darıxıram Süsən üçün...

## FİŞƏNG

Bu axşam,
Əlimdə tutmuşam
Çox qəşəng,
Bir fişəng.

O yanır,
Odlanır.
Kim deyər,
Bu yanan fişəngdir
Al rəngli
Çiçəkdir,
Parlayan
Şimşəkdir.
İstərəm çox yana,
Qaçıram
O yana, bu yana.
Tökülür
Qığılcım.
hey gülür
Şən bacım,
Qardaşım!

## QAYA-TƏYYARƏ

Göyün yeddi qatında
Bir qaya var.
Dərin bir uçuruma
Durub baxar.
Daşlardır sıldırımlı
Qanadları.
İrəli çıxıb baxır
Göyə sarı...
Dağ başında nə gözəl
Mənzərədir.
O qaya deyil, sanki,
Təyyarədir.
İndicə qanadını
Açacaqdır.
Üfüqlərə, göylərə
Uçacaqdır!



## KİNODAN GƏLİR İLQAR

Çiynində taxta tüfəng
Kinodan gəlir İlqar.
Deyir: — Böyük bir pələng
Orda vardı, uşaqlar.
Elə ki, onu gördüm
Tez qaldırdım tüfəngi.
Güllə atıb öldürdüm
Mən o sarı pələngi.
Belə deyəndə İlqar,
Gülüşdülər uşaqlar.

## SÜSƏN VƏ LƏPƏLƏR

Ləpələr aşdı-daşdı,
Süsənlə qucaqlaşdı.
Biri lap böyük oldu
Onun başından aşdı.
Qız gözünü açmamış
Axıb sahilə qaçdı.
Bu dəfə cürətlənib.
Qız qollarını açdı.
Bir dəstə ağ çiçəyi
Sanki bağrına basdı.
Çiçəklər elə soldu,
Əllərində yox oldu.
Sakit durmayıb
yenə
Aşdı-daşdı ləpələr.
Süsənlə
dönə-dönə
Qucaqlaşdı ləpələr.

## ƏHMƏD GEDİR KÜÇƏDƏ

Əhməd gedir küçədə
Toz içində çəkməsi.
Qırılmış pencəyinin,
Köynəyinin düyməsi.

Sanki kömür daşıyıb,
Qapqaradır əlləri.
Üz-gözünə tökülür
Daranmamış telləri.

Əhməd görür bu zaman
Bir qız gəlir qarşıdan
O, qıza baxıb deyir:
— Sən pintisən necə də..
Ayıb deyilmi, adam
Belə gəzməz küçədə.

Qız gələrək heyrətə,
Baxır, baxır Əhmədə.
Bizdə gözəl məsəl var,
Belə deyib babalar:
«Keçəl baxar güzgüyə,
Adın qoyar özgəyə».

## QAR YAĞIR

Zirvəli qarlı dağa,
Başlayır qar yağmağa.
Yazdan, yaydan,
payızdan
Qar qalıb topa-topa.
İndi bu qar üstünə
Qar yağır lopa-lopa.



Ağarır bu nəhəng dağ,
Başdan-başa ağappaq.
Nə olsun ki, nəhəngdir,
Elə bil göbələkdir.
Başı göylərə çatır,
Yaranır bir ağ çadır.
Girir bu dağ buluda,
Çevrilir ağ buluda.
Bu dağda ağır-ağır,
Qar üstünə qar yağır.
Bol yağır ki, bu yerə,
Dönsün ağ çiçəklərə.

## ÇİYƏLƏK

Ay qəşəng çiyələk!
Mən səni dərirəm.
Bacıma verirəm.
O yeyir və deyir:
— Sən mənə,
Ver yenə!

## YÜK MAŞINI

Mənim yük maşınım var,
Nə desəniz aparar.
Mindirmişəm meymunu,
Gəzdirirəm mən onu.
Uşaqlar, cəld tərpənin,
Siz də maşına minin.

Maşını sürə-sürə,
Mən gedirəm hər yerə.
Adam görəndə dərhal,

Yolda verirəm siqnal.
Uşaqlar, cəld tərpənin,
Siz də maşına minin.

Mən gedirəm meşəyə,
Çölə, düzə, çəmənə.
Gözəl yük maşınını
Atam düzəldib mənə.
Uşaqlar, cəld tərpənin,
Siz də maşına minin,

## PƏNCƏRƏDƏ

Axşam üstü
Bir qız çıxır pəncərəyə,
— Mən atamı
Gözləyirəm — deyə-deyə.
Birdən
Açıq pəncərədən
Sevinc dolu
səs yüksəlir,
O qışqırır:
— Atam gəlir,
atam gəlir!

## ÖZÜ BİLMİR...

O ağlayır için-için:
— Verin çayı özüm içim.

Əl vuranda stəkana,
Az qalır ki, əli yana.
Deyir: — Ay, ay,
İstidir çay.



O qışqırır tökün deyə,
Tökün çayı nəlbəkiyə.
Sonra çəkir qabağına,
Yapışdırır dodağına.
Deyir: — Ay, ay,
İstidir çay...
Çayı içə bilmir özü,
«Mən... mən... içim...»
— budur sözü.
Yaxşı, ona nə deyəsən,
Balacadır hələ Süsən.
Nəlbəkidən çayı ana,
Yavaş-yavaş verir ona.

O ağlayır için-için:
— Verin, çayı özüm içim.

## NƏĞMƏ, İŞIQ VƏ ÇİÇƏK

İstiləşir havalar,
Dağlarda əriyir qar,
Çaylar nə yaman dolur,
Sözlü, nəğməli olur!
Oxuyan ləpələrdir,
Nə incə nəğmələrdir.
Quşlar uçub hər yana,
Qonur dama, eyvana.
Gəlir onların səsi,
Şaqraq, gözəl nəğməsi.
Günəşdir kainata
Qucaq-qucaq səpən nur,
Çaylar nəğmə oxuyur,
Quşlar nəğmə oxuyur.
Bu nəğmələr yarışır,
Bir-birinə qarışır.

Gülün qızıl telləri
Qızdırır, öpür yeri.
Çöllər, çəmənlər rəng-rəng,
Sayrışır çiçək-çiçək...
Bu işıq da, çiçək də,
Nəğmə olur ürəkdə.
Təbiətdir toy quran,
Çölə, düzə rəng vuran.
Nə gözəldir dağ, dərə,
Qərq olubdur güllərə.
Nə gözəldir bağça-bağ,
Hara baxırsansa bax
Nəğmə, çiçək, işıq var,
Hər şeydə yaraşıq var!

## TƏZƏ İZ

Gecədən başlayan qar
Yenə yağır o ki var.
Kərim çıxır bayıra,
Hər yer bürünüb qara.
Meşə də, dağ da qardır,
Çəmən də, bağ da qardır.
Bəlkə un ələnibdir,
Göylərin buludları
Bəlkə yerə enibdir?!
Evlərdən tüstü qalxır,
Görünməyir yol, cığır.
Qış nə gözəl fəsildir,
hava soyuq deyildir.
Kərim sevir bu qarı,
Toplayıb uşaqları
Oynayacaq ürəklə,
Sürüşəcək xizəklə...



İndi qış səhərində
Məktəbə qaçıb gedir.
O, qarın üzərində
Təzə iz açıb gedir.

## ATASINI SEVƏN QIZ

Ata işə gedəndə
Dalınca qaçır Süsən.
Ata işdən gələndə
Qapını açır Süsən.

Ata götürüb yerdən
Göyə qaldırır onu.
Qucaqlayır, o, şən-şən
Atasının boynunu.

Atası dincələndə
Otağa səssiz girir,
Atası işləyəndə
Ona çay da gətirir.

İstirahət günləri
Şəhərə çıxır onlar,
Gəzib bütün şəhəri
Hər yerə baxır onlar.

Atasız qalan zaman
Kədərlənir o şən qız.
Ayrılmır atasından
Atasını sevən qız!

## ÖZÜ GİRİB CİBİMƏ...

— İlqar, İlqar, dayan bir,
Niyə cibin şişibdir?!
— Mən nə bilim, uşaqlar?!
— Yaxına gəl, ay İlqar.
Niyə bu dovşanı sən,
Cibində gizlətmisən?!
— Boy, bu dovşan, sən demə,
Özü girib cibimə.

## YORULMUŞAM..

Hətəm çıxdı gəzməyə
Atasıyla bir axşam.
Heç bir az getməmişdi
Söylədi: — Yorulmuşam.
— Nə tez yoruldun, Hətəm?!
— Daha gedə bilmirəm.
Uşaq addım atmadı,
Durdu yol qırağında.
Atası alıb onu
Apardı qucağında.
Hətəm gördü uşaqlar
Onun kimi etməyir,
Heç biri atasının
Qucağında getməyir.
Asta-asta sürüşdü,
Hətəm də yerə düşdü.



## SÖHBƏT

— Bibi, bibi,
ay bibi,
Çox sevirsən sən kimi?!
— Yadigarı, Süsəni.
— Bibi, bibi, bəs məni?!
— Əl-üzünü, ay Əkbər,
Yumamısan bu səhər.
Tənbəllə yoxdur aram.
— Bibi, indi yuyaram.

## YARPAQ NİYƏ SARALIR

Süsəni heyrət alır,
Yarpaq niyə saralır?
Niyə ağacdan bir-bir,
Yarpaqlar yerə enir?
Hər tərəf xəzəl olur,
Amma nə gözəl olur.
Sarı rəng almış bağa,
Diqqətlə baxa-baxa
Gəzir hər yanı Süsən,
Görür saralıb çəmən,
Solub, quruyub otlar,
Birdən sıx-sıx buludlar
Qaralır, şimşək çaxır,
Güclü bir yağış yağır.
Evə doğru qaçır qız,
Deyir: — gəlibdir payız.

## KEÇİM

Oyanıb səhər-səhər,
Mən səninlə bərabər
Dərə keçim, dağ keçim,
Ay mənim gözəl keçim...

Çıxaq şehli çəmənə,
Yamaclarda mən sənə
Yaxşı bir otlaq seçim,
Ay mənim gözəl keçim...

Gəzib dağlar boyunca,
Otlardan ye doyunca.
Südlə dolsun sərnicim,
Ay mənim gözəl keçim...

## GÜLƏYƏN SÜSƏN

Baxıb oyuncaqlara
Əylənir,
Gülür Süsən,
Qarışıb uşaqlara
Şənlənir,
Gülür Süsən.
Elə səhərdən bəri,
Gülür qızın
gözləri.
Oyuncaq dovşan görür
Gülür Süsən,
At görür,
Ceyran görür,
Gülür Süsən.
Uçuşub göy üzündə
Şən quşlar dolaşanda,



Futbol topu üstündə
Uşaqlar dalaşanda
Gülür Süsən.
Çiçək görür,
ot görür,
Bulud, şimşək,
Od görür,
Gülür Süsən.
Həyat boyu it hürür,
Qoca arvad öskürür,
Gülür Süsən.
Milis əmi fit verib,
Maşını saxlayanda,
Anasını itirib,
Bir uşaq ağlayanda
Gülür Süsən.
Nənəsi eynək taxdı,
Süsən eynəyə baxdı.
Qəh-qəh çəkdi yenə də,
Süsənin gülməyinə
Baxıb güldü nənə də...
Dedi: —Şeytan, bəsdir, bəs,
Adam hər şeyə gülməz!

## YETİM DAYÇA

Zərif, balaca,
Gözəl bir dayça
Nə vaxtdır daha
Gəzir tək-tənha...
Axı, nə olub,
Anası hanı?!
O yalqız qoyub
Niyə dayçanı?!
Gəzir obanı

Qaş qaralınca
Anası hanı?
Tapmayır dayça.
Qışda qopanda
Güclü bir tufan,
Ana tufanda
Uçmuş qayadan.
Dayça kişnəyir,
Görən nə deyir?!
Dərd çəkir hər gün
Anası üçün.
Qəmlidir onun,
Nəmlidir onun,
O vaxtdan bəri
İri gözləri!
Anası bilir
Hər atı dayça.
Odur ki, gedir
Onun dalınca.
Bir gün obadan
Atlılar endi,
Dayça yaxından
Onları gördü.
Dərhal yüyürdü.
Atlılar getdi,
Dalında itdi
Uca dağların,
Bu atlıların
Getdi dalınca,
Getdi o dayça!
Ona atlılar
Daş da atdılar
Qayıtsın deyə.
Ancaq dönmədi
Dayça geriyə.



Getdi atlılar
Dayça da getdi.
Dağlar dalında,
Sıx-sıx dumanda
İtdi atlılar,
Dayça da itdi.
Gedib şəhəri
Onu bir çoban,
Qaytardı geri
Başqa obadan.
Zərif, balaca,
Gözəl bir dayça
Dərd çəkir hər gün
Anası üçün.
Qəmlidir onun,
Nəmlidir onun,
O vaxtdan bəri
İri gözləri!

# “Kəpənək gözəlliyi” kitabından (1980)

## ŞERLƏR

### BU TORPAĞI TANI, SEV!!!

Balaca dost! İndidən
Bu torpağı tanı sən!

Hələlik boy atırsan,
Bapbalaca çinarsan,
Ucalarsan dağ kimi
Bu torpağı tanısan!
O vaxt bir çıraq kimi
Şəfəq-şəfəq yanarsan!
Gah ağlayan, gah gülən,
Əzab görən, qəm görən
Dosta dost ola bilən,
Düşmənə qənim, torpaq,
Həm sənindir, balası,
Həmdə ki mənim, torpaq!
Bil, bu torpağın adı
Gəzir bütün dünyada,
İllər boyu bu torpaq
Görüb bəla, qan-qada,
Ancaq heç vaxt, heç zaman
Boyun əyməyib yada!



Əyməyib... dəniz qədər
Tökülsə də göz yaşı,
Neçə-neçə düşmənin
Burda əzilib başı,
İndi bir tarix olub
Hər kərpici, hər daşı!
Balaca dost! İndidən
Bu torpağı tanı sən!
İlk dəfə bu torpaqda
Dünyaya göz açmısan,
İməkləyib qalxmısan,
Yerimisən, qaçmısan!
İndi qaçdığın yerdə,
O uzaq əsrlərdə
Obaların yaşayıb,
Nənələrin yaşayıb,
Babaların yaşayıb.
Onların arasında
Mərd insanlar yaşayıb,
Sinəsi dastan olan
Şən ozanlar yaşayıb,
Pəhləvanlar yaşayıb.
Qəhrəmanlar yaşayıb.
Bu torpaq Cavanşirin,
Koroğlunun yurdudur
Şimşəkləri—Babəkin
Ürəyinin odudur.
Meşələri—meşə yox,,
Nizə almış ordudur!
Elə dağları var ki,
İtib bulud içində,
Elə mədənləri var,
Almaz, yaqut içində,
Elə dərələri var,
Yatıb sükut içində!

Göyə bax... təyyarələr
Gülldən də itidir,
Onu belə aparan
Bu torpağın neftidir!
Bu neft onun vüqarı,
Ad-sanı, şöhrətidir.
Balaca dost! İndidən
Bu torpağı tanı sən!
Bu torpağın varı bol,
Neməti bol, barı bol...
Gəz bağları, görərsən
Alması bol, narı bol...
Nə istəsən, taparsan
Buğda, arpa, darı bol...
Çiçəkləri nə qədər
Bəlkə ümman çiçəklər,
Yüz rəngli, min rənglidir.
Əlvan-əlvan çiçəklər
Gözəlliyi bir yana,
Həm də dərman çiçəklər...
Bu gözəl torpaq sənin,
Bu bağça, bu bağ sənin,
Yaşa, yarat, qur, sevin,
Dərə, təpə, dağ sənin!

Balaca dost! İndidən
Bu torpağı tanı sən!
Tanı, yaxşı tanı ki,
Elə yaşa dolasan,
Sən bu torpağa layiq
Bir vətəndaş olasan!



## İŞIQLI BİNA

Bakıda bir bina var,
Elə yaraşıqlıdır,
Hər yanı başdan-başa
Nurludur, işıqlıdır.
Burda hər zal, hər otaq
Şəfəqlərə boyanar,
Gör neçə ulduz yanar,
Gör neçə günəş yanar:
Naxışlı eyvanında
Altı heykəl görünər,
Ulduzlu göylə birgə
Necə gözəl görünər.
Bakıya qonaq gələn
Bura dəyməmiş getməz,
Ona heyran olmamış,
Xoş söz deməmiş getməz.
Balaca dost!
Gördüyün Nizami muzeyidir,
Bu, təkcə muzey deyil,
Bir xalqın ürəyidir.
Qarşılarlar işıqla
Muzeydə qonaqları,
Yavaş-yavaş, buyur gəz
Zalları, otaqları. Tələsmə!
İftixarla hər şəklin önündə dur,
Sübhün dan ulduzu tək
Yanar ürəyində nur.
Sən tanı Nizamini,
Sən tanı Füzulini,
Dünyaya tanıdıblar
Onlar sənin elini.
Aylar, illər, fəsillər
Bu muzeydə birləşib,
Ötüb keçən bir əsr

Bir otaqda yerləşib.
Bir əsrin əşyaları,
Şahları, xaqanları,
İldırım qılıncları,
Nizəsi, qalxanları...
Sənə baxan o kimdir?
Baxışları odlu, sərt,
Həm xəyallı, mehriban,
Həm üsyankar, həm də mərd!
Bizim şer sazının
Ən qüvvətli bir simi,—
Tanı onu, tanı sən,
Nəsimidir, Nəsimi!
Öz fikrindən,yolundan
Məsləkindən dönmədi,
Soydular dərisini.
Günəş oldu, sönmədi.
Xalılar var; rəngləri
İncədən də incədir.
Şəhərlər var—möhtəşəm,
Bu qədim Şamaxıdır,
Bu da qədim Gəncədir!
Hələ köhnə Bakımız:
Dar küçələr, dar evlər,
Darvazalar, eyvanlar,
Arabalar, dəvələr...
Hər şəklə, hər tabloya
Bax diqqətlə, birbəbir
Bu Qətran Təbrizidir,
Bu Vaqif, bu da Sabir!
Çapdıqca yelə dönür
Koroğlu Qıratında,
Yenə qılınc oynadır
Göyün yeddi qatında.
Böyük Mirzə Fətəli



Gün kimi yana-yana,
Təkcə bütün Şərqə yox,
İşıq səpib hər yana.
Tanıdınmı Şaiqi,
Sevimli sənətkarı,
Dilinin əzbəridir
Onun şən nağılları!
Bu işıqlar içində
Söylə, niyə dayandın,
Yoxsa elə özün də
Şəfəqlərə boyandın?!
Balaca dost!
Gördüyün Nizami muzeyidir,
O, təkcə muzey deyil,
Bir xalqın ürəyidir.

## AZƏRBAYCAN DAĞLARI

Bizim dağlar qüdrətli,
Yenilməz, əzəmətli...
Qorxunc yarğanları var,
Qorxunc sıldırımları.
Sinəsində parçalar
Qılınc ildırımları.
Şah dağı, Baba dağı
İgidlərin oylağı.
Bu dağlara çıxanda
Gəlir uçmaq həvəsi.
Görünməyir baxanda
Bu dağların zirvəsi.
Gözəl olur həmişə
Yayı, qışı, baharı.
Bir yoldaşdır günəşə
Azərbaycan dağları!

Bax, yolu günəşədir,
Yol gedir burum-burum.
Bir tərəfi meşədir,
Bir tərəfi uçurum.
Açıb ağzını baxır
Neçə-neçə mağara.
Sapdır, nazilib axır
Çay ağara-ağara.
Sərin olur buz kimi
Bu dağların havası,
Sayrışır ulduz kimi
Çiçəklərin dalğası.
Bu dunyaya sığışmaz
Zəngin dövləti-varı.
Min dona girir hər yaz
Azərbaycan dağları.
Bir dağ vardır, çox uca,
Bizim Savalan dağı,
Bu torpağın həm qoca,
Həm də ki, cavan dağı.
Dəlidağsa möhtəşəm,
Şöhrət olub qüdrəti.
Həm sərtdir, həm də möhkəm,
Böyükdür güc-qüvvəti.
Bu dağların ucu ox,
Xəyalları uçurar.
Təkcə xəyalları yox,
Qartalları uçurar.
Bu torpağın sevinci,
Bu torpağın vüqarı,
Nəhəng incidir, inci
Azərbaycan dağları.
Hər tərəfi dolan, gəz,
Bu dağlara yox əvəz.
Gəzməyən görə bilməz,



Gəzməyən duya bilməz.
Gəz, bu dağı, o dağı,
Gör qayalı yarğanı,
Dişgöynədən bulağı,
Bulud-bulud yorğanı...
Gəz, öyrən bu qüdrəti,
Zirvələrdə qarı gör!
Duy gücü, əzəməti,
Dağlarda vüqarı gör!
Bu gücü, əzəməti
Özündə saxla barı,
Unutmur sədaqəti
Azərbaycan dağları!

## QƏHRƏMAN BİR QADIN HAQQINDA HEKAYƏT

1

Bizdən uzaq əsrdə,
Çox qədim bir şəhərdə
Yaşayırdı bir qadın;
Qazi bəyin arvadı.
Çıxmışdı igid kimi
Onun şöhrəti, adı.
Gəzib dildə-ağızda
Əvəzsiz gözəlliyi,
Əvəzsiz insanlığı,
Dəyanəti, qüdrəti,
Bir də mehribanlığı.
Hətta qalıb tarixdə
Onun qəhrəmanlığı.

2

Düşmən ordusu axdı,
Hücum etdi şəhərə,

Hamı ayağa qalxdı,
Hamı döndü əsgərə.
Haray düşdü şəhərə,
Başlandı birdən-birə
Qılınc, qalxanlı döyüş,
Dəhşətli, qanlı döyüş.
Düşmən qüvvəti görüb,
Düşmən qüdrəti görüb
Bildi ki, bata bilməz,
Şəhərə çata bilməz.
Düşünüb-daşındılar,
Gizli hiylə qurdular,
Bir oxla sərkərdənin
Sinəsindən vurdular.
Birdən nizam pozuldu,
Təşviş, həyəcan oldu.
Başsız qaldılar deyə
Çəkildilər geriyə.
Həvəs, inam azaldı,
Ordunu qorxu aldı.
Gəldi qara bir kölgə,
Gəldi böyük təhlükə.

3

Qazi bəyin arvadı,
Evində oturmadı.
Əsgərlərə qoşuldu,
Özü də əsgər oldu.
O, başa düşdü birdən
Düşmənin hiyləsini,
Başa düşdü ki, düşmən
Bu ölümlə
Ordunun
Öldürür inamını,
Öldürür həvəsini,



Ürəyində od kimi
Birdən qaynadı kini.
Odur ki, sərkərdənin
Geyindi zirehini,
Şimşək tək itirmədən
Bircə dəqiqəsini,
Geydi dəbilqəsini.
Boğub həyəcanını
Götürdü qılıncını,
Götürdü qalxanını.
Bayraq alıb əlinə,
Qalxdı atın belinə.
«İgidlərim, atlanın,
Atlanın, qanadlanın!»
Həvəsdən düşən ordu
Dörd yanında cəm oldu.
Cəm oldu.
möhkəm oldu.
Əsgərləri səslədi,
Səs aldı öz səsinə,
Hamı inam bəslədi
Təzə sərkərdəsinə!
«İgidlərim, atlanın,
Atlanın, qanadlanın!»

4

Heyrət aldı düşməni
Görəndə sərkərdəni.
Gördü ordu cəm olub,
Özü də möhkəm olub!
Qalxıb havaya sarı
Nizələrin ucları.
Orduda bir nizam var,
Nizam var,
intizam var!

Sərkərdə də nə cavan.
Pəhləvandır, pəhləvan.
Nə böyükdür qüvvəti,
Qüvvəti, həm qüdrəti.
Seyr edib dörd yanını,
Qaldırdı qılıncını,
Qaldırdı qalxanını.
Kömür kimi qaraldı
İndi düşmən ordusu,
Yaman soldu, saraldı
Qalib gəlmək arzusu.
Yürüş başlandı, yürüş,
Döyüş başlandı, döyüş!
Qılınc, qalxanlı döyüş,
Nizəli, qanlı döyüş!
«İgidlərim, atlanın,
Atlanın, qanadlanın!»
Sərkərdənin bu səsi,
Əzmi, gücü, nəfəsi
Əsgərlərlə bir idi,
Bir idi,
Əlbir idi!
Qılıncı sağa-sola
Od kimi çala-çala
Sərkərdə yol açırdı,
Düşmən qorxub qaçırdı.
Aparıb mübarizə
Mərdliklə vuruşurdu,
Şimşək tək min-min nizə
Havada toqquşurdu.
Hər əsgər bir şir idi,
Qəzəblənib coşurdu,
Düşmən gördü, duydu ki,
Bu axın, nə axındır,
Bir qaladır ordu ki!



Məğlubiyyət yaxındır.
Düşmən çəkilib geri.
Dərhal qaçdı bu yerdən,
Aparıb əsgərləri
Uzaqlaşdı bu yerdən!

5

Ordu zəfərlə döndü,
Böyük hünərlə döndü.
Döndü doğma şəhərə,
Döndü gözəl Təbrizə,
Çevrildi birdən-birə
Şəhər güllü dənizə.
Hamı:—Qələbə!—dedi,
Qarşılayıb ordunu,
Hamı vermək istədi
Ürəyinin odunu.
Ellər: afərin,—deyə,
Gül atdı sərkərdəyə.
O, vüqarla gedirdi,
Bütün şəhər içində,
İftixarla gedirdi
Gül-çiçəklər içində.
Meydançada götürdü
Birdən dəbilqəsini
Camaat bircə anlıq
Çıxartmadı səsini
Sonra isə o saat
Donub qaldı heyrətdən,
Heyrətləndi camaat
Bu qüdrətdən, qeyrətdən!
Saçlara bax! Qapqara...
Bənzəyir dalğalara...
Görüb bu qadındakı
Bu gücü, bu qüdrəti,

Daha da böyük idi
Əsgərlərin heyrəti.
Ellərin məhəbbəti
Çay kimi aşdı-daşdı,
Mərd qadının şöhrəti
Diyar-diyar dolaşdı.

6

Balaca dost! Sənə mən
Bir hekayət danışdım,
Əfsanə yox, nağıl yox,
Bir həqiqət danışdım.
Tanı mərd insanları,
Böyük qəhrəmanları!
Tanı Cavanşiri sən,
Babəki, Koroğlunu,
Bizim vətənin neçə
İgid, cəsur oğlunu!
Bu torpağın adını
Qaldır öz adın kimi,
Mərd ol!
Mərd yaşa,
dostum,
O igid qadın kimi!

## GÜNƏŞLİ MƏQBƏRƏ

Günəşli Naxçıvanda
Günəşli bir məqbərə.
Adı gəzir hər yanda,
İşıq saçır hər yerə.
Sehrli insan kimi
Yumulmur baxışları,
Əbədi dastan kimi
Əbədi naxışları.



Naxışlarda sözləri,
Sən oxuya bilərsən,
Naxışlarda gözləri
Görüb duya bilərsən.
Keçsə də səkkiz yüz il,
Yağsa da dolu, yağış,
Heç zaman solan deyil,
Canlı güldür hər naxış!
Qüdrətlidir, qüdrətli,
Olsa da qədim, qoca,
Möhtəşəm, əzəmətli,
Həm cavandır, həm uca!
Baxırsan, çox sadədir,
Bir-iki pəncərəsi...
Gözəl bir abidədir
Atabəy məqbərəsi!
Necə alıblar görən
İşıq-işıq rəngləri,
Hardan tapıbdır görən
Əbədi çiçəkləri?!
Hər rəng çalınan simdir,
Burda rənglərin cəmi.
Bunu yaradan kimdir?
Böyük memar Əcəmi!
Elə bil bu məqbərə
Qoludur, qanadıdır,
Ucaldıqca göylərə,
Ucalan həyatıdır.
Kərpicində, daşında
Arzusu, diləyi var,
Naxışında, kaşında
Döyünən ürəyi var.
Elə qurub...
Solmayıb hər naxış,
Hər rəng, kaşı,
Heç bir zaman qopmayıb,

Bir kərpici, bir daşı!
O böyük sənətkarın
Nəfəsidir məqbərə,
O böyük sənətkarın
Töhfəsidir məqbərə.
Dost! Qonaq gəl bu yerə,
Gəl, öyrən yana-yana,
O günəşli məqbərə
Bir tacdır Naxçıvana!

## YADİGAR QALA

Dağ başında bir qala
Göyə çatır az qala.
Ulduzlar zirvəsində
Zümrüd boyunbağıdır,
Buludlar dövrəsində
Min-min inci axıdır.
Hər gecə qalaya ay,
Çəkir gümüşü qalay.
Səhər günəşdə yanır,
Qızıl rəngə boyanır.
Zirvədə qala-qala
Möcüzə olub qala.
Başdan-başa sirlidir,
Sirlidir, sehrlidir.
Duman axır... bir anda
Qala itir dumanda.
Yolu-izi görünməz,
O yolu tapmaz hər kəs.
Bu yol kol-kosla dolu,
Sıldırımlı, qorxulu.
Keçidləri elə dar,
Bir adam güclə sığar.
Qalaya çıxmışıq biz,



Qalaya baxmışıq biz.
Gəzib hər bir yerini,
Öyrənmişik sirrini.
Bir zamanlar bu yerdə,
Bu uca zirvələrdə,
Mərd insanlar yaşamış,
Qəhrəmanlar yaşamış!
Görünməz olub bəzən
Dağların dumanında,
Yaşamış igid kimi
Buludların yanında,
Ulduzların yanında.
Dağ başında bir qala,
Göyə çatır az qala.
Başdan-başa sirlidir,
Sirlidir,sehrlidir.
Köynəyidir buludlar,
Ulduzlardan tacı var.
Qalır bizə bu qala
Babalardan yadigar.

## BİZİM MEŞƏLƏR

Balaca dost! Gəl, səni
Meşələrə aparım,
İlk dəfə görəcəyin
Güşələrə aparım.
Sevinib güləcəksən
Meşəni görən kimi,
Bir muzey biləcəksən
Meşəyə girən kimi.
Ağaca bax... nəhəngdir,
Bu, meşənin cökəsi,
Sanki nəhəng çiçəkdir,
Özü boyda kölgəsi.

Cığırla qalxacaqsan,
Qalxacaqsan yuxarı,
Hər yana baxacaqsan
Əyərək budaqları.
Bax ağacın başına,
Gəz, çiçək dərə-dərə,
Çıxacaqdır qarşına
Birdən böyük bir dərə.
Keçmə dayan... o tərəf
Uçurum,yarğan, yamac,
Yenə düzülüb səf-səf,
Ətraf ağacdır, ağac!
Hər yan gözəllik dolu,
Cənnətdir hər guşəsi,
Günəşə qalxır yolu,
Gözəldir dağ meşəsi.
Ağaclar tutur mamır,
Qayalar tutur mamır,
Yarpaqlardan yağışın
Suları yenə damır.
Sən çiçəklər görərsən
Ağ, sarı, göy, qırmızı.
Göbələklər görərsən.
Ağ, sarı, göy, qırmızı.
Marallardır, marallar
Meşənin gözəlləri,
Xalılardır, xalılar
Yüz illik xəzəlləri.
Çatmaq üçün yuxarı,
Balaca dost! Tələs sən.
Görərsən ağacları;
Palıd, fısdıq, vələs sən.
Görsən sərin bir bulaq,
Dayanıb dincini al,
Bura əyilib budaq,



Burdan su içir maral.
Nələr çıxar qarşına,
Ürəyin gələr dilə.
Çatarsan dağ başına,
Meşə qurtarmaz hələ!
Qalıb yaraşığında
Yenə uzanar meşə,
Günəşin işığında
Parlayıb yanar meşə.
Balaca dost! Mən səni
Tanış olasan deyə,
Görüb duyasan deyə,
Apardım bir meşəyə.
Belə gözəl meşələr,
Nə qədərdir, nə qədər.
Düşsən bu təbiətdə
Səyyahlıq həvəsinə,
Gəl, aparım səni mən
Bizim doğma torpağın
Ən gözəl guşəsinə,
Batabat meşəsinə,
Talıstan meşəsinə,
Şabalıd meşəsinə, —
İlisu meşəsinə.
Meşələr—bu torpağın
Yaşıl nəğməsi, səsi,
Gözəldən də gözəldir
Cənki, Leşkər meşəsi,
Qarayazı meşəsi,
Topçu, Fil-fil meşəsi,
Meşə—Azərbaycanın,
Təbiətin əsəri.
Oxu, öyrən indidən
Bu əsər—meşələri!

## TOMRİS

Sənin adın Tomrisdir,
Bu ad sənə əzizdir.
Bu ad—
bir qəhrəmanın,
Unudulmaz insanın...
Bizim anadan əvvəl,
Yaşayıb belə gözəl.
Mərd, yaxşı insan kimi,
Böyük qəhrəman kimi.
Bizim tarixdə Tomris
Qoyub dərin,
nurlu iz,
Elə iz ki, yox olmur,
Heç zaman unudulmur!
O, böyük hökmdardı,
Ağlı, zəkası vardı.
Bir dastandı hünəri,
Gözündən od tökərdi,
Düşmən sərkərdələri
Önündə diz çökərdi.
Tomris—bizim torpağın
İgid qızı,
ər qızı,
Geyəndə yar-yarağın,
Əsil cəngavər qızı!
Elə qılınc oynadar,
Elə qalxan tutardı,
Elə sərrast ox atar,
Deyərdin: sehrkardı!
Möhkəm qorusun deyə
Torpağını, yurdunu,
Qaytarmışdı geriyə
Ən böyük bir ordunu.



Ada, sana, hörmətə
Çatan el hökmdarı,
Çevirmişdi
cənnətə
Bizim ana diyarı!
Balaca qız!
Fəxr elə!
Adın Tomrisdir,
Tomris!
Bu ad elə doğma ki,
Sənə hər şeydən əziz!
Sev
bu igid qadını,
Doğrult onun adını!

## HƏR QALA BİR KİTABDIR!

Bürünüb buludlara
Nəhəng qala—Əlincə,
Nəfəs kəsilir bura
Dağı çıxıb gəlincə.
İşdir bu yerə çıxsan,
Dağ elə uca, hündür,
Burdan dayanıb baxsan,
Bütün dünya görünür.
Qılınc-qılınc çıxıbdır
Daşlı sıldırımları.
Sinəsinə sıxıbdır
Sanki ildırımları.
Göyün yeddi tağında
Nəhəng qala ucalır,
Buludlar qucağında
Qala-qala ucalır.
Sehrli olmasa da,
Adi qala deyildir,

Ömür sürür dünyada,
Bəlkə yüz il, min ildir.
Hücum etdi bu yerə.
Neçə düşmən ordusu,
Ancaq qaldı hər kərə
Ürəyində arzusu.
Neçə-neçə diyarı
Talan edən bir ordu,
Seyr edib bu dağları
Min cürə hiylə qurdu.
Hiylə qurdu ki, qalxsın,
Uca zirvəyə çatsın,
Qalanı vursun, yıxsın,
Məhv eləsin, dağıtsın.
Ancaq çıxa bilmədi,
Çata, yıxa bilmədi.
Qala yenə də möhkəm,
Uca, məğrur, möhtəşəm.
Ora mən də çıxmışam,
O zirvədən baxmışam.
Buludları sinəmə
Qucaqlayıb sıxmışam.
Gəzdikcə bu zirvəni,
Fikir götürmüş məni:
İndi qalada hanı
O qəhrəman insanlar,
Bu zirvədə qalanı
Necə tikiblər onlar?!
İtmir çəndə, dumanda...
Balaca dost! Yaxşı bil,
Bizim Azərbaycanda
Belə qala tək deyil.
Cavanşir qalası var,
Mərdəkan qalası var,
Ucalır hasar-hasar,



Ucalır divar-divar...
Qala var neçə yerdə,
Şuşada, Kəlbəcərdə.
Getsən əgər o yerə,
Danışar min xatirə.
Hər qala—zəfər yolu,
İgidlik, hünər, əzab...
Nağıl, əfsanə dolu
Məna dolu bir kitab...
Dostum! Sən iftixarla
Hər kitabı vərəqlə,
Köksün qalxar vüqarla,
Qəlbin dolar şəfəqlə...
Söyləmə ki, bu nədir,
Seyr edib daş-divarı,
Xalq üçün xəzinədir
Bu qala—kitabları.
Bunlar indi solsa da,
Öyrən, öyrən maraqla...
Qədim, köhnə olsa da
Gözünün üstə saxla!

## ABŞERON

Abşeron—yarımada,
Əvəzi yox dünyada.
Bakıdan çıxan kimi
Mən hayana gedirəm?!
Buzovnaya gedirəm,
Mərdəkana gedirəm.
Qucağı cənnət olan
Bir məkana gedirəm.
Bu yer—həmişə təzə,
Gözəlliklə əkizdir,
Bu yer— girib dənizə,
Sağı, solu dənizdir.

Buyur, sahilinə gəl,
Uzan, qum üstə dincəl.
Qurşağadək quma bat,
Yat, günəş altında, yat!
Bir dərmandır narın qum,
Oyandın,dənizə cum!
Yara-yara suları,
Üz get qayaya sarı.
Bu yerdə—min-min ulduz,
Hər şey özünə məxsus:
Qəribə meynələri,
Qəribə meyvələri,
Qəribə küləkləri,
Qəribə çiçəkləri....
Qara tutu, xar tutu,
Dillər əzbəri oldu.
Söz yox, bal tək əncirə,
Bəzək verir bu yerə.
Hələ şöhrəti, şanı
Dünyanı gəzən şanı...
Qış da—yaz kimi fəsil,
Qarda bitir qərənfil.
Hələ zəfəran bağı,
Atəşdir bir saplağı!
Özü Bilgəhdə, ancaq
Dünyadadır sorağı.
Onun Nardaranı var,
Türkanı, Hövsanı var.
Bir ay qalsan, görərsən
Hətta can dərmanı var.
O çinar buruqları,
Gedir dənizə sarı.
Neçə-neçə təyyarə
Gəlib enir bu yerə.
Balaca dost!



Dolan, gəz,
Gəzməyən görə bilməz.
Tanısan Abşeronu,
Sevəcəksən sən onu.
Abşeron—yarımada,
Əvəzi yox dünyada.

## ABBAS SƏHHƏT BABAMDIR!

Nə danım, çox sevirəm
Bizim Abbas Səhhəti.
Yaşayır ürəyimdə
Onun sadə sənəti.

Elə sevimlidir ki,
Gözüm üstə yeri var.
Dilimdə əzbər olan
Neçə-neçə şeri var!

Deyirlər həkim olub,
Şair, müəllim olub,
Hər bir zaman sevilib
Fərqi yoxdur, kim olub.

Gözəl bir insan kimi,
Mən də sevirəm onu.
Sevirəm xalqımızın
Böyük, sadə oğlunu.

Sevirəm bu vətəni,
Torpağı sevən kimi,
Çöl-çəməni, çinarı,
Qovağı sevən kimi.

Tək mən sevmirəm onu,
Sevən elim-obamdır,
Elə bil Abbas Səhhət
Mənim doğma babamdır!

## *ŞƏN ŞERLƏR*

### SIRĞALAR

Qarasaçlı həvəslə
Taxar gözəl sırğalar,
Qulağında onları
Gecə-gündüz yırğalar.
Həyətə çıxan kimi
Gedər qızlara sarı,
Onlara lovğa-lovğa
Göstərər sırğaları.
Fərəhlənər,sevinər,
Bəzən də acıq verər:
—Bilirsiniz, sırğalar
Gecələr işıq verər.
Qızlar ağızdolusu
Deyər:—Mübarək olsun.
Qarasaçlı istər ki,
Hamıdan göyçək olsun!
Nahaq, çox nahaq yerə,
Belə oyun düzəldir,
Sırğalar olmasa da,
Qarasaçlı gözəldir.

### DƏYİŞƏN PAPAQLAR

Bir oğlan var... başına
Gündə bir papaq qoyur,
Gah sarı, gah qırmızı,
Gah yaşıl, gah ağ qoyur.
Gündə bir papaq qoyur.
Hardan tapır bu oğlan
Məzəli papaqları,



Çox qəribə görünən
Gülməli papaqları.
Bir papağı var onun
Dərisindən qoyunun.
Bir papağı atlaslı,
Bir papağı qotazlı.
O, gizlətmir heç kəsdən
Papağa marağını
Geyir gah təyyarəçi,
Gah miskər papağını,
Gah əsgər papağını.
Keçirir buynuz kimi
Papağa darağını.
Bir gün vardı başında
Gözəl, zərif bir papaq.
— Ay dost, necə yaxşıdır,
De, biz də gedək tapaq.
Oğlan qəhqəhə çəkib
Nişan verir uzağı,
Səhər qoyur başına
Yekə çoban papağı.
Başqa bir papağa bax,
Göstərir yoldaşına,
Elə bil ki, papaq yox,
Tava qoyub başına.
Papağı var oğlanın
Qüllə kimi ucu şiş,
Papağı var oğlanın
Bir qarpız kimi şişmiş.
Papağı var oğlanın
Rəngbərəng, alabəzək,
Naxışlı, çiçək-çiçək...
Başındakı papaq yox
Sanki çələngdir, çələng.
Bax, təptəzə papağa.

Dimdik kimi qabağı.
Bu papaqdır, görəsən,
Yoxsa qazan qapağı?!
Heyrətə salsın deyə
Sinifdə uşaqları,
Hər gün, hər zaman oğlan
Dəyişir papaqları.
Gəlir məktəbə yenə
Döşünə döyə-döyə,
Təptəzə papağına
«Əladır»—deyə-deyə.
Dərs danışıb gah coşdu,
Gah da lal kimi qaldı.
Gözünü döyə-döyə,
Ölüm-zülüm üç aldı.
Nə olsun ki, dəyişir
Hər zaman papaqları.
Heç dəyişmir qiyməti.
Qalxmır üçdən yuxarı.
Dəyişən papaqların
Deyin, varmıdır xeyri?!
Yaxşı olmazmı onun
Dəyişsə qiymətləri!

## QOÇAĞAM

Nə olsun ki, uşağam,
Ancaq yaman qoçağam.
Gah qəhrəman oluram,
Gah kapitan oluram.
Kosmik gəmi sürürəm,
Ulduzları görürəm.
Gündə bir neçə kərə,
Dönürəm cəngavərə.
Oxum var, kamanım var,



Qılıncım, qalxanım var.
Hələ bir görün məni
Süründə təyyarəni.
Hər diyardan keçirəm,
Buludlardan keçirəm.
Hələ bircə aya mən,
Uçacağam aya mən.
Nə baxırsan üzümə,
İnanmırsan sözümə?!
Nə olsun ki, uşağam,
Ancaq, yaman qoçağam.

## SƏBƏB NƏDİR?

Qonaq gəlib Nadir bizə,
Qonaq gəlib evimizə.
Onun üçün açdıq süfrə,
Əl vurmadı yeməklərə
Ayrılmayıb anasından,
—Gedək evə,—dedi oğlan.
Göz gəzdirdi dörd tərəfə,
Gah divana, gah də rəfə,
Sonra gördü dolabları,
Dolablarda kitabları.
Keçdi Nadir baxa-baxa,
Bu otaqdan, o otağa.
Görən kimi pianonu,
Həvəslənib çaldı onu.
Sonra baxdı çarpayıya,
Çarpayıda boz ayıya.
Tülkü gördü, pələng gördü,
Qarmon gördü, tütək gördü.
O tütəyi aldı, çaldı,
Öz-özünə heyran qaldı.
Burda evcik, tələ vardı,

Ağappaq bir dələ vardı.
haradansa çıxdı qəfil
Ağ sümükdən qəşəng bir fil!
Vardı dovşan, pələng, dəvə.
Ana dedi:—Gedək evə!
Qəribədir, səbəb nədir,
Daha evə getmir Nadir?!

## BOSTANÇININ İNƏYİ, UŞAQLARIN KƏLƏYİ

Bostançının inəyi
Yoxa çıxdı bir dəfə,
Axtardı, gəzdi, baxdı
Hər yana, hər tərəfə.
Keçdi dərədən, dağdan,
Düşdü əldən-ayaqdan.
Hara gedib bu inək?
İtib sanki iynə tək.
Çağırdı uşaqları:
—Siz kömək edin barı.
Yarım saat keçməmiş
Gətirdilər inəyi,
Sevincdən dağa döndü
Bostançının ürəyi.
—Gəlin, gəlin bostana,
Gəlin, ay oğlan, ay qız,
Sənin olsun bu yemiş,
Sənin olsun bu qarpız.
Sağ olun ki, axtarıb
İnəyimi tapdınız.
Bir həftə keçən kimi
Yenə itdi inəyi,
Yenə də gərək oldu
Uşaqların köməyi.



Onlar yenə qaçdılar,
Dağ-dərəni aşdılar,
Təpələrdən keçdilər,
Meşələrə girdilər,
Hardansa tapıb yenə
İnəyi gətirdilər.
Bostançı uşaqları
Sevincdən harayladı,
Yenə bir-bir onlara
Yemiş, qarpız payladı.
Elə ki, yay sovuşdu,
Başqa fəslə qovuşdu,
Daha inək itmədi,
Uzaqlara getmədi.
Payız, qış gəldi, keçdi,
Yaz ötdü, yay yetişdi,
Bostanlarda yenə də
Yemiş, qarpız yetişdi.
Bostançının inəyi
Bu dəfə də itəndə
Fikirləşdi bir azca,
Gəzmədi çöl-çəməndə.
Dişlədi barmağını,
Qəlbində nəsə duydu,
Ona kömək eləyən
Uşaqlara göz qoydu.
Gördü ki, bu dəcəllər
Gizlində qalsın deyə,
İnəyini aparıb
Salıblar bir tövləyə.
Elə ki, o tövlənin
Qapısını açdılar,
Bostançını görəndə
Heyrətlənib çaşdılar,
Sonra cücələr kimi

Dörd tərəfə qaçdılar.
Bu sirr aşkar olan tək,
Daha itmədi inək.
Ancaq bostançı hərdən
Onları haraylardı,
—Gəlin, uşaqlar,—deyə
Qarpız, yemiş paylardı.

**HEYKƏLLƏR**

O, düşünə-düşünə,
Döyürdü öz döşünə.
«Bir muma dönər rəndə
Əlimə götürəndə.
Taxtanı aram-aram
Rəndələyib yonaram.
Düzəldərəm bir heykəl,
Onu tamaşaya gəl.
Ya at olsun,
ya ceyran,
Kim görsə, qalar heyran.
Asandır mənə bu iş,
Düzəldərəm şən çəpiş.
Ota, kola daraşar,
Dağa-daşa dırmaşar.
İstəsəniz mələr o,
Yanınıza gələr o.
Mən qartal düzəldərəm,
Mən maral düzəldərəm,
Başında da buynuzu,
Düzəldərəm bir anda
Qıpqırmızı xoruzu.
Sizi dərhal anlayar,
İstəsəniz,
banlayar.



Hoppanan,
gölə girən
Qurbağa düzəldərəm.
Asta-asta yeriyən
Bir bağa düzəldərəm.
Düzəldərəm yekə fil...
Düzəltmişdim yekə fil,
Dedilər ki, fil deyil.
Dəyişdim,
mənə nə var,
Fili etdim canavar.
Uzunquyruq tülkünü
Yonub düzəldən günü
Qəfildən itdi xoruz,
harasa getdi xoruz.
Qorxubdur onu güdən
Uzunquyruq tülküdən.»
Elə bildik,
Özünü öyən,
döşünə döyən
bu oğlan
Yalan danışır, yalan...
Bizə nə söz deyirmiş,
Demə, yalan deyilmiş.
Nə varsa, düz deyirmiş.
Doğrudan da düzəldib
Gözəl,
dəcəl
bir çəpiş,
Tülkü,
çaqqal
düzəldib,
Maral,
qartal düzəldib;
Qurbağa da,

bağa da,
Canavar da,
buynuz da,
Lap banlayan xoruz da!
Otağı başdan-başa,
Tamaşadır tamaşa.
Bura gələndə birdən
Sanki göy guruldadı,
Səs gəldi yerbəyerdən
Qurbağa quruldadı.
Çəpiş mələdi şən-şən,
Xoruz banladı bərkdən.
Yaxınlaşdıq oğlana,
—Afərin!—
deyək ona.
Birdən...
Nə gördük?!
Oğlan
Dərhal çıxdı aradan.
Çünki durdu
bu zaman
heykəllərlə yanaşı,
heykəlləri yaradan
Onun böyük qardaşı!

## KIÇIK ORKESTR KİMİ

Süsən piano çalır,
Səs yayılır hər yana,
Onu eşidən kimi
Quşlar qonur eyvana.
Böyük həvəs içində
Süsən piano çalır,
Dinlədikcə quşların
Şən səsləri ucalır.



Dalğa-dalğa yayılan
Nəğməni duyur quşlar,
Nəğmənin ahəngiylə
Dərhal oxuyur quşlar...
Süsən durur... quşlar da
Bu vaxt kəsir səsini,
Süsən çalır... quşlar da
Oxuyur nəğməsini.
Süsən gəlir həvəsə,
Quşlar gəlir həvəsə,
Kiçik orkestr kimi
Onlar verir səs-səsə!

## NƏNƏ, SEVİRƏM SƏNİ

—Nənə, səni dünyada,
Sevirəm dünya boyda.
—Bilirəm, istəyirsən,
heç şübhə yoxdur məndə.
Bunu niyə deyirsən,
Mən qutab bişirəndə?!

## SANCAQ

Götürdü
Səhər çağı
Oğlan evdən sancağı.
Onu cibinə qoydu,
Özünü güclü duydu.
Düşündü:
«Gəlsin bəri,
Kimin varsa hünəri...
Mənə acı
söz desin,

Ya da xətrimə dəysin...
Bu sancağı açaram,
Gizlicə,
aram-aram,
yaxşı-yaxşı sancaram».
Onu cibində tutdu,
Elə oldu ki, oğlan
Bu sancağı unutdu.
Cibdə açılıb sancaq
Özünə batdı ancaq!

**SÖZ VERMİŞƏM...**

Söz vermişəm
Bir də yalan danışmaram,
Yalan-palan danışmaram.
Yalan üstə
Mən yanmışam,
Neçə dəfə
Qızarmışam, utanmışam.
Pis şey yoxdur
Bu dünyada yalan kimi,
Yalan bəzən
Qorxuludur ilan kimi.
Axşam anam
Soruşanda qiymətimi,
Nə yaxşı ki,
görmədi o,
Üzümdəki heyrətimi.
heç bilmədim,
Nə eləyim,
Yalan deyim,
doğru deyim?!
Axı yağlı bir ikim var!
Doğru desəm,



Qorxdum evdə tufan qopar.
Yalan desəm...
Yox, yox, aman,
Söz vermişəm,
Danışmaram bir də yalan.
Bildim anam
Şübhələnər bu heyrətdən,
Görün necə
Çıxdım çətin vəziyyətdən:
—Yaddan çıxıb dibçəklərim
Yaman solub çiçəklərim.—
Belə deyib
Cəld mətbəxə qaçıb girdim,
İki dolça su gətirdim.
Suyu tökdüm
Dibçəklərə,
İçin,—dedim
Çiçəklərə.
Sonra anam
Bu güllərə gəlib baxdı,
Fərəhləndi,
Qiymətimsə yaddan çıxdı.
Öz-özümdən razı qaldım,
Rahat-rahat
nəfəs aldım.
Neçə dəfə
Mən olmuşam üzüqara,
Buna görə
Söz vermişəm uşaqlara
Söz vermişəm,
Bir də yalan danışmaram.
Yalan-palan danışmaram.
həvəsim var,—
Gözəl olur balıq ovu,
Gözləyirəm

Atan kimi mən tilovu.
Dörd göz gərək
Gələ baxa bu ovuma,
İri balıq
Düşür bəzən tilovuma.
Bu gün yenə
Durdum çayın kənarında,
Tilov atdım,
Gözüm qaldı sularında.
Anlar ötdü,
ha baxdımsa yazıq-yazıq,
Tilovuma
heç düşmədi
bircə balıq.
Bir də gördüm
Axıb tutdu çayı duman,
Dilxor olub
Geri döndüm kor-peşiman.
Boş çantayla
Gedən zaman evə sarı,
Birdən yolda
Gördüm bizim uşaqları.
Bildim məni
Suallara tutacaqlar,
—Ovun hanı?!
Deyib söz də atacaqlar.
Doğru desəm,
Rişxənd edib güləcəklər,
hətta məni
Fərsiz ovçu biləcəklər.
Yalan desəm...
Yox, yox, aman,
Söz vermişəm
Danışmayım gərək yalan.
Odur ki, mən



Qabaqladım uşaqları,
Göstərərək
Çəməndəki qovaqları,
—Gedək,—dedim,
—Gedək ora,
Şer deyək,
Nəğmə deyək ağaclara.
Qaçdıq, getdik,
Şənlik etdik.
Həvəs gəldi uşaqlara,
Şer dedik,
Nəğmə dedik
qovaqlara.
Bir də gördüm axşam oldu,
Balıq ovum unuduldu.
Gördünüzmü
Daha yalan danışmadım,
Yalan-palan danışmadım.
Bax, beləcə,
Bu sözümə
Dönə-dönə inanmışam,
Bu sözümdə
Möhkəm, qəti dayanmışam
Bəzən çətin olan kimi
Mənim işim,
Çalışıram
Nəsə bir şey fikirləşim
Bu yalanın ucbatından
Neçə dəfə
olub mənim üzüm qara,
Buna görə
Söz vermişəm uşaqlara
Bir də yalan danışmayım
Yalan-palan danışmayım!

## MEYVƏ YEYƏNDƏ

Çoxlu gavalı, nənə,
Verdi öz nəvəsinə.
Nəvə gavalıları
Ovuc-ovuc götürdü,
Bir-bir ağzına qoyub,
Elə tez-tez ötürdü.
Yedi, dalbadal yedi
Dərmədən nəfəsini.
Heyrət içində nənə
Süzdü öz nəvəsini:
Sonra söylədi:—Bala,
Nə olubdur, de sənə?!
Səni ki, yoxdur qovan,
Yavaş-yavaş yesənə!
Gör nə oldu cavabı
Nənəyə bu nəvənin:
—Yavaş-yavaş yeyəndə
Dadı olmur meyvənin!

## HİRSLİ ARI

Bir oğlan
Bir arıya sataşdı,
Gah vurdu,
Gah da çubuqla qovdu,
Başına oyun açdı.
Bu arı
Birdən-birə
dəyişib,
Sanki od-alov saçdı.
Onun dızıltısından,
Onun vızıltısından



Oğlanı
qorxu aldı,
Odur ki,
İldırım kimi qaçdı.
Axı hara qaçır o?!
Arı cumdu dalınca,
Çay kimi
aşdı-daşdı.
Və birdən
Onun burnundan sancdı.
Ay aman!
Bu oğlan,
Görün, nə günə düşdü,
Deyin, bu necə işdi,
Burun
qoz boyda şişdi...
Mənim bir sualım var,
Kimdir, kimdir günahkar?!

## GOMBUL TOMBUL

Bir oğlanın
Tombul adlı iti vardı,
Hara getsə,
Özu ilə apardı.
Tombul tənbəl,
Çirkli, yekə, kobud itdi,
Bir də gördün
Yoxa çıxdı, getdi, itdi.
Hara gedib,
Harda itib, harda batıb?!
Eh, sən demə,
Kola girib, orda yatıb.
Oğlan onu
Gah döyərdi, gah söyərdi,

Acgöz idi,
Daş versəydin, daş yeyərdi.
Qaçan zaman
Yorulardı, ləhləyərdi.
Qızlar onu
Görən kimi qorxardılar
Uşaqlarsa
Hirsli-hirsli baxardılar.
Oğlan dedi:
—Bəsdir, buna son qoyulsun,
Tombul gərək
Başqa cürə gombul olsun!
O, başladı
Gecə-gündüz məşq etməyə,
Tombuluna
Şən oyunlar öyrətməyə.
Tombul əvvəl
Acıqlanır, hirslənirdi,
Sonra onun
Ətrafında hərlənirdi.
Atdı Tombul
Yavaş-yavaş tənbəlliyi,
Üzə çıxdı
Möhkəmliyi, gözəlliyi.
Tombul indi
O əvvəlki Tombul deyil,
Çirkli deyil,
Yekə deyil, gombul deyil.
Çünki oğlan
Çox çalışıb, çox əlləşib,
Tombul indi
Zərifləşib, gözəlləşib.
Olub daha
Uşaq kimi təmiz, qəşəng,
Gözü muncuq,



Tükü qıvrım, tükü ipək.
Cəld yetirər
Oğlanın hər buyruğunu,
İlan kimi
Fırlandırar quyruğunu.
Dimdik durar
Yerə qoyub ayağını,
Yelpik kimi
Yelləndirər qulağını.
Ya konfet at,
Ya noğul at, göydə qapar,
İynə itsə,
Bircə anda, qaçar, tapar.
Səs çıxarar
Bülbül kimi, hop-hop kimi,
Yumrulanar
Bir şar kimi, bir top kimi.
Kəndirbaz tək
Uzun ipdən sallanar o,
Bir quş kimi
Kol üstündən tullanar o.
Dimdik durub,
Fırfıra tək fırlanar o,
Onu görüb
İnanmadı öz gözünə,
«Bu ki, qardaş,
Möcüzədir»—dedi nənə.
Gözəl-göyçək
Qız görəndə baxar Tombul,
Gah tullanar,
Gah boynuna çıxar Tombul.
Bir qız bir gün
Qaçıb onu qabaqladı,
Boğazına
Qızıl rəngli lent bağladı.

Gəlib sirkə
Apardılar bir gün onu,
Oğlan vermək
İstəmirdi Tombulunu.
Gedənləri
Öz yolundan saxladı da,
Tombulunun
Arxasınça ağladı da!
O Tombulsuz
Darıxırdı otağında,
Gecə yata
Bilməyirdi yatağında.
Nədir, nə var?!
Uzaqdan bir səs eşitdi,
Dik atılıb,
Yatağından durdu, getdi.
Qəşəng Tombul
Yazıq-yazıq boynun burub,
Təngənəfəs
Astanada gəlib durub.
Oğlan cumub
Aldı onu qucağına,
Qaça-qaça
Gətirdi öz otağına.
Onu görüb
Heyrətləndi səhər nənə,
—Vaxsey!—dedi,
Ölmüş Tombul gəlib yenə.
Uşaqlar da
Onu görüb şənləndilər,
Sevindilər,
Oynadılar, əyləndilər.
Sanki Tombul
Dil anlayır, söhbət edir,
Uşaqları
Konsertinə dəvət edir!



**SAKİT-SAKİT**

Bir oğlan var,
adı Xalid,
Kinoya da,
Futbola da .
Durub baxar
sakit-sakit...
Beşiyindən birdən çağa
Başlayanda ağlamağa,
Ana deyər:
—İşim çoxdur,
O körpəni, oğlum, kirit,
Durmaz Xalid,
Ancaq baxar sakit-sakit!
Ata deyər:
—Sınıb kilid,
Usta çağır, mənim oğlum...
Öz yerindən durmaz Xalid,
Bir daş olar,
Yenə baxar sakit-sakit..
Müəllim dərs soruşanda
Deyər:—Bala,
Bu sözlərdə
hanı samit, hanı sait?
Cavab verə bilməz Xalid,
Durub baxar
Məzlum-məzlum,
sakit-sakit!
Şair şer oxuyanda,
qızlar xalı toxuyanda,
Futbolçular udan zaman,
Topu atan,
tutan zaman
Bahar rənglər paylayanda,
Şimşək—lalə parlayanda

Qövs olanda
Göy üzündə
Yeddi rəngli qızıl şərid
Yenə Xalid
Durub baxar sakit-sakit...
Belə deyər
Dostu Rəşid:
—«Düzdür, sakit-sakit baxar,
Ancaq Xalid
Saman altdan su buraxar.»
Nə sevinc, nə gözündə yaş,
Nə həyəcan,
nə də təlaş,
Nə fərəhi,
nə hay-küyü,
Sanki görmür yeri-göyü.
Dedi Rəşid:
—Qardaş, Xalid,
Bu xasiyyət
yaman pisdir,
onu tərgit,
Amma Xalid
Yenə baxdı sakit-sakit...

**HEÇ NƏ ALMA!**

Evimizə gəlib qonaq,
Dil-dil ötür bu uşaq:
— Mənə verin nə konfet,
Nə peçenye, nə alma,
Anam möhkəm tapşırıb
Heç kəsdən heç nə alma!
Konfetlə yoxdur aram,
Yoxdur almayla aram.
Versəniz də bunları,



Heç birini almaram.
Ona ya konfet uzat,
Ya da ki alma uzat,
Dili—yox, yox—desə də
Əlləriylə bunları
Götürəcək o saat!

**ÇƏMƏNDƏ ÇƏTİRLƏR**

Qızlar al-əlvan rəngli
Çətirləri açdılar.
Tutub başları üstə
Çəmənliyə qaçdılar.
Bu yay günündə günəş
Hər yana od səpirdi,
Qızlarısa günəşdən
Qoruyan bu çətirdi.
Gül-çiçəkli çəməndə
Gül-çiçəkdi—çətirlər,
Qızların başı üstə
Kəpənəkdi çətirlər.
Allı-güllü çəmənin
Nə gözəl ətri vardı,
Bir qucaq çiçək kimi
Hər qızın çətri vardı.
Bənzəyirdi gül açan
Yasəmənə çətirlər,
Yaraşırdı necə də
Bu çəmənə çətirlər.

## BAĞBAN VƏ UŞAQLAR

Alma dərən bağbanın
Üzündən nur yağırdı,
Almaları astaca
Bir səbətə yığırdı.
Uzun bığları vardı,
Dayanardı, durardı,
Ləzzətlə, aram-aram
Bığlarını burardı.
Elə ki, səbət doldu,
Qoca bağban yoruldu.
Elə ordaca yatdı,
Şirin yuxuya batdı.
Yaydıqca xoş sərinlik
Gözəl alma bağları,
Xoruldayan bağbanın
Tərpənirdi bığları...
Birdən...
dırmaşıb...
aşıb...
Uşaqlar daş hasarı,
Gəldilər oğrun-oğrun
Dolu səbətə sarı.
Almaları hasardan
O tərəfə atdılar,
Qana-tərə batdılar,
Bircə anın içində
Səbəti boşaltdılar.
Dırmaşdılar ağaca,
Daraşdılar ağaca.
Qırdılar- budaqları,
Tökdülər yarpaqları.
Ağacdakı almalar
Elə gözəl almadı,
Ancaq ağac üstündə



Bircə alma qalmadı.
Hamısını dərdilər,
Güllə kimi hasardan
O yana göndərdilər.
Qacan zaman qocanın
Bığlarını dartdılar,
Yuxudan oyatdılar,
Cəld hasarı aşdılar,
Aşan kimi qaçdılar.
Qoca açıb gözünü,
Dərhal qalxdı ayağa,
Hirs içində əlini
Uzadanda budağa,
Gördü ki, səbət dolu,
Ağac da sağ-salamat.
Bığları da yerində,
Öz-özünə qaldı mat.
Sən demə, bu yuxuymuş,
Birdən baxdı hasara,
Hasardan həsrət-həsrət
Boylanan uşaqlara.
Cəld götürdü səbəti,
Getdi hasara sarı,
—Alın,—deyə səbəti
Qaldırdı lap yuxarı.
Uşaqların gözündə
Sevinc qarışıq heyrət,
Hasardaca boşaldı
Alma dolu bir səbət.
Seyr edib qoca baqban
Bu alma bağlarını,
Bururdu aram-aram
Yenə də bığlarını!

**DOLU**

Yağdı dolu,
Dolu-dolu.
Örtdü izi,
Kəsdi yolu.
Dağa yağdı,
Bağa yağdı,
Dama yağdı,
Daşa yağdı.
Yağdı taq-taq,
Taraq-taraq!
Yağdı dolu
Budaqlara
Dəyə-dəyə,
Yarpaqları
Döyə-döyə,
Çiçəkləri,
Ləçəkləri
Əyə-əyə!
Dolu yağdı
Noğul kimi
Dolu ağdı.
Hamı baxdı,
Gilas boyda,
Almaz boyda
Dolu yağdı,
Bol-bol yağdı,
Yağdı dolu,
Kirəmitdə
Taqqıldadı,
Çınqıllıqda
Çaqqıldadı,
Suya düşdü
Şappıldadı,
Yerə düşdü,



Tappıldadı.
Dolu yağdı,
Çırtdan oğlan
Evdən çıxdı,
Heyran-heyran
Ona baxdı,
Yerdən yığdı,
Bərk-bərk sıxdı.
Dedi:—Bunun
Nədir dadı?
Nə cıqqılı
Yumurtadı...
Yağdı dolu,
Dolu-dolu,
Adamları
Evə qovdu,
Hər tərəfdə
Səs-küy oldu.
Dolu yağdı,
Bol-bol yağdı.
Oyun açdı
Şifer üstə,
Qazlar qaçdı
Dəstə-dəstə.
Təkcə bir an
Haray saldı,
Bu haraydan
Sel-su qaldı.

**SAMİRİN TOPU**

Samir bərk vurdu topu,
Elə bərk vurdu yerə,
Gördü ki, qalxır bu top
Özündən də hündürə.

Samir qorxdu, nə qorxdu,
Dərhal başını əydi,
Hündürə qalxan bu top
Gəlib başına dəydi.

## BİRİNCİ SİNİFDƏ TƏNƏFFÜS

Elə ki çölə
Müəllim çıxdı,
Sinifdə sanki
İldırım çaxdı,
Qırx uşaq birdən
Ayağa qalxdı.
Aşdı sel kimi,
Daşdı sel kimi.
Döndü dalğaya
Bu şən uşaqlar,
Deyən uşaqlar,
Gülən uşaqlar...
Biri-birinin
Saçından dartan,
Biri-birinə
Karandaş atan...
Pıçıltı ilə
Gizli sirr açan,
Nağıl danışan,
Dörd tərəfinə
Gəlib toplaşan...
Dəhlizə qaçan...
Zarafat edib
Şən-şən gülüşən,
Biri-birindən
Tutub güləşən.
Nə gülməlidir
Bərkdən tutaşan



O iki oğlan,
— Elə bil onlar
Dovşandır, dovşan.
Bu nədir? Birdən
Ordu görüşdü,
Güllə açıldı,
Partapart düşdü. —
Hər kəs tapınca
Kağız tapança
Bir səngər oldu
Onlara parta,
Qızlar heyrətlə
Qulaq asdılar
Bu partaparta.
Sağ tərəfdəki
Parta dalından,
Birdən qalxanlar,
Tutub qılınclar,
Tutub qalxanlar,
hücum edənlər
Gör nə qədərdir,
Sən demə, atlı
Süvarilərdir.
Düşdü tappatap,
Düşdü çaphaçap...
Belə hücumdan
Qaçdı «düşmənlər»,
Qorxub büzüşdü
Əsir düşənlər...
Bunu görmədən,
Fikir vermədən
Bapbalaca qız
Çəkirdi şəkil.
Öz yoldaşına
Deyirdi hərdən:

—Kənara çəkil.
İki qəşəng qız,
İki çiçək qız
Verib səs-səsə,
Girmişdi bəhsə...
Nəğmə deyənlər,
Şer deyənlər,
Alma yeyənlər,
Çörək yeyənlər...
Od kimi keçdi
On dəqiqə düz,
Gözlənilmədən
Bitdi tənəffüs!

## SADIQ, FUTBOL VƏ DƏRS

Sadıq beş yaşında olarkən:

Kiçik Sadıq
Yeyir qatıq.
Onun üzü,
Qaşı, gözü
Olur dümağ.
Özü ancaq
Bilmir bunu,
Sanki qara
Batıb burnu.
Bir qız ona
Verdi ayna.
Üz-gözünə
Baxdı Sadıq,
Qaşında da,
Başında da
Gördü qatıq,
Öz-özünə
Güldü Sadıq.



Sadıq böyüyüb on yaşına çatır. Uşaqlar qoşulub həyətdə futbol oynayır, hücumçudur.

Sadıq qaçır, nə qaçır,
Ayaqları dolaşır.
Az qalır dəysin yerə,
Canlanır birdən-birə.
Elə ki, topu görür,
Arxasınca yüyürür.
- Sadıq, Sadıq,
İrəli çıx!
Tez topa çat,
Tez bizə at!
Bir külək olur Sadıq,
Bir şimşək olur Sadıq.
O qaçır,
topa çatır,
Topu dostuna atır.
hücum, hücum
Sadıq, durma,
İrəli cum!
O, topu alsın deyə
Yüyürür irəliyə.
Səslər qalxır, ucalır,
Şən uşaqlar əl çalır.
- Ay, ay Sadıq,
Kənara çıx!
İtirirsən
Topu asan,
Nə cür oyun
oynayırsan?!
Sadıq geriyə qalır,
Birdən cumub
Topu alır,
Topla birgə
Qaçır, qaçır...

Ayaqları dolaşır,
Sonra mayallaq aşır...

Topu yenə itirdiyi üçün uşaqlar Sadığın əlindən hirslənib onu qapıçı qoyurlar. İndi görək Sadıq necə qapıçı olur?!

Top izləyən Sadığın
İldırımdır əlləri,
Qapıya gələn topu
Dərhal qaytarır geri.
Topu özü atanda
Xoruz kimi dayanır,
Top qapıya çatanda
Pişik kimi tullanır.
Topu elə izləyir,
Gah durur, gah əyilir,
Başı üstdən quş uçur,
O quşu da top bilir.
Elə cəld tutur topu,
Tutur bir şimşək kimi,
Top bucaqdan gələndə
Sıçrayır pələng kimi.
Lap vaxtında sıçrayıb
Topu havada qapır,
Oyun gedir... hələlik
Keçilməz qalır qapı.
Vay... birdən, bu nədir,
Top düz qapıya gedir.
Dərhal Sadıq hoppanır,
Sonra birdən dayanır.
Necə oldu, ay aman,
Top-ki, keçdi qapıdan!..

Uşaqlar Sadığı təzədən hücumçu keçirirlər:

Bir külək olur Sadıq,
Bir şimşək olur Sadıq.



Hücum, hücum,
Sadıq, durma,
İrəli cum!
Hamı həyəcandadır,
Top qapı yanındadır.
—Sadıq, Sadıq,
Dayan ayıq.
Yerində dur,
Bax, bu da top,
Qapıya vur!
O, bərkdən vurur topu,
Qopur hay-küy, gurultu.
Top uçub yaman keçir,
Dərhal qapıdan keçir.
Axşam da düşür artıq,
Tər içində hələ də,
Bizim o məhəllədə
Futbol oynayır Sadıq.

Anası Sadığı evə səsləyir. O, otağa girir, portfelini açır, kitab-dəftərini qarşısına qoyur, dərsini hazırlamaq istəyir:

İndi sakit əyləşib
Quzu tək fağır Sadıq,
Dəftəri yazır Sadıq,
Kitaba baxır Sadıq.
«Eh! Nə oxuyuramsa,
Başıma girmir»—deyir,
Mürgüləyir, əsnəyir.
Bayaq od kimi qaçan,
Bayaq qol-qanad açan,
Bir şimşək olan Sadıq
Tərpənə bilmir indi,—
Büzüşüb yazıq-yazıq
Olub ölü bir balıq..
Elə «yorğunam» deyir.
Mürgüləyir, əsnəyir!

## KVARTET

Dörd bacıyıq, dörd bacı,
Atamızın dörd qızı.
Eyni paltar geyirik,
Rəngi birdir: qırmızı.

Nənəm deyir:—Gözəldir
Oğlumun övladları,
Bizə paltarlar tikir,
Bu dəfə rəngi sarı.

Eyni rəngli, bu gözəl
Paltarları geyirik,
Dördümüz də nənəyə
—Sağ ol, sağ ol!—deyirik.

Teatrda, kinoda
Hər yerdə bir oluruq,
Bir mahnı öyrənmişik,
Bir yerdə oxuyuruq.

Çıxmışıq səhnəyə də
Mahnımız xoşa gəlib,
Deyirlər, bacılardan
Bir kvartet düzəlib.

Dörd bacıyıq, dörd bacı,
Anamızın dörd qızı,
Gəlin, siz də dinləyin,
Bizim bu mahnımızı.



## CIRNAĞAN MƏMİŞ

Bir söz deməmiş,
Cırnadı Məmiş.
Yaman kükrədi,
Çıxdı özündən,
Alov töküldü
Şimşək gözündən.
«Xoruz» dedilər
Hirsləndi Məmiş,
«Buynuz» dedilər
Hirsləndi Məmiş.
Dələ dedilər,
Dəvə dedilər
Hirsləndi Məmiş.
Bəzən coşdular,
Nəğmə qoşdular:
«Dəvə, ay dəvə,
Dönmüsən divə,
Al çantamızı
Tez apar evə!»
Ay aman! Məmiş
Düşdü nə günə,
Qışqırıb cumdu
Onun üstünə,
Bunun üstünə.,
Kükrədi, daşdı,
Söydü, savaşdı,
Fərqi yox, kimdir
Dərhal dalaşdı.
Sel kimi coşub
Çağladı Məmiş,
Bəzən dözməyib
Ağladı Məmiş.
Dəcəllər isə
Öz-özlərindən

Razı qaldılar,
Məmiş hirslənib
Dava etdikçə
Ləzzət aldılar.
Ancaq bir dəfə
Məmiş dinmədi,
Heç qışqırmadı,
Heç hirslənmədi.
Ha söz atdılar,
Ha cırnatdılar
Dinmədi Məmiş.
«Vay, Məmiş gərək
Adını dana.
Döyür gözünü,
Danadır, dana».
—Məmiş daş olub,
Başı boş olub.
—Gözü qaralıb,
Burnu saralıb.
—Vay, Məmiş ya lal,
Ya da kı kardır.
Başında yekə
Buynuzu vardır.
—Demə, bu Xoruz
Gəzdirir buynuz...
—Ay aman! Məmiş
Qara daş imiş...
Beləcə ona
Ha söz atdılar,
Ha cırnatdılar
Bir dəfə belə
Məmiş dinmədi,
Heç qışqırmadı,
Heç hirslənmədi...
Neçə gün sonra



Düşdülər yenə
Onun üstünə:
—Xoruza bax, xoruza,
Başındakı buynuza.
Birdən... Bu nədir?!
Ayaqa qalxdı,
Məmiş onlara
Qəribə baxdı...
Baxdı... Və getdi
Onlar tərəfə...
Heç nə demədi,
Qəhqəhə çəkdi
Ancaq bu dəfə...
Yer, göy titrədi
Onun səsindən,
Qorxdu dəcəllər
Qəhqəhəsindən.
Gülürdü Məmiş
Qüdrət içində,
Susdu dəcəllər
heyrət içində!
Onlar bir daha
Söz atmadılar,
Bir daha onu
Cırnatmadılar!

**FƏRİD HANI?!**

Hay-küylə Fərid evdə
Oynayırdı bayaqdan.
Birdən-birə kəsildi
Onun səsi otaqdan.
Ata qalxdı ayağa,
Göz gəzdirdi otağa.
Yoxdur

Fərid otaqda,
Nə güncdə,
Nə bucaqda,..
Nəzər saldı hər yana,
Çarpayının altına,
Güzgünün arxasına...
Gah yataq otağına,
Gah qonaq otağına,
Baxdı bu otaqların
Küncünə-bucağına.
Heç yanda
Yoxdur Fərid.
Şkafı açdı ata,
Şkafda yoxdur Fərid.
Mətbəxə qaçdı ata,
Mətbəxdə yoxdur Fərid.
Hara gedib
Bu Fərid, harda itib
Bu Fərid?!
Ata qayıtdı geri,
Qaldırdı pərdələri,
Dönüb baxdı
Dəhlizə,
Möcüzədir, möcüzə,
Heç yanda
Yoxdur Fərid...
Hara baş alıb gedib,
Kimə qoşulub gedib?!
Bəlkə çıxıb eyvana,
Bəlkə
Girib divana,
Bəlkə
Qalxıb tavana?!
Ata baxdı eyvana,
Ata baxdı tavana,



Ata baxdı divana.
Eyvanda
Yoxdur Fərid,
Tavanda
Yoxdur Fərid,
Divanda
Yoxdur Fərid,
Heç yanda
Yoxdur Fərid.
Ata dayandı
Birdən...
Üzü üstə çevrilən iri,
Plasmas vanna...
Heyrətlə
Baxdı ona...
Bəlkə bu vanna deyil,
Tısbağadır
Elə bil.
Hərəkət
Etdi vanna,
İrəli
Getdi vanna.
O, dedi baxa-baxa:
—Bu, nə böyük tısbağa
Qaldıranda vannanı,
Gördü dəcəl oğlanı.
Güldü altdan yuxarı
Fəridin baxışları.
—Bu nədir, ay tısbağa
Tez elə,
Dur ayağa!
Ata çəkəndə kötək
O qaçdı
İldırım tək...
Götürdü

Oyuncağı,
Göyə qalxdı nəşəsi,
Bürüdü bu otağı
Qəhqəhəsi,
Şən səsi!

## MÜXTƏLİF ŞERLƏR

### HİND QIZI ÇANDRA

Hind qızı Çandra
Gəlibdir bizə,
Hind ölkəsindən
Vətənimizə.
Bizim qızlara
Bənzəyir Çandra,
Gözləri qara,
Qaşları qara,
Saçları qara!
Gendir,uzundur
Onun paltarı.
Çoxdur üzündə
Nöqtə xalları.
Kəlağayını
Başına örtdü,
Oynamaqda o, hamını ötdü.
O, elə şəndir,
Deyib-güləndir.
Nənəmlə ona
Verəndə çadra,
Qəhqəhə çəkib
Dərhal çadraya
Büründü Çandra!



Bu çadra ilə
Rəqs etdi yenə
Bir bax, titrəyən
Çiyinlərinə!
Gəzdik hər yeri,
Doğma çölləri.
Vuruldu Çandra
Bizim ellərə,
Bizim çöllərə.
Çağırdıq:—Çandra,
Gəl, gəl çadıra.
Çadırda Çandra
Başlayıb sözə,
Danışdı bizə
Öz vətənindən,
Çöl-çəmənindən.
Oxudu sonra
Bizim ellərin
Bir nəğməsini,
Deyirdi hərdən
Şən ləhcə ilə
«Dost» kəlməsini.
Hind qızı Çandra
Bənzəyir yaman
Bizim qızlara,
Gözləri qara,
Qaşları qara,
Saçları qara!

### SEHRLİ KİTABXANA

Kitabxanam sirlidir,
Sirlidir, sehirlidir.
Hər kitab bir işıqdır,
Rəflərə yaraşıqdır.

Vərəqləri dil açar,
Söhbət edər, danışar.
Duyub, gəzib hər yanı,
Öyrənirəm dünyanı.
Neçə yerdən keçirəm,
Qitələrdən keçirəm.
Görürəm vulkanları,
Gölləri, ümmanları,
Gah ispan bağlarını,
Gah da buz dağlarını.
Qarşıma Cırtdan çıxır,
O zirək oğlan çıxır.
Çıxarmadan səsini,
Aparır şələsini.
O kimdir qılınc çalır,
Düşməndən qisas alır.
Bir nağıl qəhrəmanı,
Məlikməmmədi tanı!
Qalib gəlib qoşuna,
Minir Zümrüd quşuna.
Vətənin neçə oğlu,
Babək, Nəbi, Koroğlu
Eli dardan qurtarır,
Zindanlardan qurtarır.
Qoşulub bir huşsuza,
Uçuram lap ulduza.
Görüb Çippolinonu,
Səsləyirəm mən onu.
Bəs, görəsən o kimdir,
— Ağ xalatlı həkimdir
Dovşana sakit-sakit,
Baxır dokqor Aybolit.
Bir səs gəlir:
—Ay canım, hardasan,
Tıq-tıq xanım?!



—Qarnım tox, ürəyim şən.
Gəlirəm xan evindən.
Neçə-neçə sirr açar,
Düyməcik, Qızıl açar!
Hər kitab bir işıqdır,
Rəflərə yaraşıqdır.
Nur çiləyir hər yana,
Sehrli kitabxana!

## YARIMÇIQ ŞƏKİL

İskəndər şəkil çəkir,
Aşıb-daşır həvəsi.
Canlanır tablosunda
Bir təbiət lövhəsi.
Elə qarışır başı,
Unudur bu dünyanı,
Görür təkcə tablonu,
Bir də rəngi, boyanı.
İstəyir əzəmətli,
Vüqarlı olsun Kəpəz,
Həvəsinin üstünə
Gəlir yeni bir həvəs.
Uzaqdan baxsın deyə
Çəkilir bir kənara,
Heyran qalır özü də
Vurduğu boyalara.
Birdən qopur hay-haray:
— Gəlin, oynayaq futbol,
Ay İskəndər, İskəndər,
Gəl sən də qapıçı ol!..
«Yorulmuşdum...Nə yaxşı,
Futbol heç də pis olmaz.
Şəkli sonra çəkərəm,
Gedim oynayım bir az».

Atır rəngi, fırçanı,
Uşaqlarla görüşür,
O qədər oynayır ki,
Görür ki, axşam düşür.
Evə yorğun ğayıdır,
Yuxu axır gözündən,
Daha şəkil çəkməyə
Qüvvə duymur özündə.
Bir gün gedir dənizə,
Bir gün dağları gəzir,
Bir gün sıx meşələri,
Bir gün bağları gəzir.
Ana həyəcanlanır:
—hardasan, oğul, gəl çıx,
Axı sənin çəkdiyin
Şəkil qalıb yarımçıq.
—Çəkəcəyəm mən onu,
Ana can, arxayın ol,
Gəl, indi icazə ver,
Gedim, oynayım futbol.
İskəndər coşur yenə,
Dostlarıyla yarışır,
O qədər oynayır ki,
Yenə başı qarışır.
Səhər gəlir işləsin,
Çəksin deyə tablonu,
Çağırırlar həyətdən
Yenə uşaqlar onu.
İskəndər çəkir yenə
Təbiət lövhəsini,
Duyur oğurlayıblar
Odunu, həvəsini.
Nə qədər çalışırsa,
Onda həvəs oyanmır,
Atır rəngi, fırçanı,



Daha evdə dayanmır.
Qaçır, düşür həyətə.
Qoşulur uşaqlara,
Gedir dağa, çəmənə,
Gedir lap uzaqlara.
Bax, beləcə günləri
O, bir-bir yola salır,
Yay ötür, payız gəlir,
Yarpaqlar da saralır.
İskəndərin çəkdiyi
Şəkil yarımçıq qalır.
Şəkil yarımçıq qalır.

## QƏRİBƏ QATAR

Bu, nə qəribə qatar,
Üfüq onun relsləri,
Görəsən niyə gəlmir
Təkərlərin səsləri?!
Ağappaqdır vaqonlar,
Nə çox dayanır onlar?!
Düzülüb qatar-qatar,
Yola düşür bu qatar.
Niyə astadan gedir,
Elə bil karvan gedir...
Günəşdir yanacağı,
Dağlar—dayanacağı...
Asta gedən bu qatar,
Mənzilə nə vaxt çatar?!
Gözəldir ağ vaqonlar,
Birdən-birə... vay... onlar
Qızardılar, yandılar,
Yenə də dayandılar.
Önündə rəqs edərək
Onu saxladı şimşək.

Oy... qatar yolda qaldı,
Vaqonları qaraldı...
Elə bil uğuldadı,
Elə bil fısıldadı,
Yandı yenə də şimşək,
Sanki top guruldadı.
Aman... nə oldu görən,
Dağıldılar, düşdülər
Vaqonlar pərən-pərən.
Yağdı güclü bir yağış,
Gördüm ağ damlaları,
Daha görə bilmədim
O qəribə qatarı!

## PARAŞÜT

Şimşək kimi keçib gedir
buludları yara-yara,
Bir təyyarə
buludlardan buludlara
Qalxır,enir
gah aşağı, gah yuxarı,
Uçub gedir günə sarı.
Bir mərd oğlan,
Qoçaq oğlan,
Gözlərini çəkə bilmir
Buludlardan.
Pəncərədən baxır, baxır...
Birdən qalxır
qətiyyətlə,
Yaxınlaşır
Təyyarənin qapısına
həm surətlə,
həm cürətlə.



Üzgüçü tək tullananda
Təyyarənin qapısından
Tutur oğlan
Sanki bulud topasından.
Göy—bir dəniz,
Sakit, səssiz...
Paraşütsə
Başı üstə
uçan, şişən
bir ağ yelkən...
Enir yerə
O paraşüt nəhəng şar tək,
Elə bil ki, göy üzündə
Ya çətirdir,
ya göbələk.
Baxır oğlan,
Keçən zaman
Buludların arasından.
Yavaş-yavaş enir yerə,
Qəlbi göyə qalxır yenə...
Enir yerə,
dağ görünür,
Kənd görünür, bağ görünür.
Enir yerə,
Görür oğlan
Meşə, tarla, çəmən, dərə...
Yol görünür,
Kol görünür.
Düşdüyü yer—
yaşıl çəmən,
Onu dostlar
Qucaqlayır dörd tərəfdən.
Gülür oğlan,
Dostlarının
əllərini sıxa-sıxa,

Bu ağ çətir
paraşütü yığa-yığa...
Bu paraşüt nəhəng çiçək,
Bu gün endi,
Oğlan sabah,
qəhrəman tək
Yenə,yenə,
buludlara yüksələcək!

## BİR QIZ XƏSTƏ YATIRDI

Bir qız xəstə yatırdı,
Çöldə ip-ip oynayan
Qızlara baxa-baxa
Dərdə-qəmə batırdı.
Xəyalında dağ görür,
Dağ boyunca yüyürür,
Zirvələrə çatırdı.
Gizlicə dərmanları
İki-iki atırdı.
Özünü şən göstərib
«Ana, sağlamam» deyə
Ona yalan satırdı.
Baş tutmurdu kələyi,
hirslənirdi, aləmi
Bir-birinə qatırdı.
Gah çəmənə, gah bağa,
həsrətlə baxa-baxa
Bir qız xəstə yatırdı...



## FIRLANĞICDA

Mən minirəm, ay ata,
Gah dəvəyə, gah ata.
Minirəm gülə-gülə
Gah marala, gah filə.
Fırlandıqca dəvə, at,
Mən də açıram qanad.
Fırlanıram raketdə,
Dolanıram raketdə.
Təyyarəyə minirəm,
Gülürəm sevinirəm!

## QATAR GEDİR

—Gedir ki, qatar, baba.
Məni də apar, baba.
—Oğlum, bağlar-bağçalar
Gözləyir məni kənddə,
Səni gətirər qatar,
Meyvələr yetişəndə!

## NAĞILLI EV

Nağıllı bir ev vardır,
Nə kənddə, nə şəhərdə,
Nağıllı bir ev vardır
Elə nağıllı yerdə.
Şəki—bizim diyarın
Ən qədim bir şəhəri,
Burda qışın, baharın
Bütün gözəllikləri!
Marxal—daha sehrkar,
Meşəsi, dağ-dərəsi.

Füsunkardır, füsunkar
Ən adi mənzərəsi.
Burda qılınc bir dərə,
Sağ meşədir, sol meşə.
Qərq olur çiçəklərə
Qılınc dərə həmişə.
Sərilir yamaçlara,
Dırmaşır ağaclara
Neçə-neçə sarmaşıq,
Çiçəkləri ağ işıq.
Bu mənzərə içində
Nağıllı ev qurulub.
Onu dərə içində
Kim görübsə, vurulub.
Bu ev—bənzər xəyala,
Sığışmaz bir kitaba.
Sevinər bu nağıla
Baxsa Andersen baba!
Gəz yuxarı-aşağı,
Nağıl—canlı, həqiqi!
Görərsən həm Marşakı,
Həm Abdulla Şaiqi.
Hər yan sərin, yamyaşıl,
Nağıllı ev hanı bəs?!
Su axır şırıl-şırıl,
Hardan gəlir bəs bu səs?!
Çıxmaq üçün hündürə
Pillələri adi—daş,
Çatmaq üçün o yerə
Qalxırsan yavaş-yavaş.
Gözəl işdir görülən
Əvvəl dəyəcək gözə,
Çubuqlardan hörülən
Böyük, gözəl bir kuzə!
Olduğun yer—bir dəhliz,



Neçə eyvan görünür,
Uzanır yaşıl dəniz,
Yaşıl tavan görünür.
Nağıllı ev... Bəs hanı
Qapısı, pəncərəsi?
Əvəz edir qapını
Bəlkə qılınc dərəsi?!
—Taq-tuk!
—Sim-Sim!
—Gələn kimdir, gələn kim
—Mənəm, doktor Aybolit.
—O... doktor... bir az sakit.
Dəcəl bir oğlan yatır,
Doğrusu Cırtdan yatır.
—İnanmıram mən buna,
Cırtdanın yatdığına.
— Bura qorxulu bir ev,
Cırtdanı izləyir dev.
—O Cırtdan qorxan deyil,
Qorxursa Cırtdan deyil.
Bu evin söylə barı,
hanı qəhrəmanları?
—Onlar gediblər səhər,
Bir azdan gələcəklər.
—Taq-tuk,
—Sim-sim!
—Gələn kimdir, gələn kim?
—Bura tez-tez gələnəm,
Mən ki, Ağacdələnəm.
—Taq-tuk,
—Sim-Sim!
—Gələn kimdir, gələn kim?
—Mənəm, mənəm, Karandaş,
Cırtdana yaxşı yoldaş!
—Bəs sən, Kimsən?!

—Mən sərçəyəm.
Cik-cik-cik...
—Mənsə məşhur Düyməcik.
—Taq-tuk,
—Sim-Sim!
—Gələn kimdir, gələn kim?
—Mən ki Sünbül kuklayam,
Mən ki günəşəm, ayam.
Görüb Çippolinonu,
Qonaq gətirdim onu.
Gəlir pələng, gəlir şir,
Ayı,bəbir, birbəbir!
Çıxıb meşədən qəfil
Gəlir balaca bir fil.
Başında tac şah gəlir,
Sürünüb timsah gəlir!
—Taq-tuk,
—Sim-Sim!
—Kələn kimdir, gələn kim?
—Mənəm, şahzadə qızam,
Ancaq indi yalqızam.
Yoxdur tacım, üst-başım,
Qoyun, sizə qarışım.
—Ey dostlar, gəlin bura,
Şır-şır axan bulağı,
Qərq eləyibdir nura
Ələddinin çırağı.
Elə ki, gəlir dələ
Hamı verir əl-ələ.
Rəqs eləyir, oynayır
Sevinclə, gülə-gülə.
Gözəl bir müğənni tək
Bülbül nəğmə oxuyur,
Pəncərədə hörümçək
Zərif pərdə toxuyur.



Bu evi sevə-sevə,
Hamı gəlir bu evə.
Gəlib verir əl-ələ,
Sevinclə, gülə-gülə!
Ev bəzən yaşıllaşır,
Bəzən də qızıllaşır.
Elə gözəlləşir ki,
Dəyişib nağıllaşır.
Nağıllı yerdir Marxal,
Burda nağıllı ev var.
Gətirir arzu, xəyal,
Gətirir sevinc, bahar.
Bu evi tikən, quran
Ağıllı bir adamdır,
Nağılı başa vuran
Nağıllı bir adamdır.

## QIZ VƏ ÇAY

Yay vaxtı gülə-gülə,
Bir qız gəlir sahilə.
Ləpələr aşır-daşır,
Birdən sular danışır:
—Ay qız, niyə baxırsan?
—Mən bilmək istəyirəm
Sən haraya axırsan?
Qəhqəhə çəkir sular:
—Bunu bilməyə nə var?
Baxıb kəndinizə mən,
Axıram dənizə mən.

## LİFT

Basan kimi düyməni
Göyə qaldırır məni.
Dayananda açılar
Öz-özünə qapılar.

## SALAM, MƏKTƏB

Əziz məktəb, hər zaman
Səni bir ana bildim,
Uzaq-uzaq dağlardan
Bu gün qoynuna gəldim.
Göyə çatdım az qala,
Günəşdən qüvvə aldım.
Dağlarda qala-qala,
Dağlar kimi ucaldım.
Elə sərin meh gördüm,
Buz kimi üşüdən meh.
Otlar üstə şeh gördüm,
Ovucu dolduran şeh.
Burda tapdım özümə
Təzə dostlar—uşaqlar,
Hərdən dəydi gözümə
Gizli axan bulaqlar.
Qayada daşa-daşa
Büllur bulaq axırdı,
Cığırlar açа-açа
Budaq-budaq axırdı.
Elə şimşək çaxdı ki,
Sanki tutmaq olardı,
Elə duman axdı ki,
İtmək, batmaq olardı.
Göy guruldadı birdən,
Dedim dünya dağıldı.



Gül boylandı hər yerdən,
Hər şey burda nağıldı.
Burda bir lalə gördüm
Qədim bir kuzə kimi,
Burda şəlalə gördüm,
Bir ağ möcüzə kimi.
Bildim, duydum sirrini
Hər qayanın, hər daşın.
Gedib tapdım yerini
Bizim çoban Dadaşın.
Gülməkdən uğunurdum
Qoyunlar güləşəndə,
Hər şeyi unudurdum
Quzular mələşəndə.
Çoban sevirdi dağı,
Dağ kimiydi ürəyi,
Sehrliydi çomağı,
Sehrliydi tütəyi.
Dilə gələndə tütək
Qoyun-quzu yatırdı,
Yağışda ildırım tək
Göyə çomaq atırdı.
Baxırdı çoban Dadaş
Göydəki çomağına,
Dönürdü yavaş-yavaş
Çomaq göy qurşağına.
Mən gətirdim Dadaşın
Mərdliyindən hekayə,
Hər qayanın, hər daşın
Sərtliyindən hekayə.
Neçə nağıl gətirdim
Meşə dərinliyindən,
Duman sərinliyindən.
Şəlalənin səsini
Həvəsimdə gətirdim,

Quşların nəğməsini
Nəfəsimdə gətirdim.
Biri-birindən qəşəng
Əlvan, gözəl, rəngbərəng
Gül-çiçəklər gətirdim.
Naxışlı, zolaq-zolaq,
Həm çəhrayı, həm də ağ
Kəpənəklər gətirdim.
Qırmızı, qara, sarı
Göbələklər gətirdim.
Çəməndən, güldən, otdan,
Bağ-bağçadan, buluddan
Əlvan rənglər gətirdim.
Onu demirəm hələ,
Gətirdim dovşan, dələ.
Şüşə qabın içində
Dipdiri kərtənkələ.
Seçib getdim hər yana
Neçə-neçə yolu mən,
Bu gün sənin qoynuna
Gəldim əli dolu mən.
Nur gətirdim gözümlə,
Çəmən, bulaq gətirdim,
Elə bildim özümlə
Nəhəng bir dağ gətirdim.
Sən bizə qanad kimi,
Salam, ey ana məktəb,
Yenə bir övlad kimi
Gəldim qoynuna, məktəb!



## ƏN UCA BİNAYAM

Bir şəhərdə ən uca,
Ən nəhəng bir binayam.
Varlığım daş olsa da,
Sanıram—bir anayam.
Vardır isti qucağım,
Vardır odum, ocağım.
İyirmi mərtəbəyəm,
Sanki bir qəsəbəyəm.
Pillə-pillə ucalıb
Yaxşı işlər görmüşəm,
İsti ana qoynumda
Hamıya yer vermişəm,
Otaqlarım var mənim,
Çıraqlarım var mənim.
Elə bir ana kimi
Hamıya göz qoyuram,
Mehriban insanları
Tufandan qoruyuram.
Liftim sanki ildırım,
Dil açar:—Gəlin, minin
Bircə anda qaldırım.
Pəncərələr gözlərim,
Eyvanlarsa sözlərim.
Ən uca bir binayam,
Həm bina, həm anayam.

## RƏNGBƏRƏNG İŞIQLAR

Şəhər üstə enən kimi
Axşam çağı,
Gəlin baxın, aşıb-daşır
Sahil bağı.
Ulduz-ulduz çilçıraqlar
Bu sahildə

Rəngbərəng bir boyunbağı.
Bir zəncirdir
Uzun işıq silsiləsi,
Göydə açıb
Rəng-rəng yanan
Gül dəstəsi.
Bu, nə gözəl silsilədir,
Hər zərrə nur,
Bir lalədir!
Dalğaları yara-yara
Gəmi gedər uzaqlara.
Ordan baxın,
Sahil olar çiçək-çiçək.
Hörülübdür
Ulduzlardan min-min çələng
Bu çiçəklər,
Bər-bəzəklər,
Bu çələnglər
Par-par yanar,
Yana-yana
Ayna suda rəqs eləyib
İşıqlanar.
Füsunkardır
Gül qucağı, nur qucağı,
Uzandıqca gözəlliyin
Nə ucu var, nə bucağı.
Axşam vaxtı
Yerə enib
Sanki yüz-yüz göy qurşağı.
Axşam çağı,
Nağıllaşar,
Aşar-daşar,
Gözəlləşər sahil bağı.
Doymaz adam
Seyr etməkdən



Çiçək-çiçək işıqları,
Bu al-əlvan,
Bu rəngbərəng işıqları!

## ÇƏKMƏÇİ

Sənətkaram,
Çəkməçiyəm, adım Əli.
Söhbətlərim
Naqılvari, şən, məzəli.
Kiçik dostum,
Sən heç zaman fikir çəkmə,
Lazım olsa,
Sifariş ver, tikim çəkmə.
Darıxanda,
Nə vaxt desən, gəl yanıma,
Tində olan bapbalaca dükanıma.
Dost olmuşuq,
Söhbətimiz tutur bizim,
Gecə-gündüz
Əlimdədir iynəm, bizim.
Məhəlləmiz
Yaraşıqlı, böyük, geniş,
Vaxtım yoxdur,
Aşıb-daşır başımdan iş!
Çox böyükdür
Məhəlləmiz: bəli, bəli,
Evlər uca,
Doqquz, on bir mərtəbəli.
Səs-küy salan
Uşaqlarla olmaz aram,
İki alan
Uşaqları danlayıram:
Bir qız gəlir:
—Yamayınız bu çəkməmi.
Sonra ona

Təzə rəng də çəkin, əmi.
—Hələ dayan,
De, neçədir qiymətlərin?
—Dörddür, beşdir...
—Sağ ol, qızım, min afərin!
Səsləyirəm
Uşaqları: Arif, Səlim,
Hardasınız,
Çəkmənizi gəlin,silim.
Kim keçirsə,
Salam verir hamı mənə,
Salam verir
Uşaq, cavan, baba, nənə.
Çəkməçiyəm,
Sadə, adi sənətim var,
Amma mənim
Necə böyük hörmətim var.
Kiçik dostum,
Darıxanda gəl yanıma,
Tində olan bapbalaca dükanıma!

**LALƏ ÇİMİR HOVUZDA**

Lalə dənizə baxır,
Görür ləpələr axır...
Hay-küy salır bəs nədən?
Demə, kiçik qız qorxur
Aşıb-daşan ləpədən.
Lalə onun önünə
Gəlib ağ süfrə açır,
Lalə:—Ay aman—deyə
Qorxub uzağa qaçır.
Bir qaya var sahildə
Dəyirmi, fətir kimi.
Ortası bir az dərin,



Görünür təndir kimi.
Ləpələr axıb dolub,
Yaxşıca hovuz olub.
Lalə baxır hovuza,
Hovuz xoş gəlir qıza.
Özünü suya atır,
Sevinib əl-qol atır,
Ləpələnən sularda
Gah çıxır, gah da batır.
Qışqırır:—Nə yaxşıdır
Suları qarışdırır.
—Mən balığam, balığam,
Üzürəm, hey üzürəm.
Mən qayığam, qayığam,
Üzürəm, hey üzürəm!
— Beləcə deyə-deyə
O, başlayır üzməyə.
Bütün hovuz boyu qız,
Şappıldadır suyu qız...
Üzdükcə, oynadıqca
Nə aləm var bu qızda,
Hamı çimir dənizdə,
Lalə çimir hovuzda.

**UŞAQ BAĞÇASI YAYDA**

Dənizin sahilində
Yaraşıqlı bağça var,
Burda qalır, dincəlir
Gecə-gündüz uşaqlar,
Nəğmələrlə, günəşlə
Açılır hər səhəri.
Şən keçir, gözəl keçir
Onların yay günləri
Qaçırlar, oynayırlar

Çardaqların altında,
Çətir kimi açılan
Budaqların altında.
Maşın, qatar sürənlər,
Qumdan evcik quranlar,
Təyyarəçi olanlar,
Keşikçi tək duranlar.
Hovuzdan su gətirib
Tökən kimi ləklərə,
Sevinc nuru axırdı
Balaca ürəklərə.
Burda güllər, çiçəklər,
Əyləncələr,oyunlar,
Günlər elə şən keçir,
Burda darıxmır onlar.
Dəniz, o mavi dəniz,
Nə gözəldir, bilsəniz!
İstər səhər çağında,
İstər axşam çağında,
Çimirlər şən uşaqlar
Ləpələr qucaqında.
Toqquşub dalğalarla
Suyu şappıldadırlar,
Əlvan-əlvan topları
Bir-birinə atırlar.
İnci kimi ətrafa
Sıçrayır ağ damcılar,
Bir sərinlik gətirir
Şəffaf, parlaq damcılar.
Dəniz, o mavi dəniz,
Nə gözəldir, bilsəniz!
Göz yaşı tək dupduru,
Duşur günəşin nuru
O ayna sinəsinə,
Dəniz də heyran olur



Uşaqların səsinə.
Günlər keçir mənalı,
Gözəl, xoşbəxt, firavan,
Bu şən yay günlərini
Unutmazlar heç zaman!

## *SEVİRİK TƏBİƏTİ*

### KÖRFƏZDƏ

Körpüdən keçib
Körfəzə endim,
Balaca, gözəl
Qayığa mindim.
Sürdüm qayığı
Adaya sarı,
Qayıq astadan
Böldü suları.
Sakitdir sular
Gözəldir körfəz,
Bu gözəlliyi,
Gəzməyən görməz!
Yamyaşıl sular
Bir şüşə kimi,
Sıx-sıx qamışlar
Bir meşə kimi.
Yuvalara bax,
Papağa bənzər,
Eləsi var ki,
Yumağa bənzər.
Sakitcə üzür
Bir dəstə ağ qaz,
Sürdüyüm qayıq
Onlara çatmaz.

Bərk sürdüm, ancaq
Yolu itirdim,
Qamışlığın lap
İçinə girdim.
Hürküb qayıqdan
Qorxub qayıqdan,
Uçdular quşlar,
Bu qamışlıqdan,
Sərin, xoş hava
Gətirir sular,
Ağ-ağ çiçəklər
Bitirir sular.
Qalxıb necə də
Otlar boy atır,
Suların üstə
Çəmən yaradır.
Qağayılardır
Səs salıb uçan,
Qanadlarını
Sularda açan.
Körfəz boyunca
Nə qədər quş var!
Baxıb onlara
Çəkirəm avar.
Sürdüm qayığı
Dənizə sarı,
Gördüm uzaqdan
Balıqçıları.
Bütün quşların
Məskəni körfəz,
Heç unutmaram
Mən səni, körfəz,
Gözəlliyini
Gəzməyən görməz!



## KƏNDƏ GEDƏNDƏ AXŞAM

Gedirdim kəndə
Bir axşam çağı,
Keçməli idim
Uca bir dağı.

Sakit cığırla
Yoxuşa qalxdım,
Bu uca yerdən
Ətrafa baxdım.

Hər yan yatırdı
Sükut içində,
Qalmışdı ay da
Bulud içində.

Kədər bürüdü
Məni bir anlıq,
Çünki bu dağı
Tutdu qaranlıq.

Bu qaranlıqda
Getdim, ha getdim,
Bu vaxt yaxından
Bir səs eşitdim.
Dayandım, məni
Bir qorxu aldı,
Niyə danım ki,
Rəngim saraldı.

Səs yenə gəldi,
Görəsən,nə var?
Bəlkə qarşıma
Çıxıb canavar?

Bu zaman birdən
Ay çıxdı üzə,
Ətraf nurlanıb
Döndü gündüzə.

Hər tərəf çimdi
Süd işığında,
Dağ da göründü
Yaraşığında.

Gözəllik verdi
İşığı ayın,
Oldu uçurum,
Dərə apaydın.

Hər yan sanki ağ
Tülə büründü,
Yol da göründü,
Kol da göründü.

Getdim yolumu,
Başlandı eniş,
hər tərəf səssiz,
Hər tərəf geniş...

İşıq səpildi
Yenə hər yerə,
Büründü ətraf
Ağ şəfəqlərə.

Unutdum daha
Səsi, qorxunu,
Gördüm gəlmişəm
Yolun çoxunu.



Sevinc içində
Endim aşağı,
Yoldaşım oldu
Ayın işığı.

Bu gözəlliyə
Baxdım, doymadım,
Getdim yolumu,
Qorxu duymadım.

## AYI HARA TƏLƏSDİ?

Nərildəyib bir ayı
Tələsib keçdi çayı.

Sonra sürətlə qaçdı,
Yastı təpəni aşdı.

Rast gəldi gah marala,
Rast gəldi gah çaqqala.

Gah da ki canavara...
Heç baxmadı onlara.

Cığırdan, yoldan ötdü,
Tikanlı koldan ötdü.

Həm yolçunu görmədi,
Həm ovçunu görmədi.

Zığa, palçığa batdı,
Böyük qayaya çatdı.

Dərhal çıxdı yuxarı,
Qaçdı kahaya sarı.

Görmədi doğan ayı,
— Tələsirdi bu ayı.

Yuvasının yanına,
Balasının yanına...

## QOZ AQACI ÇIRPILIR

Qoz ağacı çırpılır,
Sanki ağac çırpınır.
Titrəyir budaqları,
Titrəyir yarpaqları.
Bu, nə gözəl mənzərə,
Qoz tökülür hər yerə.
Budaqlara toxunur
Taqqataq,
Qozlar üstə tökülür
Şaqqaşaq,
Bəzən də başa dəyir,
Bəzən də daşa dəyir
Çaqqaçaq,
Yerə düşür tappatap,
Arxa düşür şappaşan.
Su aparır qozları,
Sevindirir qızları.
Görür, qozlar qorxudur
Arxda çimən qazları.
Qozlar axır, nə axır
Su üstə çıxa-çıxa.
Qızlar qaçır, nə qaçır,
Onları yığa-yığa.
Ağ süfrə—buludların
Üstünə qoz çırpılır,
Onlar bəzən otların
Arasından tapılır.



Ağacdan qoz tökülür,
Oğlan gülür, qız gülür.
Süfrəni geniş açın
Qoz tökülən ağacın
Gör nə qədər barı var,
Bir anbar qozları var.
Ağac yenə çırpılır,
Dönə-dönə çırpılır.
Qoşa-qoşa qoz yağır
Oğlan yığır, qız yığır.
Hər qoz—zəhmət əsəri,
Bir damcı alın təri.
Qoz paylanır bir kisə,
Zəhmət çəkən hər kəsə.

## DAĞ KƏNDİNDƏ QIŞ

Görmüsünüz ağ kəndi?
— Qarda itib dağ kəndi.
Yağır göyün barı qar,
Məhəllə qar, barı qar.
İtib qarın içində
Damlar, yollar, cığırlar
Od yanaqlı uşaqlar
Təpələrə çıxırlar,
Xizəklə sürüşürlər,
Yarğanlara düşürlər.
O dağ qardır, bu dağ qar,
Neçə-neçə budaq qar.
Oynadıqca bu qarda
Sevinc tapır uşaqlar.

## SEVİNİRƏM

Sevinirəm
qızıl bahar gələndə,
Çöllər, düzlər
işıqlanıb güləndə.
Sevinirəm
Gül-çiçəklər açanda,
Günəş bol-bol
hər yana nur saçanda.
Möcüzədir
nar ağacı,—bir çıraq!
Almaya bax,
armuda bax,—ağappaq.
Sevinirəm
quşlar nəğmə deyəndə,
Meşə, çəmən
təptəzə don geyəndə.
Canlananda,
bəzənəndə budaqlar,
Naxış-naxış
olan zaman yarpaqlar,
Sevinirəm
dəyişəndə dağ-dərə,
Əlvan-əlvan
Rənglərə bax, rənglərə!
Nə gözəldir
bu rənglərin bolluğu,
İşıqların,
çiçəklərin bolluğu.
Birdən-birə
şimşək çaxır, nə çaxır,
Göy tutulur,
yağış yağır, nə yağır.
Rəqs başlanır,
asimanda elə bil,



Guruldayır
gah nağara, gah təbil.
Sevinirəm
yanıb şimşək çaxanda,
Göy gurlayıb
isti yağış yağanda,
Yağış kəsir...
üzə gülür çöl-çəmən,
Vələs, palıd,
ağcaqayın, yasəmən,
hər gün artır
qızışdıqca havalar,
Budaqlarda,
eyvanlarda yuvalar.
Uzaqlardan
duyub, görüb baharı,
Dəstə-dəstə
Gəlir durna qatarı.
Sevinirəm
qızıl bahar gələndə,
Çollər, düzlər
işıqlanıb güləndə.
Çünki bahar
mənə bahar gətirir,
Xoş duyğular,
Xoş arzular gətirir!

## BİR ÇAY AXIR

Bir çay axır,
Elə gurdur,
Hər damlası
Sanki nurdur.
Çox uzaqdan
Axıb gəlir,

Uca dağdan
Axıb gəlir.
Dəyə-dəyə
Dağa-daşa,
Axıb gəlir
Daşa-daşa.
Bir nəğmədir
Onun səsi,
Gülə dönür
Hər qətrəsi.
Sakit-sakit
Axıb keçir,
Kəndimizə
Baxıb keçir.
Axır hər gün,
Hər ay, hər il,
Bu çay adi
Bir çay deyil.
Hamı üçün
Bir sehrdir,
Bir nağıldır,
Bir şerdir!
Kəndimizin
Şah vüqarı,
Nəğməkarı,
Ətirlidir
Gülab kimi,
Mənalıdır
Kitab kimi.
Bir çay axır...
Elə gurdur,
Hər damlası
Sanki nurdur!



## DAĞ ÜSTÜNDƏ BAĞ

Nə gözəldir, bax,
Dağ üstündə bağ.
Hər yan doludur
çiçəklə, güllə,
Bu gözəl yerə
Qalx pillə-pillə.
Keç döngələrdən,
Gəz meydanları,
Meşə kimidir
Xiyabanları.
Fəvvarəsi var,
Qayıqları var,
Təyyarəsi var,
Nağıllaşdırıb
Burda hər yeri,
Fırlanğıcları,
Yelləncəkləri.
Burda uyuyur,
— Adı-sanı nur,
Elin əzizi,
Qəhrəman Həzi!
Qalxa bilərsən
Ən uca yerə,
Baxa bilərsən
Bütün şəhərə.
Üfüqlər əlvan,
Şəfəqlər əlvan.
Bax küçələrə,
Bir də evlərə,
Göy sinəsini
Açmış Xəzərə.
Hər küçə—bir çay,
Hər ev—bir çiçək.

Bakı görünür
Ovuc içi tək.
Nə gözəldir bax,
Dağ üstündə bağ!

## SƏHƏR LÖVHƏSİ

Nadir çimәndә
Ləpədöyəndə
Baxdı dənizə,
Gördü möcüzə.
— Dayanıb günəş
Ona çox yaxın.
Dənizdə atəş,
Dənizdə yanğın.

## ALTIAĞAC

Gözəl yerdir Altıağac,
Dörd tərəfi ağac, ağac...
Başdan-başa hər yeri gəz,
Çəmənləri, düzləri gəz!
Əyil,su iç bulaqlardan,
Meyvələr dər budaqlardan.
Burda nəhəng qaya vardı,
Buludlara ucalardı.
Üstü ağac, altı ağac,
Üstündə də altı ağac,
Altında da altı ağac.
O zamandan bu yerlərin
Adı qaldı Altıağac!
O zamandan bu çöl, yamac,
Başdan-başa oldu ağac!
Meşələri elə dərin,



Elə böyük,
elə sərin,
Göbələklə, gül-çiçəklə
Kəpənəklə
qoynu dolu,
Zirvələrdə itir yolu.
Buludları dəstə-dəstə,
Gəlib durur dağlar üstə.
Kənd üstünə enir bəzən.
Şimşək olub dinir bəzən,
Gördüm burda uşaqları,
Bapbalaca qonaqları.
Oynayırlar
Dağa-daşa çıxa-çıxa,
Gah çiyələk, gah göbələk,
Gah da çiçək
yığa-yığa!
Biri durur bulaq üstə,
Biri qalxır budaq üstə.
Çəmənlikdə yatır biri,
Dağ başına çatır biri...
Qonaq gəlsən,
Başdan-başa hər yeri gəz,
Çəmənləri, düzləri gəz!
Gözəl yerdir Altıağac,
Dörd tərəfi ağac, ağac!

## MEŞƏYƏ YAĞIŞ YAĞIR

Dolu tək ağır-ağır
Meşəyə yağış yağır.
Yarpaqlardan süzülür,
Budaqlardan süzülür.
Meşənin hər yanında
İnci kimi düzülür.

Seyr et hər bir damlanı,
heyran qoyur adamı.
Nəğmə kimi səslənir
Meşənin yaşıl damı.
Yağış yağır şırhaşır,
Elə bil ki, dil açır:
«Meşəni əzizlərəm,
Hər yeri təmizlərəm.
Böcəklər susamışdı,
Çiçəklər susamışdı.
Susamışdı dərələr,
Otlar, güllər, pöhrələr.
Mənim üçün meşəyə
Su səpmək xoş bir işdi,
Görün, nə qədər ağac
Çimə-çimə su içdi!
Yağdım, o qədər yağdım,
Bu inci damlaları
Sonra bir yerə yığdım,
Yığıb dərə boyunca
Axdım, çay olub axdım».
Yağış yağır şırhaşır,
Sanki nağıl danışır.
Bir-birinə toxunan
Yarpaqlar pıçıldaşır.
Hava soyuyur bir az,
Hava qaralır bir az,
Hər yanda mirvari var,
Hər yanda inci, almaz.
Onlara əl vuranda
Əlində heç nə qalmaz.
Bütün meşə boyunca
Yağış yenə gur yağır,
Nəhəng günəş əriyib,
Ulduz-ulduz nur yağır.



Axdıqca aşır-daşır,
Şırıl-şırıl damlalar,
Bu meşəyə yaraşır
Yaşıl-yaşıl damlalar.
Sərinlik yaya-yaya
Sular axır şırhaşır.
Yağış nəğmə oxuyur,
Yağış nağıl danışır.

## AĞAC VƏ UŞAQ

Bir ağacdan yerə sarı
Sallanmışdır iri budaq.
Alma dolu, yarpaq dolu,
Bu budağa baxır uşaq,
Budaq elə əyilib ki,
Lap az qalır dəysin yerə.
Onun əli çatsa belə,
Cürət etmir alma dərə.
Nə qəşəngdir bu almalar:
Gah qırmızı, gah da sarı,
Ağac sanki «Götür» deyə
Uzatmışdır almaları!

## QIZLAR BOXÇASI ÇİÇƏYİ

Dağ ətəyi baharın
Ən gözəl bağçasıdır,
Təzə bir gül görürəm,
Bu, qızlar boxçasıdır.
Bir balaca kol üstə
Yarpaqlar atlas kimi,
Çiçəkləri qızarır
Yetişən gilas kimi.

Bunlar alova dönür,
Gündən-günə allanır,
Qaşında yaqut olan
Sırğa kimi sallanır.
Şəfəq rəngli qarmona
Bənzədirəm bu gülü.
Bəlkə kiçik kitabdır,
Qızıl cildə bükülü?!
Açılanda payızda
İçində nə görünür,
Yoxsa qızıl bir üzük,
Yoxsa inci, yoxsa dürr?!
Açıldıqca qatları
Birləşib dümdüz olur.
Qəribədir, bu çiçək
Beşguşə ulduz olur.
Bu qızlar boxçasından
Qızlar dəstə bağlayar,
Onları kitabların
Arasında saxlayar.

## SAHİL BAĞINDA QIŞ

Sahil bağı... Burda qış
Ağ-ağ çiçəklər açmış.
Nə iz var, nə cığır var,
Qar üstünə yaqır qar!
Hər tərəf qara batır,
Ağ bir nağıl yaradır!
Qar fırlana-fırlana,
Nur kimi yana-yana,
Ağ-ağ noğullar kimi
Səpələnir hər yana.
Yaşıl söyüdlər hanı?!
Göylərin dəyirmanı



Bəlkə də dən üyüdür,
Söyüdlər də üşüyür,
Bürünür ağappaq kürkə,
Dönür Şaxta babaya.
Fırlanğıclar da yoxdur,
Yelləncəklər də yoxdur,
Axı yaman soyuqdur!
Görünmür heç liman da,
İtib qatı dumanda.
Fırlanıb ağır-ağır
Qar yağır, hey qar yağır!
Bəzəyir bu yerdə qış
Hər yeri naxış-naxış!
Yerə ağ süfrə atır,
Min gözəllik yaradır.
Yaradır qar rəqsini,
Sözünü, nəğməsini...
Bir uşaq gəlib çıxır,
Açır burda ilk cığır.
O necə də qoçaqdır,
Qoçaq, zirək uşaqdır.
Qaçır dənizə sarı,
Qızarır yanaqları.
Gəlir fotoçu oğlan
Şəkil çəkir uzaqdan.
Çəkir qışın qarını,
Söyüd ağaclarını.
Fırlanıb ağır-ağır,
Qar yağır, hey qar yağır
Gəlib seyr edir qarı,
Bu sahilə bir qarı.
Hara baxırsansa ağ,
Hava mülayim, yumşaq...
Adamla dolur sahil,
Ağ bahardır bu fəsil.

Qar fırlana-fırlana,
Səpələnir hər yana.
Bu sahil bağını qış,
Bəzəyir naxış-naxış!



# "Şən şerlər" kitabından
(1983)

## ŞERLƏR

### QƏRİBƏ GƏMİYƏM

Gəmiyəm, mən gəmiyəm,
Qəribə,
şən Gəmiyəm.
Gəzməklə yoxdur aram,
Üzməklə yoxdur aram.
Dənizin ortasında
Bir yerdə dayanaram.
Mənim dörd ayağım var,
Mənim dörd dayağım var.
Qalxıb ayaqlar üstə,
Qalxıb dayaqlar üstə.
Rahat nəfəs alaram,
Havadaca qalaram!
Aşıb daşsa da dalğa,
Mənə nə edər daha?!
Çünki uça yerdəyəm,
Dənizdən hündürdəyəm.
Fırtına qopsa belə
Baxaram gülə-gülə.
Möhkəmdir ayaqlarım,
Möhkəmdir dayaqlarım.
Gəmiyəm, mən gəmiyəm,

Qəribə,
şən gəmiyəm.
Başqa kiçik gəmilər
Altımdan gəlib keçər.
Möcüzəyəm, möcüzə,
Sirrimi açım sizə:
Mən hər işə hazıram,
Burda quyu qazıram.
Hələ dəzgahım, qurğum,
Çinar kimi buruğum
Hər cürə imkanım var,
Vertolyot meydanım var.
Meydan deyirəm,
meydan,
Baxsan,
qalarsan heyran.
Vertolyot -
böyük, nəhəng
Kəpənəkdir, kəpənək!
Aşağı yavaş-yavaş
Enir meydana birbaş.
Tir-tir titrəsəm belə,
Baxıram gülə-gülə!
Möhkəmdir ayaqlarım
Möhkəmdir dayaqlarım,
Gəmiyəm, mən gəmiyəm,
Qəribə, şən
Gəmiyəm.
Yenə meydan boş qalar,
Futbol oynamaq olar...
Ançaq top, deyim sizə,
Gedib düşər dənizə!
Buyur, gəl,
indi tor at,
Onu dənizdən çıxart!



Çıxart görüm...
Ha, ha, ha...
Bu mümkün deyil daha.
Dalğa, haray qoparar,
Topu alıb aparar.
Nə dinçəldim, nə yatdım,
Axır ki, neftə çatdım.
Mən onu verən kimi
Yığdım şələ-küləmi.
Çəkib ayaqlarımı,
Çəkib dayaqlarımı,
Enərək yavaş-yavaş
Dənizə düşdüm birbaş.
Bax, bu yeri
tərk etdim,
Rahatça üzdüm, getdim.
Üzüb getdim uzağa,
Təzə quyu qazmağa.
Bilin, yenə deyirəm,
Adi Gəmi deyiləm.
Gəmiyəm, mən Gəmiyəm,
Qəribə,
şən Gəmiyəm!

## DAN ULDUZU VƏ TƏBƏSSÜM

Sevərəm körpələri,
Yuxusuna girərəm,
Şəfəq-şəfəq səhəri,
Onlara gətirərəm.
Bu səhərin özündə
Yavaş-yavaş solaram,
Uşaqların üzündə
Bir təbəssüm olaram.

## GÜNƏŞ

Günəşə bax,
Günəşə,
İşıq səpir
Həmişə?
Hamını səhər-səhər
Sanki səsləyir işə

## ÜÇ BACI VƏ İGİD FƏRİD

Həyətdə üç bacı var:
Aynur, Aygün, Həlilə!
Topla oynayırdılar,
Sevinçlə,
Gülə-gülə. Bu zaman, gombul,
yoğun,
Pırpız saçlı bir oğlan,
Gizlincə,
oğrun-oğrun
Gəlib çıxdı arxadan.
Gah yollarında durdu,
Gah lentlərini dartdı,
Topa bir təpik vurdu,
Vurub kənara atdı.
Birdən Fərid bunları
Uzaqdan gördü, gəldi.
Yüyürdü topa sarı,
Topu götürdü gəldi,
Gəlib hirslə gombulun
Qarşısında dayandı.
Bir şimşək kimi onun
Gözü qəzəblə yandı
Pırpız saç,
gombul oğlan
Bir az duruxdu, çaşdı,



Söz demədi,
Qorxudan
Birdən qaçdı.
Nə qaçdı!
Qəhqəhə çəkib qızlar
Güldülər Fərid kimi.
Fərid - balaça çinar,
Durmuşdu igid kimi.
Bir gün Fərid eyvanda
Gəzirdi sakit-sakit.
Səslədilər bu anda:
– Ehey... ey... Fərid,
Fərid...
Gördü durub üç bacı:
Aynur, Aygün, Həlilə.
– Ey, Fərid, gəl aşağı,
Dedilər gülə-gülə.
Süzüb bu şən qızları
– Fərid yaman sevindi,
Çumdu qapı ya sarı
Qaçıb həyətə endi.
Cəld qızlara qoşuldu.
Sevinç vardı səsində,
Fərid fırfıra oldu
Üç qızın dövrəsində!
Pırpız saç,
kombul oğlan
Durub qapı dalından
Oynayan uşaqlara
Baxırdı heyran-heyran.
Axşam düşsə də... hələ
Yenə tutub əl-ələ,
Oynayırdılar,
Fərid,
Aynur, Aygün, Həlilə.

**LAVAŞ**

Sacda bişir ağ lavaş,
Ağ lavaş,
yumşaq lavaş!
Qəribədir,
Xal-xal olur saç ustə,
Yığıb bir-bir,
Bükürəm dəstə-dəstə.
Nəvəm Sənəm
Gəlib deyir: – Ay nənə,
Bərk açmışam,
O lavaşdan ver mənə.
Deyirəm ki,
Mane olma, bir yavaş,
Geriyə dur,
Yaman istidir lavaş.
Sənəm getmir,
Gah dövrəmə fırlanır,
Gah ağlayır,
Gah başıma dolanır.
– Bu lavaşdan
İndi
yeməsəm olmaz,
Qızlar bilsə
Mənə biri də qalmaz.
– Bəsdir, Sənəm,
Nə küs, inçi, nə savaş,
Daha qorxma, hamıya çatar lavaş!
kömək
– Dostum, sən yenə
Kömək et mənə.
– Eləsə durma,
Mənə dondurma
Al, gətir yeyim,
Gömək eləyim.



– Belə bir kömək
Nəyimə gərək?!

**MİKROFON**

Bu gün Fəridin,
Başı qarışıq,
Səhərdən bəri
Tutub əlində
Çüt taxta qaşıq.
Günəşin nuru,
– Qızıl şnuru
Bağladı ona,
Yaman bənzədi
Bu, mikrofona.
Sevinib Fərid
Baxdı hər yana,
Bir səhnə seçdi,
– Qalxdı divana.
Nəğmə oxudu
İnçə bir səslə,
Oxuyub coşdu
Daha həvəslə...
Heyrət içində
Anası onun,
Heyrət içində
Atası onun.
Gülürdü təkcə
Bacısı onun.
Eşidən kimi
Qəribə səsi,
Mətbəxdən qaçıb
Gəldi nənəsi,
Onu görən tək
Fəridin on qat

Artdı həvəsi.
Azça çəkilib
Fərid qırağa,
Verdi köksünü,
Verdi qabağa...
Bəzən də Fərid
Yırğalanırdı
Bir nənni kimi,
Çoşub daşırdı
Çoşub oxuyan
Müğənni kimi.
Tutub ağzına,
Bu mikrofonu,
Yellədib göyə
Qaldırdı onu.
Dedi bacısı:
– Səsin ki, gəlir
Ay Fərid, onsuz...
Ançaq, Fərid
Oxuya bilmir
Bu mikrofonsuz.

## BİZİM KƏND UŞAQLARI

– Gəl, gəl, – deyir
çəmən, düz,
Yamaçlara tutub üz,
Dərələri, dağları
Dolaşar gecə-gündüz,
Bizim kənd uşaqları.
Yetişəndə gilənar,
Sonra alma, armud, nar,
Bağçaları, bağları
Gizlin-gizlin dolanar,
Bizim kənd uşaqları.



Oynayar kəpənəklə,
Qaranquşla, çiçəklə,
Şəhərli qonaqları
Qarşılayar ürəklə,
Bizim kənd uşaqları!

## ZƏMINƏ

Deyin,
kimdir Zəminə?
Kimdir?
Pambıq yığandır?
Yox, deyirlər,
sehrli,
Qeyri-adi insandır,
Deyirlər, onun
özü tufan,
Külək kimidir.
Əlləri əllər deyil,
Oddur,
şimşək kimidir.
Deyirlər ki,
üzündən
Elə işıq saçılır,
Əli dəysə kollara,
Qozaları açılır.
– Ey, bəsdir,
dayan, dayan,
Bunların çoxu yalan...
Zəminə Aslanova
Nə sehrli adamdır,
Nə də sirli adamdır.
Əlləri
nə küləkdir,

Nə oddur,
nə şimşəkdir!
Qəribədir, bəs onda
Niyə çoxdur hörməti,
Adı, sanı,
şöhrəti
Niyə tutub hər yanı!
Bütün Azərbaycanı?!
Çünki Zəminə
Sevir zəhməti,
Bu zəhmətdədir
Güçü, qüdrəti!
Dan ulduzu tək,
Çıxar tarlaya
İşıq, su olub
Baxar tarlaya.
Onun tarlası,
– Bütün ömrünün
Nuru, mənası, –
həm nəğməsidir,
həm də laylası!
Tarla öz evi,
Eşiyi kimi,
Ona bir körpə
Beşiyi kimi!
Qorxmur küləkdən,
Ayazdan, qardan,
Fırtınalardan!
Günəşli, aylı
Həyatı sevir,
Qoşma, gəraylı,
Bayatı sevir,
Sevir nəğməni
Nəqəratı da.
Sevir gülməyi,



Zarafatıda!
Ürəyi təmiz,
Diləyi təmiz,
Hamıya doğma,
Hamıya əziz!
Zəminə – sadə insan,
İstiqanlı, mehriban.
Olmasa da sehrkar,
Fədakardır, fədakar,
Sevimlidir Zəminə
Həm adi insan kimi,
Sevimlidir Zəminə,
Həm də qəhrəman kimi!

## SÜRÜÇÜ ANAM

Təzə maşınımızı
Atam yox, anam sürür,
Hamı həmişə onu
Maşını sürən görür.
Onda möhkəm iradə,
Onda səliqə, inam...
Yolda diqqətli olur
Mənim sürüçü anam.
Uşaqlar hərdən mənə
Sataşırlar,
Gülürlər
Çünki onlar anamı,
Bir sürüçü bilirlər.
Hardan bilsinlər onlar
Anam nəçidir, kimdir?!
Mənim sürüçü anam
Qoy bilsinlər, həkimdir!

## MEŞƏ ÇIĞIRI

Bir çay kimi meşədə
Axırsan şırıl-şırıl,
Meşə çığırı.
Payızda saralırsan,
Olursan qızıl-qızıl,
Meşə çığırı.
Gecə ayın nurunda
Yatırsan mışıl-mışıl,
Meşə çığırı.
Qışda qar yağan zaman
Gedirsən parıl-parıl,
Meşə çığırı.
Meşənin özü kimi
Baharda yaşıl-yaşıl,
Meşə çığırı.

## QULAM KİTAB OXUYUR

Bütün günü Qulamın
Kitab düşmür dilindən.
Bütün günü Qulamın
Kitab düşmür əlindən,
Bu dünyanı unudur,
Əyləşir quzu kimi,
Əlində kitab tutur,
İçir onu su kimi.
Balınçın altı kitab,
Yorğanın altı kitab,
Qaldırsan döşəyindən
Çıxar beş-altı kitab.
Qış zamanı oxuyur,
Yay zamanı oxuyur,
Yatmır, bütün gecəni



Bir romanı oxuyur.
Dərsə gedəndə hamı
Yuxu tutur Qulamı!
Ana deyir: – Oğul, dur,
Bu, nə cürə yuxudur?!
Sinifdə də Qulama
Heyrətlə baxır çoxu.
Dərsi dinləyir...
Amma onu aparır yuxu.
Kitabları həmişə
Gəzdirir qovluğunda,
Ya kəmərin altında,
Ya da ki qoltuğunda.
Kitabla yatır Qulam,
Kitabla durur Qulam,
Bacısını vuranda
Kitabla vurur Qulam.
Birdən... nə görür nənə,
Evdə düşüb tappatap,
Günayı vurur yenə
Qulam əlində kitab.
– Qulam, vurma Günayı,
Yoxdur onun günahı.
Kitabları birbəbir
Zorla yığır çantaya,
Çanta şar kimi şişir,
Az qalır ki, partlaya.
Hamı görəndə onu
Gülür, haray qoparır,
– Baxın, çanta topunu
Qulam yenə aparır.
Bir gün gəldi qonaqlar,
Ağıllı, şən uşaqlar...
Söhbət düşdü həyatdan,
Bir də ədəbiyyatdan.

Qulam döndü bir lala,
Gözünü döyə-döyə
Çavab verdi suala
Yadımdan çıxıb deyə.
Bəzən qaşını çatdı,
Bəzən çiynini atdı.
Bəzən dinlədi bir-bir
Kitab haqda tərifi.
Deyə bilmədi kimdir
Kitabın müəllifi.
– Nəyə gərək bu tərif,
Nəyə gərək müəllif?!
Gülüşdülər qonaqlar,
Ağıllı, şən uşaqlar,..
Yenə kitab oxumaq
Qulama arzu kimi,
Əlində kitaba bax,
İçir onu su kimi.
Qulama bir iş buyur,
Deyirlər bir ağızdan:
– Qulam kitab oxuyur...
Kitab oxuyur... həm də
Eyvana çıxır Qulam,
Kitab oxuyur, həm də
Rəngli televizorda
Kinoya baxır Qulam.
Gündüz kitab oxuyur,
Gecə kitab oxuyur,
Sadəcə nəql elədim
Necə kitab oxuyur!



**QIŞDA DAĞLAR**

Qışda dağların qarı,
Qalxır dizdən yuxarı.
Bu dağların yanından
Quşlar da ötə bilmir.
Kənd görunür, yolundan
Maşınlar gedə bilmir.
Ovçu gəzib ov güdür,
Yanında alabaşı,
Parıldayan süngüdür
Qayaların şiş başı.
Enib atlılar dağı,
Gedir üzü aşağı.
Minməmişəm mən ata,
Yol gedirəm piyada.
Dağlar – nəhəng göbələk,
Daqlar – nəhəng,
ağ çiçək...
Dağları tutub sükut
Üst-başı bulud-bulud!
Keçib qarlı yolları,
Mən çıxıram yuxarı.
Atlı keçsə də yenə
Minməyirəm tərkinə.
Niyə minim mən ata,
Xoşdur getmək piyada!
Yol getdiyim nəhəng dağ
Başdan-başa ağappaq!
Ayaqlarım donmayır,
Yanağlarım donmayır.
Ruh verir yollar mənə,
Od gətirir qar mənə.
Dağlar – nəhəng göbələk,
Dağlar – nəhəng,
ağ çiçək!

# "Yağış yağır dənizə" kitabından
## (1985)

*ŞERLƏR*

### SALAM, CIRTDAN BALALAR!

Salam, Cırtdan balalar,
Salam, şeytan balalar!
Bir mehriban sözümlə
Yaxınlaşdım günəşə.
Günəşi də özümlə
Gətirmişəm görüşə!
Gətirmişəm tapmaca,
Küsərəm, kim tapmasa:
«Səhər, gecə, günorta,
Göydə üzür yumurta.»
Gətirmişəm nəğmələr,
Şirin-şirin kəlmələr.
Odlanmağa,
Yanmağa
Sizə göz gətirmişəm,
Göyə qanadlanmağa
Fikir, söz gətirmişəm!
Sizə deyim yanıltmac:
«Yanıltmacı aç, uç, qaç,
Çaşma, qaç, qaç, tut, Turac!»
İndi birdən-birə siz,



Qulaq asın şerə siz:
«Dünya qədər xətirli,
Çəmən qədər ətirli
Göyçək balalarsınız,
Çiçək balalarsınız!»
Etmədən mübahisə
Nağıl danışım sizə:
«Bir əjdaha bir divə,
Söylədi: — gedək evə!
Div hirsləndi: — Nədir, nə
Getmərəm yad evinə!
Kükrədilər, daşdılar,
Bütün gün dalaşdılar.»
Gətirmişəm qanadlar,
Məzəli əhvalatlar,
Maraqlı hekayətlər,
Mənalı rəvayətlər.
Gəlin, verək əl-ələ
Bir yerdə, gülə-gülə
Oxuyaq ya «Xoruz»u,
Ya da «Uşaq və buz»u.
Mən üzüağ gəlmişəm,
Sizə qonaq gəlmişəm.
Odlanmağa,
Yanmağa
Sizə göz gətirmişəm,
Göyə qanadlanmağa
Fikir, söz gətirmişəm.
Salam, Cırtdan balalar,
Salam, şeytan balalar!

## NƏĞMƏSİ VAR GÜNƏŞİN

Günəşin nəğməsi var:
Şüa-şüa işıqlar.
Od rəngli işıqlara
Bənzər bütün uşaqlar.

Qanad açar bu nəğmə,
Nurlanar kəlmə-kəlmə.
Yayılar uzaqlara
Çatar bütün aləmə.

Açıb od sinəsini,
Uçaldıb od səsini,
Oxuyar uşaqlara
Günəş öz nəğməsini!

Bu səs—sülh, niçat səsi,
Səadət, həyat səsi!
Dünyada
uşaqların
Şən səsi, azad səsi!

## XOŞBƏXTİK BİZ!

Qucağın yaraşıqlı,
Gül-çiçəkli, işıqlı,
Boy atırıq səsinlə,
Odunla, nəfəsinlə
Ey ana Vətənimiz,
Xoşbəxtik biz!



## EHEY... DURNALAR...

Ehey... ehey... durnalar,
Qollarımı açıram,
Sizinlə uçmaq üçün
Arxanızca qaçıram.

Ehey... ehey... durnalar,
Bir anlıq dala baxın,
Məni yerdən götürün,
Cərgənizə buraxın...

Ehey... ehey... durnalar,
Qanad açmaq istərəm,
Mən də bu göy üzünə
Qalxıb uçmaq istərəm!
Ehey... ehey... durnalar,
Sizi izləyəcəyəm,
İndi qaçdığım yerdə
Sizi gözləyəcəyəm!

## TALADA

Bir meşənin talası,
Talada ot tayası,
Böyründə bu tayanın
Yatır ayı balası.
Ətcəbala quşlarsa
Yuvasından çıxırlar,
Qorxa-qorxa ayının
Balasına baxırlar...

## GÜL QIZ

Bu Mələk,
Gözəl-göyçək,
Gülsən, mütləq güləcək!
Bu balaca gül qızın
Üzündə gül bitəcək!

## BAXIRAM PƏNCƏRƏDƏN

Bu çalışqan sərçələr,
Bu dalaşqan sərçələr,
Sübh çağı, axşam çağı
Eyvanımın qonağı...
Hər yeri dolaşırlar,
Qəfildən dalaşırlar..
Qaçırlar, sivişirlər,
Gülürlər, sevişirlər...
Baxıram mən onlara,
Pəncərədən onlara.

## EY AĞAC

Ey ağac,
Bahardır,
Çiçək aç!
Çiçəklə
İşıq saç!
Ətir saç!

## ÖZÜN DƏR!

Necə gözəldir alma,
Bağbandan alma, alma!



Onlara baxa-baxa,
Özün gəl gir bu bağa!
Bu almalar təzətər,
Budağı əy, özün dər!

## LOVĞA

Bir uşaq lovğalandı,
Kükrədi dalğalandı,
Qabartdı sinəsini,
Bərk çıxartdı səsini.
Gördü pisdir ədası,
Yoxdur bunun faydası.
Hamı çıxdı sözündən,
Lovğa küsdü özündən.

## FIRFIRA

Bərk bururam düyməni,
Heyrət götürür məni.
Nə durur, nə dayanır,
Fır-fır, fır-fır fırlanır.

## YAĞ, EY QAR!

Yağ, ey qar,
Yağ bol-bol,
İtsin iz,
Cığır, yol!
Elə yağ,
Ağarsın
Dərə, dağ!
Görünsün
hər yan ağ,

Küçə ağ,
Meydan ağ,
Cahan ağ!
Ağaclar,
Yamaclar
Üşüsün,
Büzüşsün.
Əyninə
Ağ paltar
Geyinsin,
Yağ, ey qar,
Sevinsin
Qovaqlar.
Bulaqlar,
Budaqlar,
Yağan qar.
Ələnsin,
Əylənsin,
Sevinsin
Uşaqlar!

## BULAQ

Yaz çaqı dağda
həsrətlə baxdı bulaq,
Yayda sevindi,
Şırhaşır axdı bulaq.
Payız qəmlənib
Yol üstə çıxdı bulaq.
Qışda axmadı,
Tənha darıxdı bulaq.



## SARMAŞIĞAM

Aşıb-daşan,
Pıçıldaşan
sarmaşığam,
Yaşıl rəngli,
Ağ çiçəkli
sarmaşığam.
Əgər getsəm,
Əgər bitsəm
bir çəpərdə,
Daralmaram,
Qaralmaram
belə yerdə,
Bollanaram,
Sallanaram
pərdə-pərdə.

## FİŞƏNG

Yandı fişəng
Qəşəng-qəşəng.
Çiçəklər tək
Yandı rəng-rəng.
Qırmızı, ağ
Qığılcımlar,
Saçaq-saçaq
Qığılcımlar,
Abı, yaşıl,
Mavi, qızıl
Qığılcımlar...
Səpələnir
Göyə, yerə,
Dönə-dönə,
Ulduz-ulduz,

İynə-iynə...
Yandı fişəng,
Söndü fişəng,
Yer rəngbərəng,
Göy rəngbərəng.
Qərənfilə,
Qızılgülə
Döndü fişəng.
Parlaq oldu.
Zanbaq oldu.
Gah qırmızı,
Gah ağ oldu.
Yandı fişəng,
Qəşəng-qəşəng,
Şimşək-şimşək!

## APAR MƏNİ

Məni yedirmə daha
Özüm yeyərəm, ana,
Məni geydirmə daha,
Özüm geyərəm, ana.
Hər şeyi öz yerinə
Özüm qoyaram, ana,
Hər səhər əl-üzümü
Özüm yuyaram, ana!
İndi qorxutmur daha
Yağış məni, qar məni.
Sənsə, anacan,təkcə
Gəzməyə apar məni!



## OXUYAN QURBAĞA

Cuşa gəlib qurbağa
Başladı oxumağa.
Qəribə hava çaldı,
Haray saldı, nə saldı!
Bütün aləmi qatdı,
Yatanları oyatdı!
Gah «vağ-vağ»,
Gah da «qur-qur»
Bircə an belə susmur!
«Ey, bəsdir, səsini kəs,
Səni dinləmir heç kəs!»
Amma yenə qurbağa
Güc verdi oxumağa!

## ZANBAQ

Bir bax,
Ağ-ağ
Qəşəng
Zanbaq!
Bükük,
Çökük,
Çiçək
Qıf tək
Olmaz
Danmaq,
Solmaz
Zanbaq!

## HİRSLİ DƏVƏ

Sallayıbdır bu dəfə
Dodaqlarını dəvə.

— Biz səni gətirmişik
Meşələr ölkəsinə.
Sərinlən, yat, kef elə,
Çəkil bir kölgəsinə.
— Neynəyirəm meşəni,
Səhra çağırır məni.

## FİL VƏ SƏRÇƏ

Məzəylə, gülə-gülə
Sərçə söylədi filə:
— İndi səni tutaram,
Tutan kimi udaram.
— Nə deyirəm, buyur, ud!
— Onda əllərimdən tut!

## GÜNƏŞ, KUKLA VƏ ŞAR

Şəhər işıqlı, parlaq,
Hər yan qırmızı bayraq.
Lalə də atasıyla,
Balaca kuklasıyla
Bayramda gəzmək üçün
Küçəyə çıxıb bu gün.
Qıza şar alır ata:
— Al ondan kuklama da!
Lalə yaşıl şarları
Qaldırır lap yuxarı.
Necə parlaqdır günəş,
Ancaq uzaqdır günəş...
Qız uzatsa əlini,
Bəlkə tuta şar kimi?!
Nə olar, qoy götürsün,
Onu yanında görsün.



O elə yaxın olsun,
Alıb çiyninə qoysun!
Baxa-baxa günəşə
Aparsın nümayişə!
— Ata, dostlarıma. bax,
Səkinə, İsa, Afaq,
Vova, Kamal burdadır,
Ceyhun, Camal burdadır.
Burdadır Bikə, Aysel,
Samir, Nona, Səbayel...
Ata qaldırır göyə
Bayraq kimi qızını,
Qız da qaldırır bu an
Şarları, kuklasını...
Hamı azad, gülər, şən...
Necə olursa birdən
Lalə qızın şarları
Uçur günəşə sarı...
— Ata, bax, şarım uçur,
Elə bil göydə quşdur!
Uzaqlara gedir şar,
Buludlarda itir şar...
Bu böyük izdihama
Günəş qoşulub gedir,
Öpərək tellərindən,
Tutaraq əllərindən
Qızla dost olub gedir!
İnsanlar axın-axın,
İnsanlar dəstə-dəstə,
Günəş nur saçır, gülür
Onların başı üstə!

## PİLLƏKƏN

Uşaq qalxır pilləkənlə
Deyir: — Çıx, düş.
Say öyrənir, sayır elə
Bir-iki, üç!

## ÇİÇƏK GƏTİRDİ

Bu, nə qəribə itdi,
Məni görüb
Birdən itdi...
Qaçıb uzağa getdi!
Qalın kolluğa girdi,
Yox,yox, yenə,
Çıxıb mənə,
Tez özünü yetirdi,
Ağzında gül gətirdi!

## ƏNCİR

— Ehey... mənə baxın bir
Mən əncirəm, əncirəm.
— Hay-küy salma, ay əncir,
Səni daha dərirəm.
— Dərdin... o saatca ye,
Qoyma məni sabaha,
Belə dadlı, təzətər
Görə bilməzsən daha!

## PAPAQLAR

Meşədə, ağaclarda
Qara-qara papaqlar,



Saxlayır yuvaları, —
Papaqları budaqlar.
Tökülüb papaqlara
Çoxlu-çoxlu yarpaqlar.
Onları görsələr də
Əl uzatmır uşaqlar.
Çünki quşlar papaqda
Bala çıxaracaqlar!

## SƏDAQƏT

— Kimdir eyvanımızda?
— Bu, qaranquşdu gəldi.
Getmişdi ilk payızda,
Yaz oldu, uçdu gəldi.

## HANI?

Balaca qız oyandı,
Pəncərədən boylandı.
Harayladı ananı:
— Hanı, ulduzlar, hanı?!
— Gedib bulud-otağa,
Sənin kimi yatmağa!

## ZOĞAL

Yarpaqları
Yaşıl-yaşıl
Meyvələri
Qızıl-qızıl.
Rəngi aldır,
Bu, zoğaldır!
Sıra-sıra,

Sırğa-sırğa!
Bəzəyibdir
Budaqları,
Sanki yolka
Çıraqları.

## QAYIQ—YARPAQ

Göldə qayıq-yarpağa,
Mindi kiçik qurbağa.
Qayıq-yarpaq apardı
Qurbağanı uzağa!

## DAĞ ÇAYI

Axar dağ çayı,
Dağın ağ çayı.
Çay—dağa kəmər,
Buluddan gələr,
Gələr, durular,
Tez-tez burular.
Yolu kölgədir,
Döngə-döngədir.
Dalğa böyükdür,
Köpük-köpükdür.
Hey daşa-daşa
Çırpılar daşa.
Sahili öpər,
Damcılar səpər.
Düzülər, axar,
Süzülər axar.
Yerin qatından,
Qaya altından
Hündürdən keçər,



Gülər, şən keçər.
Şəlalə olar,
Bir haray salar.
Sürəti iti,
Salar nərilti,
Axar uzağa,
Axar dağ çayı,
Keçdiyi dağa
Baxar dağ çayı

## BAYRAM

Yetişdi bayramımız,
Yelləndi bayrağımız!
Hər yer bəzəndi qəşəng,
Şüar, çiçək, şar, fişəng...

## DƏYDİ

Budaq budağı əydi,
Budaqda heyva dəydi,
Bir söz dedim dostuma
Yaman xətrinə dəydi.

## XORUZLAR

Bu dalaşqan xoruzlar,
Gözləri qan xoruzlar,
Biri-birinə sarı
Uzanıb boğazları.
Elə haray qoparıb,
Tükləri də qabarıb.
Elə qızğın olublar,
Sanki quzğun olublar.

Dayanıblar göz-gözə,
Tükləri nizə-nizə.
Qanadları—qara yel,
Dalğalı, yelkənli sel...
Xəncərdir dimdikləri,
Qan olur çimdikləri.

O qədər dalaşdılar,
O qədər dolaşdılar,
Xoruzlardan küsdülər,
Başlarını kəsdilər.

**ZOOPARKDA**

Fil uzatdı xortumunu,
Görən kimi Kərim onu,
Elə çaşdı,
Elə çaşdı,
— Aman! — deyə qorxub qaçdı!

**AY**

Gəldi təzə ay,
O nədir, ay, ay,
Göydə oraq var,
Bu ki, Aydır, Ay!

**TƏKƏR**

Əvvəl havayla dolan,
Sonra bərkiyən təkər,
Onun rezindən olan
Paltarını kim tikər?!



**SIRĞALAR**

Lalənin qulağında
Qoşa gilas—sırğalar,
Yeməz bu gilasları,
Bütün günü yırğalar.

**ÜFÜQLƏR**

Üfüqlər gah bozarır,
Üfüqlər gah qızarır.
Gah gümüş kimi parlaq,
Gah da mavi, sarı, ağ!
Çəmən kimi min cürə
Rəngə çalır üfüqlər,
Bəlkə səhər çağından,
Bəlkə axşam çağından
Bəlkə göy qurşağından
Rənglər alır üfüqlər?!

**YÜKLÜ ARI**

Uçurdu arı
Səhərdən bəri,
Öpürdü bir-bir
Gül-çiçəkləri.
Çiçəklər aldı,
Ağdı,qonurdu,
Arı onlara
Bir-bir qonurdu.
O bütün günü
Yığıb yükünü
Geri qayıtdı,
Buludlar birdən

Günü qaraltdı.
Yağdı bir yağış,
Yağdı gur yağış!
Tut bir ucundan
Tutub çıx göyə.
Arı girdi tez
Qonşu pətəyə.
Yoxdu günahı,
Bu qonşu pətək
Oldu pənahı.
Ancaq ki, qorxub
Çəkildi geri.
Gördü pətəkdə
Hirsli gözləri.
Qonşu arılar
Vızıldaşdılar,
Pıçıldaşdılar,
Yağışa görə
Yer göstərdilər,
Yemək verdilər,
Su gətirdilər.
Bu yüklü arı
Çölə baxırdı,
Yağış yağırdı,
Sel-su axırdı...
Çox razı qaldı
Belə köməkdən,
Yağış kəsən tək
Uçdu pətəkdən.
Arı qovuşdu
Öz anasına;
Evinə çatdı,
Öz şanasına
Balı boşaltdı.



## XƏZƏRİM

Mənim əzizim,
Xəzərim,
Mənim dənizim,
Gövhərim,
Xəzərim!
Mənim dilimdə
Əzbərim,
Doğma elimdə
Əsərim,
Xəzərim!
Mənim qüdrətim,
Zəfərim,
Mənim şöhrətim,
hünərim,
Xəzərim!

## RAHATDIR

Nə deyim, bu ayıya,
Uzanıb çarpayıya.
Daha qalxmaq istəmir,
Mənə baxmaq istəmir.
Deyirəm ki,ey ayı,
Mənimdir bu çarpayı.
Heç nə almır vecinə,
Gör nə söyləyir mənə:
— Layla çal, məni yatdır,
Bu yer yaman rahatdır!

## MƏKTƏB YOLU

Uşaqla dolu
Bu məktəb yolu
Elə uzanır,
Heç vaxt dayanmır.
Çatır hər yerə,
Kəndə, şəhərə!
O dönə-dönə
Uzanır yenə.
Bu şərəfli yol
Dayanmır bir yol.
Çevrilir çaya
Gedir tarlaya,
Gedir zəmiyə,
Gedir gəmiyə.
Keçir buruqdan,
Keçir qoruqdan.
Keçir dənizdən,
Dərədən, düzdən,
Çıxır zirvəyə,
Yüksəlir göyə.
Dayanmır bir an
Keçir fəzadan,
Hər yerdən keçir,
Ömürdən keçir.
Qızıl şüadır,
Günəşə çatır.
Safdır, təmizdir
Bu məktəb yolu!
Hər vaxt əzizdir,
Müqəddəs, nurlu,
Uşaqla dolu
Bu məktəb yolu!



## ABDULLA ŞAİQ

Anadan olmasının 100 illiyi münasibətilə

Üfüqlərin qaşında
Nəhəng bir dağ görürük,
Özünün yüz yaşında
Şaiqi sağ görürük.

O sənətkar xeyirxah,
Mehriban, sadə, munis...,
Ata-anamız kimi
Həmişə doğma, əziz...

Bizə bir bahar kimi
Verib ürək odunu,
Gözəl sənətkar kimi
Biz də sevirik onu.

Mübahisə ediblər
Uşaqlar bütün günü,
Ömrü boyu sevіblər
Həccə gedən tülkünü.

Bir qız danışır bizə:
— Möcüzədir, möcüzə.
Gözü görmür nənəmin,
Oxudur kitabları,
O da sevir ürəkdən
Biz sevən sənətkarı.
Axşam üz tutub mənə
Yalvardı: «Al canımı»
Ancaq ki, oxu mənə
Bir də «Tıq-tıq xanımı».

Bir oğlan fikrə getdi,
Belə bir söhbət etdi:
— Oxuyurdum şerini
Mən Abdulla Şaiqin
Gah dovşandan, keçidən,
Gah xoruzdan, pişikdən,
Gördüm ki, qulaq asır
Kiçik bacım beşikdən.

Üfüqlərin qaşında
Nəhəng bir dağ görürük,
Özünün yüz yaşında
Şaiqi sağ görürük,

Sevgisi, məhəbbəti
Qəlbimizdə yaşayır,
Onun böyük sənəti
Qəlbimizdə yaşayır!

**EVDƏ TƏKDİR**

— Ehey... Fərid... gəl yanıma,
Gedək futbol meydanına.
Evdə qısıb nəfəsimi
Çıxartmadım mən səsimi.
O çağırdı məni yenə,
Əl çəkmədən dönə-dönə.
Çıxıb dedim
Bu dostuma, yoldaşıma:
— Mən getmirəm.
Evdə təkdir,
Baxacağam qardaşıma!



**HİRSLƏNƏN OĞLAN**

Hirslənib oğlan,
Hirslənib yaman!
Küsüb hamıdan.
Tökülüb bulud
Qaşı-qabağı,
Sallanıb yerə
Dəvə dodağı.
Heç kimə baxmır,
Küçəyə çıxmır.
Üzü qaralıb,
Onu dərd alıb.
Tökür göz yaşı,
Nə var ki, onun
Böyük qardaşı
Velosipedi
Vermədi, getdi.
Yaxşı da etdi.
Nə olub axı,
Başı aşağı,
Əyləşib.
Amma
Açılmır yenə
Qaşı-qabağı!
Bir baxın ona,
Hirsli oğlana.
Bu gözəl oğlan
Sanki şir olub,
Aman, ay aman,
Nə kifir olub!

## BAĞÇADAN MƏKTƏBƏ

1

Nə gözəl qızdır Sevda
Üç il qaldı bağçada.
Sevdi şən uşaqları,
Bir də oyuncaqları.
Onlarla oynayardı,
Qarışar, qaynayardı...
Sevərdi bu dostları:
Gülbənizi, İlqarı,
Sənəmi, Etibarı.
Düzəldərdi çarpayı,
Burda yatardı ayı.
Toplanı səsləyərdi,
Ceyranı bəsləyərdi.
Burda gəlincik vardı,
Gözlərini açardı.
O zərifdi, qəşəngdi,
Qəşənglikdə çiçəkdi.
Hörükləri qapqara,
Qaşlarısa aypara.
Hamı sevərdi onu
Qızıl rəngdəydi donu.
Bəzən fikrə cumardı,
Gözlərini yumardı.
Bəzən isə dinərdi,
Gülərdi, sevinərdi.
Sevdanın yaxın dostu
Gözəl gəlincik oldu.
Oyuncaqlar rəngbərəng:
Qaz, ördək, aslan, pələng.
Oyuncaqlar olardı
Sevdanın dörd tərəfi,
Oyuncaqlar—sevinci,
Oyuncaqlar fərəhi.



2

Neçə aydır ki, Sevda
Qalmır daha bağçada.
Sevdasız oyuncaqlar
Bəlkə darıxacaqlar?
Yox, onları oynadır
İndi başqa uşaqlar.
Anasına əl edir,
Sevda məktəbə gedir.
Gedir məktəbə sarı
Onun bütün dostları.
Görür məktəb yolunda
Gülbənizi, İlqarı,
Sənəmi, Etibarı.
Gecə-gündüz dost kimi
İndi onun həmdəmi
Karandaş, kitab, dəftər,
Bir də bütün hərflər!
Öyrənib zəng səsinə,
Həm yazı lövhəsinə,
Həm yaxın adam kimi
Sevib müəllimi.

3

Sevib məktəbi Sevda
Bağça da düşür yada.
Əlvida, oyuncaqlar,
Oynamağa vaxtmı var?!
Yox, yox, Sevda vaxt tapır,
Yenə qarğı at çapır.
Ayrılmır toplanından,
Ayrılmır ceyranından.
Düzəldir çarpayını,
Yatızdırır ayını.
— Hələlik, oyuncaqlar,

Axı mənim dərsim var!
Qəlbində böyük həvəs,
Sevda hazırlayır dərs.
Sevib məktəbi Sevda,
Bağça da düşür yada!

**KƏDƏRLİ NƏRGİZ**

Nərgiz gör harda bitdi,
Bağdan kənarda bitdi.
Zərifdi yarpaqları,
Zərifdi saçaqları.
Belə gözəl, təzətər,
Deyirdi: — Gəl, məni dər!
O qədər tənha qaldı,
Onu dərd-kədər aldı.
Bir gün bir dozanqurdu,
Gəldi, yanında durdu.
Dedi: — Nə olub sənə,
Bir bax gözəlliyinə.
— Eh, məni ki, görən yox,
Sevinən yox, dərən yox...
Bu dərdlə qalacağam,
Tezliklə solacağam!



## *EYNİ SÖZLƏR, BƏS MƏNASI?*

1

Dərhal gücünə odun
Alışıb yandı odun.

2

Qızım, götür, qələm yaz,
Ölkəmizə gəldi yaz.

3

Ay göydə yana-yana,
İşıq səpir hər yana!

4

Mən çırpıram tut,
Bir-bir göydə tut.

5

Gedirəm bağa sarı,
Almalar var: al, sarı.

6

Yüyəni tez mənə at,
Gözləyə bilməyir at!

7

Əlin soyuqdan
Olubdur çat-çat,
Tələs, tez elə
Qardaş, kəndə çat!

8

Neçə rəngə çalır göy,
Qırmızı, al, yaşıl, göy...

9

Açar var, açar,
Qapılar açar.

10

Dəyib qayaya-daşa,
Su axır daşa-daşa.

11

Payızda dəydi üzüm,
Mən onu necə üzüm?!
Heç bağa gəlməmişəm,
Axı qaradır üzüm!

12

Bizim aramızda barı,
Qoy sökülsün, uçsun barı!

13

İşlədim, əlimdə bel,
Az qala əyilsin bel!

14

Bu Toplan yaxşı itdi,
Birdən dumanda itdi.



## TAPMACALAR

1

Nə yatar, nə usanar,
Uzanar, hey uzanar
(Yol)

2

Durdu üfüq qaşında,
Sonra dağın başında
(Bulud)

3

Qırmızı rəng, sarı rəng,
Yaşıl rəng,
Kim tapar, nə deməkʔ!
(İşıqfor)

4

Evlər, küçələr, meydanlar,
Bir də ki, saysız insanlar.
(Şəhər)

5

Qucaqına sular axar,
Qucağından nur buraxar
(Elektrik stansiyası)

6

Köpüklənər, sellənər,
Ağ pərdədir,yellənər.
(Duman)

7

Daş qaldırar, daş təkər,
hündür bir bina tikər.
(Kran)

8

Relslər üstə yaşayar,
Adamları daşıyar.
(Qatar)

9

Buludları yara-yara,
Bircə anda yaxınlaşar uzaqlara.
(Təyyarə)

10

Pərdə açılır,
Pərdə örtülür,
Adamlar baxır,
Qəmlənir, gülür.
(Teatr)

11

Kainatda nəhəng şar,
Burda insanlar yaşar.
(Yer kürəsi)

12

Özü sudan alınır,
Köməyilə nur yanır,
Qapı zəngi çalınır.
(Elektrik)



13

Pianoya bənzəyən,
Hərflərlə bəzənən
Dilləri var,
Barmaqlarla tərpənən
Əlləri var,
Vərəqlərə söz yazar.
(Yazı makinası)

14

Başımız üstündə
oxşar dənizə,
Çən-duman, qar-yağış
göndərər bizə.
(Göy)

15

Qatları sıxılar,
Yelpic tək
Açılar, yığılar,
Yayılar xoş səsi,
Xoş səsi, nəğməsi
(Qarmon)

16

Özü kobud
Ancaq zərif dilləri var,
Əllərini
Bu ağ dillər üstə apar,
Ahəng dolu bir səs qopar.
(Piano)

17

Skripka, kontrabas,
Tamtam, arfa, nağara,
Violonçel, trombon,
Faqot, qaboy, gitara,
Bütün bu alətləri
Bir yerdə çalanlara
Nə deyirlər, görəsən?!
(Orkestr)

18

Qoruyur evi
Üstündə açar.
Əgər bağlısa,
Kim onu açar?!
(Qapı)

19

Yatır nəhəng
Balinalar qucağında.
Nərə çəkir
Fırtınalar qucağında
(Okean)

20

Özü top,
Dəyirmi!
Kəs, içi
Köz kimi!
(Qarpız)

21

İçində buz, şaxta, qar,
Nə qalsa, təzə qalar!
(Soyuducu)



22

Bir təpədən düşürəm,
Buz üstə sürüşürəm.
Sanki dönürəm yelə,
Uçuram gülə-gülə.
Nədir məni aparan,
Sağ olsun bunu tapan!
(Xizək)

23

Od-alovsuz yanar, çağlar,
İsti çayı isti saxlar!
(Termos)

## *OXU, ÖYRƏN, GƏZ, TANI DOĞMA AZƏRBAYCANI*

### KƏLBƏCƏR YOLLARI

Dağlardan başlananda
Kəlbəcərin yolları,
Zirvələrdə ağarır
Bu yolların qolları.

Tez-tez çıxır qarşıya
Gözlənilməz döngələr;
Döngələrin başında
Bulud-bulud kölgələr!

Gah yoxuş, gah da eniş,
Yollar elə daralır,
Qatılaşır kölgələr,
Sanki hava qaralır.

Açılır qarşımızda
Neçə-neçə mənzərə.
Zirvələrdir bürünən
Min şəfəqə, min zərə!

Yollar enir dərəyə,
Dərə—bir quyu dibi.
Bu yollar keçib-gedir
Yer altdan keçən kimi.

Birdən yollar dəyişir,
İndi qalxır yuxarı,
Elə qalxır ki, burdan
Görürsən buludları!

Rast gəlirsən, dəyişən
Başqa bir mənzərəyə,
Daha qalxmır yuxarı,
Yollar enir dərəyə.

Açır ağzını dərə,
Açır əjdaha kimi,
Yarızülmət qoynunda
Udur bir kaha kimi.

Yenidən qalxır yollar,
Qalxır uca bir yerə,
Qalır quyu dibində
Aşağıda bu dərə!

Ey dost, ayaq saxla, dur,
Bu yerdən keçmə, keçmə,
Axır dağ ətəyindən
Can dərmanı bir çeşmə!



Enir, düşür yollara
Dağların ətəkləri,
Sərgi açıb göstərir
Gülləri, çiçəkləri!

Pərdə kimi yellənib
Keçir duman axını,
Görürsən nə uzağı,
Görürsən nə yaxını!

Birdən gurşad başlayır,
Qopur elə bir tufan,
Qayalar başın üstə
Ya çətirdir, ya tavan!

Cərgə-cərgə uzanan
Yumru-yumru qayalar,
Sanki durub dəvələr,
Sanki durub ayılar...

Saxlayır qucağında
Küləkləri, yelləri,
Dağların, qayaların
Təbii tunelləri!

Elə bil ki, çıxmısan
Gəzməyə, əyləncəyə,
Bu enişlər, yoxuşlar
Çevrilir yelləncəyə!

Tərtər—bu gur dağ çayı
Bu yolların qardaşı.
Axır bir qılınc kimi
Bu yollarla yanaşı.

Keçdikcə dağlar boyu
Kəlbəcərin yolları,
Zirvələrdə ağarır
Bu yolların qolları.

Bilirsən, səni yollar
Gözəl yerə aparır,
Buludların yanına
— Kəlbəcərə aparır!

## DAĞDA YAĞIŞ

Dağda yağış
Gətirdi qış.
Elə yağdı,
Sel-su axdı.
Bulud yundan
İplik çıxdı,
Bu oyundan
Yağış yağdı.
Hər damla nur,
Büllur-büllur.
Əvvəl-əvvəl
Tel-tel yağdı,
Sonra coşub
Sel-sel yağdı.
Göyün hirsi,
Qaşqabağı
Tökdü min-min
Boyunbağı.
Boyunbaqı
Ağdı, ağdı,
Dayanmadı,
Yağdı, yağdı!
Bir yol açdı,



Aşdı, daşdı...
Birdən elə
Gücləndi ki,
Tökdü yerə
Vedrə-vedrə.
Bir an çəkdi,
Bu, nə işdi,
Birdən-birə
Sakitləşdi.
İndi yağdı
Göydən yerə
Qətrə-qətrə.
Nə küs, inci,
Nə də barış,
İnci-inci
Yağdı yağış!
Bos yağdıran
Kimdi, kimdi,
Palıd çimdi,
Dağ-daş çimdi.
Çatdı yerə
Bulud—şalın
Saçaqları,
Yerin-göyün
Dayaqları.
Yağdı yenə
Dönə-dönə.
Yağdı yağış,
Gətirdi qış.
Hava dönüb
Bomboz oldu,
Bumbuz oldu.
Həzinləşdi,
Pıçıldaşdı,
Kəskinləşdi,

Aşdı-daşdı.
Qəhqəhəylə
Yaqış güldü.
Hər tərəfə
Dürr töküldü.
Yağdı yağış,
Kəsilmədi.
Bu inçilər
Əskilmədi.
Yağdı yağış,
Qarış-qarış.
Hər şey yenə
Dönə-dönə
Gözəlləşdi,
Təzələşdi.
Ot bitirdi,
Gül bitirdi,
Dağa yenə
Yaz gətirdi.

## YAYLAQLAR

Dağlar—rəngarəng,
Qüvvətli, nəhəng...
Kimsə dağlara
Rəng çəkibdir rəng!
Başı buludda,
Yatıb sükutda.

Çiçəklərə bax:
Sarı, yaşıl, ağ!
Onlar—gülümsər,
İşıqlı, parlaq!
Xalıdır, xalı,
Dağların yalı.



Çoban tütəyi,
Çalır ürəyi.
Sürüylə dolu
Bir dağ ətəyi.
Hər yan səfalı,
Sərin, şəfalı!

Silsilə dağlar
Göyləri saxlar.
Dağlar qoynunda
Çoxdur yaylaqlar
Çoxdur hər yanda
Azərbaycanda!

Hava qaralar,
Çən-duman alar.
İki-üç saat
Dumanda qalar.
Qutar hər zaman
Yaylağı duman.

Buludlar çökər,
Göy haray çəkər,
Bu dağlar üstə
Gur yağış tökər.
Yağar hər yana,
Dönər leysana...

Bir közdür bulaq,
Bir sözdür bulaq.
Axar elə bil
Budaqdır budaq!
Özü buzdur buz,
Hər damla ulduz!

Bu yaylaq gözəl,
Dərə-dağ gözəl,
Çəməndə hər gül,
Hər yarpaq gözəl!
Buyur, dağa gəl,
Gəl,yaylağa gəl!

**YAŞIL QƏSƏBƏ**

***«İsmayıllı lövhələri»***

Bura—yaşıl qəsəbədir,
hər addımı qələbədir.
Evlər təzə, bağlar təzə,
Köhnə-köhnə dağlar təzə.
Təptəzədir küçələri,
Gündüzləri, gecələri.
Neçə yaşıl talası var,
Neçə yaşıl qalası var.
Dildə gəzir xoş tərifi
Bizim yurdun guşəsidir,
Gəzməyə çıx, dörd tərəfi
Azərbaycan meşəsidir.
Bura yaşıl qəsəbədir,
Hər addımı qələbədir.

**GİRDMANÇAY**

Məşhur çaydır Girdmançay,
Yaman çaydır, yaman çay...
Yarğanı, dərəsi var,
Hay-küyü, nərəsi var.
Gözə görünməsə də



Dağ yıxan qüvvəsi var.
A Girdmançay, Girdmançay,
Qonağındır duman, çay...
Sənin oylağın geniş,
Sənin yatağın geniş...
Sinən daşlarla dolu,
Dağ yolusan, dağ yolu.
Sıldırımlı qayanı
Yerindən oynadan çay...
Sənin kimi çay hanı,
A Girdmançay, Girdmançay!
Elə ki, cürətlənib,
Elə ki, qüvvətlənib
Sən yürüşə çıxırsan,
Dağ-qayanı yıxırsan.
Bir haray qoparırsan,
Qayalar aparırsan.
Qədim çaysan, çox qədim,
Tarixdir—hər qədəmin.
Ötüb keçir zaman, çay,..
A Girdmançay, Girdmançay!

**QARA NOHUR**

Bu mahalda
Sənin adın niyə məşhur,
Qara Nohur, Qara Nohur?
Günəş üçün, ulduz üçün
Sən bir güzgü,
Dörd tərəfdə qamışların
Süngü-süngü.
De, suların
Hara hopur,
Qara Nohur, Qara Nohur?!
Qara Nohur meşəsinin

Sirdaşı sən,
Bu meşənin üzüyünün
Bir qaşı sən...
Yağış yağır,
Suyun üstü çopur-çopur,
Qara Nohur, Qara Nohur!
Sakit gölsən,
Nə ləpən var, nə də dalğan,
Qamışlardır
Sənin dostun, sənin arxan!
Tufan qopur,
Dünya qopur,
Sən qorxmursan,
Qara Nohur, Qara Nohur!

## QALACIQ

Qayaları, dağları
Çıxa-çıxa gedirik,
Ötüb gözəl bağları
Qalacığa gedirik.
Gah çəmən, gah çöl, tarla,
Gah da dərə görünür,
Birçə dəfə baxmaqla
Min mənzərə görünür,
Dörd tərəfi meşədir,
Dörd tərəfi dağ, gədik.
Yolumuz günəşədir,
Axır bu kəndə gəldik.
Həmişə, dəstə-dəstə
İnsanlardır qonağı,
Buludlar başı üstə,
Dumanlardır qonağı.
Burda vardır pillələr
Gəlin, buluda çıxın,



Hətta göyə millənər
Raketi Qalacığın.
Gözəl keçir həmişə
Baharı, yayı, qışı,
Əli çatır günəşə,
Boldur qarı, yağışı.
Gözəldir təbiəti,
Hər addımı, guşəsi.
Onun böyük sərvəti
Meşədir, dağ meşəsi,
Bürünsə də dumana,
Ona günəş, ay yaxın.
Yayılıbdır hər yana
Şöhrəti Qalacığın.

## LAHIC USTALARI

Çoxdandır heyran qoyub
Obaları, elləri,
Lahıc ustalarının
İşləri, əməlləri.
Buyur, dağ kəndinə gəl,
Hansı həyətə girsən,
Burda zavoda bənzər
Qaynar həyat görərsən.
Qarşılayar ustalar
Səni gülər baxışla
Tanış edər vurduğu
Neçə-neçə naxışla.
Görərsən ki, onların
Qızıldandır əlləri,
Min tərifə layiqdir
İşləri, əməlləri.
Çox böyükdür qüdrəti
Lahıc ustalarının

Dünya gəzir şöhrəti
Lahıç ustalarının.

## BASQAL

Qəribə yerdi Basqal,
Çox demirəm, bir yaz qal!
Gəz bağı, gəz bağçanı,
Belə bağça, bağ hanı?!
Bu kəndin küçələri
Qəribə küçələrdir,
Xatırladır şəhəri,
Bu ki, qədim şəhərdir.
Təbiəti maraqlı
Adamları maraqlı
Duz-çörəkli, qonaqlı...
Kəndin öz adəti var,
Öz varı, sərvəti var.
Bütün Azərbaycana
Yayılan şöhrəti var.
Hamı, hamı az qala,
Qonaq getsin Basqala.
Dostum, gəl, bu məkanı
Özün gör, özün tanı,
Qəribə yerdi Basqal,
Barı, burda bir az qal!

## İÇƏRİŞƏHƏR

Abidədir elə bil
Bu qala divarları,
Təkcə divarlar deyil,
Xalqın əzmi, vüqarı!
Qədim, köhnə bir şəhər



Divarlar arasında,
Yaşayır xatirələr,
Hasarlar arasında
Divarlar cəngavərin
Nəhəng, polad qolları,
Kəsilib düşmənlərin
Bu qollarla yolları!
Bu qala şəhəridir
Bakımızın təməli,
O qədim evləridir,
Bakımızın əvvəli!
Görmək lazım bu yerdə
İlk görünən insanı?!
Bapbalaca şəhərdə
İlk ocaq yeri hanı?!
Hanı ilk həyət-baca,
İlk qurulan ev-eşik?!
Hanı, yenə dil aça
Yırğalanan ilk beşik?!

Gəz bu qədim şəhəri,
Qarış-qarış gəz, dolan,
Bir tarixdir hər yeri;
Hər küçə, hər tin, dalan!
Hər şey təzə görünür
Köhnə olsa da tamam,
Dumanlara bürünür
Minarə, məscid, hamam.

Şirvanşahlar sarayı
Şəhərin tacı kimi.
Burda yox onun tayı,
Bir üzük qaşı kimi!
Yarıyolda qırılan
Uzanan cərgələrdir.

İlan kimi qıvrılan
Balaca döngələrdir.
Qorx ha, birdən azarsan,
Dayanma, gəzə-gəzə,
Bircə anda çatarsan
Dərinliyə—mərkəzə!
Əzizdir sənə şəhər
Xəzər dənizi kimi,
Dardır bəzi küçələr
«Vaqon dəhlizi» kimi.
Burda evlər daha sıx,
Kip-kip düzülmüş kitab.
Hünərin var, burdan çıx,
Böyük, geniş küçə tan!
Olsa da quyu dibi,
Xoşdur bu mənzərələr,
Durur günəş, ay kimi
Üz-üzə pəncərələr!
Hələ qonşu eyvanlar
Yaxındır bir-birinə.
Hələ kiçik dalanlar
Uzanır lap dərinə!

Yenə çıxır qarşına
Hər addımda döngələr,
Keçən əsrdən baxar
Sənə qara kölgələr...
Gəz yenə də hər yeri,
Köhnə bazarını gör,
Sev, duy qədim şəhəri,
Təzə baharını gör!
Bu şəhər ilk səhərdir,
Səhərin ilk çiçəyi!
Bu şəhərdə şəhərdir,
Həm şəhərin ürəyi!



**NABRAN**

Nabran bizim torpaqda
Ən gözəl bir guşədir,
Bir tərəfi dənizdir,
Bir tərəfi meşədir.
Sahildə ləpələrin
Rəqs edir çiçəkləri,
Gəlib enir sahilə
Meşənin ətəkləri!
Meşə, yamyaşıl meşə,
Həm genişdir, həm böyük,
Ağaclar cərgə-cərgə
Ağaclar bölük-bölük!
Dəniz neçə mənzərə
Yaradır qucağında,
Girir min rəngdən rəngə
Meşənin qabağında.
Bürkü vaxtı meşəyə
Girib, gəzib, dolan, yat!
Sonra durub özünü
Dəniz qucağına at!
Gəzsən gözəl Nabranı,
Sən görərsən həmişə,
Sağ tərəfində dəniz,
Sol tərəfində meşə.
Göz oxşayır gözəllik,
Cığır, təpə, yamac, dik,
Sağ tərəfi mavilik,
Sol tərəfi mavilik...
Bu gözəl yer oxşamaz
Nə dağa, nə arana,
Dincəlmək istəsən gəl
Qonaq kimi Nabrana!
Nabran—bizim torpaqda
Ən cənnət bir guşədir,

Bir tərəfi dənizdir,
Bir tərəfi meşədir!

## SALAM, KƏPƏZ!

*«Göy göl lövhələri»*

Sənə qonaq gəlmişəm ki, Kəpəzim,
Gecə-gündüz hey dolanım, hey gəzim!
Üç gün sənə salam verə bilmədim,
Çünki üç gün səni görə bilmədim.
İtirsə də duman səni, çən səni,
Gördüm bu çən arasından mən səni!
Düşən kimi sənə günəş işığı,
Mənə sarı baxdın yerə — aşağı.
Salam, Kəpəz, dağ vüqarım, dağ səsim,
Qəlbim, odum, gözüm-canım, nəfəsim!
Mənim üçün adicə dağ deyilsən,
Tarixlərdən əfsanələr deyirsən!
Sən keçmişin xatirəsi, sinəsi,
Qədim dövrün bir teatr səhnəsi!
Gördüm sənin neçə-neçə bürcünü,
Qüdrətini, qüvvətini, gücünü!
Buludlarda qala-qala möhtəşəm,
Qəsr-qəsr, qala-qala, möhtəşəm!
Cəngavərsən—ildırımla döyüşən,
Qanadlanan uca zirvən göylə tən!
Sən qızılım, sən gövhərim, sən incim,
Yerə-göyə sığışmayan sevincim!
Salam, Kəpəz! Dağ vüqarım, dağ səsim,
Qəlbim, odum, canım-gözüm, nəfəsim!
İtirsə də duman səni, çən səni,
Gördüm bu çən arasından mən səni!



## GÖY GÖL

Göy göl—dağlar balası,
Bu dağlardır beşiyi,
Gün, ay—ata-anası,
Meşələr — ev-eşiyi.
O, dağların gözüdür,
Həmişə də işıqlı,
Ən parlaq bir güzgüdür
Şəfəqli, yaraşıqlı...
Göy göl sevməz hay-haray,
Sevdiyi bir sükutdur,
Güzgüsündə günəş, ay,
Bir də göydür, buluddur.
Nə durur dağbalası,
Nə boya-başa çatır,
Yenə mavi atlazı
Üstünə salıb yatır.
Gözəllikdə təkdi tək,
Bilir yoxdur əvəzi,
Görür səhər günəş tək
Keşikçisi Kəpəzi!
Qurtarmır gözəlliyi,
Dağların qucağında.
Saxlayır təzəliyi
Qalır körpə çağında.

## QARAGÖLƏ GEDƏN CIĞIR

Göy gölün sahilindən,
Qayaların belindən
Aşıb keçən bu cığır,
Sonra yuxarı çıxır.
Sarı xalıdır, xalı,
Keçir yamacı, yalı.

Bu cığırı xəzəllər
Çiçək kimi bəzərlər.
Cığır boyu həmişə
Görünür qalın meşə.
Vələs, fısdıq boyaboy..
Quşlarsa toy qurur, toy...
Hər addımda gül-çiçək,
Hər addımda göbələk.
Kəpənək sənə yoldaş,
Nə qədər mamırlı daş.
Yola ağac yıxılıb,
Körpü tək üstündən aş!
Cığır qalxır yuxarı,
Gedir düz gölə sarı.
Sən bələdçi çağırma,
Yol getsən bu cığırla,
Rahatca, gülə-gülə
Çatarsan Qaragölə!

## AXŞAM DÜŞÜR GÖY GÖLƏ

Axşam düşür Göy gölə,
Baxa bilmir göy, gölə.
— Sağ ol! — deyib buluda,
Batır dərin sükuta.
Ona dörd yanda meşə
Vir dayodi həmişə!
Min-min rəngə bürünür,
Daha aydın görünmür.
Qaranlıq tutur onu,
Qaranlıq udur onu.
İtir, batır yaşıl göl.
Yatır mışıl-mışıl göl.
Axşam düşür Göy gölə,
Enə bilmir göy, gölə!



## DUMANDA

Duman axır sürünür,
Göy göl ona bürünür.
Duman gölün
Ağ tülünə çevrilir,
Bu yaşıl göl
Süd gölünə çevrilir.
Dağın nəhəng
Ağ gülünə çevrilir.
Bir dost kimi
Sevir duman
Göy gölü,
Yada salır
Hər bir zaman
Göy gölü.

## ÜRƏYİ VAR..

Qazandurmaz elə dağ,
Bəzəyi var, bəzəyi.
Bu bəzəkdən toxunan
İpəyi var, ipəyi.
Heç vaxt sevməz sükutu,
Göydə saxlar buludu,
Mənə tez doğma oldu,
İstəyi var, istəyi!
Şəfəq-şəfəq dağılan,
Zərrə-zərrə sıxılan,
Sinəsinə yığılan
Şimşəyi var, şimşəyi
Vəfalıdır vəfalı,
Cənnət kimi səfalı,
Xəstələrə şəfalı
Çiçəyi var, çiçəyi!

Hər çiçək—onun gözü,
Bitməz söhbəti, sözü,
Bir dağ olsa da özü,
Ürəyi var, ürəyi!

## L EYSAN

Yağış yağır astadan
Birdən dönür leysana,
Dağ yerində bu leysan,
Sevinc verir insana,
Fərəh verir insana!
Bu leysan göydən yerə
Tökülür vedrə-vedrə!
Meşə, çəmən, çöl çimir
Dərə, təpə, göl çimir.
Hər damlası bir ovuc,
Tut ucundan göyə uç!
Ağlayıb hönkür-hönkür,
Göy yerə leysan tökür.
Bu, adi leysan deyil,
Sanki qurtaran deyil.
Güclü bir leysan yağır,
Necə də asan yağır.
Göy şaqqaşaq salır səs,
Elə bil uçur Kəpəz.
Leysan yağır şırhaşır,
Damlalar aşır-daşır.
Hamı pəncərələrdən
Durub baxır leysana,
Dağ yerində bu leysan
Fərəh verir insana,
Sevinc verir insana.



## GÜZGÜ GÖLƏM MƏN

Buyur, mənə qonaq gəl,
Güzgü göləm,
Güzgü göl!
Əgər gəlsən üstümə,
Əksin düşər güzgümə.
Güzgümdə heyran-heyran
Özünə baxar ceyran.
Ayı yanımdan keçir,
Mənim suyumdan içir.
Mən hardayam, mən harda,
Dərində, qayalarda!
Gizlədib çox uzaqda,
Daşlar, qayalar məni,
Bu meşədə, bu dağda
Gəz, dolan, axtar məni!
Salsalar da hay-haray,
Tapmır, məni günəş, ay!
Çətin yola gətir tab,
Məni axtar, məni tap!
Suyum elə durudur, —
Durnanın göz yaşları,
Ayın, günün nurudur,
Say məndəki daşları!
Hər gələn qonaq üçün
Nəhəng bir bülluram mən,
Qaya, ağac, dağ üçün
Bir güzgü oluram mən!
Yaşıllığa bürünür
Qaldığım bu dar dərə,
Ətrafımla görünür
Neçə gözəl mənzərə!
Olsam da çox uzaqda,
Çətin yola gətir tab.
Bu meşədə, bu dağda...

Məni axtar, məni tap!!!
Bu dağ-dərə, çəmən, çöl,
Bilir mənəm
Güzgü göl!

**SAHİLDƏ XİYABAN**

Gəzməyə çıxmaq üçün
Hər cür mənzərəsi var.
Göy gölə baxmaq üçün
Neçə pəncərəsi var.
Cərgə-cərgə uzanan
Vələsin körpəsidir,
Xiyabanda toxunan
Göy gölün ləpəsidir.
Qayalar sular üstə
Dayanıb qayıq kimi,
Yarpaqlar dəstə-dəstə
Titrəşir balıq kimi.
Gəzməyə çıxsan, günəş
Heç zaman düşməz yada.
Yorulsan, buyur, əyləş
Qaya—skamyada.
Gəzdikcə, bu xiyaban
Uzanır, hey uzanır,
Arxası meşə olan
Bir qayada dayanır.
Gözəlliklə boy atıb
Bu sahil xiyabanı.
Onu qurub, yaradıb
Təbiətin bağbanı!



**MARALGÖLDƏ**

Maralgöl — gözəl göldü,
Elə ki, məni gördü
Dostlarla, ağaclarla
Doldurdu dövrəsini,
— Bax gör! — deyə qarşımda
Açdı göy süfrəsini.
Bu göl beləcə axı
Qarşılayır qonağı!

*SEVIRSƏN SƏN ŞERLƏR,*
*MƏNALI, ŞƏN ŞERLƏR*

**AY ZIĞ-ZIĞ!**

Ay zığ-zığ,
Üzə çıx!
Nə yaman çığırırsan,
De, kimi çağırırsan?!
Səni budaq gizlədir
Yaxud yarpaq gizlədir?

Ay zığ-zığ,
Üzə çıx!
Sən ki, qəşəng bir quşsan,
Alabəzək bir quşsan,
Amma bərk çığırırsan,
Bəs kimi çağırırsan?!
Ay zığ-zığ,
Məndən qorxma,
uzə çıx!

## YAĞIŞ YAĞIR DƏNİZƏ

Damlalar nizə-nizə,
Yağış yağır dənizə.
Su üstü çopur-çopur,
Hər damla suya hopur

Üstü inci dolu sap,
Göydən asılıb qalır.
Gətirmir bu yükə tab,
Dəniz üstə qırılır.

Gah təyyarə yaradır,
Gah fəvvarə yaradır.
Dənizdən buxar kimi
Uçub qucur göyləri,
Köçəri quşlar kimi
Bu gün qayıdır geri.

Qayıdır dəstə-dəstə,
Şənlənir dəniz üstə.
Bu quş-damla necə çox,
Sayı-hesabı da yox...

Bəlkə gəzir dən izi,
Elə döyür dənizi.
Köçəri quş-damlalar
Çalır sanki laylalar.
Bu da xoş gəlir bizə,
Yağış yağır dənizə.

## TANIŞLIQ

Tramvayçı tramvayı
Duracaqda saxladı.
Bu vaxt balaca bir qız
Hönkür-hönkür ağladı.



Heç kəs, heç kəs bu qızı
Sakit edə bilmədi,
Tramvay da elə bil
Daha gedə bilmədi.

Qız da sakit olmadı,
Nə kiridi, nə güldü...
Muncuq-muncuq göz yaşı
Yanaqından süzüldü.

Bu vaxt Fərid od kimi
Özünü yerə atdı,
Yaxınlaşıb cibindən
Qəşəng yaylıq çıxartdı.

Axan göz yaşlarını
Sildi yanaqlarından...
Qız kiridi... «oy» səsi
Qopdu dodaqlarından.

Elə gözəldir bu qız,
Bir güldür, dürdanədir.
— Mənim adım Fəriddir,
Bəs sənin adın nədir?!

Qız heyrətlə, maraqla
Baxa-baxa Fəridə,
Söylədi: — Mənim adım
Fərİdədir, Fəridə!

Qəribədir, bu zaman
Tramvay yola düşdü.
Bu balaca kişiyə
hamı baxıb gülüşdü.

## ATLAR ÇAPIR

Böyük bir düz
Tapır atlar,
Bax, bu düzdə
Çapır atlar,
Gur bir nəğmə
Çalır atlar,
Birdən yoldan
Sapır atlar,
Sapan kimi
Çaşır atlar!
Çaşır, yenə
Çapır atlar!,
Çapır, çapır,
Bir dərəyə
Gəlib çatır!
Ağaclar var:
Çadır-çadır!
Dərə boyu
Atlar çapır,
Ağ, qəhvəyi
Bir sel axır.
Bu çapaçap,
Bu tappatap,
Bu guppagup,
Bu tuppatup
Bir yel kimi,
Bir sel kimi...
Axır, axır,
Atlar çapır.
Hənirtisi,
Kişnərtisi,
Nəriltisi
Göyə çatır,
Atlar çapır...



Ayaqları,
Dırnaqları.
Sanki dəmir,
Yerə dəymir.
Göyə sarı
Uçur atlar,
Buludları
Qucur atlar!
Atlar çapır,
Atlar qaçır,
Aşır-daşır,
Küləklərlə
Qucaqlaşır!
Çapmağı bir,
Sapmağı bir,
Çaşmağı bir,
Qaçmağı bir,
Bir kütlədir,
Bir dəstədir!
Səhvi də bir,
Məhvi də bir
Çapır yenə
Dönə-dönə!
Qaldım heyran
Sürətinə,
Cürətinə!
Bir-birinə
Bağlı olan
Birliyinə!
Qüdrətinə!
Nəfəsləri
Körük-körük!
Ağızları
Köpük-köpük!
Olsa belə,

Dönüb yelə
Çapır, çapır,
Bir dağ çapır,
Aşıb-daşır...
Qızğın,
Çılğın
Bir ilxının
Başı üstə
Şimşək çaxır,
Kəmənd atır,
İlxı çaşır,
Parçalanır,
Şahə qalxır,
Köpü yatır,
Yatır, yatır,
Yavaş-yavaş
Addım atır,
Qaçmır daha,
Çapmır daha...

## ŞER SEVƏN QIZ

Mehmanxana... girəndə
Boşalan bir otağa
Təzə güllər görəndə
Çəkildim bir qırağa.
Güllər stolun üstə,
Güllər—böyük bir dəstə!
Özü də fişəng-fişəng,
Əlvan-əlvan, rəngbərəng...
Üstündə vərəq gördüm,
Yaxınlaşıb götürdüm:
«Gülləri dərdim bu gün,
Mən şair əmi üçün.
Dərdim ki təzə-təzə



Şerlər yazsın bizə!
Dərhal bildim kimdir bu,
Kimdir yazan məktubu.
Kiçik bir qız bu səhər
Gəzib haray salırdı,
Anasıyla bərabər
Bu otaqda qalırdı.
Uzaqdan gülə-gülə
Baxırdı mənə sarı,
Doluydu təbəssümlə
O şeytan baxışları.
Dərmişdi ağ, qırmızı,
Mavi, sarı gülləri,
Şer sevən o qızın
Bapbalaca əlləri!
Güllər—stolun üstə,
Güllər—böyük bir dəstə!
Dönüb şerə, sənətə
Bəslənən məhəbbətə!
Bəlkə baxdım yüz kərə,
Min kərə bu güllərə!
Könlüm döndü bir yaza,
Seyr etdikcə gülləri.
Şer sevən o qıza
Dərhal yazdım bu şeri!

## KÜSƏN BULUD

Bir bulud yellənirdi,
Oynayır, şəllənirdi.
Həmişə tək gəzərdi,
Hürkək-hürkək gəzərdi.
Gah ona lağ edərdi,
Gah buna lağ edərdi.
Hərəyə ad qoyardı,

Bundan nəşə duyardı.
Hamıya sataşardı,
Sataşan tək qaçardı.
Ona dodaq büzərdi,
Buna dodaq büzərdi,
Dostlarından küsərdi,
Küsən olduğu üçün
Həmişə tək gəzərdi.
Çəkilərdi qırağa,
Buludlardan uzağa.
Tənha ömür sürərdi,
Tək özünü görərdi...
Girdi evinə şimşək,
Bir gün gizli oğru tək...
Əvvəl bulud parladı,
Sonra birdən partladı.
Ömrü beləcə bitdi,
Bulud toz olub itdi!

**BİR TORBA QOZ**

Bapbalaca araba,
Qoz aparır bir torba
Uzaqda, kənddə ayı
Gözləyir arabanı...
Araba taqqıldayır
Taqqataq!
Qozlar da şaqqıldayır
Şaqqaşaq!
Dələ torbanı gördü,
Görən kimi yüyürdü.
Dələ elə sevindi,
Bu arabaya mindi.
Yol gedirdi araba,
Arabada bir torba!



Gözləri işıq saçdı,
Dələ torbanı açdı!
Açıb qozları gördü,
Ovuc-ovuc götürdü!
Oynatdı,
Şaqqıldatdı,
Yenə torbaya atdı.
Araba taqqıldayır
Taqqataq!
Qozlar da şaqqıldayır
Şaqqaşaq!
Sevinclə, gülə-gülə
Atıldı-düşdü dələ...
«Nə yoğurdum, nə yapdım,
Mən bir torba qoz tapdım!»
İtələdi torbanı,
Eh, güc-qüvvəsi hanı?!
Onu qopara bilməz,
Onu apara bilməz!
Nə eləsin, indi.bəs?!
Fikirləşdi, düşündü,
Yenə atıldı-düşdü!
Torbadan qoz çıxartdı,
Bir-bir yollara atdı.
Dedi: — «Gəlib yığaram,
Qışıma yem saxlaram!»
Birdən gördü ki, dələ
Az qalıbdır mənzilə!
Özünu yerə atdı,
Qaçıb meşəyə çatdı!
Güldü, sevindi ayı
Görəndə arabanı!
Yaxınlaşdı araba.
Üstündə də bir torba!
Ayı əyildi, baxdı,

Gözündə şimşək çaxdı!
Hirslənib oldu bomboz,
Gördü ki, torba bomboş!
Bağırdı: — Qozlar hanı?!
Tez axtarın hər yanı!
Onları bilə-bilə
Tapıb aparıb dələ!
İllər keçdi, çox illər,
Günlər, aylar, fəsillər...
Qozlar bitdi, böyüdü...
Hər biri cavan oldu!
O yol yenə uzandı,
Yaşıl xiyaban oldu!
Dələ bizə baxırdı
Ətəyi—qozla dolu,
Elə hey çığırırdı:
— Mən salmışam bu yolu!
Mən salmışam bu yolu!

**ŞER VƏ ŞAR**

Bayram keçir,
Gözəl bayram,
Zal uşaqla dolub tamam.
Ayaq üstə dayanan kim,
Cərgələrdən boylanan kim...
Gəldi baba,
Gəldi nənə,
Daha kimi deyim sənə?!
Gəlib ata,
Gəlib ana,
Bu «əlifba» bayramına!
Birincilər,
Bu incilər
Bəzəniblər gözəl, qəşəng,



Ulduz-ulduz, çiçək-çiçək!
Başlarının üstündə şar,
Nəğmə deyir,
Şer deyir bu uşaqlar!
Bir oğlan var,
Adı Yaşar...
Əlində şar,
Birdən çıxdı irəliyə.
İstədi ki, şer deyə.
— Part! — partladı
birdən şarı,
Sükut çökdü,
Sonra qopdu
heyrət, gülüş
dalğaları.
Bu, oğlana bir dərd oldu,
Bərk pərt oldu,
Gözü doldu,
Qorxa-qorxa,
Sola,sağa baxa-baxa,
Və başladı
Birdən şer oxumağa.
Şeri dedi,
Rəvan dedi,
Yaman dedi,
Nə dolaşdı, nə də çaşdı,
Əl-qol açdı,
Aşdı-daşdı,
Şeri dedi
Qətiyyətlə,
Məhəbbətlə.
Qopdu birdən
İlk baharın yağışları,
Uşaqların,
Qonaqların

Kəsilməyən alqışları.
Qışqırdılar:
— Sağ ol, Yaşar, sağ ol, Yaşar!
Uşaq sanki
Bu şerlə od payladı...
Yenə birdən
Cərgələrdən
— Part! — səslənib şar partladı...

**DUMANDA**

Duman tutdu hər yanı
Duman tutdu dünyanı.
Yol getdim dağ yolunda,
Yol getdim bu dumanda.
Uzanan bu dağ yolu,
Oldu dağın ağ yolu!
Aşdı-daşdı bu duman,
Qatılaşdı bu duman.
Elə bil yağış oldu,
Üstüm-başım yaş oldu
Dumanda yol getməyim
Mənə daha xoş oldu.

**DƏFÇALAN**

Dəf çalır oğlan,
Dəf çalır yaman.
Dəfi görünür,
Özü görünmür.
Əli görünür,
Üzü görünmür.
Bu, nə gözəl dəf,
Yanları sədəf.



Sükut içində
Qalıb hər tərəf.
Vuranda dəfə
Barmaqlarını,
Yağışdır döyür
Sanki meşənin
Yarpaqlarını,
Budaqlarını.
Çox incə-incə
Vurur hər dəfə,
Əlini dəfə.
Dəfin bu səsi,
Heyrətə salır
Burda hər kəsi.
Bu gözəl dəfin
Zınqırovu var.
Hərdən mənalı
Səslər çıxarar.
Dəfçalan oğlan,
Vurdu əlini
Dəfə, son dəfə.
Susan kimi dəf,
Alqışla doldu
Hər yan, hər tərəf...
Çıxdı bu zaman
Dəfin dalından,
Elə dəf boyda
Cıqqılı oqlan!

**DANA**

Bu ki, gözəl danadır,
Bu ki, dəcəl danadır.
Qəhvəyidir tükləri,
Gözləri canlı, iri...

Onu iplə bağladıq,
Tövləmizdə saxladıq.
Elə oyun çıxartdı,
İpləri qırdı, atdı...
Bu ki, gözəl danadır,
Bu ki, dəcəl danadır.

## AYI BALASI

Çimir ayı balası yayda,
Çimir daşlı, çınqıllı çayda.
Qışqırıb, hay-küy salıb çimir,
Elə çimir, yoruldum demir.
Özünü daşdan suya atır,
Üzə-üzə sahilə çatır.
Silkələnib titrəyir bədən,
Səpələnir damcılar dən-dən.
Qəribədir, çimməkdən doymur,
Ayı balası yenə cumur.
Cumur, yüyürür çaylaq boyu,
Şappıldadır ləzzətlə suyu.
Elə yerlər var burda, dayaz.
Çimir bu dayazda da bir az.
Ağarır böyük, daşlı çaylaq,
Köpüklərdən çiçəklər ağ-ağ.
Çimir, ayı balası, çimir,
Sudan çıxmır, yoruldum demir.
Çaylaq boyu yüyürüb çapır,
Bapbalaca şəlalə tapır.
Gur suların altına girir,
Şəlalə ona ləzzət verir.
Belə çimməkdən yaxşı nə var,
Başında parçalanır sular.
Ayı balası yenə çapır,
Çimmək üçün təzə yer tapır.



Çimir ayı balası, çimir,
Elə çimir, yoruldum demir.

## UZUN BURUN

Bir burun var:
uzun burun!
Uzun,uzun,
Oxşarı var
Ona maral buynuzunun.
İstəyəndə
Burun adi şəkil aldı,
İstəyəndə
Rezin kimi
Gah uzandı, gah qısaldı.
Kəmər kimi
Dolaşanda atasına,
Uzanaraq
Gedib girdi çantasına.
Gizlin-gizlin
Bu çantaya elə çökdü,
Qurdaladı,
Eşələdi, açdı, tökdü.
Yerləşmirdi
Uşaqların xəyalına.
Burun necə lap arxadan
Baxdı sinif jurnalına?!
Uçdu burun
Gah pioner otağına,
gül bağına,
Gah voleybol meydanına,
dağ yanına.
Gah təbiət guşəsinə,
Gah da palıd meşəsinə.
Gedib girdi

Qeybətinə,
Söhbətinə
şən qızların,
Səbəb oldu
heyrətinə,
hiddətinə
şən qızların.
Bəsdir daha,
əzin, burun,
Onu sıxın,
Uzanmasın,
Öz yerində qalsın burun.
Eh, kim-kimə,
Nə dincəldi, nə usandı,
Burun yenə
hey uzandı, hey uzandı.
Çox işləri
Qurdaladı, araşdırdı,
Eşələdi, qarışdırdı,
Hər tərəfi
Bir-birinə çaxnaşdırdı.
Bir gün ancaq düşdü oda,
Qaldı burun
İki qapı arasında.
Bərk ağrıtdı,
— Ah, uf, — deyə,
— Vay, of, — deyə
Çığırtısı bağırtısı
Hər tərəfə gedib çatdı.
Dartdı, dartdı
Və çıxartdı!
Vay, bu nədir,
Burun ki, öz yerindədir!
Hanı, hanı,
Bəs qalanı?!



Bir bax, düşdü necə kökə,
Oldu burun
Yastı kökə, yağlı kökə!
Uzanmaqla
Burun heç nə qazanmadı,
O vaxtdan da
Burun daha uzanmadı.

**ÇƏPİŞİN HAY-KÜYÜ**

Odun doğradı çəpiş:
— Vay, vay... çətindir bu iş
Of... əzildi ayağım,
Uf... kəsildi ayağım...
Vay... balta nə ağırdır,
Ah... ayağım ağrıdır!
Of, uf, bəs kömək hanı,
Gəlin, alın baltanı!
Başa çatanda bu iş,
Yüyürdü, qaçdı çəpiş,
Dağ-daşı aşdı çəpiş!

**UZUNÇU**

Macal verməz heç kəsə,
Danışar birnəfəsə.
Nə dosta qulaq asar,
Nə dayanar, nə susar.
Sözün ucundan tutar,
Uzadar ha uzadar.
Qoysalar, rahat-rahat
Danışar lap on saat.
Niyə ağzı yumulmur,
Görəsən, o yorulmur?!

## DOVŞANIN «BEŞ»İ

Bir aydı ki, gedirdi
Dovşan birinci sinfə,
Bu gün şadlıq edirdi,
«Beş» almışdı ilk dəfə.
Bu «beş» ləzzət verirdi,
Hamıya göstərirdi
Hər kimi görürdüsə
Deyirdi: — «Beş» almışam.
Elə ki, evə çatdı,
Çantanı göyə atdı.
Balaca bacısının
Saçından lenti dartdı,
Qışqırdı: — «Beş» almışam!
Hamıya zəng edirdi,
Hamını dəng edirdi,
Xalasına, dostuna,
Gah ona, gah da buna
Deyirdi: — «Beş» almışam!
Sevindi anası da,
Sevindi atası da,
Onun «beş» almağından
Xəbər tutdu çoxusu,
Elə ki, düşdü axşam,
Gəldi onun yuxusu,
Yuxuda da bu dovşan
Qışqırdı: — «Beş» almışam!
Səhər dərsdə lal qaldı,
Yağlı bir «iki» aldı.
Bu, qəribə «beş» oldu,
«Beş» çevrilib heç oldu!



## TAR VƏ KONFET

— Ata, mənə konfet al...
— Onda sən də tarda çal!
Mənayla baxdı uşaq,
Gözünü deyə-döyə:
— Tarda çalaram, ancaq
Konfeti yeyə-yeyə...

*MEŞƏ-YAMYAŞIL BİR EV,*
*BU EVDƏ QAL, ONU SEV!*

## ARMUD SEVƏN AYI

Bizim ayı çox kobuddur,
Sevdiyi zərif armuddur.
Öldürsən də bu kobudu,
Heç vaxt yeməz pis armudu.
Ağac, buyur, gör nə qədər,
Ayı üçün bunlar hədər...
Qopsa belə tufan, külək,
Bu meşəni ələk-vələk
Edə-edə,
Cəngəllikdən keçə-keçə,
Ağacları seçə-seçə,
Gəzib tapar, sarı-sarı,
Uzun, sulu armudları.
Bir ağaca çıxar ayı,
Armudlara baxar ayı.
Qınamayın bu kobudu
Xoşlar zərif bir armudu.
Baxıb tapar, görər onu,
Asta-asta dərər onu.
Şövqlə dərər,

Zövqlə dərər,
Olsa da bu ayı kobud,
İncə-incə yeyər armud!

## MEŞƏ YOLU

Qoynu laləzar,
Meşə yolu var,
Cığır tək uzun,
Keçid kimi dar,
Bilmirik bizi,
Necə aparar,
Hara aparar?!
Dörd tərəfimiz
Kol-kosla dolu,
Ağacla dolu,
Ətraf qaranlıq,
Səssiz, qorxulu...
Gedirik, bizi
Hara aparır
Bu meşə yolu?!
Uzanan bu yol
Enir dərəyə
Rast gəldik birdən
Qaçan dələyə.
Böyükdür dərə,
Dərindir dərə,
Keçdik dərəni
Gül dərə-dərə.
Gördük hər yanda
Fındıq ağacı,
Tutubdur tamam
Yolu, yamacı...
Dikdə göründü
Nəhəng bir palıd...



Onun yanında
Cökə, şabalıd...
Tutub hər yanı
İtburnu kolu,
Yenə uzandı
Bu meşə yolu...
Yorulmuruq heç,
Nəfəsimiz çox,
Gəzib görməyə
Həvəsimiz çox...
Getdiyimiz yol
Elə qəşəngdir,
Solu çiçəkdir,
Sağı çiçəkdir...
Seyr et yarğanı,
Seyr et yamacı,
Hər yerdə yaşıl
Venəs ağacı,
Cökə ağacı...
Yerdə quruyan
Budağa bir bax,
Buz kimi sərin
Bulağa bir bax!
Bu meşə yolu
Talaya çatır...
Durur talada
Bir neçə çadır..
Gedirik, qalır
Arxada tala.
Qarşıda uçuq,
Qədim bir qala.,
Hələ də durur
Neçə divarı,
Rəyavətlərdir,
Hekayətlərdir

Dövləti-varı!
Uzanır bu yol,
Qalxır yuxarı,
Gedir ən uca
Zirvəyə sarı...
O uca zirvə
İşıqla dolu,
Günəşlə dolu,
Çatır zirvəyə
Bu meşə yolu!

## ÇİNAR ORDUSU

Canlanır yaz çağında
Bir meşə
Zəngilan torpağında.
Meşənin sehri vardır,
Bu meşə
Başdan-başa çinardır.
Qəribədir bu meşə,
Ucalır,
Qalxır üzü günəşə!
Hər çinar—bir əsgərdir,
Bu meşə
Orduya bərabərdir.
Hər çinar—əzəmətli,
Möhtəşəm,
Böyük, güclü, qüdrətli...
Axır bu meşə boyu
Aramsız
Bir çayın gümüş suyu.
Budaqlar—süngü kimi,
Çay axır,
Parlayır güzgü kimi.
hər çinar—elə uca,



Günəşə
Can atır uça-uça.
Canlanır yaz çağında
Bu meşə
Zəngilan torpağında.
Gözəl çinar meşəsi
Bu yerin
Ən gözəl guşəsi!
Bu çinarlar—tamaşa,
Qol-boyun,
Yan-yanaşı, baş-başa!
Elə qol-budaq atır,
Az qala
Aya, günəşə çatır.
Çinarlar—etibarlı,
Çinarlar
Dəyanətli, vüqarlı...
Bu, elə bir meşədir,
Meşə yox,
Nəhəng, yaşıl şüşədir!
İnsan kimi səsi var,
Dili var,
Sözü var, nəfəsi var.
Buz kimidir kölgəsi,
Meşə yox,
Bura—çinar ölkəsi!
Yenə böyüyür, artır,
Hər zaman
Bir gözəllik yaradır.
Gözəllikdir arzusu,
Bu meşə —
Böyük Çinar ordusu!

## HƏMİŞƏ OLSUN!

Budaq-budaq bir meşə,
Yarpaq-yarpaq bir meşə!
Yaşayıram, qalıram
Bu meşədə həmişə!
Meşənin çinarı var,
İtburnusu, narı var.
Söyüd, palıd, şabalıd,
Əzgil ağacları var.
Yolları, dərələri,
Gözəl mənzərələri,
Talalara açılan
Yaşıl pəncərələri!
Hər yerdə meşə olsun,
Meşə günəşlə dolsun!
Böyük sərvətimizdir
Meşə həmişə olsun!

## QUŞ KİMİ

Bir qız sanki keçiydi,
Bir meşədən keçirdi.
Quş tək qanadlanırdı,
Hoppanır, atlanırdı.
Girirdi koldan-kola,
Ötürdü yoldan-yola.
Yellənirdi, uçurdu,
Birdən dayandı, durdu.
Qarşısında bir atlı,
Söylədi qaşqabaqlı:
— Ey... azarsan tək-tənha,
Get evə, durma daha...
— Qorxma, əmi, azmaram,
Meşəbəyidir atam. —



Dedi, getdi quş kimi,
Dedi, itdi quş kimi!

## TALISTAN

Talıştanda yada sal Şair Səməd Vurğunu, çünki ilk dəfə yazıb, göyə qaldırıb onu!

Meşəbəyi bağlanıb
Ürəkdən peşəsinə,
Uşaqlıqdan vurğundur
Talıstan meşəsinə.
Meşə elə böyük ki,
Nə ucu, nə bucağı,
Mehribandır həmişə
Onun ana qucağı!
Meşəbəyi bu yerin
Hər yanına bələddir.
Bu iş—bəlkə dünyada
Ən çətin bir sənətdir.
O gedəndə meşənin
Ən qalın bir yerinə,
Sanki təzə yer görür,
İnanmır gözlərinə.
Bir-birinə bənzəməz
Gözəl talaları var,
Yolları, dolayları,
Qədim qalaları var!
İllərin, əsrlərin
İzləri var bu yerdə
Yaşayıbdır Cavanşir —
Unudulmaz sərkərdə!
Elə igid olub ki,
Azərbaycan balası,
İndi durur bu yerdə
Onun böyük qalası!

Meşənin yarğanları,
Meşənin dərələri,
Ürəkdə,yadda qalan
Gözəl mənzərələri!
Burda şəlalə var ki,
Bir parça bulud kimi,
Dərinlikdə gizlənib
Ağaclar sükut kimi!
Talıstan, — Yaşıl dastan!
Yaşıllıqdır nəfəsi
Onun hər səhifəsi!
Gecə-gündüz,
Hər zaman
Eşidilir nəğməsi!
Yurdumuzun ən gözəl
Guşəsidir guşəsi,
Dağlara doğru qalxan
Bu Talıstan meşəsi!
Meşəbəyi,
Qəlbi tək
Öyrənib Talıstanı,
Uşaq tək əzbər bilir
Yaşıl səsli, nəfəsli,
Gözəl, canlı dastanı!

**KOĞUŞDA**

Göy gurlayır şaqqaşaq,
Koğuşda iki uşaq...
Koğuş—balaca dəyə,
Şimşək yanır, nə yanır,
Az qalır yerə dəyə!
Göyun bağrı sökülür,
Gur bir yağış tökülür.
Bu yağış, yoxsa leysan,



Tökülür ümman-ümman.
Koğuşda iki uşaq
Baxır gözündə maraq.
Gizləniblər vaxtında
Meşənin şah taxtında.
Nə hürkü, nə də qorxu,
Qəlblərində xoş duyğu...
Onlar koğuşda rahat,
Leysan tökür bir saat!
Tökdükcə aşır-daşır,
Salır güclü şırhaşır.
Koğuşda iki uşaq
Baxır gözündə maraq.
Görür leysan gur yağır,
Bu meşəyə nur yağır!
Meşənin ağacları,
Dikləri, yamacları,
Otları, ətəkləri,
Gülləri, çiçəkləri,
Çimir bu şən yağışda,
Nəğmə deyən yağışda!
Onlar koğuşda rahat,
Yenə keçir bir saat...
Əsər qalmır yağışdan
Onlar çıxıp koquşdan.
Əyinləri qupquru,
Gedir evinə doğru!
Hər tərəf yaşıl şüşə,
Getdikcə rahat-rahat,
Görürlər ki, bu meşə
Gözəl olubdur yüz qat!

## ƏZGİLLƏR

Meşədə əzgillər
Payızda
Soyuqdan əsirlər...
Meyvəsi şokolad,
Qonaq gəl,
Dər onu, dişlə, dad!
Bu, elə əzgildir, adicə
Mer-meyvə deyildir!
Xırdadır yarpaqlar,
Meyvəylə
Doludur budaqlar!
Gizlənib əzgillər,
Onları
Axtarıb gəzirlər!
Hər əzgil şokolad,
Harda var
Belə tam, belə dad?!
Hər ağac—böyük kol,
Üstündə
Şokolad—meyvə bol!
Bu meşə dərindir,
Dərinlik
Soyuqdur, sərindir.
Ağaclar yanaşı,
Gözləyir
Dolunu, yağışı!
Gizlənib əzgillər,
Elə bil
Sıxırlar, əzirlər...
Hardadır uşaqlar,
Bu yeri axtarsın qoçaqlar!
Dərində bitiblər,
Meşədə
Elə bil itiblər.



Yollara baxırlar,
Canlanıb
İrəli çıxırlar.
Əzgillər gözləyir,
Hamını
Qoynuna səsləyir.

## DÖNÜM HƏR GÜN BAŞINA

Hər gün başına dönüm,
Sənsiz keçməz bir günüm,
İş yerim, toy-düyünüm,
Duymaq, gəzməkdir peşəm,
Meşəm, ay meşəm!

Ada – talaların var,
Ağac – balaların var,
Qaya – qalaların var,
Cənnəttək gözəl guşəm,
Meşəm, ay meşəm!

Sənin bulağın gözəl,
Kökün, budağın gözəl,
Kiçik yarpağın gözəl,
Mən ki, sənə günəşəm,
Meşəm, ay meşəm!

İstərəm gəzəm yenə,
Hər yeri dönə-dönə
Baxam gözəlliyinə,
Güləm, bığımı eşəm,
Meşəm, ay meşəm!

## İŞIQLI, NƏĞMƏLİ, MEYVƏLİ

Bu, işıqlı meşədir,
Yaraşıqlı meşədir!
Hər ağacda, hər yarpaq
Bir çıraqdır, bir çıraq!
Neçə işıqlı rəng var,
İşıqlardan çələng var.
İşığı vardır, bilin,
Nərgizin, qərənfilin.
Par-par yanan çiçəklər,
Qırmızı göbələklər...
Vələs, palıd, şam, cökə,
Durur nur tökə-tökə.
Bu qalın, bu sıx meşə,
Özü bir işıq meşə!
Baxıb üzü günəşə
Qalır hər vaxt, həmişə
Bir yaraşıq içində,
Yaşıl işıq içində.
Günəşin şəfəqləri,
Qızılı nuru, zəri
Şimşək kimi rəqs edir,
Güzgü kimi əks edir...
Yaşıllıq qucağında,
Onun hər bucağında!
Doğrayır yarpaqları
Günəşin zolaqları.
Yaraşıqlı meşəni,
Bu işıqlı meşəni
Gəzsən, dolar ürəyin,
İşıq olar ürəyin!
Bu, nəğməli meşədir,
Bu, gəzməli meşədir.
Burda bulaq oxuyur,
Burda yarpaq oxuyur,



Dərinlikdə şırhaşır
Axan bulaq oxuyur.
Oxuyur alacəhrə
Səsi düşür hər yerə.
Gəlir bülbülün səsi,
Cəh-cəh dolu nəğməsi.
Oxuyur soyuq-soyuq
Sığırçın, qaratoyuq.
Günəşə baxa-baxa,
Oxuyur alabaxta.
Bəs zığ-zığ, sarıköynək,
Oxuyur kövrək-kövrək.
Dalğa kimi hər yeri
Bürüyür nəğmələri.
Bir nəğmədir, bir nəğmə
Ağacların cərgəsi,
Talaların sükutu,
Bir nəğmədir, bir nəğmə
Onun sərin kölgəsi,
Yaşıl-yaşıl buludu.
Nələr eşitmək olar
Hər yarpaq – kəlməsindən,
Ürək işıqla dolar,
Meşənin nəğməsindən.
Bu, meyvəli meşədir,
Bu, sevməli meşədir.
Alçası var meşənin,
Alması var meşənin.
Var qozu, var fıstığı,
Var armudu, fındığı...
Gilas var, albalı var,
Koğuşlarda balı var.
Hələ nar ağacları,
Gilənar ağacları!
Kol-kol əzgil bəs hanı,

Bəs zoğalı, yemşanı?!
Bəs körpəcə badamı
Heyran qoyur adamı.
Hələ demirəm bunu
Nə qədərdir itburnu.
Cır alması doludur,
Bu, meyvəli meşədir,
Bu, sevməli meşədir,
Bu, gəzməli meşədir!
Bu meşə işıqlıdır,
Həm də yaraşıqlıdır.
Nəğməlidir bu meşə,
Gəzməlidir bu meşə,
Meyvəlidir bu meşə,
Sevməlidir bu meşə!

**BİR ƏTƏK QOZ**

Oğlan meşəyə girdi,
Bir ətək qoz gətirdi.
Təkcə özü yemədi,
Bir-bir hamıya verdi!

**ODUNLAR**

— Oduna gedək, oduna,
Sonra qızınaq oduna.
Bəs bu çovğunda, bu qarda
Odunu taparsan harda?!
Harda, deyim?!
Meşədə ki, odun dolu.
Eh, danışdın,
Keçilməzdir meşə yolu.
Qarla örtülsə də bu yol,
Həyətdə odunumuz bol...



Odun üst-üstə qalandı,
Dərhal peçimiz qalandı.
Bu otağa şənlik gəldi,
Çünki kefimiz kökəldi.
Peçdir saçan qığılcım, nur,
Odunlar da yandı gur-gur...
İndi daha
Yoxdur oduna ehtiyac,
Qabaqcadan
Çünki görmüşük ehtiyat.
Yay çağında evə sarı
O meşədən
Daşımışıq ağacları.
Doğramışıq, bağlamışıq,
Qurutmuşuq, saxlamışıq.
İndi buyur,
Saçıb qığılcım, saçıb nur,
Peçimiz alışır gur-gur...
İri közlər
Tökə-tökə
Yanır vələs, fıstıq, cökə...
Çöldə soyuq... qar da yağır,
Evimizsə bərk istidir.
Qış vaxtında
Odunlar çırthaçırt yanır.
Bir meşə bizi isidir.

**DOST OLMUŞAM**

Mən meşəni sevirəm,
Bu gülşəni sevirəm.
Çünki meşə mənimdir,
Yurdumdur, vətənimdir.
Mənə hər yarpaq əziz,
Hər kol, hər budaq əziz.
Bir yarpağı qırmaram,

Budağı sındırmaram.
Meşədə doğulmuşam,
Meşəyə dost olmuşam.
Deyirlər ki, kobudsan,
Elə ayısan ayı,
Nə görmüsən həyatda
Bu meşədən savayı?!
Meşə mənnim bəsimdir,
Səsimdir, nəfəsimdir.
Tanıyıram hər kolu,
Hər cığırı, hər yolu,
Hər yarğanı,yamacı,
Hər otu, hər ağacı!
Bu kolsuz, bu ağacsız,
Bu yarğan, bu yamacsız
Bir gün qala bilmərəm,
Sakit ola bilmərəm.
Yaşayıram meşədə,
Ən dərin bir guşədə.
Bu dərin yerdə heç kəs,
Heç vaxt görünə bilməz.
Meşə verir balımı,
Narımı, zoğalımı.
Gözəl-göyçək balam var,
Mənim dalımca qaçar,
Şən, mehriban uşaqdır,
Sarı rəngli yumaqdır.
Yumalanır həmişə,
Sanki onundur meşə.
Meşədədir yatağım,
Ev-eşiyim, ocağım.
Mənə hər yarpaq əziz,
Hər kol, hər budaq əziz.
Meşədə doğulmuşam,
Meşəyə dost olmuşam.



## CIĞIRLAR

Meşədəki cığırlar
Hansı yana çıxırlar?!
Birisi gedir, gedir,
Gedib talada itir.
Biri bal pətəyində,
Biri dağ ətəyində..
Biri yaşıl şüadır,
Bəs gedib hara çatır?!
Gedir vadiyə, bəndə,
O biri yaxın kəndə...
Çalın-çarpaz cığırlar
Heç vaxt çaşmaz cığırlar.
Bəzən bulağa gedir,
Bəzən uzağa gedir.
Bəzən batır sükuta,
Bəzən qalxır buluda.
Keçir meşə yolundan,
Heç vaxt ayrılmır ondan.
Meşədəki cığırlar
Yad yerə yox, doğmaca
Ünvanına çıxırlar.
Onlar—yaşıl şüadır,
Gedir mənzilə çatır.
Cığırlar bəzək kimi,
Yolçuya — kömək kimi.

## QAR YAĞIR MEŞƏYƏ

Meşə çılpaq,
Tapmazsan
Dərman üçün bir yarpaq.
Hər tərəf budaq-budaq...
Elə bu vaxt.
Yağır qar!

Elə bil çiçəklənir
Sevincindən ağaclar.
Yollar, diklər, yamaclar!
Bu meşəyə qar yağır,
Yağır qar ağır-ağır!
Meşə açır qapqara
Sinəsini bu qara!
Açır qucaqlamağa
Həm budaq—qollarını,
Özündə saxlamağa,
Açır həm yollarını!
Qar yağır...
bir gün, üç gün,
Meşəni tutur bütün.
Yavaş-yavaş ağarır,
Təkcə ağaclar deyil,
Təkcə yamaclar deyil,
Adi bir daş ağarır.
Bayaq saralan meşə,
Bayaq qaralan meşə
İşıq kimi sayrışır
Min-min ağ gül içində.
Meşə özü görünür
Ağappaq tül içində!
Bu meşəyə qar yağır,
Qar yağır, ağır-ağır...
Meşə açıb köksünü
Bu qarla nəfəs alır.
Yağır yenə neçə gün
Tutur hər yeri bütün.
Meşə—qalın, sıx, böyük,
Xoşdur ona qarlı yük!
Qar yağır bu meşəyə,
Dönür parlaq şüşəyə...
Ağaclar yumaq-yumaq,
İndi meşə—ağappaq!



*SƏHƏR, AXŞAM ÇAĞLARI*
*OXU BU NAĞILLARI*

## GÖY QURŞAĞININ RƏNGLƏRİ

1

Mən göyün qonağıyam,
Bəli, göy qurşağıyam.
Şimşək çaxandan sonra,
Yağış yağandan sonra,
Qəhqəhəylə gülürəm,
Göy üzünə gəlirəm.
Gəlib par-par yanıram,
Qövs kimi dayanıram.
Olsa da yeddi rəngim
Min rəngə boyanıram.
Elə əlvanam,əlvan,
Təzətər, gümrah, cavan...
Rənglərə bürünürəm,
Çox gözəl görünürəm.
Yağışın uşağıyam,
Mən ki, göy qurşağıyam.
Elə parlağam, parlaq
Sarı, yaşıl, mavi, ağ!
Göydə yarım təkərəm!
Yerə işıq tökərəm!
Olsam da göy qurşağı,
Sallanıram aşağı!
Göydə rəngli qolam mən,
İşıq dolu yolam mən.
Hamı üçün parlaram,
Rənglərimi paylaram.
Mən öz vaxtımı bilib
Yavaş-yavaş itərəm,

Çiçəklərə çevrilib
Bir də yerdə bitərəm.

2

Göyü, yeri sevirəm,
Çiçəkləri sevirəm.
Sübh çağı şeh oluram,
Qönçələrə doluram.
Görəndə bənövşəni
Fərəh bürüyür məni!
Saplağına qonuram,
Heyrətimdən donuram.
Bu necə zərif çiçək,
Harda vardır belə rəng?!
Qəribə iş görürəm,
Rəngdən rəng götürürəm.
Nə gözəldir bağça-bağ,
Məni çağırır zanbaq.
— Ləçəyimdə qal! — deyir,
Bu rəngimi al! — deyir.
Ağ rəngi elə şəffaf,
Hava kimi təmiz, saf...
Sevirəm bu çiçəyi,
Qıfabənzər ləçəyi...
Qalıram bu ləçəkdə,
Körpə kimi bələkdə.
Bu ağ rəngi seçirəm,
Bir su kimi içirəm.

Görən zaman Laləni
Lalə çağırır məni.
Alır qoynuna, bəh,bəh,
Məni qırmızı qədəh.
Bu rəngi içə-içə,
Qalıram bütün gecə.



Çağırır boyçiçəyi,
Çiçəklərin göyçəyi.
Yer verir qucağında,
Ən zərif budağında.
Onun tünd sarı rəngi
Qəşənglərin qəşəngi!
Sanki öpüb gözümlə
Götürürəm özümlə!
Mən düşürəm çəpərə,
Çəpərdən qantəpərə.
Alıb məni qoynuna,
Salır dərhal boynuna.
Canı odlu bu çiçək
Görürəm, yanır rəng-rəng...
O qədər qalıram mən,
Bu rəngi alıram mən!

3

Eh, nə qədər çiçək var,
Çiçəklər qədər rəng var.
Qərənfillər neçə cür,
Neçə rəngdə görünür.
Füsunkar olur hədsiz,
Açılan zaman nərgiz.
Qönçələrin incəsi,
Qızılgülün qönçəsi.
Hələ noxud çiçəyi,
Alma, armud çiçəyi.
Hələ qızıl çiçəklər,
Yaşıl-yaşıl çiçəklər.
Külxətmi, novruzgülü
Çingülü, xoruzgülü
Ləçəyinə şeh düzən
Çobanyastığı, süsən...
İnçigülü, nilufər,

Eh, çiçək var, nə qədər!
Öpüb bu çiçəkləri
Götürürəm rəngləri!
Elə ki, çıxır günəş,
Dünyaya baxır günəş
Axtarır bizi bir-bir,
Xoruz kimi dənləyir...
Çevirib bir buxara,
Qaldırır buludlara.
Buludlar – beşiyimiz,
Evimiz, eşiyimiz!
Çaxan kimi şimşəklər,
Qalxan kimi küləklər
Daralan buludları,
Qaralan buludları
Vurur, dağıdır, sökür,
Ağladıb yağış tökür.

4

Ya qızıl rəng damlalar,
Ya yaşıl rəng damlalar
Cərgə-cərgə düzülür,
Cərgə-cərgə süzülür.
Kəsilmədən arası,
Hər rəngin öz sırası...
Bürünübdür bir cərgə
Ya mavi, ya ağ rəngə.
Yağış yağır şırhaşır,
Sulardır aşıb-daşır.
Yerə çatmır o rənglər,
İtib-batmır o rənglər,
Yağış dayanan kimi,
Göydə açılan kimi
Günəşin odu, zəri,
İşıqladır rəngləri!



5

Mən göyün qonağıyam,
Bəli, göy qurşağıyam.
Verib mənə rəngləri,
Torpağın çiçəkləri.
İtsəm də birdən-birə
Qonaq gedirəm yerə.
Beləcə aram-aram
Təzədən yaranıram.
Gözəl hisslərlə yanan
Ürəklər içindəyəm.
Sübh günəşlə oyanan
Çiçəklər içindəyəm.

## SUZANBAĞININ NƏĞMƏSİ

1

Suzanbağı açıldı,
Saplağından asıldı.
Su üstə çoxdu zanbaq,
Bulud kimi ağappaq...
Bu göl, zanbaq – elə saf,
Bir şüşə kimi şəffaf...
Aydındır həm saplağı,
Həm ləçəyi, yarpağı,
Həm də yaşıl gövdəsi
Hətta onun kölgəsi...
Əgər görsən sübh çağı,
Bu təzətər zanbağı
Baxarsan dönə-dönə
Onün gözəlliyinə.
Bu ki, canlı bir bahar,
Su üstə bir ovuc qar...
Bax ha, əriyər, itər,
Sonra yox olar, gedər...

Necə əyir başını,
Gizlədir göz yaşını.
Sanarsan ki, zəifdir,
Zəif deyil, zərifdir!
Burum-burum ləçəyi
Ürəyidir, ürəyi!
Su üstündə ağ çiçək,
Nə qəşəngdir, nə qəşəng!

2

Bir çinar hər sübh çağı
Seyr edərdi zanbağı.
Səhər necə soyunur,
Suda necə yuyunur.
Necə şənlənir, gülür,
Saçından su tökülür,...
Bir dəfə yenə çılpaq
Yuyunan zaman zanbaq
Birdən, gördü çinarı:
— Oy, oy... geyinim barı...
Dərhal sulara endi,
Kol dalında gizləndi.
Bunu olmaz səhv salmaq
Yaman utandı zanbaq!
Baxdı gizlin sulardan,
Xoşu gəldi Çinardan.
Görsə də çox uzaqdan,
Ancaq elə o vaxtdan
Axtarır baxışları
Gizli-gizli Çinarı!

3

Zanbağın səsi vardı,
Həvəslə oxuyardı:
Suzanbağıyam,
Gölə bağlıyam.



Nadincəm, şənəm,
Kiçik yelkənəm.
Bu göldür mənim
Yurdum, məskənim!
Günüm, həyatım,
Qolum-qanadım!
Deməyin sudur,
Varlığım odur!
Ey mənim ömrüm,
Ey gözəl gölüm,
Səninlə gülüm,
Səninlə ölüm!
Çölü, düzü, çəməni
Dolaşan bu nəğməni
Dinləyirdi böcəklər,
Lalələr, kəpənəklər,
Yaşıl, sarı yarpağa
Minən neçə qurbağa!
Quşlar gölə enərdi,
Nəğməni dinləyərdi...
Dinləyərdi çiçəklər,
Qızılqazlar, ördəklər..,

4

Bulud görüb Zanbağı
Dərhal endi aşağı!
Dəli-divanə oldu,
Min könüldən vuruldu.
Vuruldu bu Zanbağa,
Dayandı baxa-baxa...
Dedi: — Ey gözəl mələk,
Razı ol, gəl evlənək!
Mən bir şahın oğluyam,
Zinətlərlə doluyam.
Qızıldan sarayım var,

Taxtım var, çarpayım var!
Bir dünyadır dövlətim,
Aşıb-daşır sərvətim.
Sənə bir sirr də açım,
İncidəndir taxt-tacım!
Əmrimlə günəş yanır,
Qulluğumda dayanır.
Mənim gücüm, qüvvətim,
Mətinliyim, cürətim!
Adım-sanım, şöhrətim,
Düzü, basmıram küyə,
Bəllidir yerə-göyə
Gəl, mənim mələyim ol,
Arxam ol, köməyim ol!
Son qoy ah-harayıma,
Köç qızıl sarayıma
Mən özüm buyruğunda,
Kənizlər qulluğunda.
Hazır olar nə desən,
Nə desən, nə istəsən!
Səni elə bəzərəm,
Hər yeri bir gəzərəm,
Apararam uzağa,
Ulduzlara, yaylağa...
Apararam həmişə
Ya Aya, ya günəşə!
Qızıldan faytonum var,
Atları—şimşək atlar!
Sən mənə olsan arvad,
Sənin olar kainat!
Minib qızıl faytona,
Min sürət verib ona
Gəzərik hər diyarı,
Bir-bir bu ulduzları!
Gəl, mənim mələyim ol,



Göyçəyim, çiçəyim ol,
Gəl qızıl sarayıma,
Arxam ol, köməyim ol!
Zanbaq: — Vay, vay—deyirdi,
Qorxudan titrəyirdi.
Heç Buludu görmədən,
Ona fikir vermədən,
Həyəcanla, təlaşla,
Gözündən axan yaşla
Həsrətli baxışları
Axtarırdı Çinarı!

5

Bulud tənha qalanda,
Rədd cavabı alanda
Qəzəbindən tutuldu,
Şar kimi şişdi, doldu,
«O ki, adi bir çiçək,
Rədd cavabı nə demək?!
Bu səhvdir, çox böyük səhv,
Məhv edərəm, onu məhv!»
Yenə endi aşağı,
Dilə tutdu Zanbağı!
Zanbaq, gözündə işıq,
Ona söylədi açıq:
«Bu göl—yurdumdur mənim,
Əziz, doğma məskənim!
Başqa yerə getmərəm,
Mən göylərə getmərəm!»
— Mən səni qopararam,
Mən səni apararam!
Bulud yenə də doldu,
Od oldu,
Alov oldu!
Qəzəbindən parladı,
Şaqqıldadı, gurladı.

Yığdı damla-quşunu,
Yığdı bütün qoşunu.
Hər yerə zülmət çökdü,
Qoşunu gölə tökdü.
Yağış yağdı, nə yağdı,
Gölün üstünə yağdı.
Hər yeri döyə-döyə,
Tut ucundan çıx göyə...
Tapsın deyə Zanbağı
Bulud endi aşağı!
— Qorxma! — deyib Zanbağa
Çinar keçdi qabağa.
Ucaldaraq səsini,
Açdı göy sinəsini,
Gizli bir bucağında,
Gizli bir budağında
Yer ayırıb Zanbağa
Saldı gizli otağa.
Özü meydana çıxdı,
Düşməni vurdu, yıxdı:
Küləklərlə vuruşdu,
Şimşoklərlə vuruşdu.
Qovdu damla-quşları,
Bütün bu yağışları!
Bulud enib aşağı,
Axtarsa da Zanbağı
Axtarsa da hər yeri,
Peşman qayıtdı geri.

6

Gün çıxdı gülə-gülə
Nur saçdı yenə gölə.
Yenə uçdu böcəklər,
Qızılqazlar, ördəklər...
Zanbaq su üstə yenə



Güc verdi nəğməsinə:
Suzanbağıyam,
Gölə bağlıyam.
Nadincəm, şənəm,
Kiçik yelkənəm.
Bu göldür mənim,
Yurdum, məskənim.
Günüm, həyatım,
Qolum-qanadım!
Deməyin sudur,
Varlığım odur!
Ey mənim ömrüm,
Ey gözəl gölüm,
Səninlə gülüm,
Səninlə ölüm
Çölü, düzü, çəməni
Dolaşan bu nəğməni
Dinləyirdi çiçəklər,
Lalələr, kəpənəklər,
Qızılqazlar, ördəklər!

7

Həm yer, göy sevinirdi,
Həm də göl sevinirdi.
Burda məclis quruldu,
Şən, mənalı toy oldu.
Tamaşaya bir gəlin,
Zanbaq köçurdü gəlin.
Zanbaq—canlı bir bahar,
Daha gözəl, füsunkar.
Donu, köynəyi rəng rəng
Başında qızıl çələng!
Güllər yaraşığından,
Günəş, ay işığından
Bəxşiş verirdi ona,

Üzünə, yanağına!
Döndü inciyə, lələ,
İlahi bir gözələ!
Balıqlar sudan çıxdı,
Ona doyunca baxdı.
Çömçəquyruqlar hələ,,
Oynadı gülə-gülə.
Sevindilər böcəklər,
Qızılqazlar, ördəklər,
Çiçəklər, kəpənəklər,
Neçə-neçə qurbağa
Minib qayıq-yarpağa
Qaldılar baxa-baxa..,

8

Zanbaq həvəsə gəldi,
Şən nəğməsi yüksəldi.
Çölü, düzü, çəməni
Dolaşan o nəğməni
Təzə bir ruhla yenə
Oxudu dönə-dönə.
Qeyri-adi bir səslə,
Məlahətli nəfəslə,
Heyran qaldı bu səsdən,
Bu səsdən, bu nəfəsdən!
Aqaçdakı-budaqlar,
Budaqlarda yarpaqlar...
Heyran qaldı çiçəklər!
Qızılqazlar, böcəklər,
Ördəklər, kəpənəklər.
Qeyri-adi bu səsi
Eşitdi yer kürəsi.
Hətta bulud eşitdi,
Eşidən kimi getdi.
Döndü küsən uşağa



Uçub getdi uzağa.
Duruşunda bir vüqar,
Onu dinlədi Çinar.
Heyran qaldı bu səsə,
Bu səsdəki nəfəsə
Bu böyük sədaqətə,
Bu böyük məhəbbətə!
İllər, dolandı keçdi,
Ulduzlar yandı, keçdi.
Zanbaq qocaldı, soldu,
Bir gün tamam yox oldu
Fəqət qaldı xoş səsi,
Bir də gözəl nəğməsi:
Suzanbağıyam,
Gölə bağlıyam.
Nadincəm, şənəm,
Kiçik yelkənəm.
Bu göldür mənim
Yurdum, məskənim.
Günüm, həyatım,
Qolum-qanadım!
Deməyin sudur,
Varlığım odur!
Ey mənim ömrüm,
Ey gözəl gölüm,
Səninlə gülüm,
Səninlə ölüm!
Nə etmək,
Zanbaq itdi,
Yerində yüzü bitdi.
Hamısı da ağ, qəşəng,
Əlvan-əlvan, rəngbərəng!
Çölü, düzü, çəməni
Dolaşan o nəğməni –
Hamı dinlədi yenə,

Dinlədi dönə-dönə!
Dinlədi kəpənəklər,
Qızılqazlar, ördəklər,
Qurbağalar, böcəklər,
Qarışqalar, çiçəklər...
Onu dünya eşitdi,
Nağıl da burda bitdi!

## PAXIL TÜLKÜ

1

Bir paxıl tülkü vardı,
Qızıl rəng tükü vardı.
Gözləri iri, ala,
Az qalırdı can ala.
Gözləri süzülürdü,
Əzilir, büzülürdü.
Boynu qəşəng boyundu,
Həm zərif, həm uzundu.
Yaxşı bağı-bağatı,
Zəngin, gözəl həyatı.
Həyət-bacası, mülkü,
Şən yaşayırdı tülkü.
İki uşağı, əri
Yoxdu bir dərdi-səri...
Xoş keçirdi günləri!

2

Bir gün tülkü büzüşdü,
Qəribə hala düşdü.
Kədərli, qəmli oldu,
Ala gözləri doldu.
— Ay canım, gözüm mənim
Yox sənə sözüm mənim,



Gözlərin niyə nəmdir,
Bu nə kədər, nə qəmdir?!
— Sevimli ərciyəzim,
Gözüm, canım, əzizim,
Bu qonşu tülkü mənə,
Bilirsən, nə dedi, nə?!
Qızılın yox, varın yox,
Fərli sırğaların yox...,
Qulağıma bax barı,
Zümrüd qaş sırğaları,
Gördünmü,
Doyunca bax,
Hünərin var, sən də tax!
— Ay canım, gözüm mənim
Yox sənə sözüm mənim.
Demişəm dönə-dönə
Bu gün deyirəm yenə,
Heç zaman paxıl olma,
Qonşulara qoşulma!
Səni dərd-sərə salan
Zümrüdqaş sırğa nədir,
Bil ki, sənə yaraşan
İncidir, dürdanədir!
O dedi gözü yaşlı:
— Sırğa al zümrüdqaşlı...
— Ricam var, sözə getmə,
Fikir etmə, qəm etmə!
Söz verirəm bu günü,
Alacağam cütünü!
Dedi, aldı, gətirdi,
Elə ki, ona verdi
Sevinclə qulağına
Tülkü sırğanı taxdı,
Güzgünün qabağında
Gedib özünə baxdı.

3

Nə dincəldi, nə yatdı,
Tülkü dərd-qəmə batdı.
Gördü rəfiqəsini,
Onun səliqəsini.
Tüklü, qəşəng dovşanı,
Təzə, par-par maşını,
Gördü yenə qonşunu
Atlaz paltarda onu.
Yenə yandı, yaxıldı,
Çünki tülkü paxıldı.
Əri dərdinə yandı,
Qulluğunda dayandı.
Atlaz istədi, aldı,
Almaz istədi, aldı.
Dovşan istədi, aldı.
Maşın istədi, aldı.
Nə istəsə, gətirdi,
Nə desə aldı, verdi.
Yenə qaşqabaq tökdü,
Qəlbini yedi,sökdü.
Qonşuda qaldı gözü
Hər şeyi gördü gözü.
Görən kimi oldu pərt,
Duydu kədər, çəkdi dərd.
Yazıq əri yalvardı,
Min cür təzə şey aldı.
Dedi ki, paxıl olma,
Ona-buna qoşulma!
Amma, deyirsən kimə,
Batdı kədərə, qəmə!



4

Xallı bir tülkü gördü,
Görüb yerində «öldü».
— Yaman pis oldu halım,
Niyə yox mənim xalım?!
Əri dedi heyrətlə:
— Mən xalı hardan alım?!
— Mənə yaraşar o xal,
Hardan olursa tap, al!
Əri gəzdi, dolaşdı,
Dərə, təpə, dağ aşdı.
Bir an üzü gülmədi,
Xalı tapa bilmədi.
Tülkü nə günə düşdü,
Xəstə kökünə düşdü.
Heyrətindən duruxdu,
Ora-bura vurnuxdu.
«Odur fikrim-xəyalım,
Tap olsun mənim xalım!»
Əridi bir şam kimi
Qaraldı axşam kimi.
Tərslikdən, sən işə bax,
O xallı gəldi qonaq.
Elə ki, gördü bunu,
Başlandı min oyunu.
Nə içdi, nə də yedi,
«Mənə xal tapın» — dedi.
Nə bağça-bağa çıxdı,
Nə göyə, yerə baxdı.
Nə gördü ağ maşını,
Nə də üzük qaşını.
Vardı onun hər şeyi,
Yüz-yüz, min-min bəzəyi.
Dəst-dəst, gözəl paltarı,
Cürbəcür sırğaları!

Saysız inci danəsi,
Daş-qaşı, dürdanəsi...
Hər şey onda var idi,
Tək ürəyi dar idi.
İpə-sapa yatmadı,
Məqsədinə çatmadı.
«Mənə xal tapın» dedi,
Gündən-günə əridi.
Get-gedə elə soldu,
Tükləri də yox oldu.
Elə alışdı, yandı,
Yandı, qəlbi dayandı.
Örtmək üçün paxırı
Basdırdılar paxılı.
Mənasız paxıllığın
Belə olur axırı!

## SEHRLİ QILINC

1

Sehrli qılınc vardı,
Günəş kimi yanardı.
Sanki almazdı qılınc,
Qında qalmazdı qılınc!
Duyandı insan kimi!
Ağırdı zindan kimi!
Haqq, ədalət sevəndi,
Qüvvət, qüdrət sevəndi.
Onu yerindən hər kəs
Alıb götürə bilməz.
Neçə igid yanaşdı,
Qılınc—qayadı, daşdı.
Onlara ram olmadı,
Meyl belə salmadı.



Tanıyırdı onları,
Çox idi nöqsanları.
Biri cibkəsən idi,
Qorxudan əsən idi.
O birisi xəbisdi,
Üçüncü daha pisdi.
Yox idi qeyrətləri,
Gücləri, cürətləri!
Necə olacaq qılınc,
Kimə qalacaq qılınc?!
Heç kəsə ram olmadı,
Meyl belə salmadı.
Sakit dayandı qılınc,
Nur kimi yandı qılınc.

2

Bir cavan arzusunda,
Bir çavan yuxusunda
Qılınçı görə bildi,
Onu götürə bildi.
Bəzən gəlib yaxına,
Dayanıb baxdı ona.
Baxdı, titrədi, çaşdı,
Hətta gözü qamaşdı.
«Bu, nə sirli qılınçdır,
Nə sehrli qılınçdır?»
Bir az da tablayım mən,
Yenə güç toplayım mən!»
Gedib bir kotan aldı.
Susuz çöldə bağ saldı.
Bu həvəslə alışdı,
Gecə-gündüz çalışdı.
Zəhmətlə az müddətə,
Bu bağ döndü çənnətə.
Hamı elə-beləcə

Çalışdı gündüz-gecə.
Hər yan bağ-bağat oldu,
Firavan həyat oldu.
Bu mahalın ad-sanı
Gəzdi düzü, dünyanı!
Bura bir dəfə amma
Düşmən keçdi hücuma.
Sərvət tapmaq istədi,
Çalıb çapmaq istədi.
Dərhal qalxıb ayağa
O gənc keçdi qabağa.
Dərhal qılınçı gördü,
Düşünmədən yüyürdü,
Əlini atıb onu
Asanlıqla götürdü.
Onu aldı bir heyrət
Canına gəldi qüvvət!
Səslədi cavanları,
Qızları, oğlanları.
Hamı birdən cəm oldu,
Yarandı böyük ordu.
«Ey mənim nər qılıncım,
Göstər hünər, qılıncım!»
Deyib irəli cumdu,
Bu hücum əks hücumdu.
Ordu elə gurladı,
Qılınc elə parladı,
Düşmən çaşdı qorxudan,
Düşmən qaçdı qorxudan.
Onu vahimə aldı,
Heyrət içində qaldı.
Dağıldı dəstə-dəstə.
Cavan başının üstə
Oynatdıqca qılıncı,
Fırlatdıqca qılıncı



Duydu şir qüvvətini,
Duydu dağ qüdrətini!
Bu qılınc yana-yana
Nur saçırdı hər yana.
Düşmən tamam qovuldu,
Böyük qələbə oldu.

3

Cavan qılıncı sevdi,
Qılınc—çörəkdi, evdi.
Onu həyatı bildi,
Qolu-qanadı bildi.
Varlığını bağladı,
Möhkəm-möhkəm saxladı.
Bir dəfə ondan ötrü
Ləl, gövhər dolu mücrü
Versələr də cavana,
Odlanıb, yana-yana,
Hirslənib, birdən-birə.
Mücrünü çırpdı yerə!
Qılınc sadiqdi ona,
Çevrildi dayağına!
Onu dardan qurtardı,
Bəlalardan qurtardı.
Bir-birinə məhəbbət,
Bir-birinə sədaqət!
Qazandı şöhrət, ad-san,
Sərkərdə oldu cavan!
Dəyanətli sərkərdə,
Ədalətli sərkərdə!
Yenə hücumlar oldu,
Ayağa qalxdı ordu!
Oynatdı qılıncını,
Fırlatdı qılıncını,
Dəf etdi düşmənləri,

Məhv etdi düşmənləri!
Keçdikcə aylar, illər
Bu qılıncla bərabər
Qorudu ədaləti,
Qorudu səadəti!

4

Sərkərdə—o mərd insan,
Bir gün köçdü dünyadan.
Qılıncı dərd-qəm aldı,
Çünki sahibsiz qaldı.
Sədaqəti böyükdü,
Məhəbbəti böyükdü.
Heç kəsə ram olmadı,
Meyl belə salmadı.
Küncdə sakit dayandı,
Yenə nur kimi yandı.

5

Ədalət rəmzi kimi,
Həqiqət rəmzi kimi
Qılınc yenə də qalır,
Keçmişi yada salır.
Yada salıb dil açır.
O zamandan danışır.
Ədalətli, qüdrətli
Qəhrəmandan danışır,
O cəsur, qorxmaz, məğrur,
Mərd insandan danışır.
Deyir ki, nə sirliyəm,
Nədə ki, sehrliyəm.
Sehrli—qəhrəmandır,
O mərd, cəsur insandır!



# Poemalar

## YAXŞILIQ VƏ PAXILLIQ

***"ALPİNİSTLƏR" kitabından***

Poema Füzulinin «Hədiqətüs-süəda» əsərinin bir rəvayəti əsasında uşaqlar üçün yazılmışdır.

1

Uşaqlar, gəlin sizə
Danışım bir hadisə.
Ötən zamandan deyim,
Başqa dövrandan deyim.
Vardı Kənan elində
Yaqub adlı bir kişi,
Yaxşı deyildi işi.
Əziyyətlə yaşardı,
On bir uşağı vardı.
Oldu bir oğlu yenə,
Şənlik gəldi evinə...
Yaqub susub dinmədi,
Nədənsə sevinmədi.
Onu bir fikir aldı.
Qanı yaman qaraldı.
Dedi: bağça-bağım yox,
Malım yox, torpağım yox.
Hardan alım dövləti,
Necə, necə saxlayım
Mən bu böyük külfəti?!
O yatdı, səhər çağı
Getdi: görsün uşağı.

Baxdı körpə üzünə,
İşıq düşdü gözünə.
«Bu nədir» – deyə-deyə,
O çəkildi geriyə.
Ah, görən bu nə işdi,
Elə bil ki, o gündən
Həyat təmiz dəyişdi.
İçdikcə ana südü,
Körpə Yusif böyüdü.
Ağaclar barlı oldu,
Heyvalı, narlı oldu.
Gözəlləşdi təbiət,
Evə gəldi bərəkət...
Qalmadı uşaqlar ac,
Daha kəsdi qapıdan
Ayağını ehtiyac.
Gəldi gözəl uşaqdan
Qonşuların acığı.
Evdə qorxub taxdılar
Körpəyə göz muncuğu.
İndi onun körpəsi
Evə yaraşıq oldu,
Sanki bir işıq oldu.

2

Dolandı günlər, aylar,
Keçdi payız qış, bahar
Yusif qalxıb boy atdı,
Uca çinara çatdı.
Günəş kimi camalı,
Ağlı, fikri, kamalı!..
Ata doğma oğlunu
Sevdi candan, ürəkdən.
Qorudu daim onu
Daşdan, qardan, küləkdən



Ona paltar da aldı,
Hər vaxt qeydinə qaldı.
Evdə təkcə Yusifə
Ata göstərdi hörmət,
Bir də sevgi, məhəbbət.
Hamı gözəl cavandan
Gəlib məsləhət aldı.
Qardaşları bu zaman,
Donub heyrətdə qaldı...
— Ay uşaqlar, deyin bir,
Nədədir bu gizli sirr.
— Gəlin biz də birləşək.
Düşünək təzə tədbir.
Üzək incə boynunu,
Tutaq, öldürək onu...
— Suyuna zəhər qataq.-
— Dağdan, qayadan ataq.

3

Qardaşlar atasından
Qopartdılar Yusifi.
Uzaqlara, gəzməyə
Apardılar Yusifi.
Yaqub nigaran oldu,
Onun bağrı qan oldu.
Soyuq ah çəkdi hərdən,
Baxdı, baxdı çəpərdən.
Əli işə yatmadı,
Dincəlmədi, yatmadı.
Şübhə damdı qəlbinə
Düşündü dönə-dönə.
Dilində Yusif adı
O, belə pıçıldadı:
— Gözəl xurma ağacı,
İncə palma ağacı

Haraylayın çölləri,
Onu qaytarın geri.
Dözmür ata ürəyim,
Gəlsin ömür çiçəyim...
Dinmədi bu ağaclar,
Susdu çellər, yamaclar.
Yaqub nigaran oldu,
Onun bağrı qan oldu.

4

Gözəl olur bağ yolu,
Meşə yolu, dağ yolu.
Bağdan başlanan cığır,
Uzanıb dağa çıxır.
Başında yekə papaq,
Əlindəsə bir çomaq
Yusif gedir qabaqda,
Quşlar bizim bu gənci
Salamlayır budaqda.
Gözündə, üzündə nur,
Yusif nəğmə oxuyur.
Onu dağlar dinləyir,
Gur bulaqlar dinləyir.
Göydə dayanır bulut.
Meşəyə çökür sükut.
Bülbül kəsir səsini,
Bütün aləm dinləyir
Yusifin nəğməsini.
O, çəmənə vurulur,
Yasəmənə vurulur.
Sevinci aşıb daşır,
Ağaclara dırmaşır.
Gül dərir, çiçək dərir,
Böyük qardaşa verir.
Yusif öz heybəsindən



Çıxarır pendir, çörək.
Qardaşları haylayır —
Bircə-bircə paylayır.
— Bizi yandırdı pendir,
Yusif, tez ol, su gətir...
O, quyuya yollanır,
Yox, yanılır, aldanır.
Qardaşlar söyür onu,
İncidib döyür onu.
Şillələr vurub yenə
Yeridirlər Yusifi
Tikanların üstünə.
O yalvarır, bağırır,
Haray salıb çağırır.
Dərin quyu yanında
Birdən əyib boynunu —
Köynəyini çıxarıb
İtələyirlər onu...
Yusif quyuya düşür,
Dizə tək suya düşür.
Buludlar, siz hay salın,
Görün Yaqub hardadır? —
Axı oğlu dardadır.
Yerlər, göylər, bağırın,
Siz Yaqubu çağırın,
Xəbər verin: balası
Qərq olub göz yaşına,
Daş tökülür başına.
Deyin ona: yel olsun,
Şimşək olsun, sel olsun.
Bulud yerə enmədi,
Yerlər, göylər dinmədi.
Yaqub da darda qaldı,
Gözü yollarda qaldı.
Qardaşlar da köynəyi —

Buladılar gizlicə
Bir heyvanın qanına.
Getdilər bu xəbərlə
Düz Yaqubun yanına.

5

Yaqub aldı köynəyi,
Sanki qopdu ürəyi.
Hönkür-hönkür ağladı,
Yusifə yas saxladı.
Töküb qanlı göz yaşı,
O gəzdi dağı-daşı.
Keçdi çaydan, bərədən,
Dağdan, düzdən, dərədən
«Yusif» – deyə hayladı,
Oğlunu harayladı.
Qocanın bu ah-zarı
Sərt yellərə qarışdı.
O qanlı göz yaşları
Gur sellərə qarışdı.
Dağlar tutdu yasını,
Ata öz balasını
Göy otlardan istədi,
Buludlardan istədi.
Xəyalında min dəfə
Yusif ilə görüşdü.
Yaqub dözə bilmədi,
Yorğan-döşəyə düşdü.

6

Məlik adlı bir tacir,
Karvan ilə yol keçir.
Gördü: kimsə ağlayır,
O, karvanı saxlayır.
Gəlir bir fəryad səsi,
Bir uşağın naləsi.



Tacir gəzir, dolanır,
Quyu üstə dayanır...
Sonra düşüb aşağı,
Çıxarır o uşağı.
Karvan yol alıb gedir,
Ləpirlər salıb gedir.
Yolları tutur duman,
Yusif ayrılır, aman —
Doğma eldən, vətəndən,
Bu dağdan, bu çəməndən!
Vətən bir an içində
İtir duman içində,
Uzun yol gedib tacir,
Gəlib Misrə yetişir.
Bu yad, özgə diyarda
Satır onu bazarda.
Bu gündən gənc
Yusifin həyatı kədər olur.
Dövlətli bir hakimə
Buyruqçu, nökər olur.
O, indi zillət görür,
Qəm görür, möhnət görür
Gah döyülür,
Gah söyülür.
Döyülür yana-yana,
Axır düşür zindana.
Onun günəş camalı
İşıqladır zindanı.
Heyran edir kamalı
Neçə-neçə insanı.
Keçir ay, keçir fəsil,
Dolanır düz yeddi il.
Zindandan azad olur,
Xəzinədar qoyulur;
Burda nə istəsən var,

Can dərmanı tapılar.
Azad olandan bəri,
O, düşünür elləri.
Gecə görür bir yuxu,
Düşür canına qorxu.
Görür çılpaq, susuz düz,
Bu düzdə yeddi öküz
Dolanır ac, gəzir ac,
Nə ot var, nə də ağac.
Gəldi qara bir duman.
Birdən qalxdı yuxudan...
Alır onu xəyallar,
Aman, bir fəlakət var.
Çöllər, düzlər solacaq,
Böyük aclıq olacaq...
Buna dözərmi ürək,
Bir tədbir görüm gərək.
Toplayıb taxılları
O doldurur anbarı.
Günlər keçir an kimi,
Qaranlıq zindan kimi.
Aclıq tutur hər yanı,
Əldən salır insanı.
Yanmır indi ocaqlar,
Dözə bilmir uşaqlar,
Gecə-gündüz ağlayır,
Analar yas saxlayır.
Tapılmır bir ovuc un.
Kəsilir keçi, qoyun,
Solub saralır insan,
Ölən olur acından...
Yaqub rəngi sapsarı,
Çağırır qardaşları
Deyir: çıxın səfərə,
Gedin qonşu şəhərə...



Taxıl tapıb gətirin,
Uşaqlara yetirin.
Səhər dan söküləndə,
Göydən nur töküləndə,
Onlar yola düzəldi,
Qonşu şəhərə gəldi.
Burda hamı Yusifdən
Alır çörək, alır dən.
Qardaşların bu gündə
Qəlbi ümidlə vurdu.
Xəzinənin önündə
Onlar dayandı, durdu.
Yusifə
On bir qardaş
Ehtiramla əydi baş.
Yusif diqqətlə baxdı,
Çox sıxıldı qaşları! —
Tanıdı qardaşları.
Kisələrini aldı,
Verdi taxıl, verdi dən.
Qardaşlar razı qaldı
Xəzinədar Yusifdən.
Evi düşünüb yenə,
Bir sevinc duydu Yusif.
Kisələrin birinə
Ağ göynək qoydu Yusif.
Yenə də on bir qardaş.
Ehtiramla əydi baş.
Böyük şadlıq oldu bu —
Sevindirdi Yaqubu.
Güldü evdə uşaqlar,
Yandı yenə ocaqlar.
Kisələri açanda,
Birdən tapdı köynəyi;
Yaqub susdu bu anda,

Əsdi ata ürəyi.
Titrək əlini onun
Üstünə qoydu Yaqub.
Öz sevimli oğlunun
Ətrini duydu Yaqub.
Ney kimi qəlbi dindi,
Uşaq kimi sevindi!
Qardaşları çağırdı
Şadlığından çığırdı:
— Sağdır mənim Yusifim!
Sağdır mənim Yusifim!...
Qardaşlar utandılar,
Lal kimi dayandılar.
Nə gülüb, nə dindilər,
Nə də ki sevindilər.
Ayrılsaydı yer əgər,
Onlar yerə batardı.
Alışsaydı meşələr —
Özlərini bir anda
Onlar oda atardı.
Durdular bir daş kimi,
Qurumuş ağac kimi.
Yaqub tutdu üzünü,
Söylədi son sözünü:
— Sizə nifrət, ar olsun!
Yusifimsə var olsun!
Sonra çıxdı səfərə,
Getdi həmin şəhərə...

**ALPİNİSTLƏR**

Səhər-səhər
pionerlər
Çıxır yola —
Barabanı çala-çala.



Gedir Nuru,
Dağa doğru
Onun həsir papağı var,
Bayrağı var.
Əllərində uzun kəndir,
Gedir Ayaz,
Gedir Nadir.
Qolu üstə ağır çanta,
Tər içində Xalid gedir,
Arxasınca asta-asta,
«Pələng» adlı ağ it gedir.
Dayanaraq
qoça, uşaq,
«Uğur»-deyə
Əl eləyir bu dəstəyə.
Hürküb qaçır yolda qazlar,
Çəpərlərdən
Qalxıb baxır kiçik qızlar.
Zərəfşanın
Nə qəribə paltarı var,
Oğlan kimi şalvarı var,
Səhər-səhər
Bu balaca alpinistlər
Gedir dağa çıxmaq üçün,
Al bayrağı
Zirvələrə taxmaq üçün.
Onlar keçir
Daş körpüdən,
Aşır daşır su çaylaqda
Qızıl bayraq
Dalğalanır lap qabaqda.
Bəs o kimdir,
Deyin nədən
Belə gəlir tələsmədən?!
Gəlir yolda dura-dura,

Çubuğunu
Kola-kosa vura-vura.
O, Əkbərdir,
Atır yolda quşlara daş.
Uşaqların arxasınca
Addımlayır yavaş-yavaş.
Körpüyə yox, çaya enir,
Öz-özünə o dillənir:
— Bayrağa bax, kəndirə bax,
Uzundraz Nadirə bax,
Dağa çıxmaq,
Bayraq taxmaq
Belə çətin işdir məgər,
Bu cür olur alpinistlər?!
O dağı mən
Birnəfəsə çıxacağam.
Zirvəsindən
Aşağıya baxacağam.
Razı qalıb qərarından,
O ayrıldı dostlarından.
Nə ucadır
Ceyran dağı,
Gəldi kəsdi duman dağı.
Qucaqlaşdı
Çiçəklərlə,
Axdı getdi küləklərlə.
Başındakı buludlardır
Papaq kimi.
Böyük, uca dağmı vardır
Bu dağ kimi?!
Sinəsində cığırları İtib batır.
Çiçəklərdir onun varı,
Bu çiçəklər qoynundadır.
Qanadını bir çalağan
Tərpətmədən vurur dövrə,



Sonra keçib qayalardan
Uçub qalxır yüksəklərə.
İndiyədək
Düşüb onun həvəsinə -
Qalxmamışdır
Heç kəs dağın zirvəsinə.
İlk dəfədir
Çıxır dağa pionerlər.
— Ay uşaqlar, hanı Əkbər?
— Yəqin qaçıb.
— Ola bilməz.
— Əkbər bizsiz qala bilməz.
— Yaxşı hanı?
— Arxadadır,
— Çəmənlikdə bəlkə yatır?!
Səslədilər:
— Əkbər! Əkbər!
Yola düşdü dəstə,
İz qaldı ot üstə.
Qabağa qaçdılar,
Kəndiri açdılar.
Uzandı bu kəndir,
Tutdu Xalid, Nadir.
Astadan hər biri
Çıxdı ilk dikdiri.
Qorxaraq Zərəfşan,
Qışqırdı: ay aman.
Nə cığır var, nə yol,
Qayalardır sağ, sol.
Bir döşə çatdılar
Kəndiri atdılar.
Tutaraq kəndirdən
Xalid qalxdı birdən.
O çıxıb yuxarı,
Baxdı döşə sarı.

«Möhkəm tutun» – deyə,
Başladı köməyə.
Zərəfşan astadan
Qalxdı çaşa-çaşa,
Dizi dəydi daşa.
Dizini o tutdu,
Ağrını unutdu.
Qayalıq qurtardı,
Lalələr qızardı.
Qalxırdı dizədək
Sarı gül, al çiçək.
Əsirdi sərin meh,
Otların üstə şeh
Parlayırdı par-par,
Yüksəkdə qayalar,
Keçidlər göründü,
Dumana büründü.
İt girdi otlağa,
Yüyürdü qabağa.
Hamı gülə-gülə,
Tutaraq əl-ələ,
Yuxarı qalxdılar,
Ətrafa baxdılar.
— Ay uşaqlar, təzə,
Təmiz hava udun.
Düşdü üstümüzə
Kölgəsi buludun.
— Bulud ötənədək,
Gəlin, biz dincələk.
Kimi dikdə durdu,
Kimi də oturdu.
Xalid asta-asta,
İri bir yumurta
Çantadan götürdü,
Gizlicə ötürdü.



Pələng görüb bunu,
Uzatdı burnunu.
— Tələsmə, Pələng, bil
Yemək vaxtı deyil.
Buludlar ötüşdü,
Gözlərə nur düşdü,
Xalid yerə baxdı,
Qaraldı bir dərə.
Yavaş-yavaş qalxdı
Dəstə zirvələrə.
Tək çıxırdı
Əkbər dağı,
Sıldırımdı solu, sağı.
Keçidlərdə
Daşlara bax,
Hər birisi sanki bıçaq.
Dəysə
Kəsər barmağını.
Dəysə
kəsər ayağını...
Əkbər keçir
Asta-asta,
Koldan-kosdan tuta-tuta.
Gah gedir,
Gah dayanır o,
Aşağıya boylanır o.
Nə qəribə
Mənzərədir —
Geniş, dərin bir dərədir.
Lap uzaqda
Ağaclar var:
Vələs, fısdıq, palıd, küknar.
Əkbər keçir —
Bulaq görür, sudan içir.
Ötüb yenə

Çıxır qaya üzərinə.
Yamaclarda
Kollar vardır, dəstə-dəstə..
Birdən çaşır,
Ayaq altdan bir daş qaçır
Bu daş enir,
Diyirlənir.
Düz dərəyə düşür birbaş
Həmin o daş.
Dərə gedir
Gör hara dək,
Qaralır bir mağara tək.
Əkbər daha
Baxa bilmir,
Yüksək yerə çıxa bilmir.
Baxır bu an,
Başı üstə görür ilan.
Kola yatır,
Əllərinə tikan batır,
O bağırmaq,
O çığırmaq istəsə də
Səsi gəlmir,
Susur ancaq;
İlan deyil,
Başı üstə görür budaq.
Xeyli müddət
Lal dayanır,
Öz-özündən o utanır.
Ötüb keçir
Yavaş-yavaş aşırımı.
Görür böyük sıldırımı.
Daha getmək
Qorxuludur,
Gör, bu necə dağ yoludur?
Durur Əkbər,



Solda görür dar keçidlər.
Necə etsin, hardan getsin?!
Dəstə gedir,
Dəstə qalxır,
Bir qayanın üstə çıxır.
Bu dağ yolu
Olub yarı,
Ancaq yorub uşaqları.
Solda yarğan,
Sağda yarğan,
Uçub gedir bir çalağan.
Dinir Ayaz:
— Ay uşaqlar, belə olmaz.
Xalid gizlin
Bir-bir yeyir yumurtanı.
Belə getsə
Boş qoyacaq o, çantanı.
Xalid gülür,
Ucaldaraq şən səsini:
— İnanın, çox yeməmişəm,
Yemişəm beş dənəsini.
Süfrə açıb
Qaya üstə,
Deyir: gəlin yeyin siz də
Mənsə içim limonadı.
— Ay kələkbaz, bu olmadı.
— Niyyətiniz, yaxşı, nədir?
— Bizə bulaq suyu gətir.
— Gözüm üstə, gətirərəm,
Sizə su da yetirərəm.
Xalid gedib
Tez qayıdır,
Dağda nahar başa çatır.
— Ay uşaqlar, di tez olun,
Ən çətini

Qabaqdadır hələ yolun.
Gedir onlar:
Dağ döşündə bir qala var.
Divarları
Sökülmüşdür,
Daşları da tökülmüşdür.
Burda ayaq
Saxlayırlar,
Hər tərəfi yoxlayırlar.
Qala keçən
Əsrlərdən yadigardır.
Onun uçan
Hər daşında tarix vardır.
Nəzər salıb
Bu qalanın hər yerinə —
Gördüyünü
Ayaz yazır dəftərinə.
Keçidə bax -
Çox qorxulu keçiddir o.
Kim kəndirsiz
Keçsə əgər – igiddir o.
Nuru keçir, ardınca it...
Lakin qorxub durur Xalid.
— Belə işlə
Yoxdur aram,
Mən kəndirsiz yıxılaram.
Cəld səsləyir
O, Nadiri:
— Bura verin o kəndiri.
Yavaş-yavaş addım atır,
Keçid yaman
Sürüşkəndir, çınqıllıdır.
O dayanır,
Dərələrə baxıb gedir.
Çınqıllarsa



Ayaq altdan axıb gedir.
Bu vaxt hamı
Baxır ona bir heyrətlə.
Kəndiri də buraxaraq,
Daha keçir cəsarətlə.
Bu keçidi ötür onlar,
Uçur indi
Aşağıda çalağanlar.
Pionerlər
Bu buludlu,
Bu sükutlu
Dağ-dərəyə səs salırlar.
Qartal kimi ucalırlar.

Hanı Əkbər? —
Ondan sizə verim xəbər,
Sanki kimsə
Oğurlayıb sevincini.
Qaya üstə
Qəmgin-qəmgin
Alır indi o, dincini.
Kollar cızıb,
Qanadıbdır qollarını.
Kollar cırıb
Onun təzə şalvarını.
Geri dönmək,
Dağı enmək,
Keçsə belə ürəyindən —
Əl çəkib bu istəyindən,
« — O zirvəyə,
Çıxacağam» deyə-deyə
Yenə qalxır,
Sıldırımın üstə çıxır.
Lakin durur,
Daha qalxa bilmir oğlan,

Bir dost əli yuxarıdan
Uzansaydı əgər ona,
Burdan çıxıb,
O, düşərdi öz yoluna.
İndi ancaq
Keçir soldan fırlanaraq.
Yeridikcə o, tək-tənha
Buna dözə bilmir daha.
Qüssə, kədər
Çökür kiçik ürəyinə.
Bir ehtiyac
Duyur Əkbər
Dostlarının köməyinə.
Yada düşür
Dostlarının nəğmə səsi,
Zarafatı, qəhqəhəsi...
Nadir hanı,
Nuru hanı, —
Xatırlayır Zərəfşanı.
Deyir: hökmən
Qoşularam onlara mən!

O dəstə ucalır,
Zirvəyə az qalır.
Zərəfşanın güllə
Doludur qucağı.
Yıqıbdır onları
Çıxdıqca bu dağı.
Güllər rəngbərəngdir,
Baxın, nə qəşəngdir.
Birdən qız çığırır —
Köməyə çağırır
Canında vəlvələ:
— Aman, kərtənkələ...
Onu tutur Xalid,



Qız dayanır sakit.
Aşağıdan duman,
Yüksəlir astadan.
«Ura»-deyə Nuru
O zirvəyə doğru
Birnəfəsə qaçır,
Al bayrağı sancır.
Bürüyür hər yeri,
Şən «ura» səsləri.
Görünür uzaqlar,
Dağlar, yenə dağlar...
Görünür dərələr,
Gözəl mənzərələr.
Üfüqdə yüksələn,
Yavaş-yavaş gələn
Bulud bir alaydır,
Bir ağ kalağaydır.
Burda bir qaya var,
Üstünə yazırlar
Adlarını bir-bir:
Nuru, Xalid, Nadir,
— Tez qayıdaq, – deyə,
Dönürlər geriyə.

Birdən Əkbər eşidir səs,
Sevincindən
Qəlbi əsir.
Sinəsində ümid, həvəs,
Zirvələrə
O tələsir.
Qulaq verib hərdən səsə,
Əkbər çıxır birnəfəsə.
Gah yıxılır, gah sürüşür,
Gah da çökək yerə düşür.
Tutub durur

Tez-tez vuran ürəyini,
Əkbər görür
Su içində göynəyini.
O dayanır,
Almaq üçün nəfəsini
Ancaq daha
Eşitməyir
Uşaqların şən səsini.
İndi Əkbər
Yavaş-yavaş addım atır,
O zirvəyə gəlib çatır.
Dostlarını
Görməyərək,
Qalır uca zirvədə tək...
O uzanır otlar üstə,
Bulud keçir dəstə-dəstə.
Alov kimi bayraq yanır,
Lap yüksəkdə dalğalanır.
Daşlar üstə
Hərfləri qazır Əkbər,
Lap axırda
Öz adını yazır Əkbər.

## MEŞƏDƏ SƏS

*"MEŞƏDƏ SƏS" kitabından*

Meşəyə girdilər
uşaqlar
Ürəklərində
məhəbbət, həvəs..,
Başdan-başa meşədə
Nə hənirti var,
nə də səs...



Onlar
getdilər qabağa,
Ətrafa baxa-baxa...
Hətta sevimli Alabaş
İrəlidə yüyürür,
Ancaq hürmür...
Nə dovşan,
nə Canavar,
Nə də tülkü görünür.
Qəribədir...
Meşə sakit,
meşə lal,
Otur, uzan,
gəz, dolan,
İstəsən xəyala dal...
Birdən
Yaxından taq-taraq
Gəldi
güllə səsləri.
Qorxudan uşaqların
Az qala donsun
nəfəsləri.
— Bu, nədir?!
— Qəribədir...
Dedi Kamran:
— Uşaqlar, qorxmağın
Nə mənası vardır?
Bu gülləni atan
Naşı ovçulardır.
Bu sözə inanıb
Onlar bir qədər
Qəhqəhə çəkib
Gülüşdülər.
Səslə doldu
indi meşə,

Lal sükutdan
oyanıb,
Sanki diksindi meşə.
Ətrafa baxa-baxa,
Onlar yenə də
Gedirdilər qabağa...
— Au, au...
Bir səs eşidildi,
Hamı onu
bir quş bildi..,
Təkcə Kamran,
Gülüb dedi astadan:
— O itmiş bir uşaqdır...
Səs versək ona
harda olsa
Yanımızdan
çıxacaqdır.
Bütün meşəni
— Au, au, au —
səsləri bürüdü.
Uşaqlar azmış oğlana
səs verdilər...
O göründü
Meşədən çıxmaq üçün
Yolu ona göstərdilər.
Oğlan:
— sağ ol — deyib,
əl etdi,
Düz yolla getdi.
Uşaqlar bayaqkı
hay-küyü unutdu,
hər yanı
sükut tutdu.
— Taq-tuk...
— Tuq-taq...



— Ay uşaqlar,
bu nədir?!
Nə qəribə nəğmədir...
— Ağacdələndir bu,
Meşənin paçtalyonu...
— Ay Kamran,
necə tez tanıdın onu?
Ağacdələnin
Kəsilmir taq-taqı...
Sanki döyülür
Aramsız bir qapı...
— Qa... qa... qa...
Bir səs yayıldı,
Yenə bütün meşə
Yuxusundan ayıldı.
Uşaqlar yoldan
çəkildilər qırağa,
Kamran dedi:
— Tanıdım,
ala qarğadır,
ala qarğa...
Bir neçəsi də
Səs verib ona qoşuldu,
— Qa... qa... qa...
səslərindən
bir orkestr oldu.
Bir talaya çatdılar,
Çır-çırpı yığıb,
bir ocaq çatdılar.
Çırtaçırt yandı ocaq...
Uşaqlar tapdı bulaq...
Onlara xoş gəldi
bulağın səsi,
həzin, gözəl nəğməsi.

Birdən hardasa
şaraqqaşaraq
Qırıldı bir budaq...
Yüyürdülər uşaqlar:
— Nə olub, görən nə var?!
Gördülər meşəbəyi
Kəsib quru budağı,
Özü ağacdan
düşür aşağı.
Vay... bu nədir?!
Budaqsız ağac
nə gülməlidir.
— Əmi, siz,
onu niyə kəsdiniz?!
— Kəsdim ki,
ağac yaxşı
boy atsın,
Başı buluda çatsın.
Bu vaxt bir quş
həvəslə
nəğmə oxudu.
hamı durub yerində
Bu səsə heyran oldu.
Balaca quşcuğazda
Necə böyük həvəs var,
Ürəkləri titrədən
Nə zərif, incə səs var.
Bu səs,
verirdi nəfəs
Sanki torpağa, daşa,
Bürümüşdü
Meşəni başdan-başa...
Hər şey susmuşdu, hər şey:
Yarpaqlar da,
Budaqlar da,



bulaqlar da...
Hətta bizim
uşaqlar da...
Dinə bilmirdi
heç kəs,
Möcüzə idi o səs!
Quş — sehirli nəğməkar,
Susmadan oxuyurdu.
Meşə nəğməkarını
Təkcə
uşaqlar deyil,
Ağaclar da duyurdu.
Yavaş-yavaş,
Üfüqdə qaraldı qaş...
Uşaqlar asta-asta
getdilər,
Meşəni tərk etdilər.
Lakin ürəklərində
Qaldı isti bir nəfəs...
Kəsilmədi yenə də,
Meşədən o gözəl səs!

## XEYİRXAH DƏLƏ

(Nağıl)

Bir meşədə
dələ vardı,
Sakit, xoşbəxt yaşayardı.
Gözəl idi,
qəşəng idi,
Xasiyyəti ipək idi.
Özü gücsüz olsa belə
Ancaq dələ
Cəsarətli,

Mətanətli,
ürəkliydi,
Qorxmaz idi,
zirək idi.
Dələ yaman sevilirdi,
hamı onu dost bilirdi.
Sanki şahdı,
Çünki dələ mehribandı,
xeyirxahdı...
Dovşan qaçır, dovşan qaçır,
Yaman qaçır,
yaman qaçır...
Yazığın nə canı vardır
Dözsün buna?!
Onu qovan canavardır.
Az qalır ki, çatsın ona.
Gör nə qaçır,
Bu dəqiqə tutacaqdır.
Sonra onu parçalayıb
udacaqdır.
Kömək, kömək,
Dura bilməz,
Kömək etsin dələ gərək!
Dayanmadan,
Yubanmadan
O, bir anda budaq qırdı,
İldırımla alışdırdı.
Məşəl yandı,
Alovlandı
Yüyürərək atdı onu
Canavarın qabağına,
Alov dəydi ayağına.
Canavarı dəhşət aldı,
Sanki onu ilan çaldı.
Döndü birdən,



Qaçdı getdi,
Uzaqlarda gözdən itdi.
Dovşan baxıb xilaskara
Güldü gözü.
Bircə kəlmə: — Sağ ol — oldu
Onun sözü.

Dələ bir gün səs eşitdi,
Yola doğru qaçıb getdi.
Bir qız gördü qara saçlı,
Durub yolda
gözü yaşlı.
Yaş üzündən süzüb axır,
Sola baxır, sağa baxır.
Dedi dələ:
— göz yaşını tökmə belə.
Nə olubdur, mənə söylə...
— Bu meşədə yol azmışam,
Bax, ay dələ, düşür axşam.
heç bilmirəm, mən nə edim,
hardan gedim, necə gedim?!
Pis uşaqlar döyər məni,
Ayı görsə, yeyər məni,
Tutub dilə,
— Sən ağlama — dedi dələ.
— Gəl, göstərim yolu sənə,
Yavaş-yavaş get evinə.
Qız dələnin arxasınca,
Qaça-qaça,
Gəlib çatdı
Bir meşənin kənarına,
Kəndin geniş yollarına.
Qız əl etdi gülə-gülə:
— Sağ ol, dələ,
— Sağ ol, dələ!

Dələ gəzir,
Oynayırdı, atlanırdı.
O budaqdan, bu budağa hoppanırdı.
Yoldan kənar,
Ağacların arasında
Bir tala var.
Dələ dedi öz-özünə:
— Burda niyə durub cüyür?!
Gözlərində qəm görünür...
O nədir bəs?!
hara düşüb,
Aha...
Cüyür dara düşüb.
Düşüb ovçu tələsinə...
Durma, dələ, tələssənə...
Dələ baxdı,
Gözlərində şimşək çaxdı.
Qaçdı dələ,
Döndü yelə,
Keçdi yamac, keçdi dərə
Çatıb filə,
Dedi belə:
— Ay güclü fil,
Cüyür dara düşüb qəfil...
Tez ol, yüyür,
Azad olsun gərək cüyür.
Fil tələsdi,
Tufan kimi coşub əsdi...
O talaya
tez çatdı fil,
Tələni də dağıtdı fil.
Cüyür güldü
Çıxan kimi bu tələdən.
Şad göründü,



Razı qaldı
o dələdən.
Sevincindən aşdı-daşdı,
Yaxınlaşdı,
Dələ ilə qucaqlaşdı.
Cüyür dedi gülə-gülə:
— Sağ ol, dələ,
— Sağ ol, dələ.
Günlər ötür,
Dələ yaman dələ olur,
O, hamıya kömək olur,
Lazım gəlsə güllə olur,
Lazım gəlsə,
şimşək olur.
O, ölümdən qurtarmışdı
Neçə-neçə qarışqanı...
Qoymamışdı sərçələrin
Nahaq yerə axsın qanı...
Yetişmişdi
köməyinə
bir böcəyin,
Qurtarmışdı
Tilsimindən hörümçəyin.
Soyuq
payız havasında,
Tufanlı qış havasında,
Neçə-neçə
azmış quşa
Yer vermişdi yuvasında.
Öldürərək bir ilanı
Qurbağanın
Qorumuşdu həyatını.
Yaralanmış bildirçinin
Sağaltmışdı
həkim kimi qanadını.

Cəsarətlə
Öz-özünü
Təhlükəyə atardı o,
Zəif, gücsüz
Dostlarının
İmdadına çatardı o.
Buna görə
hamı onu dost bilirdi,
Bu meşədə
Dələ yaman sevilirdi.
Pələng, aslan,
Ayı, bəbir,
Töküb tədbir,
Oldular bir!
— Quraq tələ,
Ölsün dələ.
Pələng, aslan
Dedilər ki,
Bu iş asan.
Dağ qüvvəsi
Vardır bizdə.
Mini ölər
Pəncəmizdə.
Bu dələdən
Qorxuruq biz,
Olsa belə
Qüvvətimiz.
İmkan yoxdur,
Bu dələnin
Dostu çoxdur.
Bapbalaca
Boyu vardır,
Elə bil ki,
hökmdardır.
Güldü bu an,



Dedi ilan:
— Çəkməyin qəm.
Mən gizlicə
Öldürərəm
Onu gecə.
Dedi pələng:
— Eləyərik
Biz də kömək!

Meşə sakit... gecə vaxtı,
Yuvasından ilan çıxdı.
Nə qorxuncdur,
dəhşətlidir,
Qəzəblidir,
hiddətlidir.
Onun gözü işıldadı,
Ağır-ağır fısıldadı.
Meşə sakit... gecə yarı,
Bu meşənin
Yatır bütün heyvanları.
Getdi ilan
Arxasınca
Getdi pələng, getdi aslan.
Əlbir,
Getdi ayı, getdi bəbir.
Ara xəlvət,
Ətraf zülmət.
Dedi aslan,
Dedi ilan:
— Biz dələni
Bax, bu saat didəcəyik,
Parça-parça edəcəyik...
Yatır dələ,
Xəbəri də yoxdur hələ.
Səs eşidib qalxdı birdən,

Keşik çəkən
ağacdələn.
Cəld soruşdu:
— Kimdir gələn?!
Durdu ilan,
Durdu ayı, pələng, aslan.
— Tez ol barı,
Tez ol,
Tez ol
Çıx yuxarı...
Dələni çal,
Tez yerə sal...
İlan çıxdı,
Yaman çıxdı,
Aman çıxdı!
Dələ yatır,
Bir bax, ona ilan çatır.
Ağacdələn haray saldı,
Şeypur çaldı...
Təhlükə var...
Oyandılar qarışqalar,
Cüyür qaçdı,
Marallara xəbər verdi.
Sərçə uçdu,
Qartallara xəbər verdi.
Quşlar belə oyandılar,
Uçub gəlib,
O dələnin
Keşiyində dayandılar.
Oda döndü,
Fil göründü.
Cəld uzatdı xortumunu...
Görüb onu
Qaçdı ilan,



Qaçdı ayı,
pələng, aslan
Bu birlikdən,
Bu qüvvədən
qorxdu onlar,
Geriyə də baxmadılar
bu heyvanlar.
Oyanaraq qalxdı dələ,
Ətrafına baxdı dələ.
hürkdü dələ,
Qorxdu dələ.
Söylədi fil:
— Dələ, qorxmaq lazım deyil...
Biz qovmuşuq təhlükəni,
Nə yaxşı ki,
Dərhal xilas etdik səni.
Ətrafında
Dostlarını gördü dələ.
Əhvalatdan
Xəbər tutub güldü dələ.
Bu vaxt
Səhər açılırdı,
Gün doğurdu,
Meşəyə nur saçılırdı
Qorxdu ilan o dələdən,
Qorxdu aslan o dələdən
Bir pişiktək
Qorxdu pələng
o dələdən.
Olsalar da onlar əlbir,
Qorxdu ayı,
Qorxdu bəbir
o dələdən.
Yenə dələ
sevilirdi,
hamı onu dost bilirdi.

Dələ qorxmaz, dələ mətin,
Dayanmışdı
Keşiyində ədalətin.
O, hamının havadarı,
Sevimlisi, xilaskarı.

## KƏPƏNƏK GÖZƏLLİYİ

***"KƏPƏNƏK GÖZƏLLİYİ" kitabından***

Səhər tezdən dan yeri
Əlvan rəngə boyandı,
Yavaş-yavaş Kəpənək
Yuxusundan oyandı.
Yuyundu sübh şehində,
Darandı sübh mehində.
Açıldı qanadları,
Uçdu çəmənə sarı.
O; gah otdan rəng aldı,
Gah buluddan rəng aldı.
İlk parlayan şəfəqlər
Üzərinə səpdi zər,
Qanadları al oldu,
Al rəngdən xal-xal oldu.
Keçdi meyvə bağından,
Keçdi göy qurşağından.
Qonanda bir budağa,
Gördü yatır bir Qarğa.
Qorxub bu yerdən qaçdı,
Qarğa gözünü açdı.
«Bu kimdir, eh, Kəpənək,
Qoymaz yataq, dincələk?!»
Deyindi hirsli, dilxor,
Yatdı yenə də xor-xor.
Kəpənək uça-uça,



Yamyaşıl, böyük, uca
Bir ağaca yan aldı,
Ağaca heyran qaldı.
Çünki o, güclü, möhkəm,
Əzəmətli, möhtəşəm...
Kəpənək gah dayandı,
Gah ağacı dolandı.
Rəng aldı budaqlardan,
Rəng aldı yarpaqlardan.
O, rəngi rəngə qatdı,
Uçdu, çəmənə çatdı.
Rəng-rəng yanırdı çəmən,
İşıqlanırdı çəmən.
Gəldi Qarğanın səsi,
Düşdü qara kölgəsi.
Çəmənə baxdı Qarğa,
Özündən çıxdı Qarğa.
Birdən itdi Kəpənək,
Hara getdi Kəpənək?!
Gözəl güllər içində
Gül tək bitdi Kəpənək.
«Hara baxıram çiçək,
Necə oldu Kəpənək?!
Çəmən üstə ensə də,
Gül kimi gizlənsə də
Mən onu görəcəyəm,
Vayını verəcəyəm.
Eh, elə rəngdir işi,
Bəzək-düzəkdir işi.
Rəng içindədir özü,
Yenə də doymur gözü.
Əlimdən qaça bilməz,
Heç yerə uça bilməz».
Kəpənək çox şən idi,
Məskəni gülşən idi.

Şüa qızıl bir nizə,
Sancılmışdı nərgizə.
Nərgiz dedi: «Kəpənək,
Buyur, qonaq gəl bizə».
Nərgiz—gözəl, ağ, sarı,
Əyildi ona sarı.
Hər çiçəkdən təzə rəng
Götürürdü Kəpənək.
Güllərə qona-qona,
Girirdi dondan dona.
Onu öpdü dağ gülü,
Bu dağların ağ gülü.
Al qırmızı qərənfil
Yanan közdü elə bil.
Ağı bir ovuc bulud,
Uzat, əllərində tut.
Dolçaya bənzər zanbaq
Başdan-başa ağappaq.
Kəpənək gülə-gülə
Qonanda qızılgülə
Köz-köz yanıb utandı
Güllərin ən incəsi.
Yuxusundan oyandı
Onun körpə qönçəsi.
Qönçə—kiçik dan yeri,
Şəfəq-şəfəq açıldı,
Qızılı ləçəkləri
Vərəq-vərəq açıldı.
Baxa-baxa çəmənə
Qarğa uçurdu yenə.
Hardadır bu Kəpənək,
Mən onu tapım gərək.
Harda olsa, mən gedim,
Tapıb onu məhv edim».
Kəpənək gülə qondu,
Heyrətdən yenə dondu.



Qarğadan heç qorxmadı,
Ona sarı baxmadı.
Zərif çiyinlərində
Ətirli rəng daşıdı,
Bu dünya üzərində
Azad, xoşbəxt yaşadı.
Bu çəməndə bircə rəng
Gözdən kənar qoymadı,
Özü gəzəl Kəpənək
Gözəllikdən doymadı.
Elə ki, güllər soldu,
Kəpənək də yox oldu.
Bitdi ömür karvanı,
Ancaq dünya yaşadı,
Az olsa da, dünyanı
Duya-duya yaşadı.
Gəzdi, gördü hər yeri,
Duydu gözəllikləri.
Güllər həyatı oldu,
Ruhu, qanadı oldu.
Qarğa yenə yaşayır
Öz qara plaşında,
Elə hey qarıldayır
Qoz ağacı başında!

## MEŞƏDƏ ZAVOD

***"KƏPƏNƏK GÖZƏLLİYİ" kitabından***

I

Meşə...
Uca ağaclar,
Burda böyük zavod var.
Ağaclar arasından
Göyə qalxır Bir qüllə,

Qüllə başında şölə,
Sanki
Göyün üzündə
Yanır bir topa lalə.
Dərinlikdən uzanan
Tək bir cığır
Görünür.
Cığır gedir,
Ağarır,
Bir arx kimi sürünür.
Nə səmir var,
Nə də səs,
Kim olur zavodda bəs?1
Zavodu
Tərk edən yox,
Bura gəlib gedən yox...
Cığır
Qol-qanad atır,
Getdikcə baxın ona,
Gəlib,
sürünüb çatır
Zavodun qapısına.
Qapı yanında
Bir şir,
Sağa-sola gəzişir.

2

Kürən,qara, ağ
Bir dəstə oğlaq
Hamısı zirək,
Hamısı qoçaq...
Atılıb-düşüb
Şənlənirdilər,
Oynayıb, qaçıb
Əylənirdilər.



Gülən, sevinən
Bu oğlaqların
Oddu nəfəsi,
Çoxdu onlarda
Görmək həvəsi,
Gəzmək həvəsi.
Meşə gördülər,
Cəld yüyürdülər.
Sehrli gəldi
Onlara meşə,
Gözəldi burda
Hər yan, hər guşə.
Getdi oğlaqlar,
Getdi qoçaqlar,
Dərin meşədə
İtdi qoçaqlar.
Keçib hər yerdən,
Görəndə birdən
Zavodu onlar,
Dayanıb, baxıb
Şad oldu onlar.
Gələndə yaxın:
—Aman... Şir... baxır
Deyərək biri,
Göstərdi şiri.
Dayansalar da
Bu şən oğlaqlar,
Heç qorxmadılar
Şirdən qoçaqlar.
Birdən dedi şir:
— Fikriniz nədir?!
Zavodu görmək
İstəyirsiniz,
İcazə gərək
Alasınız siz.

— İcazə?!
Kimdən?
Niyə icazə?!
İnanmırsınız
Yoxsa ki, bizə?!
Qəzəbləndi şir,
Tez dilləndi şir:
Hörmət var bizdə
Qonaq gələnə,
Gedin, görünün
Ağacdələnə.
Hər şeyi bilən
Bir ağacdələn
Dartıb özünü
Dəstəyi aldı,
Süzüb gözünü
Filə zəng çaldı.
— Qonaqlar gəlib,
Oğlaqlar gəlib.
Zavodu gəzmək,
Zavodu görmək
İstəyir onlar,
İcazə olar?!
Fil dedi bərkdən,
— Hə, razıyam mən...
Susdu bu ara,
— Şərtimi ancaq
Deyin onlara.
Hay-küy salanlar,
Dəcəl olanlar
Edilsin kənar!
Baxdı oğlaqlar
Biri-birinə,
Baxdı qoçaqlar
Biri-birinə.



Bir oğlaq vardı
Balaca, gözəl,
Ancaq çox şuluq,
Ərköyün, dəcəl.
Oyun açardı,
Baxmazdı sözə,
Elə qaçardı
Çəmənə, düzə.
Xalına görə
Xallıydı adı.
Nəyisə duyub
Sakit olmadı
Dimdik saxlayıb
Qulaqlarını,
Yerə bərk vurdu
Ayaqlarını.
Yalvardı:—Mə, mə...
Söz verirəm, mən...
Söz verirəm ki,
Dəcəl olmayım,
Səs-küy salmayım.
Oğlaqlar baxdı
Biri-birinə,
Qoçaqlar baxdı
Biri-birinə.
Yenə də Xallı
Yalvardı:—Mə, mə...
Söz verirəm, mən!
Cəld ağacdələn
Dartıb.özünü
Dəstəyi aldı,
Süzüb gözünü
Şirə zəng çaldı:
— Aç qapıları
Qonaqlar üçün,

Aç qapıları
Oğlaqlar üçün!
Xallı gah qorxdu,
Gah da büzüşdü,
İndi sevindi,
Atıldı, düşdü.

4

İrəliyə
Qaçdı şir,
Qapıları açdı şir.
Çəkilib
Bir kənara,
Yol verdi oğlaqlara.
Balaca, gözəl,
Ərköyün, dəcəl
Oğlaq xəyala daldı,
Buna görə də
Bir az geriyə qaldı.
Birdən ayılan kimi,
Cumdu irəli,
Qorxub
Elə cumdu ki,
Oldu gülməli.
Qapıdan keçib,
Girən kimi içəri,
Doldu sevinclə
İri, qəşəng gözləri!
Geniş,
Böyük
Bir həyət,
Hamıda doğdu heyrət.
Hara baxırsan
Krandır, kran,
Gah yük qaldıran,
Gah yük aparan.



Böyük həyətdən
Keçir maşınlar,
Keçir vaqonlar,
Bircə an belə
Dayanmır onlar...
Maşın gələndə
Çaşdı oğlaqlar,
Qatar gələndə
Qaçdı oğlaqlar...
Yaman itirdi
Xallı özünü,
Qorxu içində
Döydü gözünü.
Hamı öz yerindəydi,
Hər kəs bir iş görürdü,
Əlində bir süpürgə
Dovşan yer süpürürdü.
Tülküyə, bax,
Tülküyə,
Tülkü maşın sürürdü.
Qaçırdı qarışqalar,
Onlarda dağ gücü var.
Burda yaşayırdılar,
Boru daşıyırdılar.
Fınxırıb gəldi donuz,
İşlər getmirdi onsuz.
Dik tutaraq
Burnunu,
Yerə saldı borunu.
Söylədi canavara:
— Dostum, gəzmə avara.
Kömək elə sən barı,
Gəl, daşı boruları.
Canavar qaçdı, getdi,
Onlara kömək etdi.

Baxıb seyr edirdilər
Oğlaqlar hər bir yeri,
Böyümüşdü onların
Heyrətindən gözləri.
Bu zaman,
Nə olub, aman!
Oğlaqların üzündə
Doğdu təlaş,
Həyəcan!
Çünki Xallı itibdir,
Görən,
Hara gedibdir?!
Yolunu çaşbaş salıb,
Harda, ləngiyib qalıb?
Bu Xallı
Hanı, hanı,
Axtardılar Xallını.
Birdən-birə kəsildi
Maşınların arası,
Gördülər ki,
Kenquru
Sürür əl arabası.
Gördülər,
Arabada
Əyləşib bizim Xallı,
Ancaq bir az
Kədərli,
Düşüncəli,
Xəyallda,
Səsləyən kimi onu
Xallı atılıb düşdü,
Dostlarının yanına
Qaçıb bir-bir görüşdü.
Təmkinlə,
Aram-aram



Bu vaxt çölə
Çıxdı fil,
Xortumunu
Uzadıb
Oğlaqlara baxdı fil.
Dedi:
—Ay qonaqlar,siz,
Bizə xoş gəlmisiniz!

5

Başqa bir şöbə,
Sobada şölə.
Gözündə eynək,
İşləyir inək.
Buzovlar ona
Eləyir kömək.
Böyük zavodda
İldırım çaxır,
Poladdır odda,
Su kimi axır...
Qablara dolur
Günəşin nuru
Soyuyub olur
Uzun bir boru.
Ayılar gəlir
Onları bir-bir
Aparıb gedir.
Xallı söhbətə
Tutdu inəyi,
Aldı hörmətlə
Ondan eynəyi.
Sevinib dərhal
Gözünə taxdı,
Əriyən, axan
Polada baxdı.

Elə bildi ki,
Qızıldır axır,
Sehrli, gözəl
Nağıldır, axır...
Hər oğlaq gəlib
Eynəyi taxdı,
Axan qızıla,
Axan nağıla
heyrətlə baxdı.
Xallı istədi
Gedə yaxına,
İnək hirslənib,
Qışqırdı ona:
— Külə dönərsən
Yaxına getsən,
Qovaram,bir də
Dəcəllik etsən...
İtirdi yenə
Xallı özünü,
Qorxu içində
Döydü gözünü...

6

Bu zavodun yanında
Kiçik bir sex də var.
Bu sexdə oğlaqlar
Gördülər oyuncaqlar.
Dovşan,
Zürafə,
Ayı,
Güzgü,
divan,
çarpayı.
Çəkicə,
mişara bax,



hələ göydə şara bax!
Nəlbəki,
Vedrə,
Qazan,
Paltar tikən, yer qazan,
Taxıl biçən maşınlar,
At-araba sürənlər,
Od-alov söndürənlər.
Atlar, pişiklər, itlər,
Rəngbərəng,
Gözəl iplər.
—Bizə söyləyin barı,
Kim görür bu işləri?!
Göstərib quzuları,
Göstərib çəpişləri,
Fil dedi:—Baxın, onların
Qızıldan əlləri var.
— Kuklalar nə gözəldir,
Onları kim düzəldir?
Oturmuşdu yan-yana
Bir neçə maral, ceyran.
Baxırdılar hər yana
Oğlaqlar heyran-heyran...
– Baxdı, fərəhlə baxdı
Xallı oyuncaqlara,
Güldü, şənliklə baxdı
Sonra da oğlaqlara.
Onlardan biri dedi:
— Ay Xallı, Xallı, Xallı,
Gəlin, oynayaq yallı...
Xallı bu sözə bənddi,
Yerindən nə tərpəndi...
Əl-ələ, gülə-gülə
Elə şənlik etdilər,
Gözəl yallı getdilər.

7

Fil söylədi: — hər oğlaq,
Götürsün bir oyuncaq.
Bu qəribə zavodu
Gəzmək fərəhli oldu.
Ayrılanda dedi fil:
— Bura sizə yad deyil.
Göz üstə yeriniz var,
Tez-tez gəlin, oğlaqlar!

## QƏHRƏMAN

***"KƏPƏNƏK GÖZƏLLIYI" kitabından***

Əmək qəhrəmanı Sərdar İmrəliyevə ithaf

Gəzin bizim diyarı,
Kim tanımır Sərdarı?!
Sərdar elə qəhrəman,
Adı dillərdə dastan.
Onun bu zəhmət yolu,
Hünər, zəfərlə dolu!
O, elə adidir ki,
O, elə sadədir ki,
Elə gülər, mehriban,
Deməzsən ki, bu insan
Qəhrəmandır, qəhrəman!
Sevməz çox danışmağı,
Coşub-aşıb daşmağı.
Gözəl xasiyyəti var,
Sakit təbiəti var.
Boyu bir az gödəkdir,
Ancaq enlikürəkdir.
Baxar utancaq kimi,



Sadəlövh uşaq kimi,
Belə adi bir insan,
Necə olub qəhrəman?!
Özünə inamı var,
Həvəsi, ilhamı var.
Çox möhkəmdir qanadı,
İradəsi, inamı!
Nə hirsli, nə kinlidir,
Həmişə təmkinlidir.
İşdə keçər hər günü,
Gözə soxmaz özünü.
Heç vaxt qabağa verməz
Orden dolu döşünü.
Boş yerə dalğalanmaz,
Heç zaman lovğalanmaz.
Kobud söz deməz, Sərdar,
Ürəyə dəyməz, Sərdar.
Hamıya mehribandır,
O,belə qəhrəmandır.
Zərif pambığın
Çox qayğısı var,
Torpağa sanki
Anadır, Sərdar,
Atadır, Sərdar.
Hər vaxt göz qoyar
Cücərməyə də,
Seyrəltməyə də,
Becərməyə də!
İşdən, torpaqdan
Ayrılmaz Sərdar,
Heç vaxt, heç zaman
Yorulmaz Sərdar.
Torpağa meyl salıb,
Torpağa sadiq qalıb.
Gah isti, gah sazaqdır,

Çalışıb bu torpaqda.
Ona güvənib ancaq
Ucaldıb onu torpaq!
Sir-sifəti qaralıb,
Günəş rəngini alıb.
Özü həlim olsa da,
Çox mülayim olsa da,
Möhkəmdir, mərddir Sərdar,
Dağ kimi sərtdir, Sərdar.
O, həm yaxşı insandır,
Həm yaxşı qəhrəmandır!
Sanki qar yağıb,
Ağardıb yeri,
Buludla dolub
Pambıq çölləri.
Yanır Sərdarın
Şimşək əlləri,
Yeriyən qaya
Kimidir maşın,
Bulud toplayan
Gəmidir maşın.
Maşın pambığı
Sürətlə yığır,
Yaman istidir,
Göydən od yağır.
Sərdarsa ancaq
Görür işini,
Bu ağ dənizdə
Sürür maşını.
Sükandan möhkəm
Tutub əlləri,
Qurtarmaq bilmir
Pambıq çölləri.
Üfüq saralır,
Sərdar yorulmur,



Hava qaralır,
Sərdar yorulmur.
Maşınla yenə
Keçir çölləri,
Yanır sükanda
Şimşək əlləri!
Yaraşıqlı bir otaq,
Otaq dopdolu uşaq!
—Ata, təzə kitab al.
—Yaxşı, qızım, alaram.
—Mənə təzə, güllü şal.
—Yaxşı, qızım, alaram,
—Yoxdur mil-mil dəftərim.
—Yaxşı, qızım, alaram.
—İtib sarı kəmərim.
—Yaxşı, oğlum, alaram.
—Ata, sənə çalım saz,
Çalım, sən də qulaq as...
Oğul gözəl saz çalır,
Atası heyran qalır.
Bir uşaq şəkil çəkir,
Bir uşaq çiçək əkir.
hər ikisi bunları
Atasına göstərir.
Yaraşıqlı bir otaq,
Otaq dopdolu uşaq!
Düz on iki uşaqdır,
Hamısı da qoçaqdır.
Ana—sadə, mehriban,
Sərdar kimi qəhrəman!
Onun da ulduzu var,
Ulduzlar qoşa parlar.
Sərdar əsgərdir, əsgər,
Bir orduya bərabər.
Yenə nəfəsi güclü,

Yenə həvəsi güclü!
Yenə odlu, işgüzar,
Yenə mətin, fədakar.
Yenə heç vaxt yorulmaz,
İşindən razı qalmaz.
Yenə bu yerə bağlı,
Gözəl çöllərə bağlı!
Yenə sadə, mehriban,
Odur əsl qəhrəman!

## SEHRLİ MEŞƏBƏYİ

1

Böyük, qalın sıx meşədə
Yaşayır bir meşəbəyi,
Sehrlidir
Həm bədəni, həm ürəyi...
Sehrlidir əli, gözü,
Başdan-başa elə özü...
Yaranmışdır
Ayaqları
budaqlardan,
Qulaqları
yarpaqlardan.
Bir yuvadır başı onun,
Otlardandır qaşı onun.
Burnu qəşəng
bir göbələk!
Bığları var; sallaq, uzun,
Sünbül-sünbül,
yosun-yosun.
Meşədəki ocaq gözü
Sönməz olub
Əvəz edir iki gözü.



Şişən qarnı
ona yükdür,
Diqqətlə bax,
Görəcəksən bir kötükdür.
Çay daşı tək
Yastı, uzun çənəsi var,
Budaqlardan
Xizək kimi çəkməsi var.
Tikan-tikan darağı var,
Yarpaq-yarpaq,
Xəzəl-xəzəl papağı var.
Çiyinləri qaya-qaya
Belə gəlib bu dünyaya.
Nəfəs alıb
Dərin meşə dərəsindən,
Paltar geyib
Ayı, tülkü dərisindən.
Çox böyükdür,
Adi evə girə bilməz,
Bu meşədə
Çoxu onu görə bilməz.
Gecə-gündüz
Gəzir payız, bahar, yay, qış,
Başdan-başa
Bu meşəni qarış-qarış.
Keçən zaman
Yarğanlardan, yamaclardan,
Seçmək olmur
Onu yaşıl ağaclardan.
Gəzir, gəzir,
Dinclik bilmir, yuxu bilmir,
Təlaş bilmir,
Hürkü bilmir, qorxu bilmir...
Bağlıdır bu meşə ilə
Həm arzusu, həm diləyi.

Sehrlİ bir ömür sürür
Bu sehrli meşəbəyi.
Sehrlidir od əlləri,
Sehrlidir əməlləri.

2

Meşəbəyi harda qalır,
Harda yatıb yuxu alır?!
Hər yan yaşıl, hər yan mavi,
Bu meşədə hanı evi?
Bu evi də sehrlidir,
Həm heyrətli, həm sirlidir.
Tələsməsən, aram-aram
Səni ora apararam.
Bax, bu cığır... gedir, gedir,
Dərinlikdə birdən itir.
Seyr edərək dörd yanını,
Deyəcəksən:—Bəs ev hanı?
Bir tərəfi fıstıqlıqdır,
Bir tərəfi qızıllıqdır.
Yaşıllığın içinə gir,
Görəcəksən cığır gedir.
Gedir, gedir, bir həyətdə
Bir bağçada tamam bitir.
Bağça elə rəngbərəngdir,
Başdan-başa gül-çiçəkdir.
Meşəbəyi özü salıb,
Qayğısına özü qalıb.
Qəribədir, bağça qış-yaz,
Şəfəqlənər, ancaq solmaz.
Baxsan yenə dörd yanına,
Nə koma var, nə də bina.
Sağ tərəfdə kol-kos, tikan,
Burdan qalxır bir pilləkan.
Əyib yaşıl budaqları



Pilləkanla çıx yuxarı!
Birləşibdir neçə budaq
Yaradıbdır yaşıl otaq.
Çox qəribə mənzərə var,
Qapı, dəhliz, pənçərə var.
Qapı yaşıl, divar yaşıl,
Bu otaqda nə var yaşıl.
Çarpayı da yaşıl rəngli,
Naxış-naxış, gül-çiçəkli...
Döşək mamır, balınc mamır,
Bura ancaq şəfəq damır.
Pəncərədə pərdə vardır,
Naxış-naxış yarpaqlardır.
Tavana bax—tavan yaşıl.
Eyvana bax—eyvan yaşıl.
Hər tərəfdə yarpaq, çiçək
Nə xəncər var, nə də tüfəng.
Onun bircə yarağı var,
Toppuz başlı çomağı var.
İşi yoxdur yar-yaraqla,
Elə gəzir bu çomaqla.
Dostdur yarpaq, budaq ona,
Bütün meşə otaq ona.
Bu meşənin qucağında,
Yaz çağında, qış çağında
Ömür sürür meşəbəyi
Öz sehrli otağında.

3

Meşəyə bax:
Budaq-budaq,
Yarpaq-yarpaq.
Yerdə xəzəl
Necə gözəl.
Otlu cığır.

Hara çıxır?
Aşağı göy,
Yuxarı göy,
Ha baxırsan
Görünmür göy.
Meşə sərin,
Meşə dərin.
Budaq düşür
Budaq üstə,
Yarpaq düşür
Yarpaq üstə.
Birdən itir
Haça yollar,
Öndə bitir
Qalın kollar.
Bir hasardır
Keçmək olmur,
Nə kollardır
Seçmək olmur.
Açıq, sarı
Nur zolağı
Bölüb yarı
Bir zoğalı.
Ağac duyub
Sığalları,
Bir-bir qoyub
Sırğa-sırğa
Zoğalları!
Meşəyə bax:
Budaq-budaq!
Al şüalar
Zolaq-zolaq
Yamacları
Saçır ətir,
Ağacları



Çətir-çətir.
Uzaqlardan,
Budaqlardan
Duman axar,
İz buraxar.
Axar ancaq
Bizə sarı,
Gətirər ağ işıqları.
Ətraf qəşəng
Ahəng alar,
Çiçək-çiçək
Ağ rəng alar.
Göyə-yerə
Ətir yayar,
Qətrə-qətrə
Şeh paylayar.
Axar, axar
Süd köpüyü
İz buraxar,
Olmaz küyü.
Yavaş-yavaş
Keçib gedər,
Gedər birbaş,
İtər, itər...
Meşəyə bax:
Yamac-yamac,
Ağac-ağac...
Sağda böyük
Yoğun kötük,
Tək qalıbdır,
Qaralıbdır.
Böyük dəstə
Bura çatıb,
Kötük üstə
Ocaq çatıb.

Gövdəsində
Mamır yeri,
Sinəsində
Pöhrələri.
Çəkər fəryad
Sınan budaq,
Özünü yad
Sanan budaq.
Sınıb ancaq,
Başqasına
Olub dayaq.
Həm ucalır
Nəhəng cökə,
Həm az qalır
Yerə çökə.
Bığıburma
Bir babadır.
Güldür... amma
Bir topadır.
Gəlir bir səs,
Yoxdur heç kəs...
Diqqətlə bax:
Hər yan budaq,
Hər yan yarpaq...
Ucalır səs,
Kəsilir səs,
Bu, kimdir bəs?!
Eşib yeri,
Xəzəlləri
Xışıldadan,
Göz aldadan
Qara quşdu,
Birdən uçdu.
İtmə gözdən,
Küsmə bizdən,
Baxma belə



Soyuq-soyuq,
Qaratoyuq.
Qaratoyuq.
Bir qayanı,
Dörd bir yanı
Tutub mamır,
Sular damır.
Aç ovcunu
Doldur onu.
Necə sudur,
Qış buzudur!
Yaşıl mamır
Naxış-naxış,
Yağış yağır,
Yağır yağış.
Naxışlardan
Su süzülür,
Baxışlardan
Nur tökülür.
Bu meşənin
Çıxır üzə
Cəngəlliyi,
Təzə-təzə
Gözəlliyi.
Bu meşədə
Qala da var,
Tala da var.
Nə füsunkar
Cənnət tala,
Min-min gül var,
Dər, topala,
Gözəl qalar
Yenə tala.
Meşə böyük,
Bölük-bölük.
Meşə—sonsuz,

Meşəbəyi
Qalmır onsuz.

4

Meşəbəyi
Səhər-səhər çıxdı yola,
Solğun-əzgin
Yarpaqları yola-yola...
Çomağıyla
Qırdı, tökdü alaqları,
Təzə-təzə
Cığır saldı ayaqları.
Birdən durdu,
Çox uzaqdan səs eşitdi,
Dayanmadan
Səsə doğru çıxdı getdi.
Getdi, getdi,
Budaqları əyə-əyə,
Yuva başı
Yarpaqlara dəyə-dəyə.
Mişar səsi
Çatan kimi qulağına,
Şimşək kimi
Sürət verdi ayağına,
Nərildəyib
Bir şir kimi çəkdi nərə,
Axdı bu səs
Dalqa-dalğa, dərə-dərə.
Tufan kimi
Bütün meşə guruldadı,
Səda verib
Ağac-ağac uğuldadı.
Vələs kəsən
Bir odunçu qəmə batdı.
Mişarını,



Baltasını kola atdı.
Baxa-baxa
Ehtiyatla sola-sağa,
Qorxa-qorxa
Gəlib çatdı bir bulağa.
Düşündü ki,
İndi gəlsin meşəbəyi,
Bilə bilməz,
Başa düşməz bu kələyi.
Gəlsin görək,
Mişar hanı, balta hanı,
Tapa bilər
Nə mişarı, nə baltanı.
Birdən... birdən...
Düşdü onun... gup... ürəyi,
Qarşısında
Dayanmışdı meşəbəyi.
Elə baxır,
Nə dinir, nə danışırdı,
Ancaq gözü
Qəzəbindən alışırdı.
«Nə baxırsan,
Yoxdur gəzmək ixtiyarım?!
Görmürsən ki,
Nə baltam var, nə mişarım».
Yenə dinmir,
Meşəbəyi elə baxır,
Gözlərindən
Dilim-dilim alov çıxır.
Bu alovlar
Yana-yana deyir açıq:
«Hər kimsənsə
Bu dəqiqə meşədən çıx!»
Kömür kimi
Olur onun qanı qara,

Dözə bilmir
Alov saçan baxışlara.
Qəm içində
Çıxıb gedir, çatır yola,
Elə baxır
Mişar, balta qalan kola...
Gedir,ancaq
Yarı canı burda qalır,
Meşə bitir, birdən onu...
Birdən onu heyrət alır.
Kollu-koslu,
Gicitkanlı yol kənarı,
Görür burda
Həm baltanı, həm mişarı.
Üzərində
Yazılmışdı neçə kəlmə:
«Bu meşəyə
Bir də gəlmə, bir də gəlmə!»
Əl vurmadan
Baltasına, mişarına,
Dönüb baxdı
Bir də meşə yollarına.
Birdən... aman...
Yenə düşdü gup... ürəyi
Çox uzaqda
Dayanmışdı meşəbəyi.

5

Baxsın deyə sübh çağına,
Sübh çağında otağına
Meşəbəyi oyanmışdı,
Pəncərədə dayanmışdı.
İtir kömür qaranlığı,
Yaranır rəng əlvanlığı.
Qara rəngin hökmü bitir,



Yavaş-yavaş itir, gedir...
Yarpaqların arasından,
Budaqların arasından
Ağ rəng gəlir göyə-yerə,
Aydınlaşır birdən-birə
Hər yarpaq da, hər budaq da,
Aydınlaşır bu otaq da.
Meydan alır yaşılla ağ
Olur gözəl, olur parlaq!
Meşə uçur quş səsindən,
Sübh çağının nəfəsindən.
Yarpaq gülür, budaq gülür,
Hər tərəfdən nur süzülür.
Yaşıl donlu bu dənizə,
Nur süzülür nizə-nizə.
Tavan üstü dolur zərlə,
Muncuq-muncuq şəfəqlərlə...
Meşəbəyi ürəyində,
Arzusunda, diləyində
Duya-duya sübh çağını,
Tərk eləyir otağını...
Meşə boyu sübh işığı,
Sübh çağının süd işığı...
Gedir, gedir, duya-duya
Gözəlliyi, yaraşığı.

6

Batıb dərə
Çiçəklərə.
Qızlar gələ,
Çiçək dərə.
Yoxuş-eniş,
Uzun, geniş
Yamacı var,
Ağacı var...

Zoğ-zoğ qalxan
Neçə tikan,
Gah baldırqan,
Gah kicitkan...
Kollar, kollar,
Çarpaz yollar...
Yarpağa bax,
Budağa bax,
Döşdə axan
Bulağa bax!
Axır suyu
Yaşıl-yaşıl,
Dərə boyu
şırıl-şırıl.
Sudan çiçək,
Gül yaranıb.
Sağda qəşəng
Kol yaranıb.
Kol elə saf,
Elə gömgöy,
Yerdə şəffaf
Bir parça göy..
Burdan qartal
Keçib gedir,
Burdan maral
İçib gedir.
Bu göl—güzgü
Gəlir tülkü,
Gülə-gülə
Dovşan, dələ.
Tələs cüyür,
Gölə yüyür.
Üzünə bax,
Özünə bax,
Qaragilə



Gözünə bax!
Gözəl cüyür,
Su iç, yüyür!
Bu dərədən,
Bu bərədən
Min yol keçib
Meşəbəyi,
Göldən içib
Meşəbəyi.
Bu dərəni
Tapıb seçib
Meşəbəyi.
Gülə-gülə
Gəlib belə,
Dostu olub
Dovşan, dələ!
Bir yaralı
Qaranquşa
Qanad verib
Meşəbəyi,
Neçə quşa
Həyat verib
Meşəbəyi!

7

Mən danışım indi sizə
Çox maraqlı bir hadisə.
Meşəbəyi
Axşam çağı evə dönür,
Evə çatıb
Yekəpər bir ayı görür.
Görür ayı
Turşudub qaş-qabağını,
Ufuldayıb
Qaldırır sol ayağını.

Meşəbəyi
Əvvəl-əvvəl qorxur bir az,
Ançaq ayı
Bir mənasız oyun açmaz.
Birdən... birdən...
O, tanıyır bu ayını,
Xatırlayır
Keçən ilin yay ayını.
Qalxan zaman
Yavaş-yavaş bir yoxuşu,
Həmin ayı
Göstərmişdi bir koğuşu.
Koğuşda bal!
Can dərmanı; şəffaf, duru,
Tökülmüşdü
Sanki bala günəş nuru.
Bal deyirəm,
Həm də cökə çiçəyindən,
Dadlısından, göyçəyindən.
O, ayıya
Rast gəlmişdi neçə dəfə,
Ayı hər vaxt
Yol almışdı bir tərəfə.
İndi isə...
Ayağını sıxır ayı,
Ona sarı
Yazıq-yazıq baxır ayı.
Meşəbəyi
Heyrət edib fikrə cumur,
Başa düşür:
Ayı ondan kömək umur!
Ancaq bilmir
Necə kömək etsin ona,
Axı görən
Nə olubdur ayağına?!



Yaxınlaşır
Çıxarıb cib bıçağını,
Tutur şişən,
İrin basmış ayağını.
Vaxt itirmir,
Şişi deşir, bir də görür,
Ayı bərkdən
Gah dartınır, gah böyürür.
Gah sıxılır,
Gah yığılır yumaq kimi,
Göz yaşları
Tökür ayı uşaq kimi.
Başa çatır
Elə ki, bu əməliyyat,
Nəfəs alır
Sakit-sakit, rahat-rahat!
Sonra qalxıb
Yavaş-yavaş gedir ayı,
Ağacların
Arasında itir ayı.
Arxasınca
Durub baxır meşəbəyi,
Gülümsünüb
Evə qalxır meşəbəyi.

8

Gəzər yenə
Dönə-dönə
Bu meşəni,
Bu gülşəni
Meşəbəyi,
Meşə onun
Nəfəsidir,
Meşə onun
Nəvəsidir.

Gələndə yaz
Geyər atlas.
Yayda yaşıl,
Payızdasa
Geyər qızıl.
Qışda görər
Yağan qarı,
Dərhal geyər
Ağ paltarı.
Gəlsə tufan,
Şaxta, boran,
Oyaq olar,
Dayaq olar,
Budaqlara
Dayaq olar!
Nə yorular,
Nə də bezər,
Meşəbəyi.
Butün günü
Gəzər, gəzər
Meşəbəyi.

9

Kiçik tala çox qəşəngdir,
Başdan-başa gül-çiçəkdir.
Qayıq kimi neçə kötük,
Üzərində yaşıl örtük.
Gəl bu yerə, buyur, əyləş,
Tez-tez qonaq olur günəş!
Bığlarını bura-bura
Meşəbəyi gəlir bura.
Cüyürə bax!
Qaça-qaça
Gəlir onun arxasınca.
Necə zərif, necə qəşəng



Gözü muncuq, tükü ipək.
Cüyür gəzir dörd bir yanı,
Nə qorxusu, həyəcanı...
Meşəbəyi deyir ona:
—Gözəl cüyür, gəl yaxına!
Bu sözünü başa düşür,
Yaxın gəlir ona cüyür.
O, cüyürü doğma sayır,
Kürəyini sığallayır.
Təbiətə vurğunluğu
Unutdurur yorğunluğu.
O, dincəlir bu talada,
Cana gəlir bu talada.
Heyran qalır gözəllikdən,
Qüvvə alır gözəllikdən.
Bu cüyürlə əylənir o,
Sevinir o, şənlənir o,
Qucaqlayır gah boynunu,
Gah gözündən öpür onu.
— Bəsdir, cüyür,
İndi yüyür!
Dil anlayıb qanad açır,
Cüyür qaçır, cüyür qaçır.
Üzüb, dərib bir çiçəyi,
Qoxulayır meşəbəyi.
Yerə baxır, göyə baxır,
Durub yenə yola çıxır,
Yenə ətir saçır meşə,
Qucağını açır meşə!

10

Bu meşəylə
Kəndə sarı bir qız getdi,
Birdən-birə
Dərinlikdə cığır itdi.

Dönüb baxdı,
Gəzdi sağı, gəzdi solu,
Tapa bildi
Nə cığırı, nə də yolu.
Qaş qaraldı,
Hava soldu, axşam oldu,
Tənha qalan
Qızcığazın gözü doldu.
Bir yaralı
Quşa dönüb
Qəmə batdı,
Böyük palıd
Koğuşuna
Girdi, yatdı
Yoxdu qorxu
Həyatında,
Yatdı yuxu
Qanadında.
Burdan ötdü
Meşəbəyi,
Qızı gördü
Meşəbəyi.
Heyran-heyran
Baxdı qıza,
Yerdə yanan
Bu ulduza.
Soyuq olar
Qorxdu ona,
Sığal çəkdi
Saçlarına.
Yuxu bu an
Şirin oldu
Bu tumardan
Dərin oldu.
Meşəbəyi
Dayansa da sükut kimi,



Açdı birdən
Qollarını bulud kimi.
Yatmış qızı
Alıb bulud qollarına,
Asta-asta
Çıxdı meşə yollarına.
Səhər tezdən
Yuxusundan oyandı qız,
Heyran-heyran
Ətrafına boylandı qız.
Öz otağı...
Çarpayısı... yorğan-döşək...
Hər şey rahat,
Hər şey gözəl, təmiz, qəşəng!
Hanı meşə,
Hanı palıd, hanı koğuş?!
Kim gətirib?!
Bütün bunlar necə olmuş?!
Niyə görən
Oyanmadım?!
Bu, necə sirr?
Evə məni
Axı kim, kim gətirmişdir?!
Anasından
Öyrənəndə həqiqəti,
Yenə onun
Böyük oldu bu heyrəti.
Xilaskarı
O fədakar meşəbəyi,
Xilaskarı o sehrkar meşəbəyi!

11

Düşür axşam qaranlığı,
İtir rənglər əlvanlığı.
Meşə üstü gah qızarır,
Gah saralır, gah bozarır,

Duman kimi boz rəng qalır,
O da başqa bir rəng alır.
Bu rəng tutur göyü, yeri,
Meşəbəyi dönür geri.
Əgər onu saxlasalar,
Gözlərini bağlasalar
Nə sıxılar, nə darıxar.
Yenə gəlib evə çıxar.
Çox tanışdır bu yol ona,
Hər iz, ağac, hər kol ona.
Axşam evə dönür geri,
Yenə qalxır pillələri.
Ulduz-ulduz çırağı var,
Köz-köz yanan ocağı var!
Budaqlardan divanı var,
Yarpaqlardan yorğanı var.
O, uzanır yatsın deyə,
Birdən işıq düşür göyə.
Öz yerindən qalxır dərhal,
Pəncərədən baxır dərhal.
«Bu işıqdır belə yanır,
Yoxsa ocaq alovlanır?»
Meşəbəyi dinir çılğın:
«Birdən... birdən düşər yanğın»
Seyr etdikcə dörd bir yanı,
Artır onun həyəcanı.
Az qalır ki, qanad aça,
Aça, qaça, ya da uça!
Gedir, əyib budaqları,
O işığa, oda sarı.
Həyəcanı boğa-boğa,
Gəlib çatır Daşbulağa.
Nə görürsə, heyrətlənir,
Heyrətlənir, hiddətlənir.
Görür yanır neçə ocaq,



Yanır kötük, yanır budaq.
Axır alov dalğa-dalğa,
O budaqdan, bu budağa.
Yaxınlaşır yamaclara,
Yaxınlaşır ağaclara
Meşəbəyi heyrətlənir,
Heyrətlənir, hiddətlənir.
Belə getsə, təhlükə var,
Başdan-başa meşə yanar.
Yüyürür ki, oda sarı
Tutsun, boğsun alovları.
Cəld söndürür ocaqları,
Qırır yanan budaqları.
Köməyinə çatır bulaq,
Gah su tökür, gah da torpaq.
Yerə vurub ayağını,
Kəsir odun qabağını,
Novdan yenə su çiləyir,
Dönə-dönə su çiləyir,
Elə çəkir qılıncını
Söndürür hər qığılcımı.
Hər tərəfə baxıb gedir,
Yorğun-arğın çıxıb gedir.
Gedir, güclə evə çatır,
Dözə bilmir, dərhal yatır.
Bir də durur səhər erkən,
Başı üstə yaşıl yelkən...
Görür meşə oyandıqca,
Əlvan rəngə boyandıqca
Təravətli, nəğməlidir,
Gəzməlidir, gəzməlidir.
Nə gözəldir, nə təmizdir,
Nə doğmadır, nə əzizdir.
O, evindən çıxır yenə,
Hər tərəfə baxır yenə,

Bir cığırla gedir, gedir,
Dərinlikdə itir, itir...

12

Tək deyildir
Bu sehrkar meşəbəyi,
Tək deyildir
Bu fədakar meşəbəyi.
O ki yaşar
Öz adıyla, şöhrətiylə,
Zəhmətiylə,
Təmiz, gözəl niyyətiylə.
İstəsəniz,
Çətin deyil onu görmək,
Meşələri
Gəzəsiniz onda gərək!
Gəzə-gəzə
Çox şeyləri bilərsiniz,
Bu insana
Hardasa rast gələrsiniz!
Görərsiniz,
Böyük, təmiz qəlbi vardır,
Doğrudan da
Sehrkardır, sehrkardır!



## OYAN, FƏTƏLİ, OYAN!

Əsər böyük Azərbaycan dramaturqu, filosofu Mirzə Fətəli Axundovun uşaqlıq həyatına həsr olunur.

Bir uşaq gəlir hər gün,
Durub baxır üfüqün
Talaya dönməsinə,
Günəşin enməsinə,
Günəşin sönməsinə.
Tərk eləyib çölləri,
Bir cütçü dönür geri.
Keçir kasıb kəndçilər,
Dərvişlər, dilənçilər.
Uşaq heyrətlə baxır,
Hay-küylə gəlir naxır.
Yolda atılıb-düşür
Yarı çılpaq uşaqlar,
Ay ulduzla görüşür,
İtir dumanda dağlar.
Uşaq baxır göylərə
Söykənərək çinara,
Baxır azı yüz kərə
Burdan keçən yollara...
O,bir az fikirlidir,
Bir az düşüncəlidir.
Elə bil sehrlidir,
O kimdir?! Fətəlidir!

Bir qız səhər oyanır,
Yan otaqda dayanır.
Baxır yatmış oğlana,
Əl uzadır yorğana.
Deyir:—Ey Fətəli,dur,
Səhərdir, günəş doğur!

Qız süzərək oğlanı,
Söyləyir: oyanmasan
Çəkəcəyəm yorğanı.
— Nə istəyirsən yenə,
Əl çək məndən Səkinə.
— Dur, dur,—deyir yenə qız,
Qaranquşla doludur
Bizim bağça-bağımız.
Heyrət alır oğlanı:
— Necə? Qaranquş? Hanı?!
— Bax, biri budaqdadır,
Biri də çardaqdadır...
Oğlan həyətə çıxır,
Qaranquşlara baxır...
Deyir:,—Səkinə, bu gün
Necə istidir hava!
İndi quşlarım üçün
Quracağam mən yuva.

Xamnə kəndi...
Bir çinar...
Yanında bir ağ bina.
Xalı üstə uşaqlar
Oturmuşdur yan-yana.
Otağın lap başında
Dayanmışdır bir molla
Qara papaq başında.
Dayanmışdır zəhimli,
Qəzəbli, tutqun, kinli...
Oturmuş dizi üstə
Hamı müqəvva kimi,
Üzlər solğun, sapsarı,
Boğuq bir hava kimi.
Otaqdakı hər uşaq
Kardır, laldır elə bil,



Yaşamayır həyatda,
Bir xəyaldır elə bil.
Qara bir kölgə kimi
Molla gəzir otaqda,
Qara bir ləkə kimi
Dayanır bir bucaqda.
Birdən qalxır havaya
Taxtaya bənzər əli.
—Bayaq oxuduğumu,
Təkrar elə, Fətəli!
Qulaq asdıqca molla
Fətəlinin səsinə,
Baxır, heyrət eləyir
Onun hafizəsinə.
Düşünür: «Bu uşağın
Yaman gözəl səsi var,
Ağlı, düşüncəsi var,
Bir də hafizəsi var.
Yəqin bir vaxt bu uşaq,
Böyük adam olacaq»
— Əyləş!—deyir oğlana,
Birdən kimsə səs salır,
Hirslənib yana-yana
Molla çubuğu alır.
Süzür, qəzəblə süzür
Səs salan o uşağı,
Uşaqın qorxusundan
Əsir əli-ayağı.
Gedib üstünə yenə
Qəzəb içində durur,
Onun kürəklərinə
Dalbadal çubuq vurur.
Fətəli dözmür birdən
— Bəsdir!—qışqırır yerdən.
— Necə? Cürətə bir bax,

Gəl bura, görüm qoçaq...
Durub gedir Fətəli
Yavaş-yavaş irəli.
Üzlərdə həyəcan var,
İndi dəyir çubuqlar
Onun biləklərinə,
Onun kürəklərinə.
Fətəli toplayaraq
Bütün iradəsini,
Dözüb, bircə dəfə də
Çıxartmadı səsini.
Molla vuraraq yenə
Deyirdi öz-özünə:
— Doğrudan da bu uşaq,
Böyük adam olacaq!

Fətəli evə gəlir,
Otlar qalxır, dirçəlir.
O, əyilir aşağı,
Oxşayır hər yarpağı.
Nə təzədir bu otlar,
Yamyaşıl bir rəngi var.
Sevinir əlvan rəngli
Bu bahar çəmənindən,
Ağrıları azalır,
Çəkilir bədənindən.
Fətəli evə gəlir,
Budaqdan səs yüksəlir.
Gedir ağaca sarı,
Uçurur şən quşları.
Qulaq asır onların
Mahnı kimi səsinə,
Baxır, fərəhlə baxır
Quşların dəstəsinə.
Fətəli evə gəlir,



Çiçək açır ağaclar,
Çiçək açır yamaclar.
Burda ayaq saxlayır,
Böyük dəstə bağlayır.
Baxır yaz günəşinə,
Torpağa səpələnən
Oduna, atəşinə.
Bu bahar havasını
Ciyər dolusu udur,
Ağrısını unudur,
Kədərini unudur.
Fətəli evə gəlir,
Əlində gül dəstəsi.
Eşidilir otaqdan
Birdən ağlamaq səsi.
Kimdir belə ağlayan,
Yüyürüb gəlir oğlan.
Görür ki, anasıdır
Üzüquylu yataqda.
Ağlayır hönkür-hönkür
Nanə xanım otaqda.
— Ana, ana can yenə
Söylə, nə olub sənə?!
— Ay mənim ciyərparam,
Yaman ağırdır yaram.
Boğur daha məni qəm,
Bu yerdən gedəcəyəm.
— Ana, məni də apar!
— Səndən başqa kimim var?!
Oğlum, Fətəli, inan,
Sənin o ögey anan
Qəlbimi yara edib,
Günümü qara edib.
Sənsən,sənsən bağlayan
Məni təkcə bu yerə,

Gedək, Fətəli gedək,
Doğulduğun şəhərə.
Gedək, dayın Ələskər
Sənə qayğı göstərər.
Oğlu tək duyar səni,
Məktəbə qoyar səni.
Daha dözməyir ürək,
Gedək, Fətəli, gedək!
Günəş batdığı zaman
Göylər saralır, solur,
Üfüqün ekranından
Rənglər gedir, yox olur.
Mütəkkəyə söykənib
Mirzə Məhəmməd Tağı.
Yenə də yer süpürür
Onun qaşı-qabağı.
Deyir Nanə xanıma:
— Nə düşmüsən canıma?!
Mənə açıq söylə bir,
Fikrin, məqsədin nədir?!
Dik baxıb gözlərinə
Nanə xanım ərinə
Kədərini söyləyir:
— Talağımı ver,—deyir.
—Yaxşı, razıyam, ancaq
Bircə şərtim olacaq.
—Şərtini söylə görək.
—Fətəli qalsın gərək.
Qopur yanıqlı bir səs:
—Yox, yox, bu ola bilməz!
Ver oğlumu aparım.
—Yox, qətidir qərarım.
Yeganə bir oğul tək
Fətəli qalsın gərək!



—Necə daş ürəyin var,
Ay insafsız, ananı
Kim baladan ayırar?!
Yalvarıram sənə mən,
Yalvarıram yenə mən,
Ver oğlumu aparım.
—Yox, qətidir qərarım!

Yenə çinar kölgəsi,
Yenə quşların səsi.
Fətəli qəmli-qəmli
Seykənibdir çinara,
Baxır çox uzaqlarda
İtən tozlu yollara.
Birdən Səkinə gəlir,
Qəhqəhəsi yüksəlir.
Oturub yavaş-yavaş,
Danışır bacı-qardaş:
— Gedəcəyik biz daha,
Bax, heç kəsə demə ha...
Qız söyləyir qüssəli:
— Yox, demərəm Fətəli.
Sən məni unudarsan?
— Yox, Səkinə heç zaman...
Oturub yavaş-yavaş
Danışır bacı-qardaş.
Nanə xanım gəzinir
Həyəcanla otaqda,
Çoxdan yuxu bişirir
Fətəlisə yataqda.
Son dəfə süzüb onu,
Ana öpür oğlunu.
Öpür dodaqlarından,
Öpür yanaqlarından.

Gör necə pırtdaşıqdır
Fətəlinin saçları,
Bu saçlara qarışır
Ananın göz yaşları.

Yavaş-yavaş dan artır,
Yatır, Fətəli yatır.
Vida edir ay ona,
Rəngini saçlarına
Verib gedir qaranlıq.
Düşür ala-toranlıq.
Ulduzlar bir-bir sönür,
Yerdə laləyə dönür.
Meh əsir, ayaz olur,
Üfüqlər bəyaz olur.
İşıqlanır çöl-bayır,
Fətəli oyanmayır.
Quşlar çıxır yuvadan,
Duman ötür havadan.
Oyanır şəlalələr,
Qərənfillər, lalələr,
Qalxır yuxudan otlar,
Yola düşür buludlar.
Oyanır çəmən, çayır,
Fətəli oyanmayır.
Şirin yuxudadır o,
Dərin yuxudadır o.
Gah büzülür dodağı,
Gah da gülür dodağı,
Üfüqlərə bir baxın,
Şəfəqlər axın-axın.
Günəş doğub nur yayır,
Fətəli oyanmayır.
Səkinə bir yel olur.
Əsib girir içəri.



Fətəlini yerindən
Silkələyir əlləri:
-Oyan, qardaşım, oyan,
İşıqlanıbdır hər yan.
Dur, dur açılıb səhər,
Nə qəribə uşaqsan,
Qalxıb durmasan əgər
Anasız qalacaqsan!
O, kədərsiz oyanır,
Məlul-məlul dayanır.
Qarşılaşır kədərlə
Qaçır qorxu içində,
Hələ də ayılmayıb,
Qaçır «yuxu içində.»
Nəzər salıb dörd yana,
Qışqırır:—Ana, ana...
Qaçır karvana sarı
Bir fəryad dodağında,
Əriyir bulud kimi
Ananın qucağında,
Bütün Xamnə oyanır
Fətəlinin səsindən,
Ayrılmır anasının
Mehriban sinəsindən.
Ata, o doğma ata,
İndi dönübdür yada.
—Yeganə bir oğul tək,
Fətəli qalsın gərək!
Dinir qonum-qonşular:
—Heç belə də zülm olar?!
Qardaş, burax oğlunu,
Anasız qoyma onu.
Karvan da dilə gəlir,
Sarban da dilə gəlir,
O dilsiz, o duyğusuz

Duman da dilə gəlir:
—Qardaş, burax oğlunu,
Anasız qoyma onu.
Elə bil haray çəkir
Tüstülər də bacadan,
Dilə gəlir bütün kənd,
Deyir ona ucadan:
— Qardaş, burax oğlunu,
Anasız qoyma onu.
Ata, o doğma ata,
Dərd-qəmə bata-bata
Kədərlə gülümsəyir.
— Yaxşı, qoy getsin—deyir.
Gəlir uşağa doğru,
Gəlir ögey bacısı,
Yanağında parlayır
Göz yaşının damcısı.
Ağlayır acı-acı,
Qardaşı öpür bacı:
Göyə qalxır sağ əli:
—Sağlıqla qal, Fətəli!
Uzanan yollar kimi
Uzanıb karvan gedir,
Yorğun buludlar kimi
Necə astadan gedir.
Ayrılıq nəğməsi tək
Səslənir zınqrovlar.
Həzin əzan səsi tək
Bu nəğmədə kədər var.
Beli beşik dəvələr
Yeriyir ağır-ağır,
Karvan irəli gedir,
Fətəli geri baxır.
Düşür onun ovcuna
Göz yaşının damcısı.



Görür təpə başında
Durub ökey bacısı.
Uzanıb karvan gedir,
Necə astadan gedir.
Kim deyər ki, onları
Ayıran karvan idi,
Yox, yox, bacı-qardaşı
Ayıran zaman idi.
Dəyişdi neçə fəsil,
O gündən keçdi qırx il.
Xoş üzlü, gümüş saçlı,
Döşü medallı, xaçlı
Bir nəfər kəndə gəldi,
Axşam düşəndə gəldi,
Baxdı tozlu yollara,
Qocalan bir çinara.
Gəldi, həsrətlə durdu
Önündə bir qapının,
Bağrına basıb öpdü
Alnından bir qadının.
O gələn Fətəliydi,
Yenə də qüssəliydi.
Qardaşına Səkinə
Baxırdı dönə-dönə.
Axı doğma Fətəli
Adi insan deyildi,
Çox böyükdü əməli,
İşıq dolu fəsildi.
Səhnə üçün bir əsər
Yaratmışdı ilk dəfə,
Onun səsi, sorağı
Çatmışdı hər tərəfə.
İşləyib çalışırdı
Gözəl bir xadim kimi,
Həm bir filosof kimi,

Həm də bir alim kimi.
Bahar fəsillərini
Xalqa yetirsin deyə
Qalxıb yüksəlmişdi o,
Uşaqlıq illərini
Yenidən görsün deyə
Bu kəndə gəlmişdi o!

## MEŞƏNİN RƏNGLƏRİ

*"YAĞIŞ YAĞIR DƏNİZƏ" kitabından*

1

Dağ meşəsi
Quçağına aldı məni,
Seyr elədim
Gecə-gündüz bu meşəni,
Axşamını, səhərini,
Bircə-bircə
Üzə çıxan rəngləri.
Necə?! rənglər?!
Axı meşə yaşıl olar!
Yaşıl rəngdən başqa rəng var?!
Əlbəttə, var,
Görmək üçün meşəni gəz,
Bu rəngləri
Adi adam görə bilməz.
Diqqətlə gəz,
Rəngləri var: yüz-yüz, min-min.
Bu rənglərdir
Gözəlliyi bu meşənin.
Gəldim bu gün
Gəzim deyə, görüm deyə,
Heyran oldum
Baxa-baxa bu meşəyə.



Bir səs gəldi,
Sanki kimsə, nəsə dərdi,
Bu vaxt birdən
Tap! Başıma nəsə dəydi.
Göyə baxdım,
Ağac gördüm budaq-budaq,
Budaqlarda
Nə dələ var, nə də uşaq.
Birdən kimsə
Arxamdaca gəlib durdu,
Kürəyimə əl də vurdu.
Dərhal döndüm,
Qəribədir, yoxdur heç kəs,
Nə xışıltı, nə bir nəfəs...
Düzü, qorxdum,
Heyrətimdən donub qaldım,
Asta-asta
Dörd tərəfə nəzər saldım.
Lap yaxından
Qulağıma bir səs dəydi,
Tap! Başıma nəsə dəydi!
Göyə baxdım,
Yenə heç kəs!
Yenə sükut.
Dörd tərəfim
Çadır-çadır yaşıl bulud.
Gözəl meşə!
Səni bildim bir ana mən,
Gəlib girdim
Bir dost kimi qoynuna mən.
Gəl, çəkinmə,
Sehrini aç, sirrini aç,
Yaşıl rənglə
Parlasan da, nurunu saç!

2

Cığır gedir,
Cığır itir.
Lap qabaqda
Yenə bitir.
Otdur böyrü,
Əyri-üyrü
Bir xətt kimi.
Sərhəd kimi.
Meşə cavan,
Meşə əlvan...
Yarpaq gülür,
Nur süzülür...
Zolaq-zolaq,
Qırmızı, al,
Qəhvəyi ağ,
Zoğal-zoğal...
Yarpaq düşür
Rəngdən-rəngə,
Sonra dönür
Bir çələngə.
Bu yarpaqlar
Vərəq-vərəq,
Bu zolaqlar
Şəfəq-şəfəq...
Bu nə rəngdir,
Nə çiçəkdir?
Yaxşı baxın,
Göbələkdir!
Yumru başı
Top kimidir,
Qırmızıdır,
Turp kimidir.
Yol gedirəm,



Seyr edirəm
Bu rəngləri,
Çiçəkləri.
Ancaq fikrim
Arxadadır,
Kimsə gəlir,
Addım atır.
Çönən kimi
Yoxa çıxır,
Duyuram ki,
Mənə baxır!
Bu, dələdir,
Ya tələdir!
Çıxmır başım,
Görən kimdir
Yol yoldaşım?!

3

Bir talada gəlib durdum,
Çadır qurdum.
Hələ quşlar yatmamışdı,
Hələ günəş batmamışdı.
Gördüm gendən qaratoyuq
Mənə baxır soyuq-soyuq.
Bir həyəcan tutdu onu,
Bəlkə sevmir yad qonşunu?!
Baxdı, baxdı... sonra getdi,
Ağaclıqda gözdən itdi.
Mən çadırda süfrə açdım,
Cəld bulağa, suya qaçdım.
Bulaq adi bulaq deyil,
O qədər də uzaq deyil.
Bulaq safdır, ləngərlidir,
Ətrafı da lilpərlidir.
Düz bulağa çıxır tala,

Üz-gözünə,
Öz-özünə
Güzgüsündə baxır tala!
Bir gəlindir,
Bəzənibdir, gedir toya!
Elə gözəl çələngi var,
Bu çələngin yüz rəngi var!
Göy qurşağı enib yerə,
Təzə rəng qatıb rənglərə!
Elə əlvan olub tala,
Qırmızı, ağ, mavi, ala...
Bir dəmətdir
Aparırlar sanki toya.
Əl dondurur... bulaq bumbuz.
Su doldurub döndüm geri,
İçdim sanki ulduz-ulduz!
Şəfəq saçan bu rəngləri!
Boy... bu nədir, gördüm kölgə,
Ötdü, itdi. Səhvdir bəlkə?!
Kotletimin yarısını,
Yumurtanın sarısını
Kimsə yeyib.
Bu, nə sirdir,
Nə möcüzə, nə sehrdir!
Çıxdım çölə, yoxdur heç kəs.
Nə kölgə var, nə hənir, səs...
Gəlib yenə qaratoyuq
Baxır mənə soyuq-soyuq...
Qaş qaraldı, günəş batdı,
Meşə yatdı, quşlar yatdı.

4

Bir də durdum gecəyarı,
Yanır ayın işıqları.
Hər yan nurlu, hər yan aydın,



Taladadır özü ayın.
Süd kimi ağ, nurlu, parlaq!
Başqa görkəm alır tala,
Süd nurunda qalır tala!
İtir rənglər:
Qırmızı, göy, mavi, sarı.
Yanır ayın işıqları.
Başdan-başa tala ağdır,
Sanki nəhəng bir zanbaqdır!
Dörd yan zülmət:
Əriyir qatran şirəsi,
Ağaclarsa qara rəngli
İri nida işarəsi!
Keçib kəsir
Yarpaqları, budaqları,
Qılınc kimi
Ağ-ağ işıq zolaqları!
Bu zülmətdə
Qoşa yanan işıq vardır,
Ya çaqqaldır,
Ya tülkü, ya canavardır.
İşıq getdi,
Getdi, getdi, birdən itdi!
Yenə yandı,
İşıq indi gəzişirdi,
Ağ zolaqlar
Qaranlıqda kəsişirdi.
Zülmət dolub
Bu meşəyə bulud-bulud,
Hər yan sükut, hər yan sükut.
Həm Ay özü,
Həm də tala—dairəvi,
Süfrə açdı,
Məclis qurdu ailəvi.

5

Hər yan nura boyanmışdı,
Quşlar sübhdən oyanmışdı.
Vermişdi onlar səs-səsə,
Vermişdi nəfəs-nəfəsə.
Alabaxta, Hop-hop, ördək,
Qaratoyuq, sarıköynək.
Neçə cür səs yarışırdı,
Bir-birinə qarışırdı.
Yayılırdı bu aləmə
Bir ümumi, gözəl nəğmə!
Hər səs şəfəq, hər səs nurdu,
Bütün meşə oxuyurdu.
Səs—meşənin bir rəngiydi,
Rəngə bənzər ahəngiydi.
Mən yuxudan oyanmışdım.
Kölgəlikdə dayanmışdım.
Bir an belə
Kəsməyərək şən səsini,
Oxuyurdu
Quşlar səhər nəğməsini.
Şehli ota
Gəzdim ayaq basa-basa,
Bu nəğməyə
İndi qulaq asa-asa,
Gözəlliklə,
Təmizliklə sevin, öyün,
Qanad aç, uç,
Qalx fövqünə mavi göyün!
Dinlədikcə
Qollarımı açdım birdən,
Meşə boyu,
Tala boyu qaçdım birdən.
Taladakı
Otlar, güllər dizə çıxdı,



Güllərdəki
Bütün rənglər üzə çıxdı.
Meşədəki göbələklər,
Ayaq açdı.
Çiçək üstə kəpənəklər
Qanad açdı.
Səpələndi
Mavi göyün şəfəqləri.
Dan yerinin qızıl zəri.
Parıldadı
Yerin, göyün fişəngləri,
Bunlar verdi
O rəngləri, bu rəngləri!
Gün düşdükcə
Hər otuna, yarpağına,
Meşə məni
Səsləyirdi quçağına!

6

Kimsə yenə nəsə atdı,
Sonra özü itib batdı.
Baxdım, baxdım, yoxdu heç kəs,
Nə hənir var, nə də nəfəs.
Birdən koldan budaq qalxdı,
Arasından kimsə baxdı.
Baxdı, ancaq görünmədi,
Yavaş-yavaş uşaq çıxdı.
Qəribədir, bu, uşaqdır,
Ya çubuqdur, ya budaqdır?!
Çubuqlardan yaradılan
Fındıqburun kiçik oqlan...
Əlindəki qozu atdı,
Yenə kolda itdi, batdı.
Öz-özümə: — Yaxşı, — dedim,
Qozu tapıb, qırıb yedim.

Ləpələri canlı, ətli,
Həm yağlıdır, həm ləzzətli...
Fındıqburun koldan qalxdı,
Gizli-gizli mənə baxdı.
Bir qoz atdı,
Sonra yenə kola yatdı.
Yavaş-yavaş,
Kola sarı getdim birbaş.
Dedim, kola çataram mən,
Onu birdən tutaram mən.
Qəribədir,
Bircə anda döndü oxa,
Çıxdı yoxa...
Çox uzaqdan gəldi səsi,
Cingiltili qəhqəhəsi...
Geri dönüb
Çadırımı söküb-yığdım,
Yükü alıb,
Yavaş-yavaş yola çıxdım.
Fındıqburun görən hanı,
Seyr elədim dörd bir yanı.
Bəzən onun
Eşidirdim şən səsini,
Bəzən isə
Görə bildim kölgəsini.
Onu tapıb, tutum deyə
Getdim yenə irəliyə.
Getdim, getdim,
Bu yaşıllıq
Dənizində itdim, itdim!
Gəlib çıxdım lap dərinə,
Heyran qaldım
Onun yeni rənglərinə.



7

Diki qalxdım,
Göyə baxdım.
Görünmür göy,
Bir rəng var: göy!
Qucaqlaşan
Budaqlardır,
Aşan-daşan
Yarpaqlardır!
Göydə yarpaq:
Nurlu, parlaq!
Qalxdım yenə
Dağ döşünə.
Gördüm nəhəng
Üstü çiçək,
Sarı-sarı
Qayaları.
Sanki yanmış
Bu qayalar,
Xınalanmış
Bu qayalar!
Bir səs qopur:
— Ehey... durun!
Bildim, odur,
Fındıqburun!
Dayanmadım,
Boylanmadım.
Bildim, gedər,
Gözdən itər.
Meşə dərin,
Ağaclar sıx,
Var hünərin,
Bir yana çıx!
Qalxdım, qalxdım
Lap yuxarı,

Birdən baxdım
Göyə sarı!
Meşə üstə,
Dəstə-dəstə
Enən ağ-ağ
Buludlardır,
Qalaq-qalaq
Buludlardır.
Bir şal kimi
Örtdü, axdı,
Xəyal kimi
Ötdü, axdı.
Günəş qızıl,
Hər yan parlaq!
Meşə yaşıl,
Buludlar ağ!

8

Mən elə ki, aşdım dağı,
Gördüm cığır
Gedir indi düz aşağı.
Bu meşənin yoxdur sonu,
Bir dağ boyu,
Dərə boyu gördüm onu.
Gah ağaclar, gah çiçəklər,
Yeni rənglər, yenə rənglər!
Bu rənglərə baxa-baxa,
Gördüm duman
Gəlir səssiz axa-axa!
Axan duman
Təptəzə rəng gətirirdi,
Neçə rəngli
Yüz-yüz çiçək gətirirdi.
Endim, endim... böyük dərə,



Bir baxmaqla
Görə bildim yüz mənzərə.
Hər ağaca mindi duman,
Yavaş-yavaş
Bu dərəyə endi duman!
Enib təzə rəng gətirdi,
Sayrışdıqca
Ağla yaşıl bəhsə girdi.
Yaşıllığa elə batdı,
Duman—dərə
Çarpayıya girib yatdı!
Şırıltılı səs yüksəldi,
Çayın özü
Görünmədi, səsi gəldi.
Yol apardı yenə məni,
Gedə-gedə
Dinləyirdim bu nəğməni!
Birdən qorxdum...
Dondu nəfəs...
Çünki qopdu
Nəriltili, kobud bir səs!
Bu vaxt gördüm,
Ağ, çəhrayı
Zorba ayı!
Yavaş-yavaş
Mənə doğru gəldi birbaş!
Elə çaşdım,
Nə gizləndim, nə də qaçdım.
Həm də vardı
Nə bir kömək, nə bir arxa,
Yol üstündə
Dayanmışdım qorxa-qorxa!
Kola-kosa dəyə-dəyə,
Ayı cumdu
Nərildəyə-nərildəyə.

Ancaq birdən
Mənə çatıb durdu ayı.
Öz-özünü
Pəncəsilə vurdu ayı.
Birdən qalxdı,
Sakit-sakit mənə baxdı.
Bu vaxt gəldi
bir dəf səsi,
Kimin isə zümzüməsi,
Ayının coşdu həvəsi,
Fırlanaraq sola-sağa,
O başladı
Rəqs etməyə, oynamağa!
Dəyişildi ruhum tamam,
İtib-batdı qorxum tamam!
Ağ, çəhrayı, zorba ayı
Oynayırdı
Həm məzəli,
Həm gülməli!
Sevinirdi,
Şənlənirdi!
Məzələnib
Çıxarırdı sərt səsini,
Oynadırdı,
pəncəsini.
Sıx meşəydi dörd bir tərəf,
həzin-həzin
Səslənirdi uzaqdan dəf!
Seyr elədim
Gizli-gizli dörd tərəfi,
Görüm deyə
Kimdir çalan, kimdir dəfi?!
Hardan gəlir görən bu səs?!
Baxıb gördüm
Yoxdur heç kəs!



Bu görünməz dəcəl uşaq,
Düşündüm ki,
Fındıqburun olar ancaq!
Gördüm gəlir əlində dəf,
Fındıqburun
Gülə-gülə mənə tərəf!

9

— Qorxdunuzmu?!
— Qorxdum bir az!
— Bu ayıdan ziyan olmaz!
Siz kimsiniz, axı, əmi?!
— Kiməm?! Yaxşı, düz deyimmi?!
— Əlbəttə, siz,
Düz deyiniz!
— Gəzə-gəzə
Bu meynənin hər yerini,
Toplayıram rənglərini.
Fındıqburun fikrə getdi,
Mənə baxıb heyrət etdi.
Neçə yəni rənglərini?!
Rəng nə güldür, nə çiçəkdir?
Bəs toplamaq?!
Başım çıxmır, nə deməkdir!
Fikrə getmə, Fındıqburun,
Heyrət etmə, Fındıqburun.
Gəzdir məni, gəzdir, göstər
Başdan-başa bu meşəni.
Bil rəssamam,
Səfərlərə çıxıram mən,
Təbiətdən
Fırçama rəng yığıram mən!
Fındıqburun bərk sevindi:
— Başa düşdüm sizi indi.
Buna varam,

Hər tərəfə apararam!
Tanıyıram hər bucağı,
Hər ağacı, hər bulağı.
Əmi, hələ,
Nələr bilir dostum dələ!
Bir göl var ki, işıq saçır,
Ona baxsan, göz qamaşır.
Qayalar var ala-bəzək,
Talalar var çiçək-çiçək!
— O... nə yaxşı,
Sabah sübhdən gedək, gəzək...
Axşam düşür,
Yavaş-yavaş meşə yatır,
Mən dərənin kənarında
Yükü açıb, qurdum çadır.
— Fındıqburun, gir içəri,
Birgə açaq, gəl səhəri!
Axı, niyə utanırsan,
Niyə çöldə dayanırsan?!
— Bu nə sözdür, yox, yox, əmi,
Mən evimə getməyimmi?!
— Nə qəribə bir uşaqsan,
Qaranlıqda
Evi necə tapacaqsan?!
— Sehrkardır axı atam,
Mən də bir az sehrkaram!
Lazım gəlsə qaçaram mən,
Uçaram mən!
Heç narahat olma, əmi,
Nigaran da qalma, əmi!
Sanki birdən şimşək çaxdı,
Fındıqburun yoxa çıxdı.



10

Səhər tezdən duran zaman,
Heyrətləndim,
Çadıra da dolub duman.
Gördüm hər yer
Bürünübdür bəyaz tülə.
İtib meşə,
İtib dərə,
Birdən gördüm
Qabağımda durub dələ.
Munçuq-muncuq gözləri var,
Boynundasa «təkəri» var.
Sakit-sakit, dönə-dönə,
Uşaq kimi baxır mənə.
Duman axır
Ağacları öpə-öpə,
Axıb gedir
İnciləri səpə-səpə.
Uzaqlarda aşıb-daşır,
Dərə, meşə aydınlaşır.
Dedim: — Dələ, qəşəng dələ,
Fındıqburun yoxdur hələ.
— Mən burdayam!
Dələdən azca uzaqda,
Fındıqburun
Yellənirdi bir budaqda.
— Sabahınız xeyir olsun!
Deyib quş tək düşdü yerə.
Yaxınlaşdı birdən-birə.
Çadırıma baxdı dərhal,
Onu söküb yığdı dərhal...
Bir də gördüm
Uzaqlaşıb gedir duman,
Yavaş-yavaş
Dərələrdə itir duman.

Bu vaxt gəldi
Ağ, çəhrayı,
Zorba ayı.
Gəlib çıxdı
Kola-kosa dəyə-dəyə,
Nərildəyə-nərildəyə.
Kefi kökdü,
Gəlib bizim yanımızda
Yerə çökdü.
Dələ cumub
Kürəyinə qalxdı onun,
Üz-gözünə baxdı onun.
— Yaxşı, əmi,
Biz gedəkmi?!
— Gedək, yolçu yolda gərək,
Gedək, gəzək, gedək, görək!
Uğur ola, çıxdıq yola!
Lap qabaqda
Getdi ayı, getdi dələ,
Aldı bizi
Qucağına dərin dərə.
Gah açıldı
Yaşıl-yaşıl pəncərələr,
Gah göründü
Təzə-təzə mənzərələr.
Kölgə düşdü,
Dərə geniş, dərə nəhəng...
Altı, üstü
Yarpaq-yarpaq, çiçək-çiçək!
Dərə boyu
Axıb gedən nə gur çaydı,
Su deyildi,
Əriyən bir gümüş aydı!
İri, kiçik
Daşlar idi çay kənarı,



Çaya sarı əyilirdi
Ağacların budaqları.
Qaya vardı
Qanad açıb uçacaqdı,
Sim-sim desək qapısını
Üzumüzu açacaqdı.
Dayanmışdı qəsr kimi,
Sehrliydi
Ötüb keçən əsr kimi!
Birdən hər şey
Yuxu kimi gəldi bizə,
Heyrətləndik
Baş verəndə bir möcüzə!

11

Nəhəng qaya
Bənzəyirdi bir qədəhə,
Çəkdi bərkdən, şən qəhqəhə!
Qaya üstə
Ağ bir şimşək çaxdı birdən,
Gur şəlalə axdı birdən!
Gözlənmədən
Güclü səslə doldu dərə,
Qorxdu ayı, qorxdu. dələ.
Bu şəlalə
Görən hardan axıb gəldi,
Buludlardan axıb gəldi?!
Bir sel kimi
Səsi gurdu, özü gurdu,
Başdan-başa
Şəfəqlənən ağ bir nurdu.
Əvvəl insan
Qorxsa belə
Vahiməli bir səsindən,
Töküldükcə

O qayanın sinəsindən
Yaratdığı
Gözəllikdən min zövq aldı,
Bu gözəllik
Qarşısında donub qaldı.
Fındıqburun
Şəlaləyə elə baxdı,
Bir od kimi
Qaya üstə elə qalxdı,
Vay... özünü suya atdı,
Ağ işıqda itdi-batdı!
Birdən çıxdı, çıxıb axdı!
Əl eləyib bizə baxdı!
Ağ köpüklər tutdu onu!
Bircə anda uddu onu!
Yenə getdi, yenə itdi,
Sonra birdən
Şəlaləylə axdı gəldi,
Ağ köpüklər
Arasından çıxdı gəldi.
Üst-başından
Sular axdı gilə-gilə,
Qaçıb gəldi
Bizə sarı gülə-gülə!
Ona baxdı bütün dərə,
Baxdı ayı, baxdı dələ.
— gözəldir su!
Dərmandır bu!
Onun kimi çimsin deyə
Ayı cumdu şəlaləyə.
Getdi ayı,
Şəlalənin
Qucağında itdi ayı.
Amma yaman qorxdu gəldi,
Ağ sulardan çıxdı gəldi.



Yenə getdik,
Yolumuza davam etdik.
Dərə qalxdı lap yuxarı,
Yuxarıda
Yamyaşıl qoz ağacları.
Sıra-sıra, cərgə-cərgə,
Bulud-bulud, kölgə-kölgə...
Baxdım bir-bir
Təbiətin əsərinə,
Bu qozların
Təzə, parlaq rənglərinə!
Gah tünd, açıq,
Gah kölgəli, gah da işıq...
Rəng dəyişir
yarpaq-yarpaq,
Gah solğundur, gah da parlaq!
Yaşıl rəngi yüz cür gördüm,
Gah firuzə, gah dürr gördüm.
Gözəl, nəhəng ağacların
Budağı bol,
Yarpağı bol,
Yumru-yumru meyvəsi bol,
Nəğməsi bol, həvəsi bol!
Gülə-gülə
Bir ağaca çıxdı dələ.
Dalğa kimi
Yarpaqları yara-yara,
Keçdi dələ
Budaqlardan-budaqlara.
Gövdə boyu elə qaçdı,
Qaça-qaça oyun açdı.
Demə, bu yer vətənidir,
Öz yurdudur, məskənidir.
Yuvası da gözəl saray,
Fındıq tay-tay,

Qoz da tay-tay!
Dələnin
Güldü gözləri,
— Buyurun, gəlin içəri!
Gülür sanki üzə qozlar,
Yağlı, dadlı, təzə qozlar...
Dələ tökdü öz varını,
Evindəki qozlarını.
Ayı baxdı,
Hirsli-hirsli donquldadı:
— Çoxsa da qoz,
Nəyə gərək, yoxdur dadı...
— Ayı qardaş,
Ürəyini üzmə barı,
Sənin üçün
Saxlamışam armudları.
Sevinərək
Əvvəl bizə baxdı ayı,
Yırğalanıb
Ayaq üstə qalxdı ayı.
Fındıqburun dəfi aldı,
Onu çaldı, neçə çaldı.
Baxıb bizə fağır-fağır,
Süzdü ayı ağır-ağır.
Yırğalandı, dalğalandı,
Məzə ilə yumalandı,
Durub qalxdı,
Qalxan kimi bizə baxdı.
Birdən gördü
Yumru, uzun,
Sarı-sarı armudları!
Armudlara yaxın gəldi,
Astaca yerə çöməldi.
Dələ bizə
Xidmət etdi uşaq kimi,



Baxdı bizə
Ən əziz bir qonaq kimi.

12

Səhər-səhər yenə getdik,
Yolumuza davam etdik.
Dərə bitdi,
Dərinlikdə qaldı, itdi!
Qarşımızda
Gözəl, yaşıl dağ ətəyi,
Bu ətəkdə
Neçə-neçə dağ çiçəyi.
Çiçəklərsə
Bu meşəyə yaraşırdı,
İşıq kimi sayrışırdı.
Ağarırdı
Qabaqda dağ ətəkləri,
Dopdoluydu
Çünki süsən çiçəkləri.
Bu çiçəklər
Bir üzükdü, qaşında qar,
Ağ işığın
Ziyasında yanır par-par.
Qucaqlayım
Çiçəkləri az qalır mən,
Burda bütün
Ağacların altı çəmən.
Dağ meşəsi,
Ətraf gözəl, ətraf xoşdur,
Qalxırıq biz,
Yol çətindir, yol yoxuşdur.
Dalda qalır
Bu meşənin yamacları,
Sanki gəlir
Üstümüzə ağacları!

Kobud ayı birdən pörtdü,
İrəliyə
Qaçıb cumdu, bizi ötdü.
Bir top kimi
Elə qaçdı, elə getdi,
Ağacların
Cərgəsində gözdən itdi.
Birdən dikdə
Qaya gördüm qala kimi,
Ağarırdı
Yaşıllıqda qalay kimi!
Bir səs gəldi,
Nəğmə deyən zığ-zığ oldu,
Qəribədir,
Ağaclar da sıx-sıx oldu!
Günəş itdi,
Hərdən, tək-tək nur sürüşdü,
Kölgə artdı,
Elə bil ki, axşam düşdü.
Bu sıxlığı, yaşıllığı
Keçə-keçə, yara-yara,
Yaxınlaşdıq qayalara.
Bir qayanın
Dibindəcə bulaq gördüm,
Şəffaf gördüm, parlaq gördüm.
Nəsə gizli
Məna vardı qayalarda,
Gördüm biri
Ucalmışdı lap kənarda.
Sərkərdə tək
Qabaqdaca dayanmışdı,
Başdan-başa
Yaşıl rəngə boyanmışdı.
Dayanmışdı
Yaşıl rəngli yarpaq kimi!



Sanki yerə
Yollamışdı göy tağından,
Nəhəng ağac
Nəhəng yarpaq budağından!
Bu yarpağın
Saplağı var.
Saplaq—oraq,
Bu meşənin
Rəmzi kimi qaya—yarpaq!
O tərəfdə
Başqa qaya—yupyumru şar,
Rəngi aldır,
Qıpqırmızı topa oxşar.
Alovları
Çəkilən bir atəş kimi,
Yerə enən
Bapbalaça günəş kimi!
Bu atəşdə
Ağ, çəhrayı, boz, sarı var,
Bu al rəngin
Neçə cürə çaları var!
Qəribədir,
Bu qaya gah nəhəng çalma,
Gah da dönüb
Gözümüzdə oldu alma!
Bu almanın
Yanındakı başqa qaya,
Raket kimi
Uçacaqdır sanki aya!
Gümüş rəngli
Bu qayanın şiş ucları
Tuşlanmışdır,
Millənmişdir göyə sarı.
İşıltılı.

Bir qaya var;
duz daqı tək,
Ağ qaya var;
Okeanda buz dağı tək!
Bir qaya da
Sanki nəhəng bir sırsıra,
Bu qayalar
Cərgə-cərgə, sıra-sıra!
Uzandıqda
Bu meşədə, bu qayalıq,
Üzür sanki
Bir dənizdə yüz-yüz qayıq.

13

Ağ, çəhrayı, zorba ayı
Qayaların arasından
Çıxdı birdən,
Bizə tərəf baxdı birdən.
Fındıqburun
Pıçıldadı qulağıma:
— gəlmişik biz
Bu ayının oylağına.
Bildim ayı
Bizdən qabaq niyə qaçıb,
Çünki burda,
Qayalarda süfrə açıb.
Süfrə zəngin...
Alma, alça, albalı var,
Həm də cökə
Çiçəyinin şan balı var.
Bu süfrədə
Kərə yağa bənzər heyva,
Üç meyvədən
Düzəldilən qozlu halva...
Çaytikanı



Meyvəsi də, fıstığı da,
Badamı da,
Püstəsi də, fındığı da!
Nələr yoxdur
Bu ayının süfrəsində,
Əyləşirik
Üç palıdın dövrəsində.
Yenə şənlik...
— Fındıqburun, hanı qaval,
Nə durmusan,
Qavalı çal!
Dələ çıxdı
Bir quş kimi ortalığa,
Fırlanırdı
Fırfıra tək sola-saqa!
Ayı çıxdı,
Hətta gülünc olsa belə,
Oynayırdı
Zorba ayı, zərif dələ! Birdən ayı
Görüb doğma yuvasını,
Nərildəyib
Səslədi öz balasını.
Ağ, çəhrayı, kiçik ayı
Bir qayadan çıxan kimi
Dedi: — Ana,
Yaxın gəldi bir top kimi
Yumalana-yumalana.
Nə gözəldi,
Nə dəcəldi,
Dərhal qalxdı,
Məzə ilə bizə baxdı!
Gah dolandı,
Gah fırlandı,
Birdən yenə yumalandı.

Bax, beləcə
Şənlik etdik bütün axşam,
Zorba ayı
Qışqırdı ki, yorulmuşam!

14

Səhər-səhər yenə getdik,
Yolumuza davam etdik.
Seyrək duman,
Kövrək duman,
Səpir, açır
Çiçək, duman...
Sübh elə xoş,
Elə təmiz,
Meşə—bomboş,
Meşə—səssiz.
Duman gedir,
Duman itir.
Keçdik yamac,
Keçdik dərə,
Elə yerə
Gəlib çıxdıq:
Ağaclar sıx,
Daş—qayalıq!
Daşlar—göy, ağ,
Qalaq-qalaq.
Kəsir yolu,
Daşdır yolun
Sağı, solu!
Daşlar—rəng-rəng,
Donmuş çiçək!
Gözəl olub,
Heykəl olub!
Üstü mamır, inci damır...
Daş-qayalıq,



Ağaclar sıx...
Kələ-kötür
Cığır ötür...
Cığır gedir,
Daşda itir,
O tərəfdə
Yenə bitir.
Dayanıram,
Boylanıram.
Hər yan, sağ, sol,
Rənglə bol-bol...
Gah mərcanlı,
Zəfəranlı,
Gah qəhvəyi,
Bənövşəyi,
Gah ağımtıl,
Gah da yaşıl!
Bu rənglərin
Gur işığı,
Bu rənglərin
Qarışığı
Gün əksindən
Rəng yaradır,
Rəng rəqsindən
Cəng yaradır!
Hər daş—papaq,
Qalaq-qalaq.
Daş, qaya, dik
Keçib gəldik,
Elə yerə,
Dərin dərə!
Bu dərədə
Eşitdik su şırıltısı,
Hətta bəzən
Şəlalə tək şarıltısı,

Ancaq yoxdur
Nə özü, nə işıltısı...
Hanı bu su,
Necə çıxır, hardan çıxır,
Hardan axır,
Hara axır, necə axır?!
Duydum birdən
Su çağlayır yer qatından,
Getdiyimiz
Bu daş-qayanın altından.
Daş—qayadır
Həm yarğanlar, həm yamaclar
Daş-qayada
Necə bitib bu ağaclar?!
Qəribədir,
Hər tərəfdə mamır, mamır,
Elə yaşıl,
Bir çəməndən geri qalmır!
Fındıqburun
İrəliyə qaçdı, getdi,
Harda isə
Ayı itdi, dələ itdi.
Bir yel keçdi
Yarpaqları bura-bura,
Fındıqburun
Bərkdən dedi: — Gəlin bura
Yavaş-yavaş
Bu daşları, qayaları,
Keçə-keçə
Yaxın getdim ona sarı.
Endim yenə,
Ən dərin bir dərə burda,
Gəlib gördüm
Ayı burda, dələ burda!
Birdən çaşdım,



Şəfəq saçan ayna gördüm,
Bu aynanın
Saflığında məna gördüm.
Sakit bir göl...
Səliqəli, yaraşıqlı,
Elə saf ki,
Gün işıqlı, ay işıqlı!
Hünərin var,
Gəlib burdan biganə keç,
Elə saf ki,
Dibindəki daşları seç!
Sanki burda
Qərar tutub bir parça göy,
İşıq saçır,
Adı qalıb işıqlı göl!
Elə göl ki,
Bir gözəldir, bir gözəldir,
Başdan-başa
Donub qalmış nəhəng ləldir!

15

Sona çatdı bu səfərim,
Meşədə keçən günlərim!
Saq ol, ayı, saq ol, dələ,
Sağ ol, yamac, sağ ol, dərə!
Fındıqburun, kiçik qardaş,
Oldun mənə bir dost, yoldaş!
Sağ ol, sən də,
Sağ ol, meşə,
Sizinləyəm mən həmişə!
Ayrılsam da,
Sizi doğma biləcəyəm,
Qoynunuza gələcəyəm!
Güllərini öpəcəyəm,
Gözəlliklər görəcəyəm!

Yaşıllıqda itəcəyəm, azacağam,
Gəzib, duyub,
Yenə sizdən yazacağam!

## ABŞERON SAHİLLƏRİ

1

Orxan baxır yollara,
Yaxınlaşan qatara.
Qatar gəlib yan alır,
Yavaş-yavaş boşalır.
Adamlar keçir şən-şən,
Görür ki, yoxdur Süsən.
Kədərlənir... kor-peşman
Geri qayıdır oğlan!

2

Axı Süsən hardadır,
Şəhərdə, bulvardadır.
Güllə kimi çox uca
Bir yerə çıxır Süsən.
Ordan bütün şəhərə,
Dənizə baxır Süsən.
Yaxınlaşıb gizlicə
Paraşütdən tullanır,
Ancaq ki, enmir yerə
Elə göydən sallanır.
Bu nədir?!
Əsən külək
Paraşütü aparır.
— Aman, kömək, ay aman...
Hamı haray qoparır.
Paraşüt ağ çiçəkdir,
Nəhəng bir göbələkdir!



Zeytun bağları üstdən
Paraşüt uçur, uçur,
Elektrik qatarının
Birdən üstünə qonur.
Süsən necə sevinir,
Söyləyir gülə-gülə:
— Nə yaxşı oldu elə
Gedərəm Orxangilə!
Bakıdan uzaqlaşıb
Şütüyür sahil boyu,
Elektrik qatarı,
Axır qatara doğru
Dənizin dalğaları.
Elə yaxından gedir,
Süsən sevinclə dinir:
— Qatar dənizə girir,
Eh, qoy girsin...
Qorxmuram...
Paraşütü açaram,
Yenə göyə uçaram.

3

Süsən düşür qatardan,
Keçib gedir bağlardan.
Bu bağlarda quyu var,
Dərman kimi suyu var!
Quma batıb tənəklər,
Qumda yatıb tənəklər.
Bir ağac elə bil quş,
Uçub yerə oturmuş!
Pozmayıb vüqarını,
Açmış qanadlarını.
Balaca, kərpic evlər,
Nə qədərdir, nə qədər...
Daş daş üstə qoyulub,

Gözəl bir hasar olub.
Hasar üstə budaqlar,
Qapı üstə budaqlar...
Çıxır tut dərmək üçün
Oğrun-oğrun uşaqlar!
Şirin tut bir gecədə
Doyub səhərə kimi.
Ağ parça—paraşütü
Tutublar süfrə kimi.
— Süsən, tut çırpırıq, tut,
Gəl, sən də parçadan tut!
Zirək oğlan uşağı
Silkələyir budağı.
Qız deyir gülə-gülə:
— Orxan, bərk-bərk silkələ!
Tut tökülür yerə,tut,
Bacarsan havada tut!
Hamı yaxına gəlir,
Şən səsləri yüksəlir...
— Ay Süsən, salam, — deyə
Alır onu dövrəyə.

4

Əncir ağacı,
Tanıdın məni,
Süsənəm, Süsən!
Nə bərkdir meyvən.
Əncir yeməyi
Çox sevirəm mən.
İri yarpaqlı,
Əyri ayaqlı
Pota bir əncir
Dil açıb deyir:
— Tanıdım səni,
— Dəcəl Süsəni!



Sən heç çəkmə qəm,
Ay mehriban qız,
Yetişər meyvəm
Gələndə payız!
Sahillərdən bu zaman
Gəlib söylədi Orxan:
— O yerdə ki qaya var,
Orda çimir ayılar.
— Necə?! Ayılar çimir
— Yalan deyildir sözüm
Lap yaxından onları
Orda görmüşəm özüm.

5

Bağları gəzə-gəzə
Süsən gedir dənizə.
Bu dənizdə gördüyü
Balaca qayalardır.
Su içində qayalar
Balaca ayılardır!
— Süsən, bura gəl,
Burda var bir göl...
Süsən yüyürür,
Qayalar görür.
Deyir astadan:
— Axı, göl hanı?!
Göstərir Orxan
Qoşa qayanı.
Bu qayaların
Arasında göl.
Rəngi suların
Dəniz kimi göy.
Burda bir qaya da var,
Yatmış timsaha oxşar.
— Axı, bura haradır,

Elə bil mağaradır!
Altı kölgəli, sərin,
Həm də dərindir, dərin...
Yeraltı yollar kimi.
Qaya isə dənizə
Uzanıb qollar kimi.
Görür bu yerdə çimən,
Su altında bir çəmən.
Görür saç kimi uzun
Dəniz rəngində yosun.
Pinqvindir qayalar,
Tramplindir qayalar,
Çox hündür bir qayadan
Süsən hoppanan zaman
Paraşütü açılır,
Enmir,
Havada qalır,
Uşaqlar çığırırlar.
Köməyə çağırırlar.
Yüyürüb gəlir Orxan
O cəsur, igid oğlan.
Atlanıb ildırım tək,
Yapışır paraşütdən,
Onlar suya düşürlər,
Uşaqlar gülüşürlər!

6

Süsən qum üstə yatıb,
Quma batıb.
Sahil başdan-başa qum,
Ləpələr çəkir hücum.
Həzin nəğmə oxuyur,
Ağ-ağ naxış toxuyur...
Çəkilib gedir naxış,
Bir anda itir naxış,



Süsən onlara baxır,
Baxır, sonra darıxır,
Qalxır...
qumdur üst-başı,
Yanağı, alnı, qaşı...
— Qumdan adam düzəlib,
Odur, sahilə gəlib.
Süsən baxır oğlana:
— Ay Orxan, bu sənsən ki,
Bənzəyirsən xortdana.
Birdən hirslənir Orxan:
— Sən mənə dedin xortdan?!
Dərhal keçir hücuma,
Süsəni yıxır quma.
Qum necə də istidir,
Hər dənəsi incidir!
Onu uçurur külək
Qızıl zərrələri tək!
Süsən hey gülür bərkdən,
Qalxmır bu qumlu yerdən.

7

— Süsən yoxdur...
— Bəs hanı?
Axtarırlar hər yanı.
— Odur, baxın, uşaqlar,
Paraşut göyə qalxır.
Süsən qorxu içində
Açıq dənizə baxır.
Orxan birdən Süsənə
Qışqırır:
— Qorxma! — deyə,
— Qorxma, sənin dalınca
Gələcəyəm köməyə.

Hər tərəf bulud-bulud,
Uçur, uçur paraşüt...
Qız görəndə buludu
Yaran bir vertolyotu
Bildi ki, Orxan gəlir,
O cəsur oğlan gəlir!
Xəzər gömgöy parçadır,
Buruqlarsa nöqtələr.
Onlar uçur, az qalır
Buludlarda itələr.
Bu Bilgəh, bu Nardaran,
Bu Maştağa, bu Şağan,
Hamısı — gözəl məkan.
Baxır dənizə sarı
Zuğulbanın dağ kimi
Hündür qayalıqları.
Hər tərəfdə bağ-bağat,
Hər tərəfdə şən həyat!
Külək qalxıb yenə də,
Ağacları oynadır.
Zuğulbanın yanında
Görünən Buzovnadır!
Birdən hər yanı tutdu
Vahiməli gurultu...
Süsən tir-tir titrədi
Qorxub həyəcanından,
Bu vaxt təyyarə qalxdı
Təyyarə meydanından.
Qəribədir, quş kimi
Uçub getdi yanından.
Bəs o hansı məkandır,
Bu yersə Mərdəkandır.
Bəzəyir naxış kimi
Həmişə sahilləri
Mərdəkanın nur kimi



Yanan qərənfilləri.
Kiçik-kiçik ada var,
Kiçik yarımada var,
Bu yerlərlə birləşən
Necə estakada var!
Qədimdən qala-qala,
Birdən görünür Qala!
Dənizin sahilində
Kiçik bir şəhər kimi,
Şəhər doğma elimdə,
Əzizdir Xəzər kimi.
Bir az o yanda Hövsan,
Hövsanda qədim liman,
Yanında Türkan!
Bunlar da —
Gözəl məkan!
Daşları xına-xına
Bir yer var: Xaşa-xuna.
Tutub burda hər yeri
Su quyusu üstündə
Dəyirmanın pərləri.
Onlar —
ala-bəzəkdir,
Əlvandır, rəngbərəngdir.
Birdən açılır dəniz:
Böyük,
qüdrətli, təmiz!
Sahil—naxışlı, ağ-ağ,
Uzanır zolaq-zolaq!
Uçur dənizə doğru,
Onlar qayıtmır geri,
İndi qalır
uzaqda
Abşeron sahilləri!
Gün dənizə səpir nur,

Sular zərə bürünür.
Qız deyir: — odur, odur,
Neft daşları görünür.
— Bəlkə bura depodur?!
Uzun estakadalar
Sanki qatardır, qatar.
Qağayılar nə qədər
Uçurlar dəstə-dəstə
Uçalır dəmir şəhər
Mavi dalğalar üstə!
Süsənə gülüb Orxan
Əl edir vertolyotdan.
Geri qayıdır onlar,
Hər tərəf bulud-bulud,
Uçur, uçur yanaşı,
Vertolyotla paraşüt...
Lap yaxın olan kimi
Orxan birdən atlanır,
İplərdən tutub möhkəm
Paraşütdən sallanır.

8

Günəş yaman bərk yanır
Yayın qızmar çağında,
Orxan Süsənlə birgə
Gəzir üzüm bağında.
— Ay Orxan, göyə bir bax
Günəş od ələyir, od...
— Bu odu, bu atəşi
İçir yarpaq, içir ot...
Günəş əziz bir ana,
Üzüm tağları körpə...
Uzanıb qumun üstə
Günəşi öpə-öpə!
Qızıl şirəsi kimi



Onu içir gilələr,
Keçiməməsi kimi
Dolub şişir gilələr.
Durna gözü kimi saf,
Kəhrəba kimi şəffaf
Salxımlar qumda yatır,
Gilələr quma batır.
Ancaq yenə təmizdir,
Sağlamdır, ləkəsizdir!
Bax, budur,
Yaxşı tanı,
Qara şanı, ağ şanı!
Bilir bütün el-oba
Kəhrəbadır, kəhrəba!
Günəşi içib,
Gilələr şişib.
Gəlin, uşaqlar,
Üzüm yetişib!
— Salxımı dərmək
Çətindir çətin.
Orxan qışqırır:
— Qayçıyla kəsin!
— Süsən, ay Süsən...
Süsən dayanır,
Sağa boylanır,
Sola boylanır,
Görməyir heç kəs,
Hardan gəlir səs?!
— Süsən, ay Süsən...
Mənəm əncir ağacı...
— Ah, əncir... sənsən?!
— görürsən, mənəm,
Gəl, gəl yaxına,
Yetişib meyvəm!

Bal kimi şirin əncir
Necə də ləzzətlidir!
Yupyumşaqdır yanağı,
Çatlayıbdır dodağı...
Orxan onları dərir,
Bir-bir Süsənə verir.
Ənçir ağacı birdən
Paraşütə çevrilib
Tərpənib qalxır yerdən.
— Ura! — qışqırır Süsən.
Üfüq sonsuz, göy sonsuz.
hər tərəf ulduz-ulduz!
— Süsən, yerə bax, yerə,
O al-əlvan güllərə!
— Ulduzlar yerə enib,
Hər yana səpələnib.
— Gəl, enək yerə, Orxan,
Baxaq güllərə, Orxan.
Paraşüt yavaş-yavaş
Bağlara enir birbaş.
Qız düşüb bağa gəlir,
Görəndə al gülləri,
Dərhal qabağa gəlir,
Uzanır ağ əlləri!
Zəfəran sanki çiçək,
Nə gözəldir, nə göyçək!
Kiçik, nurlu çələngdir,
Qızıldandır ürəyi,
Qırmızı, sarı rəngdir
Dörd ləçəyin bəzəyi.
Rəng alıbdır elə bil
Günəşdən al qərənfil.
hər tərəfdə gül-çiçək,
Gözəl, əlvan, rəngbərəng...



Birdən bu ətirlərə
Başqa ətir qarışır,
Qəribədir,ətir də
Bir-biriylə yarışır.
Güllər kimi xoş olur
Bu isti çörək ətri.
— gedək, nənəm yəqin ki,
Qalayıbdır təndiri.
Yüyürdülər bir anda
Tanış həyətə sarı.
Çörəyə, bax, çörəyə
Zəfəranlı, sapsarı.
Təndirdən çörəkləri
Nənə çıxarır bir-bir:
— Yeyin, pendirlə yeyin,
Görün, nə ləzzətlidir!
Süsən isti çörəyi
Əlindən yerə qoymur,
Nə qədər yeyirsə də,
Ancaq yenə də doymur.
Sərin su içsin deyə
Qaçır quyu yanına,
Açaraq sürət verir
O, yel dəyirmanına.
Su axdıqca hovuza
Şırhaşırla tökülür
Qız sudan içə-içə
Orxana baxıb gülür.

9

Süsən yaman darıxıb,
Süsən yaman kövrəlib.
Şəhərə getmək üçün
Stansiyaya gəlib.

Vay... Gecikib qatara,
Baxır, kədərlə baxır,
Qatar gedən yollara.
Birdən... Nə oldu... nədir?!
Qışqırır:
— Oy, oy, — deyə
O sehrli paraşüt
Qızı qaldırır göyə!
Gör nə qədər adamı
Aparıb gedir qatar.
Gəzib yarımadanı
Uzaqda itir qatar.
Dolanıb sahilləri
Bakıya dönür geri.
Yanaşı uçub gedir
Paraşüt bu qatarla,
Qız baxıb vidalaşır
Sahillə, qayalarla.
— Süsən... Süsən... — qışqırır
Uzaqdan bizim Orxan.
Dayanıb əl eləyir
Tut ağamı yanından.
O böyük tut ağacı
Necə solub, saralıb,
Əncirə bax, bir yanda
Büzüşüb, tənha qalıb.
Elə bil qatar-qatar
Geri gedir buruqlar.
Qatarın relslərinə
Çırpılır gur dalğalar!
Süsən sevinclə dinir:
— Dənizdən çıxır qatar!
«Süsən, Süsən» — səslənən
Dalğalar aşıb-daşır.
Paraşüt də, qatar da
Bakıya yaxınlaşır!



# Uşaqlar və yeniyetmələr üçün nəsr əsərləri



# "Gecə qapi döyülür" kitabından (1988)

## *POVESTLƏR*

### DƏNIZ SƏYAHƏTİ

Dənizin sahilindəki qəsəbənin yaşıllığı beşmərtəbəli binaların çoxunu gizlətmişdi. Bəzən ağacların arasından orda-burda üzə çıxan binalar görünürdü. Dənizlə ümumi şose yolunun arasında olan bu qəsəbənin lap yuxarı başındakı limana doğru başqa bir yol uzanırdı.

Cavid tez-tez dəniz sahilinə gəlməyi xoşlayırdı. Həmişə də çimərlikdən azca kənarda, qəsəbə ilə lap liman arasındakı balaca qayanın yanında dayanır, qarşısında açılıb göz işlədikcə üfüqlərə qədər uzanan dənizə baxmaqdan doymurdu.

Bu təkcə adət deyildi. Hələ uşaqlıqdan dəniz səyyahlarına bəslədiyi maraqdan doğan həvəs idi. Bir də bu həvəs gəmi kapitanı olan doğmaca əmisi Bahadurun söhbətlərindən yaranmışdı. Cavid bütün kapitanları ciddi, qaşqabaqlı, ucaboylu, qüvvətli təsəvvür eləyirdi, əmisinin belə olmaması ona qəribə və anlaşılmaz gəlirdi. Bahadur şən, zarafatcıl, deyib-gülən, arıq, çəlimsiz bir adam idi, dodaqlarından gülüş əskik olmazdı. Qalın, qara qaşları var idi, üzünün tüklərini tez-tez qırxsa da, yeri həmişə qaralırdı.

– Kişi qırığı, necəsən? – deyə Cavidin saçlarını sığallayır, onunla uzun-uzadı söhbət edir, zarafatından qalmırdı. – Səni Kuk

adalarına aparacağam. Bilirsən bu adalar hardadır? Uzaqda; okeanda! Bir şey var ki, heç özüm də o adaları görməmişəm.

Kuk adaları ilə söhbət bir neçə dəfə təkrar olunmuş, işıqlı, sehrli bir aləm kimi həmişəlik Cavidin yadında qalmışdı. Qəribədir ki, bu adaları hətta yuxusunda görmüşdü. Onların bir-birindən seçilən, bərq saçan rənglərini unuda bilmirdi. Bu ağlasığmayan, təsəvvürə gəlməyən qeyri-adi rənglər idi, belə rənglərə hələ ömründə heç yerdə rast gəlməmişdi.

Gözəl, sakit may günü Cavid axşamayaxın sahilə endi, qəsəbə ilə liman arasındakı balaca qayanın yanına gəldi. Ləpədöyəndən azca aralıda yerləşən, kələ-kötür, yöndəmsiz, sərt qayanın dənizə baxan tərəfi aşağıya doğru yastılaşırdı. Cavid həmişə qayanın bu yastı tərəfində dayanmağı xoşlayırdı. İndi də yaxınlaşıb qayanın yanında yox, sahildə, ləpədöyənin qarşısında dayandı.

Ütülənmiş göy parça kimi dümdüz dəniz uzaqda eyni rəngli üfüqlə birləşib itirdi. Cavid dənizin uzandığını, üfüqlə birləşdiyini bilsə də, bə'zən ona elə gəlirdi ki, dəniz qurtarmır, göyə qalxır, başının üstündə dalğalanır, çox uzaq olduğu üçün dalğalanması bilinmir.

Bir az sonra geri dönüb qayanın yastı tərəfinə söykənib yenə dənizə baxdı. Bilirdi ki, bu dənizdə adalar var, əmisinin dediyi Kuk adaları kimi adalar. Bunları görmək istəyi onda elə güclü idi ki, bu istəyinə ancaq xəyallarında çatırdı. Xəyala qapılmaq uşaqlıqdan Cavidin adətinə çevrilmişdi. Dənizə baxa-baxa yenə gözləri önündə göy palma ağacları bitən, uzaqda sehrli qayaları qaralan bir ada canlanırdı. Adada heç kəs yox idi, heç kəs! Cavid o qayalara doğru gedirdi. Yaxınlaşan kimi qayalar uzaqlaşır, uzaqlaşırdı. Cavid yüyürdü, yenə qayalara çata bilmədi. Üstünə qapqara kölgənin düşdüyünu görüb dayandı, başını yuxarı qaldırmaq istədi. Bu vaxt dənizdə qabaran, yellənən sular nəzərini elə cəlb etdi ki, kölgə yadından çıxdı. Çünki sakit dənizdə belə qabarmanın, yellənmənin baş verməsi möcüzəyə bərabərdi. Əvvəlcə, qabarcıqlar buraxan uzun boru, sonra iki əl üzə çıxdı, suları araladı, sağ və sol tərəf ləpələndi, birdən iki əl itdi, azacıq



sonra baş göründü. Cavid özündən asılı olmadan qayadan aralanıb dayandı, bayaqkı xəyaldan sonra kiminsə dənizin dibindən çıxdığını güman edib heyrətindən daha tərpənə bilmədi. Bu, dənizin di- bindən çıxan su pərisimi idi, yoxsa cin-şeytan?! Hələ də Cavid bu möcüzəni aydın dərk edə bilmir, qarşısında özü yaşda bir qızın dənizdən çıxıb dayanmasına heyran-heyran tamaşa edirdi. O, əlini arxa tərəfə uzadıb eynəyi, sonrasa rezin papağı çıxartdı. Papağın altına yığılmış saçlar açılıb çiyinlərinə töküldü. Qız Cavidin gözlərinə baxa-baxa qəhqəhə çəkdi:

– Axşamın xeyir, Cavid! Məni tanımadın?

– Cəmilə, sənsən?!

– Görmürsən, mənəm.

– Bəs... bəs... – Özünü elə itirmişdi ki, Cavid nə deyəcəyini bilmədi. Bəs sən... dənizdən necə çıxdın?

Cəmilə yenə qəhqəhə çəkdi:

– Məni bayaqdan görmürsən?!

– Yox...

– Bacımla gəlmişəm çimməyə. Ordayıq. Bacım kitab oxuyur. Sahillə gəlib sənin yaxınlığında suya girdim, düz qarşında da sudan çıxdım.

– Mən də elə bildim ki, dənizin içindən gəlirsən...

Cəmilənin bədənində ulduz-ulduz sayrışan damcılar qurumaq bilmirdi. Deyəsən, üşüyürdü, rəngi də azca avazımışdı.

– Sənə soyuq dəyər, Cəmilə...

– Heç nə olmaz! – deyə Cəmilə yaxınlaşdı, – birinci dəfədir ki, çimirəm. Heç bilirsən, nə yaxşıdır! Bəs sən niyə çimmirsən?!

– Hələ tezdir...

–Tez deyil, hava isti, su isti! Bacım da deyir ki, tezdir, ona görə də çimmir. Nahaq!

Cavid Cəmilənin gözəl olduğunu bilirdi, ancaq bu anda qız ona daha füsunkar göründü, gözlərini qəşəng sifətindən, uzun boynundan, zərif çiynindən, ağ sinəsindən çəkmədi.

Günəş batmış, qızartılarını dənizdən, üfüqdən, göydən çəkib aparmışdı. Təkcə batdığı tərəfdə, dənizdən azca aralıda, göyün bir

hissəsində qızartı qalmışdı. O da elə solğun idi ki, get-gedə rəngini itirib saralır, sonra bozarır, yavaş-yavaş yoxa çıxırdı.

Cəmilə əməlli-başlı üşüyür, dişləri bir-birinə dəyirdi, buna baxmayaraq sinif yoldaşları Kələntərin, Cavidin xəyalpərəstliyini məharətlə yamsılayıb dil-dil ötürdü. Kim bilir, bunu neçənci dəfə idi ki, danışırdı.

– Cəmilə, axı bunu bilirəm.

– Nə olsun, sənin kimi necə oturub xəyala dalır, bunu ki görməmisən. Deməк, heç nə bilmirsən!

– Görməsəm də, təsəvvür edirəm.

– Vay-vay, üstüm-başım qurumur. Mən qaçdım, Cavid hələlik, – deyə Cəmilə üşüdüyünü yenə gizlədib, çimərliyə tərəf götürüldü. Bacısına çatan kimi əlindəki şeyləri yerə atıb, sarı rəngli dəsmala büründü.

Cavid evə gələndə hava qaralmışdı. Liftdən çıxıb pillənin qarşısındakı qapıya yaxınlaşanda onun azacıq açıq olduğunu görüb heyrətləndi. Qapını aralayıb içəri ğirəndə Bahadur əmisinin gülüş səslərini eşitdi. Otaqda, stol arxasında əyləşib nar qovurması yeyə-yeyə Bahadur söhbət edən Güllüyə qulaq asırdı. Arıq, qarayanız, ancaq diribaş bir qadın olan Güllü Cavidin anası idi, divanın qarşı tərəfində qoyulmuş televizorun böyründə dayanmışdı.

– Axşamınız xeyir! – Cavid ayağını otağa basanda, anası bir anlıq səsini kəsdi. Bahadur:

– Xoş gördük, kişi qırığı, – gülə-gülə salamlaşdı. – gəl yanıma, sənə yaxşı bir xəbər verəcəyəm!

Cavid onun qarşısında, stol arxasında əyləşən kimi anası yenə söhbətini davam etdirdi.

– Səhərisi gün parketi elə sildim ki, güzgü kimi oldu. Təsərrüfat müdiri gələn kimi eynəyi taxıb baxdı, elə bir-iki addım atmışdı ki, ayağı sürüşdü. Üzüqoylu yerə gələcəkdi, birtəhər özünü saxladı, qaş-qabağı bir qarış sallandı. Bahadur, gülməyim nəyə tutur, o gündən sonra işə gəlmədi, üstündən beş gün keçib, nə izi var, nə tozu! Hamı deyir ki, onu sən qaçırtmısan. Sən allah, özün de, mənim nə günahım var?



– Günahın çoxdur, Güllü. – Bahadur gülüb boşqabı qabağından kənara itələdi. – Sən adi xadimə-süpürkəçi, o isə böyük müdir, ağlınla, işinlə utandırmısan onu! Eh, Güllü, əgər bilsəydi o boyda binanı silib-süpürməklə üç yetimə baxırsan, bəlkə də, xəcalət çəkərdi.

– Onda utanan sifət yoxdur. – Güllü Cavidə tərəf yeridi, – Yeməyini verim, oğul?!

– Yox, ana istəmirəm.

Bahadur stol arxasından durub özünü divana atdı. Yarıuzanmış halda iri, qırmızı balışa dirsəkləndi:

– Bu gün sizdə qalacağam, a kişi qırığı, – dedi, – Nazilə xalan gedib atasıgilə. Sabah gələcək. Gəl, balası, gəl yanıma, böyrümdə əyləş, çoxdandır ki, səninlə Kuk adalarından söhbət etmirəm.

– Əmi, mən heç öz adalarımızı görməmişəm.

– Görəcəksən, kişi qırığı, tezliklə görəcəksən.

– Bəs haçan?

– Bu ilin yayında. Bir həftəliyə gəminin icazəsini alacağam. Verəcəyəm sizə.

– Bir həftə, nə az...

– Az deyil. Dənizlə zarafat eləmək olmaz, axı onun fırtınası, dalğası var. Bu çox qorxulu işdir, birinizə bir şey olsa, başımla cavab verməliyəm.

– Qorxma, əmi, Yusif müəllim də gedəcək.

– Bilirəm, gedəcək. Çünki gərək uşaqların başı üstündə bir nəfər dayansın. Sənin Yusif müəllimin mülayim adamdır, bərkə-boşa düşməyib. Sərtliyi yox, dözümü yox, qorxuram ki, xeyrindən çox ziyanı olsun!

– Yox, əmi, Yusif müəllim elə deyil.

Bu vaxt Cavidin birinci sinifdə oxuyan balaca bacısı Yaqut yan otaqdan çıxıb sevinclə yüyürüb özünü Bahadur əmisinin üstünə atdı. Marçamarçla üz-gözündən öpdü, sonra Cavidlə əmisinin arasında özünə yer eləyib necə oxumasından danışmağa başladı. Cavid dilxor olub ayağa durdu, bilirdi ki, Yaqutla əmisinin söhbəti uzun çəkəcəkdir.

Güllü mətbəxdən qayıdıb, qapını açdı, eyvana çıxıb, hər tərəfə boylandı:

– Valeh, ay Valeh – deyə səslədi.

Cavidin böyük qardaşı doqquzuncu sinifdə oxuyurdu. Valeh evə həmişə gec gəlirdi. Güllü ürəyini yeyir, nigaran-nigaran yolunu gözləyir, gələndə danlasa da, oğlunun etinasızlığı, soyuqqanlığı xətrinə dəyirdi. Valeh yenə həmişəki kimi gec gəldi. Bahadur əmi onun salamını soyuq aldı. Cavid gözləyirdi ki, nəsə söz-söhbət olsun. Yox, əmisi buna imkan yaratmadı. Valeh anasının danlağı altında mətbəxdə çörəyini yeyib, əmisi ilə üz-üzə gəlməmək üçün gizlicə Yaqut yatan otağa keçdi. Güllü mətbəxdən gələn kimi divanda Bahadura yer saldı, özü də çəkilib getdi. Əmisi soyunub yerinə girə-girə üzünü Cavidə tutdu:

– Deyəsən, yatmaq istəmirsən?!

– İstəyirəm, əmi. İndi gedəcəm.

– Tələsmə, kişi qırığı, nə ürəyindən keçir, soruş, öyrən, mən də tez yuxuya gedənlərdən deyiləm.

– Əmi, adalara bizim sinfi aparacaqsan?!

– Əlbəttə, bütün sinfi...

– Hara istəsək, ora?!

– Hə, hara istəsəniz...

– Onda bizi atamın işlədiyi tənha buruğa apararsan?!

– Bəs necə! – desə də, Cavid onun ciddiləşdiyini, kədərləndiyini duydu, – sizi ora aparmasam, usta Dadaş inciyər. Rəhmətlik atanın ən yaxın dostu, usta Dadaş idi. Sizə daha gəlmir?

– Gəlir. Bir ay bundan qabaq. Bizə alma gətirmişdi, hal-əhvalımızı xəbər alıb getdi, heç çaya da qalmadı.

– Yaxşı adamlar çoxdur hələ, heyf ki, pislər də var. Yaxşı, get, yat!

– Gecən xeyrə qalsın, əmi.

Cavid astaca otağa keçib anasının yanındakı qatlama çarpayıda yerinə girsə də, uzun müddət yata bilmədi, çünki xəyalından dənizlər, adalar çıxmırdı.



Cavid səhər məktəbə yaxınlaşanda, əlindəki iri, qırmızı almanı yeyə-yeyə gələn Kələntərlə rastlaşdı. Kök, gonbul Kələntərin ağzı həmişə işdə idi, hətta dərs vaxtı yeməyindən qalmır, müəllimlərin gözünü oğurlayıb, ağzına nəsə atırdı. Salam verib, cavabını gözləmədən ağır-ağır nəfəs alıb Cavidə dedi:

– Yenə dünən xəyala getmişdin, dənizdən çıxan huri-mələk olmasaydı, gecəni də orda qalardın yəqin. Düzünü de, o huri-mələyi görəndə bərk qorxdun! Bilirəm qorxan oğul deyilsən. Alma yeyirsən, ala!

– İstəmirəm. – Cavidin qanı qaraldı. Deyəsən, yerin altından da, üstündən də xəbərin var.

– Bəs necə! Mən bilməyən şeyə qurd düşər. Eşitmişəm ki, bu yay bizi dənizə – adalara səyahətə aparacaqlar...

Cavid elə heyrətləndi ki, yerindəcə dayandı.

– Niyə elə baxırsan, mənə inanmırsan?

– İnanmaq istəyirəm. Bunları hardan bilirsən?

– O sirdir! – Kələntər almadan bir dişlək alıb, ləzzətlə yeyə-yeyə ədalandı. – Gəl gedək, nə qurudun yolun ortasında!

Cavidin Kələntərdən o qədər də xoşu gəlmirdi, onu yüngül, qətiyyətsiz, sözbaz, qorxaq bir oğlan kimi tanıyırdı. Həqiqətən Kələntər ciddi ola bilmirdi, özünü ciddi göstərəndə gulməli vəziyyətə düşürdü. Sinifdə ən çox qorxduğu bir uşaq vardısa, o da Düymə idi. Düymə ləqəbli bu oğlan sinifdə hamıdan balaca, hamıdan arıq olduğundan dərhal seçilirdi. Bə'zən çaşbaş salıb onu aşağı sinfin şagirdi bilirdilər. Düymə ləqəbinin ona necə, harda, kim tərəfindən verilməsi də məlum deyildi. Əvvəllər Kələntər Düyməyə sataşır, başına vurur, özünün ondan güclü olduğunu lovğalıqla bildirməyə çalışırdı. Bir dəfə, dəniz kənarında Düymə onunla dalaşdı və uşaqların gözü qarşısında Kələntəri yerə çırpdı. Bu elə gözlənilməz oldu ki, bir göz qırpımında. Kələntər bədəncə Düymədən iki– üç dəfə böyük və canlı olsa da, arıq, balaca oğlan tərəfindən yerə çırpılmasından pərt oldu.

O vaxtdan küsülü qalan Kələntər Düyməni görəndə həmişə üzünü çevirirdi. Düymə isə əksinə ,ona salam verir, dilə tutur, yalvarır, yanından əl çəkmirdi. Nə qədər cəhd etsə də, onun

barışmadığını görüb məyus olur, ancaq ruhdan da düşmürdü. Cavid son vaxtlar hüsn-rəğbət bəslədiyi bu balaca oğlanın işım-işım işıldayan, xırda gözlərinə baxdı, sonra qaşqabağını tökmüş, pörtmüş, üzünü yana tutmuş Kələntərə sarı çevrildi:

– Adam kin saxlamaz, – dedi, – barış!

Daşdan səs çıxdı, Kələntərdən yox!

Düymə əlini uzatdı:

– Ver əlini, barışaq!

– Kələntər, olmadı ki! – Cavid incik səslə onu dümsüklədi, – küsülü olmaq kişiyə yaraşmaz!

Bundan sonra Kələntər könülsüz əlini uzadıb, Düymənin əlini sıxdı. Düymə sevincini gizlətmədi, sinifdə atılıb-düşdü, yüyürüb pəncərənin bir tayını açdı.

Cavid yerinə keçdi, zəng səsi eşidiləndə riyaziyyat müəllimi qapıda göründü, lakin içəriyə girmədən, əlində jurnal, gecikən uşaqları tələsdirdi. Qızlar, oğlanlar hay-küylə keçir, salam verib öz yerlərində əyləşirdilər. Cavidin gözü qapıda qalmışdı, Cəmiləni gözləyirdi. Cəmilə isə görünmürdü. Hamıdan axırda müəllim içəri girib qapını örtdü. Muəllimə olduqca gəncdi, sinif jurnalın stola qoyub, ayaq üstə dayanan uşaqları ciddi baxışlarla süzüb:

– Əyləşin! – dedi.

Hazır-qayıbdan sonra Düyməni yazı taxtasını silməyə çağırdı. Cavid Cəmilədən nigaran qaldı, «yəqin, xəstələnib» deyə fikirləşdi. Elə bu vaxt qapı açıldı. Cəmilə içəri girib dedi:

– Mədinə müəllimə, bağışlayın, bir az xəstəyəm, ona görə gecikmişəm.

– Xəstəsənsə, nahaq gəlmisən, müalicə lazımdır!

– Keçib gedər, icazə verirsiniz?!

– Buyur, əyləş, axırıncı dəfə olsun!

Cəmilə başı ilə salamlaşa-salamlaşa partaların arası ilə keçərkən, Cavidə çatanda bir an ayaq saxladı, əyilib onun qulağına «sənə vacib sözum var» deyə pıçıldadı, iki cərgə arxada, Düymənin yanında əyləşdi.

Tənəffüsə qədər gözləmək Cavidə əvvəl çətin gəldi, sonra Mədinə müəllimin yeni keçdiyi dərsə aludə olub, hər şeyi unutdu, bir də zəng səsini eşidib, Cəmilənin pıçıltısını yada saldı. Ayağa qalxanda, istər-istəməz pəncərədən baxdı, dəniz üfüqlərə qədər ağ-ağ lə– pələrlə oynaşırdı, yəqin külək qalxmışdı. Çevriləndə Cəmiləni böyründə gördü.



– Sənə bir sirr açacağam, heç kimə demə, yaxşı?!– Cəmilə əyilib pıçıltı ilə danışdı, cavab gözləmədən soruşdu: – Dünən qardaşını görmədin?!

– Yox. Nə olub ki?!

– Doğrudan görmədin Valehi?!

– Görmədim.

– Uzaqda dayanıb bizə baxırdı.

– Niyə?!

– Başa düşmürsən?

– Yox!

– Çünki bacımı sevir!

– Nə?! – Cavid heyrətləndi.

– Hə, hə, sevir, bacıma yazdığı məktubu özüm oxumuşam, bu gözlərimlə... Bax, sənə tapşırıram bunu heç kimə demə ha!

– Sən özün aləmə car çəkəcəksən!

– Mən?

– Bəli sən!

– Sağ ol, heç gözləməzdim. – Cəmilə geri çəkildi, qəşəng sifəti tutuldu. – Mən xəbərçi deyiləm!

Cavid onun qəlbinə dəydiyini bilsə də, nöqsanını dediyinə görə peşman olmadı, ancaq onun necə hirslə ayrıldığını, sinifdən çıxdığını görüb təəssüf etdi. Həqiqətən də, danışmaqda Cəmiləyə çatan olmazdı. Nəfəsini dərmədən sözləri dəyirman kimi üyüdürdü. Eyni şeyi, eyni söz və əhvalatları təkrar-təkrar danışmağı sevir, bir an belə fasilə vermədən müsahibini dəng etməmiş əl çəkmirdi.

Böyük tənəffüsdə Cavid ona yanaşıb barışmaq istədi, Cəmilə üzünü çevirib hirslə çıxıb getdi. Buna baxmayaraq «Cəmilə, bir dəqiqə dayan!» deyə Cavid arxasınca yüyürdü, əlindən tutub saxlamağa cəhd göstərdi, qız ona baxmadan dəhlizin qurtaracağında itdi.

İlk dəfə Cavid əmisindən iki-üç il əvvəl, Kuk adaları haqqında eşidəndə, onu gülmək tutmuşdu. Elə bilmişdi ki, bunları əmisi özündən uydurur. Sonra yenə təkrar edəndə, maraqlanıb bu adaların harada olduğunu soruşmuş, Bahadur əlini uzadıb «çox uzaqlarda, başqa materikdə» demişdi. Oğlan dərhal başqa bir sual vermişdi:

– Bəs məni o adalara necə aparacaqsan?

– Öz balaca gəmimdə, «Xəzər»imdə!

Cavid də inanır, xəyalında möcüzələr çanlanır, hətta bunlar yuxusuna girirdi. Elə ki altıncı sinfə çatdı, coğrafiya dərsində dünyada saysız-hesabsız adaların olduğunu öyrəndi. Yusif müəllim Kuk adalarından söhbət açanda onun gözləri işıqlandı. Başa düşdü ki bu adalar əmisinin dilinə təsadüfi düşməyib, həqiqətən var, onları kəşf etmiş Ceyms adlı ingilis səyyahının familiyasını daşıyır.

Dərsin sonunda müəllim söhbətini bitirib, «kimin sualı var?» deyə soruşanda Cavid əlini qaldırıb ayağa qalxmışdı.

– Əmim deyir ki, məni Kuk adalarına aparacaq, öz gəmisində, bu mümkündürmü?!

Əvvəl uşaqlar ona heyrətlə baxdılar, sonra müəllimin güldüyünü görüb gülüşdülər. Yusif müəllim uşaqları sakit edib:

– Cavid, sənin Bahadur əmin bizi öz adalarımıza aparmağa söz verib. Öz adalarımız isə Kuk adalarından heç də əskik deyil. Çox maraqlı yerlərdir.

– Nə yaxşı! Nə yaxşı! – deyə uşaqlar yerbəyerdən dilləndilər. – Bəs nə vaxt gedəcəyik?!

– Nə vaxt?! – Yusif müəllim sualı təkrar edib susdu. Maraqlı sual verib uşaqları intizar içində qoymaq onun adəti idi. Həmişəki kimi birdən-birə cavab vermədi, asta-asta gəzindi və stola yaxınlaşdı:

– Qış qurtarır, – dedi, – indi bahardır, sonra yay... İsti, yaxşı havaların birində o adalara getmək olar!

O vaxtdan bütün sinif adalara getmək həvəsi ilə yaşayırdı. Bu barədə tez-tez söhbətlər olur, mübahisələr qopurdu. Cavidi hər gün sorğu-suala tuturdular. Onu ən çox suallarla incidən Cəmilə idi. Sualı sual dalınca verir, hər şeyi incəliyinə qədər öyrənmək istəyirdi.



Üç gün olardı ki, Cəmilə onu dindirmirdi, üzünü çevirib gedirdi. Tənəffüslərdə Cavid ona baxırdı, hətta yaxınlaşıb, barışmağa cəhd göstərirdi. Amma Cəmilə buna imkan vermirdi. Dünən böyük tənəffüsdə parta arxasında nəsə yazan Cəmilə birdən gözlərini qaldırdı. Pəncərə tərəfdə dayanıb ona baxan Cavidin gözlərini görəndə, özündən asılı olmadan hirslə üzünü yana çevirdi. Cavid bundan istifadə edib cəld yaxınlaşdı:

– Nahaq küsmüsən! – dedi, – bilirəm, gec-tez, onsuz da barışacaqsan!

– Heç zaman barışmayacağam. – Cəmilə ayağa qalxdı, ona baxmadan sinifdən çıxdı.

Həmin gün dərsdən sonra evə gedəndə Cavid iki-uç oğlanla dayanmış Valehi gördü. Qardaşı dostlarından ayrılıb ona sarı gəldi.

– Dayan, səninlə işim var.

Cavid gözlədi, Valeh əvvəlcə evə aparmaq üçün ona kitab-dəftərini verdi, sonra mənalı-mə'nalı baxıb soruşdu:

– Cəmilə ilə aran necədir?

Cavid bu sualı gözləmədiyi üçün diksindi, vaxt tapdı Cəmiləni soruşmağa. İndiyə qədər niyə ağzına su almışdı?! Aha, yəqin, bacısı ilə əlaqədar maraqlanır. Bəlkə, küsülü olduğunu bilir?! Nə cavab versin?!

– Zəhləm gedir ondan. – Cavid qaşqabağını turşudub uydurdu. – Boşboğazın biridir, ağzı açılanda yumulmaq bilmir.

– Ehey... – Valeh qardaşına acıqlandı. – Nə olub Cəmiləyə, gözəl-göyçək, qəşəng qızdır. Aranızdan su keçmirdi ki, nə oldu sizə bəs? Bura bax, sən yəqin, onun bacısını da tanıyırsan?

– Tanıyıram, sizin sinifdə oxuyur.

– Sənə bir işim düşüb.

– Buyur.

Valeh cibindən bir məktub çıxartdı:

– Gərək bu məktubu ona verəsən, Teybəyə...

– Mən niyə? Sən ki hər gün yanındasan. Özün versəş daha yaxşıdır.

– İndi mənə ağıl öyrədəcəksən, yəni sənin qədər bilmirəm, istəyirəm ki, bunu öz bacısı vasitəsilə verəsən, ya da gizlicə cibinə qoyasan.

– Onsuz da o məktubları Teybə yox, Cəmilə oxuyur.

– Ola bilməz!

– Canım-ciyərim, göz bəbəyim... Kimin sözləridir, sənin, ya mənim?! Bunları mənə gözəl-göyçək Cəmilə deyib, yoxsa hardan bilirəm?!

Valeh elə çaşıb qalmışdı ki, bilmirdi nə desin, necə hərəkət etsin. Əlini başına aparıb barmaqlarını saçlarının arasına soxdu, üzünü elə turşutdu ki, eybəcər şəkil aldı.

– Vay! Heç inanmağım gəlmir, – deyə əyilib əlindəki məktuba bir də baxdı, sonra hirslə onu cırıq-cırıq edib, göyə sovurdu. – Onda qoy heç biri oxumasın!

Valeh üzünü çevirib qaşqabaqla dostlarına tərəf getdi. Cavid yerindən tərpənməyib, onun dalınca baxa-baxa qaldı. Çünki qardaşının hərəkəti xoşuna gəlmişdi.

Evdə isə Yaqut dərs hazırlayırdı, başını qaldırıb ona baxdı, əlini saxladı. Cavid çantasını divanın üstünə atdı, Valehin kitab-dəftərlərini isə aparıb o biri otaqdakı masanın üstünə qoyub qayıtdı. Yaqut qələmin baş tərəfini ağzına soxmuşdu. Altdan-altdan Cavidə göz qoyurdu.

– Niyə yazmırsan? – deyə bacısına acıqlandı. Dərsinə fikir ver, tez elə...

– Qurtarmışam, – Yaqut dedi. – Yemək istəyirsən, verim sənə?

– Nə var ki yeməyə?

– Toyuq soyutması.

– Özüm götürərəm, əziyyət çəkmə, nə elə baxırsan mənə?!

Yaqut güldü. Cavid onun gülməyindən şübhələnib, bunun arxasında nəsə bir şeyin gizləndiyini duydu, bacısına sərt-sərt baxdı. Yaqut yenə gülməyindən qalmayıb, mənalı-mənalı



qardaşını süzürdü. Cavid yeməyini gətirib stola qoydu, Yaqutla qarşı-qarşıya əyləşəndə yenə gülə-gülə dilləndi:

– Dərsdən gələndə Cəmiləni gördüm.

– Həmişə onu görürsən də, nə olsun ki?!

– Əyilib qulağıma, bilirsən, nə dedi?!

– Yox, bilmirəm, buyur görək, nə dedi?

– Dedi ki, sənin Cavid qardaşından zəhləm gedir.

– Belə xoş xəbəri mənə çatdırdığın üçün sənə təşəkkür!

– Onun niyə səndən zəhləsi gedir?

– Yaqut, qoy çörəyimi yeyim, bu bir, o balaca burnunu hər yerə soxma, bu iki, indi get bir az istirahət elə, bu da üç!

Yaqut şey-şüylərini çantasına doldurub, o biri otağa keçdi.

Güclü külək qalxmışdı. Cavid belə küləkdə də dəniz sahilinə gəlir, ləpələrin qayaya necə çırpılmasına tamaşa edirdi. İndi qayadan aralıda dayanmışdı, çünki ona yaxın getmək mümkün deyildi. Dalğalar sürətlə sürünüb qayaya çırpılır, paraşüt kimi şişib hündürə qalxır, parçalanıb çilik-çilik yenidən tökülür, daşdan-sıldırımdan şəlalə kimi süzülürdü. Bir an keçməmiş geri qayıdan sular yenidən eyni mənzərəni yaradırdı.

Birdən Cavid heyrətləndi, çünki böyründə qum üstə şalvar, köynək və ayaqqabı gördü. Kimsə burda soyunub, dənizə çimməyə getmişdi. Belə küləkdə, tufanda?! Axı bu, ağlabatan deyildi. Cavid o yan-bu yana baxdı, şeylərin sahibini axtardı. Sahil bomboş idi, qayanın yanında da heç kəs gözə dəymirdi. Birdən ürəyinə qorxu doldu. Bəlkə, bəlkə... Kimsə dənizdə batıb?! Yox, yox, Cavid özünə təskinlik verdiyi vaxt, adını eşitdi, səs dəniz tərəfdən gəlirdi. Yenə də güclü dalğalar qayanın üstünə çırpıldı, gurultu ilə parçalanıb damcı-damcı ətrafa səpələndi. Elə ki sular axıb töküldü, qayanın arxa tərəfindən bir baş çıxdı, «Cavid» deyə çağırması ilə çəkilməsi bir oldu və yenə dalğa qayanın üstündə parçalandı.

Cavid onun kim olduğunu bilmədi, bu dəfə diqqətlə baxmaq istədi, çünki bu cəsarətli oğlanı görmək və tanımaq üçün onda maraq oyandı. Bu dəfə oğlan pişik cəldliyi ilə qayanın o tərəfindən bu tərəfinə atıldı, atılan kimi əyilib başını irəli çıxmış

daşın altında gizlətdi, dalğa gurultu sala-sala elə qüvvətlə çırpıldı ki, ağ köpük içində bütün qaya itdi, oğlan da. Bir an sonra sular şırıltı ilə axıb tökülən vaxt Cavid gördü ki, qarşısında bapbalaca bir oğlan dayanıb. Onun necə sıçrayıb atlandığını, yüyürüb gəldiyini görmədi.

– Ay Düymə, bu sənsən, qorxmursan?!

– Nədən?!

– Necə nədən, dalğadan...

– Niyə qorxum ki...

– Səni ya daşa çırpar, ya da götürüb dənizə aparar.

– Eh, bacarmaz. Bilirsən, Cavid, necə ləzzətlidir. Dalğa qayaya dəyib parçalanır, sonra sənin üstündən axıb tökülür, dalbadal, şəlalə kimi. İstəyirsən, gedək sən də çim!

– Yox! Üşüyərsən! Geyin sənə soyuq dəyər.

Düymə əli ilə bədənindəki damcıları sildi, paltarlarını geyindi, işım-işım işıldayan başını maykası ilə ovxaladı. Bir az özünə gəldi. Qarayanız sifəti bozarmışdı, xırda gözlərindən od tökülürdü.

– Külək bərkiyir. – Düymə dənizi göstərdi. Bayaq belə deyildi.

Cavid dənizin yelkən-yelkən qabardığını görürdü. İndi bu yelkənlərin bir-biri ilə toqquşması, köpüklənməsi, aşıb-daşması mavi rəngləri üstələyən ağlıqla örtülürdü. Düymə ayaqqabılarını geyən kimi:

– Hə, gedək! – dedi, – bu külək bir-iki gün çəkəcək!

– Oxşayır. Sən niyə belə balacasan?!

– Nə bilim, boyum çıxmır...

– Bəs həmişə belə qalacaqsan?!

– Yox, nənəm deyir ki, birdən boy atacağam.

– Qorxuram ki, sonra gec ola!

– Gec olmaz! Cəmilə səndən niyə küsüb?

– Sən hardan bilirsən, özü deyib?

– Yox deməyib, görürəm də, hər gün yanımda deyil?!

– Deyəsən, səninlə dostdur?



– Hardan dostdur?! Məndən çox Kələntərlə dostluq edir. Hər ikisi də çoxdanışan, od kimi... Onun da, bunun da çənəsi avtomat! Nə gülürsən, Cavid, yalan deyirəm?!

– Yox, yalan demirsən!

– Cavid, həvəsin varsa, gəl, limana gedək!

– Limana, ora niyə?!

– Gəmilərə minək. Küləkdə bilirsən, necə yırğalanır gəmi? Beşik kimi.

– Ora bizi kim buraxar?! Gözətçi arvad adama göz verib, işıq vermir. Qoyar ki, gəmiyə minəsən.

– Eh arvadın heç xəbəri də olmayacaq. Gəl, gəl, bir şey bilməsəm, demərəm ki! Arvadın belindəki tapançadan qorxursan bəlkə?!

– Ondan niyə qorxuram ki?!

– Nə bilim, dedim bəlkə...

– Yaman zəhmli arvaddır, tapança qoburu da ona yaraşır. – Eh, mən ondan bir damcı da qorxmuram. Gözünu elə oğurlayıram ki, dünyadan xəbəri olmur. İçəri girirəm də, çıxıram da... Bir dəfə onun evciyinə girdim.

– Bəs özü harda idi?!

– Nə bilim, darvazanın qarşısında dayanmışdı, deyəsən, gəlib-gedən maşınları yoxlayırdı.

– Sonra?!

– Evcikdə əlimi uzadıb tapança qoburuna toxundurdum.

– Qorxmadın?

– Yox.

– Arvad səni görmədi?

– Yanından sivişib qaçdım heç xəbəri də olmadı.

Cavid limana çox getmişdi, ancaq hər dəfə gözətçi arvad üstünə qışqırmış, qorxutmuş, çıxıb getməyi ondan tələb etmişdi. Günlərin bir günü, burda usta Dadaşa rast gəldi, usta onu görən kimi tanıdı, ayaq saxlayıb:

– Xeyir ola? – soruşdu. – İşin var?!

– Yox, elə-belə... Gəmilərə baxıram.

Usta güclü, qüvvətli bir adam idi, dəmir kimi qolları, torpaq kimi sərt əlləri, bu bədənlə uyuşmayan xeyirxahlıqla yanan, mehriban və sadəlövh gözləri vardı. Cavid altı il bundan əvvəl atasının ölümündə onun necə ağladığını unuda bilmirdi. Demək olar ki, yasla bağlı tədbirlərin hamısında iştirak edən usta Dadaş, əmisinin ən yaxın köməkçisinə çevrilmişdi. Sonralar da tez-tez onlara gedib-gəlir, unutmur, hər zaman əlaqə saxlayırdı.

Usta Dadaş, Cavidi limana gəzməyə apardı. Gözətçi arvad sıxıla-sıxıla qalıb, heç bir söz deyə bilmədi. Onda Cavid ilk dəfə gəmiyə mindi, gah aşağı düşdü, gah yuxarı qalxdı gedib uc tərəfində dayandı. Bilirdi ki, usta Dadaşın briqadasında çalışan atası vaxtilə bu gəmi ilə gedib-gələrdi. Gəmi dənizə çıxmağa hazır olanda usta Dadaş Cavidi sahilə gətür– dü:

– Orda dayan, bax! – dedi, özü qayıdıb gəminin arxa tərəfinə keçdi. Cavid gəminin boğuq fit verdiyini, yavaş-yavaş sahildən uzaqlaşdığını, usta Dadaşın isə dayanıb uzun müddət ona əl etdiyini gördü və gəmi gözdən itənə qədər baxdı.

Düymə limana çatanda, Cavidin fikir içində çırpındığın duyub, gülə-gülə dedi:

– Deyəsən, xəyala qapılmısan?!

– Bir az...

– Bəlkə, qorxursan?

– Yox, qorxmuram. Usta Dadaş yadıma düşmüşdü.

– Usta Dadaş?! O yekə, pəhləvan kişi?!

– Hə, o. Sən hardan tanıyırsan?!

– Bizim qonşumuzdur ey... Yaxşı kişidir. Həmişə uşaqlarla mehriban danışır. O dəfə həyətdə bütün uşaqlara alma payladı. Əvvəl adam ondan qorxur, sonra yox...

Gözətçi arvad qapı ağzında dayanıb kiminsə üstünə qışqırırdı. Düymə evçiyin böyründəki kiçik qapını göstərib dedi:

– Mən bu qapıdan keçəcəyəm. Bir az sonra sən keçərsən. Orda, gəminin yanında səni gözləyəcəyəm.

– Axı arvad qoymaz.

– Eh, başı qarışanda... başı da həmişə qarışıq olur. Fikir ver, mənə yaxşı-yaxşı bax, gör necə keçirəm.



Cavid bir də gördü ki, Düymə gözətçi arvadın arxa tərəfindən keçib, gəmiyə doğru gedir, əli ilə işarə edir ki, «gəl!». İri, dəmir darvazanın qarşısında yük maşını dayanmışdı. Arvad yenə qışqırırdı. Görünür, sürücünü səsləyirdi. Cavid qapını itələyib içəri girdi və tərs kimi arvadla üzbəüz gəldi.

– O... çağrılmamış qonaq, buyur görək...

– Ora istəyirəm! – deyə Cavid çaşmış halda kəkələdi.

– Hara, gəmiyə?! Ora heç quş da keçə bilməz! Ona görə tezliklə buranı tərk elə və düz evə...

– Axı yoldaşım ordadır...

– Yoldaşın?! – arvad dərhal çevrildi, gəmiyə hoppanan Düyməni gördü. – Ax! Yenə bu şeytan! Gözümü elə oğurlayır ki! Dayan əlimə keçsin, başına oyun açacağam. Heç bilmirəm bizim matroslar niyə bu şeytanı belə çox istəyirlər.

Cavid dayanmağın mənasız olduğunu bilib, qapıdan çölə çıxdı, Düyməni gözlədi. Düymə isə gəmidən gəmiyə keçir, gözətçi arvadın hay-küyünə fikir vermədən gah gizlənir, gah yenidən üzə çıxır, göyərtədən gəminin uc tərəfinə qaçırdı. Bir də gördü ki, Düymə onun yanındadır.

– Tez gedək! – deyə Düymə qabağa düşdü. – Əlindən yaxşı qurtardım, yoxsa bu arvad vayımı verəçəkdi...

Onlar darvazadan xeyli aralanmışdılar ki, gözətçi arvadın Düyməni hədələyə-hədələyə uzaqdan gəldiyini gördülər.

Cavid evdə əmisini gördü, həmişə şən olan Bahadur bu dəfə nədənsə kədərli, dalğın idi, – yığış, kişi qırığı, – dedi – gedək, bu gecə mənimlə qal. Bu birinci dəfə deyildi, Cavid onlarda tez-tez gecələyirdi. Bir də əmisini evdə tək qalan görməmişdi, elə bil tək qalmaqdan qorxurdu.

Cavid divanda əyləşib sağlamlıq haqqında təzə jurnalı vərəqləyə-vərəqləyə soruşdu:

– Nazilə xala yenə atasıgildədir?!

Bahadur elə bil eşitmədi.

Bu qəsəbədə uşaq həkimi işləyən Nazilə qəşəng qadındı, hamı başına and içirdi, çünki elə şirin dillə, qayğı və məhəbbətlə uşaqların müayinəsini aparırdı ki, heç kəs ondan incimirdi. Əli də,

sözü də ovsunlu olduğundan ən balaca uşaqlar belə onun yanında səsini çıxarmırdı. Ancaq yerli-yersiz hirslənmək kimi pis cəhəti vardı, hirsi soyuyan kimi peşman olur, yenə əvvəlki kimi mehriban, şirindilli bir qadına çevrilirdi.

– Bayaq nə soruşdun? – deyə Bahadur qəzetlərə baxa-baxa dilləndi.

– Nazilə xalanı soruşurdum.

– Nazilə xalan, deyəsən, həmişəlik gedib.

Cavid qulaqlarına inanmadı. Bahadur başını aşağı dikib qəzetin o biri səhifəsini çevirdi.

– Nazilə xala heç zaman getməz!

Bahadur gözlərini qəzetdən ayırıb kədərli-kədərli Cavidə baxdı, əlini uzadıb televizorun üstündən bir vərəq götürdü. Cavid vərəqi alıb baxdı. Vərəqdə iri hərflərlə yazılmışdı: «Mən getdim həmişəlik. Axtarma. Nazilə.» Cavid indi də gözlərinə inanmaq istəmədi, bir də oxudu, bir də, qəfildən əlini əmisinə uzadıb inamla, qətiyyətlə dedi:

– Nazilə xala gələcək, mütləq gələcək!

– İnanmıram, kişi qırığı, inanmıram.

Bahadur vanna otağında yuyunub çıxandan sonra gəlib divanda uzandı. Cavid ona baxıb birdən-birə qorxdu. Çünki üzü daha da qaralmış, elə bil kədər his kimi üzünə çökmüşdü.

– Əmi... – deyə astadan səsləndi.

– Hə nədir? – Bahadur diksinən kimi oldu. Niyə elə baxırsan, kişi qırığı?!

İndi Cavid diksindi, axı niyə çağırdığını necə desin, odur ki, bir anlıq susdu, sonra çoxdan ürəyində qalan bir sualı verdi:

– «Quba» gəmisi fırtınadan çıxdı, yoxsa yox?!

– Keçən dəfə danışdığım gəmi?!

– Bəli, o!

– Gəmi Abşeron körfəzinə girmişdi. Ancaq sahilə yan ala bilmirdi. Çünki fırtına çox güclü idi, Şüvəlan boğazının yanında qayalara dəydi, parçalandı. Təsəvvür elə, gecə qaranlığı, fırtına, külək, dalğalar, daşlar, qayalar...

– Oy, dəhşət!



– Buna baxmayaraq gəmidəkilərin çoxu salamat qaldı. Gəmi isə batdı. Bu hadisə çoxdan olub, keçən əsrin əvvəllərində.

– Gör necə qəhrəman adamlar varmış! – deyə Cavid gözlərini qaldırıb dəyirmi saata baxdı, – oy... necə gecdir! On ikidir.

– Nazilə xalan gəlmədi, kişi qırığı...

– Bu gün gəlmədi, sabah mütləq gələcək!

Səhər açılanda əmisini oyaq gördü, elə bildi ki, gecə yatmayıb. Qorxdu. Bahadur onu mətbəxə çağırdı, Cavid üçün qayğanaq hazırlamışdı.

– Ye, sonra get məktəbə!

– Yaxşı, bu dəqiqə! – Cavid qayğanağı yeyib, əmisi ilə xudahafizləşib məktəbə qaçdı.

Yusif müəllim sinif jurnalını açmadı. Hazır-qayibi onların gözü qarşısında eləmirdi. Sonra dərsarası, sinfi gözdən keçirə-keçirə, hiss olunmadan öz qeydlərini aparırdı. İndi də belə edib üzünü sinfə tutdu:

– Keçən dərsdə nəyi keçmişik?

– Yapon adalarını...

– Kim cavab vermək istəyir?

Əllər göyə qalxdı. Kələntər sağ əlini lap irəli uzatmışdı, «müəllim, mən, mən» deyir, az qala özünün gonbul bədənini qabağa atmağa çalışırdı. Müəllim Kələntər tərəfə heç baxmırdı. Gözlərini Cəmiləyə tərəf çevirdi:

– Cəmilə buyur, gəl.

Cəmilə sinfin qarşısına çıxanda, birdən Cavidin ona baxdığını gördü, üzünü çevirsə də, yanaqlarındakı qızartını gizlədə bilmədi. Çalışırdı ki, Cavidə tərəf baxmasın, amma olmurdu. Bunları Cavid duyur qızın dərsə yaxşı hazırlaşmadığını bilib, dayanıb fikirləşəndə bəzi sözləri astadan deyir, onu çətin vəziyyətdən qurtarmaq istəyirdi. Cəmilə bu gün daha qəşəng olmuşdu. Xüsusilə saçları. Alnında dübbədüz kəsilmiş saçları çiyinlərinə tökülmüşdü. Şabalıdı rəngli yubka saçları ilə birlikdə ona yaraşırdı. Cavidin kömək etməsindən məmnun qalıb, arabir gözlərini ona tərəf çevirib, minnətdarlıqla baxırdı. Yusif müəllim:

– Yaxşı hazırlaşmamısan, Cəmilə! Üç vermək istəmirəm. Səndən yenə soruşacağam. Dərsə yaxşı hazırlaşmağa çalış! Keç əyləş!

Cəmilədən sonra Yusif müəllim arxada əyləşən bir oğlanı çağırdı. Cavid təəssüflənib heyrətlə oğlana baxdı. Mövzunu gözəl öyrənmiş, həm də əlavə materiallar oxumuş Cavid danışmaq həvəsiylə alışıb yanırdı. Elə bil bu adaları qarış-qarış gəzmiş, hər şeyi öz gözləriylə görmüşdü. İndi qırıq-qırıq, rabitəsiz sözlərlə bu adalardan danışan oğlanı görmurdü. Onun yerində, gözləri önündə o yerlər canlanmışdı. Get-gedə bu xəyala elə dərinliklə qapıldı ki, hər şeyi unutdu; sinfi də, müəllimi də, dərs danışan oğlanı da!

Müəllim hamıya müraciətlə suallar verməyə başlayanda birdən dayandı. Çünki çənəsini əlləri içinə almış Cavidin özünü unudub xəyala dalmasını gördü və gülə-gülə ondan soruşdu:

– Cavid, deyəsən, Osaka adasında dolaşırsan?

– Elədir, müəllim, mən indicə Osaka adasında idim.

– Onda, buyur gəl, o adada gördüklərindən uşaqlara da danış!

Cavid necə həvəsə gəldiyini heç özü də bilmədi, bayaq xəyalında gördüyü bir ada haqqında elə maraqla danışdı ki, uşaqlar da, müəllim də ona heyranlıqla qulaq asdı. Cəmilə isə maraq və rəğbətini gizlədə bilmirdi. Tez-tez «nə yaxşıdır» kəlmələrini işlədir, gözlərini Caviddən çəkmirdi.

Yusif müəllim heç zaman, heç kəsi danlamazdı,– lakin fikrini elə mehribanlıqla, elə incəliklə çatdırardı ki, danlamaqdan, yaxud acıqlanmaqdan qat-qat üstün olardı. İndi də, Cavidə belə bir münasibətlə yanaşdı, fikrinin dərsdə olmamasına görə onu tənbeh etmək əvəzinə, bayaqkı yolu seçdi. Pəncərə tərəfdə dayanıb yapon adalarından danışan Cavidə və ona diqqətlə qulaq asan uşaqlara baxdı.

Cavid yapon adaları ilə Xəzər adalarının müqayisəsindən danışanda, Həştərxandan çıxıb gələn «Quba» adlı rus gəmisinin Abşeron sahillərində dəhşətli fırtınada məhv olmasından bəhs edəndə Yusif müəllim mənalı-mənalı soruşdu:

– Bunu sənə Bahadur əmin danışıb?!



– Bəli, müəllim.

– Çox maraqlıdır. «Quba» gəmisinin tarıxini daha ətraflı öyrənmək olar. Bu barədə fikirləşməyi sizə məsləhət görürəm. Çünki bu gəminin fəlakətə uğradığı yer uzaqda deyil, bizim Abşeron torpağındadır.

– Bu yay məşğul olmaq fikrindəyəm.

– Sağ ol, Cavid məni sevindirdin. Keç, əyləş!

Cavid yerinə keçəndə istər-istəməz Cəmiləyə tərəf baxdı. Cəmilə isə dərhal gözlərini partaya dikdi.

Cavid dənizə baxa-baxa əmisigilə gedirdi, nə külək vardı, nə dalğa! Hava qaralmaq üzrə idi. Birdən Cavidin gözünə gur işıq düşdü, əvvəl bunun nə olduğunu bilmədi, sonra birdən gözü önündə uzaqda böyük alov sütunu ucaldı və güclü bir uğultu başı üstündən ötüb keçdi. Bunun gözlənilmədən, qəfildən baş verməsinə baxmayaraq bir an içində bütün qəsəbə ayağa qalxdı. Hamı dənizin ortasında, uzaqda ucalan alov sütununa baxır, müxtəlif fərziyyələr söyləyir, heç kəs evinə getməyə tələsmirdi.

Bahadur əmisi eyvandan baxırdı. Cavid onun yanına, eyvana çıxanda hava tamam qaraldığından alov daha parlaq, daha aydın qızarırdı: – Xoş gördük, kişi qırığı, görürsən təzə vulkanı?!

– Görürəm, əmi!

– Xəzərin bu cənub hissəsində belə vulkanlar tez-tez olur. Çünki burada qaz çoxdur, dənizin altı qaynar qazandır, nə vaxt istədi, kükrəyib daşır.

– Əmi, bu gün dərsdə «Quba» gəmisinin batmasından danışanda, Yusif müəllim bildi ki, mənə bu barədə məlumatı sən vermisən!

– Yusif müəllim bizim Xəzərin tarixi ilə az maraqlanmayıb, professor Gülün tələbəsidir.

– Nazilə xaladan xəbər yoxdur?

– Yox!

– Əmi, o mütləq bu axşam gələcək!

– İnanmıram, kişi qırığı, inanmıram. – Bahadur köks ötürüb kədərlə əlavə etdi. – Qayıtmasa buna dözə bilmərəm. Hələ sənin belə şeylərdən başın çıxmaz. Keçək içəri, bir az dincələk...

Yeməkdən, istirahətdən sonra hərəsi bir işlə məşğul oldu. Cavid dərslərini hazırlayıb çantasını səliqəyə salanda, birdən qapının zəng səsinə diksindi. Bahadur divandan sıçradı.

– Nazilə xaladır! – deyə Cavid ayağa qalxıb əmisinin dalınca qapıya getdi.

Nazilə salamsız-kəlamsız içəri girdi, qaşqabaqlı pəncərəyə sarı addımlayıb, qarşısında dayandı. Bahadur Cavidə, Cavid isə əmisinə baxdı. Dərin sükut çökdü.

– Sənə nə olub, Nazilə? – Bahadur astadan soruşdu.

Cavid Nazilənin hirsli, əsəbi qayıtdığını başa duşdü, nə hadisə baş verdiyini bilməsə də indi küy– mərəkənin qopacağından qorxub getməyi qət etdi. Bahadur bayaq sualının cavabsız qalmasını görüb bir az fasilə verəndən sonra yenə təkrar mehribanlıqla:

– Hara getmişdin, Nazilə? – soruşdu.

Daşdan cavab gəldi, Nazilədən yox. Gözlənilmədən hönkür-hönkür ağlamağa başlayanda, Bahadur da Cavid də özlərini itirdilər. Nazilə isə susmaq bilmədi. Bahadur həyəcanlanıb irəli atıldı, onu qucaqlayıb oxşamaq istədi, ancaq qadın onu yaxına buraxmadı. Yavaş-yavaş hönkürtüsü kəsildi, üzünü Bahadura çevirib hıçqıra-hıçqıra:

– Bahadur, əzizim, gəl ayrılaq, – pıçıldadı,– barı sən xoşbəxt ol, adam kimi yaşa, eşidirsən, Bahadur. Dediyim sözlərə qulaq as, bil ki, mən səndən heç zaman incimərəm! İstədim ki, həmişəlik gedim, o fikirlə də getmişdim, özümlə bacara bilmədim. Qayıdıb gəldim. Gəl, Bahadur, bu daşı ətəyindən tök, ağıllı ol, mən də sakitləşim, yaxşı, Bahadur?!

Cavid bilmirdi nə etsin, getsin, yoxsa qalsın, çünki daha özünü burda artıq adam sayırdı. Elə ki çantasını götürüb, əmisinə işarə vurub qapıya sarı getdi, arxası otağa olan Nazilə qəfildən geriyə döndu:

– Cavid! – deyə səsləndi. – Bu gecə vaxtı hara gedirsən? Qayıt görüm, tez elə!

Nazilə tez mətbəxə keçdi, qatıq, süd gətirdi, Cavidi yanında əyləşdirib, kef-əhvalını soruşa-soruşa, dilə tuta-tuta yedirib-içirtdi.



Bayaqkı kədərli, dilxor vəziyyətindən uzaqlaşıb, narahat fikirlərini qovmağa çalışdı. Cavid Nazilənin xasiyyətinə yaxşı bələd idi.

İndi Nazilə bayaq hönkür-hönkür ağlayan, hıçqıran qadına oxşamırdı. Hətta deyib-gülürdü də.

Cavid arabir eyvana çıxır, sütun kimi ucalan qeyri-adi alova baxmağı unutmurdu.

O alov ancaq bir həftədən sonra söndü. Bu müddətdə Cavid demək olar ki, hər saat ona baxır, fikirləşir, nə vaxt sönəcəyini gözləyirdi. Çoxusu deyirdi ki, alov hər yandan görünür, hətta Bakıdan, Ələtdən...

Bu vaxtlarda altıncı sinfin adalara səyahəti məsələsi həll olundu.

Yusif müəllim sinfə müraciət edib, kimin getmək istədiyini soruşanda, hamı əlini qaldırdı.

– Demək, bütün sinif! Elədirsə, indidən hazırlıq görün! – Yusif müəllim partaların arası ilə gəzə– gəzə vəzifə bölgüsü apardı və bir-bir tapşırıqlarını verdi. Qabaqcadan deyirəm, kim qorxursa, kim tənbəlsə, bu səyahətə getməsə daha yaxşı olar. Məqsədimiz yalnız bu adaları gəzmək deyil, həm də doğma Xəzər dənizini daha yaxından görməkdən, tanımaqdan ibarətdir.

Havalar da istiləşmişdi. Bə'zən külək əsib istisini sıradan çıxartmaq istəsə də, bacara bilmirdi. Küləkli günlər də adamı üşütmürdü.

Cavid sahilə gələndə qayanın yaxınlığında bir kölgənin ötdüyünü görüb maraqlandı, yaxınlaşıb ora-bura baxdı. Heç kəs gözə dəymirdi. Elə bu vaxt arxasında kiminsə dayandığını duyub çevrildi və gülən Düyməni gördü. Düymə gülməyini kəsmədən:

– Sənin gəldiyini görürdüm, – dedi. – Ona görə gizləndim, istədim ki, qorxudum. Cavid, Cəmilə də burdadır, bacısı ilə... Odur, o yanda... Bax, Cəmilə paltarını dəyişir. Sən çiməcəksən?

– Çiməcəyəm.

– Onda gedək Cəmiləgilin yanına.

– Yox, bura yaxşıdır.

– Cavid, qardaşın Valeh də burdadır, Cəmiləgilin arxasında, təkcə oturub.

Cavid Cəmiləni, bacısını, hətta öz qardaşını bura gələndə uzaqdan görmuşdü, ona görə Düymənin xəbərlərini soyuqqanlı qarşıladı, qayanın yuxarısına qalxdı, hündürdə dayanıb sakit dənizə baxmağa başladı. Dəniz elə sakitdi ki, ütülənmiş göy parça kimi dübbədüz! Onu mavi səmaya bənzətmək olardı. Cavid özünü bir anlıq dənizin ortasında təsəvvür etdi, üzdü, ancaq sahilə gəlib çata bilmədi. Xəyalında fırtına qopdu, böyük dalğaların qucağında atılıb-düşdü və birdən öz adının çağırıldığını eşidib diksindi. Duymə idi:

– Ay Cavid, Valeh bayaqdan səni çağırır, – dedi. Get gör, nə sözü var? Cavid, nə olub sənə?

Cavid arxaya döndü, qardaşının qayadan üç-dörd addım aralıda dayandığını görüb hündürdən tullanıb onun yanına qaçdı. Valeh hirsli-hirsli:

– Karsan, yoxsa yatmısan? – soruşdu.

– Nə olub ki?!

– İşim düşüb sənə, yenə o dəfəki kimi. Apar bu məktubu Cəmiləyə, qoy bacısına versin, – cibindən çıxardığı dördkünc kağızı ona uzatdı.

– Axı Cəmilə məndən küsüb.

– Onda apar gizlicə cibinə qoy.

– Cibinə?

– Hə, dənizə çimməyə gedən kimi. Nə var ki burda, nədən qorxursan?

– Yaxşı! – Cavid məktubu aldı, – dərhal beynində yeni bir fikir doğdu. Geri qayıdıb sahildə dayanıb onu gözləyən Düyməni yanına çağırıb dedi:

– Bu məktubu görürsən? Cəmilənin bacısı Teybənin cibinə qoymaq lazımdır. Bacararsan?

– Niyə bacarmıram. Bu dəqiqə. Ver!

– Qoy dənizə çimməyə getsin, sonra...

– Eh, gözünün qabağında cibinə qoyacağam. Qorxma, bu mənim əlimdə su içmək kimi asandır! Düymə məktubu alıb, bir an içində sahillə Cəmiləgilin yanına qaçdı. Çatıb, bir azdan hər ikisinin qarşısında dizi üstə dayanıb qəribə oyunlar çıxartdı.



Cəmilə də, bacısı da qəhqəhə ilə gülürdü. Cavid dənizə girib üzə-üzə onların olduğu istiqamətə yaxın– laşanda Cəmilənin də suya girdiyini gördü. Düymə isə Teybə ilə qalmışdı. Nə deyirdisə, nə hərəkət göstərirdisə, qız uğunub özundən gedirdi. Birdən Düymə ayağa qalxdı, sonra əlləri üstə dayandı, sonra yıxıldı, elə etdi ki, Teybənin az qala üstünə düşsün, qız qış– qırıb hətta Düymənin kürəklərinə bir-iki yumruq ilişdirdi. Cavid daha onlara baxmadı, çünki yaxınlıqda Cəmilə üzürdü, suya batdı, bir də qızın yanında üzə çıxdı. Cəmilə əvvəl qorxub diksindi, sonra Cavidi tanıyıb üzünü çevirdi. Ancaq bu dəfə üzü qəzəbli deyildi.

– Cəmilə! – Cavid onu səslədi, qız cavab verməyib, sahilə doğru üzdü.

Cavid geriyə – qayaya tərəf dönüb, üzməyə başlayanda, Düymə sahillə qaçırdı, onu sahildə görməyib dənizə cumdu. Tapşırığı yerinə yetirdiyini xəbər verməyə can atırdı. Bir göz qırpımında da Cavidin yanında peyda oldu.

– Qoydum cibinə! – deyə üz-gözündən su süzülə-süzülə, sevinə-sevinə onun dövrəsində üzdü, – heç özünün xəbəri olmadı.

– Afərin, Düymə! Çıxartdığın oyunları gördüm.

– Səni Cəmilə ilə də barışdıracağam!

Bu sözləri deyən kimi Düymə suya batdı, Cavid xeyli gözlədi, onun çıxmadığını görüb həyəcanlandı. «Yox, bu qədər suda qalmaq olmaz!» belə fikirləşən kimi qorxusundan var gücü ilə «Düymə» deyə qışqırdı. Arxasında gülüş səsi eşidib çevrildi. Düymənin təkcə başı sudan çıxmışdı. Dəyirmi, qarayanız sifətindən işım-işım işıldayan xırda gözləri tez– tez qırpılırdı.

– Deyəsən, qorxdun?

– Bəs necə, adam belə oyun çıxarar?!

– Bağışla, bir də eləmərəm.

Onlar üzə-üzə sahilə çıxıb qayaya tərəf getdilər. Günəş üfüqə əyilmiş, yarısı uzaqda, dağların arxasında itmiş, o biri yarısı qızara-qızara göyü başdan-başa bürümüşdü.

Dərslər də qurtardı, imtahanlar da. Səyahət günü gəlib çatdı. Hamının limana toplanması qərara alındı.

Qəsəbədən limana məsafə uzaq deyildi, çoxu piyada gedib-gəlirdi. Cavid də sübhdən limana Nazilə xalası ilə birlikdə gəldi. Bahadur, hər ehtimala görə, həkim götürməyi unutmamış, qəsəbədə yeganə uşaq həkimi olan arvadını da bu səyahətə cəlb etmişdi. Elə ki onlar limana yaxınlaşdılar, şəbəkəli darvazanın böyründə, hamıdan əvvəl gəlmiş Yusif müəllimi gördülər.

Müəllim başına iri, dəyirmi, həsir şlyapa qoymuş ağ parusindən şalvar, lavsandan tikilmiş, qəhvəyi rəngli qısaqollu pencək geymiş və tanınmaz olmuşdu. Elə bil həmişə sinfə girən muəllim deyildi. Ayaqlarında yüngül idman çəkməsi vardı. Hər ikisi ilə görüşüb:

– Nə yaxşı həkimimiz var! – deyə sevincini gizlətmədi. – Daha qorxum yoxdur.

Cavid limanın darvazası yanındakı gözətçi evciyinə tərəf getdi. Gözətçi qadın həmişəki kimi həm evciyin, həm də bu evciyə dirənən şəbəkəli darvazanın yanında dayanıb, kiminləsə hündürdən danışırdı. Başında papaq, əynində pencək, belində enli kəmərdən asılmış tapança qoburu bu qadını partizana oxşadırdı. Başı qarışıq olsa da, birdən Cavidə tərəf gəldi, darvazanın şəbəkələri arxasından ona baxıb dilləndi:

– Yenə nə gəzirsən burada?

– Dənizə gedəcəyik.

– Hara?! – Heç nədən xəbəri olmayan qadının gözləri bərəldi.

Bu vaxt avtobus gəlib dayandı. Uşaqlar hay-küylə düşdülər. Gözətçi arvadın gözü dörd oldu, evciyə girdi. Cavid ora-bura baxıb Düyməni axtardı, onu görə bilməyib dilxor oldu. Düyməsiz bu səyahət heç bir şeydir. Vaxt az idi, on dəqiqədən sonra gəmi yola düşəcəkdi. Bəs Düymə?

Yola salmaq üçün bəzi uşaqların ata-anası da gəlmişdi. Cəmilənin yanında isə bacısı Teybə dayanmışdı. Onu görən kimi Cavid fikirləşdi ki, Düymənin verdiyi məktubu görəsən oxudumu?! Nigaran-nigaran yola baxırdı, uzaqda Valehi görüb diksindi. «Yəqin ki, Teybə üçün gəlib». Ağ bir maşın Valehin yanından ötüb limana yaxınlaşdı. Cavid bildi ki, bu maşında gələn Kələntərdir, səhv etməmişdi.



Maşın dayananda, Kələntər arxa qapını açıb əda ilə düşdü. Onun dalınca qəşəng geyinmiş, zərif, incə bir qadın maşından çıxıb düz Yusif müəllimə tərəf gəldi:

– Təkcə sizə görə buraxıram Kələntəri, arxayınam ki, gözünüz üstündə olacaq! Amma yenə narahatam. Axı hər şey ola bilər. Dəniz qorxuludur.

– Heç nə olmaz, qorxmayın! – deyə Yusif müəllim hay-küylə danışan qadını sakit etməyə çalışdı. – Uzağa etmirik ki!

Gözətçi arvad evcikdən çıxıb iri darvazanın qabağına gəlib dimdik dayandı. Elə bu zaman Bahadur kapitan paltarında ona yanaşıb nəsə dedikdən sonra qadın qapıları taybatay açdı. Bahadur Yusif müəllimlə görüşüb, əlini uzadıb körpünün sağ tərəfində dayanan «Xəzər» gəmisini göstərib dedi:

– Buyurun, müəllim, biz hazır!

Cavid həyəcan içində yola baxdı. Düymənin gəlib çıxmaması qanını elə qaraltdı ki, yerindən tərpənmədi. Nazilə xalası təəccüblə ona baxıb soruşdu:

– Niyə gəmiyə minmirsən?

– Axı... axı... Düymə yoxdur...

– Nə Düymə, hansı Düymə?!

– Yoldaşım...

Bahadur onların söhbətini eşidib, Cavidin çiyinlərindən tutub özünə tərəf çəkdi:

– Dostunu yaxşı tanımırsan!-dedi.– Dostun çoxdan gəmidədir, əsl matros kimi! Odur ha!

Cavid gəmidə matrosun böyründə dayanmış Düyməni görüb sevindi. Nazilə xalasından tibb çantasını alıb gəmiyə doğru yüyürdü. Yanlarından məftil çəkilmiş birinci gəmiyə, ordan isə başqa körpü ilə «Xəzər» gəmisinə keçdi. Düymə bayaqkı yerində yox idi, irəli gedən Cavid birdən dayandı. Çünki qarşısında bütün genişliyi ilə mavi dəniz açıldı. Hava sakit olsa da dənizin səthi şırım kimi qırışlarla dolmuşdu. Bəlkə, buna görə də gəmi asta-asta yırğalanırdı. Uşaqlar fit səsi eşidib qışqırdılar:

– Kələntər gecikir, Kələntər...

Cavid o tərəfə çevriləndə bir əlində ağ tor, o biri əlində isə iki limonad butulkası tutmuş, başına dəyirmi həsir papaq qoymuş Kələntərin anasından ayrılıb, gəmiyə tərəf qaçdığını gördü. Yanaqları qıpqırmızı qızarmışdı. Dar körpüdən keçəndə qorxub dayandı. Uşaqlar gülə-gülə onu səsləməyə başladılar. Arxadan gələn kapitan, Kələntərin qolundan tutub körpüdən keçirdi. İkinci körpüdən keçən kimi uşaqlar Kələntəri dartıb gəmiyə saldılar. Toru əlindən alıb rənkbərəng topu içindən çıxartdılar.

– Topa dəyməyin! – Kələntər elə ağlamsındı ki, uşaqları gülmək tutsa da, təzədən topu torun içivə saldılar.

Gəminin ortasındakı Qız qalasına bənzəyən bacadan tüstü qalxdı, güclü fit səsi qulaqlarını batırdı. Gəmi hərəkətə gəldi, birinci gəmidən aralanıb əvvəl geriyə üzdü, sonra dövrə vurub, irəli keçdi, açıq dənizə çıxdı. Cavid hələ də dənizə baxırdı. Nazilə xalasının yanında dayanmasından xəbəri yox idi.

– Deyəsən, dənizi çox sevirsən? – soruşanda Cavid ona tərəf çevrildi.

– Çox sevirəm!

– Niyə?

– Çünki atam həmişə dənizdə işləyib. Bahadur əmim də mənə dənizdən çox danışıb. Gözümü açıb bu dənizi görmüşəm.

– Bəs bayaq axtardığın yoldaşın hanı?!

– Heç bilirəm ki! Onun üçün yüyürüb gəldim, yoxa çıxıb.

Uşaqlar gah o başa, gah bu başa gedir, kayutları salonları, yemək otağını, sağ və sol tərəfdə qoyulmuş qayıqları, aşağıda maşın bölməsini, kapitan kayutunu gözdən keçirir, hər şeylə maraqlanırdılar.

Gəmi sahildən xeyli aralandı, uzağa – dənizlə birləşən üfüqlərə doğru üzdü.

Düymə gəminin burnunda əyləşmişdi, əyilib iki yerə bölünən, dalğalanan, köpüklənən sulara baxırdı. Qılınc tiyəsi kimi suları yara-yara irəliləyən gəmi sahildən get-gedə uzaqlaşır, qəsəbə bir meşəlik kimi qaralır, onun arxasındakı zavodun uca



qüllələri, bir də ki, boz rəngli dağların silsiləsi görünürdü. Nazilə xala Düyməni görüb Caviddən soruşdu:

– O balaca uşaq kimdir?

– Hanı?! – Cavid ətrafına nəzər saldı, Nazilənin göstərdiyi tərəfə baxanda Düyməni görüb güldü:

– Uşaq deyil, bizim Düymədir. Əntiqə oğlandır. Ey Düymə, eşitmirsən, Düymə?!

Düymənin sıçramağı ilə onların qarşısında dimdik dayanmağı heç bir an çəkmədi. Naziləni gülmək tutdu. Çünki önündə böyük başı, böyük qulaqları olan dəyirmi sifətli balaca bir oğlan dayanmışdı. Gözləri od saçırdı.

– Tanış olun! – deyə Cavid Düymə ilə Nazilə xalasına müraciət edəndə, Düymə dərhal dilləndi:

– Mən tanıyıram, kapitanın həyat yoldaşıdır, həm də bizim həkimdir.

Nazilə özünü gülməkdən saxlaya bilmədi, Cavid də, Düymə də ona qoşulub güldülər.

Bu vaxt gəminin aşağı tərəfində qopan hay-küy, qışqırtı, şappıltı eşidildi, matroslar həyəcan içində yüyürdülər. Hamı da bir-birinə dəydi, onlar gördülər ki, Düymə yoxdur, ildırım kimi hadisə yerinə qaçmışdır. Cavid də onun dalınca götürüldü. Yusif müəllimin rəngi ağarmışdı, iki dəcələ acıqlanırdı. Demə, bu dəcəllər qayığın ipini bilmədən açmışdılar. Qayıq sulara sürətlə, şappıltı ilə düşmüş, bu isə hamını qorxutmuş, həyəcan oyatmışdı. Yaxşı ki, hər şey sağ-salamatlıqla qurtardı, çünki ip açılanda, uşaqların biri dənizə düşə bilərdi. Matroslar qayığı qaldırıb yenə əvvəlki yerinə qoydular.

Düymə matroslara elə kömək edirdi ki, onlar balacaya etirazını bildirmir, zarafatlaşıb gülür, hətta guya dənizə atmaq istəyirdilər. Biri əllərindən, o biri ayaqlarından tutub yellədir, qaldırır, gəminin kənarına kimi gətirir, sonra qəhqəhələrlə geri qaytarıb ayaq üstə, döşəməyə qoyurdular. Düymə isə bir damcı da olsun qorxmurdu, əksinə:

– Atın, atın! -deyə qışqırırdı.

– O... nə qoçaqdır! – deyə matroslardan biri əlini fəxrlə Düymənin kürəyinə vurdu.

Aşağı salonda isə uşaqlar Yusif müəllimin və kapitanın ətrafına toplaşmışdılar. Mübahisə qızışmışdı. Okeanlarda kəşf olunan sualtı dağlardan, nəhəng dalğalardan, adalardan gedən qızğın söhbət Jül Vernin, Defonun, Stivensonun romanlarının üstünə gəlib çıxdı. Birdən Cavid dilləndi:

– Müəllim, istəyirəm ki, möcüzə olsun!

– Nə möcüzə! – deyə Yusif müəllim çiyinlərini atdı.

– Fırtına qopsun, şimşək çaxsın, gəmimizə su dolsun, məni dalğalar bir adaya atsın, orda tək-tənha qalım...

– Robinzon Kruzo kimi...

– Bəli, lap onun kimi!

– Cavid, oğlum, hələlik belə arzu ilə yaşamaq yaxşıdır, böyüyəndə, kim bilir bəlkə də, səni belə mö'cüzələr gözləyir. Təkcə səni yox, o biri dostlarını da!

– Məsələn, Kələntəri də! – kimsə zarafat etdi.

– Lap elə Kələntəri də! – deyə Yusif müəllim bir an susdu, sonra kapitana baxdı.

– Elə deyilmi, Bahadur?!

– Elədir, Yusif müəllim,elədir.

– Xəzər qədim dənizdir. Onu tədqiq edənlərin, öyrənənlərin sayı az deyil. Bahadur, sən ki, bu barədə çox şey bilirsən. Bir az uşaqlara məlumat ver, məsələn, Xəzərin ilk xəritəsini kim tərtib edib, necə, nə vaxt?!

– İlk xəritəni tərtib edən şəxs Aleksandr Bekoviç Çerkasskidir. Maraqlı adamdır, taleyi də maraqlıdır. Milliyyətcə kabardindir. Rus təbəəliyini qəbul edib. I Pyotrun sarayında yaşayıb, böyük etibar və nüfuz qazanıb. Xəzəri öyrənmək üçün Pyotr tərəfindən 1714-cü ildə ilk ekspedisiya yaradılır. Bəs bu ekspedisiyanın rəhbəri kim tə'yin olunur? Heç şübhəsiz, Aleksandr Bekoviç Çerkasski! Həmin il bir neçə gəmi ilə Həştərxandan Xəzərin qoynuna çıxır. Tanımadığı, bilmədiyi bir dəniz! Xəzərin şərq sahilindəki Quryevə doğru istiqamət götürür. Ancaq birdən...



Bahadur bir anlıq susub maraq və intizar içində ona zillənmiş gözləri bir-bir nəzərdən keçirdi. Bu sükut uşaqları darıxdırdı, Kələntər dözə bilməyib yerində qurcalandı:

– Birdən nə oldu? – soruşdu.

– Birdən fırtına qopdu, dəhşətli bir fırtına. Aleksandr Bekoviç Çerkasski geri qayıtmağa məcbur oldu. Bir il sonra 1715-ci ildə yenə Xəzər dənizinə çıxdı. Bu dəfə geri qayıtmadı, adalar, yarımadalar, boğazlar, bankalar, körfəzlər, burunlar, buxtalar kəşf etdi. Ən böyük kəşfi Qaraboğaz körfəzi oldu. Çünki bu körfəz əfsanəvi və qorxulu sayılırdı. Deyilənə görə körfəzin üstündən quş da uça bilməzdi, əgər uçsaydı, hökmən sular onu öz qoynuna qərq edərdi. Tilsimindən qurtarmaq olmurdu. Qaraboğaz, bax, belə qorxulu bir körfəz idi!

– Bahadur, Qaraboğaz haqqında bir əfsanə də var.– deyə Yusif müəllim kapitanın köməyinə gəldi. – Bu körfəz guya Xəzərin bütün suyunu özünə çəkir, sonra bu suyu Hind okeanına axıdır, guya yeraltı yollarla.– Düzdür, – deyə kapitan onu təsdiqlədi. – İndi uşaqlar, təsəvvürünüzə gətirin, belə qorxulu körfəzə gəmilər daxil olanda hamı necə həyəcan keçirirdi. Hər addımda ölüm təhlükəsi gözlənilirdi. Amma hər şey yaxşı oldu, nə dalğa qopdu, nə fırtına, nə də sular onları öz qoynunda batırdı. Sağ-salamat burdan çıxdılar. Beləliklə, Aleksandr Bekoviç Çerkasski Xəzərin ilk xəritəsini tərtib etdi. Buna görə böyük şöhrət qazandı. Qəribədir ki, bir müddət keçdikdən sonra bu xəritə yoxa çıxdı, nə qədər axtardılarsa tapılmadı ki, tapılmadı. Bu bir sirrə çevrildi, axı təzəcə tərtib olunan bir xəritənin yoxa çıxması anlaşılmaz və qəribə hadisələrlə bağlı idi.

– Bəs sonra?! – Cavid onun susduğunu görüb dilləndi.

– Sonrası qalsın gələn dəfəyə, – deyə kapitan uşaqların havaya çıxmasını məsləhət gördü. Elə bu vaxt kimsə bərkdən qışqırdı: «Ada!» Qeyri-adi hadisə görmək eşqi ilə yaşayan uşaqlar salondan çölə qaçdılar. Kapitan Yusif müəllimə sarı döndü:

– Yəqin, vulkan püskürməsidir, gedək göyərtəyə, baxaq, sizin üçün də maraqlıdır.

Onlar uşaqların dalınca göyərtəyə çıxanda gəmi balaca bir adaya yaxınlaşırdı, kapitan onu göstərib dedi:

– Qəsəbədən dənizdəki alov sütununu hamınız görmüsünüz, buna şübhə yoxdur. Bu ada həmin püskürmənin nəticəsində yaranıb. Hələ də qaynayır, fikir verin...

Ada ovuc içi kimi açılmışdı. Gil məhlulu ilə örtülü olan qaramtıl rəngli bu adadan isti dalğa axdı. Matroslardan biri dedi:

– İki həftə əvvəl ada böyük idi, indi kiçilib.

Kapitan izah etdi:

– Yəqin ki, itəcək. Xəzərdə belə adalar çox yaranır, sonra da suların altında qalır. Onların bəzilərini sizə göstərəcəyəm.

Salonun girəcəyindəki meydanda içində rəngbərəng top olan toru hələ də əlindən buraxmayan Kələntər başını qaldırıb, limonad butulkasının ağzına dirəmişdi. Həsir papağı yerə düşəndə belə içməyini saxlamadı, limonadı axıra qədər çatdırıb dikəldi, uşaqların güldüyünü görüb, əyilib papağını yerdən qaldırdı.

– Ey, Kələntər, indi fırtına qopaçaq!

– Nə?! – onun gözləri böyüdü. – Fırtına, hanı?!

– On dəqiqədən sonra...

Düymə, arxadan tor içindəki topa bir təpik ilişdirdi, bunu görən uşaqlar salona cumdular, yüyürüb hay-küy içində topu havadaca tutdular. Kələntər isə hirsləndi, yanaqları yenə qızardı, Düyməyə qəzəblə baxanda, onu görməyib, özünü itirdi. Top tordan çıxıb o baş-bu başa uçur, əllərdə gəzir, sarı rəngli skamyalara dəyib göyə qalxırdı. Kələntər özü də yüyürüb topu tutmaqa çalışdı. Tutdu, toru bir qızın əlindən alıb, yenə topu onun içinə saldı.

– Fırtına başlayır! – kimsə ciddi tərzdə dilləndi.

– Vay! – deyə Cəmilə özünü qorxan kimi göstərdi, ağlamsındı. – Fırtınada hər şey ola bilər. Mən heç üzmək bilmirəm.

– Mən də bilmirəm! – başqa bir oğlan Kələntərə baxa-baxa dedi, – gəmi aşsa, qayaya toxunsa, biz batdıq? Cəmilə!



Kələntərin gözləri həyəcanla gah ona, gah buna baxır, Cəmilənin oyununu başa düşmədiyi üçün sadəlövhcəsinə gərgin vəziyyət alırdı. Birdən Cəmiləyə tərəf döndü:

– Mən də üzmək bilmirəm.

Hamı güləndə Kələntərin ağzı açıla qaldı, yenə bir şey başa düşməyib çiyinlərini atdı, kimsə gülə-gülə dedi:

– Ay Kələntər, fırtınada heç gəmi dənizə çıxar?

– Yox...

Günəş şəfəqləri dənizin səthində qırıq-qırıq şüşələrdə əks olan kimi bərq saçır, milyon-milyon parıltı göz qamaşdırırdı. Bu parıltılar içində maviliyini itirən dəniz gümüş rəngi almışdı.

Uzaqda uzunsov bir xətt qaralır, üfüq boyunca uzanırdı. Gəmi elə bu xəttə doğru istiqamət götürmüşdü. Uşaqların çoxu onun burnunda dayanmışdı. Çünki get-gedə böyüyən bu xəttə baxırdılar. Başları söhbətə qarışdığından birdən-birə gözləri önündə açılan və uzun qatara bənzəyən estakada canlananda heyrətləndilər. Sanki qatar dənizin ortasındakı dayanacaqda durub sakit-sakit nəfəs alırdı.

Gəmi yaxınlaşıb estakadadan aşağıda, ətrafı məhəccərli meydan kimi taxta körpünün yanında uğuldadı, yanları ağ köpüklərlə doldu. Yuxarıda, pillələrin üstündə əzəmətli bir adam dayanmışdı. Elə ki gəmi bu körpüyə yan aldı, uzun kəndirlər, troslar atıldı, birdən uşaqlar heyrətlə qışqırdılar. Gördülər ki, Düymə yuxarıda əzəmətli adamın çiynindədir.

– Möcüzə istəyirsən, bu da möcüzə! – deyə kimsə Cavidə bir dümsük vurub Düyməni göstərdi,-gördün, pişik kimi bir göz qırpımında yuxarı dırmaşdı.

– Yox görmədim.

Qəribə o idi ki, Düymənin belə sürətlə çıxmağını uşaqların çoxu görməmişdi. Təkcə bir-iki nəfərdən başqa.

Cavid indi əzəmətli adamı tanıdı, usta Dadaş idi. Körpüyə atılıb, ordan dəmir pillələrlə çıxıb estakadaya ayaq basanda onu qarşısında gördü.

– Xoş gəlmisən, oğlum! – deyə Cavidin əlini sıxdı. Həmişə sən gələsən! Həmişə dostların gəlsin!

Usta Dadaş bir-bir uşaqlarla görüşdü. Kələntər pillələri çıxarkən həsir papağı neğə oldusa başından düşdü.

– Vay papağım! – deyə qışqırdı.

Papaq uçdu, fırlana-fırlana, xoşbəxtlikdən dənizə yox, gəminin göyərtəsinə endi, orda isə onu bir matros havadaca tutdu, gəmidən axırıncı çıxan Yusif müəllimə verdi.

Yuxarıdan, usta Dadaşın yanından bunu görən uşaqların gülüşü dalğalananda bayaqdan ağlamsınan, kömək gözləyən Kələntər onlara baxdı, bu isə gülüşü daha da gücləndirdi. Yusif müəllimin əlində həsir papağı görəndə qaşqabağı açıldı, şənlənən uşaqlara qoşuldu.

– Hamı yerindədir? – deyə Yusif müəllim onları bir-bir gözdən keçirdi.

– Bəs Nazilə xala?! – Cavid narahatlıqla dilləndi.

– Burdayam, Cavid! – sağ tərəfində dayanan Nazilə gülə-gülə ona baxdı, əli ilə saçlarını vurub dağıtdı. Məni yaman qoruyursan!

– Usta Dadaş, – Yusif müəllim üzünü ona çevirdi. – Səhv etmirəmsə, gecəni burda qalacağıq.

– Bəli, bəli.

– Bəs harda?

– Orda! – deyə usta Dadaş estakadanın qurtaracağında bomboş bir yeri göstərəndə hamı ora baxdı.

– Axı... Axı... – Yusif müəllim kəkələdi.

– Yəni deyirsən ki, bina yoxdur, hə?! Binanı «Koroğlu» gətirir...

– Koroğlu.

– Bəli, bəli, Koroğlu... Qəhrəman Koroğlu yox, gəmi «Koroğlu»...

– Ay usta Dadaş, axı bir şey başa düşmədim.

– «Koroğlu» gəmisi binanı gətirib, bax orda, on dəqiqə içində düzüb qoşacaq, hər şeyi yerində!

– Bəs gəmi hanı?!

– Yoldadır.

– Yaxşı, indi hara gedəcəyik?!



– Yeməyə...

Bu, uşaqların ürəyindən oldu. Səhər tələm-tələsik yemişdilər, dənizin təmiz havasında gör nə qədər vaxt keçmişdi. Ac olduqlarından uşaqlar həvəslə, hay-küylə yeməkxanaya doluşdular, dənizə açılan pəncərələrin yanında əyləşib gözləməyə başladılar. Yeməkdən sonra çayxanaya keçdilər. Usta Dadaş həmişə ayaq üstə idi, onlara göz qoyur, heç kimi unutmur, hamıya qayğı ilə yanaşırdı. Ağ xalatlı çayçı xoruz pipiyi kimi çayı armudu stəkanlarda gətirib payladı. Fəhlələr gülə-gülə, təbəssümlə uşaqlara baxır, onları gah salamlayır, gah söhbətə tutur, gah da zarafatlaşırdılar.

Çayxanadan çıxanda, uşaqlar üç balaca vaqondan ibarət qatar gördülər. Usta Dadaş:

– Buyurun, əyləşin! – dedi, – fit veriləndə yola düşəcəyik.

Hamı vaqonlara doluşdu, Cavid çayını gec içdiyi üçün axırda gəldi. Nazilə xalası onu səsləyib, yanındakı yeri göstərdi. Elə ki əyləşdi, gördü qarşısındakı Cəmilədir. Cəmilə gülümsünüb dərhal gözlərini yerə dikdi.

Qatarın xırıltılı fit səsi uşaqları güldürdü:

– Yəqin, zökəm olub! – kimsə söz atdı.

Yavaş-yavaş hərəkət edən qatardan dənizin hər iki tərəfini bütün genişliyi ilə görmək mümkün olurdu. Sürəti artırmadılar, bu isə seyr etmək üçün yaxşı idi, qarşıda geniş meydançada sağ tərəfdə iki maşın dayanıb qatarın keçməsini gözləyirdi. Qatar ketdikcə belə meydançalar qarşıya çıxırdı. Bəzi meydançaların qarşısında dayanır, estakada ilə gələn maşınların keçməsinə imkan verirdi.

Qatar, dəniz, estakada, fəhlələr... müxtəlif tanışlıqlar... Buruqlar... Söhbətlər... Usta Dadaş meydançalarda uşaqlara məlumatlar verir, maraqlı söhbətlər edirdi. Geri qayıdanda necə uzun yol getdiklərini görüb məəttəl qaldılar. Günəş batmağa doğru gedirdi. Qıpqırmızı qızarsa da, istiliyi çəkilmiş, göyü başdan-başa al rəngə boyamışdı. Elə ki qatardan düşdülər, usta Dadaşın bayaq göstərdiyi boş yerdə ikimərtəbəli, yaşıl rəngli, yaraşıqlı taxta bina gördülər.

– Bu da bir möcüzə! Koroğlunun möcüzəsi!

Axşam kapitan uşaqlara qonaq gəldi, hamının necə yerləşdiyini yoxladı. Hər otaqda iki nəfər qalırdı.

– Kişi qırığı, – deyə Bahadur Cavidə baxdı. – Nazilə xalanla hansı otaqda qalırsan?!

– On beşinci otaqda.

– Xoşuna gəlir?

– Çox yaxşıdır, əmi, rahat, havalı, təmiz!

Bu zaman uşaqlar və Yusif müəllim kapitanı dövrəyə aldılar, xahiş etdilər ki, aşağı mərtəbədəki istirahət otağına düşsünlər. Əlbəttə, uşaqların xahişindən qaçmaq olmazdı. Bahadur gülə-gülə razılaşdı, başa düşdü ki, onlar gəmidəki söhbətin ardını eşitmək istəyirlər. Elə ki yaraşıqlı, sakit, geniş otağa girdilər, uzunsov stolun ətrafında əyləşdilər, dərhal ilk xəritənin, Aleksandr Bekoviç Çerkasskinin taleyi haqqında kapitana suallar yağdırdılar. Yusif müəllim hamını sakit edib dedi:

– Uşaqlar, kapitan burda, siz burda, əvvəlcə gəlin, bu günümüz haqqında danışaq, sonra sabah görüləsi işlərimizin nədən ibarət olduğunu müəyyən edək.

Bu sual-cavab, bir-iki uşağı tənbeh, göstərişlər, arzular uzun çəkmədi, qısa, yığcam oldu, hər kəs öz payını götürüb arxayınlaşdı. Bundan sonra uşaqlar gözlərini kapitana dikdilər. Bahadur təklif gözləmədən söhbətə başladı:

– Yəqin ki, ilk xəritənin itməsi indi sizə məlumdur. Bizim günlərdə bu itən xəritə haqqında balaca bir kitab yazılıb. Kitab belə adlanır: «Bir xəritənin taleyi». Onu yazan sovet alimidir. Neçə əsr bundan qabaq itən o xəritə 237 il keçəndən sonra tapıldı. Özü də bizim günlərdə. 1952-ci ildə.

Aleksandr Bekoviç Çerkasski isə Pyotr tərəfindən hərbi tapşırıq aldı. Səfər zamanında arvadı, iki uşağı gəmi qəzası nəticəsində həlak oldu. Özü 2200 əsgəri ilə Xivə xanı Şirqazi ilə döyüşə girdi. Döyüş meydanı ucsuz-bucaqsız səhra idi. Şirqazi onu aldadıb çadırına söhbət etmək üçün dəvət etdi. Aleksandr Bekoviç Çerkasski, xanın təslim olmaq istədiyini güman edib inamla yanına getdi. Ancaq... Hiyləgər Şirqazinin toruna düşdü.



Şirqazi əvvəl onu mehriban qarşıladı, yuxarı başa çağırdı, lap arxayın saldıqdan sonra gizli niyyətini həyata keçirdi. Çerkasskinin başını kəsdirib Buxara xanına hədiyyə göndərdi. Buxara xanı isə Pyotrun qorxusundan bu hədiyyəni qəbul etməyib geriyə qaytardı. Bu, Pyotr üçün ağır zərbə idi, çünki Aleksandr Bekoviç Çerkasskini ürəkdən istəyirdi. Uzun müddət bu ağır kədərlə yaşadı. Unutmayın ki, Aleksandr Bekoviç Çerkasskinin Xəzərdəki ilk səyahəti nəticəsində tərtib etdiyi xə– ritənin böyük əhəmiyyəti oldu. Elə bu xəritə ona əbədi şöhrət və ad-san gətirdi.

Kapitan uşaqlara başqa əhvalatlar da danışdı.

Cavid gecəyarı yuxudan oyanıb, qorxa-qorxa qonşu çarpayıda yatmış Nazilə xalasına baxdı. Küləyin dəhşətli uğultusundan qulaq tutulurdu, sanki bina indicə uçacaq, bayaqdan guruldayan dalğaların qoynuna qərq olacaqdı. Hələ belə dəhşətli vıyıltı eşitməmişdi. Külək qapı arasında qalmış bir vəhşi kimi qışqırırdı. Cavid çarpayıdan düşdü, pəncərəyə yaxınlaşıb baxmaq istəyəndə binanın silkələndiyini görüb duruxdu. Nazilə başını qaldırdı:

– Cavid, niyə durmusan?!

– Külək oyadıb məni. Uçurur hər şeyi.

– Deyəsən, qorxursan?

– Ev uçsa, adam qorxmaz? Axı uçur.

– Heç səndən gözləməzdim, Cavid! – Nazilə gecə keynəyində çarpayıdan qalxıb ona yaxınlaşdı,– Hələ harasını görmüsən, bu zəif küləkdir. Gəl, yerində uzan, qorxma, çalış ki yatasan.

Nazilənin sakitliyi Cavidin həyəcanını azaltdı, azca arxayınlaşıb hətta qorxmasına görə özünə gülməyi tutdu. Təzədən yerinə girdi, qəribə o idi ki, Nazilə yenə yuxuya getdi. Cavid bu vıyıltıya, uğultuya binanın titrəməsinə öyrəşdi. Beşikdə yırğalanan körpə kimi onu qəfildən yuxu apardı, bir də səhər oyananda gözünə inanmadı. Otaq başdan-başa günəş işıqları içində yanırdı. Hava elə sakit idi ki, elə bil gecəki külək yerli-dibli olmamışdı.

Bir saatdan sonra onları gəmidə kapitan qarşıladı, ən axırda usta Dadaş keçdi, bu əzəmətli, yekəpər adamın səyahət dəstəsinə

qoşulması hamının ürəyindən oldu.. Uşaqlar həm gecə vaxtı qopan küləkdən, həm usta Dadaşdan, həm səhər yeməyindən danışır, zarafatla deyib-gülürdülər.

Gəmi körpüdən ayrılıb açıq dənizə çıxanda, Düymə içində top olan toru Kələntərdən aldı, arxa tərəfdə, balaca bir yerdə Cavidlə oynamağa başladı. Cavid bir az kənarda dayanan Cəmiləyə baxıb, topu onun üstünə atdı, qız gülə-gülə topu geriyə – Cavidin özünə qaytardı. Beləliklə, Cəmilə oyuna qoşuldu, bu isə onların arasındakı küsü soyuqluğunu aradan götürdü. Cavid «Cəmilə, tut» deyə topu ona tərəf atır, qız da həvəslə cavab verir, bəzən isə «Ey Cavid, bərk vurma!» deyə ərklə, xəbərdarlıqla dillənirdi. Bu zaman Cəmilənin qapqara saçları çiyinlərində yellənir, atılıb-düşdükcə yanaqları qızarır, daha da qəşəngləşirdi. Düymə topu sərrast qaytarır, pişik cəldliyi ilə oynayırdı. Uşaqlardan biri də oyuna qoşulub, birdən topa möhkəm bir təpik ilişdirdi. Top havaya qalxdı və dənizə düşdü.

Kələntər «vay, topum» deyə qışqıranda, Cavid bir də onu gördü ki, Düymə gəminin arxasından özünü suya atdı, hamı bir-birinə dəydi, həyəcan qopdu. Kapitan sakit-sakit əmrlər verirdi. Gəminin fit səsi qulaqları batırdı, matroslar qayığı dənizə salıb, özləri də içinə atıldı. Düymə üzə-üzə topa çatıb onu götürüb sevinc içində göyə qaldırdı. Dənizdə nə gülməli körünürdü, onun yekə başı da top kimi idi, gah batır, gah da çıxırdı.

Hamıdan çox Yusif müəllim həyəcan keçirirdi, usta Dadaş onu sakit edib, gülə-gülə:

– Qoçaq oğlandır, Düymə! – deyib könlünü almağa çalışdısa da, həyəcanı keçmədi ki, keçmədi. Çünki bayaqkı hay-küydən bərk qorxmuşdu. Lakin gəmidən, matrosların qayıqla Düyməyə çatıb, topla birlikdə sudan çıxarıb, cücə kimi göyə qaldırmaqlarını gördükdə hamı kimi o da gülməyə başladı. Elə ki onlar üçü də göyərtəyə çıxdı, Yusif müəllim Düyməyə sərt-sərt baxsa da, heç nə demədi, paltarını dəyişmək üçün oğlanı kayuta apardılar. Bir azdan hər şey əvvəlki qaydasına düşəndə gəmi yenə şərqə doğru istiqamət götürdü. Yavaş-yavaş estakada gözdən itdi.



Düymə gəminin burnunda dayanmışdı. Usta Dadaş da, uşaqlar da yanında. Cavid uzaqda nöqtə kimi qaralan bir adanı görüb üzünü usta Dadaşa çevirdi:

– Biz ora gedirik?!

– Bəli, ora! Maraqlı yerdir. Altmışıncı illərdə göbələk şəklində vulkan püskürüb.

– Bəs adamlar olmayıb?!

– Olub. Köməyə tez gəliblər. Heç kəsə zədə toxunmayıb. O vaxt bizim idarəmiz burda yerləşirdi.

Kələntər gah ona, gah buna baxıb, qorxa-qorxa soruşdu:

– Bəs birdən yenə o adada vulkan püskürsə...

– Heç nə olmaz. – deyə usta Dadaş arxayın-arxayın dilləndi, – daha vulkan püskürə bilməz, çünki yeraltı qazlar indi neftlə bərabər çıxır.

– O hansı adadır?

– Duvannı adası... Qədimdə ona Zənbil deyirdilər. Yaxınlaşanda fikir verin, Həqiqətən də bu ada zənbilə oxşayır.

– Bəs Duvannı nə deməkdir?

– Duvannı... səhv etmirəmsə Volqa sahillərində yer adıdır, burdan gəlib həmin adada qalanlarla əlaqədar Duvannı adı yaranıb. Ordan, yəni Volqa sahillərindən keçən əsrdə ruslar öz gəmilərində bu adalardan keçib Lənkərana, Astaraya gedirdilər. Onlar əldə etdikləri qənimətləri gətirib bu adada bölüşürdülər. Başqa sözlə desək, divan tuturdular. Beləliklə, divan çevrilib sonralar Duvannı şəklinə düşüb.

– Bəs hansı daha doğrudur?

– Mənim fikrimcə, əvvəlki... yəni coğrafi addır...

Gəmi suları yara-yara irəliləyirdi. Adaya yaxınlaşıb taxta körpünün sağ tərəfinə yan aldı. İndi ada aydın görünürdü. Kimsə qışqırdı:

– Doğrudan da ada zənbilə oxşayır. Gəlin, biz onu elə Zənbil çağıraq. Zənbil adası, xoş gördük!

Adanın geniş səhra kimi dümdüz sahəsi uzanıb gedirdi, onun bir tərəfində ucalan qayanın sinəsi divar kimi qalxmışdı. Elə bu qaya zənbilin dəstəyini xatırladırdı. Cavidin bir gözü bu adada

və bu qayada qalmışdı. Birdən uzunsov taxta körpüdə Düyməni görəndə gözlərinə inanmaq istəmədi. Axı gəmidən necə, nə vaxt düşdü?! Düymə əlləri cibində sakit-sakit körpüdə gəzişirdi. Cavid qeyri-ixtiyari: – Düymə! – deyə qışqırdı.

Düymə bir əlini cibindən çıxarıb, yuxarı qaldırıb yellədi, elə bil ki, onları qarşılamağa gəlmişdi.

Gəmidən qoyulan körpücük maili olduğundan düşmək çətinləşmişdi. Amma bu uşaqların xoşuna gəldi, hay-küylə, sürüşə-sürüşə düşdülər. Təkcə Nazilə kapitanın və Cavidin köməyi ilə endi. Bir də ki, Kələntər hay-küy qopardı, «vay, qorxuram» deyə geri çəkildi. Düşməyi qara-qışqırığı ilə başa çatdı.

Düymə heç yanda gözə dəymirdi. Adanın sağ tərəfində bir neçə bina və qurğu vardı. Cavid qayaya tərəf baxdı, Düyməni görmək istədi, ancaq Düymə heç yanda yoxdu. Adanı gəzmək üçün Yusif müəllimdən icazə aldı, Cəmilə, Kələntər, bir neçə başqa uşaq ona qoşuldu. Yusif müəllim icazə versə də, narahatlıqla dedi:

– Günorta yeməyinə gecikməyin! Düyməni də tapıb gətirin!

Onlar qayaya tərəf yola düşdülər. Qabaqda şəstlə Kələntər gedirdi, əlində də alma. Axı bu almanı hardan tapmışdı?

– Kələntər, o almadan bizə də ver...

– Bir dənədir, onun da yarısını yemişəm...

Almanın yerdə qalanını da həvəslə yeməyə başladı. Bir az getmişdilər ki, Kələntər bərkdən qışqırdı. Uşaqlar əvvəlcə, heç nə başa düşməyib yerlərində qaldılar. Sonra qarşılarında uzun, alabəzək, parıltılı bir ilan gördülər. İlan fırlanıb sürətlə sürünür, onlardan uzaqlaşmağa can atırdı. Heç kəs ilanın dalınca getmirdi, çünki buna həm ehtiyac yoxdu, həm də təhlükəli idi. Ancaq heç kəs gözünü də ilandan çəkmirdi. Həqiqətən ilanın qara dərisi elə parıltılı, elə bəzəkli idi ki, süründükcə işıq saçırdı. Cavid onun uzaqlaşdığını görüb təəssüfləndi və birdən, hamının gözü qarşısında ilan yoxa çıxdı.

– Bu hara getdi görəsən?

– Yəqin, yuvasına girib.

– Hələ belə gözəl ilan görməmişəm.



– Gözəlliyinə söz ola bilməz. Heyf, çox baxa bilmədim.

Cavid yaxınlaşıb ilanın yox olduğu yeri diqqətlə gözdən keçirdi, Kələntər təəccüblə:

– Yuva-zad yoxdur burda, – dedi, – yoxdur!

Həqiqətən, heç yanda dəlmə-deşik gözə dəymirdi. Bəs bu ilan necə olmuşdu?! Bu suala heç biri cavab tapa bilmədi. Təkcə Cəmilə dedi:

– Yəqin yuvasına girib, qapısını da bağlayıb.

– Sən deyənə oxşayır!

– Uşaqlar! – Kələntər həyəcanla o yan-bu yana baxdı. – Qəribə səs gəlir...

– Səs? Hanı?!

– Eşitmirsiniz?! Uğultu...

– Sənə elə gəlir, – deyə Cavid sərt-sərt ona baxdı. Hər şeydən qorxursan, bizi də qorxudursan!

Birdən Cəmilənin qəhqəhəsi qopdu:

– Təyyarə! Yəqin, onun uğultusudur!

O biri uşaqlar da güləndə Kələntər pərt olub, qızardı, həsir papağını əli ilə alnından dala itələyib gonbul bədənini yırğalaya-yırğalaya yenə qabağa düşüb, qayaya tərəf getməyə başladı. Heç on addım getməmişdi ki dayandı, geriyə çevrilib gözlərini qəribə tərzdə oynadıb:

– Yavaş-yavaş gəlin, – deyə onları intizarda qoyan bir vəziyyət aldı.

Uşaqlar yaxınlaşanda, nə gördülər. Vay, bu nədir? İki ilan bir-birinə elə sarılmışdı ki, budaqlar kimi. Başları isə dik qalxmışdı. Göz-gözə baxır, hərdən bir fısıldayıb dillərini çıxarırdı. Kimsə üstlərinə balaca bir daş atdı, dərhal sivrilib ayrıldılar, hərəsi bir tərəfə sürünüb uzaqlaşdı.

–Deyəsən, dalaşırdılar. – Kələntər mənalı-mənalı dindi. Gözləri od saçırdı.

– Ağızlarını necə açmışdılar. Sanki bir-birini udmaq istəyirdilər... Vay dədə!

Uşaqlar yollarına davam etdilər. Rastlarına daha ilan çıxmadı. Qayaya yaxın yerdə, sahilə yan aldılar. Dənizin suları elə

duru, saf idi ki, altındakı daşları seçib götürmək olardı. Bu vaxt sahildən on, on beş metr aralıda Kələntər yenə balaca bir ilan görüb qışqırdı, ilan sürətlə sürünüb daşın altına girdi, uşaqlar maraqlanıb daşı dövrəyə aldılar. Onu görməyə çalışdılar. Gözlənilmədən ilan üzə çıxanda qışqırışdılar. Hamının heyrətinə səbəb, ilanın dənizə doğru sürünməsi oldu. Ləpələr yerə çırpılıb düz ilanın üstünə gəldi, geri qayıdanda onu da özü ilə aparıb getdi.

Bu vaxt onların başı üstündən «ehey» deyə bir səs dalğalanıb keçdi. Ətrafda da heç kəs yox idi, dənizdə də. Bəs bu səs hardan gəlirdi?! Təəccüblə bir-birinə baxan uşaqlar sahilə irəliləyəndə yenə «ehey» səsi aydınca eşidildi. Dayanıb ətrafa boylandılar. Heç kəs, nə ins, nə cins!

– Bəlkə, qayanın dalından gəlir?

– Ola bilməz.

– Bəlkə... bəlkə, Düymədir?!

– Düymədirsə, hanı?

– Doğrudan, hanı? Heç yanda yoxdur.

Uşaqlar mübahisə edə-edə yollarına davam etdilər, bir az getmişdilər ki, yenə səs eşidib dayandılar.

– Ehey... Cavid... Ehey...

– Bu Düymədir, onun səsidir!

– Düzdür, oxşayır...

– Bəs hanı?

Səs yenə aydınca eşidildi:

– Ehey, Cavid, ehey...

– Odur, Düymə! – deyə Cəmilə sevinç içində qışqırdı, – qayanın başında.

Cavid qayaya baxdı, onun ən hündür yerində quş kimi bapbalaca görünən Düymə yenə onları səsləyir, əlini yelləyirdi. Ora necə dırmaşıb çıxmışdı? Bu ki möcüzəyə bərabərdir! Ağzı açıla qalmış Kələntərin həsir papağı başından düşəndə, uşaqlar gülüşdülər. O əyilib papağını götürmək əvəzinə, yuxarıya baxa-baxa:

– Bu, mənasız qəhrəmanlıqdır, – dedi.

– Yox! – Cavid ona etiraz etdi. – Mənasız deyil.



Mübahisə qızışırdı ki, kimsə bərkdən qışqırdı:

– Düymə yıxıldı!

Hamı həyəcanlandı, qayanın başından nəyinsə diyirlənə-diyirlənə, səs sala-sala endiyini görəndə Cavidin ürəyi sancdı, ancaq birdən, lap yuxarıda, Düymənin dimdik dayanması gözünə dəydi. Diqqətlə baxdı, özüdür ki var, Düymədir! Necə sevindi! Kələntər papağını yerdən qaldırıb, Düymə üçün yelləməyə başladı. Yuxarıdan diyirlənib gələn iri daş qayanın dibinə düşüb qaldı.

Uşaqlar qayanın arxa tərəfinə keçəndə, ətəklərinin sahilə endiyini, sahildən isə bütün genişliyi ilə dənizin açıldığını gördülər. Yuxarıdan Düymənin necə düşdüyünə baxmaq istəyəndə, onu qarşılarında görüb həm heyrətləndilər, həm də gülməyə başladılar. Fikir ver ha, qayadan nə böyük sürətlə aşağıya enmişdi; bir göz qırpımında! Düymə heç nə olmayıbmış kimi zirvədən dənizi, adanı, gəmiləri necə gördüyünü həvəslə danışmaq istəyəndə Cavid onu saxladı:

– Yusif müəllim səndən nigarandır. – deyə acıqlı-acıqlı danladı. – Niyə deməmiş yoxa çıxırsan?

– Gözlədim, gördüm hələ körpüyə enən yoxdur, ona görə getdim. Bildim ki dalımca gələcəksiniz. Hə, deyin görüm, dənizdə fəvvarə görmüsünüz?

– Fəvvarə?! Yox...

– Necə yəni görməmisiniz. Yanından keçmisiniz ki... Gəlin, gəlin sizə göstərim.

Düymə iri-iri daşların üstündən quş kimi hoppana-hoppana qayanın qərb tərəfinə qaçdı. Bütün uşaqlar da dalınca! Qayanın yaxınlığında, adanın o biri sahilindən otuz metr aralıda, dənizdə sular fəvvarə vururdu. Küknar formasından qalxan fəvvarə yelkən kimi şişib, şəlalə kimi ağara-ağara tökülürdü. Kələntər «oy!» eləyib, gözlərini fəvvarədən çəkmədən həsir papağını başından götürüb əlində oynadırdı.

– Necə olub ki, bunu görməmisiniz?!

– Çünki o biri sahillə gəlmişik.

– Belə deyin də! Mən də məəttəl qalmışam. Görürsünüz, nə gözəl fəvvarədir!

– Niyə görə elə qalxır? – Cəmilə soruşdu.

– Mən deyə bilmərəm.

– Cavid, bəs sən?

– Məncə, dənizin, o yerində güclü qaz var, suları göyə qaldıran həmin qazdır.

– Ağlabatan cavabdır. – deyə Cəmilə Cavidə baxıb gülümsündü. – Uşaqlar, yeməyə gecikirik...

– Gedək! – deyə Cavid dilləndi. – Bəlkə, yenə bura qayıtdıq!

– Uşaqlar tələsdilər. Birdən Cəmilə Düyməyə baxdı:

– Köynəyin qana bulanıb, nə olub belə?

– Eh, fikir vermə, bir az cızılıb... Dizlərim də... Keçib gedər. Qayadan düşəndə yıxılmışam.

– Yaxşı ki, yumalanıb, dənizə düşməmisən.

– Ölü-zad deyiləm ki!

– Yaraları həkimə göstərmək lazımdır.

– Yox, yox, boş şeydir! Uşaqlar sahildə tanış binanı görüb gözlərinə inanmadılar. Dünən estakada üstündə olan bina indi adada, dənizin lap qırağında, onların gözü önündə qurulmuşdu. Yeməkxananın önündə uşaqları usta Dadaş qarşılayıb:

– Tez olun, tez olun!-deyə tələsdirdi. Keçin içəri.

Cavid Düyməni ardınca dartıb otağa saldı:

– Nazilə xala, əl-ayağı cızılıb, bir baxın. – deyə onun əlini buraxmadan yaxına gəldi.

Nazilə Düymənin qoluna, ayağına baxıb, başını bulaya-bulaya, narazılıqla dedi:

– Heç səndən gözləməzdim. Belə şey olar? Bunlar boş şey deyil. Çox ciddidir! Qayanın zirvəsinə çıxmaq qoçaqlıqdır, ancaq belə yaralara laqeydlik göstərmək axmaqlıq. Qoçaqlıqla axmaqlıq bir-biri ilə tutmur. Gərək özün gələydin. Cavid, bir bərni su gətir!

Nazilə xalatı geyinib tibb çantasını açdı:



– Gəl görüm, – çantadan qatlanmış tənzif götürüb, Düymənin ayağını, dizlərini təmizləməyə başladı. – İstəyirdin ki, irin eləsin, hə?! Ay, ay, ay, gör nə qədər qan axıb. Bir damcı toz, qum düşsə, heç bilirsən nə olar?! Eh, Düymə, daha nə deyim sənə?!

Nazilə Cavidin gətirdiyi su ilə cızılmış, qanamış yerləri təmizlədi, sonra spirtlə, yodla sürtdü. Cavid bir kənara çəkilib, Düymənin hərəkətlərini izləyirdi.Bilirdi ki, yod yaraları yandırır, ancaq Düymə cınqırını da çıxartmırdı. Nazilə xalası gülə-gülə:

– Özünü qoçaq göstərirsən, – dedi, – yəni səni yandırmır?!

Düymə cavab əvəzinə bərkdən güldü.

– Yaman şeysən ha, Düymə, qolunu bəri ver görüm, vay, vay, qolun lap pis gündədir ki! Deyəsən, böyrü üstə yıxılmısan! Qolunu qaldır görüm, ağrıyıb eləmir, yaxşı ki sınmayıb, çıxmayıb, allaha şükür sağ-salamatdır, bəxtin var balam!

Cəmilə qapını açdı:

– Yaralı qəhrəman özünü necə hiss edir? – deyə içəri girib Cavidin yanında dayandı,– usta Dadaş aşağıda bizə kino göstərmək istəyir.

– Urrra! -deyə Düymə yerindən dik atıldı.

– Nə edirsən, hələ qurtarmamışam, dayan qolunu sarıyım, sakit ol görüm, hə, bax belə. Kino qaçmır ki, nə olub sənə, qaynayır ha...

– Çox da sevinmə, Düymə... Kinomexanik yoxdur. Usta Dadaş da aparatın dilini bilmir...

– Kinomexanik mən! Nazilə xala, tez qurtar, gedim kinonu işə salım, siz də gəlin, kinoya baxın...

– Barı maraqlı bir lent var?

– Bilmirəm. – Cəmilə dilləndi. Usta Dadaş deyir ki, guya onda çoxdan qalmış maraqlı bir lent var...

Kinodan sonra uşaqlar hamısı yatmağa getdi. Səhər güclü külək qalxdı. Cavid yenə binanın titrəməsindən, vıyıltıdan oyansa da, keçən gecədəki kimi qorxmayıb, pəncərədən rəqs eləyən ağımtıl dalğalara baxdı. Ta uzaq üfüqlərdən başlayıb, bu adaya kimi genişlikdə ağaran, titrəşən, axan dalğaların hərəkətində

möhkəm nizam vardı, sanki minmin qağayı eyni vaxtda həm batır, həm də üzə çıxırdı. Cavid qorxduğunu heç cürə özünə bağışlaya bilmirdi, səhər dənizə baxa-baxa yenə bu barədə düşünürdü. Düymə isə belə deyildi, heç nədən qorxmurdu. Elə bil onun canında qorxu hissi yoxdu. Bəs Cavid niyə onun kimi ola bilmir?! Görəsən, çətin, qorxulu vəziyyətə düşsə, onda necə olar, özünü necə aparar? Bu suala cavab verməkdə çətinlik çəkirdi. Bu səyahətin xəritəsini tərtib etməyə başlamışdı. Hətta təzə adanı göstərmiş, ona ad da tapmışdı: Alov adası! Çünki bir həftə ərzində dənizdən qalxan bu alov nəticəsində yaranmışdı. Bəs indi olduqları adanın adını hər yerdə Zənbil göstərmək olmazmı?!

Qapı döyüldü. Cavid buna inanmaq istəmədi. Axı burda, dənizin ortasında, bu səhər sübhdən kim idi qapını döyən? İnana bilmirdi ki, uşaqlardan kimsə yuxudan oyanmış olsun! Qapı ikinci dəfə döyüləndə Nazilə də oyanıb gözlərini açdı. Cavid gedib qapını açanda qarşısında həyəcan içində dayanmış Kələntəri gördü. Özü də həyəcanlandı:

– Nə olub?

– Düymə yoxdur.

– Necə yoxdur?

– Gecəni yanımda qalmayıb.

– Yəqin, o biri uşaqların yanındadır.

– Onların da yanında deyil.

– Bəs... Bəs onda?!

– Nə bilim...

Nazilə qapıya yaxınlaşıb:

– Qorxmayın, – dedi, – Düymə yəqin, kapitanın kayutunda rahatca yatır. Onun fikrini çəkməyin.

Həqiqətən belə idi, Cavid gəmiyə çıxıb, əmisinin kayutuna yaxınlaşanda, matroslardan birinin yarıçılpaq olduğunu görüb dayandı. Yarıçılpaq adam pillələrlə sürüşüb sürətlə göyərtəyə hoppandı. Onun dalınca bapbalaca bir şey sürətlə pillələrin üstü ilə göyərtəyə düşdü, sonra dələ kimi matrosun çiyninə qalxdı. Matros isə yavaş-yavaş əli ilə onu yuxarıya qaldırdı. Yəqin ki, onun Düymə olduğunu bildiniz. Cavid möcüzə görürmüş kimi



maraqla baxırdı. Düymə qollarını açıb, dimdik havada, matrosun əli üstündə dayanmışdı; sirkdəki akrobat kimi! Külək onlara mane olurdu.

Düymə Cavidi görən kimi ordanca quş kimi hoppanıb qarşısında yerə düşdü.

– Sabahın xeyir!-deyə əlini uzatdı, – görürsən, nə yaxşı idmandır!

– Görürəm. Salam! – Cavid matrosla da görüşdü. – Bəs bizi nigaran qoymağın necədir?

– Nigaran niyə qoyuram ki! Yəqin, Kələntər hay-küy qoparıb.

– Bəs neyləsin Kələntər?

– Bir də ki, günah məndə olmayıb.

– Düz deyir. – matros Düymənin köməyinə gəldi.– Dünən gecə usta Dadaş öz buruğuna gedirdi. Onu yola saldıqdan sonra Düymə yanınıza qayıtmaq istəyirdi, biz qoymadıq. Daha doğrusu, kapitan qoymadı. Bir də ki, Düymə keçən axşam da kapitanın kayutunda qalmışdı. Burda təəccüblü nə var?

– Doğrudan? – Cavid heyrətləndi. – Bundan xəbərim yox... Nə əcəb Kələntər hay-küy salmayıb?

– Bilməyib, ona görə. Fəvvarəyə baxmağa gedəcəksiniz, yoxsa yox?!

– Əlbəttə, gedəcəyik.

– Onda məni də gözləyin.

Belə küləkli gündə, adada qayaya tərəf getmək uşaqlara dəhşətli gəldi. Hamısı başını əyib yavaş-yavaş irəliləyirdi. Yusif müəllimin bir əli papağında idi, onun dəyirmi papağı dərhal uçurdu. Kələntər isə həsir papağını qoymamışdı. Yaxşı da eləmişdi. Bu küləkdə nə papaq?! Hava da soyumuşdu. Düymənin heç vecinə deyildi, hamıdan qabaqda sürətlə gedirdi. Belə küləkli gündə fəvvarəyə baxmaq, əlbəttə, ona maraqlı göründü. Kələntər yüyürə-yüyürə gəlib təngınəfəs ona catdı:

– Heç ilan görməmisən? – dedi.

– Yox...

– Dünən bir neçəsi vardı, bu gün heç biri də gözə dəymir. Məəttəl qalmışam.

– Yəgin, küləkdən qorxurlar...

– Bəlkə də... İlan nə başa düşür külək nədir, tufan nədir... Ay Düymə, ondan qorxursan?!

– Yox, heç də qorxmuram.

Fəvvarəyə çatıb dayandılar. Dünənki fəvvarə hara bugünkü hara? Tamam başqa şəkil almışdı. Ağappaq küknar indi körpü kimi ikiqat əyilmişdi. Elə bil bir ağac tən ortasından sınmışdır. Sanki bir gənc bir gecənin içində qocalıb beli bükülmüşdü. Dünən dibinə tökülən sular indi küləyin qüvvəsi ilə parlaq muncuqlara çevrilib, ətrafa səpələnirdi. Külək bu damcıları sahilə qədər gətirib çatdırırdı. Yusif müəllim ən axırda gəlib uşaqlara çatdı:

– Maraqlı fəvvarədir! – dedi, – belə fəvvarələr Xəzər dənizində çoxdur!

Səhər elə gözəl hava ilə açıldı ki, hər yan; dəniz, ada, üfüq, göy sakitlik, rahatlıq içində nəfəs alır, ən uzaq yer belə aydın nəzərə çarpır, bu aydınlıq ürəyə sevinc gətirirdi. Gəmi yavaş-yavaş yan aldığı körpüdən aralanır, dənizə tərəf istiqamət götürürdü. Uşagların heç biri aşağı salona düşmək istəmir, göyərtədən adaya, dənizə baxırdılar.

Get-gedə ada kiçildi, xal kimi oldu və birdən yoxa çıxdı. İndi gəmini dörd tərəfdən dəniz əhatə etmişdir. Cavid hər tərəfə baxa-baxa bir anlıq gəminin okeanın ortasında üzdüyünü təsəvvürünə gətirdi. Xəyala elə qapılmışdı ki, arxasında Cəmilənin dayanmasından xəbəri olmadı. Cəmilə əlini astaca çiyninə qoyanda diksindi:

– Qorxdun?

– Yox, niyə qorxuram ki? Gör nə yaxşıdır, elə bil dənizin ortasıdır, ətrafda heç nə görünmür, üfüqdən başqa...

– Hə, düzdür! – Cəmilə hər tərəfə göz gəzdirdi. – Həqiqətən gözəldir!

– Mənə daha acığın tutmur ki?

– Hələ ki yox...

– Axır ki mənimlə barışdın.



– Səhv edirsən, barışmamışam.

– Necə?! Barışmamısan? Niyə?

– Çünki... Çünki səndən bərk incimişəm.

– O sözə görə?

– Həm o sözə görə, həm də məktuba görə...

– Hansı məktub?

– Nə tez yadından çıxarırsan? Düymənin bacımın cibinə qoyduğu məktubu deyirəm. Onu sən göndərməmişdin? Necə də hoqqalar çıxarırdı. Hamısını başa düşürdüm. Bilirdim ki, burda nəsə var.

– Belə çıxır ki, sən o məktubu da oxumusan?!

– Əlbəttə, oxumuşam. Küsdüyümü qardaşın da bilir. Görürsən, sən özün də xəbərçilik edirsən!

Cavid tutuldu, bir müddət susub heç nə deyə bilmədi, sonra Cəmiləyə baxdı. Sakitcə gözlərini harasa uzaqlara dikən Cəmilə:

– Sahil! – deyə birdən çığırdı. – Ora bax, Cavid!

Cavidin tutqunluğu keçdi, Cəmilənin göstərdiyi tərəfə baxanda, nəhəng bir qaraltı gördü, elə bil dənizin içində dağ vardı və gəmi ora doğru üzürdü. Dərhal tanıdı, çünki dağın qarşısında nöqtələr qaralırdı. Bu vaxt Düymə:

– Cavid!– deyə onu səslədi. – Cavid, gəl bura!

Göyərtənin o tərəfində uşaqların əhatəsində əmisini görən kimi Cəmiləyə sarı dönüb əlindən tutdu, darta-darta uşaqların yanına apardı. Düymə Cavidin qulağına pıçıldadı ki, "Quba" gəmisinin batdığı yerə aparmağı kapitandan xahiş etsin. Cavid başı ilə razılıq verdi. Kapitan kitelinin üst düymələrini açıb dedi:

– Yəgin ki, buxta sizə tanışdır. İstəyirəm ki, dənizdən Bakıya baxasınız. Buxtadan sonra o tərəfə gedəcəyik...

– Şüvəlana getmək olmaz?

– Olar, vaxt lazımdır. Bilirəm, Cavid, "Quba" gəmisinin batdığı yeri görmək istəyirsiniz. Bu, gələn dəfəyə qalsın.

– Hansı dəfəyə?! – Düymə dərhal soruşub narazılıqla başını buladı. – Axı... gələn dəfə burda olmayacağıq...

Kapitan gülə-gülə ona baxdı:

– Pioner düşərgəsinə getməyəcəksiniz?! Bax, o vaxtı sizi apararam... Söz verirəm, kapitan kimi!

Gəmidən buxta aydın görünürdü; buruqlar, evlər dağların ətəklərinə qədər səpələnmişdi, sağ tərəfdə, döşdə ağ rəngli, şüşəbəndli sıra-sıra evlər yaşıllıq içindən baş qaldırırdı. Buxta amfiteatr kimi ucalır, dəniz bu amfiteatrın səhnəsi kimi işıqlanırdı, gəmi isə bu səhnədən ötüb Bakıya tərəf üzürdü.

– Yarımada şəklində qabağa çıxan nədir?!

– Böyük Şıx burnudur, bir də kiçik Şıx burnu... onların arasında isə qədim Şıx kəndi. Həmin kəndlə bağlıdır bu adlar. O yanda isə Bayıl burnudur... Onun yanından keçib, Nargin adasına doğru gedəcəyik...

Gəmi buruqların, estakadaların arasından keçir, adaya doğru istiqamət alırdı. Ada Zığ burnu ilə Şıx burnu arasında, dənizin ortasında qaralırdı.

Gəmi adanı dolanıb Bakıya doğru istiqamət götürdü, get-gedə ada arxada qaldı. Uşaqlar həm dənizdən şəhəri görmək, həm də kapitanın söhbətinin ardını dinləmək istəyirdilər. Ancaq gəmi şəhərə çox yaxın getmədi, çevrilib limanın yanından geri döndü və sahillə yanaşı üzməyə başladı. Hökumət evi, mehmanxanalar, fəvvarələr, meydanlar, sahil bağındakı müxtəlif ağaclar, köşklər, funikulyor, Qız qalası, televiziya qülləsi, dağ döşündə üst-üstə ucalan bir-birindən fərqli ağappaq binalar. Bir baxışda bütün bunları görmək mümkün deyildi. Kapitan özü də uşaqlar kimi sehrlənmişdi. Elə bil Bakı pillə-pillə, bina-bina ucalıb göyə qalxırdı. Elə bil şəhərin qolu vardı, ikisini də uzatmış, dənizi qucaqlamışdı.

– O vaxt Bakının sahilləri belə deyildi, – kapitan söhbətinə davam etdi. – Qumlu-daşlı, qayalı sahillər qala divarlarına qədər uzanıb gedirdi. İndi burdan, – dənizdən gördüyünüz Qız qalasını da ləpələr döyəcləyirdi. Sahilə toplaşan camaat bir də gördü ki, gəmilərdən bəriyə üç-dörd qayıq gəlir. Onları qorxu bürüdü. Bu zaman qaladan top səsi eşidildi. Bu səsin dalınca, sanki cavab kimi gəmilərdən də top atəşi açıldı. Camaat daha da qorxdu, hamısı qaçıb qalaya girdi. Bir də gördülər ki, qayıqlar sahilə yan alıb, içindən əsgərlər düşür. Hərbi ekspedisiyanın rəhbəri Matyuşkin əsgərlərlə birlikdə qalanın darvazasına yaxınlaşdı. Palıd darvaza açıldı, onlar içəriyə – şəhərə keçdilər. Bakı hakimi Hüseynbəy gəmilərdən, toplardan qorxdu, vuruşmağın mənasız olduğunu görüb mübahisəsiz, top-tüfəngsiz rusları qalaya dəvət etdi. Camaat bu əsgərləri yaxından görüb təəccüb içində baxırdı. Matyuşkin öz dəstəsilə əyri-üyrü, dar küçələrlə Hüseynbəyin sarayına doğru getdi.



– Bəs sonra?! – Kələntər gözlərini oynada-oynada maraqla soruşdu.

– Sonra... General-mayor Hüseynbəylə söhbətə başladı. Böyük səyyah Fyodor Soymonov da boş dayana bilməzdi, çünki Xəzəri öyrənmək lazımdı. İndi, uşaqlar, fikir verin, gəmimiz Bayıl burnuna yaxınlaşır. Bayıl burnundan bir az aralıda, su altında Soymonov qüllə, divar, bürc gördü. Xəzər dənizində, suyun altında! Divar uçulmuşdu. Bunlar haqqında Soymonov ilk məlumatı verib. Demə, burda böyük bir şəhər varmış! Əvvəl bu şəhər quruda imiş!

Düymə birdən soruşdu:

– İndi suyun içinə girsəm, o divarı, qülləni görə bilərəm?!

– Birdən özünü atarsan dənizə, Düymə, belə şeylər eləmə, – deyə kapitan güldü. – İndi görə bilməzsən, əvvəlcə, bunun üçün hazırlıq lazımdır, ikinci, o divarları söküb daşları, kitabələri çıxarıblar.

– Kimlər?!

– Alimlər.

– Niyə?

– Necə niyə?! Öyrənmək üçün... Bilmək istəyirlər ki, bu necə şəhərdir, niyə yoxa çıxıb, necə olub bütün bunlar. Xalq arasında bu şəhərin adına Səbayıl deyirlər. Səbayıl şəhəri.

– Dəniz altında niyə qalıb?!

– Bu barədə müxtəlif fikirlər var. Məncə, ən dəqiq fikri Abbasqulu ağa Bakıxanov söyləyib.

– O kimdir? – Kələntər soruşdu.

– Tanımırsınız?! Şair, alim, filosof... Gələcəkdə öyrənəcəksiniz. Abbasqulu ağa Bakıxanov deyib ki, Səbayıl təbii fəlakətin nəticəsində suya qərq olub. Həqiqətən də Xəzərin cənub sahillərində güclü zəlzələlər baş verib. Bakıdan Salyana qədər olan ərazidə şəhərlər yerlə yeksan olub. Çox güman ki, Səbayıl da o vaxt çöküb və dənizin altında qalıb.

– Divardan götürdükləri daşlardan bir şey öyrənə biliblər?!'

– Bəli, bə'zi sözləri oxuyublar. 600-dən çoxdur bu daşlar, hamısının da üstü yazılıdır. Görürsünüz, bu dəniz, bu adalar, qoynunda nə qədər sirr saxlayır?! Bunları öyrənmək, bilmək həm də sizin borcunuzdur.

Gəmi Bayıl burnundan ötüb istiqamətini dənizin ortasına doğru götürdü. Qəribə fit səsi eşidildi və bu səs uşaqları günorta yeməyinə çağırdı.

Bir gün sonra «Xəzər» uzaqdan yaşıl çəmən kimi görünən balaca bir adaya yaxınlaşdı. Adanın limanı, körpüsü olmadığı üçün taxta pilləkən uzadıldı. Kimsə bərkdən qışqırdı:

– Ağ dovşan, görün, nə qədərdir.

– Hanı, hanı?! Heç görmürəm, – deyə Kələntər gözlərini döyə-döyə adaya baxdı.

– A... doğrudan bu dovşanlar hara qaçdılar?!

Uşaqlar yavaş-yavaş pilləkəndən düşüb adaya çıxdılar. Demək olar ki, hamı adada idi; təkcə Nazilədən başqa! Kapitan da, Yusif müəllim də, matroslar da! Bu vaxt bir dovşan hardansa peyda oldu, Düymə onu tutmaq istədi, dovşan bir an içində qaçıb yoxa çıxdı. Bir göz qırpımı içində ada dovşanlarla doldu. Bu, elə gözlənilməz oldu ki, uşaqlar özlərini itirdilər. Təkcə Düymədən başqa. Çoxdankı dostu, tanışı kimi dovşanların arasında dayanmışdı, heç biri də oğlandan qorxub qaçmırdı. Hətta biri hoppanıb çiynində əyləşdi. Bahadur gülə-gülə:

– Düymə özü də dovşana oxşayır, – dedi. – Baxın, uşaqlar, onun nə yekə qulaqları var...

Kapitanın zarafatından gülüşən uşaqlar bir də gördülər ki, sirk meydanında olduju kimi, Düymə özünü dovşanların təlimçisi kimi sərbəst aparır. Dovşanlar da sıraya düzülüb dalbadal arxadan



hoppanıb onun çiyninə qalxır, sonra yerə tullanırdılar. Bu elə sürətlə, ardıcıllıqla, fasiləsiz baş verirdi ki, nizam pozulmurdu. Bu axın davam etdikcə, elə maraqlı mənzərə yaranırdı ki, baxan bir də baxmaq istəyirdi. Elə ki bir dovşan yerə hoppanırdı, həmin anda da, o birisi çiyninə qalxırdı. Həm arxada, həm də qarşıda bir-birinin dalınca düzülüb irəliləyən dovşanların cərgəsi kəsilmək bilmirdi.

Düymənin çiynindən keçən dovşanların da birdən-birə yoxa çıxması hamıya qəribə gəldi. Elə bil göz qırpımında yerə batırdılar. Birdən Düymə qışqırdı:

– Bu, təkcə mənim məharətim deyil. Nəsə sirr var.

– Sirr yoxdur, özün də elə dovşansan! – deyə kimsə ona cavab verdi. – Oyna, maraqlıdır!

Axırıncı dovşan Düymənin çiynindən hoppanıb keçəndən sonra, o da yoxa çıxdı. Ada elə boşaldı ki, sanki bayaqdan dovşanlar heç yerli-dibli olmamışdı. Kapitan, uşaqları gəmiyə səslədi, onlar isə adadan ayrılmaq istəmirdilər. Əyilib dovşanların girdiyi iri yarıqlara baxırdılar. Biri də gözə dəymirdi. Cavid gülə-gülə:

– Yəqin, yatmağa gediblər, – dedi.

Gəmi fit verib, adadan ayrılıb, yenə irəliyə doğru sürətlə gedəndə göyərtədən baxan uşaqları heyrət götürmüşdü. Demək olar ki, ağ dovşanların hamısı üzə çıxmışdı, hamısı da gəmiyə sarı baxırdı. Kimsə zarafat etdi:

– Dovşanlar bizə əl eləyir...

Onlar uzaqdan şimalda yaşayan ağ ayılara bənzədilər. Hamısı ayaqlarını uzadıb yan-yanaşı əyləşmişdi. Gəmi uzaqlaşdıqca, bu ada da, dovşanlar da yavaş-yavaş gözdən itirdi.

Gəmi Astaraya doğru gedirdi, Cavid bir neçə uşaqla əmisinin böyründə dayanmışdı.

– Hara gedirik?!

– Kumani adasına. İndi bu ada yoxdur.

– Yoxdur? – Düymə işım-işım işıldayan gözlərini kapitana dikdi. – Bəs ora niyə gedirik?!

– Çünki yerini sizə göstərmək istəyirəm. Bu ada 1862-ci ildə kəşf olunub. Onu ilk dəfə «Türkmən» gəmisinin kapitanı Mixail Nikolayeviç Kumani tapıb. Adaya da onun adı verilib: Kumani adası. 5 dəfə vulkan püskürüb, ada yaranıb, sonra da itib. İndi də yoxdur. Belə sualtı adalar, qayalar Xəzərdə çoxdur. Kim istəsə, suya girə bilər, adaları, qayaları görə bilər.

– Mən istəyirəm! – Düymə inamla dilləndi.

– Bu dəfə Kələntəri məsləhət görürəm. – deyə kapitan gülə-gülə ona tərəf baxdı. Kələntərin rəngi qaçdı, gözləri də şar kimi fırlandı.

– Yox... – deyə kəkələdi. – Düymə ki özü istəyir...

Cavid əmisinin zarafat etdiyini başa düşmüşdü, Kələntəri bu çətin vəziyyətdən qurtarmaq üçün dedi:

– Kələntər qorxaq deyil, əmi!

– Əlbəttə! – deyə Kələntər Cavndın müdafiəsindən özünə gəlib cəsarətləndi. – Əgər lazımsa...

Kapitan əlini irəliyə uzatdı:

– Dənizdə işarəni görürsünüzmü? O işarənin olduğu yer Kumani adasıdır. Diqqətlə baxsanız, adanın lək boyda üzə çıxmış parçasını görə bilərsiniz. Odur, odur, yamyaşıl.

Cavidə elə maraqlı gəldi ki, dümdüz suların qucağında yamyaşıl lək kimi bir parçanın olduğuna inana bilmirdi. Odur ki, gözünü dənizdən çəkmirdi. Birdən onu görüb dedi:

– O, xalı kimi görünür...

– Elə bil dənizdə xalı üzür...

Cavid üzünü əmisinə tutub soruşdu:

– Onun üstündə dayanmaq olar?

– Əlbəttə!

Düymə kapitanın qarşısında əsgər kimi dimdik dayandı:

– İcazə verin, o yerin üstünə çıxım?!

– Vaxtımız yoxdur, Düymə.

Gəmi su altında olan Kumani adasını dövrə vurub geriyə qayıtdı, bir azdan adalar, sahillər, buruqlar tamam itdi, dörd tərəf başdan-başa üfüqlərə qədər uzanan dəniz oldu. Dənizi belə görəndə həmişə Cavidin ürəyində xoş bir duyğu baş qaldırırdı.



İndi bu duyğu varlığına hakim kəsildiyi bir vaxtda Cəmilə ona yaxınlaşdı:

– Gözəl dənizimiz var, düzdür?

– Düzdür.

– Niyə soyuq danışırsan mənimlə, yoxsa indi sən küsmüsən?

– Yox, küsməmişəm.

– İnanmıram. Əvvəlki Cavid deyilsən, o günkü mübahisəmiz yarımçıq qaldı.

– Məncə, yarımçıq qalmadı. Hər şey sənə də aydındır, mənə də!

– Bir söz soruşmaq istəyirəm. Əgər uzaq bir yerə kəşfiyyata səni göndərsələr, öz dəstənə məni götürərsən?!

– Götürərəm.

– Nəyə görə?! Axı mən o qədər də qoçaq deyiləm.

– Təkcə qoçaqlıq azdır, Cəmilə! Özünə məxsus işin olar, bizə kömək edərsən, bəzən adi bir iş də qoçaqlığa çevrilə bilər. Baxır harda, hansı şəraitdə...

– Səndən bir xahişim var, gəl bir daha mübahisə etməyək, yaxşı, Cavid?!

– Demək, sən nə desən, mən «baş üstə» deyim, eləmi?!

– Elə də yox...

– Bəs necə?! A... başa düşdüm, mənimlə barışırsan?

– Yox! – Cəmilə bu kəlməni gülə-gülə, xüsusi vurğu ilə deyib, üzünü dənizə sarı çevirdi. Cavid kəlmənin mə'nasını istədiyi kimi yozdu, bayaq dənizə baxarkən, ürəyinə axan duyğunun üstünə yeni, xoş duyğu əlavə olundu. İndi dəniz daha gözəl və füsunkar idi. Şəfəqlər altında öz maviliyini daha parlaq göstərib, toydakı gəlin kimi utancaq-utancaq gülümsünürdü. Gəmi aramla uzaqda xal kimi qaralan nöqtəyə doğru irəliləyirdi. Gəmidən on metr aralıda sular çevrə kimi ləpələndi, bu ləpələrin tən ortasından bir baş üzə çıxdı.

– Suiti, suiti!-deyə Cəmilə bərkdən qışqırdı. – Gör necə baxır...

– Hanı, hanı? – Cavid onu axtardı, ancaq suiti sulara batdığından onu görə bilmədi.

Gəmi yaxınlaşanda ilk nəzərə çarpan mayak oldu. Uşaqları mayaka baxan bir qoca qarşıladı.

– Burda kim mənimlə qalar? – deyə qoca məzə ilə ilk sualını verəndə, hamı «mən» deyə əlini qaldırdı.

Qoca əvvəl çaşıb dinə bilmədi, sonra «oy!» deyə fərəhlə qışqırıb, əllərini göyə uzada-uzada:

– Afərin, balalarım! Xoş gəlmisiniz, məni təklikdən qurtardınız! – dedi. – Bu həvəs ki sizdə var, mənə bəsdir, elə biləcəyəm ki, həmişə yanımdasınız!

Sağ olun, indi mən də sizi qəşəng bir şeyə qonaq edəcəyəm, daha doğrusu, yemişə... Yemiş deyirəm sizə, yemiş... Bu, gündə yediyiniz yemişlərdən deyil ha... Möcüzədir, möcüzə...

Uşaqlar bu sözlər haqqında fikirləşəndə qoca harasa getdi, özü boyda, içi dolu böyük kisə ilə geri qayıtdı. Kisəni onların qarşısına qoyub mənalı-mənalı dedi:

– Yemiş bu kisənin içindədir. Görüm, onu kim tapa bilər? Hə, özünü qoçaq hesab edən, irəli dursun!

– Eh, onu tapmağa nə var! – deyə Kələntər lovğalandı, – Qorxuram ki, içində yemiş olmasın...

Qoca ona tərs-tərs baxdı.

Düymə yaxınlaşıb, əlini kisənin içinə saldı, axtardı, az qaldı özü də kisənin içinə girsin. Yemişi tapa bilmədi. Sonra Cavid axtardı, sonra o biri uşaqlar! Yemiş nə gəzir, kisənin içi qurumuş otla doludur, vəssalam.

Kələntərin gözləri işıqlandı:

– Əvvəldən dedim ki, içində yemiş yoxdur...

– Yoxdur deyirsən, a bala, – deyə qoca bu dəfə ona tərs-tərs baxmadı, gözləri parıldadı. – İndi hamınız fikir verin bu kisənin içindən bir yemiş çıxarım ki, dadı-təmi, qoxusu dünyada yeganə!

Əlini kisənin içinə uzatdı, bir-iki dəfə qurdalayıb, uzunsov bir yemiş çıxartdı, uşaqlar arasından «oy!» nidaları qopdu. Yemiş elə gözəl idi ki, naxışları nəyə desən dəyərdi. Adam heç əl vurmaq istəmirdi. Sanki yemək üçün yox, baxmaq üçün yaranmışdı. Şirinliyindən çox yeri incəliklə elə çatlamışdı ki, bu yerlər naxışlarla birləşmişdi. Kələntər narazılıqla dedi:



– Eh, bu yemiş heç mənə çatmaz!

– Birinci sənə verəcəyəm. – Qoca gülə-gülə cibindən bıçaq çıxartdı, ilk nazik dilimi kəsib yarı böldü, yarısını Kələntərə uzatdı:

– Hə, bala, buyur, dadına bax!

Kələntər balaca dilimin orasına-burasına baxıb dodaqaltı mızıldandı:

– Eh, bunu yeməsəm yaxşıdır!

– Ye, sonra danış!

Dilimin o biri yarısını Düymə götürüb yeməyə başladı, birdən xırda gözləri işım-işım işıldadı:

– Doydum! – qışqırdı. – Yaman ləzzətlidir!

Qoca isə aram-aram nazik dilimlər kəsib yarı bölür, uşaqlara paylayırdı. Hamı yeyib tərifləyirdi. Düymə dilimini yeməyən təəccüblə, narazılıqla baxan Kələntərə dedi:

– Kələntər, kimə saxlayırsan bu dilimi?

– Ye, əntiqə şeydir, bal da yanında yalandır!

Qoca bu zaman Kələntərə baxıb:

– A bala, – dedi, – nahaq yemirsən. Bu yemişin yarısı qalacaq, onu ye, inan, yeyə bilsən, yarısını tamam sənə verərəm. Bax, sözümüz sözdür, ha!

Kələntər bunu gözləyirmiş kimi, dilimini həvəslə yeyib qurtardı, koppuş yanaqları şişdi, çeynəyə-çeynəyə:

– Ver! -deyə hərisliklə əlini qocaya uzatdı.

Qoca yenə bir dilim kəsdi, yarı bölmədən Kələntərə uzatdı:

– Buyur, ye! – dedi. – Qorxma, qalan yemiş də sənindir.

Hamı dilimi yeyən Kələntərə baxıb bu qəribə yarışın nə ilə qurtaracağını gözlədi. Kələntər dilimi yarı eləməmiş dayandı, gözləri nə günə düşdü, şar kimi fırlandı, dayandı, sonra yenə fırlandı, gah əlindəki dilimə baxdı, gah da uşaqlara.

– Hə, nə oldu?! – qoca güldü. – Ye axıra kimi...

Yox, deyəsən, Kələntər daha yeyə bilmirdi. Daha doğrusu, gözü doymadığı üçün yemək istəyir, sadəcə olaraq bacarmırdı. Qoca yerdə qalan yemişi də Kələntərə uzatdı:

– Ala, verirəm sənə, sabah bölün, yeyin!

Kələntər həvəslə onu götürdü.

– Bəlkə, kisəni də verim, içinə qoyasan?!

– Yox, istəmirəm, sonra kisədən onu tapa bilmərik!

Uşaqlar gülüşə-gülüşə, razılıq edə-edə qocadan ayrılıb adanın gah daşlı-qayalı, gah qumlu sahillərini dolaşıb, vaxtilə püskürən vulkan yerinə baxdılar.

Gəmiyə minəndə axşam düşmüşdü. Uşaqlar elə yorulmuşdular ki, Duvannı adasına çatan kimi yatmaq üçün tələsdilər.

Cavid yuxu görürdü. Otları dizə qədər qalxmış dəyirmi bir adaya düşmüşdü. Otlar elə yaşıldı ki, ilk baharın yarpaqları kimi! Ona görə bu otların üstü ilə qaçırdı, yox, uçurdu, ayaqlarını yerə elə qoyurdu ki, otları əzmirdi. Bir az qabaqda isə körpə zeytun aqaclarının qoşa cərgəsi xiyaban kimi uzandıqca uzanırdı.

Bu xiyabana yaxınlaşan Cavid yavaş-yavaş irəliləyəndə, o biri tərəfdən bir qızın gəldiyini gördü. Adada Cəmiləni gördüyü üçün elə sevindi ki, ona doğru yüyürdü. Gördü ki, Cəmilə də yüyürür, saçları çiyinləri üstündə dalğa-dalğa atılıb düşür. Cavid dayandı, çünki Cəmilə yoxa çıxdı, məəttəl qalan oğlan həyəcanlanıb var səsilə onu çağırmağa başladı.

Bu zaman bir əl çiyinlərinə toxundu, dərhal geriyə çevrildi və yenə qarşısında Cəmiləni gördü. Cəmilə qəhqəhə çəkə-çəkə:

– Qorxdun? – deyə soruşdu.

– Yox, qorxmadım...

– Hansı adaya düşmüsən?

– Bilmirəm.

– Bəs öyrənmək istəmirsən?

– İstəyirəm.

– Bura professor Gül adına adadır. Gəl, səni aparıb gəzdirim. Xəzərdə belə gözəl ada yoxdur. Yəqin ki, professor Gül haqqında eşitmisən?

– Eşitmişəm, yaxşı alim idi...

– Bu alim bizim Xəzər dənizini çox sevirdi, onun haqqında kitablar yazmışdı. Həmişə də maraqlı fikirlər söyləməyə çalışırdı.

– Bu adanı kəşf edən odur?!



– Bəli! Buna görə professor Gülün adını daşıyır. Körpə zeytunlar böyüyəndə bura necə qəşəng olacaq, bilirsən?!

– Bilirəm.

– Burda püstə, badam ağacları da var.

– Harda?!

– Bu adanın o tərəfində. İndi sənə hamısını göstərərəm. Gəl dalımca.

Elə ki zeytun ağaclarının cərgəsi qurtardı, badam ağaclarının cərgəsi başladı, sonunda dar bir yol dənizin içinə doğru uzandı. Yolun o tərəfində dəyirmi ada vardı, hər iki dəyirmi adanı bir-birinə bağlayan elə bu dar yoldu. Cavid bu yolla Cəmilənin ardınca gedərkən, birdən dəhşətli gurultu qopdu, arxaya çevriləndə göyə bülənd olmuş alov sütunu gördü.

– Cəmilə, qaç irəli! – deyə çığırdı, özü də Cəmilənin dalınca qaçmağa başladı. O biri dəyirmi adaya çatıb püstə ağaclarının altında gizləndilər. Birdən alov sütunu yerindən qopdu, şar şəklinə düşdü. Elə bil ki, üfürülmüş nəhəng, qırmızı bir şar idi. Uçmağa başladı, onların başı üstündən keçib getdi, havaya qalxdı, yavaş-yavaş kiçildi və axırda görünməz oldu.

– O nə idi?! – Cəmilə heyrətlə soruşdu.

– Qıpqırmızı şar!

– Yəqin, vulkan püskürdü, elədirmi, Cavid?

– Yəqin. Başqa nə ola bilər.

– Başımızın üstündən uçan alov sehrli nağıllardakı xalçalara bənzəyirdi...

Püstə ağacları o qədər çox idi ki, meşə kimi hər tərəfi tutmuşdu. Cəmilə onları göstərib soruşdu:

– Xoşuna gəlir?!

– Hə, gözəldir.

– Bu ağaclar professor Gülün arzusudur...

Cəmilə birdən getdi, püstə ağaclarının içində görünməz oldu, Cavid onu səsləyib ora qaçdı, bura qaçdı, axtardı, hər yerdə bir-birindən gözəl püstələr gördü. Əncir ağaclarına bənzəyən püstələr bütün adanı başdan-başa bürümüşdü. Cəmiləni heç yanda

tapa bilməyən Cavid bir də gördü ki, püstə ağacları qəribə bir tərzdə, yavaş-yavaş rəqs edir. Get-gedə bu rəqsin ritmi gücləndi.

Birdən yuxudan ayıldı . Səhər açılmışdı. Nazilə xalası yatağında yox idi. Həyəcanla tələsik geyinib aşağıya düşəndə hamının səhər yeməyinə yığışdığını görüb bir az sakitləşdi. Yemək zamanı bərkdən elə gurultu qopdu ki, uşaqlar bir-birinə dəydi. Kimsə qışqırdı:

– Binamız uçur...

Kələntər ildırım sürətilə özünü çölə atdı, bir-iki uşaq da onun dalınca! Yusif müəllim sakit-sakit:

– Qorxmayın, uşaqlar! – dedi, – Koroğlu gəmisidir, binanı aparmaq istəyir. Narahat olmayın, yeməyinizə davam edin, hələlik üst mərtəbələri söküb aparır, ona kimi biz də qurtararıq...

Uşaqlar yeməyini qurtarıb ayağa qalxanda Kələntərin hərəkətini yada salıb gülüşürdülər. Kələntər özünü heç o yerə qoymurdu, ləzzətlə qoğal yeyir, onlara baxıb gülümsünürdü. Elə ki hamısı bir yerdə binanı tərk etdilər, üst mərtəbənin olmadığını görüb, gəmidən uzanan kranlara baxmaq üçün ayaq saxladılar. Kranlar fırlanıb indi binanın o biri hissələrini göyə qaldırırdı.

«Xəzər» sahildə onları gözləyirdi. Kələntər Cavidin yanına gəlib astadan dedi:

– Bilirsən, yenə Düymə yoxdur.

– Yəqin, kapitanın yanındadır...

Gəmiyə minəndə Cavid Düyməni görməyib bir az qorxdu, Kələntərə pıçıldadı ki, hay-küy salmasın, əmisinə yaxınlaşıb Düyməni soruşdu. Bahadur qəh-qəhə çəkdi:

– Onun fikrini çəkmə, kişi qırığı, iynə deyil ki itə, bir də görəcəksən, hardansa üzə çıxdı.

Cavid arxayınlaşıb, Düymənin haradan və necə üzə çıxacağını səbirsizliklə gözləməyə başladı. Dünən axşam hamı elə yorulmuşdu ki, yatmaqdan başqa heç nə haqqında düşünmədi. Belə vəziyyətdə bəs bu Düymə hara getmişdi? Bir saatdan sonra gəmi tənha bir buruğa yaxınlaşanda, uşaqlar bir ağızdan:

– Usta Dadaş! – deyə qışqıranda Cavidin ürəyində nəsə qırıldı. Axı burda vaxtilə atasının işlədiyi briqada vardı. Əmisi onu qabaqcadan xəbərdar etməmişdi. Axı buna ehtiyac da yoxdu. Gec-tez bura gələcəyini bilsə də, bu Cavidə gözlənilməz göründü. Başını qaldırıb bir də yuxarı baxanda usta Dadaşın yanında Düyməni görüb heyrəti ikiqat artdı. Bu uşaq deyil e, şeytandır, quşdur, oddur, nədir? Təkcə buna Cavid yox, o biri uşaqlar da, xüsusilə Kələntər də heyrətlə baxırdı:



– Ay Cavid! – deyə Kələntər gözlərini həmişəki kimi oynada-oynada Düyməni göstərdi.

– Görürsən?!

– Görürəm, Kələntər, görürəm.

Dəmir pillələrlə yuxarı qalxanda Cavidin varlığını kövrək kədər bürüdü, döşəməyə ayağını qoyan kimi onu Düymə qarşıladı,– gəl, burda dayan!-deyə Kələntərlə, Cəmilənin yanına gətirdi. Sonra o biri uşaqları qarşıladı. Bura geniş olmasa da meydan kimi idi, bu meydanın o tərəfində usta Dadaşın ətrafında briqadanın üzvləri dəyirmi şəkildə düzülüb yanaşı dayanmışdılar. Elə ki Yusif müəllim kapitanla birlikdə qalxıb, uşaqların yanında dayandı, usta Dadaş raport verirmiş kimi qabağa gəlib dedi:

– Bizim briqadaya xoş gəlmisiniz!

Sonra qısaca tanışlıq verib, hamını əsas binaya də'vət etdi. Meydanla bina arasında uzunsov dəhlizə bənzəyən körpü uzanırdı. Cəmilə körpüdən keçməyə qorxdu. Bayaq usta Dadaşın tanış etdiyi Meksika qəhrəmanlarına bənzəyən Firuz adlı gənc:

– Qorxma, ay qız! -dedi, – dalımca gəl!

Cəmilə onun dalınca gedəndə Kələntər də ürəklənib irəli cumdu. Aşağıda dənizi görəndə onu vahimə basdı. Çünki bu körpü titrəyirdi. Odur ki məhəccərdən möhkəm tutdu. Arxadan gələn Cavid yaxınlaşıb:

– Keç, Kələntər, keç! Qorxulu heç nə yoxdur! – dedi. – Düymə o başda bizi gözləyir.

Körpüdən o tərəfdəki binanın qarşısında qonaqlar üçün stullar, hətta bir-iki hörmə kreslo qoyulmuşdu. Uşaqlar sevinclə bu stullarda əyləşib ayaqları altında dalğalanan ucsuz-bucaqsız dənizə baxırdılar. Bu vaxt binanın küncündə dayanmış bir qoyun gördülər.

– Dənizin qoynunda, estakada üstündə qoyun?!

Düymə irəli gəldi:

– Usta Dadaş bu qoyunu bizim üçün gətirdib. Qardaşı kənddə yaşayır, istəyir ki, burda bizə kabab versin.

– Kabab?!-Kələntərin gözləri işıqlandı.

– Hə, kabab! Usta Dadaş hər şey gətirib, manqal da, şişlər də, kömür də...

Meksika qəhrəmanlarına oxşayan Firuz, Cavidin qarşısında durub gülə-gülə dedi:

– Cavid, səninlə çoxdan tanışıq, yəqin yadından çıxıb. Mən atanın ən yaxın köməkçisi idim, sonra onu əvəz etdim, indi də əvəz edirəm. Elə bilirəm ki, atan həmişə mənimlədir, burdadır, elə bilirəm ki, bu gün də bizə qonaq gəlib. Mən səni gördüyüm üçün çox şadam, istəyirəm ki, bu dostlarınla birlikdə bizim istirahət otağımıza da qədəm basasınız...

Cavid dərhal ayağa qalxdı, Firuzun göstərdiyi otağa girərkən, yerindəcə dayandı, çünki qarşı divardan atasının iri şəkli asılmışdı, kədərli gözləri oną baxırdı. Cavid bu şəkli görəcəyini ağlına gətirmədiyi üçün birdən-birə sarsıldı. Şəklin altında atasının adı, familiyası və haqqında qısaca məlumat vardı. Gözləri doldu, yaxşı ki özünü ələ ala bildi, baxışları Cəmilənin baxışları ilə toqquşdu. Cəmilə də kədərlə ona baxırdı. Qız şən

ədasından, şıltaqlığından da qalmadı:

– Hava yaxşıdır! – dedi.– Çıxaq çölə, gəlin, gəlin...

Firuz isə qiyafəsini dəyişib onların qarşısında dayandı:

– İndi sizi buruğun yanına dəvət edirəm, gəlin baxın necə qazırıq... Hamınız gəlin, uşaqlar...

Yenə körpüdən, meydandan keçib, o başda taxta hasara alınmış, başı buludlara ucalan buruğun yanına gələndə gördülər ki, Düymə dəmir pillələrlə yuxarı qalxır. Yusif müəllim narahat olub hirsli-hirsli:

– Düymə! – deyə qışqırdı.

Usta Dadaş onu yenə sakit etdi:

– Müəllim, narahat olma, mən icazə vermişəm, yuxarıda, kəlləçarxda adamımız var... Düyməni ki yaxşı tanıyırsan, ondan



qorxmağa dəyməz. Uşaq deyil, od parçasıdır, od... Mən belə qoçaq uşaqları çox sevirəm.

– Mən də çıxmaq istəyirəm! – deyə Kələntər usta Dadaşa baxanda hamını gülmək tutdu.

– Yarı yolda qalarsan Kələntər!

– Bu bədənlə hara qalxırsan?!

– Niyə qalxmır? – Usta Dadaş onu həvəsləndirmək istədi.– Buyur, o pillələr, o da sən. Qalx, qorxma, bu ancaq xeyirlidir. Hə, nə durmusan, qətiyyətli olmaq lazımdır.

Kələntər bu sözlərdən ruhlanıb, həvəslə pillələrə doğru getdi. Yusif müəllim onu buraxmağa çəkinir, ancaq usta Dadaşdan da keçə bilmirdi.

Başına dəmir papaq qoymuş Firuz qazma haqqında uşaqlara məlumat verdikdən sonra elevatoru işə saldı, hər yeri uğultu tutdu, elevator yuxarı qalxdıqca borunu çıxardırdı. Bu vaxt kimsə qışqırdı:

– Kələntər... Kələntərə baxın...

Kələntər pillələrin üstündə dayanıb nədənsə başını əymişdi. Görəsən, nə olmuşdu? Aşağıda onu səslədilər, amma Kələntər cavab verməyib başını qaldırdı və yenə asta-asta pillələri qalxmağa başladı. Firuz indi elevatoru aşağı salırdı. Uşaqlar müxtəlif suallar verirdilər.

– Bu quyu çox dərindir?

– Dərindir. Min metr qazmışıq, hələ bu qədər də qazılmalıdır.

– Nə vaxt neft verəcək?!

– Laya çatanda...

– Nə qədər çəkər bu?

– İki-üç ay...

Bu zaman hamının gözü yuxarıda qalmışdı. Nöqtə kimi kiçilmiş Düymə kəlləçarxdan qışqıra-qışqıra əl edirdi. Yolun yarısında dayanmış Kələntər isə məhəccərdən möhkəm tutub yerindən tərpənmirdi. Nə qabağa gedirdi, nə də geri. Niyə dayanmışdı, heç kim səbəbini başa düşmürdü. Usta Dadaş:

– İndi hamınızı günorta yeməyinə dəvət edirəm!– deyə özü qabağa düşdü. – Gəlin, gəlin yemək vaxtıdır.

– Bəs Düymə? – Cəmilə göyə baxdı.

– Düymədən nigaran qalma, odur bax, Kələntərin yanındadır, qolundan tutub.

Cəmilə yuxarı baxıb gördü ki, Düymə Kələntərdən aralanıb ildırım kimi aşağı enir, elə bil ki adam yox, diyirlənə-diyirlənə bir top sürətlə yerə düşür. Bir az getmişdilər ki, Cəmilə gözünü açıb yuman kimi Düymə gəlib onlara çatdı. Bu nə qəribə oğlandır! Hamını ötüb qabağa keçdi, Kələntər hələ də pillələri düşürdü.

Körpüyə yaxınlaşanda onları kabab iyi vurdu, stol hazırdı, fəhlələr şişdən çıxarıb kababları nimçələrə tökürdülər. Usta Dadaş başa keçib, hamını yeməyə çağırdı. Uşaqlar sevinə-sevinə stolun ətrafında əyləşdilər. Dənizin üstündə, buruq yanında belə məclisin düzəldilməsi onlara xoş və qeyri-adi göründüyü üçün təəssüratlarını usta Dadaşdan gizlətmədilər. Usta Dadaş ayaq üstə dayanıb, hamının yerbəyer olmasına fikir verir, uşaqların hər cür qayğısına qalırdı:

– Kababı adətən, meşədə, dağ ətəyində, bulaq başında yeyirlər. Mənsə bu gün oricinallıq eləmişəm..– Dənizin üstündə təşkil etmişəm. Qiymət verdiyiniz üçün sağ olun, balalarım, iştahla yeyin, oy, Kələntər, səni unutmuşuq, buyur, gəl görək... Nə kökə düşmüsən... Gəl, kabab ye.

Kələntər boynunu bükə-bükə yaxınlaşıb fağır bir uşaq kimi dayanmışdı. Bərk tərləmiş, yanaqları qızarıb pörtmüş, ağır-ağır nəfəs alıb əllərini cibinə qoymuşdu. Nazilə onu bu vəziyyətdə görən kimi həyəcanla yerindən sıçradı, yaylığını çıxarıb tərini silə-silə «soyuq dəyər, soyuq dəyər» dedi, köynəyini dəyişməsini məsləhət gördü. Amma Kələntərin gözü kababların qalmışdı. Eh, Nazilə nə hayda, Kələntər nə hayda! Yemək ola, özü də belə ləzzətli yemək, Kələntər onu qoyub köynək dəyişməyə qaçmayacaqdı ki!

– Nazilə xala, heç nə olmaz! – deyə Kələntər özünü verdi Düymənin yanına. Ay gözünə dönüm, bax belə yeyərlər ha...



Yoxsa ki, Cavid kimi, Cəmilə kimi... Bir– iki tikə yeyib, kənara çəkiliblər. Maşallah, Kələntər beş-altı tikəni bir an içində ötürdü.

Nazilə öz yerinə keçsə də, ürəyini yeyə-yeyə nigaran baxışlarını Kələntərdən çəkmədi. Bir az keçmiş, Kələntərin belə qəribə yeməyi onu da güldürdü.

Ayrılıq vaxtı yetişəndə Cavid yenə atasının şəkli önündə bir anlıq sükut içində dayandı.

Gəmi tənha buruğun körpüsündən yavaş-yavaş aralananda, yuxarıda həm usta Dadaş, həm Firuz, həm də fəhlələr dayanıb əllərini yelləyirdilər.

Bulla adasının hündür sahilləri get-gedə aydın nəzərə çarpmağa başladı. Hava birdən-birə dəyişib tutqunlaşdı, günəş görünməz oldu. Adanın üstünə gedən gəmi başqa səmtə üz tutanda uşaqları həyəcan bürüdü. Kapitanın üstünə yüyürdülər:

– Kapitan! Kapitan!

Bahadur kayutundan çıxıb həyəcanlanmış uşaqlara sakit-sakit baxıb soruşdu:

– Nə olub?

– Gəmi adadan uzaqlaşır.

– Qorxmayın, uzaqlaşmır! – kapitan sakit-sakit dilləndi. – Adanın limanı o tərəfdə, şimaldadır.

Bir az keçməmiş gəmi yenə adaya doğru üzdü.

– Görürsünüz? – kapitan stadiona bənzəyən adanı göstərdi. – Necə böyükdür. Akademik Abix keçən əsrdə püskürən bir vulkanı bu adada müşahidə edib. Daha dəqiq desəm, 1859-cu ildə vulkan axşam 11-də baş verib. 20 dəqiqə ərzində alov sütunu qalxıb, sonra sönüb. Bir də səhərə yaxın... təzədən başlayıb! Balıqçılar güclü partlayışdan dəhşətə gəliblər, alov sütun kimi ucalıb, bulud-bulud yayılıb, ətrafa iri, odlu damcılar səpələyib, balıqçıların çoxusu damların altında gizlənib. Alov isə şar şəklində göyə qalxıb dənizin üstü ilə uçub, uzaqlarda gözdən itib.

Cavid birdən-birə bu söhbətdən canlanıb dilləndi:

– Əmi, o şarı mən yuxuda görmüşəm, dünən gecə yuxuda professor Gül adasında idim, Cəmilə ilə birlikdə. Püstə ağaclarının

arasında. Vulkan püskürdü, alov qalxdı, sonra qırmızı şar başımızın üstündən uçub getdi.

– Sən Kuk adalarını da yuxuda görürsən? – deyə kapitan zarafatından qalmadı.

Düymə bərkdən qışqırdı:

– Qara buludlar gəlir...

– O buludlar yağış gətirir. – deyə kapitan ətrafı gözdən keçirdi. – Yaxşı ki, liman uzaqda deyil.

Buludlar get-gedə sıxlaşdı, ətrafı çiskin, duman bürüdü, bunlar sürətlə baş verdiyi üçün heyrət, şaşqınlıq doğurdu. Kapitan yenə sakit idi, əmrlərini, göstərişlərini verə-verə zarafatından əl çəkmirdi:

– O qara buludlar çağırılmamış qonaqa bənzəyir. Düymə, hünərin var, qov buludları...

Düymə yerindən elə sürətlə sıçradı ki, əmri icra etmək üçün sanki göyə uçacaqdı. Cavid diksindi, hətta əlini Düymənin çiyninə qoydu ki, uçmasın. Kapitan bu hərəkətinə görə Düyməyə rəğbətlə baxdı. Kapitanın əmri ilə hamı salona toplaşdı. Əvvəl damcı-damcı tökülən yağış sonra elə gücləndi ki, tut ucundan çıx göyə. İndi yağışdan başqa heç nə görünmürdü. Ada elə bil yağışda yoxa çıxmış, güclü şırıltı aləmi tutmuşdu. Heç beş dəqiqə keçməmişdi ki, yağış dayandı, hava azca açıldı. Hamı gördü ki, gəmi körpünün yanındadır. Kapitan indi gəmidən düşmək əmri verdi.

Düymə birinci düşdü, limandan azca aralıda, ikimərtəbəli, şüşəli, yaşıl binanı görüb qışqırdı:

– Evimiz gəlib, burdadır!

Hamı hay-küylə körpüyə düşən kimi binaya sarı qaçdı, çünki göy yenə buludlarla dolmuşdu, hər an yağış təhlükəsi vardı. Yaxşı ki, yağış yağmadı, hər kəs öz otağına çəkilməyə imkan tapdı. Cavid Nazilə xalasının bu hava kimi tutqun olduğunu görüb:

– Bəlkə, yatmaq istəyirsən? – soruşdu.

– Yox, yox, bu tezdən nə yatmaq?

– Niyə qanın qaradır, xala?



– Eh zəhrimara qalsın hər şey, mənə deyən gərək, buralarda nə gəzirsən, gül kimi evimi-eşiyimi qoyub, o ada mənim, bu ada sənin... nə ölümüm var axı belə yerlərdə?! Ay Cavid, sənə bir məsləhətim var, nə olursansa-ol, amma əmin kimi kapitan olma, gəmidə işləmə, yaxşı!

– Niyə, pis deyil ki!!!

– Nəyi yaxşıdır, ay Cavid, gecəsi yox, gündüzü yox, bə'zən bir həftə evə gəlmir. Bir həftə! Bə'zən də bir ay! Vurub gedir haralara, allah bilir, gəl, tək-tənha otur görüm, necə oturursan? Sən özün şahidsən ki belə şeylərə, nə qədər gəlib yanımda qalmısan. Bir gecə yox, üç gecə yox, demək olar ki, həmişə... Yaxşı ki sən vardın, yoxsa bağrım partlardı. Bunlar yadından çıxıb?

Axşam yeməyindən sonra da Nazilənin tutqunluğu keçmədi. Pəncərənin qarşısında dayanıb fikirli– fikirli şırıltı ilə yağan yağışa baxırdı. Cavid istədi ki, onu söhbətə tutub başını qarışdırsın.

– Xala, Antarktida haqqında eşitmisən?

– Niyə eşitməmişəm. Bir səyyah da, səhv etmirəmsə, donub qalıb orda?! Hansı səyyah?!

– Robert Skott!

– Hə, hə, deyəsən, odur... Danış, Cavid, necə olub ki, donub qalıb. Maraqlıdır. Yadımdan tamam çıxıb..

Cavid Antarktidanın cənub qütbünə yollanan Rual Amundsenin və Robert Skottun ekspedisiyaları haqqında danışmağa başladı. Düymə qapını açıb, həyəcan içində içəriyə girən kimi:

– Nazilə xala! – qışqırdı. – Kələntər pisdir!

Nazilə sakit görünsə də, qeyri-ixtiyari əlini tibb çantasına uzatdı. – Götür Cavid, gedək...

Səsi də titrədi, həyəcanlanmasını daha gizlədə bilmədi.

– Kələntər od kimi yanır, əlimi alnına vurdum, qorxdum.

– Bilirdim ki, axırı belə olacaq, gündüz boş yerə şübhələnməmişdim ki! Kələntər tər içindəydi, oradakı dəniz... yaxşı hava olsa da, soyuq heç nəyə baxmır... bu da nəticəsi...

Otağa çatıb, Nazilə Kələntərin yatdığı çarpayıya doğru getdi, yanaqları od kimi yanırdı. Əlini astaca alnına qoyub cəld geri çəkdi. Hərarətölçəni qoltuğuna qoysa da, nəticəsini gözləmədən, təcili dərman içirtdi.

Cavid yatağın o başında, Düymə isə bu başında dayanmışdı.

– Görəsən, ona nə olub, xala?!

– Yəqin soyuqdəymədir, bu dəqiqə, bu dəqiqə, görüm qızdırması nə qədərdir! – Nazilə hərarətölçəni Kələntərin qoltuğundan çıxarıb baxdı. – Çoxdur, 39-u keçib.Nazilə Kələntərə ikinci dərman da verdi, bir saat sonra hərarətini bir də ölçdü, hərarət indi xeyli aşağı düşmüşdü, buna görə sevindi:

– Elə mən deyəndir, bərk soyuq dəyib, dərman kömək eləyir. Tərləsə, qızdırması lap tez düşər.

Nazilə ona yenə dərman içirtdi, boynunu, ayağını spirtlə ovxaladı, üstünü möhkəm örtüb yatmasını tapşırdı. Düyməyə baxıb dedi:

– Sən Cavidlə get, mən də burda Kələntərin yanında qalaram.

– Yox! – Düymə qətiyyətlə etiraz etdi.

– Niyə?!

– Kələntərin yanında özüm qalacağam!

Nazilə Düymənin bu cavabından razı qalıb onu qucaqladı, bağrına basıb saçlarını tumarladı, oğlan isə qaşqabağını töküb dartındı, qolları arasından çıxıb, kənara çəkildi.

– Niyə acığına gəlir, Düymə, mən də sənin anan, oxşayıram, əzizləyirəm, burda pis nə var ki!

– İstəmirəm! – Düymə yenə hirslə, qaşqabaqla dilləndi. – Belə şeylərə öyrəşməmişəm.

– Anan səni əzizləyib oxşamır?!

Düymə başını aşağı dikib uzun müddət dinmədi. Bir də gözlərini qaldırıb həkimə baxanda, yalvarırmış kimi sakitcə dedi:

– Anam haqqında heç nə soruşmayın, xahiş edirəm.

– Yaxşı, Düymə, soruşmaram. – Nazilə sarsılsa da, pərt olsa da, ayağa qalxdı. – Gedək, Cavid, qoy Kələntər yatsın, mən də



gəlib dəyəcəyəm. Bərk tərləsə, mənə xəbər ver. hələlik, Düymə! Bax, sənə arxayınam ha...

-Arxayın olun!

Onlar qapıdan çıxmaq istəyəndə birdən Düymə arxadan qışqırdı:

– Nazilə xala...

Həkim geriyə çevrilib Düyməyə baxdı, hətta bir az da qorxdu:

– Nədir, Düymə?!

Sükut çökdü, Düymə nəsə demək istəyirdi, amma gözünü yerə dikib həyəcan içində çırpınırdı.

– Utanma, sözünü de, Düymə!

– Nazilə xala, bayaq kobud hərəkət etdim... Ona görə məni bağışlayın...

– Bu nə sözdür, sənin xətrini, bilirsən nə qədər istəyirəm, eybi yox, mən də başa düşməliyəm ki, niyə belə etmisən, yaxşı, Düymə?!

– Yaxşı, Nazilə xala!

Cavid otağa qayıdan kimi, xalasının soyunub yerinə girdiyini, heç nə demədən üzünü divara tərəf çevirdiyini gördü. Bildi ki, bərk inciyib.

– Xala...

– Nədir, Cavid?!

– Düymədən küsməyin, bir az qəribə oğlandır, mən də bu dəfə onu başa düşə bilmədim.

– Yəqin, ana olmağı bacarmıram, Cavid!

– Yox, yox, Nazilə xala, elə deyil.

– Bir də axı Cavid, Düymədən niyə küsməliyəm?! Başa düş, ondan küsmək üçün heç bir əsasım yoxdur. Yat, oğlum, yat!

Cavid səhər oyananda xalasının xəstənin yanından gəldiyini bilib:

– Kələntər necədir? – soruşdu.

– İndi yaxşıdır, qızdırması yoxdur.

– Demək, sağalıb.

– Qızdırmasının düşməyi hələ sağalması demək deyil. Dur, gedək səhər yeməyinə.

Dünənki yağışdan sonra hava açılmış, göy buludlardan təmizlənmişdi. Nə çən vardı, nə də duman. Cünəş hardasa gizlənmişdi, bəlkə dünənki yağışdan qorxub uzağa getmişdi?!

Cavid yeməkdən sonra qapını açıb çölə çıxdı, ağappaq qağayı düz üstünə uçdu, ətrafında dövrə vurub geri qayıtdı. Sonra ikincisi, üçüncüsü... Buna təəccüblənən oğlanın heyrəti birə-on artdı. İndi o biri qağayılar da beləcə uçub onun dövrəsində fırlanırdılar. Cəmilə çörək qırıntıları ilə çölə çıxanda hər şey Cavidə aşkar oldu. Qız qırıntıları səpələyəndə qağayıların hamısı uçub gəldi, çoxusu da uşaqların ətrafında fırlanırdı.

– Düymə səhərdən onlara yemək paylayır. – Cəmilə dedi. – Öyrəşiblər. Adamdan əl çəkmirlər.

O biri uşaqlar da əllərində çörək qağayıları səsləyəndə bir həngamə qopdu ki! Qağayıların haray-həşiri daha da çoxaldı, bu səhnəni görüb sevinən uşaqların da hay-küyü aləmi bürüdü. Elə ki ən axırda Düymə çıxdı, quşlar yeməyi də unudub balaca oğlanın dövrəsində, başının üstündə fır-fır fırlanıb uçuşdular. Düymə alqışlara baş əyən aktyor kimi razılıqla əyilir, quşları salamlayırmış kimi əlini qaldırıb yelləyir, qağayıların bu qəribə, heyrətamiz hərəkətlərinə gülümsünə-gülümsünə baxırdı. Kimsə soruşdu:

– Kələntər tək qalıb?!

– Yox, Nazilə xala yanındadır.

– Adanı gəzmək istəyirik, gəlin uşaqlar, bir yerdə gəzək, Bulla maraqlı adaya oxşayır.

Hamı getməyə başlayanda, Düymə yerindən tərpənmədi.

– Ey, Düymə, bəs sən?!

– Mən Kələntərin yanında qalacağam.

– Sənsiz ləzzəti yoxdur, gəl, Düymə, tez qayıdarıq...

– Yox, Kələntəri tək qoya bilmərəm. Gedin!

Ada o qədər də gözəl deyildi, torpaq yol qəsəbəyə doğru uzanırdı. Yolun hər iki tərəfində sahil açılmışdı. Limandan yüz metr aralıda üstünü ot basmış dəyirmi, balaca bir ada vardı, eyni ilə uzaqdan səməniyə bənzəyirdi. Sahildən adaya torpaq yol uzansa da, yolun üstündə köpüklənən sular ağarır, uzun xətt yaranırdı. Balıqçılar uzunboğaz rezin çəkmələrində ağ yolla asanlıqla adaya gedib-gəlirdilər. Lap sakit havalarda, sular ləpələnməyəndə torpaq yol üzə çıxıb aydın görünürdü.



Qəsəbəyə çatdılar. İdarə binaları, yataqxanalar, evlər,.. heç kəs gözə dəymirdi. Sanki burada adam yaşamırdı. Uşaqlar bir-birinin üzünə baxıb çiyinlərini çəkdilər. Bu zaman taxta bir evin qarşısında çeyran gördülər, düzü, gözlərinə inanmaq istəmədilər. Ceyran tərpənmədən, sakit-sakit baxırdı.

– Heç qorxub eləmir.

– Bəlkə, Ceyran heykəlidir.

– Düymə olsaydı, çoxdan belinə atılmışdı.

Cavid uşaqlardan aralanıb sürətlə ceyrana sarı getdi, ceyran yenə yerindən tərpənmədi. Gözlənilmədən evdən uzun, arıq, üzünü tük basmış bir kişi əlində tüfəng hövlak çölə atıldı, tüfəngi Cavidə tuşlayıb qışqırdı:

– Əllər yuxarı!

Cavidi gülmək tutdu, geri çevrilib dostlarına baxanda, onların həyəcanlandığını görüb özünü itirdi, amma yenə əllərini qaldırmadı. Çünki qorxmurdu və buna bir növ əyləncə kimi baxırdı. Dərhal kişiyə tərəf çevrilib bərkdən:

– Uşaqlar qorxurlar, – dedi. – Tüfəngi götür!

– Dedim, əllər yuxarı, yoxsa... – sərt yoğun bir səs guruldadı.

Gərgin vəziyyət yarandı. Cavid heç cürə əllərini qaldırmaq fikrində deyildi. Nə yaxşı ki Cəmilə irəliyə gəlib, Cavidin yanında dayandı. Ürəklənib o biri uşaqlar da bir-bir yaxınlaşdılar, gözlərini tüfəngli kişiyə dikdilər. Sükut uzun çəkmədi. Cəmilə mehriban bir səslə dilləndi:

– Əmi, niyə bizi qorxuzursan?!

Kişi tüfəngi aşağı salıb qəhqəhə çəkdi:

– Nə qoçaq uşaqlarsınız! – dedi, sonra tüfəngli əlini yana tutub, o biri əlini göyə qaldırıb, «Şah İsmayıl» operasındakı ariyanın ahəngi ilə oxudu.– Hardan gəlib, hara gedirsiniz?!

Cəmilə bir-iki addım qabağa atıb, «sizin adanı öyrənirik biz» deyə oxuyub ona cavab verdi. Kişi bundan elə vəcdə gəldi ki, onları fərəhlə süzüb:

– O... -deyə əllərini açdı. – Nə yaxşı uşaqlarsınız! – Evinin qapısını göstərdi. – Buyurun, qonağım olun, evim-eşiyim sizə qurban! Buyurun, keçin içəri...

– Sağ olun, biz gəzmək istəyirik...

– Gəzmək?! Mən hazır! Qoy tüfəngi evə qoyum, sizi hara desəniz apararam. İnanın, bu adanı mənim kimi bilən ikinci adam yəqin ki, çətin taparsınız.

Uşaqların fikrini gözləmədən evə cumdu, bir an çəkməmiş tüfəngsiz geri qayıtdı, əllərini yellədə– yellədə qabağa düşüb gedə-gedə danışmağa başladı:

– Hamı məni Don Kixot çağırır. Heç kəsdən incimirəm. Çünki bir az Don Kixota oxşayıram. Bir də ki eşşəyim yoxdur, amma ceyranım var. Onu da evimin qarşısında gördünüz! Düzdürmü?

– Düzdür.

– Bu adada ceyranlar sürü ilə gəzirdilər, sürü ilə... hara baxsaydın, ceyran görərdin. Gəlib apardılar. Niyə?! Nə var, nə var, guya burda şərait yoxdur. Hamısı bəhanədir. Yalvar-yaxar ikisini saxladım. İndi onların sayı beşə çatıb. Bu il biri də dünyaya gəlməlidir. Hələlik adada beş ceyran var. Onlara mən baxıram. Allahın yazıq heyvanlarıdır, quzu kimi sakit, fağır, zərif... A... bəs o biri ceyran hanı, gəlmir dalımca?! A... budur ki, böyrümdə dayanıb, xəbərim yox... Uşaqlar, baxın, bu ceyransız bir günüm yoxdur. Mən ona bağlanmışam, o da mənə.

– Bəs o biriləri hanı?!

– Adada. Kim bilir hara qaçıblar, harda gizləniblər.

– Onları tapıb görmək olmaz?

– Çətin...

– Düymə tapar!

– O kimdir? – Don Kixot uşaqlara heyrətlə baxdı. – Düymə, Düymə ha...

– Bizim yoldaşımızdır...



– Yəqin, sizin kimi qoçaqdır...

– Bizdən onqat qoçaqdır!

– O... Lap yaxşı, olar mənim dostum! Sanço-Panso əvəzində Düymə! Pis deyil!

Don Kixot qəribə tərzdə irəliyə yüyürdü, dayanıb üzünü uşaqlara çevirdi, elə qışqırdı ki, heç kim irəli gəlməsin, sonra bir ayaqını sağa, o bir ayağını sola qoydu:

– Qulaq asın! – dedi. – Mən indi bu adanın tən ortasında dayanmışam. Sağ tərəfimdəki ayağımı yerə bərk basanda, ada o tərəfə əyiləcək, sol, tərəfimdəki ayağımı basanda isə bu tərəfə əyiləcək. Baxın, diqqətlə baxın... Hə, ayağımı sağ tərəfə basıram, ada indi əyiləcək, amma o tərəfi hündürə qalxacaq. Başladım, gördünüz?!

Uşaqlar Don Kixotun qəribə hərəkətlərindən başqa heç nə görmədilər. Bu boyda adanı yerindən tərpətmək olar?! Balaca sal deyil ki, gah əyilə, gah qalxa! İndi Don Kixot ayağını sol tərəfə qoyduğu üçün yenə uşaqları baxmağa çağırır, həqiqətən adanın qalxıb-endiyini elə inandırıcı şəkildə göstərirdi ki, buna laqeyd qalmaq mümkün deyildi.

– Hə,indi gəlin dalımca!

Don Kixot uşaqların yaxınlaşmasını gözləyib, yenə qabağa gedə-gedə:

– İlandan qorxmursunuz ki? – soruşdu.

– O biri adada görmüşük.

– Bu adada daha çoxdur. Bir vaxt, yəni bizim əsrin əvvəllərində ilan qarışqa kimi qaynaşırdı. İndi azalıb, yox dərəcəsindədir. Baxın, balaca bir ilan bizi görüb qaçır, canını qurtarmaq istəyir. Hələ ki böyük ilanlar qarşımıza çıxmayıb.

Qarşıda ətrafı balaca, quru, tikanlı kol-koslardan ibarət bir təpə göründü, təpəyə çıxmaq üçün daşlardan, kərpiclərdən, kirəmidlərdən süni pilləkən düzəltmişdilər. Uşaqlar hay-küylə yüyürüb təpəyə qalxdılar. Don Kixot da dala qalmadı, onların dalınca qaça-qaça təpəyə çıxdı. Yuxarıdan qəsəbəyə baxdılar. Evlər, yollar, ağaclar, liman, dəniz... Ada gəminin burnu kimi

dənizə girmişdi. O biri kiçik, səməni kimi yaşıl ada uzaqdan sudan çıxmış, özünü günə verən qurbağaya bənzəyirdi.

Təpədən düşüb Don Kixotun köməyi ilə adanın sahillərini gəzib geri qayıtdılar. Ceyran bir addım da olsun onlardan uzaqlaşmırdı. Hara gedirdilərsə, sakitcə yavaş-yavaş gəlirdi. Uşaqların bəzisi əli ilə başın tumarlayır, bəzisi tüklərini sığallayır, bəzisi də yaxınlaşıb onu dindirməyə çalışırdı. Kimsə şer qoşmuşdu:

Ey heyrətim, heyranım,
Gözəl-göyçək ceyranım!

Don Kixot ilk dəfə bu misraları eşidib, dodaqaltı təkrar edib, ləzzətlə güldü, «aha» deyə başını yırğaladı, «mən də onu daha belə çağıracağam». Uşaqlar binaya yaxınlaşanda Don Kixot onlardan ayrıldı.

– Gəlin, qonağımız olun!

– Axşam gələcəyəm. Gözləyin məni!

Axşam yeməyindən sonra Cavid Düymənin fikirli– fikirli gəzdiyini görüb ona yaxınlaşdı.

– Darıxmırsan ki, Düymə?

– Yox, Kələntərin başına pərvanə kimi dolanmışam, Nazilə xala ilə birlikdə. Gəl, çıxaq havaya.

Qapını açıb çölə çıxdılar. Uzaqda qəsəbənin işıqları sayrışırdı, limanla qəsəbə arasındakı məsafə qatran kimi zülmətə bürünmüşdü.

– Nazilə xala məndən inciməyib ki?

– Niyə incisin ki, Düymə?

– Axı qaçdım ondan... indiyə kimi məni heç kim o cür əzizləməyib.

– Bəs anan?

– Anam bizdən ayrılıb, başqa ərə gedib, dörd-beş yaşım olanda...

– Bəs atan?!



– Atam işdə-gücdə, orda-burda... İndi də atamla qalmaq istəmirəm.

– Niyə?

– Atam evlənib, təzə arvad gətirib.

– Pisdir?

– Mənim onunla işim yoxdur, onun da mənimlə. Gündə atamla dalaşır. Hirslənib atam da mənim üstümə düşür. Ağınabozuna baxmır, bir bəhanə tapıb məni şillələyir... Təhqir edir... Yenə səbəbi olsa, məni yandırmaz...

– Bəs nə fikirdəsən?

– Hələ bilmirəm, yaşım çatmır, yoxsa işləməyə gedərdim.

– Tələsmə, Düymə, tələsmə. Oxumağı buraxmaq olmaz. İş hər zaman var.

– Bəs qonağınız hanı?!

– Harda olsa, gələr. Bir məzəli kişidir ki... tayı-bərabəri yox...

Uzun işıq zolağı qaranlığı yarıb, binanın üstünə düşdü, motor uğultusu adanın sükutunu pozdu. Bir an keçməmiş uğultu gücləndi, işıq parıldadı, yedəyində qayıq olan bir motosikl binanın qarşısında dayandı. Yedəkdə də nə olsa yaxşıdır, ceyran! Motosikl səsini kəsən kimi ceyran qayıqdan yerə atıldı.

– Salam, uşaqlar! – Don Kixot motosikldən düşüb,– gəlin, kömək eləyin!-deyə o qayıqdakı iri sandığı göstərdi. – Sizə yaxşı konsert verəcəyəm!

Cavid Düyməyə sarı çevriləndə onu yanında görmədi. Düymə ceyranın belində idi, əyilib başını onun qəşəng başına söykəmişdi. Uşaqlar Don Kixotu görüb çölə atıldılar, sandığı götürüb bir an içində binaya apardılar. Don Kixot içəri girən kimi ceyran da onun dalınca cumdu, belində də Düymə!

Böyük, işıqlı otaqda Don Kixot lap başda sandığı və ceyranı ilə dayananda sükut çökdü. Hamı bu otağa toplaşmışdı. Gəmidən matroslar da gəlmişdilər. Demə, Don Kixotu hamı tanıyırmış! Hətta xəstə Kələntər həkimin nəzarəti altında başı qız kimi yaylıqla sarıqlı, adyala bürülü, dostlarının yanında əyləşmişdi.

Don Kixot sandığın ətrafında bir-iki dəfə dolanıb aşağı əyildi, əlini sandığın qapısına uzadıb, yavaş-yavaş onu açdı, sonra qapağı qaldırıb kənara çəkildi. Sandığın içindən qatı tüstü ucaldı, boğuq, gurultulu bir səs otağı titrətdi, demək olar ki, çoxu qorxub dikəldi. Qatı tüstünün dalınca alov sütunu qalxdı. Don Kixotun əlində qılınc parıldadı, qılıncı bir neçə dəfə hərləyib alov sütununun ortasından vurdu. Yuxarı qalxan alov yığılıb şar kimi şişdi, yavaş-yavaş tavana qalxıb uçdu. Don Kixot qılıncı bu şarın dalınca qəzəblə hərləyəndə şar qəfildən partladı.

Bu səhnəni göstərməklə hamının hüsn-rəğbətini qazanan Don Kixot özünü bir az dartıb o yan-bu yana gəzə-gəzə dilləndi:

– Mən sizə bu adada püskürən vulkanı göstərdim. İndi vulkanın süxurlarını görə bilərsiniz, buyurun, baxın!

Don Kixot qılıncını sandığın sağ küncünə vurdu, burdan konveyer çıxdı, fırlanıb dəyirmi şəkil aldı, sandığın sol küncündən yenə sandığa girdi, konveyerin üstündə də işıqlı, parlaq süxurlar! Konveyer süxurları göstərə-göstərə iki-üç dəfə fırlandı.

Bundan sonra Don Kixot üzünü uşaqlara tutdu:

– Ey Düymə, hardasan, çıx görüm qabağa!

Düymə yerindən sıçrayıb bir an içində sandığın böyründə dayandı. Don Kixot əyilib sandığın içindən ağappaq bir torba çıxarıb Düyməyə uzatdı.

– Aç torbanın ağzını!

Düymə torbanı açmağa başlayanda, hamı böyük maraqla, səbirsizliklə gözləyirdi. Elə ki torbanı açdı, uzun bir ilan sıçrayıb yerə atıldı və düz Don Kixotun üstünə süründü, sarmaşa-sarmaşa boynuna dolandı. Don Kixot sandığa əyilib, qılıncla toxunan kimi, oynaq rəqs havası eşidildi. Onun ilanla qəribə rəqsi elə xoşa gəldi ki, hamı musiqiyə uyğun çəpik vurdu.

– Düymə, sən niyə oynamırsan?!

Düymə çiyinlərini atdı, sonra Don Kixota baxıb qəribə hərəkətlərini yamsılayanda, ilan sürüşüb yerə düşdü və Düyməyə sarmaşmağa başladı. Cavid qorxudan yerində otura bilmədi, ayağa qalxdı. Ancaq dostunun təmkinini itirmədiyini, Don Kixot kimi rəqs etdiyini, ilandan qorxmadığını görüb sakitləşdi. Afərin, Düymə! Eh, ceyrana bax, bayaqdan sakitcə dayanmışdı, indi elə rəqs etməyə başladı ki, bütün uşaqların ağzı açıla qaldı. Yatır, qalxır, ayaqlarını incəliklə oynadır, başını elə tərpədirdi ki, elə bil boynu yerindən üzüləcəkdi. Ceyran dal ayaqları üstə qalxıb qabaq ayaqlarını Düymənin çiyinlərinə söykədi. İlan, Düymə, ceyran üçü bir yerdə elə məzəli rəqs etdilər ki, bu rəqsin sonunda gurultulu alqış qopdu. Don Kixot yenə bir-iki nömrə göstərib, alqışlara baş əyə-əyə:

– Konsert qurtardı! – deyə hamıya razılığını bildirdi. – Uşaqlar, evimə qonaq gəlməyi unutmayın. Sabah sizi gözləyəcəyəm.

Yenə uşaqlar sandığı apardılar, motosiklin yedəyindəki qayığa qoydular. Don Kixot onu ötürməyə çıxanlara əl edə-edə motosikli hərəkətə gətirdi.

Cavid otağa girəndə xalasının yatdığını görüb səssizcə çarpayısına yaxınlaşdı, soyunub uzandı. Demə, Nazilə xala hələ yuxuya getməmişdi.

– Deyəsən, Don Kixot yaman xoşunuza gəldi?

– Qiyamətdi, düzdü, xala?!

– Düzdü, elə bil sirkdəki cadugərdir... Ondan da yaxşı!

– Hamıdan çox məni Düymə heyran etdi.

– Afərin, qoçaq oğlandır, ilandan heç qorxmadı.

– Xala, bü gün Düyməyə yazığım gəldi.

– Niyə?

– Anası yoxdur.

Dərin sükut çökdü. Xeyli sonra Nazilə xalanın titrəyən səsi eşidildi:

– Nə vaxt ölüb?!

– Ölməyib. Başqa ərə gedib.

Yenə sükut çökdü. Bu sükut uzun çəkdi. Cavidin səbri tükəndi, nəsə soruşmaq istəyirdi ki, Nazilə xala özü dilləndi:

– İndi hər şeyi başa düşürəm, Cavid, niyə Düymə elə hərəkət elədi. Mənim də ona yazığım gəlməyə başlayır. Həyatda hər şey əksinədir, eh, hərənin bir cür dərdi olur. Düyməyə baxanda deyirəm ki, kaş mənim belə övladım olaydı. Onu isə

doğmağa anası atıb gedib. Mən həvəslə Düyməni evimdə saxlayardım, amma nə qədər yaxşı baxsam da, anasını əvəz edə bilmərəm. Heç cürə! Mümkün deyil. Necə istərdim... Yaxşı, Cavid, yataq...

– Gecən xeyrə qalsın, xala...

Uşaqlar vulkan yerinə yaxınlaşdılar, Yusif müəllim onların yolunu kəsib dedi:

– Dayanın. Daha irəli olmaz.

– Niyə? – Düymə yolundan qalmaq istəmirdi.

– Görürsən, torpaq necədir?

– Yumşaqdır. Müəllim, qorxulu deyil! – Düymə iki-üç addım qabağa getdi. – Baxın, yeriyirəm.

– Hünərin var, bir az da get!

Düymə asta-asta irəlilədi, iyirmi metr getmişdi ki, dayandı. Cavid bərkdən qışqırdı:

– Geri qayıt, Düymə!

Hamı gördü ki, Düymə yavaş-yavaş yerə çökür. Bir quş cəldliyi ilə sıçradı, ayaqlarının dərin izləri torpaqda qaldı. Yusif müəllim həyəcanlı:

– Hə, necəsən? – dedi, – mənə inanmaq istəmədin, bir az qabağa getsəydin, halın necə olardı?!

– Batardım.

Yusif müəllim stadion kimi dəyirmi, ağappaq sahəni göstərib dedi:

– Baxın, kapitanın danışdığı, akademik Abixiv müşahidə etdiyi vulkanın yeridir. Bu boyda sahədən qalxan alovu təsəvvürünüzə gətirin. Təkcə alov deyil, palçıq, çınqıl, daş püskürür, ətrafa yayılırdı. Tüstü də bir tərəfdən.

Vulkanın yeri cadar-cadar torpaq idi, suyu çəkilib qurumuş gölü xatırladırdı. Uşaqlar bu yerin dörd tərəfinə dolanıb qəsəbəyə geri qayıdanda, Düymə dayanıb əlini gözünün üstünə qoyub uzağa baxdı.

– Nə görmüsən, Düymə?! – Yusif müəllim maraqlandı.

– İki-üç ceyran.



– Hanı, hanı? – uşaqlar o istiqamətdə ha baxdılarsa, heç nə görə bilmədilər.

– Düymənin gözləri binokl kimidir.

– Müəllim! – Düymə yalvarmağa başladı. – İcazə verin, o ceyranları bu tərəfə gətirim, dostlarım da görsün, siz də! Xahiş edirəm...

Yusif müəllim razılıq verən kimi o ildırım sürətilə qaça-qaça gözdən itdi. Heç on dəqiqə keçmədi ki, bir neçə ceyran onlara tərəf gəldi. Don Kixotun saxladığı və bəslədiyi ceyranlar idi. Qaça-qaça gəlsələr də uşaqları görən kimi dayandılar. Düymə də arxalarınca gəlib çıxdı.

– Afərin, Düymə! – deyə uşaqlar onu tərifədilər. Qəribədir ki, ceyranlar onlardan ayrılmaq istəmirdilər. Yusif müəllim ceyranlara baxa-baxa dedi:

– Biz çimməyə gedirik, bəs onlar?!

– Yəqin onlar da çimməyi sevirlər.

Dəniz bu gün qeyri-adi rəngdə idi. Bu təkcə mavi rəng deyildi, həm də sarı qırmızıya oxşar rənglərin qarışığından yaranmışdı. Havanın sakit və isti olması hamını çimməyə həvəsləndirirdi. Bunun üçün ən münasib bir yer tapıldı. Uzun, köhnə estakada... Uşaqlar estakadanın üstündə soyundular. Ceyranların da estakadaya gəlməsi maraqlı oldu. Düymə Yusif müəllimə baxıb dedi:

– Görürsünüz, Yusif müəllim, onlar da çimməyə gəliblər.

Hamıdan qabaq Cəmilə suya tullandı, onun dalınca Cavid. Cavid üzə-üzə qıza yaxınlaşan kimi:

– Gəl, uzağa gedək, – dedi.

– Yox, çox üzə bilmirəm. Qorxuram.

– Qorxma, mən ki sənin yanındayam.

– Batsam, nə edə bilərsən?

– Çıxardaram.

– O... gücün çatmaz, Cavid! Nahaq yerə lovğalanma... Bundansa yuxuda məni görməyindən danış!

– Səni Gül adasında görmüşəm.

– Orasını bilirəm. Hətta vulkan püskürüb, qaçıb püstə ağaclarının altında gizlənmişik.

– Sonra da səni itirdim, ha axtardım, tapa bilmədim.

– Mən isə səni heç yuxuda görməmişəm.

Birdən Cəmilə «oy» deyə elə bərkdən qışqırdı ki, çoxunun diqqətini cəlb etdi. Çünki onların ikisinin arasından bir baş çıxdı.

– A... Düymə! Bu sənsən? – Cavid isə güldü.

– Cəmilə, deyəsən qorxdun?

– Qorxdun da sözdür. Səni suiti bilmişdim. Ay Düymə, belə eləmə ,ürəyim hələ də yerinə gəlməyib.

– Düymə bir dəfə məni də qorxutmuşdu.

– Vay... sahildən uzaqdayıq, mən qayıtdım. – Cəmilə sahilə doğru üzdü.

Dənizdən sonra uşaqlar Don Kixotun evinə gəldilər. Qapını Kələntər açdı. Möhkəm geyinmişdi. Boğazı da sarıqlı. Həkimi də yanında.

– Harda qalmısınız? – Kələntər gileyləndi. – Səhərdən Nazilə xala ilə sizi gözləyirik. Bura bilirsiniz nə yaxşıdır.

Uşaqlar hay-küylə içəri girdilər. Don Kixotun özü də onları gülərüzlə qarşılayıb, – «xoş gəlmisiniz»! – deyə-deyə arıq, uzun qollarını açıb rəflərə doğru uzatdı. – Buyurun, baxın!

Bura, evdən çox təbiət muzeyinə bənzəyirdi. İri bərninin içində yamyaşıl böyük dəniz qurbağasını görəndə uşaqlar geri çəkildilər. Nə böyük ağzı vardı, açanda bir kaha kimi qaralırdı. Gözləri yumru akvariuma oxşayırdı. Necə oldusa tərpəndi, bərnidəki sular az qala aşıb daşacaqdı.

– Nə qəribə balıqlardır! – deyə kimsə səsləndi. Yan-yana üç akvarium dayanmışdı. Bu akvariumlarda müxtəlif cür balıqlar üzürdü. Yarpaq şəkilli bir balıq akvariumun dibində idi, azacıq yuxarı qalxır, sonra yenə aşağı enirdi. Ox kimi uzunsov bir balığı görəndə uşaqlar gülüşdülər. Bu balıq o biri balıqların arasından uzanıb keçir, gah aşağı, gah

yuxarı millənir, bir dəqiqə belə sakit dayanmırdı. Bəzən çaşıb başını sudan çölə çıxarır, sonra əyilib sürətlə özünü



akvariuma salırdı. Eyni ilə oxlova bənzəyirdi. Üçüncü akvariumda isə ilanbalıqlar çox idi.

– Uşaqlar, bura gəlin! Qəribə ilana baxın! – Cəmilə o yandan dostlarını səslədi. – İlanın başı elə böyükdür ki, elə bil kötükdür.

Şüşəli bir yerdə qıvrılıb yatan ilan yekə kötük başını bədəninin üstünə qoymuşdu. Əjdaha kimi heybətli, qorxunc görkəmi adamı vahiməyə salırdı. Başqa şüşə altında bir neçə kərtənkələ hərəkət edirdi. Biri böyük idi, yarım metr uzunluğunda olardı, başını qaldırıb tərpənmədən baxırdı.

Don Kixot şüşəli qablarda zəli, qəfəslərdə dovşan, kirpi, dələ, hətta tülkü saxlayırdı. İpək kimi yumşaq tüklü, qızılı rəngli qəşəng tülkünün yamyaşıl gözləri işıq saçırdı.

– Dəniz tısbağasını hardan tapmısınız? – deyə Cavid Don Kixotu suala tutdu.

– Belə qurbağa bizim Xəzərdə yoxdur. Beş il bundan qabaq onu mənə bir rus kapitanı bağışlayıb. Necə saxlamağın qaydasını da öyrədib.

– Bəs yekə başlı ilan?!

– O ilan da uzaqdan gəlib. Türkmən aliminin hədiyyəsidir. Bu cür ilan tək-tük olur. Həmin alimin dediyinə görə qabaqlar bu ilanın böyük növü varmış! Yəqin ki, nağıllardakı əjdahalar elə bu ilanların özü imiş!

– Bəs o torbaların içində nə var?

– Adicə ilanlar. Bir aydır heç birinin ağzını açmamışam.

– Bəs ölməzlər?!

– Yox, yatırlar...

Elə bu vaxt nəsə bərkdən şaqqıldadı, uşaqların başı üstündən qanadlarını çırpa-çırpa iki quş uçub getdi, bir saniyə keçməmiş geriyə qayıtdılar. Otağın yuxarısında qəfəslər vardı, bayaq şaqqıldayan bu qəfəslərin qapıları idi. Quşlar qəfəslərə girən kimi yenə şaqqaşaqla öz-özünə qapılar örtüldü. Bir az sonra başqa qəfəslərin qapıları açıldı, əvvəlkinə bənzəməyən quşlar uçdular, fır-fır fırlanıb yenidən öz yerlərinə döndülər.

«Xəzər» Bulladan aralananda ceyranların əhatəsində dayanmış Don Kixotun uzun, arıq qolları göyə qalxmışdı. Gəmi sürətini artırdıqca, uşaqlara elə gəldi ki, adanın bir tərəfi yuxarı qalxdı. Don Kixotla ceyranların olduğu tərəf isə aşağıya, dənizə batdı. Uzaqdan Don Kixotun uzunluğu xüsusilə nəzərə çarpırdı. Elə bil uzun bir ağac get-gedə kiçilirdi.

Uşaqların ürəyində gizli bir sevinc doğmuş, hələ üzə çıxmamışdı. Çünki gəminin doğma sahilə doğru getdiyini bilirdilər. Heç kəs göyərtədən çəkilmirdi.

Düymə fikirli, dalğın bir halda, hamıdan aralıda təkcə dayanmışdı. Cavid ona yaxınlaşdı:

– Hansı pioner düşərgəsinə gedəcəksən?

– Ocaq.

– Bilirsən, bu düşərkə hardadır?!

– Bilmirəm.

– Şüvəlanda. Mən də ora gedəcəyəm.

– Doğrudan? – Düymə sevindi, gözləri əvvəlki kimi işım-işım parıldadı, -Onda «Quba» gəmisinin batdığı yeri gedib axtararıq. Yaxşı, Cavid?!

– Mütləq. Əmim söz verib ki, gəmi ilə yanımıza gəlsin, bizə kömək etsin.

– Ay can, ay can!-deyə Düymə sevindi. – Cavid, bilirsən, Cəmilə də bu düşərgəyə gedir... Kələntər də...

– Onlar da bizə yaxından kömək edərlər...

Kələntər əlini dənizə tərəf uzadıb qışqırdı:

Kater gəmiyə yaxınlaşıb yanaşı üzəndə usta Dadaş onu səsləyən, qışqıran uşaqlara baxa-baxa əlini qaldırıb yellədi. Kater gəminin yanından keçib, irəliyə getdi.

Uzaqdan doğma sahil görünəndə gizli sevinc dərhal üzə çıxdı. Hamının, həttda fikirli, dalğın görkəm almış Düymənin də üzü işıqlandı. Dənizin təmiz, saf havasından, günəşdən təzə rəng almış neçə-neçə üz ancaq sahilə tərəf çevrilmişdi.

Bir azdan "Xəzər" qəsəbə limanına çatanda uşaqların hamısı sahilə çıxmaq üçün tələsdi.



# HEKAYƏ VƏ NAĞILLAR

## ARI-ADAM HAQQINDA NAĞILLAR

### *ARI-ADAM*

Arı-adamın nə vaxt dünyaya gəlməsi məlum deyil. Hamı bilir ki, belə Arı-adam yer üzündə yaşayır.

Yer üzündə möcüzə çoxdur, yəqin ki, bu Arı-adam da belə möcüzələrin biridir.

Bəs niyə adı Arı-adamdır?! Çünki həm arıya, həm də adama oxşayır. Bəli, bəli, heyrətlənməyin, belədir ki var. Onun əlləri, ayaqları, qolları, üz-gözü, başı – eyni ilə adamda olduğu kimidir. Əlləri, ayaqları, çöpdən nazik, işım-işım yanan gözləri nöqtədən balaca, qulaqları çobanyastığı çiçəyinin ləçəyindən xırda. Elə ki uçur, qolları qanada çevrilir. Bir vızıltı salır ki, qulağını tut, qaç! Bu zaman əməlli-başlı arı kimi meydan sulayır. Odur ki, adı qalıb: Arı-adam!

Dünyada Arı-adamın getmədiyi, görmədiyi bir yer yoxdur. Səhərdən-axşama kimi el-el, oba-oba, kəndbəkənd, şəhərbəşəhər uçur. Bəs nə! Həm də boş-boşuna gəzib dolanmır. Məqsədi var, fikri var, istəyir ki, hamıya kömək əli uzatsın, xeyirxah işlər görsün, pis adamları pis yolundan döndərsin, bəzilərini ağıllandırsın, tərbiyələndirsin. Bu, asandır məgər?! Bəs Arı-adam bunları necə edir?! Hə, məsələ elə burasındadır, bunun özü də sirli sehrlidir.

Deyirlər ki, yer üzündə Aristotel adlı çox böyük, müdrik bir insan yaşayırmış. Arı-adam da onun dostu imiş. Gör ha, neçə əsr bundan əvvəl. Hətta Homeri görüb Arı-adam. Deyirlər ki, bizim Tomrisin sarayında da yaşayıb, onun ən yaxın məsləhətçilərindən biri olub. Demək, Arı-adam çox qədim zamanda dünyaya gəlib.

Adı-adamın dünyaya nə vaxt gəlməsi dəqiq bilinməsə də, necə dünyaya gəlməsi məlumdur.

Qədim zamanlarda bir qızılgül kolu vardı. Bir dəfə sübh çağı ləçəyində şeh yarandı. Bu, elə saf şeh idi ki, günəşin yeddi rəngini də özündə əks etdirirdi. Həm də bu şeh canlı kimi tir-tir titrəyirdi. Qızılgülün ondan xoşu gəldi, dedi ki, ömrümdə belə saf şeh görməmişəm, gərək onu günəşdən qoruyum, çünki bu şeh yaşamalıdır.

Qızılgül dediyi kimi də elədi, günəş istisi isə şehi udmaq, qurutmaq istədi, şeh ona üsyan edib titrəməyə, qışqırmağa başladı. Qızılgül də köməyinə gəldi. Hələ açılmamış bir qönçəsindən ürək düzəltdi, ona verdi. Şeh nəfəs aldı, özünü güclü duyub hərəkət etməyə, fırlanmağa çalışdı.

Qızılgülün göstərişi ilə ləçəyindən özünə qollar, qanadlar, ayaqlar düzəltdi.

– Mən görmürəm, – deyə bərkdən qışqırdı. – Bəs necə edim?!

– Günəşin zərrələrini götür.

Arı-adam günəşin iki zərrəsini götürüb qaşlarının altına qoydu, qızılgülün toxumlarından isə burun, qulaq yaratdı. Beləliklə, oldu Arı-adam!

– Hə, indi necəsən?!

– Yaxşıyam! Mən getmək istəyirəm.

– Hara?!

– Baxım görüm dünyada nə var, nə yox?!

– Dünya çox böyükdür, onu bir günə, üç günə gəzib qurtarmaq olmaz.

– Yox, səndən ayrıla bilmərəm, çünki mənə həyat vermisən, mənim anamsan! Hara getsəm, yanına qayıdacağam.

– Heç yerə getmə, qorxuram ki, bir-birimizi itirək.

– Mən səni harda olsan, taparam.

Arı-adam belə deyib qızılgül kolunun üstündən qalxıb uçdu, təpələrin, meşələrin, dənizlərin, dağların üzərindən keçdi. Bir il, iki ildən sonra geri qayıtdı.

Ancaq qızılgül kolunu tapa bilmədi.

Çünki bu kol ayrılığa dözməmiş, saralıb solmuşdu.



Arı-adam kədərləndi, gözləri yaşardı. Söz verdi ki, həyatda qızılgül kimi təmiz, gözəl olacaq, hamıya sevinc, fərəh vermək üçün xeyirxah işlər görəcəkdir.

Bu fikirlərlə Arı-adam qanadlandı.

## SƏYAHƏT

Arı-adam dünyanı gəzdi, dolandı, gah Avropada yaşadı, gah Asiyada, gah meşələrdə, gah tayqalarda , gah buzlu okeanlarda, gah da təndir kimi yandırıb-yaxan səhralarda. Nələr görmədi?! Dünyanı gəzdikcə hamıya əlindən gələn köməyi etməyə çalışdı. Pis adamlar da gördü. Düşündü ki, pis adamları da tərbiyə etmək olar. Bəli, olar! Pislik-avamlıqdan, cəhalətdən, başa düşməməkdən, mədəniyyətin olmamağından, gerilikdən doğur. Əgər belədirsə, niyə pisliklərə qarşı mübarizə aparılmasın?! Onda insanlar saflıqla, təmizliklə, arzularla yaşayarlar, bir-birindən üstün olmağa can atmazlar.

Arı-adam bu fikirlərlə dünyada səyahət edir, müşahidələr aparır, öyrənirdi.

Yenə uzaq bir yerə gedərkən, qorxulu bir mənzərə gördü. İki qoşun bir-birini qırırdı. Elə dəhşətli vuruşma gedirdi ki, qan su yerinə axırdı. Arı-adam by qırğını dayandırmaq fikri ilə tələsik uçub sərkərdənin çadırına girdi. Onun qarşısında dayanıb soruşdu:

– Niyə vuruşursunuz?!

– Sən kimsən? – sərkərdə başını qaldırmadan hirsli-hirsli dilləndi, – nə cürət edib mənimlə danışmaq fikrinə düşmüsən?!

– Niyə danışmayım, axı sən ağılsızsan!

– Nə dedin? – sərkərdə qəzəblənib əlini qılıncına apardı, başını qaldırıb Arı-adama baxdı, geri çəkildi. – Sən ki, sən ki...

– Boş yerə hirslənməkdənsə, sözümə qulaq as! Sən nahaq yerə vuruşursan!

– Niyə?! – Sərkərdə Arı-adamın qətiyyətli, inamlı sözləri qarşısında təslim oldu.

-Çünki öz düşməninlə vuruşmursan. Əsl düşmənin uzaqda gizlənib səni güdür. Gözləyir ki, qüvvədən düşəsən, yorulasan,

sonra başının üstünü kəsdirib , asanca səni məhv etsin, axırına çıxsın!

Sərkərdə xəyala getdi, bu sözlərdəki həqiqət onu ayıltdı, dərhal döyüşün dayandırılması haqqında əmr verdi.

Beləliklə, qırğının qarşısı alındı. Arı-adam sevindi, çünki bu onun həyatında ilk xeyirxah bir iş idi. Sərkərdə Arı-adamı yanından buraxmadı, bir-iki ay qonaq saxladı. Onun şərəfinə şəhərdə böyük şənlik düzəltdi. Hamı küçələrə çıxmışdı. Nəğmə oxuyan, rəqs edən, müxtəlif oyunlar çıxaran adamların sevinci yerə-göyə sığmırdı. Arı-adam onları sərkərdəyə göstərib dedi:

-Görürsən, necə yaxşıdır!

-Düzdür, yaxşıdır! – sərkərdə onun sözünü təsdiqlədi. – Daha heç kəslə müharibə etməyəcəyəm. Düşmənimlə də dil tapmağa çalışacağam. Söz verirəm!

Arı-adam ayrılmaq istəyəndə sərkərdə yenə onu buraxmaq istəmədi. Yalvarıb yaxardı, gələcəyini vəd edib görüşdü və yenə dünya səyahətinə çıxdı.

Arı-adam uçub, dahi dramaturq Şekspirin evinə gəlib çıxdı. Şekspirdən o qədər xoşu gəldi ki, ondan heç ayrılmaq istəmədi. Sonra şərqə uçdu, Füzulinin qonağı oldu, onun şerlərini, qəzəllərini dinlədi. Arı-adam Füzulinin işıq dolu, məhəbbət dolu üzünə baxmaqdan doymurdu. «Həyatda belə müdrik insanlar çox olsa... dünya cənnətə dönər» deyə ürəyində fikirləşdi. Hazırlaşıb yenə səfərə çıxdı.

Bu dəfə yolu səhradan keçirdi. Qum səhrasının nə ucu vardı, nə bucağı. Arı-adam səhradan çox keçdiyi üçün beş barmağı kimi hər yeri tanıyırdı. Günəş səhraya od ələyirdi. Arı-adam yavaş-yavaş uçurdu. Birdən qum təpəciyinin yaxınlığında– iki adamın uzandığını görüb yerə endi. Biri gözünü açıb baxdı, astadan pıçıldadı:

– Su.... su...

Arı-adam hər şeyi başa düşdü. Onlar susuzluqdan əziyyət çəkirdilər. Ümidləri də tamam itmişdi. Arı– adam yenə vızıltı salıb dedi ki, yüz addımlıqda yaxşı ovdan var, suyu buz kimi sərin, gəlin dalımca göstərim sizə.



Su sözünü eşidən bu adamlar son güclərini toplayıb ayağa qalxdılar, yavaş-yavaş onun dalınca getdilər. Həqiqətən də, yüz addımlıqda ovdan vardı. Onlar ovdana çatanda gözlərinə inanmaq istəmədilər. Arı-adamı da unudub irəliyə cumdular. Pillələrlə aşağı düşüb göz yaşı kimi dupduru, sərin suyu üzlərinə çırpa-çırpa doyunca içdilər. Oxay! Bu, elə gözəl ovdan idi ki, xeyirxah bir adam onu tikdirmişdi.

Arı-adam daha dayanmadı, onların əməlli-başlı özlərinə gəldiyini görüb yoluna davam etdi.

Yolçular isə başlarını qaldırıb Arı-adama təşəkkür etmək istədilər, onu görə bilmədilər.

## *BİR TƏNBƏLİN TALEYİ*

Yer üzündə bir tənbəl yaşayırdı. İşi-peşəsi yox idi, gecə-gündüz yatır, veyil-veyil dolanır, ata-anasının hesabına yeyib-içirdi.

Bir ay belə, on ay belə, üç il belə. Ata onu danlayırdı:

– Ay oğul, biçin başlayır, gəl, mənə kömək elə, axı tək bacarmıram, yazıq anan əldən düşür. Bu qədər yatmaq, avara gəzmək olmaz. Mənə kömək etmirsən etmə, barı bir işin qulpundan yapış, həyat-bacanı səliqəyə-sahmana sal! Bağda ağaclarımız quruyur, onlara su ver! Bostana bax!

Eh, tənbəlin vecinə deyildi, atasının sözlərini bu qulağından alıb o biri qulağından çıxardır, qəh-qəhə çəkə-çəkə onu lağa qoyurdu.

Anasının da səbri tükənir, yeri düşəndə oğlunun abrını ətəyinə büküb danlayır, onu utandırmağa, hərəkətə gətirməyə, ev-eşiyə, bağ-bağçaya kömək əli uzatmaq üçün qeyrətli olmağa çağırırdı. Heyhat! Bütün bu səylər, nəsihətlər, sözlər hamısı havaya uçurdu. Tənbəl tənbəlliyindən qalmırdı, elə yatır, veyil–veyil gəzir, özü kimi avaralarla laqqırtı vurur, günlərini boş və mənasız keçirirdi.

Ata-anası fikirləşdilər ki, bəlkə oğulları evlənsə ağıllanar, ailə sahibi olsa, zəhmətə qatlaşar, onlara əl tutar, bir yerdə

köməkləşib rahat, asudə yaşayarlar. Belə də etdilər. Elçi getdilər. Elə ki bu barədə söhbət açıldı, «tənbələ qız verməriк» deyə fikirlərini açıq bildirdilər. Ata-ana utandığından yer ayrılsaydı, yerə girərdi. Kor-peşman, dilxor geri qayıtdılar. Qanları elə qaraldı ki, uzun müddət heç kimin qapısına gedə bilmədilər. Nəhayət, çox götür-qoydan sonra uzaq kənddə yaşayan bir qıza toy edib, evə gəlin gətirdilər.

Tənbəl düzəlmədi ki, düzəlmədi, əksinə daha da çox yatdı. Yazıq ata-ananın işi ikiqat çoxaldı. Həm çöl, həm ev işləri, üstəlik də yeni qayğılar onları əldən-dildən saldı. Tənbəlin qızı dünyaya gəldi, qocalar sevindilər ki, bəlkə, bu uşaq oğullarına bir qeyrət, bir təpər gətirsin. Yox ki, yox! Tənbəl elə tənbəlliyində qaldı. Bu tənbəlin sorağını alan kimi Arı-adam uçub onu tapdı. Tənbəl xor-xor yatırdı. Arı-adam qulağına girib, bir vızıltı saldı ki, tənbəl dimdik atıldı. Ora baxdı. bura baxdı, bir şey başa düşməyib yenə yerinə uzandı. Yox, vızıltı ona yatmağa imkan vermədi. Durub gözlərini ovuşdura-ovuşdura həyətə düşdü ki, bir az gəzişsin, hava alsın. Hardansa qulağına bir səs gəldi:

– Tənbəl!

Bayaqkı vızıltını indi bu səs əvəz etdi. Həyət–bacanı gözdən keçirdi ki, onu «tənbəl» deyə çağıran adamı tapsın, gözünə heç kim dəymədi. Birdən yenə həmin səs eşidildi: «tənbəl!»

Hirs içində hər yeri axtardı, tapmayıb qanı daha da qaraldı. Axı hardan tapar onu?! Arı-adam səsini çıxartmadı. Tənbəl axtarmaqdan yoruldu, dayanıb qulaq verdi, daha onu heç kim çağırmırdı. Yavaş-yavaş eyvana qalxıb, otağa ğirdi və taxta uzandı. Xəbəri yox idi ki, Arı-adam onun bütün hərəkətlərini izləyir. Taxt üstündə rahatlandı. Elə mürgüləməyə başlayırdı ki, nəsə səs eşidib dik atıldı. Yox, sakitlikdir, təzədən gözlərini yumdu. Oy, rahatlıqdan gözəl dünyada nə var? Bəh, bəh, buludlarda uçur ki!

Onu şirin yuxu apardı. Birdən yenə bu zəhrimar vızıltı hər şeyi korladı, tənbəlin kefinə soğan doğradı. Ayağa qalxan kimi üzünü səs gələn tərəfə çevirib:

– Nə istəyirsən məndən?-deyə dəlicəsinə qışqırdı.

– Səni çöldə atan gözləyir.



– Əl çək məndən, çölə gedən deyiləm. Rədd ol yanımdan!

Arı-adam ondan uzağa getmədi, yavaş-yavaş sözlərini deməyə çalışırdı. Ona görə evdən çıxıb çölə doğru getdi. Çölə çatıb yer şumlayan atasına yaxınlaşdı. Qoca ağır-ağır nəfəs alırdı:

– Oğul, bu sənsən, nə əcəb?!

– Köməyə gəlmişəm, ata!

– Gün hardan doğub görəsən, vaxtında gəlmisən, oğul, halım daha qalmayıb, – qoca, uşaq kimi sevinib kənara çəkildi. – Buyur, şumla! Allaha şükür, oğul, qeyrətə gəlmisən!

Arı-adam düz bir ay Tənbələ göz verdi, işıq yox. Qoca çölə gedəndə oğlunu yanında görüb hər dəfə sevincindən uçurdu. Xəbəri yox idi ki, bu, Arı-adamın işidir. Elə ki tənbəl özü yerindən durur, çölə gedir, işləyir, vaxtında evə qayıdırdı, Arı-adam onun həndəvərinə belə dolanmırdı.

Gunlər keçdi, beləliklə o, tənbəlliyin daşını birdəfəlik atdı. Səhər durmağa, işləməyə elə öyrəşdi ki, zəhmətsiz bir dəqiqə dayana bilmədi. Şumladığı torpağa dən səpdi, bostan saldı, bağ-bağçaya əl gəzdirdi. Elə taxıl yetişdi ki, yığıb-yığışdırmaqla qurtarmırdı.

İki-üç ildən sonra heç kəs ona tənbəl demədi. Mahalda ən dövlətli, ən nüfuzlu adam oldu. Hərdənbir onu tənbəlliyin cəngindən qurtarıb, səadətə qovuşduranı xatırlayır, yolunu həmişə gözləyirdi. İstəyirdi ki, təşəkkürünü bildirsin.

Arı-adam isə indi çox-çox uzaqlarda uçurdu.

## *İŞIĞA DOĞRU*

Gecəyarı bir oğru evin qapısını asta-asta açıb içəri girdi. Mənzildə çəkidə yüngül, qiymətdə baha nə varsa, yığıb-yığışdırdı, torbasına doldurub, yenə qapıdan asta-asta çıxıb getdi. Birdən arxadan bir səs eşitdi:

– Dayan!

Oğru yerindəcə dondu. Qorxa-qorxa arxaya çevrildi, heç kimi görməyib, dabanına tüpürüb bir götürüldü ki, şimşək onun

yanında yalandı. Meşəyə çatıb təngnəfəs bir halda, kötüyə yaxınlaşanda yenə həmin səsi eşitdi:

– Dayan!

Bu dəfə qaçmağa ehtiyac olmadı. Oğru yenə arxaya çevrildi, yenə heç kəsi görməyib təəccüblə baxa-baxa qaldı. Elə bildi ki, onu qara basır, ya da qulağına səs gəlir. Sakitləşib, kötüyün üstündə əyləşdi, rahat-rahat nəfəs aldı. Elə bu zaman qulağının dibində kimsə dedi:

– Oğurluq yaxşı şey deyil!

Kötüyün üstündən dik atıldı. Ora baxdı, bura baxdı, yenə heç kimi görmədi, qorxa-qorxa soruşdu:

– Hardasan, kimsən, məndən nə istəyirsən?!

– İstəyirəm ki, pis yoldan əl çəkəsən.

– Bəs nə yeyim, necə yaşayım?

– Halal zəhmətlə!

– Elə şey yoxdur, mənə nağıl danışıb qulağımı dəng eləmə, kimsən, bilmirəm, yolumdan çıx get, yoxsa əlimdən xata çıxar.

-Mənim dediklərimə qulaq assan, peşman olmazsan.

– Yox, qulaq asa bilmərəm. Deyim, fikrin nədir?! İstəyirsən oğurladığımı səninlə yarı bölüm. Yox, onu heç zaman görməyəcəksən, verən deyiləm.

Arı-adam onun qulağının dibində bir vızıltı saldı ki, oğru başını tutub qaçmaq istədi, hara qaçır?! Gördü ki, yox, onunla bacarmaq mümkün deyil, yalvarmağa başladı:

– Yaxşı, yarısını verim, məndən əl çək!

– Mənə heç nə lazım deyil.

– Onda burax, çıxıb gedim.

– Yox!

– Yaxşı, onda sözünü de!

– Səhər açılan kimi bu torbanı aparıb ev sahibinə təhvil verərsən!

– Nə danışırsan, belə şey olar?!

– Elə ki təhvil verdin, yol qırağında qovaq ağacının yanına gəlirsən. Səni orda gözləyəcəyəm. Bax, bu sözlərimə əməl eləmə-



sən, sənin üçün pis olacaq. Məndən heç yana qaça bilməyəcəksən. Yerin deşiyində də olsan, gəlib səni tapacağam.

Oğru gördü ki, başqa yolu yoxdur. Arı-adamın dediyi kimi səhər torbanı aparıb həmin evə verdi, ordan da düz qovaq ağacının yanına gəldi. Ətrafda heç kəs görünmürdü. Arı-adam qovaq ağacının budağında əyləşib asta-asta yellənirdi. Birdən yerə hoppanıb oğrunun qarşısında dayandı:

– Xoş gəlmisən!

– Hə, bu sənsən?! Hə, dediyini elədim, buyur, qulluğunda hazıram.

– Sən zülmət içində qalan bir adama bənzəyirsən.

– Səni başa düşmürəm.

– Zülmətdə, uzaqda bir işıq var. Sən o işığa doğru getməlisən. Təkcə o işığa doğru.

– Mən işıq-zad görmürəm.

– İndi görərsən. Gəl bura.

Arı-adam onu qovaq ağacının sağ tərəfindəki balaca dükana apardı. Bura dəmirçi

dükanı idi.

– Məni bura niyə gətirdin?!

– Bu dükanı sənə bağışlayıram. Buyur, işə başla!

– Deyirsən ki, dəmirçilik eləyim?!

– Bəli. Unutma ki, oğurluq zulmətdir, zəhmət isə işıq! İndi sən zülmətdən çıxıb işığa yaxınlaşmısan. Buyur, bu meydan, bu da şeytan. Gücünü, hünərini göstər!

– İstəmirəm, istəmirəm, – deyə qışqırdı. – Babam da, atam da dəmirçi olub. Mən isə dəmirçi olmaq istəmirəm.

– İstəyərsən. Başqa yolun yoxdur.

Oğru orda, dəmirçi dükanında qaldı. Günlər keçdikcə sifarişləri çoxaldı. Get-gedə həvəsə gəldi. Axşamlar da işlədi. Hər şey düzəldirdi, qazan, kəfkir, oraq, kərənti... Hətta qılınc... Dəmirçi kimi şöhrət qazanmağa başladı. Müştəri müştəri dalınca gəldi. Gəliri də artdı. Yaxşı qazandı. Özü üçün gözəl bir ev tikdirdi. Dəmirçi hiss etməyə başladı ki, onun zindanında, görüyündə nəsə sehrli bir qüvvə var. Əvvəl hər şey ona ağır idi, indi isə yüngül və

asan başa gəlirdi. Bəlkə, bu dükan sehrlidir?! Dəmirçi bu dükana, bu işinə elə bağlandı ki, oğurluq heç yada düşmədi. Hətta keçmişini xatırlayanda utandı da! Arı-adam hardansa gəlib gözləri qarşısında dayandı. Onun mənalı sözləri qulaqlarında səsləndi.

Üç-dörd ildən sonra dəmirçi toy edib təzə evinə gəlin gətirdi. Camaatın ona böyük hörmətlə, xüsusi bir məhəbbətlə yanaşdığını görəndə ürəyi dağa döndü. Bəli, təmizlik, halal zəhmət gözəl şeydir!

Dəmirçinin belə xoş günlərinin birində köhnə dostlarından iki-üç nəfər ona qonaq gəldi. Dərhal fikirlərini bildirdilər:

– Sən bizə lazımsan.

– Nə üçün!

– Bizimlə getsən, yaxşı gəlir əldə edərsən...

Dəmirçi bilirdi ki, bu köhnə dostları yenə əvvəlki yola gedirlər, yəni gizli-gizli işlərlə məşğuldurlar. Odur ki, onların niyyətlərinin təmiz olmadığını başa düşdü, uzun fasilədən sonra sakit-sakit dedi:

– Mən dəmirçi babayam, sənətimə aid nə qulluğunuz olsa, buyurun, sifarişinizi verin, yerinə yetirməyə hazıram.

– Yox, bizə sən lazımsan!

– Mən heç yerə gedə bilmərəm.

Dəmirçinin xəyalında Arı-adam dolaşırdı, onun dediyi sözləri xatırlayırdı. Başqa heç nə!

Köhnə oğru dostları onu hədələməyə başladılar:

– Sonra özündən küs!

– Sən qudurmusan, bu dükanını yerlə-yeksan elərik, əgər bizimlə getməsən, özünü ölmüş bil! Eşidirsən?!

– Gərək bizi başa düşəsən, bu dəfə gəlirimiz çox olmalıdır, çox! Sən olmasan, biz istədiyimizə nail ola bilmərik. Mütləq sən getməlisən. Yaxşı-yaxşı fikirləş! Əgər getməsən, çox şey itirərsən. Biz də səni bağışlamarıq.

Dəmirçi onların qəzəblə deyilmiş bu sözlərini dinlədi, sonra körüyü bərk-bərk basmağa başladı, ətrafa qığılcımlar səpələndi. Bu qığılcımlar köhnə dostları qorxutdu, üstlərinə sıçradıqca diksi-



nirdilər. Buna görə hirslə, dəmirçini hədələyə-hədələyə dükanı tərk edib getdilər.

Arı-adam isə bu zaman dəmirçinin dükanında idi, bu söhbəti dinlədikcə sevinirdi.

Yol üstündə, qovaq ağacının yanındakı dəmirçixananın şöhrəti hər yana yayıldı. Onun sahibi haqqında ancaq gözəl və xoş xəbərlər dolaşdı. Gözəl ailəsi var, uşaqlarını vicdanlı, namuslu, xeyirxah və nəcib insanlar kimi tərbiyə etmək üçün çalışır. Heç kim bilmir ki, bu adam öz sənəti ilə öyünür, ona ürəkdən bağlanmışdır.

Dəmirçi xoşbəxtliyə qovuşdu. Çünki zülmətdən işığa doğru getdi. İndi zülmət arxada qalmışdı. Qarşıda işığa qovuşan dəmirçini daha gözəl günlər gözləyirdi.

Arı-adam deyir ki, insan həmişə işığa doğru getməlidir!

## *GÖZƏLLIK*

Yer üzündə qəribə bir adam yaşayırdı. Fikri-zikri yeməkiçmək idi. Başqa heç nə! Nə adamlarla dostluq edir, nə təbiətin qoynuna çıxır, nə uzaq səfərə gedir, nə də həyatın mənasını başa düşmək istəyirdi.

Arı-adam bir dəfə onunla tanış oldu. Bir tava qovurmanı qabağına qoyub ləzzətlə yeyən bu adama baxdı.

– Hə, nədir, nə baxırsan? – deyə soruşdu.

– Sən bənövşə görmüsən?

– Yox, görməmişəm, görmək də istəmirəm.

– Günəş necə çıxır, heç görmüsən?!

– Günəşi həmişə göydə görmüşəm, vəssalam.

– Bəs ağaclar çiçək açanda necə, onları görmüsən?!

Bir an içində qovurmanı yeyib üstündən pürrəng çay içən adam qəhqəhə çəkə-çəkə Arıadama dedi:

– Doymadım, yenə yemək istəyirəm.

Yenə qovurma gəldi, yedi, yedi, yenə üstündən çay içib razı halda Arı-adama baxdı.

– İndi mənimlə gedək, sənə gözəlliklər göstərəcəyəm, – arı-adam dilləndi.

– Gözəllik?! Eh, nəyimə gərəkdir gözəllik?! Bunun əvəzində mənə yemək verin...

Arı-adam bir də gördü ki, bu adam gedib yıxılıb yatdı.

Axırda bir gün onu özü ilə meşəyə aparmağa nail oldu. Meşənin başlanğıcında cavan palıd ağacı qol-qanad açmışdı. Arı-adam bu palıdın bir budağına qondu. O adam isə ilk dəfə idi ki, belə gözəl və yaraşıqlı ağac görürdü. Ağac doğrudan da gözəl idi. Yaz təzəcə girdiyi üçün meşə canlanırdı, ona görə də hər yanda gözəllik vardı. Alça təzəcə çiçəkləmişdi. Arı-adam bu alçanın dövrəsində fırlandı.

– Hə necədir? – deyə həmin adamdan soruşdu.

Gözəldir!

Əzgil, itburnu, böyürtkən kolları bütün meşəni bürümüşdü. Hələ çiçək açmasalar da, təzəcə yaşıllaşdıqları üçün təravətli görünürdü. Elə gözəl idi ki, baxanın xoşuna gəlirdi.

Get-gedə meşə dərinləşirdi. Qəribə o idi ki, dərinlikdə ağaclar nəinki çiçək açmamışdı, hətta yarpaqlamamışdı. Ancaq bu çılpaq ağacların da özünə məxsus gözəllikləri vardı.

Meşənin ucu-bucağı yox idi. Arı-adam uçur, uçur, həmin adam da ardınca gedir, meşənin bütün gözəlliklərini acgözlüklə seyr edirdi. Arı-adam soruşdu:

– Bəlkə, acmısan?

– A... doğrudan... Heç yemək yadıma düşmür...

Arı-adam onu meşəbəyinin evinə apardı. Burda ona doyunca yemək verdilər. Balaca bir qız yaxınlaşdı. – O... – deyə həmin adam səsləndi. – Nə gözəl qızdır.

– Bu qıza gözəlliyi meşə verib.

– Meşə? Necə?!

– Bu balaca qız göz açandan meşədə yaşayıb, meşənin bütün gözəlliklərini görüb. Ona görə də belə gözəlləşib.

– İnanıram! – deyə həmin adam dilləndi. – Mən bu gündən sonra adımı dəyişirəm. Adımı Sevər qoyuram.

– Sevər niyə? – Arı-adam soruşdu.



– Ona görə ki, gözəllik sevən, həyat sevən... Gedək, yenə meşəni gəzmək istəyirəm.

Sevər ayağa qalxdı. Arı-adamla birlikdə yenə meşəyə yollandı. Qəribə o idi ki, axşama qədər gəzib-dolandı, ağaclara, təzəcə açılan güllərə baxdı, yorulmaq nə olduğunu bilmədi.

Hava qaraldı, evə gələndə Arı-adama dedi:

– Sabah da gedib gəzərik.

– Səni təzə yerlərə aparacağam!-deyə Arı-adam dağları göstərdi. – Görürsən, o dağlar da gözəldir.

Sevər o vaxtdan tamam dəyişdi. Arı-adamla birlikdə dağları da, çölləri də, çəmənləri də gəzib-dolaşdı. Əvvəl fikri-zikri yemək olan bu adam indi gözəllik haqqında düşünürdü.

Sevər dağ ətəyini seçib özünə məskən elədi, burda gözəl bir bağ saldı. Ağaclar, güllər-çiçəklər əkdi, bağ bir neçə ildən sonra cənnətə çevrildi. Sevər bir ev tikdi. Hər səhər bağçaya çıxdı, bağçadan keçib bağa girdi. Bir-birindən gözəl ağaclara baxa-baxa ötdü. Bağın qurtaracağında böyük bir ilan görüb qorxdu, geri çəkildi. Birdən ilan dil açdı:

– Ey adam, niyə qorxursan?!

– Nə edim? – deyə Sevər geri çəkilə-çəkilə dilləndi. – Axı sən... sən... məni çala bilərsən.

– Yox, heç zaman çalmaram. Çünki bu ağacları sən əkmisən. Mən də yuvamdan çıxıb bura gəlmişəm ki, gözəlliklərə baxım.

– Demək xoşuna gəlir?!

– Çox xoşuma gəlir! Halalık!

İlan sürünüb getdi. Sevər yerindən tərpənmədən onun dalınca baxdı. Fikirləşdi ki, həyatda gözəlliyi görmədən yaşamaq olarmı?! Bəli, bir zaman özü belə həyat keçirirdi, təkcə yeyir, içir, bir də xor-xor yatırdı. Bunun mənası vardımı, belə həyat həyatdımı?!

Geriyə qayıdanda yolu bağçadan keçirdi. Məlahətlə oxuyan bir quşun səsini eşidib ayaq saxladı. Bu, elə gözəl səs idi ki, Sevər ona biganə qala bilmədi.

Sevər indi başa düşdü ki, həyat başdan-başa gözəlliklərlə doludur. Onları görmək və duymaq insanı yüksəldir, ürəyini işıqlı edir, həyata məhəbbətini qat-qat artırır.

## QUDURĞAN QURBAĞA

Bir göldə iri bir qurbağa yaşayırdı, hamıdan güclü, qüvvətli olduğu üçün gözü heç kimi görmürdü. Hamını döyür, incidir, göz açmağa heç kimə imkan vermirdi. Bir də görürdün ki, qəfildən hoppandı. O biri qurbağaların çoxusu bu qudurğan qurbağanın əlindən yaman yığmışdılar. Heç cür onunla bacara bilmirdilər.

Arı-adama şikayətə gəldilər. Arı-adam da bu iri qurbağaya göz qoydu, həqiqətən bu qurbağa qan-qan deyirdi, heç kimi saymır, lovğalığından gün-gündən şişirdi. Hələ gözləri gör nə günə düşmüşdü, elə bil indicə pırtlayıb çıxacaqdı. İstədiyi şeyi elə tez görürdü ki! Görən kimi də qamarlayırdı. Ona etiraz edəni hop eləyib bir göz qırpımında udurdu.

Arı-adam uçub astaca onun belinə qondu. Qurbağa başqa bir qurbağanı tutmuşdu. Birdən qulağının dibində bir səs eşitdi:

– Burax onu!

Qudurğan, ölgün bir hala düşmüş qurbağanı buraxıb domba gözləri ilə ətrafa baxdı ki, kim cürət edib ona bu sözləri deyir. Amma heç kəsi görmədi. Yenə bayaqkı səsi eşitdi:

– Əgər özündən gücsüzləri bir də incitsən, gözünü çıxardaram.

– Gözümü çıxardan hələ anasından olmayıb. Sən kimsən bilmirəm, hardan gəlmisən, ora da çıx ket!

Elə bunu demişdi ki, Arı-adam iynəsini sancdı. Qudurğan elə bərkdən quruldadı ki, bütün qurbağalar başlarını sudan çıxarıb baxdılar. Qudurğan ömründə belə ağrı duymamışdı. Ufultusu kəsiləndə:

– İndi bildin ki, sözə qulaq asmaq lazımdır? – soruşub qudurğanın nə deyəcəyini gözlədi.

– İndi bildim ki, güclüsən. Söz verirəm ki, dediyin kimi edəcəyəm.

Gecə bütün qurbağalar səs-səsə verəndə qudurğanın susduğunu görüb heyrət edirdilər. Görəsən, buna nə olub?! Səhər onlar göldə atılıb-düşür, hoppanır, qudurğanın həndəvərinə belə getmirdilər. Bərk şappıltı eşidib qorxudan hərəsi bir tərəfə qaçdı. Hamı elə bildi ki, qudurğan oyanıb. Həqiqətən də oyanmışdı. Ancaq



sakit-sakit gölün qırağında dayanmışdı. Heç kəs gözünə inanmaq istəmirdi. Nə yaxşı. Bu həmin qurbağadır?! Üstümüzə cummur, nə mülayimdir, mehribandır. Deyəsən, üzü gülür, xeyir ola?! Ehtiyatlı olun, birdən birimizi qəfildən tutub ilanın ağzına verər. Axı bu onun köhnə adətidir.

Qudurğan yavaş-yavaş sadələşdi, heç kəsi incitmədi, qorxutmadı, hətta bir dəfə onların üstünə hücum edən ilanın qabağına çıxdı. Bütün qurbağalar nəfəslərini udub bu qorxulu mənzərəyə baxdılar. Həm də fikirləşdilər ki, gücün varsa, buyur, belə yerdə onu göstər. Yoxsa ki, özündən zəifləri vurub incitməkdən asan nə var ki?!

İlan ağzını açıb hirslə fısıldadı, iri qurbağanı udmaq istəyəndə, qurbağa elə cəld hoppandı ki, bir anda yox oldu. İlan havaya tullandı, havada da onu tuta bilməyib yerə çırpıldı.

O vaxtdan iri qurbağa yoldaşlarının sevimlisinə çevrildi.

## LOVĞA SARI ÇİÇƏK

Bir sarı çiçək hamıdan qaçır, gizli yerlərdə məskən salırdı. Yaz gələndə ləçəkləri elə gözəl açılırdı ki, adam baxdıqca baxmaq istəyirdi. Bu ləçəklər sapsarı olsa da, elə parlaq, elə işıqlı görünürdü ki, çiçəyin gözəlliyindən doymaq mümkün deyildi. Bu çiçəyin yeganə bir pis xasiyyəti vardı. Lovğa idi, özünü dartırdı.

Bir gün Arı-adam onun gözəl ləçəyinin üstünə qondu:

– Salam, sarı çiçək, – dedi.

– Salam.– Niyə gizlənirsən?!

– Eh, nəyimə gərək. İstəmirəm məni görsünlər.

– Nahaq yerə. Odur bax, iki gənc gəlir. Qoy səni dərib döşlərinə taxsınlar.

Sarı çiçək hay-küy saldı, göz yaşı tökdü, Arı-adam ona qulaq asmadı. Gənclər gülə-gülə yaxınlaşanda, qız birdən dayandı:

– Bir bax, gör nə gözəl çiçəkdir!

– Doğrudan da gözəldir. Dayan dərim sənin üçün – gənc oğlan yaxınlaşıb çiçəyi üzdü. – Ala, əzizim, – deyə onu qıza

uzatdı. Qız çiçəyi üzünə yaxınlaşdırdı. – Qiyamətdir, – dedi. – Heç belə gözəl çiçək görməmişdim.

Qız sarı çiçəyi hər yanda təriflədi, hamı onunla maraqlandı, axtarmağa başladılar.

Uzaqda, gizli yerlərdə bitən sarı çiçək yavaş-yavaş üzə çıxdı, yayıldı, daha lovğalanmadı, çünki lovğalanmağın, adamlardan uzaq qaçmağın boş və mənasız olduğunu anladı.

Arı-adam beləliklə sarı çiçəyi insanlara bəxş etdi.

### *İKİ DOST*

Dünyada iki dost yaşayırdı. Əvvəl qardaş kimi yaxın idilər. Aralarından su da keçmirdi. Arı-adam onların taleyini izləyirdi.

İkisi də gözəl aşıq idi, söz qoşur, saz çalırdılar. Məclislərdə hamı onları böyük həvəslə dinləyir, hər təzə çıxışlarını səbirsizliklə gözləyirdi.

Bir neçə il keçdikdən sonra aşıqlardan biri gözəl bir dastan yaratdı, daha böyük şöhrət qazandı. O biri isə elə təzə qoşmalar qoşur, bunlar isə geniş yayıla bilmirdi. Buna görə də həvəsdən düşdü, bədbinliyə qapıldı. Bir məclis olanda, müxtəlif bəhanələr gətirib getmədi.

Arı-adam gecə-gündüz onun ətrafında dolandı, təsəlli verdi. Aşıq elə ümidsizlik içində çırpınırdı ki, Arı-adamın sözlərinə qulaq asmırdı. Bu vaxt dostu yanına gəldi, onunla əvvəlki kimi səmimi danışmağa, zarafat etməyə başladı. Bunların bir xeyri olmadı. Aşıq tərslik etməyə başladı. Yavaş-yavaş onu məclislərə dəvət etmədilər. Dostu da ondan bir az incidi. Axı nə günahı vardı?! Yanına gəlir, zarafat edir, ancaq acı, kinayəli sözlər eşidirdi.

Arı-adam xeyirxah idi, iki dostu yenə bir-birilə barışdırmağa çalışırdı. Şöhrət qazanmış aşığın qulağına nələr pıçıldamırdı? Dostun ümidsizliyə qapılıb, ona kömək etmək lazımdır, kömək etsək, yenə əvvəlki kimi öz sənətinə qayıdar, yenə çalıb-çağırar. Hamının sevimlisinə çevrilər.

Bu aşığın yanından uçub dostunun yanına gəlir, qulağının dibində vızıltı salıb onu silkələmək istəyirdi. Get-gedə öz təsirini



göstərdi, ona inam verdi, həvəs verdi. Aşıq sazı əlinə götürüb çaldı. Çaldıqca da sevindi. O biri aşıq dostu yenə ona qonaq gəldi. Bu dəfə dostunu həvəsləndirdi, yeni qoşmalar, şerlər yazmağa ruhlandırdı.

Günlər keçdi, bir məclisdə hər iki dost çıxış etdi. İkisi də gözəl idi, sözləri də, çalmaları da! Hamı bəyənib onları uzun müddət alqışladı.

Bədbinliyə, ümidsizliyə qələbə çalmaq, insanı geri qalmağa qoymur. Hətta onu qardaş kimi dostundan ayıra bilmir.

### *ŞƏRQ BAZARINDA*

Arı-adam uçub bir şərq bazarına gəlib çıxdı. Bu, nə qəribə, qeyri-adi, gur bazar idi. Arı-adam uça-uça hər yerə baxırdı. Nələr yoxdu bu bazarda, yer üzünün gözəl nemətləri! Bir tərəfdə yemişlər qalaq-qalaq tökülmüşdü, bir tərəfdə isə qarpızlar... Hələ rəngbərəng şamamalar... ətri adamı uzaqdan vururdu.

Bu bazarın bir tərəfində balaca bir oğlan uşağı əyləşmişdi. Hər iki gözü qara parça ilə örtülmüşdü. Yanından gəlib-keçənlər qarşısındakı papağına pul atırdılar.

Arı-adamın ona yazığı gəldi. «Yəqin kordur» düşündü, ona kömək etmək məqsədilə arxasında gizləndi. Elə ki axşam düşdü, bazarın gurluğu azaldı, adamlar seyrəldi, hər şey yığışdı, bu kor uşaq da ayağa qalxıb bazardan getdi. Onu arabanın yanında bir kişi qarşıladı. Aparıb arabaya qoydu, sürüb yola düşdü. Az getdi, çox getdi, bir meşəyə girdi.

Meşənin dərinliyində birdən kişi arxaya çevrilib əlini uşağa uzatdı:

– Nə qazanmısansa, tök ovcuma!

Uşaq da onun dediyi kimi etdi, bütün pulları verdi. Kişi bundan sonra sarığı onun gözlərindən açdı. Arabanı sürüb getdi. Arı-adam əvvəl bir şey başa düşə bilmədi, sonra uşağın əməllibaşlı gördüyünə, gözlərinin sağ-salamat olmasına heyrət etdi. Bu nə deməkdir? Uşaq kimdir, bu kişi onun nəyidir?! Araba bir kəndə yaxınlaşdı.

Arı-adama hər şey aydın olmağa başladı. Uşaq kor deyilmiş. Kişi onu kor kimi bazarda oturdub yaxşıca pul qazanırmış. Bayaqdan yazığı gəldiyi uşağa diqqətlə baxdı, duydu ki, onun heç bir günahı yoxdur. Sakit fağır bir uşaqdı.

Səhər yenə araba hazır oldu. Uşağı götürüb apardı. Meşənin içində kişi qara sarığı onun gözlərinə bağladı. Bazara gətirib içəriyə ötürdü. Öz yerini tanıyan uşaq asanlıqla gedib əvvəlki yerində əyləşdi. Hamının ona yazığı gəlirdi. Çünki bu sakit, məsum uşağın kor olması hamını ürəkdən yandırırdı. Arı-adam birdən qulağının dibində soruşdu:

– Sənin adın nədir?

Uşaq diksindi, qorxdu.

– Adım Cabbardır, əmi!

– Nə iş gördüyünü başa düşürsən?

– Başa düşürəm.

– Başa düşürsən ki, camaatı aldadırsan?

Uşaq birdən-birə bu suala cavab vermədi. Ani sükutdan sonra soruşdu:

– Sən kimsən?

– Sənin xeyirxahın. Mən istəmirəm ki, sən yalançı olub, adamları aldadasan!

– Məni dayım məcbur edir, – deyə uşaq birdən gözlərindən sarığı açıb, hirslə bir kənara tulladı, ayağa qalxıb qaça-qaça bazardan çıxdı.

– Hara qaçırsan? – Arı-adam ondan soruşdu.

– Özüm də bilmirəm, hara qaçıram. Dayımdan qaçıram, başıma min oyun açan dayımdan...

Arı-adam onu başqa şəhərə apardı, burda məktəbə qoydu. İllər keçdi, uşaq öz fərasəti, ağlı, kamalı ilə böyük alim oldu, şöhrət qazandı. Qəribədir ki, həmişə Arı-adamı axtardı, istədi ki, onu əyri yoldan döndərən, düz yola qovuşduran bu qəribə məxluqa minnətdarlığını bildirsin.

Arı-adam bu zaman çox-çox uzaqda, Afrika cəngəlliklərində uçurdu.



## İNTİQAM

Uzaq Afrika ölkəsində, böyük, qalın meşənin yanında bir kənd vardı. Bu kənddə Çou adlı saqqallı mərd bir kişi yaşayırdı. Heç nədən qorxmayan, pələnglə döş-döşə gələn bu adamın başına fəlakət gəlmişdi. Aman-zaman bircə oğlunu ilan çalmışdı. Bu ilan da hamının yaxşı tanıdığı Xallı adlı ilanın oğlu idi. İndi Çou intiqam almaq eşqi ilə yanırdı. Yeganə məqsədi ancaq bu idi: intiqam, yenə intiqam!

Xallı ilanın bundan xəbəri yoxdu. Qəribə o idi ki, Çounun oğlunu çalan kimi oğlu ölmüşdü. Bundan qəzəblənən Xallı hadisənin necə olması ilə maraqlanmışdı. Deme, onun ilan oğlunda günah yoxdu. Çünki Çounun oğlu bu ilanı tutmuş, incitmiş, başına min oyun açmışdı. Yazıq ilan dil çıxarıb yalvarmışdı ki, bəsdir məni bu qədər incitdin, burax çıxıb gedim. Oğlan ipə-sapa yatmamış, ilanı qəhqəhə çəkə-çəkə yerə çırpmış, göyə atmış, quyruğunu qayçı ilə kəsmiş, ölümcül bir hala salmışdı. Nəhayət, dözə bilməyən ilan balası Çounun oğlunu çalmışdı.

Çou dərin yasa batmış, bu hadisələri bilsə də, onların dərinliyinə varmadan Xallıdan intiqam almaq fikrinə düşmüşdü. Xallının nə günahı, niyə Xallıdan?! Fürsət axtarırdı ki, Xallının başını əzsin, öldürsün.

Arı-adam bunları öyrənib Xallının yanına uçdu:

– Səndən intiqam alacaqlar, bilirsən?

– Yox. Kim?!

– Oğlun kimin oğlunu öldürüb?!

– Çounun. Yəni məndən Çou intiqam almaq istəyir?

– Bəli.

Axı Çou ağıllı və mərd adamdır, nə əcəb belə axmaq bir fikrə düşüb? Əvvəlcə, bunların necə olduğunu öyrənsin, sonra intiqam eşqiylə yansın.

– Hər halda ehtiyatlı ol.– Həmişə ehtiyatlıyam. Çounu mən çox sevirəm. Bu fəlakət, düzdü, bu sevgimi azaldıb, ancaq Çouya bəslədiyim inam itməyib.

Arı-adam Çounun yanına uçdu, qulağının dibində vızhavız salıb soruşdu:

– Oğlunu niyə öldürüblər?
– Məni maraqlandırmır.
– Niyə?!
– Öz dərdim özümə bəs edir...
– Bəs onda Xallıdan niyə intiqam almaq istəyirsən?
– Bilirəm ki, oğlumu öldürənin atasıdır. Onu öldürməsəm, ürəyim soyumaz. Yeganə oğluma qəsd edənlər...
– Xallı da sənin kimi yas içindədir.
– Dəxli yoxdur. İntiqam almasam, yaşaya bilmərəm.
– Axı oğlunu öldürən o deyil.
– Nə olsun, ilan ilandır.
– Xallı sənin haqqında belə demir.
– Çünki günahını başa düşür...

Arı-adam gördü ki, onu heç cürə başa salmaq mümkün olmur, intiqam hissi gözlərini elə tutub ki, başqa heç nə görmək istəmir. Çou nə qədər ağıllı, mərd olsa da, oğlunun ölümünə dözə bilmirdi, bu yanğını intiqamla soyutmağa çalışırdı.

Nəhayət, Xallını izləyə-izləyə bir dəfə axşamçağı yuxuya getdiyi yerdə başının üstünü kəsdirdi. Xallı onun gəldiyini duymuşdu, qıvrıldığı üçün gözləri görünmürdü. Çou qılıncını göyə qaldırdı. Xallı bilə-bilə tərpənmədi. Elə ki qılıncını endirdi. Çou heyrət etdi, çünki qılınc kötüyə batdı, ilana yox. Xallı sadəcə olaraq kötüyə sarılmışdı. Elə etmişdi ki, kötüyün də üstünü örtmüşdü. Çou qılıncı endirəndə kənara çəkilmiş, qılınc da ona yox, kötüyə dəymişdi.

Xallı qıvrılıb başını qaldırdı:
– Sən məni öldürmək istəyirsən, Çou?!
– Bəli. – deyə Çou qəzəblə dilləndi.
– Onda qulaq as... Mənim balam sənin balanı öldürmək istəmirdi.
– İstəmirdi... amma ki, öldürdü...
– Çünki sənin balan ona it əzabı verdi, ölümcül hala saldı. Məgər belə olduğunu bilmirsən?
– Bilmirəm, bilmək də istəmirəm.



– Sən ki mərd adamsan, Çou, ağıllı adamsan, niyə gözlərin kor olub?! İntiqam almaq istəyirsən, bunu yerində, ədalətlə eləsən, daha yaxşı olmazmı?!
– Başıma ağıl qoyma!

Xallı yavaşca quyruğunu qaldırıb Çounu vurdu, o, zərbədən silkələnib ağacın gövdəsinə söykəndi. Başa düşdü ki, Xallı istəsə, onu bir an içində məhv edə bilər. Ancaq onun belə fikri yoxdur. Çou bilirdi ki, intiqam yaxşı şey deyil, mənasız yerə qan tökmək deməkdir. Çou belə fikirləşdiyi vaxt Xallı astaca sürünüb dedi:

– Yaxşı-yaxşı düşün, Çou, heç nədən qorxum yoxdur, intiqam almaqdan əvvəl hər şeyi götür-qoy elə, dərindən öyrən, bil. Əslində intiqamı mən almalıyam, çünki oğlun oğluma əzab verib, zülm verib, bunları da bilə-bilə edib... Bu zülmə, əzaba görə də oğlun cəzasını alıb. Ona görə mənim intiqamım yersiz, gülünc və mənasız olardı... Sən də fikirləş, gör bu fikrə düşməkdə haqlısan, yoxsa yox?!

Xallı sürünüb yavaş-yavaş uzaqlaşdı. Çou bir az özünə gəlib fikirləşməyə başladı. Öz-özünə təkrar etdi:
– İntiqam pisdir. Olanda da ədalətli olsun gərək!

Arı-adam astadan pıçıldadı:
– Bunu başa düşdüyün üçün sağ ol!

## *OKEANDA*

Arı-adam indi çox-çox uzaqda, Şimal tərəfdə, üstünü buz bağlamış okeanın üzəri ilə uçurdu.

Okeanda itlərin sürdüyü xizəkdə iki nəfər yol gedirdi. Deyəsən, yolu itirmişdilər. Həm itlər əldən düşmüşdü, həm adamlar. Yemək ehtiyatı da qurtarırdı. Elə bu vaxt tufan qalxdı, qarı yerdən qaldırıb pərdə-pərdə yelləyir, bir addım uzağı görmək olmurdu.

Arı-adam xizəkdəki adamlara qoşuldu. İstədi ki, onlara kömək əli uzatsın.

Qar hər tərəfdən başlarına tökülürdü. Dünya bir-birinə qarışmışdı. Onlar dayanmaq istədilər. Arı– adam dedi:

–Dayanmayın, düz gedin!

Hər iki adam heyrətləndi. Bu gözəgörünməz kimdir?! Ətrafa baxdılar. Heç kimi görə bilmədilər. Arı-adamın sözünə qulaq asıb düz getməyə başladılar. Qar sürətlə fırlanır, dalğa kimi qalxır, çırpılır, sovrulurdu. İtlər sürətlə xizəyi aparırdılar. Bir azdan qar fırtınası yavaşıyıb get-gedə tamam kəsildi. Birdən qarşılarına buz dağı çıxdı, deyəsən, axı tamam başqa istiqamətə yol almışlar. Hər ikisi bir-birinə baxdı:

– Yaxşı yerdə axşamladıq. Nə edək?!

– Yolu əməlli-başlı çaşdırmışıq.

Arı-adam dilləndi:

– Qorxmayın, məskəniniz yaxındadır, buz dağının sağ tərəfi ilə keçib gedin, iki kilometrdən sonra, getdiyiniz yolun üstünə çıxacaqsınız.

Elə də etdilər. Ancaq məskənlərinə çatanda dəhşətli bir mənzərə gördülər. Onların gəldiyi gəmi buzların arasında elə sıxılmışdı ki, sınıb tökülmüşdü, yaxınına getmək mümkün deyildi. Demək olar ki, gəmidən əsər-əlamət qalmamışdı.

– Biz nə edəcəyik? – Səyyahlardan biri o birisinin üzünə baxdı. – Qaldıq buzların içində.

– Yeməyimiz də qurtarır.

– Mən sizə kömək edərəm. – Arı-adam dillənəndə onların hər ikisi heyrətlə döndü.

– Necə kömək edəcəksən? – biri hirsləndi.

– Baxın, gəminin bir tərəfində qayıq qalıb, salamatdır, ondan istifadə etmək olar.

– Qayıq?! – o biri kinayə ilə dindi. – Bu boyda okeanı qayıqla üzüb keçmək olar?!

– Olar! – Arı-adam inamla: -Çünki bu qayıq adi qayıq deyil. Sehrlidir!

Axşam düşdüyü üçün onlar çadır qurdular, rahatlandılar. Yıxılıb yatdılar. Gecənin yarısı dəhşətli şaqqaşaq səsindən oyandılar. Bu nə səsdir, yer uçur, yoxsa okean təlatümə gəlir, buzlar parçalanır?! Heç nə anlaya bilmədilər. Gecə elə qaranlıq idi ki, göz-gözü görmürdü.



Bu dəhşətli səs birdən başladığı kimi, birdən də kəsdi. Onlar yenə yatdılar. Səhər oyananda qəribə bir mənzərə gördülər. Qarşılarında ucu-bucağı görünməyən nəhəng okean açılmışdı. Özləri ada kimi bir yekə parça buzun üstündə idilər. Qayıq böyürlərində, suda yellənirdi. Gəmi isə batmışdı.

– Buyurun, qayığa əyləşin! – Arı-adam dilləndi.

– Bu buz, qar nə tez əridi?!

– Bunları sizin üçün mən etmişəm.

– Axı sən kimsən? – səyyahlardan biri soruşdu.

– Xeyirxah bir canlı. Buyurun, sağ-salamat yola düşün! Sizə hər şey halaldır!

Hər iki səyyah okeana çıxdı. Qayıq həqiqətən də sehrli, sirli qayıq idi. Suyun üzündə elə bil uçurdu. Böyük kəşflər etmiş bu iki böyük alim-səyyah, Arı– adamla söhbət etmək istədilər. Ha onu səslədilər, heç bir cavab almayıb qəmləndilər.

Arı-adam başqa səmtə uçub gedirdi.

## *YENƏ DƏ SƏFƏRDƏ*

Bəs indi Arı-adam hardadır?!

Eh, kim bilir, haralarda gəzir. Deyirlər ki, bu günlərdə Amerikaya getmişdi, Amerikaya?! Bəli, burda heyrətli nə var ki? On il bundan qabaq Arı-adamı İranda görüblər. İstəyib ki, öz xalqının səadəti yolunda qurban gedən cavanlara kömək eləsin, onları qorusun. Çoxusunu qoruya bilməyib. Deyirlər ki, Arı-adam Çilidə də olub, hətta Pablo Neru kimi böyük şairlə görüşüb. Onun şerlərini dinləyib, ölümünün də şahidi olub. Göz yaşı töküb ağlayıb.

Arı-adam bizim Bakıda da tez-tez qonaq olur. Pinti bir qız vardı. Dəftərləri, kitabları ləkəli, cırıq-cırıq, səliqəsiz. Bir ayın içində bu pinti qız elə dəyişmişdi ki... Bəs bunun səbəbi?! Arı-adam onun başının üstünü kəsdirmişdi, yanından bir addım da olsun uzağa getmirdi. Pinti qız çevrilib olmuşdu ən təmizkar, ən səliqəli bir qız.

Rauf adlı bir oğlan futbol oynayır, dərs öyrənmək istəmirdi. Anası, nənəsi nə qədər səsləyirdilərsə, «indi gəlirəm» deyən Rauf futbol meydanından çıxa bilmirdi. Çox zaman da dərslərini öyrənmirdi. Arı-adam bunu eşidib ildırım kimi Raufun yanına gəldi:

– Hə, qoçaq, futbol oynamaqla necəsən?!

– Eh, istəyirəm, anam-atam qoymur...

– Eybi yox, gedək, vaxtında qayıdarıq.

Həqiqətən də, futbol oynayan Rauf qızışsa da, Arı-adamın təkidi ilə meydandan çıxıb evə gəldi, dərslərini öyrənməyə başladı. Demək olar ki, bu hadisə bir neçə dəfə təkrar olundu. Rauf həm futboldan qalmadı, həm də dərslərindən. Tezliklə qiymətlərini də düzəltdi. Bax, Arı-adam hələ də xeyirxah işlərini davam etdirir, yenə dünyanı qarış-qarış gəzir, dolanır...

Arı-adam keçən il Yaponiyada idi, bu qəribə ölkədə balaca bir qızın evinə getmişdi. Bu qız gözəl şəkillər çəkirdi. Günəş haqqında, sülh haqqında şəkillər. Arı-adam bu şəkillərin bir neçəsini bizim ölkəyə gətirmişdi.

Axı Arı-adamı görmək olarmı?! Belə adam, ümumiyyətlə, dünyada varmı, yaşayırmı?!

Düzü, bu suala dəqiq cavab verə bilməyəcəyəm.

Yəqin ki, Arı-adam dünyada var, hardasa yaşayır, Cırtdan kimi, Buratino kimi, Karandaş kimi, nə bilim, Düyməcik kimi, göyçək Fatma kimi...

Hər insan onu özü axtarmalıdır, axtarsa, hökmən tapa bilər. Çünki Arı-adam ola bilsin ki, bizim təsvir etdiyimiz kimi deyil, bir az başqa cürdür. Hər kəs öz Arı-adamını kəşf etməlidir.

Bəlkə də, Arı-adam insanların vicdanıdır? Əlbəttə, vicdanlı adamlar həmişə ədalətlə, həqiqətlə, düzgünlüklə, saflıqla, mərdliklə yaşayırlar.

Demək, Arı-adam təkcə xəyalın məhsulu deyil, həyatda ola bilər, bəlkə də var.

Belədirsə, gəlin, müvəqqəti olaraq Arı-adamdan ayrılaq, onu axtarıb tapmasaq da, yəqin ki, özü hardasa bizi tapacaqdır.



# *ƏFSANƏLƏR*

## AĞILLI SƏRKƏRDƏ VƏ QOÇAQ OĞLAN

Qədim zamanlarda bizim Azərbaycan torpağında Azər adlı bir oba yaşayırdı. Bu oba hər yerdə ad çıxarmışdı. Başqa qonşu obalarla həmişə dostluq etməyə çalışan, onlarla sıx əlaqə saxlayıb, çətin və dar günlərində kömək əllərini uzadan Azər obasının nüfuzu gündən-günə daha da artırdı.

Xeyirxah, nəcib və gözəl əməllərinə görə Azər obasının adı parladıqca, yüksəldikcə onun düşmənləri də yaranırdı. Azərbaycan torpağındakı obaların içində daha böyük, daha güclü bir oba da vardı. Adamların sayı da üç-dörd qat çox idi. Ordusunun şöhrəti dildəndilə düşmüşdü. Bu obanın başında Bəkr adlı güclü, qorxmaz, eyni zamanda ağıllı sərkərdə dayanmışdı. O həmişə Azər obasının adamlarına hörmət edər, sülh, dostluq şəraitində yaşamağa çalışar, ədavətə yol verməzdi...

Ancaq pis və məkrli adamlar Azər obasına kin bəsləyirdilər. Ciddi ixtilaf törətməsələr də, ürəklərində gizli bir ədavət kök salmışdı. Onlar Azər obasının şöhrətinə heç dözə bilmir, bərk hirslənirdilər. Odur ki, hiylə qurmağa başladılar, müxtəlif narazılıqlar törətməyə, adamlar arasında nifaq və düşmənçilik salmağa cəhd etdilər. Nəhayət, bu barədə sərkərdə Bəkrə bir neçə dəfə məlumat verdilər. Bəkr onlara inanmadı. Elə bərk qəzəbləndi ki, həmin gün qaşqabağı açılmadı. Ancaq pis adamlar dinc durmadılar. Özlərinin gizli fəaliyyətini davam etdirir, kiçik ədavətlər törədir, bunları, Bəkrə çatdırırdılar. Bəkr şübhələnməyə, tərəddüd etməyə başladı. Bu vaxt pis adamlar daha ciddi fəaliyyət göstərdilər. Öz obalarından hörmətli bir qocanı gizlicə öldürdülər. Bunun günahını Azər obasının adamlarında gördülər. Bu dəfə onlar istədiklərinə nail oldular. Bəkri inandıra bildilər.

Ordusunu ayağa qaldıran Bəkr, Azər obasının üstünə hücum etdi. O, güclü müqavimətə rast gəldi. Bundan Bəkr daha da qəzəbləndi. Sayca az olan bir obanın adamları tərəfindən belə

qarşılandığını görüb bütün qüvvəsini topladı. Azər obasının üzərinə təzədən hücum etdi.

Onu bu dəfə də ciddi müqavimətlə qarşıladılar. Bəkri heyrətə gətirən bir şey oldu. Azər obasının əsgərləri nə bir addım geri çəkilir, nə də bir addım qabağa gəlirdilər. Bununla demək istəyirdilər ki, sizi öz torpağımıza buraxmayacağıq, eyni zamanda sizin də torpağınızda gözümüz yoxdur. Bəkr tərəddüd etməyə başladı, hətta tərəddüdünə son qoyub döyüşü saxladı. Pis adamlar bundan möhkəm təşvişə düşdülər. Bəkri yenə aldatmağa nail oldular. Onlar yalan xəbər yaydılar ki, guya Azər obasının adamları Bəkrin qorxduğunu söyləyir, gülüb onu ələ salırlar.

Bəkr bunları eşidəndə yenə qəzəbləndi və Azər obasının üstünə üçüncü dəfə hücum etdi. Bu dəfəki hücum müvəffəqiyyətli oldu. O, Azər obasının böyük hissəsini ələ keçirdi. Burada hökmranlıq etməyə başladı.

Bəkr kiçik fasilədən sonra yenə hücum etmək fikrində idi. Bir gecə qəribə və təhlükəli bir hadisə baş verdi. Bəkr ordusunun atları üçün saxlanmış ot tayaları yandırıldı və atlar hürküdülüb çöllərə salındı. Bəkr səhər tezdən bunun kim tərəfindən edildiyini öyrənmək istədi. Bu zaman onun yanına balaca bir oğlan uşağını gətirdilər. Uşaq qəzəbli, hiddətli idi, qara gözlərində kin qaynayırdı. Böyük sərkərdə ona baxdı, uşağın məğrur, qorxmaz görünüşü xoşuna gəldi.

– Nə üçün bu uşağı tutub gətirmisiniz?!

– Hadisə yerində tutulub. Əsl müqəssirin kim olduğunu yaxşı bilir. Onlara kömək edirdi. Tutmuşuq ki, tayaları yandıranların adını desin. Həmin adamlar uzaqda deyil, bizim işğal etdiyimiz bu torpaqdadır...

Sərkərdə bir xeyli düşündü, qəzəbli uşaqla söhbət etmək məqsədilə ona yaxınlaşıb soruşdu:

– Balaca, ot tayalarını kim yandırıb?

– Mən...

– Sən?! Sən bu işi bacarmazsan... De görüm, bunu kim etmişdir?!

– Mən...



Sərkərdə onun necə məğrur və qətiyyətlə cavab verdiyinə heyran qaldı. Uşaq heç nədən, heç kəsdən qorxmurdu. Başını dik tutub dayanmışdı. Onun 13-14 yaşı olardı.

– Səndən yenə xəbər alıram, de görüm ot tayalarını kim yandırıb?!

– Böyük sərkərdə, bayaq dedim, mən yandırmışam.

– Əgər düzünü deməsən, tonqalda yandırılacaqsan!

Uşaq qəzəblə sərkərdəyə baxdı, onun gözlərindən od tökülürdü. Daha da məcrur bir görkəm aldı. Sərkərdə Bəkr onu qorxudub sarsıtmaq məqsədilə yaxın adamlarını çağırdı, tezliklə tonqal qalamaq haqqında əmr verdi. Bundan sonra uşağa dedi:

– Hə, indi deyəcəksən?!

– Mən sözümü demişəm.

– Sən kimin oğlusan?!

– Mən Azər obasının oğluyam.

– Adın nədir?!

– Baqidir.

– Baqi, görürəm igid oğlana oxşayırsan, gəl inadı burax, ot tayalarını kim yandırıb, bunu de, mən səni ölümdən azad edərəm, yanımda saxlayaram...

– Mənim üçün ölmək şərəfdir.

Bu zaman gördülər ki, tonqal hazırdır. Sərkərdə gözucu uşağa baxdı. Onun bənizinin ağaracağını, qorxub büzüləcəyini gözləyirdi. Ancaq uşaq təmkinini itirmədi, məğrur görkəmini dəyişmədi. Bəkr ona baxıb dedi:

– Tonqal səni gözləyir... Baqi, gəl bu daşı ətəyindən tök... Bil ki, təkcə səni yox, bütün obanı oda qalayacağam...

– Yox, bunu bacarmazsınız...

Uşaq elə bərkdən, inamla qışqırdı ki, sərkərdə özü onun bu qorxmazlığına, cürətinə valeh oldu, bir az da səbr edib, uşağı axıra qədər sınamaq istədi.

Gur yanan, alov dilləri... Baqi qəzəb və nifrətlə baxır, yenə məğrur dayanıb ölümünü gözləyirdi.

Bu vaxt sərkərdə yaxınlaşıb uşağın alnından öpdü.

– Afərin, oğlum, – dedi, – qoy ananın südü sənə halal olsun, bu torpağın sənin kimi balaca igidləri varsa, demək onun böyükləri daha qorxmaz, daha qoçaqdırlar!

Sərkərdə Baqini ölümdən azad edib həmin gün öz qoşunlarını Azər obasından tutduğu hissələrindən çəkib apardı. Bir daha həmin obaya hücum etmədi. Pis adamları bir-bir tapıb dar ağacından asdırdı.

Hər iki oba arasında dostluq yarandı. İllər keçdi. Baqi böyüdü, o da Bəkr kimi böyük, qoçaq və ağıllı bir sərkərdə oldu.

## BİR ŞAMIN SİRRİ

Şərq şəhərlərinin birində müdrik bir alim yaşayırdı. Sakit, fağır bir adamdı, heç kimlə işi olmazdı, gecə-gündüz elmlə məşğul olub, balaca otağında çalışardı.

Alim qəribə bir şam kəşf etdi. Əvvəl onu üzə çıxartmağa qorxdu. Başa düşürdü ki, heç kəs ona və bu şamın qüvvəsinə inanmayacaqdır. Həqiqətən bu şam hər gün gördüyümüz adi şamların heç birinə bənzəmirdi. Şamın alovu elə güclü-qüvvətli idi ki, mis qazanla dolu suyu bir an içində qaynada bilərdi.

Elə ki bu müdrik alim şamı ilə hamamçıların qarşısında gəlib dayandı, öz fikrini söylədi, onlar əvvəlcə bu adamı dəli hesab etdilər. Bir şam bu boyda hamamı necə qızdıra bilər?! Odur ki, alimi lağa qoyub ələ salmağa, gülməyə başladılar.

– Ha... ha... ha... Bu şamla hamamı qızdırmaq istəyirsən? Bu şamla ha... Bəlkə, sənin bu şamın günəşdir, xəbərimiz yox. Bir yandır görək, sonra bizi də yandırıb-yaxar...

– A qardaş, başına hava-zad gəlməyibsə, get özünə peşə tap, ağlını başına yığ, şam hara, hamam hara?!

– A rəhmətliyin oğlu, bir meşənin odunu bir hamamın suyunu qızdıra bilmir, sənin o şamın nə edəcək?!

– Axı bu adi şam deyil!

– Nə fərqi var, şam şamdır da! Onun odu nədir ki! Üfürsən, o saat sönəcək.

– Niyə mənə inanmaq istəmirsiniz?!



– Axı necə inanaq buna?! Bizim ki, ağlımız yerindədir, bilirik ki, balaca bir şam bu boyda hamamı heç cürə qızdıra bilməz.

Alim pərt olmadı, çünki ixtirasına, onun qüdrətinə möhkəm inanırdı.

Bu söhbət bütün şəhərə yayıldı, çoxunun bu fağır, sakit adama yazığı gəldi. Çünki onun dəli olduğunu güman etmişdilər.Nəhayət, bir hamamçı onun şamını sınaqdan keçirmək fikrinə düşdü. Alimin yanına gəldi:

– Mən razıyam! – təklifini bildirdi. – Buyur, de, mən nə etməliyəm?

– Təzə hamam tikməlisən.

Hamamçı razı oldu, alimin iştirakı ilə gözəl bir hamam tikdirdi. Alim su yığılan nəhəng çənin altında, ocaq yerində şamı yerləşdirdi. Heç kəs, hətta hamamçının özü də suyun bu balaca şamla qızacağına inanmırdı.

Elə ki hamam tam hazır oldu, nəhəng çənin suyu balaca şamın odu ilə o dəqiqə qızdı, hamı buna möcüzə kimi baxdı.

Həqiqətən də bu, möcüzə idi.

Hamamçı elə sevindi ki, uçmağa təkcə qanadı yox idi. Alimi bağrına basıb o üzündən, bu üzündən öpdü. Axı bu adi adam hamını çox böyük bir əziyyətdən qurtarmışdı. Hamama nə qədər odun daşınardı!

Günlər keçdi, bu xəbər təkcə şəhərə yox, bütün ölkəyə yayıldı. Balaca şamla qızan, işləyən böyük bir hamamın sorağı dünyanın hər yerinə yetişdi.

Bir əsr ötdü. Şamı yaradan, quran müdrik alim isə şöhrətsiz, adsız-sansız bu dünyadan köçüb getdi. Ancaq yaratdığı şam qaldı, bir əsr keçməsinə baxmayaraq sönmədi, gücdən-qüvvədən də düşmədi. Yenə əvvəllərdə olduğu kimi böyük hamamın suyunu qızdırdı.

Beləliklə, bir neçə əsr də keçdi. O şam, o hamam bizim dövrə qədər gəlib çıxdı. Yeni-yeni kəşflər dünyanı heyrətə gətirdi. Ən güclü alimlər bu hamamı qızdıran o balaca şamla maraqlandılar. Onun sirrini öyrənməyə çalışdılar. Axı o dövrdə nə

atom vardı, nə də uran. Bəs bu balaca şamın gücü-qüvvəsi, hərarəti hansı mənbədən süzülüb gəlir?! Ora baxdılar, bura baxdılar, lakin heç nə aydınlaşdıra bilmədilər.

Nəhayət, şamın qurulduğu yeri başdan-başa sökdülər. Yenə heç nə tapa bilmədilər. Təzədən necə vardısa, eləcə qurdular. Amma...

Daha şam hamamı qızdırmadı.

Beləliklə, şam sirr olaraq qaldı.

Bu hadisə əfsanəyə oxşayır, ancaq həqiqətdir. Həqiqətən, belə bir şam olmuş, hamamı bir neçə əsr qızdırmışdır. Bu şamın möcüzəsi bizim elektron əsrində də çoxlarını sehrləmişdi. Ancaq onun sirri hələ də qalır, yəqin ki, uzun müddət də qalacaqdır.

Sadə, fağır şərq aliminin yaratdığı bir şamın sirrini öyrənməyə hələ də həvəs göstərənlər çoxdur.

## QIZILGÜL QÖNÇƏSİNİN NƏĞMƏSİ

Qızılgül qönçəsinin necə açılmasını kim görüb?! Sən, yox, görməmisən? Bəs sən?! Sən də yox? Bəs kim görüb? Heç kim? Qəribədir. Axı hamınız yaxşı bilirsiniz ki, bu qönçə, yavaş-yavaş, hiss olunmadan açılıb gözəl bir gülə çevrilir. Bağçaya girəndə açılmış gülləri görmək ürəyə sevinc gətirir.

Mən də bir dəfə sübh tezdən qızılgül qönçəsinin açılmasını görmək üçün bağçaya endim. Hələ günəşin doğmasına xeyli qalırdı. Sakit bir guşəyə çəkildim. Gözümü qızılgülün qönçəsinə zillədim. Elə sakitlik idi ki, sükutdan qulaq tutulurdu. Qönçə yumruq kimi möhkəm idi, ləçəkləri bir-birinə elə sarınmışdı ki, sanki onları ayırmaq olmazdı. Kitab vərəqləri kimi... bu vərəqləri açmaq, baxmaq, yenidən bükmək mümkün idi. Amma bu qönçəni hünərin var aç! Ha açdın a! Güc də, ağıl da köməyinə gəlməz.

Vaxt keçirdi, qönçə isə necə varsa, eləcə də qalırdı. Kiçicik tərpəniş də yoxdu. Hava açıldıqca, bu qönçənin üstündəki bir neçə şeh damlası almaz kimi parıldayırdı. Sübhün ayazından azca üşüdüm. Gözümü qönçədən çəkmədən elə hey ona baxırdım.



Uzaqdan bir nəğmə səsi eşitdim. Həm də elə məstedici bir ətir duydum ki, sanki bu nəğmə də, bu ətir də bir-birinə qarışdı. Həm nəğməni eşidir, həm də bihuşedici bir ətri duyur, istər-istəməz gözümü yumurdum.

Elə bil nəğmənin sözlərini də anlamağa başladım. Bu nəğmə idi, yoxsa ki, qızılgül qönçəsinin pıçıltısı! Pıçıltıya da oxşayırdı, nəğməyə də! Qulaq asdım:– Qədimdə, lap qədimdə qönçə bağlamırdım, elə birbaşa ətir saça-saça öz ləçəklərimi açıb adamlara göstərməyə tələsirdim. Demək olar ki, nə şehin düşməsini, nə Cünəşin doğmasını gözləyirdim. Elə ətir saçırdım ki, bu ətrimi səhər mehi özü ilə götürüb aparırdı. Açılan ləçəklərim isə tez solub küçələrə tökülürdü. Adamlar elə bil məni görmürdülər. Axı mən yer üzünə onlara sevinc bəxş etmək üçün gəlmişdim.

On il belə, yüz belə... axırda dözmədim, fikirləşdim ki, özüm öz qiymətimi saxlamalıyam, ətrimi, gözəlliyimi qorumalıyam. Elə də elədim. Ləçəklərimin hamısını bir yerə yığdım, ətrimi də onların arasında, dərinlikdə gizlətdim. Dünyaya əvvəllərdə olduğu kimi birdən-birə gəlmədim. Ləçəklərimi düyünləyib qönçə halında uzun müddət qorudum. Sonra bu ləçəklərim elə yavaş-yavaş açılırdı ki, onun açılmasını heç kim görə bilmirdi. Heç kim də görə bilməyəcəkdir. Açılandan sonra yer üzünün ən gözəl güllərindən biri oldum.

Bu gözəlliyimi şairlər vəsf etməyə başladılar. Bu mənada böyük şərq şairi Sədiyə minnətdaram. Əsl mənim dostum idi, gecə-gündüz yanımda qalırdı, sevirdi, oxşayırdı, öpürdü, qoxlayırdı, bir dəqiqə belə məndən uzağa getmirdi. Ona görə də yazdığı əsər çox xoşuma gəlir. İllər keçdi, qərinələr ötdü, ancaq yazdığı o gözəl əsər solmaq bilmədi. Çünki mən də öz ətrimi, gözəlliyimi az da olsa bu əsərə vermişdim.

Pıçıltı kəsilmək bilmirdi, mən onu dinləyə-dinləyə birdən gözlərnmi açdım. Nə görsəm yaxşıdır. Günəş çıxmışdı, hər yana işıqlarını tökmüşdü. Mənim də gözlərim qamaşdı. Dərhal qönçəyə baxdım.

Birdən elə bil möcüzə gördüm, qönçənin ağzı quş balasının ağzı kimi açılmışdı, qıpqırmızı ləçəklər azca aralanmışdı. Əlimi qönçəyə tərəf uzatdım, onu əyib üzümə yaxınlaşdırdım. Elə xoş ətir məni vurdu ki, yenə bihuş oldum.

Yenə pıçıltı, yenə nəğmə, yenə ətir bir-birinə qarışdı. Bihuş olsam da, gözlərimi daha yummadım, qönçəyə baxa-baxa qaldım. İstəyirdim ki, qönçənin ləçəkləri gözümün qarşısında açılsın, amma bu ləçəklər açılmırdı ki, açılmırdı.

Birdən başımın üstündən bir quş uçdu, sonra ikincisi, üçüncüsü... Sonra onlar səs-səsə verib nəğmə oxudular. İstər-istəməz başımı qaldırıb bu quşları axtardım, qönçəni əlimdən elə buraxdım ki, onu tamam yaddan çıxartdım. Bu nəğmələr elə şən, elə xoş idi ki, yaxınlıqdakı ağaca qonan quşları görə bilməməyim eynimə gəlmədi.

Quşlar elə bil səhər nəğməsi oxuyurdular. Günəş də üfüqdən qalxmışdı. Dünya onun şəfəqlərinə qərq olmuşdu. Qıpqırmızı şar kimi üfüqdə par-par yanırdı. Quşlar sanki bu günəşin eşqinə belə coşmuşdular.

Bu nəğmələri dinləyə-dinləyə yenə qönçəyə tərəf baxdım və məni heyrət bürüdü.

Çünki qönçə əvvəlkinə nisbətən xeyli açıq idi, ləçəklər bir-birindən aralanmışdı.

Mənə qəribə gələn bu ləçəklərin açılmasını görə bilməməyim idi. Axı sübh tezdən bu məqsədlə sakit guşəyə çəkilmişdim. Amma onun açılmasını heç cürə görə bilmədim.

Bir şeyə möhkəm əmin oldum. Qızılgül qönçəsinin nəğməsi var; gizli, sehrli, təzə-tər, xoş nəğməsi. Bu nəğmə onun nəfəsidir, ətridir, varlığıdır!



# BALACA SƏRKƏRDƏ

Güclü və ağıllı bir sərkərdə özünü gələcəkdə əvəz etmək üçün yeniyetmələrin arasından sərkərdə hazırlamaq istəyirdi. Bu məqsədlə onlarla gecə-gündüz təlim keçirdi. Onların arasında biri xüsusilə seçilirdi. Sərkərdə onun həm gücünə, həm də ağlına heyran qalmışdı. Heç nə demədən, tərifləmədən hər hərəkətini izləyir, daha dərindən öyrənməyə çalışırdı.

Get-gedə bu oğlanın elə gözəl cəhətləri üzə çıxdı ki, sərkərdə ona tamamilə inandı. Ox atmaqda qeyri– adi məharət göstərirdi. Elə sərrast ox atırdı ki, dərhal hədəfə düşürdü. Güləşməkdə də ona çatan yoxdu. Elə cəld, elə zirək idi ki, ildırıma bənzəri vardı. Ağlına, dərrakəsinə söz ola bilməzdi, çətin anlarda elə şeylər fikirləşib tapardı ki, heç kəsin ağlına gəlməzdi.

Qocaman sərkərdə bütün bu cəhətlərinə görə oğlanı öz yaşıdlarına başçı təyin etdi. Adını «balaca sərkərdə» çağırmağa başladı. Oğlan da bu ada layiq hərəkətləri ilə bir daha onu inandırdı. Nə lovğalandı, nə də qürrələndi, özünü sərkərdələrə layiq soyuqqanlıqla, təmkinliklə, ciddiliklə tanıda bildi. Get-gedə hamı bu ada öyrəşdi, onun məharətinə, gücünə-qüvvəsinə, ağlına-kamalına bələd oldu. Böyük hörmət və nüfuz qazandı.

Günlər keçirdi. Böyük sərkərdə balaca dostuna hər şeyi etibar edirdi. Bəzən bütün qoşunu ona tapşırıb gedirdi, bir-iki gündən sonra qayıdıb gəlirdi. Görürdü ki, qayda-qanun necə vardısa, eləcə qalıb. Hamı da, sözsüz-şəksiz, balaca sərkərdəyə qulaq asmış, onun bütün əmrlərini, tapşırıqlarını yerinə yetirmiş, inciklik, narazılıq baş verməmişdi.

Son zamanlar qalanın yaxınlığındakı meşədə quldur dəstəsi yaranmışdı. Bu dəstə karvanları soyur, qalaya gedib-gələn adamları incidir, nəyi varsa, tutub əlindən alırdı. Hətta gizlicə qalaya girib bir neçə evi talan etmişdi. Şəhər hakimi bu barədə sərkərdəyə xəbər verəndə o, hörmət və nəzakətlə demişdi:

– Narahat olmayın, bu işlə balaca sərkərdə məşğuldur.

– Başa düşmədim.

– Mənim köməkçim var, ona balaca sərkərdə deyirik, quldur dəstəsini məhv etməyi ona tapşırmışam.

– Yəni bacara biləcək?!

– Bir həftə vaxt istəyib bizdən.

Quldur başçısı eşidəndə ki, üstünə balaca bir uşağı göndərirlər, qəhqəhə çəkib gülmüşdü.

– Onun başını sərçə başı kimi üzəcəyəm, – demişdi.

Elə bu vaxt xəbər çatdı ki, balaca sərkərdə əsgərlərlə meşəyə tərəf gəlir. Quldur başçısı gizləndiyi yerdən baxıb gördü ki, həqiqətən balaca bir uşaq ağ atın belində, dalınca da bir neçə atlı əsgər, budur ha, yavaş-yavaş meşəyə yaxınlaşır. Quldur başçısının gözləri işıqlandı:

– Kəmənd hazırlayın! – qışqırdı. – Birinci o uşağı kəməndə salın! Onların canı daha mənim əlimdədir.

Elə də etdilər, balaca sərkərdəni kəməndə saldılar, o biri atlılar isə pərən-pərən düşdülər, quldur başçısı öz dəstəsi ilə üzə çıxdı, sevinə-sevinə kəməndi dartdılar.

Quldur başçısı tələsirdi, balaca sərkərdənin başının kəsilməsini tapşırmışdı. Elə ki kəməndə salınmış sərkərdə gəlib əllərinə çatdı, heyrət içində dondular. Bu, canlı adam deyildi, müqəvva idi. Başlarını qaldıranda gördülər ki, dörd tərəfdən əhatə olunmuşlar. Balaca sərkərdə də ortalıqda!

Quldur başçısının təslim olmaqdan başqa çarəsi qalmadı. Balaca sərkərdə onu və dəstəsini gətirib şəhər hakiminə təhvil verdi.

Bu hadisə balaca sərkərdənin hörmət və nüfuzunu camaat arasında qat-qat artırdı.

Bir-iki ildən sonra qalanın üstünü fəlakət aldı.

Saysız-hesabsız düşmən qoşunu qalanın ətrafına toplaşdı. Payız təzəcə girmişdi. Düşmənlər tələb etdilər ki, camaat təslim olsun. Vəziyyət ağırlaşdı, qala dörd tərəfdən mühasirədə qalmışdı. Şəhər hakimi qocaman sərkərdəni yanına çağırıb kədərli-kədərli soruşdu:

– Nə edək?! Məsləhətin nədir?!

Böyük sərkərdə ağır-ağır düşünüb təmkinini pozmadan, sakitcə dedi:



– Düşmənlər çoxdur, yəqin bilirsiniz ki, bizim qoşundan on qat güclüdür.

– Bunları bilirəm! – şəhər hakimi hirsli-hirsli sərkərdəyə baxdı. – Ancaq düşmənə təslim olmaq fikrində deyiləm. Ona görə də bir tədbir görmək lazımdır.

– Tədbir?! Daha nə tədbir?! Qoşunumuz son damla qanına qədər düşmənlə vuruşmalıdır. Öldü var, döndü yoxdur!

– Vuruşdunuz, qalib gələ bilməyəcəksiniz. Düzdür?!

– Söz vermirəm, çünki...

– Yox, vuruşmaq məsləhət deyil, nəsə bir şey fikirləşmək lazımdır.

– Onda balaca sərkərdəni çağırın!

– Eh, balaca sərkərdə nə edəcək, sən ağıllı-başlı bir şey deyə bilməyəndə... dünənki uşaq nə fikirləşə bilər?!

– Onun çağırılması məsləhətdir, bizi balaca sərkərdə xilas edə bilər.

Balaca sərkərdə şəhər hakiminin yanına gələndə kədərli və düşüncəli idi. Onu dinləyib dərhal dedi:

– Mən hər şeyi qabaqcadan fikirləşmişəm.

– Təklifin nədir?!

– Mən... mən... onları qala ətrafından qovaram.

– Sən... təkcə?! – şəhər hakimi heyrətlə dilləndi.

– Bəli, mən təkcə...

– O boyda qoşunun qabağında dağ da dayana bilməz, yoxsa sənin kimi bir uşaq...– Düz buyurursunuz! – balaca sərkərdə aramla sözə başladı. – Mən təkcə o boyda qoşunla bacara bilmərəm. Ağılla iş görmək fikrindəyəm, elə edəcəyəm ki, qalanın ətrafında birinin də izi-tozu qalmayacaq!

Sübh tezdən cır-cındır içində balaca sərkərdə qalanın o biri tərəfinə keçdi. Düşmənlər onu görən kimi üstünə cumub tutmaq istədilər. Balaca sərkərdə özünü ağır xəstə kimi aparıb zarımağa, qışqırmağa başladı:

– Yaxına gəlməyin, xəstəyəm... Qalada vəba var... camaat qırılır... Küçələr meyitlə doludur... Mən də qaçdım ki, canımı qurtarım. Orda... vəba... vəba... var...

Vəba sözünü eşidən əsgərlər qorxudan tir-tir əsdilər. Bu xəbər ildırım sürətilə qoşuna yayıldı. Hamı qaçmağa başladı. Bir neçə saatdan sonra qalanın ətrafında heç kəs qalmamışdı.

Balaca sərkərdə ayağa qalxıb yavaş-yavaş qala qapısına tərəf gələndə camaat onu əsl qəhrəman kimi qarşıladı. Qocaman sərkərdə isə bağrına basıb öpdü:

– Afərin, oğlum!-dedi.– İndi dünyadan arxayın köçə bilərəm. Məni əvəz edən adam var!

## MÜDRİK LOĞMANIN ŞAGİRDİ

Qədim zamanlarda yaşayan müdrik bir loğmanın adı, şöhrəti dildən-dilə düşmüşdü. Bu loğman ən ağır xəstələrin üstünə gedər, bir dəfə yoxlamaqla dərdini bilər, sehrli əlləri ilə onları sağaldardı. Güllərdən, çiçəklərdən elə dərmanlar düzəldərdi ki, hamısının yaxşı təsiri olardı. Nə qədər xəstə bu dərmanlardan şəfa tapmışdı!

Hamı loğmanın adını «möcüzə» qoymuşdu. Doğrudan da hər hərəkəti möcüzəyə bərabər idi. Dünyada elə elm yoxdu ki, ondan xəbərsiz olsun. Adamın üzünə baxmaqla ürəyini oxuyardı. Kasıblara xüsusi məhəbbətlə yanaşar, onlardan bir qara qəpik də almazdı. Əksinə, özü kömək əli uzadar, hər cür qayğısına qalıb, hörmət və ehtiramla yola salardı.

Bir dəfə onun yanına balaca bir oğlan gəldi. Müdrik loğman onun ağıllı gözlərinə baxıb soruşdu:

– Sən deyəsən, dünyanı öyrənmək istəyirsən?

– Bəli, ustad!

– Adın nədir, oğlum?

– Adım Ərustədir.

– Yanımda şagird kimi qalarsanmı?!

– Elə bunun üçün gəlmişəm.

– Çox gözəl eləmisən. Göz üstə yerin var, mənə də ağıllı-kamallı bir köməkçi lazımdır. Balaca, torbanda gətirdiyin nədir?

– Dağ çiçəkləridir. Ən uca zirvələrdən dərmişəm.

– Maraqlıdır. Yəqin ki, dərmanlar düzəltmək istəyirsən?!

– Həm dərmanlar, həm də həyat şirələri...



– O... bəs bunları necə öyrənmisən?!

– Yoxlaya-yoxlaya, bir də qoca qarılardan, kişilərdən... Elə çiçək var ki, onun şirəsi gözə işıq gətirir, bir başqası isə adamı cavanlaşdırır...

– Gəl, bu çiçəkləri göstər görüm...

O vaxtdan Ərustə müdrik loğmanın yanında qaldı. Az müddətdə onlar möhkəm dost oldular. Buna təkcə dostluq demək olmazdı, çünki bundan da yüksək, bundan da müqəddəs bir duyğu hər ikisinin ürəyində yaşayırdı. Hər ikisi gecə-gündüz işləyir, bitkiləri, yarpaqları, gülləri öyrənir, göyün-yerin sirrinə bələd olmağa çalışırdılar.

Günlər keçirdi. Müdrik loğman şagirdinin bacarığına, qabiliyyətinə get-gedə heyran olur, sevinir, onun hər yeni kəşfini görüb heyrətlənirdi.

Bir dəfə padşahın qızı xəstələndi. Nə qədər həkim gəldisə, dava-dərman verdilərsə, bir şey çıxmadı. Bu gözəl, zərif bir qızdı. Başının ağrısından özünə yer tapa bilmirdi. Nə gecəsi vardı, nə də gündüzü. Sarayda hamı bir-birinə dəymişdi. Vəzir-vəkil uzaqdan ən adlı-sanlı həkimləri çağırmışdılar, nə olsun, heç birinin köməyi olmamışdı. Ən nəhayət,. padşah müdrik loğmanı xatırlamış, onu yanına çağırtdırmışdı.

– Yeganə ümidim sənədir, heç nə bilmirəm, qızıma bir çarə, onu əgər bu bəladan qurtara bilsən, nə istəsən, verəcəyəm.

-Sağlığınız mənə bəsdir, hələlik söz vermirəm, qoyun müayinə eləyim, sonra...

– Buyurun...

– İcazə verin qızınızı öz evimə aparım. Çünki bütün dava-dərmanım ordadır, ağıllı şakirdim də var.

– Yaxşı, etiraz etmirəm.

Loğman padşahın razılığından sonra qızı evinə gətirdi. Qapını onların üzünə Ərustə açdı. Loğman şagirdi ilə birlikdə qızı müayinəyə başladı. Ağrının necə, nə vaxt başlandığını, necə davam etdiyini soruşdular. Heç nə başa düşə bilmədilər. Loğman Ərustəyə, Ərustə loğmana baxdı. Birdən loğman soruşdu:

– Qızım, başın bərk ağrıyır?!

– Yox, bəzən elə bil qaşınır... Məni rahat olmağa qoymur.

– Aydındır...

Loğman qızın başının qapağını götürməyi qərara aldı. Götürdü də. Gördü ki, qızın beyninin pərdəsinə bir gənə yapışıb. Bildi ki, bütün ağrıların səbəbkarı bu gənədir. Tez əlini maqqaşa uzatdı. Bu maqqaşla gənəni pərdənin üstündən götürmək istəyəndə şagirdinin səsini eşitdi:

– Ustad...

– Nədir, Ərustə?

– Maqqaşı qızdırmaq lazımdır.

– O niyə?!

– Maqqaş qızın beyin pərdəsini dağıda bilər.

Loğman fikirləşdi ki, Ərustə çox doğru deyir. Onun dediyi kimi elədi, gənə isti maqqaşa dözməyib qopub yerə düşdü. Qız tamam sağaldı. Sağalsa da müdrik loğmanın evindən getmək istəmədi. Loğman hər şeyi başa düşdü. Qız şagirdi Ərustəyə könül bağlamışdı. Bu da çox çətin məsələ idi. Xəstəlikdən sonra qız elə bil dünyaya təzədən gəlmişdi və təzədən qeyri-adi bir gözəllik qazanmışdı. Həm də padşah öz qızını yoxsul bir şagirdə verərdimi? Qətiyyən. Ona görə loğman həyəcan keçirməyə başladı. Bir gün Ərustə qızı iş otağına apardı. İkinci gün də, üçüncü gün də! Loğman bu işə məəttəl qaldı.

Nəhayət, hər şey məlum oldu. Ərustə də qızı sevirdi. Ancaq ona inanmırdı, elə bilirdi ki, bütün dövlətli qızları kimi ərköyündür, tənbəldir, yelbeyindir. İş otağına aparıb onu işlədir, müxtəlif tapşırıqlar verir, nəticəsini gözləyirdi. Get-gedə gördü ki, qız ağıllıdır, səbirlidir, otaqdakı pis qoxudan çəkinib eləmir, cəsarətlə, zəhmətlə, inadkarlıqla çalışmağı bacarırdı. Ərustə bundan sonra loğmana fikrini bildirdi.

– Bilirəm, ustad, çətin məsələdir, hər halda padşaha demək məsləhətdir.

Padşah qızını görəndə sevindiyindən bilmirdi, nə etsin. O gün kef məclisi qurdu, hamını qonaq çağırdı.

Loğman məqam gəzib padşahın əhvali-ruhiyyəsinin ən yaxşı vaxtında bu sirri açdı, xahiş etdi ki, buna etiraz etməsin. Çünki



qızının yenidən həyata gəlməsində Ərustənin çox böyük rolu vardır. Padşah uzun müddət düşündü və buna razılıq verdi. Toy məclisi quruldu.

Padşah qızı həqiqətən də ağıllı, işküzar bir gəlin oldu. Həm loğmanın, həm də Ərustənin ən layiqli köməkçisinə çevrildi.

Bir dəfə loğman bərk xəstələndi. Özünə bir əlac edə bilmədi. Hazırladığı dərmanların heç biri ona kömək etmədi.

Ərustə hardansa bir ilan gətirib gəldi. İlanı görən loğman qorxdu, elə bildi ki, şagirdi arvadı ilə birləşib onu zəhərləmək istəyir. Heç nə deməyib susdu. İşin axırını gözlədi. Ərustə ilanın zəhərini çıxartdı, ondan qəribə bir dərman düzəltdi, sonra sevimli müəlliminə yaxınlaşdı.

Loğman xəstəlikdən əzab-əziyyət çəkirdi. Odur ki, ölmək istəyirdi. Şagirdinin hazırladığı dərmanı zəhər bildi, onu qaldırıb həvəslə başına çəkdi:

– Biryolluq canım qurtarsın! – dedi.

Loğman başını balışa atıb şirin yuxuya getdi. Bir də səhər gözlərini açdı. Gördü ki, günəş doğub, şəfəqləri hər yerə yayılıb. Ayağa qalxdı. Özündə güc, qüvvə duydu, uşaq kimi sevindi! Birdən Ərustəni gördü. Ərustə onun yatağının başı üstə büzüşüb oturub, keşiyini çəkmişdir. Ürəyi kövrəldi, dünənki düşüncələrinə görə xəcalət çəkdi. Birdən Ərustə oyandı, başını qaldırıb ustadına baxdı:

– Gözün aydın, ustad, – dedi. – Həmişə ayaq üstə!

– Sağ ol, oğlum. Sənin dərmanın mənə həyat verdi.

Bu zaman qapı açıldı. Padşahın qızı məcməidə çayla içəri girdi. Salam verdi. Yaxınlaşıb Loğmanın alnından öpdü:

– Ustad, sabahınız xeyir olsun!

Qoca o gündən özünü gümrah hiss eləməyə başladı. Ağıllı, müdrik və xeyirxah şagirdi ilə, onun sevimli arvadı ilə fəxr etdi.

## ÇİNAR ÖMRÜ

Yer üzündə yüz ilə yaxın idi ki, bir gözəl çinar yaşayırdı. Bu, adi çinarların heç birinə bənzəmirdi.

Elə bir gözəlliyə malik idi ki, onu görən bir də görmək istəyirdi. Xüsusilə bahar çağında.

Çinar çox hündür idi, az qala başı buludlara çatırdı. Odur ki, bir az kənarda dayanıb ona baxanda bütün əzəməti və gözəlliyi ilə canlanırdı.

Həmişə də belə yaşamışdı: əzəmətlə, gözəlliklə!

Gözəlliyini, əzəmətini heç kəsdən gizlətmirdi. Kim yanına gəlirdisə, onu sevinclə, məhəbbətlə qarşılayırdı.

Gözəlliklə, əzəmətlə yanaşı onda insana məxsus sehrli bir mehribançılıq da vardı.

Deyirlər ki, hətta yanına gələnlərin arzusunu, niyyətini öyrənir, yeri gəlsə, kömək əlini uzadırdı. Xeyirxahlıq hissi güclü idi, buna görə çalışırdı ki, insanlara ancaq xeyri dəysin!

Deyirlər ki, bir dəfə qəribə hadisə baş verdi. Bir çolaq axsaya-axsaya çinarın yanına gəldi, dayanıb onun gözəlliyinə və əzəmətinə heyranlıqla baxdı. Çinardan gözünü çəkə bilmirdi, onu başdan-ayağa, gövdəsindən tutmuş budaqlarına, yarpaqlarına qədər süzdü, dönə-dönə nəzərdən keçirdi, ürəyində pıçıldadı:

– Sağ ol, çinar, sağ ol, mənə sevinc verdin!

Çinardan ayrılıb gedərkən, bir də gördü ki, çolaq deyil, rahatca addımlayır. Nə gözünə, nə özünə inanmaq istəmədi, bunun həqiqət olduğuna uzun müddət şübhə ilə yanaşdı.

Çinarın bu xeyirxahlığı dildən-dilə düşdü.

Qış aylarında yarpaqlarını tökərkən, yenə gözəlliyini itirmədi. Ağımtıl, qaramtıl rəngə çalan, uzandıqca uzanan gövdəsinin əqrafında çətir kimi açılan, qol-qanad atan budaqlar vüqarlı, əzəmətli və gözəl görünürdü.Bir nəfər çinarın bu xeyirxahlığını eşidib, yanına gəldi. Dayanıb soyuq-soyuq ona baxdı, nə gözəlliyini, nə də əzəmətini duydu, daha da yaxına gəlib yalvardı:

– Ey çinar, mənə bir ətək qızıl ver!

Gözlədi, gözlədi, çinar ona heç nə vermədi, hirsləndi, çıxıb getdi. «Eh, bu nə çinardır belə tərifləyirlər, mən onda tərifli heç nə



görmədim. Adi çinar ağaclarından başqa bir şey deyildir. Heyif zəhmətimə!» Bu adamın hirsi soyumadı, gizlicə çinarı baltalamaq fikrinə düşdü. Əlinə iti bir balta götürüb gecənin zülmətində çinara yaxınlaşdı.

Onu heyrət götürdü, çünki çinar qaranlıqda elə bil işıq saçırdı. Daha irəli gedə bilmədi, bunun mənasız olduğunu anladı. Bir az da gözlədi, çinarın işığı sönmədi ki, sönmədi.

Birdən güclü külək əsdi, baltalı adamı götürüb apardı. Heç yerdə dayanmağa qoymadı. Qaranlıq içində baltalı adam diyirlənib dərəyə yıxıldı. Elə o dəqiqə külək kəsildi. Ətraf zülmət içində olduğu üçün səhərə qədər gözləməli oldu. Səhər nə görsə yaxşıdır. Beş addım o tərəfdə elə dərin uçurum vardı ki, külək kəsməsəydi, onu aparıb bu uçuruma atacaqdı. Dərədən çıxıb öz evinə gedən adam baltanı da götürməyi unutdu.

Çinar yenə gözəllik və əzəmətlə yaşayır, insanlara sevinc bəxş edir, xeyirxahlıq göstərir. Xeyirxah adamlar ona baxıb deyirlər: «Mən də belə çinar ömrü yaşamaq istəyirəm.»

## İŞIQLI OĞLAN

Keçmiş zamanlarda, böyük bir qalada on-on bir yaşında fərasətli və ağıllı bir uşaq yaşayırdı. Onun üzündən-gözündən nur tökülürdü. Elə bil işıq içində yanırdı. Buna görə hamı ona işıqlı oğlan deyirdi. Adı tamam unudulmuşdu. Uşağı elə belə də çağırırdılar. İşıqlı oğlan!

Güclü hafizəsi olduğundan bircə dəfə dinlədiyi şeri, bayatını əzbər bilirdi. Çoxlu nağıl, qaravəlli, əfsanə, qoşma, qəzəl öyrənmişdi. Meydanlarda ətrafına yığılan uşaqlara bildiklərini həvəslə, şövqlə danışır, şən, gözəl nəğmələr oxuyurdu. Təkcə uşaqlar yox, böyüklər də bu işıqlı oğlanı dinləməyi sevirdilər. Onun sorağı bütün məhəllələrə yayılmışdı. Hamı çalışırdı ki, oğlanı qonaq çağırsın. Güclü hafizəsi olduğu kimi məlahətli, ürəyəyatan səsi də vardı, bu da çoxunu valeh etmişdi.

Qalanın gur, böyük və zəngin bazarı ətrafda məşhurdu. Burada dalaşan, dəcəllik edən, döyülən uşaqlar olurdu. İşıqlı oğlan bu uşaqların çoxunu ətrafına topladı, onlara baxabaxa soruşdu:

– Kim mənimlə qalmaq istəyir?!

Heç kəsdən səs çıxmadı. Hamının keçəl kimi tanıdığı hiyləgər, gözlərindən biclik tökülən bir oğlan əlindəki uzun çubuğu fırlada-fırlada qışqırdı:

– Bizə yemək verəcəksən?!

– Yemək də verəcəyəm, yataq da!

– Yalan deyir! – deyə keçəl lap bərkdən qışqırdı. – Ona inanmayın, uşaqlar! Sizin başınızı aldadır! Gəlin, mənim dalımca! Niyə dayanmısınız, gəlin!

– Mən sizi aldatmıram! – işıqlı oğlan inamla uşaqları gözdən keçirdi. – Bir ay mənimlə bir yerdə olun, əgər kimə pis olsa, çıxıb getsin, zorla heç kəsi tutub saxlamayacağam.

Uşaqların bəzisi keçəlin dalınca getdi. Qalanları isə İşıqlı oğlanla birlikdə yaşamağa başladı.

İşıqlı oğlan bacarıqlı uşaqları seçib onlarla məşq etdi. Müxtəlif oyunlar öyrətdi: sazda çalmağı, iplərdən tullanmağı, nəğmə oxumağı öyrətdi. Bundan sonra bazarın gur yerində tamaşa verdi. Nə qədər adam vardı. İşıqlı oğlan elə qaravəllilər söyləyirdi ki, hamını güldürürdü.

İşıqlı oğlanın dostları əməlli-başlı dəyişmişdilər, möhkəm və gümrah olmuşdular. Keçəl və onun dəstəsi isə get-gedə hörmətdən düşür, hiylələri baş tutmur, ac-yalavac, cır-cındır içində gəzib dolaşırdılar. Nəhayət, onlar da işıqlı oğlanın dəstəsinə qoşulmağa məcbur oldular. Təkcə keçəl işıqlı oğlanla düz gəlmirdi, hər dəfə onunla sözləşir, hirsləndirir, dalaşmaq istəyir, lakin İşıqlı oğlanın ağıllı, təmkinli sözləri, fikirləri önündə sarsılır, geriyə çəkilirdi.

Günlər keçirdi, qala gün-gündən dəyişirdi. İşıqlı oğlanın təklifi ilə qalanın kənarına çəpər çəkdilər.– Axı bu nəyə lazımdır? – kimsə lağ etməyə başladı. Bu qaladan heç kəs keçə bilməz, daha çəpərə ehtiyac yoxdur…



Bir dəfə düşmən qalaya gizlicə hücum etmək istədi, elə ki gecə vaxtı qalaya yaxınlaşdı, çəpəri aşıb keçdi, bu çəpər bir səs saldı ki, az qala qulaq tutuldu. Düşmən elə qorxdu ki, dərhal dəstəsini yığıb qaçdı. Bir də bu tərəflərə hərlənmədi. Çəpərə lağ edən adamlar bu hadisədən sonra dediyi sözlərə görə peşmançılıq çəkdilər.

İllər ötdü. İndi işıqlı oğlan yoxdur. Təkcə o qalanın uçulmuş divarları qalır. Bir də İşıqlı oğlan haqqında işıqlı xatirələri!

## SEHRLİ MEŞƏ

Bir sehrli meşə vardı.

Bu meşə haqqında qorxulu şeylər danışırdılar. Ona gerə heç kəs o meşəyə tərəf getməyə cürət etmirdi.

Meşə o qədər qalın, sıx, cənkəllikdi ki, yarıb keçmək mümkün deyildi. Orada elə ağaclar var ki, budaqları uzanıb dərhal adamları qucaqlayır, özünə tərəf çəkib möhkəm sıxır, daha buraxmırdı. Ordan qurtarmaq müşkül məsələ idi, fələk də qurtara bilməzdi.

Bir az dərinlikdə isə üstü otlarla, xəzəllərlə örtülü bataqlıq daha qorxulu idi. Bu bataqlıqdan keçmək mümkün deyildi.

Eh, bataqlıq nədir ki! Bir də deyirdilər ki, meşədə yaşıl rəngli ilanların sayı ağacların yarpaqları qədərdir. Ən dəhşətlisi odur ki, bunun ya ilan, ya budaq olduğunu ayırmaq çətindən çətin idi. Elə ki bir ağacın altından keçirdin, birdən budaq yerindən qopub üstünə atlanırdı, göz açmağa macal tapmamış boynuna elə sarılırdı ki, canını qurtarmaq olmurdu.

Bəli, qədim zamanlarda belə qorxulu, sehrli bir meşənin sorağı hər yerə yayılmışdı. Neçə cavan lovğalanıb, bu meşəyə getmiş, on addım atmamış qorxusundan geriyə qayıtmışdı. Bir neçəsi isə axıra qədər getməyə həvəslənmiş, dərinliklərdə itmiş, sonra həlak olduğu xəbəri gəlib çıxmışdı.

Ona görə heç kim o sehrli meşənin həndəvərinə dolanmırdı.

Meşənin yaxınlığındakı kəndlərdən birində Cəsarət adlı bir oğlan vardı. Adı da özünə yaraşırdı. Cəsarətli işlər gördüyü üçün

camaat arasında böyük nüfuz qazanmışdı. Cəsarət ucaboylu, qamətli, yaraşıqlı bir gənc idi, kəndin qızları onu çox bəyənirdilər. Oğlanın isə fikrində, xəyalında tamam başqa bir aləm yaşayırdı.

Həmişə sehrli meşə haqqında düşünürdü. Meşəni öyrənmək, onun sirlərinə bələd olmaq istəsə də, bir az çəkinir, ehtiyatla yanaşır, hər şeyi götür-qoy edirdi. Axı boş yerə gedib bataqlığın içində məhv olmağın nə mənası vardı?! Yaxud bir ilanın, bir ağacın qurbanına çevrilmək onun kimi qüvvətli, güclü, yaraşıqlı gəncə heç yaraşardımı?!

Odur ki, birdən-birə o, meşəyə girmədi. Başqa kənddə yaşayan müdrik bir qocanın yanına gəldi:

– Baba, – dedi. – mən o sehrli meşəyə getmək istəyirəm, ancaq boş əllə yox... Fikrinizi bilməyə gəlmişəm...

– Məsləhətə gəldiyin üçün sağ ol, bala! İndiyə qədər ora gedənlərin ağlı olmayıb. Axı hara getdiyini qabaqcadan bilməlisən! Meşə, oğul, sən düşündüyün qədər də qorxulu deyil. Onu keçib-getmək olar. Təkcə ağılla, düşünməklə... Bataqlıq ki var, onun arasından torpaq yol uzanır, bax, bu yolu tapmaq lazımdır. Tələsmədən, səbrlə getsən, axırda gözəl bir talaya çıxacaqsan. Bu talada isə səni səadət gözləyir.

– Sağ ol, baba...

– Cəsarət, oğlum, şərtlərimi unutma; ağıl, səbr sənin gərək daimi yol yoldaşın olsun!

– Məni hardan tanıyırsan, baba?!

– Yaxşı, mərd adamları hamı tanıyır. Sən öz kəndinizlə bizim kəndin arasında yol çəkmisən. Hamı deyir ki, bu yolu Cəsarət çəkib. Mən də adını ilk dəfə orda eşitmişəm.

Cəsarət meşəyə getməyə hazırlaşdı, uzaqdan müşahidələr apardı. Tələsmədi, meşənin yan-yörəsinə keçdi, bir az qabağa getdi, ətrafı diqqətlə gözdən keçirdi. Qocanın dediyi kimi, meşə adi meşəyə bənzəyirdi, nə sehri vardı, nə də sirri. Ağaclar, cığırlar, kolluqlar, cəngəlliklər... Hələlik şübhəli, qorxulu heç nə gözə dəymirdi. Bir neçə gün keçdi. Cəsarət hələ dərinliklərə getməyə ürək eləmirdi. İstəyirdi ki, daha yaxşı, daha mükəmməl öyrənsin, sonra... Yenə bir neçə gün dalbadal müşahidə apardı. Özü ilə



ehtiyat çox şey götürmüşdü, ilanla mübarizə aparmaq üçün dərman, bıçaq, dəhrə, kəmənd və başqa şeylər. Gəzə-gəzə gəlib bataqlıq olan yerə çatdı. Gördü ki, burdan keçmək mümkün deyil. İndi cığırı necə tapsın, ətrafı diqqətlə gözdən keçirdi. Nə ins-cins, nə şübhəli bir şey, nə qaraltı, nə də səs-küy... Bunların özü də aldadıcı təsir bağışlayırdı. Adamı bir növ arxayın salırdı. Odur ki, Cəsarət kənara çəkilib, böyük bir ağacın gövdəsinə söykəndi. Xeyli gözlədi.

Birdən xışıltı gəldi, Cəsarət boylanıb ətrafa baxdı, heç kəsi görmədi, bir az keçəndən sonra xışıltı yenə təkrar oldu. Cəngəlliyin içindən bir baş çıxdı, sonra ikincisi, üçüncüsü... Marallar idi. Birbirindən gözəl, bir-birindən yaraşıqlı... Cəsarət yerindən tərpənmədən baxırdı. Marallar gəlib bataqlığın sağ kənarından keçib, xeyli irəlidə bataqlığın içi ilə uzanan cığıra tərəf döndülər. Sonra da bu cığırla çıxıb getdilər, uzaqda gözdən itdilər.

Cəsarət də belə etdi, bataqlığın sağ kənarı ilə xeyli irəliyə gedib, həmin cığırı güclə tapdı. Əlinə hər ehtimala qarşı iri çomaq götürmüşdü. Bu çomaqla qarşıdakı cığırı dönə-dönə döyəcləyib yoxladı. Onun möhkəmliyinə əmin olduqdan sonra getməyə başladı. Əyri-üyrü cığır onu gətirib yamyaşıl bir talaya çıxartdı. Cəsarət dayanıb təkcə otlardan ibarət olan bu talaya baxdı, şübhəli heç nə görmədi. Qəribə o idi ki, talada başqa heç nə yoxdu, nə kol, nə çiçək, nə gül, nə yarpaq... Dizə qədər qalxmış otların yaşıl rəngi isə elə parlaq, elə işıltılı idi ki, göz oxşayırdı.

İndi hara getsin, necə getsin?! Həm də axşam düşürdü. Cəsarət sağa baxdı, sola baxdı, böyük, gövdəli bir ağacın koğuşunu görüb sevindi. Bu koğuşda gecələməyi qət etdi. Gəlib yoxladı, diqqətlə gözdən keçirdi, sonra yemək yeyib rahatlandı. Gecəyarı dəhşətli səsdən yuxudan ayıldı, qorxdu. Bir az keçməmiş bu səsin şimşək olduğunu anladı, çünki parıldayan şimşək bütün meşəyə işıq saçdı. Bundan sonra bir şırhaşır başlandı ki, gəl görəsən. Yağış meşədə meydan sulayıb kəsilmək bilmirdi. Bütün gecə yağışın nəğməsi eşidildi. Cəsarət bu nəğmənin qanadlarında yuxuya getdi. Bir də sübhdən oyandı.

Yamyaşıl tala arxada qaldı. Qarşıda cəngəllik vardı. Cəsarət ora baxdı, bura baxdı, dar cığırı tapa bildi, bu cığırla gedib səliqə ilə əkilmiş qızılgül kollarını gördü. Bu kolların üstündəki qönçələrin bir-ikisi açılmışdı. Bir az qabaqda isə daha gözəl, daha yaraşıqlı bir bağça rəng-rəng sayrışırdı. Cəsarət daha da cəsarətləndi, bildi ki, bu bağça, bu bostan insan əlləri ilə yaradılıb. Söyüd ağaclarının arxasında ikimərtəbəli, taxta ev üzə çıxdı. Evin qarşısında isə təndir, it damı, toyuq-cücələr üçün hin vardı. İri tut ağacının budaqlarından bir yelləncək asılmışdı. Bu yelləncəkdə qəşəng bir qız yellənirdi.

Cəsarət ona tərəf getdi. Qız nəğmə oxuyurdu. Birdən nəğməni kəsib yelləncəkdən yerə atıldı, oğlana baxdı:

– Kimsən?!

– Cəsarətəm!

– Bura necə gəlmisən?!

– Meşə ilə!

– Ola bilməz! Baba! Baba! – deyə qız bərkdən çağırmağa başladı. – Baba! Baba!

Cəsarət özünü itirdi, bilmədi nə etsin, qız əməlli-başlı ondan qorxurdu.

– Niyə qorxursan məndən?! – deyə soruşdu.

– Qorxmuram!

Bu vaxt nurani bir kişi evdən çıxıb onlara yaxınlaşdı:

– A bala, – deyə Cəsarətin qarşısında dayandı. – Düz üç ildir ki, səni gözləyirəm, harda qalmısan?!

– Baba, bura gəlməyin sirrini öyrənirdim...

– Afərin, oğlum, afərin. Buyur, bu ev də, bu həyat-baca da sənə qurban! Sən ki bu meşəni keçib gəlmisən, demək, ən ağıllı, ən səbrli, ən ehtiyatlı adamsan!

Cəsarət bu evdə qaldı, qoca onu öz oğlu kimi sevməyə başladı. Çünki o, qocanın ən yaxın köməkçisinə çevrildi. Qız da mehrini get-gedə bu cəsur və igid oğlana saldı. Cəsarət isə onu ilk dəfə gördüyü vaxtdan sevmişdi.

Qoca hər ikisinə xeyir-dua verdi:



– Xoşbəxt olun!-dedi. – Bu evim-eşiyim sizindir, həmişə bir yaşayıb, bir qarıyın!

Cəsarət xoşbəxtliyə qovuşdu, ailəsi tezliklə böyüdü, beş oğlu, üç qızı dünyaya gəldi.

Sehrli meşə yenə özünün sehri ilə onları əvvəlki kimi qoruyurdu.

## CAVANŞİRİN ÜRƏYİ

Altıncı sinfin uşaqları onu öz adı ilə yox, «qəhrəman» deyə çağırırdılar. Bunun iki səbəbi vardı: həm onun özünə yeddinci əsrdə yaşamış Azərbaycanın igid sərkərdəsi Cavanşirin adı qoyulmuşdu, həm də yer üzündəki bütün qəhrəmanları uşaqlıqdan tanıyır və onların həyatını gözəl bilirdi. Köhnə sərkərdələrin dəbilqəli, nizəli şəkilləri əsasında düzəltdiyi füqurları, müxtəlif portretləri, qeyri-adi məlumatları toplayıb saxlayırdı. Dərsliklərdən, kitablardan Babəkin, Aleksandr Nevskinin, Spartakın və başqa qədim qəhrəmanların şəkillərini cırıb götürəndə anası onu yaman danlayırdı!

Fəqət onun özü qəhrəmanlara heç oxşamırdı. Arıq uzun, ağbəniz oğlandı, çox fağır görkəmi vardı, hərəkətlərində mülayimlik, süstlük, ağırlıq duyulurdu. Qəhrəmanlara bəslədiyi böyük sevgisi ilə özünün zahiri arasında olan bu ciddi fərq və ziddiyyət bəzi uşaqların gülüş hədəfinə səbəb olmuşdu. O uşaqlar Cavanşiri lağa qoyur, min cür atmacalı sözlərlə sataşıb hirsləndirmək, cinnətmək istəyirdilər. Hamıdan çox Nadir ona göz verib işıq vermirdi.

Nadir özündən gücsüz uşaqları basıb döyməyi çox sevirdi. Sinifdə hamı ondan qorxurdu. Kök və canlı idi, möhkəm qolları, geniş sinəsi vardı. Özünü hamıdan güclü və qüvvətli hesab etdiyi üçün lovğalanırdı, ədalı və təkəbbürlü gəzirdi. Cavanşirin adını «qorxaq» qoymuşdu. Bir dəfə onların arasında möhkəm mübahisə düşdü. Nadir güclü və qüvvətli olmağı qəhrəmanlar üçün əsas hesab edirdi. Cavanşir bu fikirlə razılaşmadı.

– Yox, adam qüvvətli ola bilər. Ancaq qəhrəman olmaz...

– Niyə?!

– Çünki qəhrəman olmağın çox şərti var...

– Düz deyil, nə şərt ey?! Gücün, qüvvətin oldu, demək qəhrəman ola bilərsən!

– Yox!

Uşaqlar da: «Cavanşir düz deyir, Cavanşir düz deyir» – hay-küylə yerbəyerdən qışqırıb Nadirin üstünə düşdülər. Nadir pərt oldu. Bundan sonra, gizlicə Cavanşirin qorxaq olduğunu göstərmək üçün hardansa zəhəri çıxarılmış bir ilanı sinfə gətirib, onun çantasının içinə qoydu. Cavanşir çantanı açarkən qorxub geri çəkildisə də, yanında dayanmış qızlara xəbərdarlıq etməyi unutmadı. Sinifdə onun qorxması yox, başqalarının qeydinə qalması xüsusilə nəzərə çarpdı. Nadir ilanı əlinə götürüb qəhqəhə çəkə-çəkə, «qorxaq, qorxaq» deyə Cavanşiri ələ salanda uşaqlar ona etiraz səsini ucaltdılar.

Bu hadisədən sonra Cavanşir Nadirdən bərk incidi. Halbuki, bir vaxt beşinci sinifdə olanda Nadir onun ən yaxın yoldaşı idi. Bir yerdə «döyüş şöhrəti» muzeyi yaratmışdılar. Raykom katibi işləyən, keçmiş igid təyyarəçi Məzahirlə məktəbdə görüş təşkil etmişdilər. Təyyarəçi onlara bir məktub vermişdi. Ukraynadan qoca bir qadın müharibə vaxtı Bakının qospitalında vəfat edən oğlunun məzarını tapmaqda ona kömək göstərməyi xahiş edirdi. Cavanşir də, Nadir də, başqa pionerlər də həvəslə bu işə başladılar. Əsgərin məzarını tapdılar. Qoca qadın Bakıya gəldi, pionerlərlə görüşdü, gül dəstələri ilə oğlunun məzarı üstünə getdi. O vaxt pioner baş dəstə rəhbəri Sona Cavanşirdən də, Nadirdən də, razı qalmışdı.

Bəs indi?! Niyə Nadir özünü hamıdan üstün tutur?! Ədalı və təkəbbürlüdür?! Niyə bazar ətrafında fırlanan uşaqlarla yaxınlıq edir?! Cavanşir o mübahisəni unutmağa çalışır, Nadiri yenə əvvəlki kimi görmək istəyirdi. Elə buna görə uşaqlarla birlikdə evlərinə gələn Nadiri görəndə sevindi və albomlarını həvəslə ona göstərdi. Bunlar nə qəribə albomlar idi?! Qəhrəmanların arasında göyərçin şəkli?! «Cavanşir, nə üçün onu burda saxlayırsan?!» Oho, demə göyərçin də qəhrəmandır! Bu quş sualtı qayığın



heyətini ölümdən qurtarmışdır. Bəs üstü-başı toz-torpaq içində, əyni cırıq-cırıq bu balaca oğlan kimdir? O ki, Qavroşdur. Viktor Hüqonun qəhrəmanı! Bəs şair Nəsimi?! Məgər Nəsimi də qəhrəmandır? Bəli, diri-diri dərisi soyulan bu şair Cavanşirin nəzərində qəhrəmandan da yüksəkdir. Albomlarda Halileyin, Lermontovun, Sabirin, Tolstoyun şəkilləri vardı.

Nadir albomları bəyənməyib Cavanşirə lağ etdi:

– Eh, kim gəldi onun şəklini düzmüsən ki... Qəhrəman Koroğludur. Bığıburma, kürəyi qaya, qılıncı şimşək, atı od...

– Məndə Koroğlunun da şəkli var!

– Nə olsun şəkli var?! Axı bu şəkilləri düzməklə qəhrəman olmurlar... Qəhrəman olmaq üçün güc, qüvvə toplamaq lazımdır. Yoxsa sənin kimi... arıq, ölüvay...

Nadir fərəhlə əlini sinəsinə döydü. Bununla demək istədi ki, görürsən, necə güclüyəm.

Sinifdə özünü yenə pis apardığı, uşaqları incitdiyi üçün bir neçə dəfə Cavanşir Nadirə xəbərdarlıq etdi, bunun üstündə də aralarında bərk mübahisə düşdü. Az qaldı ki, tutaşsınlar. Nəhayət, bir gün pioner dəstəsi Hüseynbala Əliyev adını almaq üçün «cəsur inqilabçıların yolu ilə» səyahətinə çıxdığı bir zamanda elə hadisə baş verdi ki...

Hər yer buruq, buruqdu. Buruqlar dənizin içinə doğru addımlayırdı. Geri qayıdanda, avtobusdan düşüb evə dağılışanda, Nadir bir oğlanla sözləşdi və onu döyməyə başladı. Cavanşir yüyürdü, oğlanı Nadirin əlindən alıb onu bərkdən itələdi. Nadir Cavanşirin üstünə cummaq istəyəndə pionerlər onu əhatə edib yaxına qoymadılar.

Nadirin bu hərəkəti dəstə şurasının yığıncağında müzakirə edildi. Necə?! Nadir bunu heç gözləmirdi. Gözləri kəlləsinə çıxmışdı. Cavanşir Nadirin pionerə yaraşmayan hərəkətlərini tənqid etdikcə Nadir yerində otura bilmir, qəzəblənirdi. Cavanşirin qorxmadan belə Cəsarətlə və odla çıxış etməsi onda heyrət oyatmışdı. «Ona bir yaxşı dərs verim ki, ölənədək yadından çıxmasın. Özü bir sümükdür, bir dəri, üfürsəm yıxılar. Amma danışmağına bir bax».

Həmin dərsdən sonra Cavanşiri tində gözləyən Nadir onu döymək qərarına gəlmişdi. Cavanşir pionerlərlə birlikdə gəlib keçdiyindən ona yaxınlaşmağa cəsarəti çatmadı. Təkcə:

– Qorxaq, qorxaq, – deyə qışqırmaqla kifayətləndi. Cavanşir onu eşitmirmiş kimi əhəmiyyət vermədən uzaqlaşıb getdi.

Nadirin kini soyumurdu. Pioner dəstəsinin maraqlı tədbirlərindən heç birində iştirak etmir, hey Cavanşirə sataşır, yenə bazar tərəfdə yaşayan uşaqlarla oturub dururdu. Cavanşir isə onu dilə tutur, pis niyyətindən uzaqlaşdırıb pioner dəstəsinin işinə çəlb etməyə çalışırdı. Pioner dəstəsinə Hüseynbala Əliyevin adı verilən təntənədən qaçmışdı. Təntənənin isə yaxşı keçdiyini sonra eşitmişdi. Komsomol komitəsi nümayəndəsinin çıxışı, Sonanın Cavanşiri və başqa pionerləri təriflənməsi hamının ürəyindən olmuşdu.

Bundan sonra, bir dəfə, Cavanşirin şəkillərindən birini oğurladılar. Özü də Hüseynbala Əliyevin şəklini! Bu hadisə noyabr ayında, bayram ərəfəsində baş verdi. Cavanşir tarix müəlliminin xahişi ilə sinfə bir neçə şəkil gətirmişdi. O. Leninqrad ətrafında döyüşmüş, 17 yerdən yaralanmış igid təyyarəçi Hüseynbala Əliyevin qəhrəmanlığından elə həzin və elə ürəklə danışdı ki, hamının, hətta Nadirin də xoşuna gəldi. Buna baxmayaraq qəzəbi soyumadı, bu qəzəb yeni bir hiss paxıllıq hissi doğurdu..

Cavanşir tənəffüsdən qayıdanda çantasının açıldığını hiss edib, şəklin yox olduğunu gördü, bərk tutulub ətrafa göz gəzdirdi. Qanı qaraldı. Şəkli kim götürə bilər?! Nadir, ançaq Nadir! Qəribə idi, Nadir getmişdi. Deməк, o götürüb, sürüşüb, aradan da çıxıb. Cavanşir hər şeyə dözmüşdü, buna dözə bilməyəcəyini hiss edirdi. Görünür, Nadir də onun ən zəif nöqtəsinə toxunmaq, Cavanşiri yandırmaq, hirsləndirmək və davaya təhrik etmək istəmişdi.

Dərsdən sonra evə gedəndə bazar yaxınlığında hərlənən uşaqlarla Nadirin dayandığını gördü. Nadir Hüseynbala Əliyevin şəklini çantasından çıxarıb ona göstərdi. Cavanşir onun bu məqsədini başa düşməyib dayandı. Uşaqlardan biri qışqırdı:



– Hünərin varsa, gəl şəkli al...

O biri tində dayanmış başqa bir oğlan dilləndi:

– Ə... qəhrəman, göstər görək necə qəhrəmansan?!

Atmacalar, kinayələr yağış kimi yağırdı:

– Nə oldu, qorxdun?!

– Uşaqlar, bu ki, qorxağın biridir.

– Utanım yerinə... Adını da qəhrəman qoyub. Ay canım, bunun harası qəhrəmandır?! Rəngi-ruhu ağarıb. Pişik ondan cəsarətlidir.

Cavanşir hər şeyi anladı. Onu dava etməyə təhrik edirdilər. Özü də necə xəlvət yer seçmişdilər: Dar dalanın yanında, köhnə, səssiz bir küçə... O, Nadirə tərəf yavaş-yavaş irəliləyəndə uşaqların vuruşmaq üçün hazırlaşdığını gördü. Nadir isə onun indi cumacağını, şəkli almağa çalışacağını gözləyirdi. Bu zaman dostlarına işarə edəcək, onlar isə Cavanşiri əzişdirəcəkdilər. Cavanşir sakit idi, yaxınlaşıb Nadirin qarşısında dayandı:

– Səndən xahiş,edirəm ki, şəkli geri qaytarasan... Xahiş edirəm... Bildin, xahiş...

Nadir onun belə nəzakətlə, səmimiyyətlə xahiş etməsini heç gözləmirdi. Cavanşirin hirslənməməsi və qorxmaması onu heyrətə gətirmişdi. O biri uşaqlar da özlərini itirmişdilər. Bundan istifadə edən Cavanşir yenə səmimiyyətlə davam etdi:

– Bəlkə, Hüseynbalanın şəkli sənə çox lazımdır, Nadir?! Lazımsa, gedək bizə, məndə onun bir neçə şəkli var. Hansını istəsən götür, gəl... Unutma, təzə albomlarım var, onları sənə göstərərəm, xoşuna gələr...

Özünü itirmiş Nadir tam sarsıldı. Ətrafındakı uşaqlara baxa-baxa çaş-baş qaldı. Cavanşir onu bu çıxılmaz vəziyyətdən qurtarmaq üçün qolundan tutub çəkə-çəkə özü ilə apardı. Bir də gördü ki, Cavanşirgilin evindədir və təzə albomlara baxır. Bir albomda Sovet İttifaqı marşalları, o birində qəhrəman kosmonavtlar, başqasında partizanlar... Nadir heyran olmuşdu. Cavanşirin arıq, ağbəniz üzünə baxıb birdən soruşdu:

– Özün niyə belə gücsüzsən?!

– Nə bilirsən?!

– Görmürəm. Quru sümüksən. Səni bir göz qırpımında yerə sərərəm.

– Lovğalanma, Nadir, sərə bilməzsən...

– Nə?! – deyə Nadir özündən çıxıb qızışdı – Səni yıxmasam adımı dəyişdirərəm. Cəl, güləşək...

– Lazım deyil... – Cavanşir laqeyd görkəmlə əlini yelləyəndə, Nadir nəşə içində gülüb dedi:

– Hə, görürsən. Özün qorxursan?! Bilirsən ki, mənim qabağımda dayana bilməzsən...

Cavanşir dəhlizə çıxdı, Nadir də onun dalınca... Dəhlizin boş və geniş olduğunu görüb Cavanşirin belindən yapışdı. Cavanşir onun güləşmək və gücünü göstərmək istəyinin qarşısını daha almadı. Güləşdilər. Nadir onunla bacara bilmədi. Onun özünü bir göz qırpımında göyə qaldırıb yerə çırpdı. Nadir bir də təşəbbüs etdi, nəticəsi uğurlu olmadı. Onu heyrət götürdü.

O, evə gedəndə Cavanşir haqqında düşünürdü: Nə üçün bayaq bizə hücum etmədi, halbuki gücü vardı. Hamımızı pərən-pərən edə bilərdi, vurardı da, döyərdi də... İndiyə qədər bir dəfə də olsun heç kimin yanında özünü göstərməyib. Həmişə sakit, həmişə fağır, həmişə mehriban... Mənə nə qədər güzəşt edib... Çox, lap çox... Demək qəhrəman olmaq üçün təkcə güc-qüvvə azdır... Həm də... ağıl, iradə, insanlıq, səbr, təmkin... Eh, daha nə bilim, nə...

Xəcalət hissi ilə heyrət hissi bir-birinə qarışmış, bu hisslərdən yeni, güclü, möhkəm bir hiss baş qaldırmışdı. Bu, yaxşı yoldaş üçün doğan qürur hissi idimi, yoxsa özünə inam hissi?! Demək çətindir! Hər halda, Nadir ürəyində şən və gözəl bir hiss duyurdu. Ona elə gəlirdi ki, bir az bundan əvvəl Cavanşirin albomunu yox, onun ürəyini vərəqləmiş, böyük sevgisini, arzusunu görmüş və duymuşdu...



# "Dalğalar" kitabından (1976)

## *HEKAYƏLƏR*

### KÖRFƏZDƏ

Körfəzdə uzun rezin çəkmələr geymiş, üzü günəşdən yanmış, Muxtar adlı göygöz bir gənc mənə bələdçilik edirdi. Qayıq yavaş-yavaş cahildən aralandı. Sular gömgöy və sakit idi. Qabaqda qamışlıqlar qaralırdı. Bəzi yerlər çeyillik idi. Qayıq bu çeyilliyin arasından keçib gedirdi.

Quşlarla maraqlanırdım. Bilirdim ki, körfəzdə quşlar çoxdur. Ancaq indi onların heç biri gözümə dəymirdi. Bunun səbəbini Muxtardan soruşdum. gülüb dedi:

– Qamışlıqların arasında gizləniblər. Bir də dərinlikdə üzə çıxacaqlar. O tərəfdə.

Qayıq sürətlə sahildən uzaqlaşır, qamışlıqların arasından keçir, bizi daha uzaqlara aparırdı. Qamışlıq qurtardı. Arxaya baxdım. Adam boyu qədər qalxmış qamışlar yerə basdırılmış nizələrə bənzəyirdi. Başımız üstündən qağayılar uçurdular. Yenə qamışlıq, çeyillik başlandı. Qayıq birdən hər iki tərəfi qamışlıq olan "xiyabana" daxil oldu. Keçdiyimiz su "xiyabanı" lap çaya bənzəyirdi. Demə, bu yeri həqiqətən çay adlandırırlar. Bu çaya o qədər yarpaq tökülmüşdü ki, hər yer naxış-naxış görünürdü. Yarpaqlar müxtəlif rəngə çalırdı: yaşıl, çəhrayı, tünd-çəhrayı, qara. Qamışlıqdan bir dəstə quş havaya qalxdı. Muxtar dedi:

– Ora bax. Soltantoyuğu... Çox qəribə quşdur.

Sıx qamışlığın yaxınlığında dimdiyi qıpqırmızı bir quş dayanmışdı.Onun döşü və qanadları göm-göy idi. Muxtar maraqlandığımı görüb qayığı quşa tərəf döndərdi. Quş yerindən

tərpənmədi. Qayığımız yaxınlaşanda quş bizdən azca uzaqlaşdı. Sonra dayandı. Arxaya dönüb biz tərəfə baxdı. Onun baxışlarında nəsə qəribə bir ifadə duydum. Məni heyrət bürüdü. BIz yaxınlaşdıqca quş irəli səkir və hey dönüb arxaya baxırdı.O, bizi harasa çağırırdı. Bələdçim başını bulayıb dedi:

– Özünü nə qəribə aparır. Axı, bu quş adamayovuşan deyil. İndi bizi yanına buraxır, sonra da irəli qaçır.

Qayıq quşun yanında dayananda coltantoyuğu yenə irəliyə getdi. Muxtar onu tutmaq istəyirdi, ancaq bacarmırdı. Ona görə əlini yelləyib:

– Eh, – deyə gileyləndi. – Onu tutmaq olar?!

Qayığı əks istiqamətə sürməyə başladı. Suyun üstü ilə bir neçə qaşqaldaq uçurdu. Onların uçuşları təyyarə uçuşlarına bənzəyirdi. Əvvəl suyun üstü liə şütüyür, qüvvə toplayıb havaya qalxırdılar.

Bir də gördüm ki, Muxtar qayığı geriyə döndərdi.

– Nə olub?!

– Soltantoyuğuna tərəf getmək istəyirəm.

– Niyə?

– Görmürsən nə oyun çıxarır?! Dayanıb bizə baxır.

Muxtar qayığı soltantoyuğunun yanında saxladı. Quş yerindən tərpənmədi. Aramız altı-yeddi addımlıqidi. Qayıq ona tərəf üzəndə quş yenə irəli uçdu. Muxtar hirslənib özündən çıxdı:

– Dayan, onun başına bir oyun açım ki! Bu dəqiqə tutacağam!

Qayığı ona tərəf sürdü. Təhlükəni başa düşən soltantoyuğu bir az da uzaqlaşdı. Məni maraq bürüdü. Bu zaman Muxtar sultantoyuğunu tutmağa hazırlaşırdı. Ancaq quş qamışlığın arasına girdi. Bu, elə gözlənilməz oldu ki, bələdçim çaş-baş qaldı və özündən çıxdı. O, qayığı hirslə sürüb getmək istəyirdi ki, gözüm suyun üstündə iri papaq kimi bir şeyə sataşdı.

– O nədir?!

Bələdçim əvvəl sualıma etinasızlıq göstərsə də, sonra maraqlanıb əyildi və nəsə qaldirdı. Yuva idi. Soltantoyuğu qamışlığın içindən çıxıb bizə baxırdı. Muxtar yuvanın yerini tapdı, sıx qamışlığın arasına qoydu. görünür, külək əsmiş, yuvanı suya salmışdı. Biz yuvanı yerinə qoyduqdan sonra qamışlıqda gizlənən quş dərhal üzə çıxdı, yuvasına yaxinlaşdı. Qalxıb onun üstündə dayandı və bizə baxmağa başladı.



– Quşun dərdi varmış ki! – deyə bələdçim sakit oldu. Gör soltantoyuğu necə rahatlandı...

Çeyilliyi yara-yara irəliləyən qayığımız sıx qamışlıqdan uzaqlaşırdı. Mən o tərəfə nəzər saldım. Soltantoyuğu dayanıb, hələ də arxamızca baxır, sanki bizə təşəkkür edirdi.

## ƏSGƏRLƏR HAQQINDA NAĞIL

Uzaq dağ kəndlərindən birində bir ana vardı, bir də onun dörd oğlu! Biri saz, biri tar, biri qarmon çalırdı, o biri gözəl-gözəl mahnılar oxuyurdu. Müharibə başlayanda dördü də əsgər getdi, ana tək qaldı. Yaşadığı ev kənddə ən hündür yerdə – uca dağın ətəyində yerləşirdi. Haradan baxsaydın, bu evi dərhal görə bilərdin. Ana evin yaxınlığındakı təpədə gəlib durur, oğullarının yolunu gözləyirdi. Hamı onu təpədə görməyə adət etmişdi.

Elə ki, poçtalyon məktub gətirərdi, həmin gün möcüzə baş verərdi: tar da, saz da, qarmon da dillənərdi, hətta oxumaq səsi gələrdi. Hamı bilirdi ki, oğullar yoxdur, cəbhədədirlər. Bəs bu səslər haradan, necə yaranır?! Bunu heç kim bilmirdi.

Elə ki, məktublar gecikərdi, ana gözə görünməzdi, hamı heyrət edərdi. Onu yoluxmağa gələrdilər. Həyət-bacanın da, evin də qapısı açıqdı, ana oğullarının dalınca gedib. Gedib ki, onlara dəysin, ürək– dirək versin.

Sazçalan əsgər oğlundan məktub gəlməyəndə ana həmin təpə başında dayanardı. Axşamlar isə həzin-həzin səslənən bir sazın səsi kəndə yayılardı. Günlərin bir günü sazçalan oğlun şəkli qəzetdə çıxdı, onun haqqında yazılmış məlumatı hamı oxudu. Məlum oldu ki...o, üstünə gələn üç tankı yandırıb. Dördüncüsünü də yandıranda yaralanıb. Beşinci tank onun üstünə yeriyəndə, yaralı-yaralı qumbaraları köksünə sıxıb. Tank onun üstündən keçəndə

qumbaralar partlayıb. Tank yanıb, sazçalan oğlan qəhrəmanlıqla həlak olub.

Həmin vaxtdan hər axşam o evdən saz səsi gələrdi. Ana demək istəyirdi ki, oğlum ölməyib, sağdır, baxın, hələ də saz çalır!

Günlər keçirdi...

Yenə günlərin bir günü ananın adına qəribə bir məktub gəldi. Məktubu general yazmışdı. Özü də tarçalan oğlu haqqında yazmışdı. O, topçu idi, düşmənlərin başına od yağdırırdı. General yazırdı ki, oğlunuz əsil qəhrəmanlıq göstərmiş, qəhrəmanlıqla da həlak olmuşdur. Həmin günün axşamı o evdən tar səsi də gəlməyə başladı.

Günlər keçirdi...

Müharibənin qurtarmasına az qalmış qarmonçalan oğlundan qara kağız gəldi. Ananın saçları tamam ağardı. Yenə evinə çəkildi, bu dəfə axşam sazın, tarın səsinə qarmon səsi də əlavə olundu. Ana sanki dərdini, ağrısını sazın, tarın, qarmonun səslərinə qatır, dünyadan köçmüş oğullarını yenidən dünyaya qaytarırdı.

Müharibə qurtardı. Müğənni oğlundan heç bir xəbər çıxmadı. Öldü-qaldısını bilən yox idi. Ana gözlədi, gözlədi, amma heç kimdən oğlu haqqında bir soraq ala bilmədi. Bütün ümidini ona bağlamışdı. Odur ki, yenə gəlib təpədə durar, oğlunu gözləyərdi.

Ana bir gün oğlunun dalınca getdi, səfəri uzun çəkdi. Qayıdıb gələndə hamı maraqlandı, soruşdular: "Oğlunu tapdınmı, ana?". Ana kədərli-kədərli gülümsündü. "Tapdım"—dedi, inamla, qətiyyətlə dedi. Elə dedi ki, ona inanmamaq olmazdı. Dərin ah çəkib sözünə davam eydi: – Oğlum ölməyib. Bir ağaca çevrilib, ağcaqayın ağacına. Yenə oxuyur, axşam da, səhər də, həmişə!

İndi həmin evdən oxumaq səsi də gəlirdi. Ana bu səslərin bir an belə kəsilməsini istəmirdi. Onu bu səslər yaşadırdı. Günlər keçir, evin dörd tərəfindən çinarlar ucalırdı. Onları ana əkmişdi, deyirdi ki, hər çinar mənim bir oğlumdur! Elə ki, axşamlar sazın da, tarın da, qarmonun da səsi gəlirdi, kimsə oxuyurdu, elə bil dörd oğlunun dördü də evdə idi! Onlar çalır, oxuyurdular. Bu səslər kənd boyu yayıldıqca hamıda bir ümid oyanirdi. Sanki



oğullar yaşayırdılar: hər təzə açılan yaşıl yarpaqda, güldə-çiçəkdə, yazın nəfəsində, evlərin pəncərələrindən süzülən işıqda...

Ana daha yoxdur. Dörd uca çinar, bir də həmin təpənin başında heykəl kimi görünən bir qaya var. Çinarlar mahnı oxuyur, qayaya baxanda hamı oğullarının yolunu gözləyən bir ananı yada salır...

## MEŞƏBƏYİNİN SÖHBƏTİ

Səhər bərk yağış yağmışdı. Günorta hava açılan kimi meşəyə çıxdım. Yağışdan sonra meşəni gəzməyi çox sevirdim. Çünki hər şey təzələşirdi. Yağış meşənin tozunu çırpır, yuyur, onu gözəlləşdirirdi. Bütün ağaclar təzəcə çiçəklənmiş kimi təravətli, şəffaf olurdu. Bu zaman meşənin gəncliyl özünə qayıdırdı.

Dərə tərəfdən uzanan təptəzə bir cığırla yavaş-yavaş irəliləyirdim. Dərədə çoxalan sel-suyun səsi aydınca eşidilirdi. Əməllibaşlı çay axırdı. Asta-asta qalxırdım. Bəzən budaqlara toxunanda üstümə damcılar tökülürdü. Elə xoş olurdu ki! Yaşıllıq içində saysız-hesabsız damcılar bərq vururdu. Meşə çimmiş, hələ qurulanmamışdı.

Birdən dərənin yuxarı tərəfindən böyürtü eşidib ayağımı saxladım. Bu, nə səsdir? Qulaq asdım, bir şey anlaya bilmədim. Bir az keçməmiş, dərənin yuxarı başından nəyinsə qaraldığını gördüm. Gah batır, gah çıxır, çıxan kimi bar-bar bağırırdı. Yaxınlaşdıqca onun ayı olduğunu gördüm. Hər tərəfə göz gəzdirdim. İri bir budaq tapıb, dərhal götüdüm və dərədən azca aşağıya endim. Ayı hərlənə-hərlənə, böyürə-böyürə qalmışdı. Budağı suyun üstü ilə dərənin o biri tərəfinə uzatdım. Ayı budağa çatan kimi ondan möhkəm tutdu. Sıçrayıb özünü kənara verdi və sudan çıxdı. Can necə şirin şeymiş! Ayı ləhləyirdi. Taqəti qalmadığı, yer sürüşkən olduğu üçün birdən-birə dərədən çıxa bilmədi. Elə ki, dərədən yuxarı dırmaşdı, gördüm qəhvəyi rəngli, qəşəng, balaca bir ayıdır. İslandığı üçün işım-işım işıldayırdı. Başını irəli uzadıb mənə tərəf baxdı. Qulaqlarının ətrafındakı tüklər də qəhvəyi rəngə çalırdı. Ehtiyat edıb, ağac gövdəsinin arxasına keçdim, qorxdum ki,

qəzəbli olar, birdən üstümə cumar. Qəribə o idi ki, yerindən tərpənməyən ayı elə hey mənə baxırdı. Bəlkə nəsə demək, təşəkkür etmək istəyirdi?

Bu hadisədən çox keçdi. Hərdən o ayıya rast gəlirdim. Bir dəfə bərk yorulduğum üçün talada yatmışdım.İsti nəfəs duyub dərhal yuxudan oyandım. Gözlərimə inana bilmədim. Başımın üstündə o ayı dayanmışdı. Yoxsa mənim keşiyimi çəkirdi? Ayağa qalxdığımı görən kimi yavaş-yavaş uzaqlaşıb meşənin dərinliklərində gözdən itdi.

Payızın əvvəllərində isə daha maraqlı hadisə baş verdi. Dərə tərəfdə yenə həmin ayıya rast gəldim. Cığırın düz ortasında dayanmışdı. Demək, yolum bağlı idi. Elə qorxdum ki, nə edəcəyimi bilmədim. Tərs kimi, tüfəngim də yox idi. Ayı başını tərpədib, sağ tərəfi göstərdi. Orada heç nə yox idi, ayının həmin tərəfə keçdiyini gördüm. Qorxumu təsəvvür edirsinizmi? Ayı birdən dayandı, yenə mənə tərəf baxdı. Mənsə donmuş kimi yerimdən tərpənə bilmirdim. Onun nə fikirdə olduğunu başa düşmək çətin idi. Ayı yenə başını tərpədib, sankigetdiyi istiqaməti göstərdi. Bu, möcüzə idi.

Nəhayət, tərəddüdə son qoyub onun dalınca getdim. Ayı sıx cəngəlliyə girdi. Burda nə cığır, nə də yol vardı. Cəngəllik elə sıx idi ki, bəzən dayanır, keçmək üçün yol axtarırdım. Xüsusilə qıjılar çox və hündür idi. Böyürtkən kolları ilə başqa kolların qarışığından divar yaranmışdı. Ayı elə yerdən keçirdi ki, onun dalınca gedəndə üst-başımı tikanlar cızırdı. Bəzən hasar kimi sarmaşıqlar qabağımı kəsirdi. Onları vurub dağıdırdım. Sarmaşıqları aralaya-aralaya gedir, ayıdan dala qalmamağa çalışırdım. Üç cavan cökə ağacının yanına çatdıq. Cökələri tor kimi kollar bürümüşdü. Burdan keçəndən sonra qarşıda yamyaşıl, balaca, gözəl bir tala göründü. Bu talanı dörd tərəfdən ağaclar, üstdən isə budaqlar tutmuşdu. Bu sərin yerdə axan bulaq da parıldayırdı. Gözünə yarpaq qoyulmuşdu. İnanın, bu yeri birinci dəfə gördüyümdən heyrətlə baxırdım. Meşəbəyi olasan, öz meşənin içindəki bu gözəlliyi görməyəsən!



Ayı talanın ortasında dayandı. Burda bir neçə armud ağacı vardı. Başı dolu idi. İtburnu, əzgil kolları, bir az aralıda yeganə zoğal ağacı qızarırdı. Xırda, yaşıl yarpaqlar itmişdi. Ağacın üstündə balaca alovlar kimi saysız-hesabsız zoğallar zümrüd sırğalara bənzəyirdi. Ayı gör məni hara gğtirib çıxartmışdı. Əlbəttə, heyrətli iş idi. Özü də necə yer!

Başqa bir tərəfdə qurumuş, irigövdəli bir ağac vardı. Ayı gedib onun yanında dayanmışdı. Ağacın koğuşunda bal görüb sevindim. Bu ağacdan iki vedrə bal yığdım.

Ayı mənim yaxşılığımın əvəzini belə berdi.

## SARI PLAŞ

Səfərin atası Muradın sarı plaşı vardı və bunu heç zaman şəhərdə geyməzdi. Neft daşlarına yola düşəndə bu qalın plaşı asılqandan götürər, bürmələyər, kağıza bükər və qoltuğuna vurub gedərdi. O, plaş barədə bir dəfə anasından öyrəndi ki, bu plaşı atası işə gedən zaman, küləkdə, fırtınada, yağışlı, yağmurlu havada geyinir.

Oğlan atasının Neft daşlarından gələcəyi günü həmişə səbirsizliklə gözləyərdi. Məktəbdən gələn kimi qapının yanındakı asılqana baxardı. Əgər plaş asılmışsa, demək atası gəlmişdir. Səfər sevinclə otağa cumar, qollarını açıb atasıMuradın qucağına atılardı. O, atasına deyərdi:

– Plaşdan xoşum gəlir.

– Niyə?

– Onu görəndə bilirəm ki, sən gəlmisən...

Murad qəhqəhə çəkib gülər, onu bağrına basıb öpərdi.

Atasının gələcəyi gündə küləkli, tufanlı hava olardısa, Səfər evə qəmgin dönərdi. Çünki belə havalarda Neft daşlarından heç kəs gəlməzdi. Səfər də bunu yaxşı bilirdi.

Bir dəfə isə... Günəşli, xoş hava vardı. Murad Neft daşlarından qayıtmalı idi. Səfər məktəbdən gələn kimi asılqana baxdı və pərt oldu. Plaş yerində yox idi, demək atası gəlməmişdi. Bu dəfə o, könülsüz otağa keçdi, anasından soruşdu:

– Atam niyə gəlməyib?

– Bilmirəm, oğlum, yəqin sabaha qalıb...

Səhərisi gün Səfər yenə plaşı yerində görmədi. Anası kədərli, fikirli oturmuşdu.

– Atam niyə gəlməyib?

– Bnimirəm, oğlum, mən də nigaranam.

Üçüncü gün də belə keçdi. Plaş yox idi. Səfər evə girəndə anasının paltar ütülədiyini göpdü. O, bu dəfə ondan heç nə soruşmadı. Başa düşdü ki, atası yenə gəlməmişdir...

Anası ona Muradın xəstələndiyini söylədi.

– Atam xəstədir?! Dənizdə ona kim baxır?!

– Həkimlər...

– Bəs harada yatır?!

– Xəstəxanada...

Səfər heyrətlə anasına baxdı. O, Neft daşlarında evlərin, maşınların olduğundan xəbərdar idi. Amma xəstəxana?! Bunu bilmirdi. Anası Cəfərə, Muradın uzaq buruqda xəstələndiyini, təcili yardımla xəstəxanaya gətirdiklərini də söylədi.

– Təcili yardım?! Şəhərdəki kimi?

– Hə, ondan.

O gündən bəri Səfər məktəbdən gələndə bir gözü asılqanda qalırdı.

Üç gündən sonra sarı plaşı görəndə sevincindən "ata" deyə bərkdən qışqırdı və otağa cumdu. Lakin atasını otaqda görməyib, heyrətlə o yan-bu yana baxdı. Kədərləndi. Çantadsını stolun üstünə tulladı. Birdən yataq otağının qapısı açıldı. Anası çıxıb astadan dedi:

– Suss... səs salma, atan yatır.

Səfər həyəcanından bilmirdi neyləsin. Qapının kənarından boylanıb atasının yatdığı çarpayıya tərəf baxdı.

– Oğlum, oyadarsan...

– Atam sağalıb?

– Sağalıb, oğlum, sağalıb.

– Çox qalacaq?!

– Çox. On gün!



Səfər qəribə olsa da, dəhlizə çıxdı, asılqandakı sarı plaşa bir də baxdı...

## QƏHRƏMAN TƏYYARƏÇININ QARDAŞI

Bu hadisə müharibə illərində baş vermişdi.

O vaxt beşinci sinifdə oxuyanların içində arıq, uzun bir oğlan sakit və dinc təbiəti, mülayim xasiyyəti ilə başqalarından seçilirdi. Onun adı Rövşən idi. Dərslərini əla qiymətlərlə oxuyar, bir dəfə də olsun özünü gözə soxmazdı. Bəzən müəllim bir sual verəndə "mən bilirəm, mən bilirəm" deyə qışqıran uşaqlardan fərqli olaraq, Rövşən əlini qaldırmaqla kifayətlənərdi. Bir sualı heç kim bilməyəndə, əllər göyə qalxmayanda Rövşən başını aşağı dikib kədər işində susardı. Müəllim onu səsləyəndə ağır-ağır ayağa qalxardı. Suala könülsüz cavab verərdi.

Hamı heyrət edərdi. Onun bu hərəkəti uşaqlara dərin təsir bağışlayardı. Ancaq Rövşən özünü elə aparardı ki, bu təsir yoxa çıxardı. Dərsdən sonra heç nə olmayıbmış kimi uşaqlara qoşular, oynayar, deyib-gülər, öz üstünlüyünü gözə çarpdırmaz, mehriban və sadə olardı. Bu xasiyyətinə görə uşaqlar Rövşənə çox hörmət edər, onu ürəkdən sevərdilər.

Günlərin bir günündə azərbaycanlı təyyarəçi Əsəd Mehmanlının igidliyi haqqındakı xəbər hər yerə yayıldı. Təyyarəçiyə igidliyinə görə qəhrəman adı verilmişdi. Bütün qəzetlər onun qəhrəmanlığından yazırdı. Həmin gün Rövşən məktəbə gəlməmişdi. Müəllim uşaqlara igid təyyarəçi, onun düşmənlə necə döyüşdüyü haqqında ətraflı danışdı:

– İndi qəhrəmanın həyatından kiçik bir epizodla sizi tanış etmək istəyirəm. O, təyyarə ilə düşmən hissələrinin üstünə uçurdu. Bu vaxt bir dəstə düşmən süvarisini gördü. Təyyarəni aşağıya endirdi, alçaqdan uçdu və pulemyotdan atəş açdı. Süvarilər vahimə, qorxu içində atlardan düşür, bəzisi yerə sərilir, bəzisi qaçır, bəzisi özünü kolların arasına verirdi. Qəhrəman təyyarəçinin güllələrindən canını qurtaran az olurdu. O, təyyarəni döndərib,

atlarin üstünə sürdü, onları da qorxutdu. Atlar bizim hissəyə çatdıqdan sonra təyyarə yuxarı qalxdı.

Bu vaxt zəng vuruldu. Uşaqlar həyəcanla "müəllim, yenə danış, yenə danış" deyə yerbəyerdən səsləndilər.

Rövşən iki gündən sonra məktəbə gəldi. Nədənsə çox kədərli idi, düşüncəli, ağıllı gözlərində kövrək və həzin bir ifadə donub qalmışdı. Danışanda səsi də titrəyitdi. Tənəffüslərdə elə hey pəncərə tərəfdə dayanır, küçəyə baxır, düşünürdü.

Dərsdə yenə də söhbət təyyarəçi Əsəd Mehmanlıdan gedirdi. Uşaqlar qəzetlərdə çap olunan təzə material haqqında danışırdılar. Bu materialda təyyarəçinin cəbhədə necə qəhrəmanlıqla vuruşduğundan, sədaqətli dost, yaxşı yoldaş olduğundan yazılmışdı. Hamı canlanmışdı, müəllimin suallarına həvəslə cavab verir, müxtəlif epizodlar söyləyirdi. Heç kəs kənarda qalmaq istəmirdi. Söhbətə qoşulmağa, sual verməyə, nə isə yeni bir şey öyrənməyə can atırdı. Təkcə Rövşən o qədər də fəallıq göstərmirdi. Onun süstlüyü, qəmli və kədərli oturması getgedə hamının nəzər-diqqətini cəlb etdi. Müəllim Rövşənə yaxınlaşdı:

– Sənə nə olub, oğlum? – deyə əlini onun saçlarında gəzdirdi. Rövşən başını qaldırmadı, müəllimin bu mehribanlığından kövrəldi.

– Rövşən, dur ayağa, görək qəhrəman təyyarəçi haqqında sən nə öyrənmisən?

Rövşən könülsüz ayağa qalxdı, irəliyə gəldi. Yazı taxtasının yanında dayandı. Müəllim ona dedi:

– Sən təyyarəçinin necə qəhrəmanlıqla həlak olduğundan danış...

Rövşəndən səs çıxmadı. Həmişə bülbül kimi ötən bu uşağın lal olması, sükut içində başını aşağı dikib dayanması müllimə qəribə gəldi. O, qəsdən belə maraqlı və təsirli epizodu danışmağı Rövşənə tapşırdı. Çünki Rövşən bunu çox gözəl söyləyə bilərdi. Bəs niyə susub?! Bəlkə qəhrəman təyyarəçinin həyatından xəbərsizdir? Yox, belə şey ola bilməz. Bəs səbəb nədir? Bu vaxt müəllimi heyrətə gətirən Rövşənin gözlərinin dolması idi. Rövşən



başını aşağı dikib asta-asta ağlayırdı. Uşaqlar da heyrətə gəlmişdilər. Axı nə olmuşdu?

Müəllim təəccüblə soruşdu:

– Sənə nə olub, Rövşən?

– Mən bu barədə danışa bilmərəm.

Müəllimin gözlərində heyrət doğdu:

– Nə üçün?!

– Çünki... çünki... o mə... nim... qardaşımdır...

Müəllim Rövşəni bağrına basdı. Bütün uşaqlar heyrət içində donub qaldılar. Rövşən ağlayırdı. Axı, onun qardaşı cəbhədə qəhrəmanlıqla həlak olmuşdu! Əziz bir adamı itirmək nə qədər ağır idi. Müəllim onun başını sığallaya-sığallaya göz yaşlarını silir, təskinlik verirdi. Sonra Rövşəni aparıb yerində oturtdu. Hamı sükut içində ona baxırdı. Heç kəs dinmirdiş Axı o, nə üçün həlak olan igid təyyarəçinin qardaşı olduğunu qabaqcadan söyləməmişdi? Nə üçün?! Müəllim şagirdlərdən birini səslədi:

– Gəl, Rövşənə tapşırdığım epizodu sən danış.

Uşaq irəli çıxdı, gah Rövşənə, gah müəllimə baxıb bir an tərəddüd etdi, sonra həvəslə, həyəcanla danışmağa başladı:

– Qəhrəman təyyarəçi Əsəd Mehmanlı dörd faşist təyyarəsi ilə üz-üzə gəldi. Dərhal birinin üstünə hücum edib pulemyotdan atəş açdı. Düşmən təyyarəsi yandı. Bu qələbədən ruhlanan qəhrəman ikinci təyyarənin üstünə hücum etdi. Hücuma davam gətirməyib düşmən təyyarəsi qaçmağa məcbur oldu. İki təyyarə isə ona atəş açırdı. Bu atəşlərdən qəhrəmanın təyyarəsi bir neçə yerdən zədələndi. O, cəbhə xəttindən keçmək üçün düşmənlərə atəş aça-aça şərqə tərəf uçdu. Faşistlər onu cəbhə xəttindən keçməyə qoymurdular. Bu zaman o, sürətlə geri dönüb arxadan gələn düşmənlərin üstünə şığıdı. Bu gözlənilməz və qorxulu hücum oldu. Faşist təyyarələrinin biri yandı, o biri isə qaçdı. Qəhrəman təyyarəçi isə ağır yaralandı. O, təyyarəni cəbhə xəttindən keçirdi. Əmin oldu ki, daha düşmənin əlinə keçə bilməz. Təyyarə yanmağa başladı. O, böyük çətinliklə paraşütlə tullandı. Dostları təyyarəçini tapdılar. Ancaq o...

Uşaq "ölmüşdü" sözünü deməyib susdu. Sinfə dərin və ağır sükut çökdü. Rövşən yavaş-yavaş başını yuxarı qaldırdı. Hamı ona baxırdı. Gözlərindəki kövrəklik itmişdi, İndi o, vüqarlı idi!

Bu hadisədən uzun illər keçdi. Həmin məktəbin üçüncü sinfində Əsəd adlı bir oğlan oxuyur.Onun familiyası Mehmanlıdır. Hamı təəccüb edir. Çünki bu oğlanın adı da, familiyası da eyni ilə igidliklə həlak olmuş qəhrəman Əsəd Mehmanlının adı və familiyası kimidir. Bunun səbəbini soruşduqda oğlan belə cavab verir:

– Əsəd Mehmanlı mənim əmimdir. O, cəbhədə həlak olduqdan sonra atam onun adını mənə vermişdir.

Balaca Əsədin atası Rövşən Mehmanlı isə indi təyyarəçidir. Həm də təyyarəçi-konstruktordur. Elmi ixtiraları var. Akademiyaya müxbir üzv seçilmişdir.

Bir dəfə müəllim dərsdə müharibə illərində baş vermiş o hadisəni uşaqlara danışdı.

Sinfin oktyabryatları onunla – qəhrəman təyyarəçinin qardaşı ilə görüş keçirməyi qərara aldı. görüş günü təyyarəçi formasında, kitelində və papağında xüsusi nişan olan hündür, ağbəniz bir adam sinfə girəndə hamı ayağa qalxdı. Onlara ela gəlirdi ki, qarşılarında qeyri-adi və fövqəladə bir adam dayanmışdır. Ancaq bu adamın təbəssümlə müəlliminin əllərini sıxdığını, uşaqlarla bir-bir görüşdüyünü, özü haqqında deyil, təkcə qardaşının qəhrəmanlığı haqqında danışdığını, bütün suallara mehribanlıqla cavab verdiyini gördükdə fövqəladəlik və qeyri-adilik tamam itdi. Onların gözü önündə sadə, gözəl bir insan canlandı. Uşaqlardan biri qəribə cual verdi:

– Nə üçün oğlunuza qardaşınızın adını vermisiniz?

– İstəyirəm ki, o qəhrəmana layiq bir insan olsun.

Uşaqlar çevrilib balaca Əsədə baxdılar. Başını aşağı dikmiş oğlanın yanaqları qızarmışdı.



## ADADA HADİSƏ

İsti yay günlərindən birində, axşamçağı, Xəzər dənizinin Sanqaçal-Duvannı sahəsindəki bir adaya gəlib çatdıq. Yataqxanada yer alıb, azacıq qəlyanaltı etdik, yorğun olduğumuz üçün dərhal çarpayılara uzandıq. Hava sakit olsa da, dəniz sakit deyildi. Narahat adamlar kimi, aramsız çırpınırdı. Axşam olduğu üçün adanı əməlli-başlı gəzə bilmədiyimizdən onun haqqında heç bir təsəvvürümüz yox idi. Bizə elə gəlirdi ki, adada yox, dənizin ortasında olan balaca bir otaqdayıq. Dənizin uğultusu lap yaxından eşidilirdi. Pəncərələri hər ehtimala görə örtmüşdük. Elə bil ləpələr pəncərələrə dəyirdi.

Getdikcə dənizin uğultusuna alışdıq. Bizi şirin bir yuxu apardı. Səhərə yaxın yuxudan ayıldım. Hava təzəcə işıqlanırdı. Bu zaman məni qorxudan bir hadisə baş verdi. Qışqırmaqdan özümü zorla saxladım. Kimsə bizim pəncərəni möhkəm itələyirdi. Onun oğru olduğunu güman edib səssiz qaldım. Ancaq pəncərənin arxasında kim vardısa, əl çəkmək istəmirdi. Pəncərəni bir az da aralamağa çalışırdı. Bu vaxt dostumu silkələməyə başladım. O, başını qaldırıb:

– Nə var? – dedi – nə olub?

– Sus... yavaş...

– Nə olub axı, – deyə dostum bərkdən soruşdu.

– Kimsə pəncərəni aralayır.

Dostum pəncərəyə baxıb, onun aralı olduğunu görəndə təəccübləndi. Əlbəttə, bizi qorxudan tanımadığımız, görmədiyimiz naməlum bir adada olmağımız idi. Dostum başını qaldırıb pəncərəyə baxdı, astadan:

– Pencəyimi ordan götür, – dedi – yəqin kimdirsə, mənim pencəyimə gözü düşüb.

Mən pencəyi götürüb bir kənara qoydum. Asta-asta pəncərəyə yaxınlaşdım. Cürətlənib pərdələri araladım. Orada heç kəs yox idi. Hətta ayaq səsləri də. Elə düşündüm ki, kimdirsə, səsimizi eşidib qaçmışdır. Qayıdıb yerimə uzandım. Ancaq yenə yata bilmədim. Gözümü pəncərəyə zilləyib bayıra baxırdım. Dəniz indi nisbətən sakit idi: gecəki uğultu həzin melodiya ilə

əvəz olunmuşdu. Hava get-gedə açılmağa başlayırdı. Səhərin açılmasına tamaşa edib hər şeyi unudurdum. Birdən yenə kimsə pəncərəni itələdi. Tərəddüd etmədən çarpayıdan qalxdım, cəld pərdəni qaldırdım, yenə heç kəs gözümə dəymədi.

Heyrətlə çiyinlərimi çəkdim, Yenə çarpayıya uzandım. Yox, bu oğru deyildi. Burada bir sirr vardı. Belə düşüncələrlə məni yuxu apardı. Bir də dostumun qışqırtısına yerimdən dik atıldım. Dostum yorğana bürünmüş halda mənə baxdı:

– Zalım oğlu yenə gəlmişdi, Pəncərəni taybatay açmaq istəyirdi. Bağrım yarıldı. Qışqırdım. Dur bax gör kimdir?

– Orada adam qalar?!

Hava indi tamam işıqlanmışdı Yaxınlaşıb, pəncərəni taybatay açıb çölə baxdım. Heç kəs yox idi. Lakin məni heyrətə gətirən başqa şey oldu: qarşımda gözəl, mavi, sakit bir dəniz açıldı. Xoş, sərin hava içəri doldu. Dəniz səthində kiçicik bir qabartı belə yox idi, dübbədüz idi, ləpələr sahilə astadan çırpılırdı. Elə astadan ki, səsi eşididlmirdi, köpüklənmirdi. Pəncərədən dənizə on, on-beş addım olardı.

– Dur, dur ayağa, – deyə dostumu səslədim.

– Nə görmüsən orda, qurumusan elə...

– Dur, bax, gör nə gözəl dənizdir...

Geyinib dərhal dənizə qaçdım. Hava nə qədər təmiz, nə qədər xoş idi. Doyunca nəfəs aldım. Bu vaxt sahildəki narın qumun üstündə qoşa izlər nəzərimi cəlb etdi. Bu izlər düz bizim pəncərəmizin yanından başlayırdı, sonra sahilə doğru gedirdi. Dostum gəldi, ona da bu izləri göstərdim. O da heyrətlə dənizə və izlərə baxdı.

Dostum foto-müxbir idi, fotoaparatını da çiyninə keçirməyi unutmamışdı. İzlər qumun üstsndə elə aydın, elə gözəl görünürdü ki, incə naxışa bənzəyirdi.Dostum bu qoşa izlərin şəklini çəkdi.

Bu vaxt çox-çox uzaqda bir ceyran göründü. Dənizdən aralıda, uca təpənin üstündə ceyran! Qəribə idi, qoşa izlər o təpəyə doğru gedirdi. Aha, demək pəncərəni itələyən bu ceyran imiş! Neftçilərdən biri söhbətimizi dinləyib, qəhqəhə çəkdi:



– Sizin yatdığınız otaq ceyranlara baxan keşikçinin otağıdır. Ceyranlar ona çox öyrəşiblər. Elə sizin pəncərəni də itələyən ceyranlar olub. Otağa girmək istəyirmişlərş Bizim adanın ceyranları insanlardan qorxmurlar.

## ƏSGƏR ŞƏKLI

Səlimə albomu vərəqləyən anasının yanında dayanıb müxtəlif şəkillərə baxır və tez-tez suallar verirdi:

– Ana, bu kimdir?

Albomun arasında bir əsgər şəkli göründü. Səlimə cəld şəkli götürüb, diqqətlə baxdı, anasından soruşdu:

– Ana, bəs bu əsgər əmi kimdir?!

Ana cavab vermədi. Kədərlə başını aşağı dikdi. Qızının sualını eşitməmiş kimi xeyli müddət belə qaldı. Səlimə isə ondan əl çəkmədi, yenə sualını təkrar etdi. Ana xəyalından ayrılıb qızının üzünə baxdı, bilmədi ona nə cavab versin. Nəhayət, dedi:

O, mənim qardaşımdir... Dayın Zöhrabdır...

Bəs Zöhrab dayım hanı, niyə bizə gəlmir?!

– Çünki o, uzaqdadır... Çox uzaqdadır... Gələ bilmir... O, igid və qorxmaz əsgər idi. Faşistlərlə döyüşürdü.

– Faşist öldürüb?

– Hə, qızım, öldürüb. Yaxşı atıcı idi. Düşməni elə nişan alırmış ki! Onun gözündən heç nə yayınmırmış. Orden vermişdilər. Qəhrəman olmuşdu. Hamı ondan danışırdı.

– Gəl, məktub yazaq, bizə qonaq gəlsin.

– Yox, qızım, o gələ bilməz.

– Niyə?!

Ana kədərlə gülümsündü, üzının saçlarını sığallayıb dedi:

– Ona görə ki, daha həyatda yoxdur. Onu faşistlər öldürüblər.

Səlimərin üzü ciddiləşdi. Əlindəki şəkli bir də diqqətlə süzdü. Şəkildən mehriban, gülərüz, nazikbığlı, çatmaqaşlı cavan gülümsəyirdi. Səlimə baxdı... baxdı....

...Ana bir dəfə otağa girəndə gördü ki, kimsə şkafı açıb albomu çıxarmışdır. Albomu götürüb vərəqlədi. Birdən heyrətləndi. Əsgər şəkli yox idi. Düşündü ki, onu kim götürüb? Uşaqları səslədi. Onlar gəldilər.

– Zöhrab dayının şəklini kim götürüb?

– Mən götürməmişəm.

– Mən də götürməmişəm.

– Bəs kim götürüb, şeytan götürüb?!

Nədənsə Səlimə gəlməmişdi, o biri otaqda idi. Bütün bu söhbətləri eşitsə də, səsini çıxarmırdı. Bu dəfə ana Səliməni çağırdı. Səlimə yavaş-yavaş gəlib, qapının yanında dayandı.

– Dayının şəklini sən götürmüsən?!

Səlimə dinmədi, altdan-altdan anasına baxdı. Deyəsən qorxurdu. Ona görə də susurdu. Hətta qızarıb başını aşağı dikdi. Ana səbirlə xeyli gözlədi, sonra:

– Niyə dinmirsən?! – deyə mehribancasına soruşdu – hanı şəkil?!

– Mən götürmüşəm.

Ana heyrətləndi:

– Sən?!

– Bəli. İndi gətirib verərəm.

Səlimə o biri otaqdan şəkli gətirib anasına verdi.

– Nə üçün götürmüşdün, qızım?!

Səlimə dinmədi, Ana bir şey başa düşməyib çiyinlərini çəkdi. Şəkli ondan alıb albomun içinə qoydu.

Bu hadisədən bir neçə ay sonra bir dəfə qapı döyüldü, poçtalyon uşaqlar üçün təzə jurnal gətirdi. Səlimə jurnalı alan kimi diqqətlə vərəqlədi, sevinc içində qışqırdı:

– Zöhrab dayım... Zöhrab dayım...

Ana heyrətlə qızına baxdı. Bir azdan hər şey məlum oldu. Səlimə dayısının albomdan götürdüyüşəklinə baxıb bir rəsm çəkmişdi və onu jurnal redaksiyasına göndərmişdi. İndi həmin rəsm çap olunmuşdu. Rəsmin altında “Mənim əsgər dayım” yazılmışdı. Səlimə sevindiyindən quş kimi uçmaq istəyirdi. Ana qızının bu qəribə hərəkətindən həm kövrəlmiş, həm də heyrətlənmişdi. O,



şəklin albomdan götürülməsinin səbəbini ancaq indi bilmişdi. Səliməni yanına çağırdı:

– Bunu niyə məndən gizlin saxlayırdın?!

Səlimə bir müddət susdu. Sonra dedi:

– İstəyirəm ki, bu şəklə baxanda sən sevinəsən... Elə biləsən ki, Zöhrab dayım sağdır.

Ana qızını bağrına basdı.

## ANA QAĞAYI

Qoca balıqçı qayığın burnunda əyləşib, mənim avar çəkməyimə bığaltı gülürdü. Hərdənbir göstəriş verir, avarlardan məharətlə istifadə etməyin yollarını öyrədir, gah da başqa balıqçılardan danışırdı. Körfəzin ucu-bucağı görünmürdü. Avarların şappıltısı olmasaydı, elə bilərdin ki, bu körfəz yamyaşıl bir şüşədir.

Sahil boyundakı hündür ağacların düzümü sularda əks edirdi. Körfəzin o tərəfini hasar kimi sıx qamışlıq tutmuşdu. Buna görə körfəz çaya bənzəyirdi: yamyaşıl, sakit bir çaya. Qamışlıq qurtaranda genişlik açıldı, yaşıl şüşə günəşin altında par-par parıldadı. Genişliyin sağ tərəfində dəyirmi ada kimi qamışlıq vardı. Balıqçının göstərişi ilə qayığı bu qamışlığa tərəf sürdüm. Uzaqdan baxanda bura təzəcə boy atmış səməniyə bənzəyirdi.

Avar çəkdiyim üçün suya əhəmiyyət verməmişdim. Qayıqdan aşağı boylananda göz yaşı kimi dupduru, saf suların dibindən qalxan yamyaşıl otları, kolları gördüm. Elə bil vertolyotun pəncərəsindən meşəyə baxırdım. Balıqçı avarları əlimdən alıb:

– Get yuxarı başa, qayığın burnunda otur, – dedi. – Nə qədər istəyirsən sulara bax.

Qayıq sürətlə irəliləyib, qamışlığa yaxınlaşan bir qağayı başımızın üstündən uçub həyəcanla çığırdı. Balıqçı quşa əhəmiyyət vermədən ustalıqla avar çəkirdi. Qağayı başımızın üstündə dövrə vurub bərkdən səslənirdi. Onun belə həyacanlanması məni heyrətləndirdi. Hündür qamışların tündçəhrayı qozaları vardı. Bu qamışlara bazanda adama elə gəlirdi ki,

gözəgörünməyən əsgərlər suların altından min-min yaşıl nizəni göyə qaldırmışlar.

Qayıq qamışlığın içinə girdiyindən balıqçı avarları sudan çıxartmışdı.

– Hə, bu da yaşıl duman! – deyə avarın birini dəmir həlqədən çıxartdı.

– Hanı yaşıl duman?

– Görmürsən?! Dörd tərəfimiz yaşıllığa bürünüb.

Balıqçı qayığın arxa tərəfinə keçib avarı suya batırır, yavaş-yavaş sürürdü. Bəzi bir cərgə dayanmış qayığın təsirilə yana əyilirdi. Yenə qağayı başımızın üstündə göründü, yenə bərk-bərk çığırmağa başladı. Əvvəl qamışlığın çox sıx olduğunu güman edirdim, amma indi aydınca seçilən bir cığırın və meşədəki qala kimi dəyirmi, boş sahənin olduğunu gördüm.

Qayıq qamışların arası ilə yavaş-yavaş irəliləyirdi. Bu zaman qağayı həyəcanla aşağı şığıdı, çığıra-çığıra ətrafımızda fırlanmağa başladı. Balıqçı qayığı cağ tərəfə döndərdi, qamışlığın ən sıx yerində saxladı. Avarı qamışların arasına uzatdı. Tez-tez əyilir, əli ilə nəsə axtarırdı.

– Görək nemətimiz nə qədərdir?

Balıqçı suyun içindən uzunsov bir tor çıxartdı. Torda çoxlu balıq çırpınırdı. Torun bir ucunu əlində açdı, balıqları bir-bir götürüb qayığa atdı. Qayığa düşən balıqlar çırpınır, çapalayır, sonra sakitləşirdi.

Bir az irəli getmişdik ki, qağayı yenə üstümüzə cumdu. Bu dəfə daha bərkdən qışqırır, sağımızdan, solumuzdan uçub keçir, açıq-açığına hücum edir, bizi irəliyə getməyə qoymurdu. Məni bir az maraq, bir az da qorxu hissi bürüdü. Axı, bu qağayı nə üçün belə edirdi, ona nə olmuşdu? Qağayının belə çılğınlıqla hücumu səbəbsiz deyildi. Qoca balıqçı avarı suya batırır, qayığı irəliyə itələyirdi. Qağayı isə bizdən əl çəkmir, səsdən qulaq tutulur, elə həyəcanla, elə bərkdən çığırırdı ki, sanki qarşıda nəsə təhlükə vardı

Balıqçının vecinə deyildi, qağayı üstümüzə cumanda avarı yuxarı qaldırıb onu qovurdu.



– Yazıqdır, vurmayın, – deyirdim.

– Görmürsən, nə oyun çıxarır?

– Nitə belə edir?

– Yəqin hardasa balası var.

– Daha niyə çığırır?!

– Qorxur, ona görə...

Qamışların arası elə daraldı ki, qayıq sağ və sol tərəfdəki bu qamışları əydi. Qağayı özünü öldürürdü. Qanadlarını çırpa-çırpa, çığıra-çığıra başımızın lap üstündə dövrə vururdu. Bu dar yerdən keçəndən sonra qamışlığın gölə bənzəyən dəyirmi sahəsi açıldı. Burdakı suyun üstü kiçik yarpağa bənzəyən açıq-yaşıl rəngli çiçəklərlə dolu olduğundan naxiş-naxiş idi, bəzən bu yaşıllığın arasından inciçiçəyinə bənzəyən çiçəklər ağarırdı.

Qağayı çığıra-çığıra üstümüzə cumur, bir an belə sakit olmurdu. Balıqçı hirslənib ətrafa göz gəzdirdi:

– Yazıq quşcuğaz! – dedi, – dərdi varmış! Yumurtalarına bir bax!

– Hanı?

Məni bürüyən maraq daha da artdı.

– Odur, qamışlığın arasında.

Balıqçının göstərdiyi tərəfə baxdım. Çürümüş mamırın üstündə fındıq boyda bir-iki yumurta gördüm. Yazıq ana qağayı! Onun həyəcanı bizə aydın olanda ürəyimizdə ağrı duyduq və burdan tezliklə uzaqlaşmaq istədik. Mən də ikinci avarı götürdüm. Qoca balıqçıya kömək etməyə başladım. Biz taladan uzaqlaşdıqca qağayının çılğınlığı soyuyurdu. İndi aşağıya enmir, yuxarıda – başımızın üstündə fırlanır, aramsız səslənirdi.

Qayıq qamışlıqdan çıxıb yenə kprfəzin geniş sahəsinə çatanda, qağayı daha dalımızca gəlmədi.O, qamışlığın üstündə sakit-sakit uçurdu.

## QƏHRƏMANIN HEYKƏLİ

Kamilə “Uzaq sahillərdə” filmlnə baxandan saonra böyük qardaşı Səlimdən soruşdu:

– Mehdi Hüseynzadəni tanıyırsan?

– Əlbəttə tanıyıram.

– Onun haqqında filmə baxmısan?

– Baxmışam.

– Mən də onun kimi qəhrəman olmaq istəyirəm.

– Kim, sən?! – Səlim kitabdan ayrıldı. Təəccüblə arıq, ağbəniz bacısına baxıb ucadan güldü. – Səndən qəhrəman olar? Sən ki, pişikdən də qorxursan? Qəhrəman ha... Həm də Mehdi kimi. Özünə bir bax, arıq bir qızsan.

– Niyə gülürsən? Zoya da arıq qız idi...

– Ancaq qoçaq idi. Kinoda gördün Mehdi nə qədər faşist öldürdü? Gördün, görmədin?

– Gördüm!

– Sənsə heç güllə də ata bilmirsən!

– Nə olar, öyrənərəm də...

– Ay öyrəndin ha...

Bu söhbətdən bir neçə gün sonra Kamilə qardaşına bir albom göstərdi. Alboma Mehdi Hüseynzadənin şəkilləri toplanmışdı. Səlim onlara baxıb güldü:

– Yenə də Mehdi kimi qəhrəman olmaq istəyirsən?

– İstəyirəm!

Səlim daha bərkdən güldü:

– Bum... Bum... Hə, qorxdun? Bəs güllələr vıyıldayanda nə edəcəksən, ay qəhrəman qız?!

Kamilə bərk hirsləndi, albomu ondan alıb qaşqabaqla yan otağa keçdi. Bir dəfə məktəb direktoru hamının yanında Kamiləni təriflədi, dedi ki, qoçaq qızdır, “Qoçaq ha!” Səlim qulaqlarına inanmaq istəmədi. Sən demə, Kamilə birinci sinif uşaqlarını hər gün evlərinə aparib ötürür. Bir neçə gün sonra bacısını televizorda çıxışını gördü. Sonra onun Mehdi Hüseyhzadənin heykəlinin açılışında şer dediyini, bir dəstə gül-çiçəyi heykəlin qarşısına qoyduğunu gördü.



Səlim evdə Kamilənin ondan incik gəzdiyini duyurdu. Zarafatla deyirdi:

– Deyəsən yavaş-yavaş qəhrəman olursan, Kamilə?

Mehdi Hüseynzadənin heykəlinin qarşısında bir dəstə məktəbli sıraya düzülmüşdü. Onların arasında Kamilə da vardı. O, bu gün pioner sıralarına qəbul olunurdu. Səlim pionerlərin cərgəsində dayanıb arabir bacısına baxırdı. Kamilə heykəlin qarşısına çıxdı. Pionerlərin təntənəli vədini dedi. Sonra üzünü sinəsi ordenlə bəzənmiş qoca generala tutub həyəcanla şer oxudu:

İstəyirəm bu heykəli
Gül-çiçəklə bəzəyim mən,
İstəyirəm Mehdi kimi
Qəhrəmana bənzəyim mən!

Hamı əl çaldı. General Kamiləyə yaxinlaşıb pioner qalstukunu onun bonuna bağladı, Sonra qızın alnından öpərək dedi:

– Sağ ol, qızım, sənin ki ürəyində belə böyük bir arzun var, deməк, sən öz arzuna çatacaqsan!

Kamilə qızların yanına qayıdanda gözü Səlimə sataşdı. Səlim Mehdi Hüseynzadənin əzəmətli heykəli yanında durub əlini qaldırır, uzaqdan-uzağa bacısını təbrik edirdi.

## DALĞALAR

Faiq körpüdən keçib, katerin göyərtəsinə çıxanda bir qızın qaça-qaça ona yaxınlaşdığını gördü. Qız körpüdən keçmək istədi, ancaq qorxub geriyə çəkildi. Faiqə baxdı, gülüb dedi:

– Qorxuram, mənə kömək et, körpünü keçım.

Faiq cəld irəli atıldı, Ayağını körpüyə qoyub əlini uzatdı, Qız onon əlindən tutub, yavaş-yavaş keçdi. Elə ki, göyərtəyə çatdı, – sağ ol, – deyib gülə-gülə əlini buraxdı və katerin o başına qaçdı. Ağ şuba geymiş, başına ağ tüklü papaq qoymuş bu uzun-

boylu qızın çəkmələri, corabları da ağ idi. Qar qıza bənzəyirdi. Faiq gördü ki, qız əl edib onu yanına çağırır. Getdi.

– Sənin adın nıdir? – deyə qız soruşdu.

– Faiq.

– Mənim adım Süsəndir. Neçənci sinifdə oxuyursan?

– İkinci sinifdə.

– Mən də!

– Sən kapitanın qızısan?

– Hə, niyə elə baxırsan, inanmırsan?

– İnanıram.

– Bəs sənin atan kimdir?

Faiq bu suala cavab vermək istəyəndə motor səsi eşidildi, katerin hisli bacasından qara tüstü qalxdı, güclü fit səsi qulaqları batırdı. Kater yavaş-yavaş sahildən aralandı, limanin yanından keçib dənizə çıxdı. Süsən "Gedirik, gedirik!" – deyə sevindi, atılıb-düşdü. Katerin dəmir məhəccərinə söykənib dənizə baxdı. Günəşin altında bərq vuran dəniz gözəl və füsunkar idi, güzgü kimi par-par parıldayırdı. Uzaqda üfüqlərdən başqa heç nə görünmürdü. Katerin burnunda sular ağappaq şəlalə kimi qaynayır, ətrafa yayılıb yox olur, yenidən yaranırdı. Dənizdən xoş və sərin külək əsirdi.

– Faiq, söhbət eləsənə, nə yaman qaşqabaqlısan, marka toplayırsan?

– Yox, mən Azərbaycan şairlərinin şəkillərini toplayıram. İki albomum hazırdır.

– Səndə bütün şairlərin şəkli var? Mirvarid Dilbazinin də?

– Bəli, hamısının...

– Afərin. Bizim oktyabryat dəstəsi döş nişanları toplayır. Bilirsən, nə qədər döş nişanı yığmışıq... Saymaqla qurtarmaz... Mən də Xəzər dənizinə səyahətim haqqında yığıncağımızda hamıya danışacağam.

Qarşıdan bir kater gəlirdi. Göyərtədə fəhlələr vardı. Onlar uşaqlara əl elədilər. Süsən də əlini qaldırdı. Kater ötüb keçdi. Hamı gülsə də, Faiq gülmədi. Süsən oğlana baxıb dedi:

– Bəsdir belə qaşqabaq tökdün...



Faiqin yenə gülmədiyini görüb əlini-əlinə vura-vura "qaraqabaq, qaraqabaq" – deyə atılıb-düşdü. Faiq üzünü ondan çevirdi. Qız bu dəfə də dənizə baxanda heyrətlə geri çəkildi:

– Oy, dəniz necə dəyişib! – dedi, – O görünən nədir?

– Külək qalxıb. Dalğalar köpüklənir...

Dənizin sinəsində tez-tez dalğalar ağarırdı. Süsənlə Faiq dalğalara baxmaqdan yorulub buradan çıxdılar. Hava xeyli soyumuşdu. Kater aşağı enib-qalxırdı. Bu, uşaqların xoşuna gəldi. Süsən qışqırdı:

– Yelləncəkdir... Nə yaxşı!

Göyərtədə içi su ilə dolu vedrə vardı. Kimsə balıq tutub vedrəyə salmışdı. Süsən vedrəni görüb dedi:

– Faiq, balıqlara bax... bir... iki... düz beş dənədir.

Kapitan gəldi. O, ucaboylu, sağlam, gümrah bir kişi idi. Əynində qara pencək, başında da qara papaq vardı. gülə-gülə uşaqlara yaxınlaşdı:

– Hə, nə yaxşı dostlaşmısınız... Bax, buna varam.

– Ata, biz də balıq tutmaq istəyirik.

Olmaz, qızım. Vedrədəki suyu dəyişmək lazımdır. Yoxsa balıqlar ölər.

Kapitan ip bağlanmış başqa bir vedrəni götürdü, ipin bir ucundan tutub vedrəni dənizə atdı. Dərhal da çıxartdı. Uşaqlar maraqla ona baxırdılar. Göyərtəyə vedrədən su dağıldı. Kapitan dedi:

– Hə, qoçaqlar, balıqları bura salın...

Süsən əvvəl qolunu çirmələdi, əlini suya saldı. Balıqları tuta bilmədi. Birini tutub elə qışqırdı ki, səsi aləmi götürdü. Ancaq onu saxlaya bilmədi, balıq sürüşüb yenə suya düşdü. Süsən gülür, qışqırır, "sürüşür, tuta bilmirəm", – deyə hey əlləşirdisə də, bir şey çıxmırdı. Faiq çətinlik çəkmədən balıqları bir-bir götürüb vedrəyə saldı. Bir balıq çox halsız idi, bura düşən kimi dərhal canlandı, üzməyə başladı. Süsən onun belə canlanmasına sevindi, şən-şən güldü.

Bu vaxt kater dənizin ortasında ucalan buruğa tərəf gedirdi. Uşaqlar katerin burnundakı skamyada oturub buruğa baxırdılar. Süsən soruşdu:

– Buruğu dənizdə necə qurublar?

– Kranlarla... Əvvəl meydança düzəldiblər. Sonra da o buruğu qoşa gəmidə gətiriblər. Bilirsən, qoşa gəmiyə nə deyirlər? Katamaran.

– Sən bunları haradan bilirsən?

– Bizi səyahətə aparanda görmüşəm. Bir dəfə Xərə-Zirə adasında neftçilərin qonağı olmuşuq. Usta Məlik vardı. Buruğun başına çıxmaq üçün ondan icazə aldım.

– Qorxmadın?

– Yox! Buruğun lap başına çıxdım.

Süsən dənizin ortasında dağ kimi ucalan buruğa baxanda gözlərində heyrət doğdu:

– Gör hara çıxmısan!

Kater həmin buruğun paslı, polad dirəklərinə yan alan kimi uşaqları səsləyib kənara çəkdilər. İri kəndirləri o tərəfə atıb dirəklərin başına keçirdilər. Kater yırğalanır, sakit dayana bilmirdi. Körpü qoyuldu, fəhlələr katerə doluşdular. Avadanlıqları buruğun meydançasına boşaltdılar. Bundan sonra kater yavaş-yavaş aralandı və buruğa tərəf yol aldı. Üfüqün yaxınlığında uzun, qara xətt görünürdü. İşıq məftilləri də uzanıb gedirdi. Süsənə bütün bunlar qəribə gəlirdi. O elə bilirdi ki, dənizdə heç nə yoxdur. Elə gedəcək, gedəcək, dalğalardan başqa heç nə görünməyəcəkdir. İndi isə...

Faiq əlini qarşıdakı adaya uzadıb:

– Xərə-Zirə adasıdır, – dedi, – adanın yanında nöqtə kimi görünən buruq isə usta Məlikin buruğudur. Kater indi ora gedir. Usta Məlik bizim məktəbə görüşə gəlib. Hamı onu çox istəyir. Bilirsən, necə yaxşı adamdır?!

Kater buruğa çatanda əvvəlki işlər yenə təkrar olundu. Birdən pillələrin aşağısında sarı plaşlı bir kişi göründü. O, kapitanla danışdı. Faiq onu Süsənə göstərib:



– Usta Məlikdir! – deyə sevinc içində qışqırdı. Bu zaman usta da Faiqi gördü, dərhal tanıdı, əlini yelləyib:

– Salam, oğlum, – dedi, – bütün dostlarına məndən salam yetir.

Kater burdan uzaqlaşanda Süsən Faiqdən soruşdu:

– Bu buruq neft verir?!

– Yox, qazırlar, neft alacaqlar.

– Sən də neftçi olmaq istəyirsən?

– Bilmirəm, istəyirəm ki, qəhrəman olum.

– Usta Məlik qəhrəman deyil?!

– Qəhrəmandır, döşündə ulduzu var. Moskvaya gedib, qurultaya.

Süsən Faiqə yenə suallar verdi: gah dənizdən, gah adadan, gah buruqlardan, gah da balıqlardan. Faiqin yarpağa oxşayan balıqlardan xəbəri yox idi. Süsən coşğunluqla, həvəslə bu balıq haqqında məlumat verdi. Birdən onların gözü önündə bayaq qara xətt kimi görünən uzun bir estakada açıldı. Bu estakadada maşın gedirdi, ev də, buruqlar da vardı. Süsən Faiqdən soruşdu:

– Bura Neft daşlarıdır?

– Yox! Neft daşları deyil. Bizim dənizdə belə yerlər çoxdur. Lap çoxdur.

Kater estakadanın altından keçəndə Süsən başını qaldırıb heyrətlə baxdı:

– Oy... dənizdə bunları necə tikiblər? Necə də uzundur, sən hamısını görmüsən?

– Yox, görməmişəm. Atam danışıb.

– Bəs sənin atan kimdir, harada işləyir?

– Kapitandır.

Süsən ona inanmayıb güldü:

– Yalan deyirsən. Əgər atan kapitandırsa, niyə onun katerinə minmirsən?

Qız Faiqin tutulduğunu, qaşqabaq tökdüyünü görüb cəld söhbəti dəyişdi:

– Sənə mahnı oxuyum? Dinləmək istəyirsənmi?

– İstəyirəm.

Kapitan gəlib uşaqlara xəbər verdi ki, kayutaya düşsünlər. Çünki bir azdan bərk gülək qalxacaqdır, göyərtədə dayanmaq qorxuludur. Süsən də, Faiq də getməyib dayandılar. Çünki dənizə, dalğalara baxmaq istəyirdilər. Kapitan onların arzusunu bilib, sükançının yanına apardı və dedi:

– Pəncərədən baxın.

Katerin yırğalanması get-gedə güclənməyə başladı. Dalğalar xeyli hündürə qalxırdı. Xırda, ağ damlalar göyərtəyə səpələnirdi. Süsən həyəcanlanmağa başladı. – Qorxuram – deyə Faiqə sığındı. Ancaq Faiq sakit-sakit dənizə baxır, nə barədəsə düşünürdü.

– Qorxma, Süsən, qorxma, – deyə qıza ürək-dirək verdi. – Bax, dalğalar necə gəlir!

Dalğalar katerin yan-yörəsinə çırpılır, geri qayıdır, sonra hücum çəkir, ağ köpüklər bir-birinə qarışır, yox olur, hər şey yenidən başlayırdı. Kater gah aşağı enir, gah da yuxarı qalxırdı. Kapitan uşaqlara yemək gətirdi. Çörək, balıq, göy-göyərti... Uşaqlar iştahla yeyir, dənizə baxırdılar. Sonra onlara çay verdilər.

Onlar sahilə çatanda Süsən sevincindən qışqırdı. Kater körpüyə yan alanda elə bil hava sakitləşmişdi. Elə ki, körpüyə çıxdılar, Faiq görüşüb onlardan ayrıldı. Süsənin atası qızdan soruşdu:

– Faiq sənin xoşuna gəldi?

– Gəldi, yaxşı oğlandır. Ancaq yaman qaraqabaqdır.

– Bunun səbəbi var, qızım. Onun atası əvvəl bu katerin kapitanı idi. Cəsur, mərd, gözəl kapitanı.

– Bəs indi hardadır?

– Böyük gəmidə kapitandır.

– Böyük gəmidə?! – deyə Süsən heyrət içində soruşdu, – daha Faiq niyə kədərlənir?

– Çünki Faiqin atası çox uzun səfərə çıxıb, dörd aydır ki, dənizdədir. Faiq atası üçün darıxır. Anası məndən xahiş etdi ki, onu da katerə götürüm, bir az fikri dağılsın. Mən də razılıq verdim. Faiq atasını çox sevir, lap çox. İndi ürəyi elə kövrəlib ki!

Süsən kədərlənib astadan dilləndi:

– Mən ona inanmamışam, atasının kapitan olduğunu deyəndə gülmüşəm də.



O nə düşündüsə, qızarmış halda:

– Faiq... Faiq... – deyə irəliyə qaçdı. Yəqin ki, ondan üzr istəmək fikrində idi. Lakin gecikmişdi. Faiq adamların arasında gözdən itmişdi.

Bu hadisədən bir neçə ay ötmüşdü. gözəl yaz günlərindən birində Süsən atasının əlindən tutub dəniz kənarı ilə yavaş-yavaş gedirdi. Fəvvarənin yanından keçərkən dayandılar. Yuxarı qalxan sular bir dəstə ağ çiçək kimi görünür, şırıltı ilə yenidən hovuza tökülürdü.

Süsən birdən hovuzun o tərəfində Faiqi gördü. Faiq yanında dayanmış iricüssəli, ucaboylu, kapitan formalı bir kişiyə fəvvarəni göstərib şən-şən gülürdü. Qız qışqırdı:

– Salam, Faiq!

Faiq Süsəni görüb, gülə-gülə irəli gəldi, əlini uzadıb onunla görüşdü. Bu zaman ataları qollarını açıb, fərəhlə qucaqlaşdılar. Süsən Faiqə baxıb:

– Atandır? – deyə xəbər aldı.

Faiq qürurla dedi:

– Bəli, atamdır. Səfərdən təzəcə qayıdıb. Gedək, dənizə baxaq. Gəl.

Onlar dənizin lap yaxınlığında dayandılar. Faiq dedi:

– Heç dalğa yoxdur.

– Biz katerdə olanda böyük dalğalar vardı.

Eh, onlar nədir ki! Atam deyir, okeanda daha böyük dalğalar olur. Bax, şəhərdəki evlər boyda.

Ataları qol-qola tutub sahildə gəzməyə başlayanda, uşaqlar da gülə-gülə onların dalınca gedirdilər.

## MUZEY

Rayon mərkəzində kərpicdən hörülmüş ikimərtəbəli, şüşəbəndli bir bina vardır. Əvvəllər bu bina heç kəsin nəzər-diqqətini cəlb eləməzdi. Sonralar vaxtilə burada yaşamış bir qəhrəmanın adı-sanı eldən-elə dolaşdı və bu bina ilə hamı maraqlanmağa başladı. Tezliklə bina qəhrəmanın ev-muzeyinə çevrildi. İndi bura gündə nə qədər adam gəlirdi!

Qonşuluqda yaşayan Şükufə həmişə evlərinin pəncərəsindən bu binaya, gəlib gedənlərə baxardı. O, ağappaq, yumru sifətli bir qız idi. Totuq yanaqları zanbağa bənzəyirdi. İri, qara gözləri vardı. Danışanda tələsməz, sözləri şirinliklə, xoş bir məlahətlə deyərdi. Şükufə bu bina ilə maraqlanır, onu görmək istəyirdi:

– Ana, məni ora apar.

– Eh, qızım, vaxt hardadır? Heç balaca qardaşına baxa bilmirəm.

– Onda qoy özüm gedim.

– Nə danışırsan, qızım, elə şey olar?

– Gör nə qədər adam gəlir... Çox...

O bina Şükufə üçün sehrli, maraqlı bir yerə çevrilmişdi. Gücü ancaq pəncərədən baxmağa çatırdı.

Bir dəfə böyük bir avtobus gəldi. Avtobus onların evlərinin yanında dayandı. Maşından düşənlərin hamısı o binaya, qəhrəmanın ev-muzeyinə getdilər. Onların əllərində çiçək, bloknot, karandaş, fotoaparat görünürdü. Şükufə daha çox maraqlandı, pəncərəni taybatay açdı, şəbəkəyə söykəndi və baxmağa başladı. Avtobusun sürücüsü maşından düşüb kölgəliyə çəkildi, birdən Şükufəni gördü:

– Niyə pəncərəyə çıxmısan? – deyə gülümsünüb soruşdu.

Şükufə dodağını dişləyib çiyinlərini çəkdi.

– Dilin yoxdur?!

– Var!

– Məktəbə gedirsən?

– Yox!

Bu vaxt muzeydən qayıdan bir dəstə adam Şükufəni bir-birinə göstərir, nəsə qızğın söhbət edirdi. Gülə-gülə yaxinlaşdılar, sürücünün köməyi ilə qızın adını, yaşını soruşub bloknotlarına yazdılar. Bir neçəsi fotoaparatını işə saldı. Avtobus yola düşəndə hamı pəncərədən Şükufəyə baxır, əl edirdi. Qızın yanaqları allanmışdı.



Bu hadisədən bir müddət keçdi. Bir dəfə Şükufə ev-muzeyə baxmaq üçün anasından icazə ala bildi. O, muzeyin qapısına yaxınlaşdı, yavaş-yavaş içəri girdi. Gördü ki, stolun arxasında eynəkli bir qoca arvad oturub, nəsə yazır. Şükufə ətrafa göz gəzdirdi. Divarlara çoxlu şəkil vurulmuşdu. O, hərbi paltarda, cavan bir əsgərin şəklinə baxmağa başladı. Çiyinləri paqonlu, döşü orden və medallarla dolu olan bu əsgər Şükufənin xoşuna gəldi. "Yəqin qəhrəman budur" – deyə ürəyində fikirləşdi. Eynəkli arvada tərəf baxdı. Qoca onu hələ görməmişdi, bərk məşğul idi. Şükufə:

– Xala... – deyə qorxa-qorxa dilləndi.

Qoca arvad başını qaldırıb heyrət içində ona baxdı.

– Sən kimsən?! – gülə-gülə soruşdu.

– Şükufə...

– Çox gözəl, səni nə maraqlandırır, Şükufə?

– Baxmaq istəyirəm.

– Tək gəlmisən?

– Bəli!

– Nə əcəb səni tək buraxıblar?

– Evimiz burdadır, yaxında... Anam icazə verdi.

– A... belə de! Onda buyur, bax! Nəyi başa düşməsən soruşa bilərsən.

– O kimdir?! – Şükufə əlini uzadıb bayaq baxdığı şəkli göstərdi.

– O qəhrəmandır, Sovet İttifaqı Qəhrəmanı. Həm də mənim oğlumdur.

Şükufə qulaqlarına inanmadı, gah şəklə, gah da eynəkli qoca qadına baxdı.

– Bəs o hanı?!

Bayaqdan gülə-gülə danışan qoca qadın bir an susdu, hərəkətsiz qaldı, sonra əyilib əllərini Şükufənin ağ, totuq yanaqlarına toxundurdu, kədərlə gülümsünüb dedi:

– Gəl, gedək şəkilləri göstərim sənə.

O vaxtdan Şükufə ilə qoca qadın dost oldu. Qız tez-tez muzeyə – onun yanına qaçır, köməklik göstərir, söhbət edir, gələnləri qarşılayır, gedənləri yola salırdı. Çox zaman qoca arvadla birlikdə otaqları gəzir, tamaşaçılara necə məlumat verməsini dönə-dönə dinləyirdi. Qadın çox mehriban bir insandı. Şükufəyə nələr danışmırdı; nağıl da, əfsanə də, hekayə də. Qız isə ondan elə hey qəhrəman haqqında soruşurdu:

– Xala... o neçə tank yandırıb?

– Çox... sayını bilmirəm.

– Mənə ondan danış, xala...

– Bax, üçüncü otaqda, şüşə altında onun əsgər məktubları var. Bu məktubları mənə cəbhədən göndərib: başına nə gəlibsə, hamısını yazıb. Həmişə də qayğıma qalıb. Bütün məktublarının axırında "özündən muğayat ol, ana" sözlərini yazmağı unutmayıb. Aman-zaman bir oğlum vardı, qızım! Əsgər gedəndə lap uşaq idi; nazik, arıq, uzun, ağappaq bir uşaq. Heç bığ yeri tərləməmişdi. Sonra dəyişdi, böyüdü, möhkəmləndi, qol-qanad atdı, bığ da qoydu.

– Hə, o şəkli görmüşəm, tankın yanında.

– Bir dəfə qəzetdə onun haqqında böyük bir məqalə çıxdı. O qəzeti göz bəbəyim kimi qoruyub saxladım. İndi şüşə altına qoyulub, görmüsən, necə köhnədir, sapsarı saralıb. Sonra Moskva qəzetlərində də şəkli verildi. Bir yazıçı onun haqqında yazdı. Onları da saxladım. Mənə cəbhədən həmişə şəkil göndərirdi, həmişə... O şəkillər də yığıldı bir alboma. İndi bax, bu muzeydədir.

– Xala, bəs o qız kimdir?!

– Hansı qız?!

– Ağpapaqlı...

– Hə, bildim. Oğlum yaralananda çəkdirdiyi şəkli deyirsən yəqin. Kim bilir, o qız ya həkimdir, ya şəfqət bacısı...

Beləliklə, Şükufə qəhrəmanin həyatını öyrənirdi. Hər dəfə gələndə ananın təzə söhbətlərinə qulaq asırdı. Günlər keçib gedirdi. Şükufə böyüyürdü. İndi o neçə il idi ki, məktəbli idi. Pioner



sıralarına keçmişdi. Ancaq muzeyi, eynəkli qoca arvadı heç zaman unutmur, yenə tez-tez yanına gəlir, söhbət edirdi.

Yenə bir dəfə, istirahət günü Şükufə muzeyə, qoca ananın yanına gəldi, gördü ki, o başını stola qoyub mürgüləyir. Şükufə asta-asta yaxınlaşdı. Birdən qızı görən qoca arvad başını ağır-ağır qaldırdı.

– Sənsən, Şükufə, nə yaxşı gəldin...

– Nə olub sənə, xala?!

– Xəstələnmişəm, qızım, özümü yaman pis hiss edirəm.

– Gedin evə, xala...

– Yox, qızım, muzeyi bağlamaq olmaz. Yaxşı deyil.

– Mən oturaram.

– Onda belə edək. Sən otur, qızım, mən həkimə dəyim, tez qayıdım. Yaxşı? Yoxsa heç dayana bilmirəm.

– Yaxşı!

Qoca arvad getdikdən sonra Şükufə stolun arxasına keçdi. Muzeydə bir-iki nəfər vardı, onlar da bir azdan otaqları tərk etdilər. Şükufə tək qaldı. O, stol arxasinda oturmaqdan darıxdı, həmişə gördüyü otaqları bir-bir gəzdi, yenə şəkillərə tamaşa etdi. Qapı yanında səs-küy eşıdıb, tələsə-tələsə geri qayıtdı. İçəri böyük bir dəstə dolmuşdu. Qabaqda dayanmış qara kostyumlu cavan hirsli-hirsli deyirdi:

– Heç kəs yoxdur, belə şey olar?!

Şükufəni görəndə hamını qəribə bir maraq bürüdü. Çoxusu güldü. Cavan isə daha da hirsləndi:

– Kim var burda?! – deyə bərkdən soruşdu. Onun səsi Şükufəni kövrəltdi, doluxsundu, astadan dilləndi:

– Mən!

Şükufə bu kəlməni elə ahəstə, elə təbii dedi ki, hamını yenə gülmək tutdu. Hətta hirsli cavan da gülümsündü.

– Yaxşı, bəs kim bizə məlumat verəcək?!

Şükufə canlandı, dərhal cavab verdi:

– Mən.

Gülüş daha da gücləndi. Totuq, ağyanaqlı, qaragözlü, balaca, qəşəng qızı hamı görmək istədi. Arxadan irəliyə can

atdılar, boylanıb Şükufəyə baxdılar. Bu balaca qızın məlumat verə biləcəyinə heç kəs inanmaq istəmirdi. Hirsli cavan da hər iki əlini yelləyə-yelləyə:

– İşə düşdük də! – deyə istehza ilə güldü.

Nə etmək, naəlac qalıb onun məlumat verməsinə razı oldular. Şükufə oxlovabənzər uzun göstəricini əlinə götürdü. Qəhrəmanin uşaqlığı, doğulduğu ili, kəndi, ata-anası, məktəbi, yoldaşları haqqında dəqiq, aydın məlumat verəndə hamını heyrət bürüdü.

– Afərin, balaca!

– Çox yaxşı danışır.

Axıra qədər belə davam etdi. Şükufə suallara da düzgün, yaxşı, aydın cavab verirdi. Sonuncu otaqda isə o kədərli idi, qəhrəmanın ən ağır, ən çətin günləri haqqında danışırdı. Hamı maraq içində onu dinləyirdi. Nəhayət, Şükufə başını aşağı dikib susanda kimsə sual verdi:

– Qəhrəman necə həlak olub?!

Qız birdən-birə dinmədi. Asta-asta başını yuxarı qaldırdı, hüzn içində dedi:

– Tankla birlikdə yanıb.

Dərin bir sükut çökdü. Bayaq hirslənmiş cavan Şükufənin saçlarını oxşadı. Kimsə totuq yanağını tutub ehmallıca sıxdı. Bir başqası çiyninə toxundu, bir başqası isə şəklini çəkdi. Sonra təşəkkürlər yağış kimi yağdı:

– Sağ ol, Şükufə!

– Əntiqə danışdın.

– Çox sağ ol, qızım!

– Afərin, balaca, afərin!

Şükufə onları həyətə qədər ötürdü. Həyətdəki avtobus gözdən itənə qədər gedənlərə əl elədi.

İllər keçdi. İndi eynəkli qadın həyatda yoxdur. Ancaq muzey durur. Daha da zənginləşib. Stol arxasında görünən gənc bir qız həmişə qonaqları qarşılayır, qəhrəman haqqında məlumat verir və onları yola salır. Yəqin ki, o qızın kim olduğunu bildiniz.



Axırıncı otaqda eynəkli qadının – qəhrəmanın anasının böyük şəkli də var. Şükufə bu qadın haqqında, ana haqqında hamıya ürək dolusu danışır.

## YAYLAQDA

Dağın ətəklərində, uzaqdan göbələklər kimi görünən beş-altı alaçıq vardı. Davud alaçıqların yanında dayanıb, Şirəli babanı səslədi. Alaçıqların birindən çoxqoca, ancaq zirək və diribaş, başında yekə, tüklü papaq bir kişi çıxdı.

– Sənsən, Davud?! – dedi, – mən burdayam, gəl içəriyə, orda dayanma, oğul...

Onlar alaçığa girdilər, yerə palaz döşənmişdi. Bir tərəfdə yorğan-döşək qalaqlanmışdı, bir tərəfdə isə çuvallar, müxtəlif bağlamalar, alətlər görünürdü. Yuxarıdan, divardan tüfəng asılmışdı. Başda samovar qoyulmuşdu. Şirəli babanın həmişə çayı olurdu. O, çaysız keçinə bilmirdi. Qoca, mütəkkəyə söykənib, balaca, qaraşın, enlikürək Davuddan soruşdu:

– Kənddə, ev-eşikdə nə var, nə yox?!

– Sağlığın, baba. Sədrimiz Bakıya getmişdi, qayıdıb gəlib. Təzə yolu çəkməyə başlayıblar. Kor quzu necədir?

– Elə əvvəlki kimi... Sən burda olmayanda ona mən baxmışam. Eh, yazıq heyvan... dilsiz, ağızsız...

Kənd məktəbində uşaqları müxtəlif briqadalara təhkim etmişdilər. Davud imtahanları verib Şirəli babanın yanına gələndə qoca çox sevinmişdi. "Balaca çobanım" – deyə bir gözü kor olan quzuya baxmağı ona tapşırmışdı. İki gün bundan əvvəl Davudu anasına dıymək üçün kəndə göndərmişdi. Odur ki, hər şeylə maraqlanır, oğlanı sorğu-suala tuturdu.

– Sədr bizə keçə verməli idi, bir söz demədi?!

– Dedi, baba. Tezliklə göndərəcək. Özü sənin yanına gələcək. Səndən nigarandır...

– Nahaq yerə... Qoca olmağıma baxma... Sağlamam. Canım bərkdir. Bu dağlar da həkimimdir. Heç nədən qorxmuram. Eh, oğul, Davud... Ömrüm bu dağlarda keçib, hələ azar-bezar

görməmişəm. Yaşım yüzdən çox olar. Dilimə dərman vurmamışam, vurmaram da. Sənə çay süzüm?

– Yox, baba. Bulaqdan su içmişəm. Buz kimi...

Axşama yaxın sürülər binəyə qayıdanda Pələng yüyürüb Davudun üstünə gəldi. Pələng çox bötük, qulaqları kəsik, sarı rəngli it idi. Çoban Yusif Davudu səslədi:

– Xoş gəlmisən, qoçaq... Gəl, sürüyə bax...

Davud yüyürüb gəldi, sağıma hazırlıq işləri qurtardıqdan sonra, Şirəli babanın göstərişi ilə sürüdən üç-dörd qoyunu ayırıb, alaçığa tərəf qovdu. Qotunlar burada sağılırdı.

Sağımdan sonra quzular sürüyə buraxıla bilərdi. Bu görüş səhnəsi Davudun ən çox sevdiyi bir səhnə idi. O, qoyunların qarşısından çəkilən kimi, sürü gur sel kimi axdı. Quzular da mələşə-mələşə onların üstünə cumdu. Bir səs qopdu ki! Bütün qoyun-quzunun səsindən elə qəribə bir ahəng yaranmışdı ki... Ana balasını, bala anasını axtarırdı. Bir quzu başını qoyunun altına salmağa çalışırdı. Qoyun isə balası olmadığı üçün onu yaxına buraxmırdı. Bir-birinə qovuşa bilməyənlər həyəcanla ora-bura qaçır, gah səhv salır, gah kənara çəkilir, yenidən axtarır, gah da tapıb sakitləşirdi. Analarını tapan quzular dizlərini qatlayıb, əmirdilər.

Birdən Davudun ürəyinə sanki bir iynə batırdılar. Tükü ağ xallı bir quzu o tərəf-bu tərəfə qaçır, anasını tapa bilmədiyi üçün yanıqlı-yanıqlı mələyir, bəzən dayanıb başını yuxarı tutur, yenə yüyürüb qışqırırdı. Ona cavab verən yox idi.

Davud hər yerə göz gəzdirdi. Ana qoyunu tapa bilmədi. Heyrətləndi. Bütün quzular analarını tapmışdı. Təkcə... Ağ xallı quzu mələyə-mələyə qalmışdı.

Davud Şirəli babanın üstünə yüyürdü. Baba onu sakitliklə qarşıladı:

– Heyrət etmə, oğul, dünən axşam sən olmayanda ana qoyun qayadan yıxılıb. Kəsmişik. İndi balasına süd vermək lazımdır. Ona da baxarsan...

– Yaxşı, baba...



Davud gəlib, yenə ora-bura qaçan, qorxu içində mələşən xallı quzunu çətinliklə tutdu, qucağına götürdü. Mərəkdə bir gözü kor olan quzu büzüşüb qalmışdı. Davud xallı quzunu gətirib onun yanına qoydu. Şüşəyə süd doldurub, əmzik keçirdikdən sonra onu xallı quzuya vermək istədi. Nə qədər etdisə də, götürmədi. Şirəli baba uzaqdan dedi:

– Hələ götürməz... O birinə ver...

Davud bir gözü kor olan quzunu yerdən qaldırdı, əmziyi uzadanda o, dərhal sormağa başladı. Davudun ona yazığı gəldi. Tükləri yumşaq, narın, qıvrım, ayaqları ceyran ayaqları kimi incə idi. Kor quzu şüşədəki südü içib qurtardı. Ağ xallı isə səsini kəsmir, elə yanıqlı-yanıqlı mələyir, süd içmirdi. Davud Şirəli babanın yanına getdi. Qoca uzun qəlyanına tənbəki doldururdu. Davudu görüb:

– A bala, – dedi, – gör, qoyunların birinə əmizdirə bilərsənmi?

Aman! Davud həmin gün əldən düşdü. Heç bir qoyun onu yaxına qoymurdu. Yad quzunu görən kimi dartınır, geriyə çəkilir, ya da başları ilə itələyirdilər. Sakit, hərəkətsiz dayanan qoyunlara isə ağ xallı quzu yaxınlaşmırdı. Səsini də kəsmirdi. Yanıqlı-yanıqlı mələyirdi.

Davud südü ovcuna töküb quzuya içirməyə çalışdı. A... deyəsən, indi içdi... Davud sevindi, axır ki, quzunu südlə doydurdu. Onu aparıb kor quzunun yanına qoydu.

Burdan çıxanda havanın qaralmaqda olduğunu, nəhəng dağın dumanda itdiyini, dərənin yuxarı başında dayanmış çobanı gördü. Nə qəribə mənzərə! Duman buğ kimi qalxır, çobanı tamamilə gizlətmək, öz qoynunda itirmək istəyirdi. Davud dərəyə yaxınlaşdı. Duman elə bil dərədən qaynayıb çıxırdı. Çoban Əhməd Davuda baxdı:

– Xoşuna gəlirmi?

– Gəlir... Dərə elə bil ağ dənizdir...

Davud quzuları yaxşı bəsləyirdi. Onlara biri də əlavə olunmuşdu. Bu quzu axsayırdı. Çətinliklə yeriyirdi. Başdan-başa

zil qara rəngdə idi: ayaqları da, qulaqları da, çənəsi də, alnı da... gözləri də...

Bir dəfə bərk yağış yağdı. Göy elə guruldadı ki, sanki dünya dağılırdı. Ara vermədən çaxan ildırımın qızıl zolaqları tez-tez yanıb-sönürdü. Yağış güclü olduğundan bir an içində hər yeri sel-su götürdü. Bir addım kənara çıxmaq mümkün deyildi. Şirəli baba çobanlardan bərk nigarançılıq çəkməyə başladı. Əlindəki qəlyanını sümürür, alaçığın qapısından uzaqlara baxırdı. Xeyli keçdi, amma yağış kəsmədi. Bu zaman qoca üzünü Davuda tutdu:

– Davud, oğul, gör uşaqları səsləyə bilərsən? Amma çox uzaqlara getmə. Papağımı da götür...

O, iri, tüklü papağı başından çıxarıb Davuda uzatdı. Bu papaq həm isti, həm də yağışı keçırməyən idi. Gözünün üstünə düşsə də, Davud onu başına keçirdi, köhnə, yamaqlı plaşı əyninə geyib çobanların dalınca getdi. Dərənin kənarı ilə dağın o biri üzünə keçdi. Birdən-birə yağış yavaşıdı. İndi narın toz kimi xırda damlalar tökülürdü. Bu, oğlanın sevincinə səbəb oldu. Qayanın başından enib aşağıya düşdü. Burda heç kimi görməyib həm heyrətləndi, həm də qorxdu. Axı, çobanlar sürülərlə harda itib-batmışdılar?

Davud ora-bura baxa-baxa irəliləyirdi, qışqırır, Yusifi, Əhmədi səsləyirdi. Heç kimdən səs gəlmirdi. Hər yan sakitlik içində idi. Dərin dərəyə yaxınlaşıb onun qayalı sahilləri ilə gedərkən it səsi eşitdi. Addımlarını sürətləndirdi. Yusifi səsləyə-səsləyə gedərkən birdən Pələng qabağına yüyürdü. Əvvəl onu canavara bənzədib bərk qorxdu. Sonra tanıyıb sakit oldu. Pələng üzünü Davudun ayaqlarına sürtə-sürtə onunla yanaşı gedirdi. Davud Yusifi gördü, ancaq qoyunlar gözünə dəymədi. Yusif başdan-ayağa islanmışdı.

– Nə yaxşı gəlmisən, Davud. Sən burda dayan. Qoyunlara bax. Mən Əhmədin dalınca qaçım. Ona nə isə olub. Bayaq köməyə çağırırdı. Tez elə.

Yusif daha dayanmadı. İldırım sürəti ilə aşağı, dərə boyu qayaların yanı ilə yüyürdü. Davud indi, qoyunların qayaların altına, dərin mağara kimi yerə salındığını gördü. Pələng Davudun ətrafında fır-fır fırlanır, atılıb-düşürdü. Birdən Yusif qışqırdı:



– Ey, Pələng, sən də gəl...

Pələng onun dalınca cumdu. Onlar aşağıda, bir an içində yox oldular. Hamısı bir-birinə sıxılmış, kahanın altındaca sakit dayanmış qoyunlardan su damcılayırdı. görünür ki, Yusif leysanda özünü itirməmiş, vaxtında təhlükənin qarşısını almağı bacarmışdı. Yağış yenə güclənməyə başladı. Davud özü də kahada, qoyunların arasında gizlənməyə məcbur oldu.

Xeyli sonra yağış tamam kəsdi. Yağışın qəfil kəsməsi ilə hava elə açıldı ki, hər yan gözəl və günəşli göründü. Davud kahadan çıxıb uzaqlara baxdı. Əhmədgilin vəziyyəti ilə maraqlanırdı. Göy də, üfüq də, yer də, dağ da büllur şüşə kimi şəffaf olmuşdu. Davud bir anlıq bu təmizlik və gözəllikdən zövq aldı, sonra var səsi ilə Yusifgili çağırmağa başladı. Onlardan cavab gəlmədi. Aşağıda, gur selin səsi aləmi başına götürmüşdü. Qoyunları nəzarətsiz qoya bilmədiyi üçün Davud yerindən tərpənə bilmirdi. Günəş hardasa gizlənmişdi, amma şəfəqləri tünd-mavi rəngli göy qübbəsində bərq vururdu.

Pələng göründü. Davudun ətrafında fır-fır fırlanmağa, aşağıya baxıb, həyəcanla hürməyə başladı. Davud Pələngin burda olmasından arxayınlaşıb o tərəfə cumdu. Əhmədin sürüsü selə düşmüşdü. Davud Əhmədə, Yusifə qoşuldu. Qoyunları bir-bir dartıb seldən çıxarırdılar. Sel get-gedə güclənirdi. Onlar tələsirdilər. Yusif qışqırdı:

– Davud, oyanda burulğan var. Ehtiyatlı ol, ha...

Sürünün çox hissəsi sudan çıxarılmışdı. Əhməd tamam suyun içində idi. Onu tanımaq olmurdu. Yusif də əldən-ayaqdan düşmüşdü. Davud qoyunları itələyib,kənara çıxaran kimi o birilərindən yapışırdı. Birdən necə oldusa, bir qoyun burulğana tərəf getdi. Davud onun dalınca cumdu. Ancaq... qoyun fırlanıb burulğana düşdü. Yusif həyəcan içində qışqırdı:

– Davud, dayan, eşidirsən, dayan!

Burulğana yaxın getmək mümkün deyildi. Qoyun qayım-qayım qaynayan burulğanın içində yox olmuşdu. Davud təlaş içində burulğana baxıb düşündü: "Görəsən, bu gün hansı quzu mələyə-mələyə qalacaq?".

Onlar qoyunların hamısını seldən qurtardılar, o biri sürüyə tərəf irəlilədilər. Pələng onları görüb yüyürə-yüyürə yaxınlaşdı. Hiss olunurdu ki, sel get-gedə güclənir.

Axşama yaxın yaylağa yaxınlaşdılar. Şirəli baba sakit qala bilməyib qayanın başına çıxmışdı. Orada dayanıb baxırdı. Heykələ bənzəyirdi.

Sağım vaxtı kolxoz sədri gəldi. O, yağışa görə nigaran olmuş, vəziyyətlə tanış olmaq üçün gəlmişdi. Şirəli baba ilə görüşüb, ona xeyli keçə verdi. Qoca onu buraxmaq istəmədi:

– Otur, çörək ye... Sonra...

– Yox, Şirəli baba, gedim... O biri briqadalara da gərək baş çəkim. görüm tələfat-zad olmayıb ki?!

O, Dabudun başını sığalladı:

– Uşaqlar bizə çox kömək edirlər, – dedi və hamı ilə görüşüb ayrıldı. Şirəli baba onu cığırın başına kimi ötürdü.

Sağımdan sonra qoyunlarla quzular görüşəndə Davud dayanıb kədərlə baxırdı. Bilirdi ki, quzulardan biri tək-tənha, mələyə-mələyə qalacaqdır. Elə də oldu. Qumral bir quzu o tərəf-bu tərəfə yüyürürdü. Davud ona yaxınlaşıb ehmalca yerdən götürdü, bağrına basdı:

– Qorxma, qumral quzu, qorxma... – dedi, – sənə süd də, ot da verərəm... Qorxma...

## *ƏFSANƏLƏR*

### İGİD ÇAPAR

Uca bir dağın başında böyük və nəhəng bir qala vardı. Bu qalada azad bir oba yaşayırdı. Qala elə hündürdə idi ki, onun başı üstündən buludlar ötüb keçirdi. Ora gedən yoldan heç kəsin xəbəri yox idi. Bu yol gözə görünmürdü. Dağın döşləri sıldırım qayalardan ibarət idi, sıx-sıx ağaclar, kollar elə cəngəllik yaratmışdı ki, buradan keçmək qeyri-mümkün idi. Düşmənlər o qalanın yolunu tapmağa çox cəhd etmiş, həndəvərində gizlicə dolanmış, fəqət bir şey çıxmamışdı. Hansı tərəfdən dağa yaxın gəlmişdilərsə, sıldırımlı daşları görüb, geri qayıtmağa məcbur olmuşdular. Onlardan bəziləri belə düşünmüşdü ki, qalaya gedən yol yəqin yerin altındadır. Dağdan çox-çox aşağıda qaralan dərin mağaraya bu məqsədlə girmiş, lakin onları ilanlar qarşılamışdı.



Onlar necə olursa-olsun qalaya gedən yolu tapmaq istəyirdilər. Ətrafı ələk-vələk etsələr də bir şey çıxmırdı ki, çıxmırdı. Bütün ümidlərin puç olduğu bir vaxtda kimsə onlara qalada kiçik bir çaparın olduğunu gizlicə xəbər verdi. Dedilər ki, çapar qaladan çıxıb uzaqlara gedir, tez də geri qayıdır. Əgər onun izinə düşsələr, qalaya gedən yolu tapa bilərlər.

Onlara bu barədə xəbər verən adamın dediyinə görə, bu çapar atın yalmanına elə yatır ki, onu atdan ayırmaq olmur. Həm də çox balacadır. Bir anda yoxa çıxır. Bu balaca oğlan həm də çox zirək və diribaşdır. Gözdən də itidir. Lap alıcı quş kimidir. Ona görə şübhə oyatmadan, ehtiyatla dolanmaq, hər şeyi gizlicə öyrənmək, sonra iş görmək lazımdır.

Elə də etdilər. Düşmənlər pusquda durdular. Bir atın yel kimi gəlib keçdiyini gördülər. Ancaq onun üstündə heç kəs yox idi. Heç kəs! Təəccüb və heyrət etdilər. İkinci gün də gəldilər. Başqa yerdə gizləndilər. Yenə çapar ildırım kimi keçib getdi. Bu dəfə də uşağı görə bilmədilər. Beləliklə, bir neçə dəfə gələndən sonra öyrəndilər ki, çapar atı yuxarıya – qalaya qaldırmır, onu aşağıda, meşənin sıx yerində, mağaranın yaxınlığında irəliyə çıxmış böyük bir qayanın altında saxlayır. Bu dəfə onlar həmin yerdə pusquda durdular.

Balaca oğlan atdan od kimi yerə atıldı, onu meşənin görünməyən bir yerinə apardı. Bir azdan özü geri qayıtdı və birdən cəngəlliyin içində yoxa çıxdı. Düşmənlər onun izinə düşə bilmədilər. İkinci dəfə, üçüncü dəfə gəldilər. Gördülər ki, çapar qayanın yanı ilə gedən nazik bir yolla yuxarı qalxır. Onlar sevindilər. Demək, qalaya gedən yol budur!

Bir gün sübh tezdən bu yolla yuxarı qalxdılar. Elə dar, sıldırımlı, sürüşkən bir yol idi ki, düşmənlər qalxdıqca onları vahimə bürüyürdü. Arabir aşağıya baxanda dizləri titrəyir, gözləri

qaralırdı. Yolun axırına çatanda qorxularından yerindən tərpənə bilmədilər. Çünki qarşıda daha böyük və daha dərin bir uçurum açılmışdı. Bu uçurumdan keçmək olardımı?! O tərəfdə böyük dağın başqa bir zirvəsi görünür, dik, hündür qayalarla birləşirdi. Onlar bir az toxdayıb, ətrafa baxmağa, yolu axtarmağa başladılar, yox, mümkün deyildi. Buradan heç nə öyrənmək olmazdı. Bəs nə etsinlər?! Yolu tapmaq üçün ümid işığı da yox idi. Bu işdə onlara uşaq kömək edə bilərdi! Ondan başqa heç kəs!

Nəhayət, belə qərara gəldilər ki, çaparı tutub işgəncə, qorxu vasitəsilə yolu öyrənsinlər. Çaparı tutmaq da çətin məsələ idi. Onu elə yaxalamaq lazım idi ki, əldən qaça bilməsin. Çünki ildırım kimi idi, bir an içində yoxa çıxırdı! Çox götür-qoy etdilər, məsləhətləşib onu həmin dərə yolunun ortasında tutmaq və oradaca qorxudub hər şeyi öyrənmək qərarına gəldilər.

Çapar qayanın kənarı ilə gedir, nəğmə oxuyurdu. Onun ayaqlarında çarıq, başında isə böyük, tüklü bir papaq vardı. Boyca balaca idi. Yola elə öyrəşmişdi ki, çətinlik çəkmədən quş kimi qalxırdı. Bəzən dayanır, uzaqlara baxır, kəmərinə keçirdiyi tütəyi çıxarıb çalırdı. Bu dəfə də tütəyini çıxardı. Elə gözəl, xoş bir səslə çaldı ki! Çaldı, çaldı; yorulmadı. Bir az oturdu. Sonra qalxıb yavaş-yavaş yoluna davam etdi.

Çapar birdən yuxarıda əlində par-par parıldayan bıçaq tutmuş iki-üç nəfər gördü. Düz onun üstünə gəlirdilər, necə də qorxunc və kinli idilər! Uşaq heç nə düşünmədən geriyə qaçmağa başladı. gördü ki, aşağıdan da qorxunc adamlar gəlirlər. O, çaşıb yolun ortasında qaldı. Hər iki tərəfdən üstünə gələn bu adamların ondan nə istədiklərini yaxşı bilirdi. Düşmənlər sevinirdi, onların gözləri par-par yanırdı. İstədiklərinə tezliklə çatacaqlarına möhkəm əmin olduqlarından cəsarətlə irəliləyirdilər. Çaparın balaca olması isə onların ürəyindən idi.

– Başını sərçə başı kimi üzmək olar. Nə canı var?! – deyə onlardan biri pıçıldadı.

Uşaq qayanın divarına qısılıb qalmışdı. Bilmirdi ki, nə etsin. Yolu hər tərəfdən bağlı idi. Qarşısında isə böyük uçurum açılmışdı. Çapar uçuruma baxırdı. O, hər iki tərəfdən gələn əli



silahlı adamları daha görmürdü. Birdən lap yaxınlığında pıçıltı səsi eşitdi.

– Oğlan, qorxma!

– Qorxma, səni öldürmərik... Sən ancaq yolu göstər... Sağ-salamat gedib çıxarsan, – deyə düşmənlər dilləndilər.

– Yox, yox, – deyə birdən çapar elə qışqırdı ki, bu səs, əks-səda hər tərəfə yayıldı. Balaca bir uşaqda nə zəhmli bir səs vardı! Düşmənlər bundan qorxdular. Ancaq geri çəkilmədilər.

– Bax, yolu göstərməsən, səni tikə-tikə doğrayacağıq.

Onlar çapara yaxınlaşdılar. Elə əllərini atıb tutmaq istəyirdilər ki, qorxulu bir hadisə baş verdi, onları dəhşət bürüdü. Uşaq bir anda quş kimi özünü böyük və dərin uçuruma atdı. Düşmənlər bunu görən kimi elə qorxdular ki, gözlərini yumub qayanın divarına tərəf çevrildilər. Uzun müddət daş kimi qaldılar. Onlardan heç biri cəsarət edib, uçuruma tərəf baxa bilmədi. Uşaq isə özünü bu uçuruma atmışdı.

Balaca, igid çaparın qorxmazlığı və şücaəti onları heyrətə salmışdı. Yavaş-yavaş, qorxa-qorxa yoldan düşüb getdilər. Bir daha o tərəflərə dolanmadılar.

Çaparın bu igidliyi və sədaqəti qalada hörmətlə yad edildi. Üç gün dalbadal qalanın bürclərində məşəllər yandı. Bir həftə sonra isə ən uca bürclərin birində igid çaparın heykəli qoyuldu. Heykəldən yüksəkdə heç nə yox idi. Bəzən onun başını buludlar alırdı. Hansı tərəfdən baxsaydılar, gözə birinci heykəl dəyirdi.

## MINARƏDƏN ATILAN DAŞLAR

Bu hadisə çox-çox illər bundan qabaq Azərbaycanın qədim şəhəri Şamaxıda baş vermişdir. Şəhəri dəhşətli bir təhlükə gözləyirdi. Monqol işğalçıları hücum etmişdilər. Onların saysız-hesabsız qoşunu nəhəng qala kimi görünən şəhəri hər tərəfdən mühasirəyə almışdı. Xəbər göndərmişdilər ki, təslim olsunlar. Ancaq gedənlər rədd cavabı ilə geri qayıtmışdılar. Monqollar bundan bərk qəzəblənmişdilər. Sərkərdə isə nərdivanlarla şəhərə girmək üçün əmr vermişdi. Çadırlardan çölə çıxıb, qoşunun necə

çalışdığına uzaqdan tamaşa edib düşünürdü: "Marağa, Ərdəbil kimi şəhərləri yerlə-yeksan edib, Şirvana gəlmişik. Bu balaca şəhər isə bizə təslim olmaq istəmir. Hünərə bax, cürətə bax, indi onlara göstərərəm". O, hirslə çadıra girdi.

Bir gün keçdi, fəüət şəhərə girə bilmədilər. Şamaxı möhkəm dayanmışdı. İkinci, üçüncü gün müvəffəqiyyətsizliyə uğradılar. Əhali düşmənə təslim olmaq istəmirdi. Təkcə adamlar deyil, Şamaxının daşı da, torpağı da vuruşurdu. Sərkərdə bərk hirslənirdi. Nərdivanların köməyi ilə şəhərə girə bilmədilər. Bu vaxt sərkərdənin əmri ilə uca taxta hasarlar düzəltdilər, bura çıxıb şəhərə oxlar atmağa başladılar. Oxlar hər tərəfdən yağış kimi yağırdı. Onların vıyıltısından qulaq tutulurdu. Düşmənlər sayca çox və hiyləgər olduqlarından böyük çətinliklə də olsa, qalanın divarlarına çıxmağa və yavaş-yavaş şəhərə soxulmağa müvəffəq ola bildilər.

Bundan sonra əsil qırğın başlandı. Kim rastlarına gəlirdisə qırırdılar. Həyətlərə girir, evlərə soxulur, camaatın var-yoxunu talan edirdilər. İgid şamaxılılardan bir neçəsini tutub, darvazanın yanında dar ağacından asmışdılar. Təslim olnayan və mərdliklə vuruşan iki şamaxılını güclə tuta bildilər. Əl-qolunu bağladılar və uca minarənin yanında dar ağacı qurdular.

Hər tərəfdə monqol əsgərləri dayanmışdılar. İgidləri dar ağacından asmaq istəyirdilər ki, göydən daşlar yağmağa başladı. Hansı əsgərin başına düşürdüsə, yerindəcə qalırdı. Düşmənlər bu daşların haradan töküldüyünü başa düşə bilmədilər. Birdən gördülər ki, bu daşları minarənin üstündən yağdırırlar. Oxlar indi minarənin başına yönəldildi. Orada heç nə görünmürdü. Qəribə idi, atılan oxlar havaya sovrulurdu. Bunu görən əsgərlər bir az sakit oldular. Elə irəliyə gəlmişdilər ki, başlarına yenə daşlar yağdı, bir neçə əsgər yerə sərildi. Sərkərdə bərk qəzəbləndi. Onun əmri ilə bir dəstə əsgər minarəyə çıxmağa başladı. Onlar əvvəl çıxa bilmədilər, çünki başlarına daşlar yağırdı. Bir-ikisi yerə yıxıldı. Sərkərdənin qəzəbindən qorxub, yenə yuxarıya qalxdılar. Nə qədər daş tökülürdü? Kim ki, yerə yıxılırdı, onu başqası əvəz edirdi. Dərhal da yuxarı çıxırdı.



Nəhayət, bir-iki əsgər minarənin başına çatıb, təəccüb içində yerlərində donub qaldılar. Minarənin başında balaca bir oğlan uşağı gördülər. Daşları uşaq tullayırdı. Yüyürüb onu tutdular. Ətrafa çoxlu daş yığılmışdı. Əsgərlər uşağı sərkərdənin yanına gətirdilər.

– Minarədən daşları atan budur, – dedilər.

Sərkərdə heyrətlə balaca uşağa baxanda, qəzəbini zorla boğub hirslə soruşdu:

– Atan kimdir?!

– Odur atam, – deyə uşaq darvazanın yanında, birinci cərgədə ucalan dar ağacını göstərdi.

– Bəs anan hanı?!

– Odur, – Uşaq bu dəfə qalanın dibində sinəsinə ox sancılmış bir qadını göstərdi.

Bu zaman sərkərdə qəzəblənib əmr etdi ki, onu nizənin ucuna keçirib bütün şəhəri gəzdirsinlər.

Monqollar çıxıb gedəndə, nədənsə sərkərdə tez-tez geriyə – uca minarəyə baxırdı. Ona elə gəlirdi ki, minarənin başında yenə həmin uşaq dayanmışdır.

Uşağın adını heç kəs bilmirdi. Ancaq bir şey məlumdur ki, Şamaxıda o vaxt hamı bir nəfər kimi azadlıq uğrunda böyük igidlik və qəhrəmanlıq göstərmişdi.

## İŞIQ

Qədim zamanlarda Əhməd adlı bir dəmirçi vardı. Gündüzlər dükanında işlər, axşamlar isə dağ ətəyindəki evində istirahət edərdi. Bu evin pəncərələri həmişə işıqlı olardı. Hələ heç kəs işığın söndüyünü görməmişdi. Qonşuluqda yaşayan bir tacirin gözü bu işıqlı pəncərələrdə qalardı. Öz-özünə düşünərdi: "Mənim malım, dövlətim, pulum, ev-eşiyim var, amma evim Dəmirçi Əhmədin evi kimi işıqlı deyildir. Bir gedim, baxım görüm o nə yandırır?".

Tacir gizlicə gəlib dəmirçinin evinin yanında dayandı. gördü ki, içəridən şən səslər gəlir. Kim isə bir səsls mahnı oxuyur, tar və

kaman çalınır. Tacir pəncərədən boylanıb gördü ki, otaqda cəmi üç şam yanır. Heyrət etdi: "Cəmi üç şam?! Elə mənim evimdə də üç şam yanır. Bəs necə olur ki, bu ev mənim evimdən çox işıqlıdır. Qəribədir!". O, öz evinə gələn kimi şamlarının sayını ikiqat artırdı. Dedi ki, qoy mənim evim Dəmirçi Əhmədin evindən qat-qat işıqlı görünsün.

Bir neçə gün sonra səhər-səhər bazarda alış-verişlə məşğul idi. Hava isti olduğundan dükanın qabağındaca dayanıb uzaqdan gətirdiyi parçaları satırdı. Yoxsul bir arvad ucuz istəyir, tacir isə heç cürə razı olmurdu.

– Rəhmin gəlsin, bəlkə bir az ucuz edəsən?..

– Elə şey yoxdur, alırsan al, almırsan çıx get. Mənə mane olma, tez elə, fikirləş...

Bu vaxt kimsə Dəmirçi Əhmədin evini təriflədi: "Balam, yaman işıqlı evdir", – dedi. Sonra başqa birisi onun sözünə qüvvət verdi: "Əhmədin evi həmişə işıqlı olur!". Bu sözlər tacirə yaman yer elədi. Evə gələn kimi Dəmirçi Əhmədin evinə sarı baxdı. Doğrudan da onun evi işıq içində par-par parıldayırdı. Tacir öz evinə tərəf baxanda zülmətdən başqa heç nə görmədi. Tələsik içəri girdi, şamları yandırdı. İki şam da əlavə etdi.

Amma camaat yenə Dəmirçi Əhmədin evini, onun çox işıqlı olduğunu dönə-dönə tərifləyirdi. Taciri fikir götürmüşdü. Dərvişin yanına gəlib:

– Baba dərviş, – dedi, – bir sirri mənə agah elə. Dəmirçi Əhmədin evi niyə mənim evimdən işıqlıdır?

Dərviş gülə-gülə, kinayə ilə soruşdu:

– Məqsədin nədir?

– İstəyirəm ki, mənim evim daha işıqlı görünsün.

– Bundan asan nə var ki... Get bazardan çılçıraq, qəndil al, as evindən.

Tacir həmin gün bazardan bir neçə çılçıraq, qəndil alıb gətirdi. Otaqlardan asdıqdan sonra hər yan işıqlı oldu. O, sevincindən uçurdu. "Hə, indi camaat daha Əhmədin evini tərifləməyəcək. Mənim evim onun evindən yüzqat işıqlıdır. Belə işıqlı ev heç bizim mahalda yoxdur".



Qəribə burası idi ki, camaat tacirin evini tərifləmədi. Yenə hamının dilində işıqlı ev Dəmirçi Əhmədin evi oldu. Tacir yanıb-yaxılırdı. Qəzəbindən nə gecəsi, nə gündüzü vardı. İşıqlı otaqlarda tək-tənha gəzir, daha Dəmirçi Əhmədin evinə tərəf baxmırdı.

Bir gün tacirin dükanına cır-cındır içində bir kişi gəldi. Bir göynək almaq istədi. Tacir çox baha qiymət dedi. Kişi nə qədər yalvardısa, ucuz vermədi ki, vermədi. Tacir hətta onu qovmaq istədi. Bu vaxt kişi cır-cındırını əynindən çıxarıb atdı. Tacir qarşısında şikayətə getdiyi dərvişi gördü. Heyrətlənib əl-ayağa düşdü:

– Baba dərviş, bu sənsən?! Bağışla, tanımadım. Ala, bu göynək sənə peşkəşdir. Elə sənin yanına gəlmək istəyirdim. Bilirsən, çılçıraq da aldım, qəndil də, heç biri fayda vermədi. Yenə Dəmirçi Əhmədin evi mənim evimdən işıqlıdır. Bilmirəm, nə edim, baba dərviş...

Dərviş dedi:

– Gəl, sən də paltarını dəyiş, mənimlə gedək.

Onlar birlikdə Dəmirçi Əhmədin dükanına yaxinlaşdılar. Dərviş qabağa düşdü:

– Salam, dəmirçi qardaş, – dedi. – Yol gəlmişik, yorulmuşuq, pulumuz-paramız da qurtarıb. Harada özümüzə kömək tapa bilərik?!

Dəmirçi əlini işdən çəkib irəli yeridi:

– Uzağa niyə gedirsiniz, elə mənim evimdə, buyurun, qonağım olun!

Evdən içəri girən kimi onları mehriban bir qadın qarşıladı:

– Xoş gəlibsiniz! – dedi. Döşəkçələr, mütəkkələr gətirib otağa döşədi. Süfrə açıldı, yemək-içmək gəldi. Dəmirçi qonaqlara ürəklə xidmət edirdi. Oğlu tar çaldı, balaca qızı mahnılar oxudu. Qonaqlar gecəni qalıb səhər razılıq edə-edə ayrılanda dəmirçi onları buraxmaq istəmədi:

– Yenə qalın. Nə lazımsa, kömək edərəm!

– Sağ olun! – Dərviş ona təşəkkürünü bildirib tacirlə bərabər bazara tərəf getdi. Yolda soruşdu:

İndi bildinmi Dəmirçi Əhmədin evi niyə işıqlıdır?

Tacir çiyinlərini çəkib gözlərini döydü.

– Çünki onun ürəyi işıqlıdır, ürəyi! Camaat onu çox sevir, evini də həmişə işıqlı görür. Dəmirçi əsil insan kimi yaşayır, evinin qapısı hamının üzünə açıqdır.

Tacir axşam evə gələndə beli bükülmüşdü. Qapıdan içəri girəndə qəndilləri, çilçıraqları yandırmağa əli gəlmədi. Tənhalıq onu sıxmağa başladı. Qeyri-ixtiyari Dəmirçi Əhmədin evinə sarı baxdı.

Orada gur-gur işıq yanırdı, mahnı səsi gəlirdi.

## DƏMIRÇININ QƏZƏBI

Səkkiz əsr bundan qabaq qədim Gəncədə Bəndar adlı bir dəmirçi yaşayırdı. Dükanı şəhərin ən gur yerində – bazarın yaxınlığında idi. Hamı onun xətrini çox istəyirdi. Çünki dəmirçi xeyirxah, mərd, düzgünlüyü sevən, ədalətli bir adam kimi tanınmışdı. Elin xeyrində, şərində başda olar, hamıya kömək əli uzatmağa çalışardı.

Dəmirçinin güclü qolları, meydan kimi sinəsi vardı. Heç nədən qorxmurdu. Hirslənəndə daha dəhşətli olurdu. Haqsızlıq görəndə od kimi yanır, aləmi vurub dağıdırdı.

Bir dəfə yanına qoca bir kişi gəldi. Dəmirçi onu böyük ehtiramla qarşıladı. Bu müdrik və ağıllı qoca Səlim baba idi. O, bir müddət dayanıb dinmədi, sonra ordan-burdan söhbət salıb, dəmirçiyə dedi ki, onun üçün yaxşı bir qılınc qayırsın, Bəndər səbirsizliklə soruşdu:

– Səlim baba, qılınc nəyinə gərəkdir?

– Bilmirsən? Üstümüzə düşmən gəlir. Neçə şəhərləri çalıb-talayıb. Bu gün-sabah da bizim şəhərə hücum edər. Deyirəm, evimdə barı bir qılınc olsun.

– Yaxşı, düzəldərəm, baba!

Dəmirçi elə möhkəm, elə gözəl qılınc qayırdı ki, Səlim baba onu əlinə götürəndə sevincindən gözləri parıldadı. Bundan sonra çox adam Bəndarın yanına gəlib ondan qılınc qayırmağı xahiş



etdi. Sifarişlərin sayı gün-gündən çoxaldı. Dəmirçi gecə-gündüz işləyir, ancaq qılınc düzəldirdi.

Səlim babanin dedikləri düz çıxdı. Xarəzm şahı Məhəmmədin oğlu Cəlaləddin öz ordusu ilə Azərbaycana hücum etmişdi. Bir çox şəhərləri tutmuşdu. Bir an keçməmiş Gəncəyə doğru gəldi, onu zəbt etdi. Gəncə Cəlaləddinin ürəyincə oldu və burda özünün iqamətgahını düzəltdi.

Günlər, aylar keçdikcə xalqın vəziyyəti ağırlaşdı. Cəlaləddinin adamları özlərini hər yerdə bu yerin, bu torpağın sahibi kimi aparır, camaatı soyub, talan edirdilər.

Dəmirçi Bəndar özündə deyildi. Qəzəbindən gecə-gündüz alışıb-yanırdı. Kəndlərdən yanına şikayətə gəlirdilər. Nə qədər vergi vermək olardı?! Cəlaləddinin əsgərləri onları çalıb-talayırdılar. Dəmirçi təsəlli verir, "ağır günün ömrü az olar" deyə hamını dözümlü və səbirli olmağa çağırırdı. Özü isə bütün günü işləyir, çəkici zindana qəzəblə vururdu.

Bir gün bazarda çaxnaşma düşdü. Cəlaləddinin əsgərləri qoca kişi ilə vuruşurdular. Qoca qılıncını sağa-sola elə zərblə Fırladırdı ki, heç biri yaxınlaşa bilmirdi. Bəndar dükandan çıxıb bu mənzərəyə tamaşa edəndə dərhal qocanı tanıdı. Səlim baba idi. O, Bəndarın düzəltdiyi qılıncla düşmənləri bir-bir öldürürdü. Bu vaxt əsgərlərdən biri arxadan atdanıb qocanin əlindən tutdu, o biriləri dərhal irəli cumub onun qılıncını aldılar. Səlim baba təslim olmaq istəmirdi. Elə ki, qollarını arxada möhkəm bağladılar, qocanı qəhqəhə çəkə-çəkə təhqir etməyə başladılar. Dərhal dar ağacı qurdular. Qocanı itələyə-itələyə onun yanına gətirdilər. Səlim baba başını əyməmişdi. Qürurla dayanmışdı.

Dəmirçi izdihamı yarıb irəliyə çıxdı. Gördüyü mənzərədən dəhşətə gəldi. Əsgərlər Səlim babanı soyundurub dar ağacından asmaq istəyirdilər. Qoca isə soyunmurdu. Buna görə əsgərlər qəzəblənir, onu vururdular. Dəmirçi dözə bilmədi, birdən qəzəbi dəniz kimi coşub-daşdı. Bir də gördü ki, Səlim babanı onların əlindən alıb, əsgərləri isə pərən-pərən salmışdır.

Əsgərlər çox idi. Onlar dəmirçini tutmağa cəhd etdilər. Qocanın qılıncı Bəndarın əlinə keçmişdi. Onun vurduğu zərbələr

elə güclü idi ki, yerə yıxılan əsgər bir daha ayağa qalxa bilmirdi. Bu, camaatın ürəyindən tikan çıxartdı. Hamı dəmirçiyə “afərin” dedi. Bəndar əsgərlərin yeni hücumundan daha da hiddətə gəldi. Ancaq onların çox olduğunu gördü, azca geriyə çəkilib hasara sötkəndi. Bildi ki, qalib gəlmək çətindir. Qılınc vura-vura fikirləşdi: necə etsin?

Əsgərlər hər tərəfdən onun üstünə gəlirdilər. Bəndar vəziyyətinin çıxılmaz olduğunu duydu. Bu vaxt qılınclar parıldadı, Bəndar öz əlləri ilə qayırdığı qılıncları görəndə qoluna yeni qüvvə gəldi. Camaat dəmirçiyə qoşuldu.

Hamı qəzəbli idi, hamı düşmənə nifrət bəsləyirdi. Odur ki, başda dəmirçi Bəndar olmaqla Cəlaləddinin iqamətgahına hücum etdilər. Əsgərləri öldürdülər. Cəlaləddin şəhərdə yox idi. Bu üsyandan sonra hamı rahat nəfəs aldı. Daha onları heç kəs incitmirdi.

Dəmirçi sevincindən yata bilmirdi. O, camaatın azad olduğunu gördükcə quş kimi uçmaq istəyirdi. Cəlaləddinin xalqdan yığdığı var-dövləti kasıb-kusublara payladı. Bu zaman onun yanına Səlim baba gəldi, salamlaşıb soruşdu:

– Cəlaləddin geri qayıtsa, nə etmək fikrindəsən?

– Ona təslim olmayacağam, Səlim baba!

– Cəlaləddinin qoşunu böyükdür. Ona qalib gəlmək mümkün deyil.

– Qoy olsun! Bəsdir, kölə kimi yaşadıq. Nə qədər itaət etmək olar, baba?! Hər gələn başımız üstündə qılıncını oynadıb gedir. Yox! Daha bəsdir! Bıçaq sümüyə dayananda susmaq olmaz!

– Sağ ol oğlum? Səndən belə cavab gözləyirdim!

– Başqa cür ola da bilməz? Baba!

– Sevinirəm ki, xalqımızın sənin kimi igid oğulları var. Ömrün uzun olsun, hamı sənin kimi olsa, bu torpaq cənnətə dönər.

Xoşbəxt günlər uzun çəkmədi. Cəlaləddin qoşunu ilə geriyə qayıtdı. Xəbər göndərdi ki, təslim olsunlar. Dəmirçi yenə qəzəbləndi, hamıya müraciətlə dedi:



– Qardaşlarım, mənim fikrim qətidir, son damla qanımız qalana qədər vuruşacağıq. Öldü var, döndü yoxdur! Bu torpaq bizimdir. Onun yolunda ölmək də şərəfdir!

Hamı dəmirçiyə qoşulub azadlıq uğrunda vuruşa girdi. Uzun vuruşdan sonra xalq qalib gəldi...

# *NAĞILLAR*

## XEYIRXAH ADAM

Qədim zamanlarda xeyirxah bir adam vardı. O, balaca daxmasında yaşayar, hamı ilə mehriban və xoş rəftar edərdi. Qəribə ürəyi ilə tanınmışdı, hələ onun qapısına gələnin əliboş, naümid geri qayıtdığını görən olmamışdı. Özü kasıb yaşasa da, bütün kasıb-kusublara əl tutar, dara düşənlərə kömək edər, hamının dərdinə-sərinə yarıyardı. Camaat danışırdı ki, onun ürəyində işıq yanır.

İndi sizə kimdən xəbər verim, ata-anası ölmüş, kimsəsiz qalmış, balaca, yetim bir oğlandan. Onun adı Fərəməz idi. Fərəməz dövlətlilərin yanına getdi ki, ona kömək etsinlər. Əyni-başı cırıq-cırıq olan bu oğlanı hər yerdən qovdular. Naəlac qalan uşaq xalasıgilə getməyə məcbur oldu. Xalasının əri onu kobud qarşıladı:

– Nə var, nə gəlmisən? – deyə qışqırdı. – Rədd ol, çıx get, bir də bu tərəflərdə hərlənmə...

Fərəməz yenə dövlətlilərin yanına getdi, ancaq... onu yaxına da buraxmadılar. Hər yerdən eyni cavabı aldı:

– Rədd ol get!

Bu vaxt yağış yağmağa başladı. Səhərdən ac olan Fərəməz küçənin tinində dayanıb soyuqdan tir-tir əsirdi. Yağış da get-gedə güclənirdi. Fikirləşə-fikirləşə qalmışdı, hara getsin, necə getsin. Qara çadralı bir qadın onun yanından keçəndə ayaq saxladı:

– A bala, burada niyə durmusan?! Qaç evə. Yoxsa islanarsan. Səninlə deyiləm, ay oğul?!

– Evim yoxdur, a xala. Səhərdən acam. Hara gedim?!

– Oğlum, bazarın yanında bir daxma var, get onun qapısını döy, orda həm yemək yeyərsən, həm də qızınarsan.

Fərəməz cəld bazara tərəf qaçdı, daxmanı tezliklə tapdı. Qapını qorxa-qorxa döydü. Yenə kobud söz eşidəcəyindən ehtiyat etdi. Bu, həmin xeyirxah insanın evi idi. O, qapını açan kimi:

– Xoş gördük, oğlum, – deyə, mehriban-mehriban dilləndi. – Keç içəri, qorxma, keç!

Oğlan qulaqlarına inanmaq istəmirdi. Bu mehriban səs onun bütün varlığını titrətdi. Elə kövrəldi ki! Ağlamaqdan özünü güclə saxladı. İçəri girən kimi yemək gəldi, acgözlüklə yedi. Yer saldılar. Yıxılıb yatdı. Yorğun olduğu üçün onu dərhal şirin yuxu apardı. Səhər duranda gördü ki, yanında isti süd var. İçib yatağından qalxanda cın-cındırlarını tapa bilmədi. Təəccüblə ətrafına baxanda yanında təptəzə paltar gördü. Birdən-birə onu geyməyə cürət etmədi. Bu zaman xetirxah adam yaxınlaşdı:

– Niyə durmusan?!

– Axı... mənim paltarım...

– Odur, təzələrini gey, çəkinmə, utanma, geyin, onlar sənindir. Kimi gözləyirsən?

Fərəməz gözlərinə inana bilmirdi. Paltarı geyinəndən sonra tanınmaz oldu. Yenə yemək gəldi. Doyunca yeyib ayağa qalxan oğlan xetirxah adamla görüşüb ayrılmaq üçün yaxınlaşdı. Əlini uzadanda xeyirxah adam əlini tutdu, mehriban-mehriban soruşdu:

– Hara getmək istəyirsən?!

– Bilmirəm.

– Get Qoşqar dağına, orda bir çoban var, onun yanında qal. Mənim adımı versən, sənə kömək edər.

Xeyirxah adam ayrılanda ona bir qızıl verdi. Fərəməz heyrətlə qızıla baxıb soruşdu:

– Sən ki, belə dövlətlisən, niyə daxmada yaşayırsan?



– Əgər özümə böyük bir saray tiksəm, onda sənin kimi uşaqlara kömək edə bilmərəm. Get, oğlum, özünə bir gün qazan, xoşbəxt ol, çətinə düşsən, yenə yanıma gəl!

Fərəməz qızılı alıb getdi. Ancaq o təkcə qızıl deyil, gözəl və təmiz duyğular apardı.

Bayram yaxınlaşırdı. El-oba bayrama hazırlıq görürdü. Bir ana, dörd uşaq sönmüş ocağın ətrafında oturub kədər içində söhbət edirdilər.

– Ana, get, o əmiyə de, bizə pal-paltar göndərsin.

– Utanıram, oğlum, o xeyirxah adam hər dəfə bizə kömək edir. Nə qədər şey gətirib. Bir ayağı elə bizdədir. Bu dəfə də bizi unutmaz.

– Bəs hanı, gəlib çıxmadı?!

– Üzüm gəlmir, məndən inciməyin.

– Onda mən gedərəm! – deyə böyük oğlan ayağa qalxmaq istədi. Birdən daxmanın qapısı açıldı. Kiçik oğlan qışqırdı:

– Ana, səbətə bax!

Səbəti açdılar. İçində nələr yox idi? Un, kişmiş, nabat, noğul, saçaqlı şirniyyat, paltarlar, parçalar...

– Sağ olsun, o xetirxah adam, yenə bizi unutmayıb.

Günlər, həftələr keçdi. Bir gün xeyirxah adamın qapısı yenə bərk-bərk döyüldü. O, qapıya çıxan kimi qoca bir qarı yalvarmağa başladı:

– Başına dönüm, oğlum, bir gümanım sənə gəlir. Sabah padşah oğlumun boynunu vurduracaq. Ona kömək elə, dardan qurtar. Günahı yoxdur balamın.

Xeyirxah adam əyilib qarını qucaqladı, mehribancasına dedi:

– Arxayin ol, nənə, əlimdən gələni əsirgəmərəm.

– Ömrün uzun olsun!

Səhər meydan aşıb-daşırdı. Padşah, onun vəzir-vəkili gəlib taxtda əyləşmişdilər. Cəllad hazır dayanmışdı. Ucaboylu, enlikürəkli bir oğlanı gətirdilər. Cəllad onun boynunu vurmaq istəyəndə xeyirxah adam:

– Dayan! – deyə qışqırdı və üzünü padşaha tutdu. – Onu mənə bağışlayın. Əvəzində nə istəsəniz verərəm.

– Özün ağırlığında qızıl!

Xeyirxah adam fikirləşmədən cavab verdi:

– Razıyam!

– Qızılı gətirərsən, oğlanı aparарsan!

O, evə gedərkən fikirləşməyə başladı. Axı, onun özü ağırlığında qızılı yox idi. Bəs bunu hardan tapacaqdır? Arxasınca dörd oğlan uşağı yüyürürdü. Onları dərhal tanıdı.

– Əmi, sənə kömək etmək istəyirik.

– Qapı-qapı gəzib pul yığarıq!

Xeyirxah adam balaca dostlarının bu nəcib hərəkətindən ruhlandı, – sağ olun, balalarım, sizin köməyiniz də mənə lazım olacaq, – dedi. Uşaqlar pul toplamaq üçün bazara qaçdılar. Xeyirxah adam daxmasına girəndə küncdə böyük bir torba gördü. Açıb baxdı. İçi dolu qızıl idi. Gözlərinə inanmadı. Bunu kim gətirib?! Belə fikirləşəndə birdən qapı açıldı, gənc bir oğlan göründü, gülə-gülə soruşdu:

– Məni tanımadın?!

– Yox!

– Mənə qızıl verdiyin nə tez yadından çıxıb?

Xeyirxah adam Fərəməzi tanıyıb, onu bağrına basdı. Oğlan başına gələnləri nəql elədi. Dedi ki, böyük bir xəzinə tapmışam. O torbadakı qızılları da sənin üçün gətirmişəm!

– Lap yerinə düşüb! – deyə xeyirxah adam əhvalatı danışdı. Bir yerdə gedib qızılı padşaha verdilər, gənci ölümdən xilas etdilər. Qoca qarı oğlunu görüb sevincindən quş kimi qanadlanmışdı.

Padşah vəziri çağırıb dedi:

– Bu varlı adam kimdir? Görünür ki, daha çox qızılı var. İstəmirəm ki, məndən varlı bir adam olsun!

– Təklifin nədir, şahım?!

– Onun boynunu vurmaq lazımdır, evini axtarın, nəyi varsa, xəzinəmə qatın!

– Baş üstə, şahım!



Şəhər meydanı yenə aşıb-daşırdı. Hələ heç kim bu qədər izdiham görməmişdi. Hamı axıb gəlirdi. Xeyirxah adamın ölümünü istəməyən camaat həyəcan keçirirdi. Fərəməz padşaha nə təklif etdisə o razı olmadı. Cəllad baltanı yuxarı qaldırıb xeyirxah adamın başını vurmaq istəyəndə geri çəkildi. Çünki bu insan günəş kimi işıq saçırdı. Bəlkə də işıq saçan onun qəlbi idi?! Padşah qışqırdı:

– Nə oldu, tez ol, vur başını!

Bu zaman dörd uşaq yüyürüb gəldi, cəllad özünü itirdi. Padşah hirslə ayağa qalxmaq istəyəndə sinəsinə bir ox sancıldı. Bu oxu atan qoca qarının igid oğlu idi. Camaat işıq saçan xeyirxah insanı qolları üstünə götürdü. Xetirxah insan yavaş-yavaş başını qaldırdı. Fərəməzi, dörd uşağı, qarının igid oğlunu və bütün camaatı görüb fərəhlə onları salamladı.

İnsanlar heç vaxt xeyirxahlığı məhv olmağa qoymurlar.

## ƏDALƏTLİ FİL

Qalın meşələrin birində qüdrətli bir fil yaşayırdı.Ədalətli, xeyirxah və mərhəmətli idi. Hamı onu sevirdi. Fildə sehrli bir qüvvə vardı. Harada ədalətsiz bir iş olsaydı, dərhal xəbər tutur, həmin yerə gedirdi.

Bir dəfə qapı döyüldü. Fil çıxıb o tərəfə baxdı, bu tərəf baxdı, heç kəsi görmədi. Geri qayıtmaq istəyəndə bir səs eşitdi:

– Ey ədalətli və böyük hökmdar! Mənə rəhmin gəlsin... Yazığam. Kömək üçün yanına gəlmişəm.

Fil diqqətlə baxanda üzüstə yerə düşmüş, onun ayaqlarından öpmək istəyən balaca dələni gördü. Xortumunu uzadıb dələni yerdən qaldırdı və dedi:

– Bu hərəkətin xoşuma gəlmir, dələ. Nə üçün belə əyilirsən, niyə mənə elə yağlı və mənasız sözlər deyirsən?

– Axı, sən qüvvətlisən, bizim böyüyümüzsən. Böyüklərin qabağında hamı əyilir.

– Yox, dələ, mən böyük olmaq istəmirəm, qarşımda əyilənləri də sevmirəm. De görək, nə üçün gəlmisən?!

Özünü itirən dələ yazıq-yazıq dilləndi:

– Mənim evim yanıb külə dönüb. Evsiz-eşiksiz qalmışam. Qaldığım ağac elə quruyub ki... Hara gedirəm, məni qovurlar. Gəldim ki, mənə kömək edəsən...

– Fikir eləmə, dələ... Sənin üçün yaxşı və gözəl bir ağac taparam. Gəl dalımca...

Onlar yaşıl bir talaya çatdılar. Fil talanın kənarında uca, yaraşıqlı, qollu-budaqlı bir ağacı dələyə göstərib dedi:

– Xoşuna gəlirmi?!

– Gözəldir!

– Burda yaşayacaqsan. Əgər səni incidən olsa, budaqlardan birini silkələ, onda sənin yanında olaram.

Dələ ona təşəkkür etmək istəyirdi ki, fili yanında görmədi, heyrətlə ətrafına baxdı. Heç yanda yoxdu. Necə getmişdi?! Elə bil birdən-birə yoxa çıxmışdı. Dələ ağaca çıxıb qalın budaqların birində rahatlandı.

Fil evinə qayıdanda gördü ki, qapının yanında bir ceyran durub. Ceyranın gözləri yaşlı idi. Fili görən kimi dözə bilməyib ağladı:

– Mənim qəşəng balam əlimdən gedib. Zalım şir onu parça-parça edib. Fil qardaş, sənə vaxtında xəbər göndərə bilmədim. İndi göz yaşlarım qurumur.

Fil elə qəzəbləndi ki, yazıq ceyrana təsəlli də verə bilmədi. Düz şirin yanına getdi. Şir onu görüb tənbəl-tənbəl ayağa qalxdı.

– Xoş gəlmisən!

– Sən bizim meşəni tərk etməlisən. Əgər tərk etməsən mən səni öldürəcəyəm. Qərarım qətidir.

Şir bir söz deməyib başını aşağı dikdi. Elə ki, fil çıxıb getdi, canavar irəli gəldi:

– Sən bu filin nəyindən qorxursan?! Ondan güclüsən, ondan qüdrətlisən. İstəsən onu tikə-tikə edərsən. Filə qulaq asma, meşədən getsən, bəs bizim günümüz nə olar?

Kollar arasından çıxan tülkü onlara yaxınlaşdı:

– Təzə xəbər! Fil bizim o gözəl talanı dələnin ixtiyarına verib!



– Nə?! – Şir hirslə bağırdı.

Canavar dedi:

– Nə qədər ki, bu fil yaşayır, bizim günümüz qara olacaq. Bir şey fikirləşmək lazımdır.

– Gərək fil ölsün! – deyə tülkü bərkdən qışqırdı.

Zəhmli, qaşqabaqlı şir fikirləşirdi. Bu zaman budaqların üstündən sürünüb gələn ilan başını irəli uzatdı:

– Fikirləşmək fayda verməz, – dedi. – Mən də fildən yanıqlıyam. Yuvamı qarışqalara verib. İndi onlar orada xoşbəxt yaşayırlar. Bir təklifim var: mən dələni incidərəm, o da fili köməyə çağırar. Siz də talada tələ qurarsınız... Fil o tələyə düşər... bizim də canımız qurtarar.

Tülkü qışqırdı:

– Doğrudur!

Canavarın gözləri parıldadı:

– Tələni mən quraram, elə tələ ki, fil ordan çıxa bilməz.

Şir razılıq verdi.

Bu zaman fil maralların yanında idi. Marallar fili qonaq çağırmışdılar. Şənlik edir, əylənirdilər. Maralların ən cavanı irəli çıxdı, gözəl rəqs elədi. Hamı heyran qalıb ona baş əydi.

– Sizi incidən yoxdur ki?! – deyə fil onlardan soruşdu.

– Hələlik yoxdur. Ancaq bizi izləyən var.

– O kimdir?!

– Boz canavar. Elə qorxur ki, yaxın gələ bilmir...

Fil marallardan ayrılıb quşların yanına gəldi. Quşlar onu şən nəğmələrlə qarşıladılar. Onlar gözəl cökə ağacının budaqlarında yuvalar qurmuşdular. Yuvalarında ətcə balaların başları görünürdü. Cökə çiçəkləmişdi, onun çiçəklərinin ətri hər tərəfi bürümüşdü. Fil quşların oxuduğu şən nəğmələri dinləməkdən yorulmadı. Axırda soruşdu:

– Sizə bir şey lazım deyil?!

– Çox sağ ol, fil qardaş. Hər şeydən razıyıq.

Fil evə yaxınlaşanda dələnin təhlükədə olduğunu hiss etdi. Dərhal talaya tərəf getdi. Talaya yaxınlaşanda gördü ki, başı üstündə quşlar uçuşurlar. Buna təəccüb elədi, axı nə olmuşdur? Fil

qorxdu ki, dələnin başında bir iş var. Talaya girdi. Bu vaxt quşlar həyəcanla qışqırırdılar.

– Dayan... Qabaqda tələ var...

Fil yolunu dəyişdi. İndi o, özünü yox, daha çox dələni düşünürdü. Bilirdi ki, dələnin yaxınlığında qəzəbli ilan yaşayır. O, hirslə, xortumunu yellədə-yellədə dələyə verdiyi ağaca yaxınlaşanda kolların tərpəndiyini görüb dayandı. Dələ heç yanda yox idi: nə ağacda, nə də yerdə. Quşların səs-küyü aləmi götürmüşdü. Marallar da qaçıb gəlmişdilər. Fil bir-iki addım qabağa getdi. Bu zaman qarşısına şır çıxdı. Onun dalınca canavar. Sonra da tülkü... Onlar filin üstünə hücum etdilər. İlan kolların arasından çıxıb fili sancmaq istədi, bu zaman quşlar göydən enib ilanı dimdiklədilər. Fil elə qəzəbləndi ki, xortumunu qaldırıb şiri vurdu. Şir onunla bacara bilməyib qaçdı. Canavar aradan elə çıxdı ki, heç kəs onu görmədi. Tülkü isə özünü kolların arasına saldı. İlan qaçmağa fürsət tapa bilmədi. Onu öldürdülər.

Bəs dələ hanı?! Quşlar ağacın ətrafına fırlanıb onu tapdılar. Dələ huşsuz halda yerdə uzanmışdı. Fil ona yaxınlaşıb xortumunu uzatdı. Mehriban-mehriban dindi:

– Dələ, oyan, dələ...

Dələ gözlərini açdı. Ayağa qalxdı. Ətrafına baxıb quşları, sonra fili gördü, elə sevindi ki!

– Mən hardayam?! – deyə soruşdu.

Fil dedi:

– Dostlarının arasındasan!

Şir o meşədən çıxıb getdi, daha bu tərəflərdə görünmədi. Meşədə bütün heyvanlar şən və xoşbəxt yaşadılar.

Axı, ədalətli fil onların ən yaxın dostu idi.

## BİR DƏRƏNİN SİRRİ

Biri vardı, biri yoxdu, bir kəndin yaxınlığında böyük bir dərə vardı. Ora heç gedə bilmirdi. Çünki dərə çox qorxulu, sirli idi. Onun barəsində qəribə şeylər danışırdılar. Biri deyirdi dərədə əjdaha var, biri deyirdi, yox, ikibaşlı ilan var. Bir başqası orda



cinlərin-şeytanların olduğunu söyləyirdi. Bütün bunlara görə ora "sirli dərə" adını vermişdilər.

Kənddə hamı yoxsul idi. Çünki su yox idi. Əkinlər susuzluqdan od tutub yanırdı. Bağ-bağat da tamam solmuş, ağaclar qurumuşdu.

Kənddə Vəli adında zirək, diribaş, igid bir oğlan ad çıxarmışdı. On yeddi yaşına çatanda həmin sirli dərə ilə maraqlanmağa başladı. Anasından soruşdu:

O dərəyə gedən bir adam olubmu?!

– Olub, bala, olub. Dərəyə yaxınlaşa bilməyiblər. Oradan elə qorxulu səs gəlir ki! Bu səsi eşidən kimi qaçıb gəlirlər.

– Mən o dərəyə gedəcəyəm.

– Nə danışırsan, bala. Məni dərdə salma. Xəta-balanı başımızdan uzaq elə. getmə, oğul, bu fikri başından at, dərədən sağ qayıtmaq olmaz.

Vəli sözündən dönmədi, ana çox dedi, Vəli az eşitdi. Bir gün səhər tezdən yola düşdü. Dərəyə çatar-çatmaz qəribə bir uğultu eşitdi. Səsə əhəmiyyət verməyib irəliyə getdi. Səs daha da gücləndi. Dərə aşağı düşmək istəyəndə birdən ayağı sürüşdü, yıxıldı, yumalana-yumalana dərənin dibinə çatdı. Qalxanda elə güclü, qorxulu bir səs eşitdi ki, başını qaldırıb ətrafına baxdı. Özündən azca aralıda böyük bir şəlalə gördü. Süd kimi ağappaq şəlalə daşlara-qayalara çırpılıb ətrafa gurultu salırdı. Vəli başa düşdü ki, adamları qorxudan bu şəlalənin səsidir.

O, dərə ilə irəliləyib başı üstündə ucalan nəhəng, uca qayalara baxırdı. Daha gedə bilmədi. Çünki qarşıda sıldırımlı, kələ-kötür, yastı bir qaya vardı, sular bu qayanın qatından axırdı. Vəli gördü ki, buradan heç yana gedə bilməyəcəkdir. Geriyə – şəlalənin yanına qayıtmağa məcbur oldu.

Şəlalə elə bil göydən, buludların qoynundan axırdı. Vəlinin ürəyindən bir arzu keçdi: şəlaləni kəndə aparmaq arzusu! Birdən qayalar tərpəndi, qoşa qapılar kimi aralandı. Vəlinin qarşısında dərənin başına qədər qalxan pillələr açıldı. Vəli gözlərinə inana bilmədi. Ayağını qaldırıb astaca birinci pilləyə qoydu. Sonra ikinci, üçüncü, dördüncü... Asta-asta qalxdı. Bir qayanın üstünə

çatanda diksindi. Çünki qarşısında bir qız dayanmışdı: özü də qız daş heykəl idi. Vəli əlini ona uzatdı, çiyinlərinə toxundu. Qızın daş dodaqları aralandı. Vəli qorxub geri çəkildi.

Məndən niyə qorxursan? – deyə qız dilləndi.

– Axı... mən belə şey görməmişəm. Sən necə olub ki, bura düşmüsən, daş olmusan?!

– Bu uzun əhvalatdır. Dərədə bir cadugər vardı. Məni bu hala o salıb. Qardaşım məni qurtarmaq üçün gəlib. Cadugərlə vuruşub. Onu öldürüb, özü də ölüb.

– Mən sənə kömək edərəm.

– Sən onsuz da mənə kömək etmisən. Qorxmamısan, cəsarət göstərib dərəyə gəlmisən, buna görə də mənim dilim açılıb.

– Səni bu əzabdan qurtarmaq üçün hər şeyə hazıram.

– Bunun üçün yaxşı bir iş gör. İnsanlara sevinc bəxş elə. Onda mən bu daş tilsimdən qurtararam.

Vəli pillələrlə yuxarı qalxıb, bütün gecəni işlədi, şəlalədən böyük bir qol ayırıb kəndə doğru axıtdı. Səhər tezdən oyanan camaat büllur kimi tərtəmiz su görüb sevindi. Bağlar-bağçalar doyunca su içdi. Sanki möcüzə baş verdi: bir an içində bütün ağaclar yaşıllaşdı. Uşaqlar qaça-qaça gəlib su ilə oynadılar. Kənd elə dəyişdi ki, tanınmaz oldu. Adamlar bostan saldılar, taxıl əkdilər. Bolluq başlandı. Bu zaman Vəli dərəyə tərəf gələndə pillələri enən həmin qızı gördü.

Onlar birlikdə kəndə gəldilər. Hamı şən idi. Təkcə Vəlinin anası kədər içində oturmuşdu. Oğlunun yolunu gözləyən qoca ümidini tamam itirmişdi. Ona görə üzü gülmürdü. Vəli həyətə girib onu səsləyəndə qoca arvad quş kimi yerindən sıçradı:

– Can bala! – deyə sevinclə Vəlinin boynuna sarıldı. – Nə yaxşı ki, sağ-salamatsan, oğlum! Dərənin sirrini öyrənə bildinmi?!

– Öyrəndim, ana, öyrəndim. İnsan gərək həmişə axtarsın, gəzsin, heç nədən qorxmasın, irəli getsin, gözəl-gözəl işlər görsün, Bax, dərənin sirri budur, ana!

Qoca arvad oğlunu bir də bağrına basdı, həyətdə dayanmış gözəl qızı görüb sevinclə ona tərəf getdi.



## KƏPƏNƏK VƏ QARĞA

Səhər tezdən yuxudan oyanan Kəpənək qanadlarını açdı. Çiçəklərin, otların şehində yuyundu, təmizləndi, doğan günəşin şəfəqləri altında uçdu. Şəfəqlər onun qanadları üstünə qızılı zər səpdi. Böyük bir cökə ağacı gördü. Əzəmətli, gözəl, yaşıl ağac təzəcə çiçək açmışdı. Çiçəklər salxım-salxım sallanırdı. Kəpənək ona heyranlıqla baxdı, yarpaqlarından, çiçəklərindən təzə-təzə rəng aldı.

Birdən ağacın hündür bir budağında qapqara bir qarğanın yatdığını görüb qorxdu. Elə qorxdu ki, cəld uçub getdi.

Bu zaman Qarğa gözlərini açdı:

– Eh, bu səs salan kimdir?! Qoymaz yataq? Eh, bu başı batmış Kəpənəkdir ki! Nə tezdən durub, hara belə uçur?! Yəqin yenə çiçəklərin yanına. Başı lap boşdur. İşi-gücü də bəzənməkdir. Gündə yüz rəngə girir. Belə də şey olar!?

Qarğa gözlərini yumdu, yenə onu yuxu apardı. Xor-xor yatmağa başladı.

Kəpənək isə çəmənə doğru uçurdu. Günəş yanır, onun şəfəqləri altında Kəpənək daha gözəl görünürdü.

Çəmənə yaxınlaşanda birdən Kəpənək başı üstündə qara bir kölgə gördü. Bu, onun dalınca qəzəblə gələn Qarğa idi. Kəpənək yenə qorxub özünü çəmənliyə verdi. Qarğa da onun dalınca cumdu. Amma çəmənə enib hara baxdısa Kəpənəyi görə bilmədi. Hər tərəf gül-çiçək idi. Bir-birindən gözəl, bir-birindən al-əlvan olan çiçəklər işıq kimi sayrışırdı. Qarğa üzünü çevirib:

– Dayansın o Kəpənək! Onun başına bir oyun açacağam ki, bir də cəsarət edib mən tərəfə hərlənməsin. Girib çiçəklərin arasında gizlənib! Yəqin ki, qorxusundan indi tir-tir əsir. rəngbərəng qanadlarını elə qıracağam ki, yerindən qalxa bilməsin. Bilmirəm, bu çiçəklərdə nə görüb?!

Qarğa qarıldaya-qarıldaya uçub yaxınlıqdakı qoz ağacına qondu. Bir gözü çəməndə qaldı. Elə hey Kəpənəyi axtarırdı.

Kəpənək isə qızılgülün təzəcə açılan qönçələrinə tamaşa edirdi. Təptəzə, qırmızı ləçəklər yavaş-yavaş açıldıqca ətrafa xoş ətir saçılırdı. Kəpənək bütün dünyanı unutmuşdu. Onun üçün bu

gözəlliyə tamaşa etməkdən yüksək heç nə yox idi. Qızılgül ləçəkləri açıldıqca bükümlər arasında qalmış şeh damlaları mirvari kimi üzə çıxıb, par-par parıldayırdı.

Bir az o yanda qırmızı qərənfillər baş-başa verib alovlanırdı. Kəpənək qərənfillərə sarı uçdu, bir-bir onların üstünə qondu. Ağ qərənfillər də vardı. Sanki başları üstündə bir topa bulud qalmışdı. Bu zaman Kəpənək zərif bir səs eşitdi:

– Salam, Kəpənək, deyəsən, bizi unutmusan?!

– Xoş gördük, gözəl nərgiz. Yox, sizi unutmamışam, sizi heç unutmaq olarmı?

Sarı nərgizin ətri hər yeri bürümüşdü. Kəpənək indi onun qonağı idi. Nərgiz elə təzə-tər, elə xoş, elə mehriban idi ki, Kəpənək ondan heç ayrılmaq istəmirdi. Birdən uzaqdan boğuq, kobud bir səs gəldi:

– Qarr... Qar...

Nərgiz gülə-gülə dedi:

– Qorxma, Kəpənək, qarğa heç zaman səni tapmaz. Biz səni elə qoruyarıq ki, o yaxın da gələ bilməz.

– Mən sizə inanıram.

Ağappaq zanbaq başını qaldırdı, Kəpənəyə salam verdi, Kəpənək uçub onun üstünə qondu.

– Necəsən, gözəl zanbaq?!

– Yaxşıyam!

Çəməndə o qədər gül-çiçək vardı ki! Kəpənək uçur, bir-bir görüşür, güllərin ətrini uda-uda yenə irəliyə doğru gedirdi. Çəmən başdan-başa rəngarəng idi, ucu-bucağı görünmürdü. Kəpənək hər çiçəkdən bir rəng alır, qanadlarını bəzəyir, inciçiçəkləri onun üstünə ağ toz səpirdi. Kəpənək elə gözəl olmuşdu ki, gül-çiçəkdən seçilmirdi. Ancaq öz gözəlliyini görməyən Kəpənək gül-çiçəkləri seyr etməkdən doymurdu.

Qarğa yenə çəmənin üstündən ötüb keçdi. Ancaq Kəpənəyi görə bilmədi. Yenə "ğa-ğa" deyə qəzəblə qarıldayırdı:

– Kəpənəyi məhv etmək mənə borc olsun! Onu tutmasam, didib parçalamasam, heç yana gedən deyiləm. Aha, odur. gör necə də lovğa-lovğa uçur. Dayan, bu dəqiqə onun vayını verəcəyəm!



Qarğa ildırım kimi aşağı şığıdı. Kəpənək özünü itirmədi, yavaşca qantəpər çiçəyinin arxasında gizləndi. Qarğa birdən-birə yoxa çıxan Kəpənəyin əlindən daha da qəzəbləndi:

– Ah, bir əlimə keçəydi, onda gücümü görərdi.

Qarğa Kəpənəyi məhv edə bilmədi.

Çiçəklər onu ləçəklərində gizlətmişdilər.

## HƏM GÖZƏL, HƏM DOĞMA...

Keçmişdə bir padşah dünyada tayı-bərabəri olmayan gözəl bir saray tikdirmək istəyirdi. Yanına hansı usta gəlirdisə, heç birinin işini bəyənmirdi.

Bir gün padşahın yanına Abdulla adında balacaboy, arıq bir usta gəldi. Padşah onu diqqətlə gözdən keçirib soruşdu:

– Mənim necə saray tikdirmək istədiyimi bilirsənmi?

– Bəli, bilirəm.

– Əgər tikə bilməsən, boynunu vurduracağam.

– Yaxşı, razıyam, – Deyə usta Abdulla baş əydi.

O bir neçə gündən sonra işə başladı Sarayın təməl daşlarını hörüb möhkəmlətdi. İki ay sonra isə yoxa çıxdı. Padşaha xəbər gətirdilər. O, bərk qəzəbləndi. Hər yeri axtardılar, Usta Abdullanı tapan olmadı. Bir neçə ay keçdi, ondan xəbər çıxmadı. Qış gəldi, tufan qopdu, külək əsdi, qar yağdı. Sarayın təməl daşları qar altında qaldı. Padşah nə qədər usta çağırdısa, heç biri sarayı tikib başa çatdırmağı boynuna götürmədi.

Yay aylarında birdən usta Abdulla göründü. Padşah əmr etdi ki, onu tutub zindana salsınlar. Usta isə padşahın yanına aparılmasını tələb etdi. Padşah onu görəndə qəzəbini zorla boğub dedi:

– Sənin boynunu vurduracağam.

– Şah sağ olsun! – deyə usta Abdulla sözə başladı, – sarayı yarımçıq qoyub getdiyimin səbəbini niyə soruşmursunuz?!

– Çünki sarayı tikə bilməmisən.

– Elə deyil, şahım. Mən təməl daşlarının möhkəmliyini yoxlayırdım. Qar da yağıb, tufan da qopub, leysan da töküb, ancaq

təməl daşlarının kiçik bir yeri belə uçmayıb. Baxa bilərsiniz. İndi mən bu möhkəm təməl daşlarının üstündə elə bir saray tikəcəyəm ki, ən güclü zəlzələ belə onu uçura bilməz.

Padşah onu dinləyib dedi:

– Yaxşı, günahından keçirəm. Sabahdan işə başla.

– Bir şərtlə, şahım.

– Nə şərt?!

– Gərək siz də işləyəsiniz.

– Necə? – padşah hirslə ayağa qalxdı. – Bir o qalmışdı ki, daş daşıyım, hörgü hörüm?!

– Mehriban şahım, bu lazımdır.

– Yox, mən işləmək istəmirəm.

– Şahım, əgər sarayın gözəl olmasını istəyirsinizsə, gərək buna razı olasınız.

Padşah tərəddüd etməyə başladı. Usta bundan istifadə edib dedi:

– Razılaşın, şahım. Xeyrini özünüz görəcəksiniz.

– Yaxşı, usta.

Usta Abdulla sarayı tikirdi. Gündə bir neçə saat padşah ona kömək edirdi. Padşah bəzən elə həvəslə çalışırdı ki, işdən ayrılmaq istəmir, hər şeyin yaxşı, möhkəm olmasına çalışırdı. Günlər keçirdi. Əzəmətli, böyük və yaraşıqlı bir saray ucalırdı. Padşah saraya baxır, daha böyük həvəslə işləyirdi. Vəzirlər, əyanlar da gəlib usta Abdullaya yaxından kömək edirdilər.

Nəhayət, saray tikilib başa çatdı. Elə gözəl, elə möhkəm bir saray tikilmişdi ki, onun əvəzi yox idi. Hamı heyran-heyran saraya baxırdı. Padşahın isə sevincinin həddi-hüdudu yox idi. Saraya elə öyrəşmişdi ki, dönə-dönə naxışlarına, bəzəklərinə baxır, qonaqlar dəvət edir, otaqları göstərir, gülə-gülə, fəxrlə onun necə tikilməsi haqqında danışırdı.

Padşah usta Abdullaya istədiyindən daha çox qızıl verdi və soruşdu:

– Usta, məni işlətməkdə məqsədin nə idi?!

– Mehriban şahım, hələ bir deyin görüm, məndən narazı qalmamısınız ki?!



– Yox!

– Mən istəyirdim ki, bu sarayda sizin də zəhmətiniz olsun, alın təriniz olsun! Onda saray sizə daha əziz olar.

– Doğrudur, usta!

Usta Abdulla padşahla görüşüb getdi. Onun tikdiyi gözəl saray haqqında hər yerdə ağızdolusu danışırdılar. Padşah isə o saraydan bir gün də ayrılmaq istəmirdi. Axı, bu sarayın tikintisində tər töküb çalışmışdı. Saray onun üçün həm gözəl idi, həm də doğma!

## BOZ SƏRÇƏNİN NAĞILI

Bir boz sərçə vardı. O, kefi kök dolanır, hamıdan uzaq qaçıb təkcə özü üçün yaşayırdı. Kəndin yaxınlığında – meşəyə çatmamış balaca bur gölməçə tapmışdı. Bu gölməçədə nə qədər desən, cücü, qurd vardı. Sərçə həmişə bura gələr, qarnını doydurub rahat-rahat geri qayıdardı. Ancaq o biri sərçələrə bu barədə bir kəlmə də deməzdi. “Axı, niyə də deyim?!”. Boz sərçə heç kimlə dostluq etməz, tək-tənha gəzər, darda olanlara kömək əli uzatmaz, “mənə nə var?” deyərdi.

Bir dəfə axşamçağı yuvasına qayıdanda talada, otların arasında “cik-cik” civildəyən qaramtıl sərçəyə rast gəldi. Özünü görməməzliyə vurdu, tez yolunu dəyişib qaramtıl sərçədən uzaqlaşdı. Onun yalvarışlarla dolu səsi kəsilmirdi. Boz sərçə yuvasına çatıb içəri girdi, qanadlarını yığıb rahatlandı. Yatmaq istədi. Birdən hardansa qaramtıl sərçə yadına düşdü, onun səsini eşitdi. Düşündü: “Görəsən, ona nə olmuşdu?! Niyə uça bilmirdi? Eh, bunları bilmək nəyimə gərək? Mənə nə var ki?! Elə yaxşı oldu, yuvama gəlib çıxdım. Bax, yağış da yağmağa başladı. Əgər orda ləngisəydim, islanardım. Nə yaxşı gəlmişəm. Yuvam həm rahatdır, həm istidir!”. Bu düşüncələr içində boz sərçəni yuxu apardı.

Gecə vaxtı qəribə bir səs eşidib gözlərini açdı. Qulaq asdı. Yenə yağış yağırdı. Haradasa, yaxınlıqda bir ana sərçənin həyəcanlı səsi eşidilirdi. Boz sərçə hirslə dedi:

– Qoymazlar rahat yataq?! Bu ana sərçənin hay-küyü heç zaman kəsilmir. Gecənin yarısı da çığırır. Utanıb eləmir də! Axı, meşədə hamı yatır.

Boz sərçə gözünü yumub yatmağa çalışdı. Bu vaxt başqa bir sərçənin səsini eşitdi:

– Kömək edin, ana sərçənin yuvası uçur! Kömək edin, onun balaları təhlükədədir.

Boz sərçə sanki bunları eşitmirdi. Yuvasına daha möhkəm sarılıb yatmağa çalışdı. "Mənə nə var" deyib gözlərini yummaq istədi. Çöldən isə yağışın, bir də ana sərçəyə köməyə gələn başqa sərçələrin səsləri eşidilirdi. Bir az sonra yağış kəsdi, hər yana sakitlik çökdü. Boz sərçəni də yuxu apardı.

Bir neçə həftə keçdi. Yenə boz sərçə rahat dolanır, gölməçədə qarnını doydurub yuvasına qayıdır, şirin yuxuya gedirdi.

Günlərin birində boz sərçə uzaq çəmənliyə uçdu. Burda güllərə, çiçəklərə tamaşa elədi. Birdən bu çəmənliyin arxasında ferma gördü. Gördü ki, yerə o qədər dən səpilib ki, nə sayı var, nə hesabı! Sərçə sevincindən bilmədi nə etsin. Tez uçub gəldi, yeməyə başladı. Yedi, yedi, doydu. Amma heç getmək istəmirdi. Ağırlaşmışdı. Qayıdanda fikirləşdi ki, çəmənlikdə dincəlsin. Özünə rahat bir yer axtarıb tapdı. Elə təzəcə yuxuya gedirdi ki, birdən səs-küy eşitdi. Başını qaldıranda bir dəstə uşaq gördü. Cəld pırıldayıb havaya qalxdı. Ancaq arxadan atılan balaca bir daş qanadına dəydi. Özünü havada güclə saxladı. Gördü ki, çəmənliyin üstü ilə uçur. Bütün gücünü topladı, uçdu, uçdu, birdən gözləri qaraldı. "Kömək edin, kömək edin!" deyə bərkdən çığırdı. Qanadlarında daha qüvvə qalmamışdı. Bir də gördü ki, daha uça bilmir. Yerə enir... Gücünü toplamağa çalışsa da, mümkün olmadı. Tərslikdən, başqa yerə yox, həmişə gəldiyi gölməçəyə gəlib düşdü. Vəziyyəti daha da ağırlaşdı. "Kömək edin!" – deyə çığırır, batmamaq üçün çapalayırdı. Birdən tamam huşunu itirdi.

Yavaş-yavaş gözlərini açanda ilk dəfə gördüyü qaramtıl sərçə oldu:



– Necəsən? – deyə qaramtıl sərçə mehribanlıqla soruşdu, – bir yerin ağrımır ki?!

– Yox!

Birdən boz sərçə ana sərçəni gördü.

– Salam! – ana sərçə də mehriban-mehriban dilləndi. – Qanadındakı yarana yarpaq qoymuşuq. Bu elə yarpaqdır ki, yaranı tez sağaldacaq. Qorxulu heş nə yoxdur. Bir-iki günə tamam sağalarsan.

Boz sərçə bilmədi onlara necə təşəkkür etsin. Heyrət içində baxır, həm qaramtıl sərçəni, həm də ana sərçəni bir vaxt köməksiz qoyduğunu xatırlayırdı. Bir anlıq təsəvvür etdi ki, onun özü də köməksiz qalmışdır. Vay! Gör nə olardı. Yəqin ki, boz sərçə indi heç nə düşünə bilməzdi. Bir-birinə kömək etmək, əl tutmaq nə yaxşıdır!

## İRADƏ

Keçmişlərdə Nadir adlı bir cavan vardı. Mədrəsədə təhsil almışdı, ağıllı, düşüncəli, inadkar idi. Bir gün ağasının yanına gəlib dedi:

– Ağa, mən oxumağa getmək istəyirəm.

– Nə?! – ağası hirsləndi, – alış-verişimə bəs kim kömək edəcək?! Nə vaxtdır oxuyursan, bəs olmadı, daha nə oxumaq? Elə şey yoxdur, gəl mənə kömək elə!

– Yox, ağa, mən böyük alimlərin yanına getməliyəm, elm öyrənməliyəm.

– Sənə bir dinar da verə bilmərəm. Hara gedirsən get, daha sən adlı işçim yoxdur!

Nadir çox fikirləşdi, arzusuna çatmaq üçün bir səhər tezdən yola düzəldi. Getdi, getdi, yoruldu. Dincini almaq üçün bir daşın üstündə əyləşəndə birdən ətrafında qəribə kölgələr göründü. Kölgələr:

– Geri qayıt, geri qayıt! – Deyə qışqırdılar.

Nadir onlara əhəmiyyət verməyib yoluna davam etdi. Bu vaxt gur yağış yağmağa başladı. Nadir islandı. Daldalanmağa bir

yer də yox idi. Qarşısına böyük bir qaya çıxdı. Qayaya söykənəndə, daş divar qapı kimi aralandı. Nadir cəld içəri girdi. Böyük bir saray gördü. İpək tüllərə bürünmüş gözəl bir qız yaxına gəlib dedi:

– Sənin sorağını biz çoxdan eşitmişik. Bu sarayda qalarsanmı? Hər şeyin olar, yemək-içməyin, pulun, var-dövlətin... Özü də nə qədər istəsən. Təki sən qalasan.

Nadir başını qaldırıb saraya baxdı. Gözləri qamaşdı. Çünki hər tərəf par-par yanırdı. Qız əlini bir-birinə vurdu. Dərhal süfrə açıldı. Süfrədə nələr yox idi! Hər cür yemək... Qız gülə-gülə soruşdu:

– Qalmağa razısanmı?!

– Yox... Yox...

Bütün dünya gözlərində qaraldı, işıqlı saray da, ağ tül içində olan qız da qeybə çəkildi. Nadir bir də gördü ki, ucu-bucağı görünməyən bir səhradadır. Gücünü toplayıb yavaş-yavaş yoluna davam etdi. Yenə qəribə kölgələr göründü, yenə qışqırdılar:

– Geri qayıt, geri qayıt!

Nadir qayıtmadı. İrəliyə, ancaq irəliyə getdi. Birdən elə güclü bir tufan qopdu ki, aləm bir-birinə qarışdı. Nadir üzünə, gözünə çırpılan quma fikir vermədən yoluna davam etdi. O, gedir, gedir, yenə gedirdi. Tufandan qəribə səslər gəlirdi: geri qayıt, geri qayıt! Tufan da Nadirin iradəsini qıra bilmədi.

Axırda o, sıx və qalın bir meşəyə gəlib çıxdı. Nəhəng bir ağacın koğuşunda bütün gecəni rahat yatdı. Səhər tezdən cır meyvələrdən doyunca yeyib yenə yola düzəldi. Dağ yolundan keçərkən bir dəstə quldura rast gəldi. Quldurbaşı ona dedi:

– Mənim dəstəmə qoşul, günün xoş və rahat keçər!

– Yox!

– Nə dedin?! – Quldurbaşı hirslənib əlini xəncərinə uzatdı. – Mənə yox deyirsən?! Bu dəqiqə səni doğram-doğram edərəm. De görüm, qalırsan, yoxsa yox?!

– Yox!

Quldurbaşı onu dəli hesab edib qəhqəhə ilə güldü. Nadir sevinib yoluna davam etdi. Nəhayət, gəlib böyük bir şəhərə çatdı.



Bu şəhərdə müdrik alimin yaşadığı yeri öyrənib onun yanına getdi. Həyətə girəndə gözəl geyinmiş cavanları gördü. Bildi ki, onlar alimin şagirdləridirlər. Bir onlara, bir də özünə baxdı. Nadirin pal-paltarı cırıq-cırıq olmuşdu. Acından elə arıqlamışdı ki, bir dəri, bir sümük idi. Nadir çəkinə-çəkinə dedi:

– Mən də şagird olmaq üçün gəlmişəm.

Bu vaxt müdrik alim yaxınlaşıb mehribanlıqla Nadirdən soruşdu:

– Hardan gəlmisən, oğlum?!

– Uzaqdan, – deyə Nadir başına gələnləri danışdı.

Müdrik alim onu dinləyib dedi:

– Səndə ki, bu böyük iradə var, səndən yaxşı alim olar. Qal mənim yanımda, mən səni özümə şagird götürürəm.

İllər keçdi, Nadir ağıllı, güclü və böyük bir alim oldu. Şöhrəti hər yana yayıldı.

Nadir iradəsi ilə özünün ən böyük arzusuna çatdı.

## SƏNƏDLİ POVEST

### CIRTDANIN SÖHBƏTLƏRI

Uşaqlar, yəqin ki, siz məni yaxşı tanıyırsınız?! Necə tanımırsınız?! Ola bilməz, mən Cırtdanam, sevdiyiniz Cırtdan. Nə dediniz?! Hə, başa düşdüm. Demək istəyirsiniz ki, Cırtdan ancaq kitabda, nağılda olur. Elədir! Elə mən həmin kitabdakı, nağıldakı Cırtdanam da. Baxın, diqqətlə baxın, o Cırtdana oxşayıram, yoxsa yox? Hə, gülürsünüz, deyəsən məni tanıdınız. Demək, mənim Cırtdan olduğuma inandınız. Mən nağıldan, kitabdan çıxıb sizin yanınıza gəlmişəm. Özü də jurnal redaksiyasında işləyirəm: balaca müxbirəm.

Redaksiyada hamı məni çox sevir. Çünki hara göndərsələr böyük həvəslə gedirəm. İstər qış olsun, istər payız, istərsə də yaz, fərqi yoxdur, həmişə yoldayam. Redaktor məni yanına çağırıb, dərhal hazırlaşmağımı tapşırır. Hara gedəcəyimi deyən kimi, bir də görürsən, vağzaldayam. Qatarın yola düşməsini gözləyirəm. Hər yerə gedirəm, sizin üçün maraqlı materiallar toplayıram, qəzetlər, jurnallar da onları dərc edir. Azərbaycanda elə bir yer yoxdur ki, ora ayağım dəyməmiş olsun.

Hər yerdə də məni böyük məhəbbətlə qarşılayırlar. O qədər sual verirlər ki! Məni qoza, fındığa, almaya, qoğala, badama qonaq edirlər. Deyirlər ki, qal bizimlə dağları, dərələri gəzək. Düzü, çox istəyirəm onlarla bir yerdə qalım, amma işim çoxdur. Həm də redaksiya tapşırığını yerinə yetirmək lazımdır. Başqa cür ola bilməz. Yolçu yolda gərək! Odur ki, səfərimi davam etdirməyə başlayıram.

Bütün bu səfərlər zamanı gəzdiyim, gördüyüm yerlər, adamlar haqqında sizə maraqlı söhbətlər etmək istəyirəm. Həvəsiniz varsa, buyurun, qulaq asın!



### BİRİNCİ SÖHBƏT

#### *Mingəçevirdə*

Avtobusumuz Xaldana çatanda xarab oldu. Axşam düşdüyü üçün hamı bərk əsəbiləşdi. Bu qədər uzun yol gəl, gəl, axırda Mingəçevirə lap az qalmış, yolda dayan! Sürücü də bərk dilxor idi, qanı qaralmışdı. Maşından düşüb təkərlərə baxırdı. Nə edəsən, olacağa çarə yoxdur. Sən demə, maşının qabaq təkəri boşalıb. Onu düzəltmək uzun çəkdi. Maşın Xaldandan çıxıb Mingəçevirə gedəndə hamı rahat oldu.

Məni birdən yuxu apardı. Bir də gözümü açanda gördüm ki, maşınımız geniş, işıqlı meydançanın yanında dayanıb. Çantamı götürüb aşağı düşdüm və ətrafa göz gözdirdim. Nə görsəm yaxşıdır: hər yan işıq içindədir. Meydançanın qarşısında bağ var, ətrafda da təzə evlər. Elə bildim ki, böyük bir şəhərdəyəm.

Səhər açılan kimi yerimdən qalxdım. Kür çayının sahilinə qaçdım. Çayın yuxarı hissəsində böyük bir bənd görünürdü. Bura Mingəçevir elektrik stansiyasıdır. Tez ora getdim. Bu stansiyanın necə böyük hünərlə tikildiyindən xəbərim vardı. Çayın qabağını kəsmək, bənd ucaltmaq, Samux meşəsinin yerində bir dəniz yaratmaq... İndi hər yerdə səliqə vardı, təmizlk, gözəllik vardı. Stansiyaya yaxınlaşıb qapıdan keçmək istəyəndə qapıçı qoymadı:

– Hara gedirsən, bala?! – deyə yolumu kəsdi.

– Stansiyaya baxmaq istəyirəm.

– Buraxılış vərəqən var?

– Yoxdur.

– Onda buraxa bilmərəm.

– Axı, mən Cırtdanam, redaksiyadan gəlmişəm.

– Bunu bayaqdan de də! Salam, Cırtdan! Sənin jurnalda yazılarını oxumuşam. Xoşuma da gəlib. Buyur, keç, buyur!

Stansiya çox böyük, əzəmətli idi. Daş döşəmə ilə asta-asta irəliləyirdim. Sexlərə, qurğulara baxmaq istəyirdim. Yaşıl rəngli bir qapı gördüm. Qapıdan boylandım. Heç kəs yox idi. Başqa bir qapı da vardı, o qapıya sarı gedəndə kimsə bərkdən "dayan!" deyə

qışqırdı. Diksindim. Qorxa-qorxa arxaya baxdım. Brezent plaş geymiş bir kişi gördüm. Zəhmli və qaşqabaqlı idi:

– Burada nə gəzirsən?! – deyə hirsli-hirsli soruşdu.

– Stansiyaya baxıram...

– Kim sənə icazə verib?!

– Heç kim... Özüm...

– Özüm... özüm... – deyə kişi mənim qolumdan tutdu, – bu dəqiqə yoxlayaram, görüm bura necə gəlmisən?

– Redaksiyadan... Mən Cırtdanam...

– Oho, xoş gəlib, səfa gətirmisən, həmişə sən gələsən. Mən də elə bildim ki, dəcəl uşaqlardan birisən, qapıçını aldadıb, içəriyə girmisən. Çox gözəl, gəl, səni bütün stansiya ilə tanış edim.

Aşağıda sexlər vardı, ora düşmək üçün dəmir pillələr görünürdü. Kişi əlimdən tutub:

– Gedək, – dedi, – sexlərə bax!

Mən sonra onun kim olduğunu öyrəndim. Sən demə, elektrik-maşın sexinin rəisi idi. Mənə generatorları göstərdi. Bütün cexləri gəzdikdən sonra soruşdu:

– Cırtdan, dənizə baxmaq istəyirsən?

– Dənizə? Bəs hanı?

– Yuxarıda.

Mən uca təpəyə baxdım. Təpəyə ağ pillələr qalxırdı.

– Dəniz oradadır?

– Oradadır!

– Bu dəqiqə pillələrlə çıxaram.

– Dayan, Cırtdan, tələsmə.

– Niyə?

– Pillələrlə çıxsan, yorularsan.

– Yorulmaram.

– Ora səni motosikletlə aparmaq istəyirəm.

– Motosikletlə? Bax, bu yaxşıdır.

Mən motosikletdə, onun arxasında oturub, çiyinlərindən bərk-bərk tutdum. Motosiklet gurultu sala-sala, dolama yolla bircə dəqiqənin içində yuxarı çıxdı. Birdən qarşımızda böyük bir



dənizin mavi sinəsi açıldı. Motosikleti dənizin lapkənarına sürdü. Saxladı. Mən yerə atıldım. Dənizə baxdığımı görüb soruşdu:

– Xoşına gəlirmi, Cırtdan?

– Bəli!

– Bu dənizi də, stansiyanı da insanlar yaradıblar!

Rəis düz deyirdi. Mən ona hörmətlə baxdım.

– İndi hara gedəcəksən, Cırtdan? – deyə məndən xəbər aldı.

– Kabel zavoduna.

– Gəl, aparım səni.

– Yox, özüm piyada getmək istəyirəm.

– Özün bil. Onda mən gedim, hələlik! Cırtdan, jurnalda yazını gözləyəcəyəm!

O, əl verib mənimlə görüşdü, motosikletə əyləşib bir anda çıxıb getdi. Bərk acmışdım. Yolüstü yeməkxanaya girib kabab sifariş verdim. Yeyib doyandan sonra kabel zavoduna getdim.

Orada məni sadə geyimli, ortaboylu bir qadın qarşıladı. Baş mühəndis idi, məni görən kimi dərhal tanıdı. "Paho, Cırtdan, – dedi, – buyur içəri". Mühəndis məni zavodla tanış etdi, sexləri göstərdi. Bir dəzgahın yanında dayandım, burada yoğun məftillər kəsilir, kiçildilirdi. Kabel zavodu bizim respublikamızda yeganə zavoddur. Onun məhsulları müxtəlif yerlərə göndərilir.

Mən bütün Mingəçeviri gəzdim, başqa zavodlara, tikiş kombinatına, musiqi məktəbinə, dram teatrına getdim. Bu balaca, amma gözəl şəhərdən ayrıla bilmirdim. Nə qədər təzə evlər tikilirdi... Yeni sənaye müəssisələri yaradılırdı...

Səhər çantamı səliqəyə salır, avtobusa gecikməmək üçün tez-tez saata baxırdım. Bu vaxt qapım döyüldü. Açdım. Bir qız dayanmışdı. Məni görüb salamlaşdı:

– Cırtdan, uşaqlar səni görmək istəyirlər. Hamımız birinci sinifdə oxuyuruq. Mən gəldim ki, səni məktəbimizə aparım.

Avtobusun getməyinə hələ vardı, odur ki, bu balaca qızla məktəbə getdim, birinci sinfin uşaqları məni sevinclə qarşıladılar. Nəğmə oxudular, şer dedilər, rəqs etdilər. Vay! Mən ki avtobusa gecikirəm. Cəmi on dəqiqə qalıb! Uşaqlar hay-küylə qışqırdılar:

– Yenə gəl, Cırtdan, yenə gəl!

– Gələrəm, uşaqlar, gələrəm.

Məktəbdən çıxıb ildırım kimi qaçıram, balaca qız da mənimlə. Deyirəm ki, qayıt geri, razı olmur, "yola salım" deyir. Avtobus stansiyasına çatanda bir də gördüm ki, məni ötürən qız qışqırır:

– Dayanın, dayanın!

Bizim avtobus yola düşürdü. Qızın səsini eşidən sürücü maşını saxladı. Yüyürüb özümü qapıdan içəri atdım. Hamı gülürdü. Qız isə meydançada dayanıb mənə əl edirdi. Maşın gedir, uzaqlaşır, uzaqlaşırdı. Qız hələ də yerində dayanmışdı, bir azdan yox oldu. Mən Mingəçevirdən belə ayrıldım. Ancaq uşaqlara söz vermişəm, mən yenə Mingəçevirə, balaca dostlarımızın yanına gedəcəyəm!

## İKİNCİ SÖHBƏT

### *Kəlbəcər dağlarında*

Redaktor məni yanına çağırıb, Kəlbəcər dağlarından bir material hazırlamağı tapşırdı.

– Beş günə kimi gəz, dolan, sonra yaz...

Axşam qatarda yol gedirdim. Səhər tezdən Yevlax stansiyasında düşüb avtobus vağzalına tələsdim. Qorxdum ki, yenə avtobusa gecikərəm. Eh, öyrəndim ki, avtobus bir saatdan sonra gedəcək. Bilet alıb gözləməyə başladım. Avtobus yola düşərkən çiyni tüfəngli bir kişi əlini qaldırdı, qapı açılan kimi yuxarı qalxdı, gəlib yanımda oturdu. Qalın, uzun bığları vardı. Əli ilə bığlarını sığallayıb, mənə tərəf döndü:

– Kəlbəcərə gedirsən?!

– Bəli.

– Bəs atan-anan hanı?

– Tək gedirəm.

– Necə yəni tək?! Qorxmursan?!

– Nədən qorxacağam? Siz ovçusunuz, əmi?!

– Həm meşəbəyiyəm, həm də ovçu...



– Oy, nə yaxşı?! Məni özünüzlə aparın.

Kişi heyrətlə mənə baxdı:

– Şübhəli uşağa oxşayırsan, hara gedirsən axı?!

– Kəlbəcərə. Ordan jurnala material yazacağam.

– Kim, sən ha?! Boyun bir qarış... yəqin ki, məktəbə getmirsən, amma yazmaqdan danışırsan... Sən hara, jurnal hara. Dayan, dayan, sən kimə oxşayırsan? Televizorda çıxış eləyən o uşaq deyilsən? Adı nədir onun?..

– Cırtdan...

– Hə, hə, Cırtdan. Demək, sən o televizordakı oğlansan. Deyirəm axı, niyə belə dilli-dilavərsən. Mənim adım Məmmədir, Məmməd əmi...

Avtobus Mardaket rayonundan çoxdan keçib getmişdi. İndi nəhəng qayaların arası ilə, Tərtər çayının boyunca sürətlə irəliləyirdi. Birdən qorxub Məmməd əmiyə qısıldım.

– Nə oldu, Cırtdan?!

– Elə bildim ki, o qayalar üstümüzə uçur...

Məmməd əmi o qədər güldü ki! Qayalar qövs şəklində əyilmişdi, sanki indi uçacaqdı. Maşın o qayaların altından keçib getdi, qarşıda o qədər döngə vardı ki! Hər döngədən sonra yeni bir mənzərə açılırdı. Maşın qayaların dörd tərəfdən əhatə etdiyi, kölgəli, sərin bir yerdə dayandı. Bura kababxana idi. Məmməd əmi tüfəngi ehtiyatla çiynindən aşırıb, əlində tutdu, iki adam üçün kabab sifariş verdi.

– Gəl, Cırtdan, gəl, yanımda otur. O hündür qayaya bax, onun arxası başdan-başa meşədir. Bizim Kəlbəcər kimi gözəl yer heç yanda tapılmaz. Azərbaycanın ən səfalı rayonlarından biridir. Mən sənə hər yeri göstərərəm. İndi buyur, isti-isti kababdan ye... Hə, necə kababdır?!

– Yaxşıdır, sağ ol, Məmməd əmi.

Avtobusun siqnalını eşitdik. Maşına mindik. Məmməd əmi yerində rahatlanıb, – Cırtdan, otur, – dedi. Gecikənlər yüyürdülər. Sürücü maşını hərəkətə gətirdi. Yol çox gözəl idi, bir mənzərə itir, onu yenisi əvəz edirdi. Avtobus Kəlbəcərə çatanda,

mehmanxananın yanında düşdüm. Məmməd əmi də arxamca gəlib dedi:

– Bura Kəlbəcərin mərkəzi, Lenin küçəsidir. Bilirsən, nə uzun küçədir! Onun lap yuxarı başında təzə məktəb binası ucalır. Bax, bura xəstəxana, bura mədəniyyət evidir. Kəlbəcər günü-gündən böyüyür, gözəlləşir.

Hər tərəfi gəzib dolandıqca Məmməd əmi mənə məlumat verirdi. Rayonun dörd yanı daha gözəl idi. Bağlıq-bağatlıq, çəmənlik, dağlar, qayalar, uçurum, çay, uzaqda kəndlər, bir-birindən uca dağlar...

Axşam düşürdü. Mehmanxanada Məmməd əmi ilə yer aldıq. Demə, o da İstisuda yaşayır. Demək, səhər onunla bir yerdə gedəcəyəm. Elə otağa keçmişdik ki, bir göy guruldadı, gəl görəsən. Elə bil göy uçub başımıza töküləcəkdi. Göy gurultusundan qulaq tutulurdu. Şimşək elə parladı ki, otaq alova bürünmüş kimi işıqlandı. Mən hələ nə belə göy gurultusu, nə də belə şimşək görmüşdüm. Məmməd əmi mənə sakit-sakit baxırdı.

Bir az sonra şırıltı ilə yağış yağmağa başladı, get-gedə gücləndi.

– Güclü yağış tez kəsər.

Ancaq yağış kəsmək bilmirdi, yağmağında davam edirdi. Mən bərk yorulmuşdum. Məmməd əmidən yatmaq üçün icazə aldım.

– Mən də yatıram. – dedi, – istəyirsən, sabah tezdən piyada İstisuya gedək. Yorulmazsan?

– Yox!

Məni şirin yuxu apardı. Səhər yuxudan məni Məmməd əmi oyatdı:

– Dur, Cırtdan, – dedi, – dur, yolçu yolda gərək. Gedək.

Rayondan çıxıb aşağıya, dərəyə endik, başımızın üstündə göyə doğru millənmiş nəhəng qayaların dibi ilə irəlilədik. Bir azdan Tərtər çayının kənarı ilə uzanan yola çatdıq. Hər yerə baxırdım. Qayalar elə böyük, elə möhtəşəm idi ki, sıldırımları qılınc kimi görünürdü. Bu qayalar gah qəsrlər kimi, gah da qala divarları kimi ucalırdı. Məmməd əmi birdən dayandı. Nə üçün



dayandığını bilmək istəyirdim ki, qarşımda bir fəvvarə gördüm. Yerdən qalxan su yuxarı sıçrayır, havada zanbaq şəklini alırdı. Əlimi suya vurmaq istəyəndə tez çəkdim. Çünki su od kimi isti idi. Məmməd əmi güldü:

– Bilirsən bu nə maraqlı bulaqdır?

– Nəyi maraqlıdır ki?!

– Bir il qabaq bu bulaqdan buz kimi soyuq su gəlirdi. Yeddi dəqiqə keçdikdən sonra soyuq suyu od kimi su əvəz edirdi. Bu su düz yeddi dəqiqə axırdı, bundan sonra həmin bulaqdan turş su gəlirdi. Beləliklə, hər yeddi dəqiqədən bir bulağın suyu dəyişirdi.

– Məmməd əmi, bəs niyə belə olub?

– Bulağı qazdılar. Təkcə isti su fəvvarə vurdu.

Elə güclü vurdu ki, daha o biri sular axıb gəlmədi. İndi təkcə isti su axır. görürsən?

– Görürəm. Məmməd əmi.

– Belə bulaqlar Kəlbəcəedə çoxdur. İndi qabaqda "balaca İstisu" deyilən yer vardır. Orda da belə isti bulaqlar var.

Xeyli getdikdən sonra ora çatdıq. Burada, uçurumun kənarında bir neçə evcik tikilmişdi. Onlardan biri yeməkxana idi. Məmməd əmi məni bura dartıb gətirdi, mənə tərəf əyilib qulağıma astadan pıçıldadı:

– Aşıqlar oxuyacaqlar...

Yeməkxanada iki aşıq vardı. Bir azdan onlar oxumağa başladılar. Mən məşhur aşıq Şəmşir haqqında çox eşitmişdim. O da Kəlbəcərdə, uzaq dağ kəndi Ağdabanda yaşayır. Onu xalqa böyük şairimiz Səməd Vurğun tanıtmışdı. Aşıqları dinləyirdim. Onların səsi də, sazı da xoşuma gəlirdi. Sözləri də mənalı və gözəl idi. Sonra bildim ki, onlar aşıq Şəmşirin qoşmalarını oxuyurlar.

Uca dağların arası ilə uzanan yol bizi İstisuya aparırdı. Yolda nə qədər mənzərə vardı! Amma onların hamısını təsvir etməyə imkan və vaxt yoxdur.

Budur, İstisu, gözəl kurort şəhərciyi! Burada ilk nəzərə çarpan uzunsov, böyük sanatoriyadır. Bu sanatoriyaya müalicə üçün ucsuz-bucaqsız ölkəmizin hər tərəfindən adamlar gəlirlər, həkimlər onlara qayğı ilə yanaşır, xidmət göstərirlər. Daş pillələrlə

düşüb vanna otaqlarının yerləşdiyi böyük, yaraşıqlı binaya girmək olar. Burada, tən ortada kiçik hovuz var. Divarlardan tablolar asılıb. İri sütunlar ağ mərmərdəndir. Yaxınlıqda başqa bir sanatoriyanın gözəl binası ucalır. Onun səliqəli, təmiz, güllü-çiçəkli həyəti ürək açır. Tərtər çayının yaxınlığında İstisu zavodu işləyir. Istisu doldurulmuş butulkalar zavoddan şəhərlərə göndərilir.

Məmməd əmi məni yuxarı – isti suyun qaynağına apardı. Su elə isti idi ki, buxarlanırdı. Əl vurmaq mümkün deyildi. Heyrətlə düşünürdüm: dağın altında ocaqmı yanır? Bu qədər suyu hansı qüvvə qızdırır?! Yay-qış, yaz-payız, bir sözlə həmişə, hər vaxt bu gur, isti su yerin qoynundan sel kimi axıb gəlir. Bircə an da ardı-arası kəsilmir. Az qalırdı ki, əyiləm, bu isti cu ilə söhbət edəm, ondan bu sirri soruşam.

Kəlbəcər dağlarında çoxlu təbii sərvətlər – civə, qızıl, gümüş tapılmışdır. Geoloqlar gecə-gündüz axtarışlar aparırlar. Dağların döşündə onlar üçün taxta evlər tikilmişdir. Qədim torpaq tarixi abidələrlə, köhnə qalalarla, gözəl kəndlərlə, füsunkar mənzərələrlə zəngindir.

Məməd əmi mənə baxib dedi:

– İndi Ceyran düzünə gedəcəyik, Dəlidağın yanına.

Bir villis maşını gəldi. Bu, dağ-daşda gəzmək üçün əlverişli, güclü və yaxşı maşındır. Brezentlə örtülüdür. Qalxıb maşına oturmaq istəyirdim ki, poçtdan məni kim isə səslədi:

– Cırtdan... Cırtdan...

Maşından düşməyə məcbur oldum, poçta yaxınlaşarkən telefonçu qızın həyəcanla:

– Tez olun, sizi Bakıdan çağırırlar, – dediyini eşitdim. Cumdum, bapbalaca otağa girdim, dəstəyi qaldırdırıb "allo", "allo" deyə qışqırmağa başladım. Redaksiyadan idi, məni redaktor çağırtdırmışdı, təcili Bakıya gəlməyimi, Nərimanov prospektindən material yazmağımı tapşırırdı.

– Cırtdan, elə bu gün çıx! Bakı haqqında təcili material verməliyik. İşçilərimizin hərəsi bir yandadır, bacardıqca tez gəl!

– Çalışaram!



Qanım qaraldı. Bunu Məmməd əmi dərhal duyub səbəbini soruşdu. Dedim, O qədər güldü ki:

– Biz yolumuzdan qalmayacağıq, – dedi, – axşama kimi gəzərik, sonra Yevlaxa gedərsən. Qorxma, qatara çata bilərsən! Keç otur maşına. Bəs meşələri gəzməyəcəksən?!

– Vaxt var ki? Qalsın gələn dəfəyə! Sağlıq olsun, yenə gələrəm!

Villis sürətlə yuxarı qalxırdı. Pəncərədən aşağıya, İstisuya baxırdım. Evlər get-gedə göbələyə oxşayırdı. Sanki göyün yeddi qatına qalxırdıq. Hava soyuyurdu. İstisu dərədə qaldı, bir azdan isə tamam görünməz oldu. Ceyran bulağında buz kimi sərin suyu içib otların üstünə uzandım, bu genişlik, bu xoş, təmiz hava, uzaqdakı dağlar insanın ruhunu oxşayırdı. Dəlidağın yanına qədər getdim. Məmməd əmi kabab bişirirdi. Qayıdanda onun kababları hazır idi:

– Gəl, Cırtdan, isti-isti ye... Sonra da Ceyran bulağının suyundan iç! Su deyil, dərmandır, dərman...

Bu vaxt başımız üstündən bir vertolyot uçdu. Əlimi qaldırıb var səsimlə qışqırdım:

– Eheyy... Məni də götürün... Məni də götürün...

Bu nədir, doğrudanmı məni eşitdilər? Vertolyot aşağı enir. Ola bilməz! Bəli, bəli enir. Məmməd əminin heyrətdən gözləri böyüdü. Vertolyot Ceyran bulağından bir az kənarda aşağıya endi. Qapı açıldı. Pilləkən sallandı. Bir nəfər başını çıxartdı

– Cırtdan, gəl, tez ol, mənəm! – dedi.

Pilot idi, dərhal onu tanıdım. Axı, bir neçə dəfə o məni uzaq yerlərə aparmışdı. Ayağımı pilləkənə qoyanda dayandım. Məmməd əmiyə, ceyran bulağına, Dəlidağa bir də diqqətlə baxdım. Nədənsə ürəyim kövrəldi:

– Hələlik, Məmməd əmi, – dedim, – sağlıqla qalın!

– Sağ ol, Cırtdan! Bizi unutma!

Vertolyotun içinə keçəndə pilot əllərimi sıxdı:

– Səni görən kimi tanıdım, Cırtdan. Hə, keç yaxşı yerdə otur. Bu dəqiqə uçuruq.

Vertolyot göyə qalxanda mən də pəncərədən hələ də aşağıya – Ceyran düzünə, Dəlidağa baxırdım. Məmməd əmi göyə baxıb əlini yelləyirdi. Bir an sonra hər şey yoxa çıxdı, vertolyot sürətlə Bakıya tərəf uçdu.

## ÜÇÜNCÜ SÖHBƏT

### *Nərimanov prospektində*

Mən pilotdan xahiş edib bir paraşüt aldım. Elə ki, Bakıda, Nərimanov prospektinə çatdıq, pəncərəyə yaxınlaşdım. Adamlar qorxub, "yıxılarsan" deyə qışqırdılar. Bu zaman cəld özümü yerə atdım. Paraşüt başımın üstündə ağ çiçək kimi açıldı. Beşmərtəbəli, hündür, gözəl binaların pəncərələrindən, eyvanlarından boylanan uşaqlar məni görüb dərhal tanıdılar.

– Cırtdan... Cırtdan, – deyə heyrət içində səslədilər.

Divarına "Ceyran" sözü yazılmış və şəkli çəkilmiş gözəl bir binanın qarşısında yerə endim. Qəribədir, istər-istəməz indicə ayrılıb gəldiyim Ceyran bulağını xatırladım. Ceyran düzündən, Ceyran bulağından sonra "Ceyran" restoranının qarşısına gəlmək! Elə acdığımı indi başa düşdüm. Axı, bulaq suyu iştahımı açmışdı! Restorana girdim. Xidmətçilər məni görən kimi yüyürdülər:

– Buyur, Cırtdan. Buyur...

– Nə istəyirsən, Cırtdan? Yaxşı kababımız var.

– Kabab istəmirəm. Mənə dovğa gətirin.

– Bu dəqiqə, Cırtdan, bu dəqiqə!

Dərhal dovğa gətirdilər. Bura gözəl, səliqəli yeməkxanadır. Çölə çıxanda gördüm ki, küçənin o biri tayında böyük bir binanın qarşısında cavanlar durublar. O tərəfə keçəndə onlar:

– Cırtdan, Cırtdan, – deyə məni səslədilər, – Sən də imtahan verməyə gəlmisən?!

– Yox! – dedim.

Birdən məni əlləri üstünə götürüb atmağa başladılar. Elə atırdılar ki! Lap yuxarı, binanın yarısına kimi. Sən demə, bura politexniki institut imiş! Cavanların söhbətindən başa düşdüm ki, onlar instituta daxil olmaq üçün imtahan verməyə gəliblər. İnstitutda yaxşı fakültələr var: mexanika, inşaatçılıq, memarlıq və başqa sahələr üzrə... – Gördüm ki, cavanlar heç yorulmur, qəhqəhə çəkə-çəkə, gülə-gülə məni bir-birinə ötürür, yenə göyə atıb tuturlar. Axırda güclə onların əlindən qaçdım.



Böyük bir bağ gördüm. Yaşıl, geniş xiyabanlar uzanırdı. Ortada bir neçə hovuz vardı. Birdən qayıq yelləncək gördüm. Bir qız minmişdi, ancaq yellənə bilmirdi. Tez gedib bilet aldım, qayığa mindim. Qız heyrətlə mənə baxdı:

– Cırtdan?

Qayığı bərkdən yelləməyə başladım. Qız qorxdu, "vay" deyə qışqırdı. Uşaqlar maraqla bizə baxırdılar. Yelləncək qayıq dayandı. Qız yerə atıldı. Uşaqlar mənə qoşuldular. Küçənin o biri tərəfində nəhəhg, yaraşıqlı bir bina ucalırdı, bura yaxınlaşdıq. Elə hündür idi ki, yuxarıya baxanda papağım yerə düşdü. Uşaqlar gülüşdülər. Bura akademiyanın binası idi. İldırım kimi yuxarı çıxdım. Oradan uşaqlara baxdım. Nöqtə kimi görünürdülər.

Uşaqlarla bir yerdə Nərimanov prospektini başdan-başa dolandıq. Cəfər Cabbarlı adına yaraşıqlı kino-teatr, uşaq poliklinikası, internat məktəb, mağazalar...

Bu nədir? Prospektdə bazar da var: şüşəli, üstüörtülü, yaraşıqlı bazar! Bir oğlanın əlində ağ şanı gördüm. Atası almışdı. O, böyük bir salxımı mənə uzatdı:

– Ala, Cırtdan, – dedi, – ye... qənd kimidir.

Üzümü götürdüm. Yenə uşaqlarla prospektə çıxdıq. Buradan gör nə qədər avtobus keçir. Nömrələri də 61, 60, 58, 44, 137, 96, 39, 114... Gözəl vitrinlər, şüşəli köşklər necə də yaxşıdır. Politexniki institutun qarşısında, dayanacaqda durub uşaqlarla vidalaşdım.

İndi onlara və bütün Azərbaycan uşaqlarına deyirəm:

– Mənim on yaşım var. Böyüyəndə bu instituta oxumağa gələcəyəm. Mühəndis olacağam. Siz də, dostlar, bura gəlin! Yaxşımı? Mən sizi gözləyəcəyəm.

Axşam Nərimanov prospektindən bir oçerk yazdım və səhər redaksiyaya apardım. Redaktor məni göran kimi:

– Yəqin qatardan indi düşmüsən? – dedi, – Vaxtında gəlmisən, İstirahət elə, sonra materialın dalınca get, başdan-başa prospekti gəz, yaxşı material yaz.

Mən oçerkimi redaktorun stolu üstünə qoyanda, o heyrət içində bir mənə, bir də yazıya baxdı:

– Cırtdan ki, Cırtdan! – dedi.

## DÖRDÜNCÜ SÖHBƏT

### *Arılar*

Bu dəfə sizə arılardan söhbət edəcəyəm. Niyə təəccüblənirsiniz? Arılar qədər maraqlı, arılar qədər mürəkkəb, dəqiq iş görən nə var? Sən bir it, pişık, ya da cücə saxlayıb bəsləyə bilərsən. Hünərin varsa, bir arını tut saxla, bəslə, görüm necə edirsən? Qabaqcadan deyirəm: bu qeyri-mümkündür. Belə bir fikrə düşsən, bir arını tutub saxlamaq istəsən, o çox tez məhv olar!

Bu sözləri uzaq dağ kəndində yaşayan uşaqlara deyəndə heç biri təəccüb eləmədi. Hansı kənddə?! Qoy yadıma salım. Hə, Nors kəndində. Bu kənd Şahbuz rayonundadır. Mən ora Əbülfəz müəllimgilə qonaq getmişdim. Gözəl bir həyətdə, ağacların altında qoyulmuş dəyirmi stolun arxasında uşaqlarla arılar haqqında söhbətə başlamışdım. Onlardan biri dedi:

– Cırtdan, bizim də arı pətəklərimiz var.

– Bizdə də var.

– Bizdə də!

– Onda deyin görüm, arılar tək niyə yaşaya bilməzlər?

– Çünki böyük ailədə yaşamağa öyrəşiblər.

– Doğrudur. Bəs böyük ailədə necə yaşayırlar?!

Uşaqların hərəsi bir söz dedi, amma düzgün, dəqiq, əsaslı fikir deyən olmadı.

– Onda sən de, Cırtdan.

Arıların ailəsinin tərkibi çox sadədir: ana, bir neçə ata, qalanları isə işçi arılardan ibarət olur. Ailənin əsasını işçi arılar



təşkil edir. Onlar ananı yedizdirir, zibili atır, şana qurur, bal yığır, pətəyin havasını dəyişir və havanın eyni dərəcədə olmasına çalışırlar.

– Havanı da dəyişirlər?!

– Mən heç bunu bilmirdim. Özü də eyni dərəcədə hava...

– Əlbəttə, arılar çox dəqiq iş görürlər.

– Cırtdan, onda kəşfiyyatçı arıdan da danış.

– Bir arı qabaqcadan uçub şirəli güllər axtarmağa gedir. O, kəşfiyyatçı arıdır. Çiçəklənmiş gözəl alma bağına, yaxud güllü bir çəmənliyə rast gəlir. Öz yükünü tutur. Tələsmək, xəbər aparmaq lazımdır. Bəs bunu o necə edir?!

– Doğrudan, arının ki, dili yoxdur?!

– Bəs onda dostlarına necə xəbər verir?!

– Kəşfiyyatçı arı cəld havada rəqs etməyə başlayır. Rəqs arılar üçün əyləncə, istirahət deyil. Bu rəqs vasitəsilə həmin arı öz dostlarına alma bağı, yaxud çəmənlik haqqında, bunların harada yerləşdiyi, istiqaməti və məsafəsi haqqında xəbər verir. O biri arılar dərhal yola çıxırlar. Cəsarətlə demək olar ki, arılar rəqs edərkən, bir-biri ilə danışırlar.

– Cırtdan, mən də arılardan bir hadisə danışmaq istəyirəm. Bir dəfə bərk yağış yağırdı, lap bərk. Bir arı ora-bura uçurdu. Sonra qarşısına çıxan bir pətəyə girdi. Bilirdi ki, bu onların pətəyi deyil. Heyrət elədim ki, necə oldu arılar onu içəri buraxdılar?

– Yəqin yağış olduğu üçün daldalanmağa icazə veriblər.

– Elədir ki, var. Elə ki, yağış kəsdi, həmin arı pətəkdən çıxıb öz pətəyinə sarı uçub getdi.

– Arıların zəhmətkeş olduğu haqqında çox şey bilirsiniz. Onlar çöldən şirəsiz qayıdan bir arını pətəyə yaxın qoymurlar. Geriyə qaytarırlar.

– Bəs arılar şananı necə qururlar?

– Biz bilmirik, Cırtdan.

– Əslinə qalsa, bunu mən də yaxşı bilmirəm. Amma şananın deşiklərinin altıbucaq şəklində olduğundan xəbərim var. Onu da bilirəm ki, bütün bucaqlar bir-birinə bərabərdir. Bir anlıq düşünün, eyni formada, eyni bərabərlikdə olan bucaqları qurmaq necə

çətindir! Ancaq arılar bunun öhdəsindən asanlıqla gəlirlər. Bir riyaziyyatçı kimi. Heç zaman da səhv etmirlər. Bu, möcüzəyə bərabərdir.

Bu vaxt Əbülfəz müəllim boşqabda sapsarı bal gətirib gəldi:

– Cırtdan, dadına bir bax!

– Qiyamətdir!

Bu bal yaman xoşuma gəldi. Elə ətirli idi ki! Yəqin bütün kəndin çiçəklərinin, güllərinin ətri bu balda vardı. Birdən kimsə soruıdu:

– Cırtdan, bir arı nə qədər çiçəkdən bal yığır?!

– Yükünü götürmək üçün arı 1500 çıçəyə qonmalıdır.

– 1500!

– Bir xörək qaşığı bal əldə etmək üçün arı bir neçə milyon çiçəyə qonmalıdır.

Uşaqlar bu rəqəmləri bilmirdilər, odur ki, "oy" deyə heyrətlə, maraqla mənə baxdılar. Əbülfəz müəllim soruşdu:

– Bunları hardan öyrənmisən, Cırtdan?!

– Kitablardan, jurnallardan!

Qəribədir ki, bu sualı mənə redaktor da verdi. Çünki arılar haqqındakı bu materialı gözdən keçirdikdan sonra onu çap etməyə ehtiyat etdi. Mən bunları hardan öyrəndiyimi, jurnal və kitabı göstərdikdən sonra gülə-gülə dedi:

– Bəli. İndi çap etmək olar!

Arılar haqqında material jurnalda çap olunduqdan sonra Nors kəndinin uşaqlarından bir məktub aldım.

## BEŞİNCİ SÖHBƏT

### *Şəkidən məktublar*

Salam, əziz uşaqlar! Heç bilirsiniz, indi hardayam? Şəkidə! Hə, hə, respublikamızın ən qədim şəhərlərindən birində. Bura o qədər gözəl, o qədər səfalıdır ki! Adam baxdıqca doymur. Bir neçə gündə çox yerləri gəzmişəm, maraqlı şeylər görmüşəm.



Uşaqlarla dostlaşmışam: Mehriban, Nazim, Lalə... Saymaqla qurtarmaz. Dünən 10 nömrəli məktəbə getmişdim.

Məni hər yerdə olduğu kimi o dəqiqə tanıdılar. Bəs necə! Şirin söhbət etdik. Uşaqlar o qədər şer oxudular ki! Sonra öz şəhərləri haqqında danışdılar. Onlar jurnalda dərc etmək üçün məktublar yazıblar. Həmin məktubları göndərirəm, onlarla tanış olun!

### *Mehribanın məktubu*

Bizim ev Pionerlər parkının yanındadır. Park çox hündür yerdədir. Buradan Şəkiyə baxmaq mənə çox xoş gəlir. Şəhər ovuc içi kimi görünür. Nə qədər ağac var: saysız-hesabsız. Uca, ağ binalar ağaclar arasından baş qaldırır. Parkdan aşağıda Sabir adına uşaq kitabxanası yerləşir. Kitabxanaya üzv olmuşam. Həmişə şəkilli, təzə kitablar alıram. Oxuyuram. Nənəm deyir ki, bərkdən oxu, mən də eşidim. Sonra deyir ki, ay şeytan, hərfləri öyrənmisən, lap yaxşı oxuyursan.

Anam V. İ. Lenin adına Şəki ipək kombinatında işləyir. Bir dəfə o, məni kombinata apardı. Necə böyükdür? Gəzdikcə qurtarmaq bilmir. O qədər sex var ki! Bir deyil, iki deyil. Anam deyir ki, bizim kombinat bütün ölkəmizdə məşhurdur. "Məktəbli" parçası müsabiqədə bəyənilmişdir. Soruşdum ki, hansı müsabiqədə?! Anam dedi ki, Moskvada ən yaxşı uşaq parçaları müsabiqəsində. Bu parçadan oğlan və qızlar üçün müxtəlif paltar tikmək olar. Kombinatda ipək kələğayılara da baxdım. Gözəl idi.

Bizim yuxarı məhəllədə balaca, gözəl bir bağ da vardır. Bağa Yuri Qaqarinin adı verilmişdir. Bura tez-tez dostlarımızla gəzməyə çıxıram.

### *Nazimin məktubu*

Şəkinin yaşı çoxdur. Onun Yuxarıbaş adlanan hissəsi "Muzey—qoruq şəhərinə" çevrilmişdir. Çünki burada çox qədim binalar, küçələr, karvansaralar, abidələr vardır. Hasara alınmış xan sarayı, bilirsiniz, necə gözəldir? Otaqlarda şəkillər, naxışlar, sarayın önündə iki nəhəng, qocaman çinar ucalır. Çinarların yaşı

çox olsa da, elə gözəl, elə cavan, elə ağ görünür ki, adam onlara baxdıqca baxmaq istəyir. Onun budaqları sarayın üstünə kölgə salır. Kim bilir, bəlkə də gördüyümüz çinar deyildir, bu sarayı tikən sənətkardır, çinar ağacına çevrilib yaşayır...

Çayın dik yamacı üstündə M. F. Axndovun ev-muzeyi var. Mən bura tez-tez gedirəm. Böyük dramaturq uşaqlıq illərini bizim şəhərdə keçirmişdir.

Mən qədim və gözəl şəhərimiz olan Şəkini çox sevirəm.

***Lalənin məktubu***

Mən Şəkini çox sevirəm. Evimiz şəhərin başlanğıcında, avtobus stansiyasının yaxınlığında yerləşir. Bizim tərəf son vaxtlar çox gözəlləşib. Boş yerlərdə təzə, gözəl binalar ucalıb. Qışlaq deyilən aşağı hissədə əvvəllər kiçik evlər vardı. İndi burada təzə evlər tikilir. Bir dəfə yaraşıqlı xəstəxana binasının yanından keçib getdim. Onun yaxınlığında təzə bina ucalırdı. Ustadan soruşdum ki, nə tikirsiniz?

– Teatr binası tikirik, qızım, – dedi.

Hər səhər məktəbə mərkəzi parkdan keçib gedirəm. Park mənim yaman xoşuma gəlir. Burada yay kino-teatrı, xiyabanlar, uşaqlar üçün müxtəlif əyləncələr var. Şəhərin mərkəzi küçəsində köhnə daxmalar uçulur. Yerində beşmərtəbəli, təzə binalar ucalır. Bu binaların birində "Uşaq aləmi" univermağı açılmışdır. Şəhərdə təzə şeylər çoxdur. Bunları gördükcə sevinirəm.

***

Uşaqlar, məktublar xoşunuza gəldimi?! Mehriban da, Nazim də, Lalə də öz şəhərləri Şəkini, görürsünüzmü, necə çox sevirlər. Lalə öz məktubunda düz yazır ki, şəhərdə təzə şeylər çoxdur. Bunları sayıb qurtarmaq olmaz. Burada çoxlu kitabxana, pedaqoji məktəb, mədəniyyət evi, kino-teatr vardır. Şəhər son illər çox dəyişib. Daha böyük, daha gözəl olub. Mən Bakıya qayıtmaq istəyirdim. Ancaq balaca dostlarım: Mehriban, Nazim, lalə və başqaları məni gəlməyə qoymadılar. Dedilər ki, sənə Şəki paxlavası yedirtməmiş, Şəki plovuna qonaq etməmiş heç yerə



buraxan deyilik. Odur ki, hələ bir neçə gün yenə Şəkidə qalacağam.

Hələlik!

Sizin Cırtdan.

## ALTINCI SÖHBƏT

***Əlincə qalası***

Culfa rayonundan Xanoğlan kəndinə gəlib çatdım. Kənd Soveti sədrindən Əlincə qalasına qalxmaq üçün bələdçi istədim. Sədr narahat idi, mənə altdan yuxarı baxıb çiyinlərini çəkdi: "Bələdçi hardan tapım". Sonra bir də diqqətlə mənə baxdı, əlavə etdi:

– Yaxşı, gözlə görüm, kimi tapıram?!

Bələdçim Gülman adlı cavan bir oğlan idi. Məni görən kimi əlimi sıxdı:

– Xoş gördük, Cırtdan, – dedi, – nə yaxşı eləmisən, Əlincə qalasına gəlmisən. De görüm, yorulmayacaqsan ki?!

– Eh, bu nədir ki?! Göyün yeddi qatına qalxaram.

– Nə deyirəm, təki yorulmayasan.

Kənd yolu yuxarı, qalanin ətəklərindən başlayan cığıra qədər uzanırdı. Həm ensiz, dar, həm də çox dik olduğundan çətinliklə çıxırdım. Cığırdan sonra daşları uçulmuş evlər, hörgüsü olan bulaq gördüm. Bulağın suyu qurumuşdu. Cığır indi irili-xırdalı daşların arasından yuxarı qalxırdı. Qarşıda böyük bir daş vardı. Orda dayanıb nəfəsimi dərdim:

– Bu daşı itələsəm, nə olar, diyirlənər?!

– Sən onu tərpədə bilməzsən, heç kəs tərpədə bilməz. Əgər kimsə tərpətsə, düz diyirlənib kəndə çıxar.

Qalanın sağ və sol tərəfindən iki divar kimi möhtəşəm qaya ucalırdı. Elə bil bu qaya insan əli ilə hörülmüşdü. Elə düz, elə hamar səthi vardı ki... Cığırın ətrafında saysız-hesabsız daşların üstünü mamır tutmuşdu. Çoxdan yağış yağmadığı üçün mamırlar

qapqara qaralmışdı. İri bir daş tən ortasından bölünmüşdü, sanki onu ildırım vurmuşdu.

Qalanın zirvəsinə qalxmaq ilk baxışda mənə necə asan gəlirdi? İlk baxışda! Amma necə çətin olduğunu indi bildim. Bunu Gülmandan gizlətmək istədim. Hər dəfə müxtəlif şeyləri bəhanə gətirib dayanırdım. Gülman da suallarıma həvəslə cavab verir, özü də tez-tez dayanır:

– Yorulmuşam! – deyirdi.

Hündür bir yerdə yenə dayanmağa məcbur oldum, gördüm ki, nəfəsim təntiyir. Geriyə – kəndə baxdım. Kəndin evləri, ağacları, yolları, çaylağın üstündəki biçənək yerləri aydınca görünürdü.

– Nə gözəldir! – vəcdlə dilləndim.

Yol elə dik olmuşdu ki, on addım getməmiş nəfəsim daralırdı. Dovşanalması kollarının nazik budaqlarından tuturdum. Ən hündür bir dikdə uçulmuş, dağılmış bir hasar yeri vardı. Qalanın sağ tərəfindəki qayanın üstünə çatdıqda gözümün qaraldığını duydum. Cəld iri bir daşın üstünə əyildim, asta-asta əyləşdim. Qayanın sinəsi qabarırdı, sanki böyük mərmər parçasını gətirib qoymuşdular. Dincimi aldıqdan sonra yoluma davam edəndə Gülman dedi:

– Tələsmə, Cırtdan. Onsuz da çatmışıq. Əlini də mənə ver! Bilirəm ki, qoçaq oğlansan, utanma, ver əlini...

Cəld əlimi ona uzatdım. Çünki zirvəyə qalxan dik həm də sürüşkən idi, yıxıla bilərdim. Gülman buna görə qabaqcadan tədbir görmüşdü. Bu dikdən ehtiyatla, tələsmədən keçirdik. Bir neçə dəfə ayağım büdrədi, Gülman məni yıxılmağa qoymadı.

– Qorxma, bərk dur, hə, indi keç...

Kərpic hörgülərin yanına çatanda o, əllərimi buraxdı. Hörgülərə baxırdım. Qədimdə burada böyük darvaza varmış! Yerində kərpic hörgülər qalmışdır. Bir azdan sonra zirvə qurtardı və qarşımızda geniş bir sahə açıldı. İlk baxışda bura kəndə bənzədi, uçmuş, dağılmış, adamları getmiş, xaraba bir kəndə. Uçuq evlərə baxdım, kədərli idi. Balaca göllər də vardı. Necə olub, təbiidirmi, yoxsa insanlar özləri yaradıblar?! 500 il bundan



qabaq qalada həyat olmuşdur! Özü də necə həyat?! Bu qalaya neçə böyük ordu hücum edib. Heç biri yaxın da gələ bilməyib. Bu zirvəyə qalxmaq onlar üçün qeyri-mümkün olmuşdur. Çünki bu qalada elə bu qala kimi möhkəm, iradəli, qətiyyətli adamlar yaşamışlar. At saxlanan tövlələrin yerləri indi də durur. Bir az o yandakı qayanın lap uca zirvəsində kərpicdən hörülmə bir bina var! Bu bina qalada ən hündür, ən uca bir yerdir! Onun adına Şahtaxtı deyitlər.

– Cırtdan, ora bax!

Gülman mənə cıdır kimi geniş bir meydanı göstərir. Yəqin bu yerdə at çapır, yarış keçirirlərmiş. Buludlar lap yaxındadır. Sanki əlimi bir az yuxarı qaldırsam, onları tuta bilərəm. Elə hey uçulmuş evlərə, hörgülərə, qayaların arasında gömgöy göyərən göllərər baxır, vaxtilə bu yerdə yaşayan insanları – mərd babalarımızı gözlərim qarşısında canlandırıram. Yüksək zirvədə, buludların yanında kiçicik şəhər salmaq, böyük bir ordunun önünü kəsə bilmək hünərdir, igidlikdir! Mən indi onların şahidi oldum.

Bu hündür yerə – Əlincə qalasına gəlməkdə mən sanki uzaq bir dövrə gəlib düşdüm, qədim insanları yenidən gördüm. Qalanı dolanır, yerə-göyə baxır, nədənsə geriyə qayıtmaq istəmirdim. Gülman da məni tələsdirmirdi. Deyirdi:

– Cırtdan, burda elə qoçaq adamlar yaşayıblar ki, onların işi heç zaman unudulmayacaq!

Mən inanıram. Yaxşı insanlar, qəhrəman və igid insanlar heç zaman unudulmurlar!

## YEDDİNCİ SÖHBƏT

### *Şirəli babanın yanında*

1970-ci ildə səhər tezdən Lənkərana çatanda gəzə-gəzə gəlib bir nömrəli orta məktəbi tapdım. Məktəbin qarşısında avtobus dayanmışdı. Maşına minən uşaqlar məni görən kimi sevinclə qışqırdılar:

– Cırtdan gəldi, Cırtdan gəldi...

Uşaqlar Lerikə – Şirəli babanın yanına gedirdilər. Nə yaxşı! Axı mən də Şirəli babanı görmək istəyirdim. Sevinib maşına mindim. Birdən yadıma düşdü ki, mən Lənkəranı görməmişəm. Bunu uşaqlara bildirəndə – bu dəqiqə sənə şəhəri göstərərik, – deyə sevinclə dilləndilər. Sürücü maşını Lənkəranın mərkəzi ilə sürməyə başladı.

Qarşıda geniş bir meydan açıldı. Bu meydanın başında dahi rəhbərimiz V. İ. Leninin heykəli ucalırdı. Maşın 26 komissar küçəsinə tərəf döndü. Bu küçədə ikimərtəbəli, şüşəli, təzə univermaq, mehmanxana, Hüseyn Ərəblinski adına mədəniyyət evi, kiçik bağ və mextəlif binalar vardı. Uşaqlar mənə çay fabriklərini, balıq, meyvə-tərəvəz, konserv zavodlarını. V. İ. Lenin adına parkı, ölkəşünaslıq muzeyini göstərdilər. Sonra xəbər verdilər ki, Lənkəranda mikrorayon salınmışdır. Burada yeni evlər tikilmişdir. Subtropik texnikumu və onun yataqxanası da mikrorayondadır. Axı, Lənkəranda, Astarada çoxlu çay, limon, mandarin sovxozu vardır. Maşın şəhərin yaxımlığındakı gül sovxozuna gələndə maşından düşdüm. O biri uşaqlar da dalımca gəldilər. Sağda da, solda da bağlar idi, elə gözəl bağlar ki, baxdıqca baxmaq istəyirdin. Hər tərəf gül-kiçək, bir-birindən qəşəng, bir-birindən füsunkar... Ağ, qırmızı, sarı rəngli qərənfillər dərdim. O tərəfdə qızılgüllər qızarırdı. Kimsə – quşlara baxın, – deyə qışqırdı. Göyə baxdım. Bir dəstə quş asta-asta, nizamla uçurdu. Kimsə quşlara baxa-baxa dedi:

– Qoruğa uçurlar.

Mən Qızılağac qoruğu ilə maraqlandım. Axı, bu qoruq da Lənkərandadır. Uşaqlara dedim:

– Gəlin, indi ora gedək!

Hamısı mənimlə razılaşdı: – Gedək!

İliç limanına gələndə bu qəsəbənin necə böyüdüyünü, gözəlləşdiyini gördükdə sevindim. Buradan Sarı adasında yerləşən Nərimanabad adlı təzə qəsəbəyə yol salınmışdır. Maşın bu qəsəbədən Qızılağac dövlət qoruğuna tərəf yol aldı. Qoruq çox böyük və genişdir. Onu başdan-başa gəzmək üçün bir ay lazımdır.



Payızda çoxlu quş gəlir. Qoruqda durna, ördək, qaşqaldaq, qağayı, soltantoyuğu, qaz, vağ və sair quşlar yaşayır.

Maşın lerikə tərəf gedəndə pəncərədən gözəl-gözəl mənzərələrə tamaşa edirdim. Uşaqlar mahnı oxuyurdular. Dağlar, meşələr, çaylar bir-birini əvəz edirdi. Səkkiz il bundan qabaq lerikdə olmuşdum. Birdən uzaqda, dağların ətəklərində böyük bir qəsəbə gördüm. Nə qədər yeni, hündür, ağ bina ucalırdı. Biri məktəb, biri xəstəxana, biri klub... Pillələr, heykəllər qəsəbəni bəzəyirdi. Səkkiz ildə Lerik çox dəyişilmişdi. Mədəni, yaraşıqlı, gözəl bir qəsəbə olmuşdu.

Mən Şirəli babanı görməyə tələsirdim. Şirəli baba uca dağların arxasında yerləşən Barzavu adlı bir kənddə yaşayırdı. Maşın ikimərtəbəli, şüşəbəndli bir binanın yanında dayananda, bizi Şirəli babanın balaca nəticələri Güldəstə, Məlik və Xanverdi qarşıladılar. Uzun şüşəbəndə qalxanda, əynində kostyum, arıq, saqqallı Şirəli baba yan otaqdan çıxıb gəldi.

– Xoş gördük, balalarım! – dedi, yaxınlaşıb hamımızla görüşdü.

Şirəli Müslümovu bütün dünya tanıyır. O, 1805-ci ildə anadan olmuşdur. O vaxt, yəni 1970-ci ildə onun 165 yaşı vardı. Şirəli babanın sinəsi nağıllarla, dastanlarla, söhbətlərlə, şerlərlə doludur. Uşaqlar sualı sual dalınca yağdırırdılar. O, təmkinlə, tələsmədən, sakit-sakit cavab verir, bəxtiyar uşaqlara mehribanlıqla baxır, inqilabdan əvvəlki günləri xatırlayırdı. O zaman xalqın güzəranı çətin və ağır idi. Yarıac, yarıçılpaq uşaqlar məktəbdə oxumurdular. Şirəli baba bizə bu barədə danışdı.

– Mənim xoşbəxt balalarım, – deyə bizi bir-bir bağrına basdı. Mən yaxınlaşıb Şırəli babanın döşündəki ordenin yanına oktyabryat nişanını taxdım. Pionerlər onun boynuna qalstuk bağladılar. Qoca hamıya fərəhlə, iftixarla, məhəbbətlə baxır, gülümsünürdü. Ondan ayrılanda, avtobusa doluşanda Şirəli baba eyvanda dayanıb bizim arxamızca baxırdı. Maşın getdikcə hey əl eləyirdi.

İndi Şirəli baba aramızda olmasa da, mən onu heç zaman unuda bilmirəm. Hər yerdə onun mənalı həyatından danışıram.

## SƏKKİZİNCİ SÖHBƏT

### *Arpaçayı boyunca*

Iliç rayonundan redaksiyamıza, mənim adıma bir məktub gəlmişdi. Məktubu alan kimi açdım. İçindən bir neçə şəkil çıxdı. Şəkillərin birində böyük bir yük maşını təsvir olunmuşdu. Altında yazılmışdı: "Atamın maşını". İkinci şəkildə isə böyük bir dərə, bu dərənin içində nəhəng tikinti görünürdü. Nəhayət, üçüncü şıkildə ancaq çay təsviri vardı. Altında yazılmışdı: "Arpaçay". Bu şəkilləri çəkən yeddiyaşlı Əli adında bir oğlan idi. Bağçaya gedirdi, böyük bacısı onun adından mənə yazdığı məktubda xahiş edirdi ki, bu şəkillərin jurnalda dərc olunmasına kömək edim. Dərhal onları redaktora və redaksiyanın əməkdaşlarına göstərdim. Şəkilləri dərc etməyi qərara aldıq. Redaktor mənə dedi:

– Gərək Əli ilə tanış olasan! Hazırlaş!

Həmin axşam İliç rayonuna yola düşdüm. Səhəri ora çatdım. Villis maşınında tikintiyə getdim. Gümüşlü dərəsinə yaxınlaşanda Arpaçayı gördüm. Uca dağların arası ilə, geniş çaylaq boyunca axan bu çayı seyr edirdim. Yuxarılara qalxdıqca mənzərələr dəyişirdi. Birdən maşın dayandı. Irəliyə heç kəsi buraxmırdılar. Səbəbini bilmək istəyirdim ki, birdən elə gurultu qopdu, qulaqlarımız tutuldu. Yaman qorxdum.

– Nə olub?! – deyə həyəcanla bizdən əvvəl dayanmış maşının sürücüsündən xəbər aldım.

– Heç nə. Adi şeydir burda. Dağı partladırlar. Təzə yol çəkirlər. İndi hamını buraxacaqlar.

Həqiqətən maşınlar bir-bir hərəkətə gəldi. Qəsəbədə çoxlu ağ bina vardı. əvvəlcə bağçaya dəymək istədim. Maşın bağçanın yanında dayandı. Düşdüm. Amma Əlini görə bilmədim. Çünki uşaqların yatan vaxtı idi. Tərbiyəçi pıçıltı ilə dedi ki, onları yuxudan oyatmaq olmaz, bir azdan gəlin, onda Əli oyanar, söhbət edərsiniz.

Tikinti elə böyük, elə əzəmətli idi ki, hər tərəfdə maşınlar, qurğular, kranlar, buruqlar görünürdü. Arpaçayın qabağı kəsilir, dərədə böyük bir bənd qurulurdu. Bəndin özülünü su sızmasın deyə sementləyirdilər. Baş mexanik müavini bələdçilik etməyi öhdəsinə götürdü, bizə sementləmə aparan dəzgahları göstərdi:



– Özülün möhkəm olması əsas şərtdir. Ona görə bu dəzgahlar vasitəsilə bəndin özülünü möhkəmlədirlər. Burda böyük göl yaranacaq. Sonra kanallar vasitəsilə su çöllərə, tarlalara axacaq, bura həm də gözəl turist bazası olacaq.

Bu zaman iri BelAZ maşını gəlib yanımızda qum-çınqıl boşaltdı. Baş mexanikin müavini bizi sürücü ilə tanış etdi.

– Cırtdan, bu yoldaş Nəcəfalıdır. Tikintinin ən qabaqcıl sürücüsüdür.

– Siz Əlinin atasısınız?!

Nəcəfalı təəccüblə mənə baxdı:

– Məni hardan tanıdınız?!

Redaksiyadan gəldiyimi biləndə lap heyrətləndi.

– Nəcəfalı dayı, oğlunuz bizim redaksiyaya gözəl şəkillər göndərib.

– İndi başa düşdüm. Əlinin şəkil çəkməyə həvəsi çoxdur. Gecə-gündüz bilmir, elə çəkir, çəkir...

Onun maşınında çınqıl karxanasına getdim. Doğrudan böyük maşın idi. Sürücünün kabinəsi bapbalaca otaq kimi idi. Təkcə sürücü üçün yer vardı. Mən onun böyründə dayanmışdım. Karxana Dəvəölən deyilən yerdə, Arpaçayın kənarında idi, iri buldozer işləyir, gili, çınqılı götürüb BelAZ-a doldururdu. 27 tonluq bu maşın yollarda quş kimi uçurdu. Dağlardan yeraltı tunellər çəkilirdi. Hər tərəfdə iş qaynayırdı.

Bağçaya qayıdanda yenə Əlini görə bilmədim. Tərbiyəçi başını bulayıb dedi:

– Sizi çox gözlədik.

– Əlini harda tapa bilərəm?!

– Əlbəttə, evdə. Anası gəlib aparıb.

Soruşub Əligilin evini tapdım. Mehriban bir qadından Əlini soruşanda, o adını eşidib başını qapıdan çölə çıxartdı. Məni görüb irəli gəldi. Atası kimi heyrətlə baxırdı:

– Siz kimsiniz?!

– Mən Cırtdanam.

– A... bacımın məktub yazdığı Cırtdan?!
– Bəli.
– Şəkillərimi almısınız?!
– Almışam, redaktora göstərmişəm.
– Onları dərc edəcəksiniz?!
– Bəli, dərc etmək fikrimiz var.

Əli yaraşıqlı, çil-çil, göygöz bir oğlan idi, tez-tez danışırdı. görünür, səbirsiz idi. Bu zaman atası Nəcəfalı da gəlib çıxdı. Məni görəndə çox sevindi. Bərk yorulmuşdu. Yuyunub qayıtdı. Mən getmək üçün ayağa qalxanda qoymadı:

– Otur. Otur, heç olmasa bir stəkan çay iç, – dedi.

Əli isə bizə sevinc içində özünün yeni şəkillərini göstərirdi. Bu şəkillər də tikintiyə və dağlara həsr olunmuşdu. Pəncərədən çölə baxdım. Hər tərəfdə dağlar, dərə və bu dərədki nəhəng tikinti görünürdü. Əli gözü qarşısında nə görürdüsə, onu da çəkirdi. Əlbəttə, bu yaxşıdır.

Arpaçaydan yazdığım bu material Əlinin şəkilləri ilə birlikdə jurnalda dərc olundu.

***

...Redaktor mənə tapşırdı ki, gedib bir-iki ay istirahət edim. Mən də qaqraya getdim. Orda dəniz sahilində bir ay yaxşıca dincəldim. İndi qayıdıb gəlmişəm. Yeni səfərlərə hazırlaşıram. Qarşıda nə qədər yeni görüşlər, yeni insanlar var.

Mən yenə yazacağam, bilirsiniz hara gedəcəyəm, qoy gizlicə sizə deyim, Baykala, Amura, orda təzə dəmir yolu çəkilir, ora! Gələcək yeni görüşlərə qədər, əziz dostlarım!



## MÜNDƏRİCAT

**Ön söz ........ 3**

**Uşaq şerləri və poemalar ........ 15**

"Alpinistlər" kitabından
Şerlər ........ 16
"Qızımın sualları" kitabından
Şerlər ........ 38
Poemalar ........ 71
"Meşədə səs" kitabından
Şerlər ........ 101
"Kəpənək gözəlliyi" kitabından
Şerlər ........ 122
Şən şerlər ........ 146
Müxtəlif şerlər ........ 184
Sevirik təbiəti ........ 207
"Şən şerlər" kitabından
Şerlər ........ 225
"Yağış yağır dənizə" kitabından
Şerlər ........ 240
Eyni sözlər, bəs mənası? ........ 267
Tapmacalar ........ 269
Oxu, öyrən, gəz tanı doğma Azərbaycanı ........ 273
Sevirsən sən şerlər, mənalı, şən şerlər ........ 295
Meşə yamyaşıl bir ev, Bu evdə qal, onu sev! ........ 313
Səhər axşam çağları oxu bu nağılları ........ 331
Poemalar ........ 353

**Uşaqlar və yeniyetmələr üçün nəsr əsərləri ........ 484**

"Gecə qapı döyülür" kitabından
Povest ........ 185
Hekayə və nağıllar ........ 567

Əfsanələr ........................................................................ 591
"Dalğalar" kitabından
Hekayələr ........................................................................ 619
Əfsanələr ........................................................................ 656
Nağıllar ........................................................................ 667
Sənədli povest ........................................................................ 686

TOFİQ MAHMUD
"Seçilmiş əsərləri"
Birinci cild
BAKI-2013
Yığılmağa verilmiş: 03.04.2012.
Çapa imzalanmış: 10.09.2012. Nəşrin formatı: 60x90 1/16.
Fiziki çap vərəqi: 44,5. Sifariş: 138. Tirajı: 500 əd.
Müqavilə qiymәti ilə.
«Tuna» nəşriyyat və mətbəə şirkəti
Bakı ş. 1-ci Köndələn küç. 19

